Maykl Aksvörti

# NADİR ŞAH

ŞƏRQ - QƏRB
BAKI 2018

**Michael Axworthy. The Sword of Persia. Nader Shah**
**Maykl Aksvörti. Nadir Şah**
Bakı, "Şərq-Qərb", 2018, 400 səh.

ISBN 978-9952-34-318-2

*Bu kitab AMEA-nın Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının 26 yanvar 2018-ci il tarixli iclasının qərarı ilə nəşr edilir.*

İdeyanın və ön sözün müəllifi, Azərbaycan nəşrinin elmi redaktoru: *Akademik* **Ramiz Mehdiyev**

Tərcüməçilər: **Aytən Süleymanova** (I-IV fəsillər)
**Əsmər Həbibullayeva** (V-VII fəsillər)
**Nazlı İbişova** (VIII-X fəsillər)

Tarixi məlumatlar, qeydlər və şərhlər: **Cahangir Hüseynov,**
*hüquq üzrə fəlsəfə doktoru*
**Eldar Əmirov,**
*siyasi elmlər üzrə fəlsəfə doktoru,*
*ADU-nun Rusiyaşünaslıq Elmi-Tədqiqat Mərkəzinin baş elmi işçisi*

Bu kitab Azərbaycan oxucusunun dövrümüzün tanınmış ingilis şərqşünası Maykl Aksvörtinin "İranın qılıncı. Nadir şah: Tayfa döyüşçüsündən müstəbid fatehədək" adlı tədqiqatı ilə ilk tanışlığıdır. Qərbdə işıq üzü gördüyü vaxtdan etibarən geniş oxucu marağına səbəb olan və akademik dairələrin diqqətini özünə cəlb edən bu əsərin Azərbaycan dilində nəşri haqlı olaraq siyasi tariximizin parlaq simalarından biri hesab edilən Nadir şah Əfşarın (1736–1747) dövlətçilik fəaliyyətinə, həmçinin şəxsiyyətinə dair ana dilimizdə mövcud olan elmi mənbə qıtlığının aradan qaldırılması istiqamətində irəliyə doğru atılmış bir addım kimi qiymətləndirilə bilər. Müəllifin hadisələrə yanaşmada rəhbər tutduğu analitik üslub, rəvan çatdırılma tərzi, hərtərəfli müqayisə metodu əsərin elmi dəyərini səciyyələndirən başlıca amillərdir. Maraqlı tarixi məlumatların, təsvir və sxemlərin əks olunduğu bu kitabın Azərbaycan nəşri akademik Ramiz Mehdiyevin geniş ön sözü ilə, həmçinin müvafiq şərh və qeydlərlə müşayiət edilir.

ŞƏRQ - QƏRB

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

© "Şərq-Qərb", 2018

# AZƏRBAYCAN NƏŞRİNİN ELMİ REDAKTORUNDAN

## I
## QƏRB TARİXŞÜNASLIĞINDA NADİR ŞAH MÖVZUSU (TARİXƏ BİR NƏZƏR)

*"Nadir şah və onun dövrü haqqındakı məlumatların kifayət qədər öyrənildiyini deyə bilmək üçün hələ çox tədqiqatlar aparılmalıdır. Moskvanın, Leninqradın (Sankt-Peterburqun), İstanbulun, Vyananın və Parisin arxiv və kitabxanalarında tədqiqinə ehtiyac duyulan çox sayda sənəd var ki, onların araşdırılması ağır zəhmət tələb edir. Materialların bir hissəsi isə çox güman ki, Tehranda və İranın digər şəhərlərində saxlanılır. İkincisi, əlimizdə İranda fəaliyyət göstərmiş holland Ost-Hind şirkətinin nümayəndələrinə məxsus qeydlər mövcuddur. Haaqada saxlanılan bu materiallar holland Ost-Hind şirkətinin fəaliyyəti haqqında qiymətli məlumatları ehtiva etməkdədir. Mənə məlum olduğu qədər Nadirin tarixinin öyrənilməsi işində holland mənbələrindən ümumiyyətlə istifadə edilməyib. Ən nəhayət, həmin dövrün ayrı-ayrı Avropa qəzetlərini də zərrə-zərrə toplaya bilərik.*

*...Britaniya Ost-Hind şirkətinin Hindistandakı ofisində Nadir şah dövrünə aid böyük həcmdə məlumat saxlanılmaqdadır. Onların böyük əksəriyyətinə hər hansı başqa yerdə rast gəlmək qeyri-mümkündür, üstəlik, həmin materialların çox hissəsi indiyədək işıq üzü görməyib".*

***L.Lokkart***
***("Nadir şah" kitabından)***

Şərq və İslam tarixində barmaqla sayılacaq qədər az hökmdar var ki, onun irsi əsrlər keçməsinə baxmayaraq, Qərb tarixşünaslığının və ictimai-siyasi fikrinin ardıcıl və böyük diqqəti ilə əhatə olunsun. Əgər həmin parlaq şəxsiyyətlərin adlarını sadalamaq niyyətinə düşsək, heç şübhəsiz ki, Azərbaycan xalqının böyük oğlu, Şərqin sonuncu fatehi, görkəmli dövlət xadimi, Əfşarlar imperiyasının banisi Nadir şah Əfşar (1688-1747) Atilla, Çingiz xan, Əmir Teymur, Şah İsmayıl Xətai, Sultan Süleyman Qanuni ilə birlikdə ilk xatırlananlardan olacaq. Nadir şahı bu mənada fərqləndirən qürurverici cəhət həm də ondan ibarətdir ki, Avropada böyük fatehin hərbi-siyasi fəaliyyətinə dair kitab və müxtəlif məzmunlu yazılar hələ onun öz sağlığında işıq üzü görməyə başlamışdı. Qərbin Şərq fatehlərinə münasibətdə bu qədər böyük diqqət və marağına nadir hallarda təsadüf edilir. Ötən əsrdə tanınmış ingilis şərqşünası və tarixçisi L.Lokkart (1890-1975) yazırdı ki, Avropada Nadir şah barəsində ilk müzakirələrə 1731-ci ilə, yəni mahir sərkərdənin Səfəvi ordusunun komandanı qismində Azərbaycan və İran torpaqlarını işğaldan qurtarmaq, vətəninin bütünlüyünü təmin etmək naminə Osmanlı dövləti, əfqan tayfaları, həmçinin Rusiya ilə apardığı taleyüklü, ağır hərbi-diplomatik mübarizənin ən qızğın çağında rast gəlirik[1].

Həmin il aparıcı ingilis qəzetlərinin birində Nadir şahla bağlı dərc olunmuş yazı qısa müddətdə bütün qitədə əks-səda yaratmışdı. Köhnə qitədə Nadirin şəxsiyyətinə gündən-günə artan marağı ödəmək üçün ilk addımı atan isə ingilis müəllifi C.Frazer oldu. Belə ki, 1742-ci ildə Lon-

[1] Л.Локкарт. Надир шах. Перевод с английского: Н.Р.Гезаловой. Баку, 2004, стр. 380-381.

donda müəllifin Nadirin Səfəvi ordusunun baş komandanı vəzifəsindən qüdrətli Əfşarlar dövlətinin banisi mərtəbəsinə qədər qət etdiyi gərgin mübarizə və təhlükələrlə, parlaq hərbi qələbələrlə dolu ömür yolundan bəhs edən kitabı işıq üzü görmüşdü[1]. Kitab nəşr olunduğu andan etibarən uzun illər Avropa tarixçiləri və ictimaiyyəti üçün Nadir şahın tərcümeyi-halına dair başlıca elmi mənbə rolunu oynamağa davam etmiş, Qərbin akademik həyatında geniş istifadə olunmuşdur.

Doğrudur, sözügedən nəşrdən 2 il öncə Amsterdamda naməlum müəllifin "İranlı Təhmasibqulu xan Sufinin tarixi" adlı iki cildlik bir əsəri də nəşr edilmişdi və bu kitab qısa müddətdə ingilis, ispan və italyan dillərinə tərcümə olunaraq məşhurluq qazanmışdır[2]. Lakin sözügedən əsərin kimə məxsus olduğu aydınlaşmadığına görə birincilik C.Frazerdə qalmışdır. 1743-cü ildə Parisdə Andre de Klaustrun işıq üzü görən "Təhmasibqulu (Nadir) xanın tarixi" kitabı Nadir şah mövzusunun hələ böyük fatehin öz sağlığında Avropa ictimai-siyasi fikrinin gündəmindən düşməsinə imkan vermir[3]. Böyük Nadirin şəxsiyyəti və siyasi mirası mövzusu Avropada növbəti dəfə 1753-cü ildə məşhur ingilis səyyahı və taciri Conas Hanveyin (1712-1786) Londonda 4 cilddə çapdan çıxan "Xəzər hövzəsindəki Britaniya ticarətinin tarixi oçerki" sayəsində diqqət mərkəzinə gəldi. Müəllif əsərin III cildini demək olar ki, bütünlüklə Nadir şahın hakimiyyətə gəlməsinə, onun bu yolda apardığı mübarizənin işıqlandırılmasına həsr etmiş, topladığı maraqlı faktları və şəxsi müşahidələrini oxunaqlı bir üslubda ingilis ictimaiyyətinin mühakiməsinə təqdim et-

[1] J.Frazer. History of Nadir Shah. London, 1742.
[2] Л.Локкарт. Надир шах, стр. 383.
[3] Yenə orada, səh. 385.

mişdi[1]. C.Hanveyin kitabının cəlbediciliyini artıran, onu qiymətli ilkin məxəzə çevirən başlıca amil təbii ki, ingilis tacirinin Nadir şahın Astrabaddakı düşərgəsində böyük fatehin fəaliyyətini ötəri də olsa, canlı şəkildə müşahidə etməsi ilə bağlı idi. Onu da qeyd etməyi lazım bilirəm ki, adıçəkilən əsər tarixçilərimiz üçün təkcə Nadir şah dövrünün tədqiqi baxımından deyil, ümumilikdə XVIII əsrdə, Azərbaycanın, həmçinin Xəzər hövzəsində cərəyan etmiş ictimai-siyasi, xüsusilə də iqtisadi proseslərin müfəssəl şəkildə öyrənilməsi üçün əhəmiyyətlidir. Təsadüfi deyil ki, Nadir şah haqqındakı mövcud olan ilkin mənbələri təhlil edərkən L.Lokkart C.Hanveyin əsərini bütün çatışmazlıqlara, yol verilmiş xətalara baxmayaraq, böyük tarixi dəyərə malik qaynaq kimi səciyyələndirmişdir[2].

"Şərqin Napoleonu" ilə şəxsən ünsiyyətdə olmaq, onu müalicə etmək və hərbi-siyasi fəaliyyətini yaxından izləmək imkanı qazanmış azsaylı avropalılardan biri də böyük fatehin şəxsi təbibi, dövrünün tanınmış fransız həkimi Pyer Luis Bazin (1712-1774) olmuşdur. Onun öz görkəmli müasiri haqqında qələmə aldığı qeydlər tarixçilər üçün bu gün də böyük maraq kəsb edən mənbələrdən hesab edilir. Fransaya, Pyer Rocerə ünvanladığı iki məktubunun birincisində P.Bazin Nadirin həyat yoluna nəzər salır, xüsusilə onun ölümünə qədər olan son 6 ayın gərgin siyasi mühitini ustalıqla, xırda təfərrüatlarına qədər canlandırmışdır. İkinci məktubda isə Nadirin ölümündən 1749-cu ilə qədər olan hadisələrdən söhbət açılır. 1751-ci ildə, yəni

---

[1] J.Hanway. An Historical Account of the British Trade of the Caspian Sea: with a Journal of Travels through Russia into Persia; and back again through Russia, Germany and Holland. To which are added, The Revolutions of Persia during the present century, with the particular history of usurper Nadir Kouli. (Four Volume) London, 1753.

[2] Л.Локкарт. Надир шах, стр. 377.

Nadirin qətlindən 4 il sonra qələmə alınmış bu namələr 1780-ci ildə Parisdə işıq üzü görmüşdür[1].

Təbii ki, Nadir şaha onun avropalı müasirləri tərəfindən göstərilən hədsiz diqqət Qərbin XVIII əsrin əvvələrində Şərqə istiqamətlənmiş müstəmləkəçilik siyasətinin tələbləri ilə bağlı olduğu qədər, bəlkə də ondan daha artıq dərəcədə bu böyük dövlət xadiminin dövrünün beynəlxalq münasibətlər sistemində tutduğu müstəsna mövqe ilə izah edilməlidir. Əfsus ki, Azərbaycan tarixinin dönüş nöqtəsi sayılan həmin həssas dövrün proseslərini lazımi qədər dərk etmək üçün farsdilli qaynaqlardan heç də az əhəmiyyətə malik olmayan XVIII əsr Qərb müəlliflərinin əsərləri hələ də ana dilimizə tərcümə edilməyib və onların adları belə bu günədək sıravi ölkə oxucusuna, bəlkə də tarixçilərimizin bir çoxuna məlum deyil. Müqayisə üçün deyim ki, qonşu İranda haqqında söz açdığımız mənbələr çoxdan fars dilinə tərcümə edilərək, nəşr olunmuşdur[2]. Mənbəşünaslarımız həmin əsərlərin artıq nadir kitablar sırasına daxil olan Avropa nəşrlərini tapmaqda çətinlik çəkirlərsə, heç olmasa fars dilindəki tərcümələrinə üz tutmalı, onların ölkəmizdə elmi dövriyyəyə fəal şəkildə cəlb edilməsinə çalışmalıdırlar. Nadir şahın ölümündən bizi 270 illik zaman məsafəsi ayırsa da, əcnəbi müəlliflərin, xüsusilə də Qərb şərqşünaslarının onun siyasi mirasına, apardığı müzəffər müharibələrə olan marağı əsla azalmamışdır. Avropa ölkələrində və ABŞ-da Nadir haqqında müxtəlif vaxtlarda işıq üzü görmüş çoxsaylı maraqlı kitab

---

[1] Yenə orada, səh. 377-378.

[2] Bax: J.Hanway. Zindegi-i Nadir şah (Nadir şahın həyatı). Tərcümə: İsmail Dövlət Şahi. Tehran, 1365(h.), Andre de Claustre. Histoire de Thamas Kouli Kan. Tərcümə: Məhəmməd Baqir Əmir Hani. Təbriz 1346(h.), S.J. Pere Bazin. Namehay-i Tabib-i Nadir şah (Nadir şahın həkiminin məktubları). Tərcümə: Əli Əsgər Həriri, Gilan, 1365(h.).

və məqalələr heç şübhəsiz ki, deyilənlərin ən tutarlı sübutudur[1].

Onu da qeyd etmək yerinə düşər ki, Nadir şah və Əfşarlar dövləti haqqında ətraflı məlumat və şərhlər təkcə mövzuya dair yazılmış tematik tədqiqatlarda deyil, həm də ümumən İran tarixinə dair qələmə alınmış əsərlərdə öz əksini tapmışdır. Con Malkolmun 2 cildlik "İranın qədim zamanlardan müasir dövrədək tarixi" (London, 1815), Marxam Klementsin "İran tarixinə ümumi bir nəzər" (London, 1874), Pol Renard Stüartın "İran şahlarının sikkələri. Səfəvilər, Əfqanlar, Əfşarlar, Zəndlər və Qacarlar" (London, 1887), Persi Sayksın "İran tarixi" (London, 1921) və s. bunun bariz nümunəsidir. Özündə Azərbaycan tarixinin müxtəlif mərhələlərinə, o cümlədən Nadir şah dövrünə dair qiymətli faktları ehtiva edən bu və digər mənbələrin ölkəmizə gətirilərək, sistemli elmi tədqiqata cəlb olunması mənbəşünaslarımız qarşısında əsas məqsədlərdən biri kimi qoyulmalıdır.

Nadir şah irsinin Qərb tarixçiləri tərəfindən ilk andan etibarən ciddi və davamlı şəkildə öyrənilməsinin nəticəsidir ki, bu böyük siyasət və hərb dühasına layiqli qiyməti avropalılar azərbaycanlılardan və iranlılardan çox-çox əvvəl, özü də obyektiv bir şəkildə verməyi bacarıblar:

"Nadir kimi fövqəladə insan hələ dünyaya gəlməyib. İskəndər, Marius, Hannibal, Yuli Sezar. Dünyanın heç bir

---

[1] H.J.Maynard. Nadir Shah. (The Stanhope Historical Essay for 1885), Oxford, 1885, Nadir Shah by Sir Mortimer Durand. London, 1908; L.Lockhart. Nadir Shah: A critical study based mainly upon contemporary sources, London, 1938; P.Avery. Nadir Shah and Afsharid Legacy. //The Cambridge History of Iran, Volume 7. Cambridge 1991; E. Tucker, Nadir Shah's Quest for Legitimacy in Post-Safavid Iran Hardcover, Publisher: University Press of Florida, 2006; həmin müəllif; Religion and Politics in the Era of Nadir Shah. Chicago, 1992 (nəşr olunmamış doktorluq dissertasiyası); Nadir Shah and the Jafari Madhhab Reconsidered // Iranian Studies vol.27, 1-4 (1994), pp.163-179 və digərləri.

adlı-sanlı sərdarı müharibələrdə Nadir kimi yüksək, mübariz ruhlu olmamışdır. O, öz qısa ömründə İranı Rum (Osmanlı imperiyası) səviyyəsinə çatdırdı. 11 ildən bir az artıq səltənətdə oldu. 61 yaşında gözünü dünyaya yumdu. 18 il müharibə apardı. Bütün vuruşlarda İran ordusuna şəxsən özü sərkərdə oldu"[1]. ***(Şarl Piklet – fransız tarixçisi);***

"Əgər Nadir şah olmasaydı, İranın indiki sərhədləri qalmazdı"[2]. ***(Vladimir Fyodoroviç Minorski – görkəmli rus şərqşünası);***

"Nadirin Napoleon Bonapartla müqayisəsi qaçılmazdır və o, həqiqətən də bu şəxsiyyətlə bir sıra ortaq cəhətlərə malik idi. Həmçinin Nadiri xüsusilə Şərq müəllifləri tez-tez Makedoniyalı İsgəndərlə müqayisə edirdilər. Belə bənzətmələr əbəs yerə deyil və tam ədalətlidir. Eyni zamanda, oxşar paralelləri onunla Əmir Teymur arasında da aparmaq mümkündür. Ölkəsinin sərhədlərini genişləndirdiyinə, öz təbəələrini daim maarifləndirməyə çalışmasına və mobil ordunun əhəmiyyətinə əmin olması xüsusiyyətinə görə Nadir gənc müasiri Böyük Fridrixlə də bir sıra ortaq cəhətlərə sahib idi"[3]. ***(Laurens Lokkart – tanınmış britaniyalı şərqşünas);***

Tanınmış iranlı tarixçi və mənbəşünas alim Ə.Nəvai isə Fransa imperatoru Napoleon Bonapartın (1804-1815) Fətəli şah Qacara (1797-1834) ünvanladığı məktubda Nadir şahın sərkərdəlik məharəti, şücaəti haqqında heyranlıqla söz açdığını qeyd etmişdir: "Nadir şah böyük cəngavər idi və bu cəhət onu böyük qüdrət sahibi etdi.

---

[1] T.Həsənzadə. XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri (Mehdi Bamdadın "Tarix-i-rical-i İran" əsəri əsasında). Bakı, 2014, səh. 46.

[2] Yenə orada, səh. 46-47.

[3] Л.Локкарт. Надир шах, стр. 317-318.

Ona qarşı təxribat edənlər, qonşuları üçün o, qorxunc idi. Düşmənlərinə qələbə çaldı”[1].

Tariximizə, ədəbiyyatımıza və mədəniyyətimizə dair aparıcı Şərq və Qərb dillərində qələmə alınmış ilkin mənbələr, müasir elmi araşdırmalar müqayisəli şəkildə öyrənilməli, onların məlumatları əsasında keçmişimizin qaranlıq, təhrif olunmuş səhifələrinə işıq tutulmalıdır. Sirr deyil ki, hər dəfə bu və ya digər görkəmli şəxsiyyətin mirası ətrafında obyektiv mənzərə yarada bilmək, ona dair ideoloji təsirlər nəticəsində illərlə formalaşmış yanlış stereotipləri qırmaq üçün təşəbbüs göstərdikdə eyni çətinliklərlə qarşılaşmalı oluruq. Bu problemlə həm peşəkar tarixçilər, həm də tariximizi oxuyub, düzgün anlamaq istəyən oxucuların eyni dərəcədə üzləşdikləri danılmaz bir həqiqətdir. Mövcud boşluğun intensiv və keyfiyyətli şəkildə doldurulması, problemin ildən-ilə, nəsildən-nəslə ötürülməməsi üçün tarixçilərimiz və mənbəşünaslarımız fəaliyyətlərini koordinasiya etməli, real nəticəyə hesablanan addımlar haqqında ciddi şəkildə düşünməlidirlər.

[1] T.Həsənzadə. XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri (Mehdi Bamdadın “Tarix-i-rical-i İran” əsəri əsasında), səh. 47.

# II
# NADİR ŞAH ƏFŞAR İRSİ MAYKL AKSVÖRTİ QƏLƏMİNDƏN

*"Materialları süzgəcdən keçirərkən mən, Nadirin həyatında olub-keçənləri dəqiqliklə canlandıra bilmək üçün bacardığımı etdim. Lakin məlumatlarda əksini tapmış və mənbələr vasitəsilə yalan, yaxud doğruluğunu aydınlaşdıra bilməyəcəyimiz müxtəlif hekayə və lətifələr var ki, onların səhihliyini təsdiq edə biləcək heç kim həyatda yoxdur. Mənbələrdə rastımıza çıxan təmsillər, Nadirin zamanında və o dövrə yaxın vaxtda yaşayanların onun haqqında hansı fikirdə olduqlarını anlamağa imkan verir. Bütün bunlara çox da dərinə getmədən, ötəri yanaşmaq olardı, lakin mən materialları oxuculara qabaqlayıcı xəbərdarlıqla ötürməyə üstünlük verdim ki, mühakiməni özləri yürütsünlər. Hər bir tarixi hekayənin öz dönüş nöqtəsi olur. Mən mənbələrdə əksini tapan məlumatların, o cümlədən 18-ci əsr müəlliflərinin əlyazmalarının tənqidi zamanı ehtiyatlı mövqe tutmağa üstünlük verdim. İran tarixində bu dövr müstəmləkəçilikdən əvvəlki mərhələ kimi xarakterizə olunur və ümumilikdə Orta Şərq tarixinə yanaşmamızı müəyyən edən mövcud çərçivələrin və konstruksiyaların çoxu uyğunsuz, qeyri-dəqiqdir. Mən ixtiyarımda olan və çoxları tərəfindən qeyri-dəqiq hesab edilən məlumatları belə yararsız sayıb, üzərindən keçməkdənsə, dəyərləndirməyə üstünlük verirəm".*

***Maykl Aksvörti***
***("İranın qılıncı. Nadir şah")***

Son illərdə Qərb şərqşünaslığında Nadir şahın siyasi mirasına dair qələmə alınmış tədqiqatlar arasında britaniyalı iranşünas alim Maykl Aksvörtinin "İranın qılıncı. Nadir şah: Tayfa döyüşçüsündən müstəbid fatehədək" kitabı həm elmi çəkisi, həm də populyarlığı nöqteyinəzərindən xüsusi yer tutur. Kitabın elmi dəyərini, tarixçilər arasında ona olan marağı şərtləndirən bir sıra amillər var ki, onların da ən mühümü müəllifin İran tarixi ilə peşəkar və sistemli şəkildə məşğul olan təcrübəli mütəxəssis olması ilə bağlıdır.

1962-ci il 26 sentyabr tarixində İngiltərənin Vokinq şəhərində dünyaya gələn M.Aksvörtinin İranla, bu ərazidə yaşayan xalqların qədim tarixi, mədəniyyəti və adət-ənənələri ilə yaxından tanışlığı gələcək tarixçinin məktəb illərindən başlanır. Belə ki, onun atası Böyük Britaniyanın aparıcı banklarından hesab edilən "Midland Bankın" Tehranda həyata keçirdiyi layihəyə rəhbərlik etdiyindən, Maykl tətillərinin əksər hissəsini atasının yanında, yəni İranda keçirirdi. 1978-ci ilin sentyabr ayında Məhəmməd Rza şah Pəhləviyə qarşı keçirilmiş və böyük zorakılıqlarla müşayiət olunan kütləvi nümayişdən sonra İranda fəaliyyət göstərən əksər əcnəbilər kimi M.Aksvörtinin atası da bu ölkəni tərk etmək məcburiyyətində qalır. İranla əlaqə və ünsiyyətin kəsilməsinə baxmayaraq, Kembric Universitetinin tarix fakültəsində ali təhsil alan M.Aksvörti İran xalqlarının qədim mədəniyyət və tarixi ilə yaxından maraqlanmağa davam edir, bu sahədə Tim Blanninq, Martin Qoldinq kimi tanınmış mütəxəssislərdən dərs alır. Ali təhsilini bitirdikdən sonra o, Britaniya Xarici İşlər və Britaniya Millətlər Birliyinin İşləri üzrə Nazirliyinin (Foreign and Commonwealth Office) İran bölməsində fəaliyyətə başlayır, 1998-2000-ci illərdə bu qurumun İran bölməsinə rəhbərlik edir.

2005-ci ilə qədər burada çalışan M.Aksvörti paralel olaraq akademik fəaliyyətini də davam etdirir. Əvvəlcə Durham Universiteti nəznindəki Yaxın Şərq və İslam tədqiqatları mərkəzində elmi axtarışlarla məşğul olan müəllif, 2005-ci ildən taleyini Britaniyanın məşhur Ekzeter Universiteti ilə bağlayır. 2008-2012-ci illərdə sözügedən universitetin İran araşdırmaları mərkəzində elmi araşdırmalarla məşğul olan M.Aksvörti sonradan həmin mərkəzin rəhbəri təyin edilir. Bu illər ərzində M.Aksvörti fəlsəfə doktoru elmi adını da almağa müvəffəq olur. İranşünas alim hal-hazırda Ekzeter Universitetində elmi-pedaqoji fəaliyyətini davam etdirməkdədir. Ərəb və İslam Tədqiqatları İnstitutunda dərs deyən, mütəmadi qaydada Britaniyanın və ABŞ-ın aparıcı qəzetlərində məqalə və şərhlərlə çıxış edən alim ölkəsində İran üzrə aparıcı ekspertlərdən biri hesab olunur.

Mübaliğəsiz deyə bilərik ki, M.Aksvörtinin bir-birinin ardınca işıq üzü görmüş dəyərli elmi tədqiqatları ona həm Avropada, həm də bütün dünyada böyük şöhrət gətirib. Müəllif ilk kitabını elmi ictimaiyyətin mühakiməsinə 2006-cı ildə vermişdir. Həmin il onun Londonda işıq üzü görən Nadir şaha həsr edilmiş "İranın qılıncı: Nadir şah. Tayfa döyüşçüsündən müstəbid fatehədək" ("The Sword of Persia. Nader Shah, from Tribal Warrior to Conquering Tyrant", London, 2006) monoqrafiyası oxunaqlığı, maraqlı təhlil tərzi ilə qısa müddətdə diqqəti cəlb etmişdi. Kitaba duyulan tələbat, naşirləri 2009-cu ildə onun ikinci nəşrini satışa çıxarmağa həvəsləndirir. 2007-ci ildə Londonda müəllifin İranın çoxəsrlik tarixindən bəhs edən "Təfəkkür imperiyası: İranın tarixi" adlı ikinci əsəri çapdan çıxır. 2008-ci ildə sözügedən kitab "İran: Təfəkkür imperiyası: Zərdüştdən müasir dövrə qədər olan tarix" adı altında

ikinci dəfə nəşr olunur ("İran: Empire the Mindi: A History from Zoroaster to the Present Day"). Böyük əks-səda yaradan və geniş müzakirələrə səbəb olan əsər ingilis dilində işıq üzü gördükdən dərhal sonra alman, italyan, ispan və çex dillərinə tərcümə edilir. Keçən dövr ərzində M.Aksvörti tez-tez İrana səyahət edir, elmi materiallar toplayır, tarix və ölkənin bu günü haqqında geniş məlumat bazası yaradırdı. Lakin 2012-ci ildə Mahmud Əhmədinejatın prezidentliyi dövründə Britaniya və İran arasında məlum nüvə proqramı səbəbindən diplomatik münasibətlərin kəskinləşməsi nəticəsində M.Aksvörtinin ölkəyə girişinə qadağa qoyulur.

Məhdudiyyətlərə baxmayaraq alim elmi axtarışlarına bir an belə olsa ara vermir və 2013-cü ildə onun hələlik sonuncu tədqiqatı hesab edilən "İnqilabi İran: İslam Respublikasının tarixi" (Revolutionary Iran: A History of the Islamic Republic. Oxford University Press, 2013) əsəri Oxsford Universitetinin nəşriyyatı tərəfindən çap edilir. Müəllifin bu əsəri də əvvəlkilər qədər maraqla qarşılanır və istər Avropada, istərsə də İranda ciddi əks-səda yaradır.

Sevindirici haldır ki, biz bu gün M.Aksvörtinin ona şöhrət gətirən ilk əsərini, Nadir şahın siyasi və hərbi irsindən bəhs edən qiymətli tədqiqat işini ana dilində, Azərbaycan oxucusunun ixtiyarına təqdim edirik. Hal-hazırda Qərbdə Nadir şah irsinin öyrənilməsində başlıca mənbələrdən hesab edilən "İranın qılıncı" heç şübhəsiz ki, Azərbaycan oxucusuna mövzuya geniş, analitik və soyuqqanlı şəkildə yanaşmağa imkan verəcək, xalqımızın böyük oğlunun şəxsiyyətinə bir də əcnəbi alimin gözü ilə baxmağa yardım edəcəkdir. Bir müqəddimə çərçivəsində əsərin bütün müsbət cəhətlərini sadalamaq, qüsur və xətalarını göstərmək təbii ki, mümkünsüzdür. Əslində, mənim belə

bir niyyətim də yoxdur. Hesab edirəm ki, istənilən elmi-tarixi, yaxud bədii əsərə ən yaxşı qiyməti oxucular və zaman verə bilər. Fikrimcə, M.Aksvörtinin "İranın qılıncı. Nadir şah" kitabının Azərbaycan nəşrinin gələcək taleyi ona veriləcək ən yaxşı, ən obyektiv qiymət olacaqdır. Ancaq bununla belə, əsərin Azərbaycan oxucusuna ilk dəfə təqdim edildiyini nəzərə alsaq, onunla bağlı müəyyən məsələlərə münasibət bildirmək zəruridir.

İlk növbədə ondan başlamaq lazımdır ki, müəllif kitabın yazılmasında istər farsdilli ilkin qaynaqlardan, istər Nadirin müasiri olmuş Qərb müəlliflərinin əsərlərindən, istərsə də müasir tarixşünaslığın nailiyyətlərindən geniş şəkildə istifadə etməyi bacarıb. M.Aksvörtinin Nadir şahın siyasi portretini yaratmaq üçün müraciət etdiyi mənbələrə göz gəzdirdikdə, onların həm dil, həm də zaman nöqteyi-nəzərindən nə qədər rəngarəng olduğunu görməmək qeyri-mümkündür. Əsəri vərəqlədikcə, tarixçinin Mirzə Məhəmməd Mehdi Astrabadi, Məhəmməd Kazım, Məhəmməd Möhsün, Əbülqasim Kəşmiri kimi klassik qaynaqların məlumatlarını ciddi təhlil süzgəcindən keçirərək, müasir dövrün E.Tuker, A.Lambton, V.Floor kimi tanınmış tədqiqatçılarının mülahizələrilə nə qədər uğurla qovuşdurduğunun şahidi olursan[1]. Tarixçinin kitabın ön sözündəki minnətdarlıq mahiyyəti daşıyan qeydlərindən də məlum olur ki, o, Nadir şah, həmçinin Əfşarlar dövrü ilə bağlı mənbələrin tədqiqində bir çox mütəxəssisin tövsiyə və yardımından geniş şəkildə bəhrələnib[2]. Etiraf et-

---

[1] M.Aksvörtinin istifadə etdiyi qaynaqlarla tanış olmaq üçün bax: Michael Axworthy. The Sword of Persia. Nader Shah, from Tribal Warrior to Conquering Tyrant. London, 2006, pp. 329-338.

[2] Bax: Michael Axworthy. The Sword of Persia. Nader Shah, from Tribal Warrior to Conquering Tyrant, pp. IX-X.

məliyik ki, Azərbaycan tarixşünaslığında eyni zamanda bir neçə dildən sərbəst şəkildə istifadə edə bilən, apardığı elmi axtarışları peşəkar həmkarları ilə qarşılıqlı əlaqə şəklində həyata keçirən tədqiqatçıların sayı olduqca məhduddur. M.Aksörtinin əsəri bu mənada, yəni müasir elmin tələb etdiyi iş üslubunun mənimsənilməsi, öyrənilməsi baxımından da tədqiqatçılarımız üçün yaxşı örnək, gözəl bir nümunədir.

Haqqında danışdığımız kitabın məziyyətləri sırasında, artıq vurğuladığımız kimi, müəllifin seçdiyi rəvan çatdırılma üslubu, tarixi faktların oxunaqlı və dramatik tərzdə təqdimatı xüsusi yer tutur. O dövrün mürəkkəb, qarışıq hadisələri, çoxsaylı müharibə və dağıntıları, M.Aksvörti tərəfindən ardıcıllıqla, tarixilik amilinə ciddi şəkildə riayət olunmaqla, oxucuları yormayan bir üslubda təsvir edilmişdir. Öz təqdimatına bədii təxəyyül elementləri, maraqlı bənzətmələr əlavə edən, ritorik fəndlərdən yerli-yerində istifadə etməyi bacaran ingilis şərqşünasının kitabı quru salnaməçilik prinsiplərindən uğurla kənara çıxmağı bacarmışdır. Məhz bu amil kitabın Şərq, həm də Qərb oxucuları arasında qısa zamanda rəğbət qazanmasında əhəmiyyətli rol oynamışdır. Müəllifin bədiiliklə tarixiliyin vəhdətinə nə qədər uğurla nail olduğunu kitabın fəsilləri üçün seçilmiş adlardan da görmək mümkündür – "Dehli qapılarına doğru" (VII fəsil), "İranın talanması" (VIII fəsil), "Kəllələrdən qüllələr" (IX fəsil), "Qapalı dairə" (X fəsil)[1].

M.Aksvörtinin Nadir şah dövrünün ictimai-siyasi və ideoloji hadisələrinə yanaşmada tutduğu diqqətli, hərtərəfli təhlilə əsaslanan, ənənəvi stereotiplərdən uzaq mövqe də müəllifin uğurları sırasına əlavə olunmalıdır. Britaniyalı

[1] Bax: yenə orada, s. V.

alim hər şeyi öz adı ilə çağırmağa çalışır, hərbi-siyasi hadisələrə dini-ideoloji don geyindirməkdən çəkinir, qlobal proseslərə kök salmış stereotiplər pəncərəsindən baxmaq kimi dayaz yanaşmaları rədd edir: "Kitabda təsvir edilən qanlı hadisələri və zülmkarlığı İranın və ya İslam dininin, yaxud da Yaxın Şərqin xarakterik cəhəti kimi təsvir etmək tamamilə yanlışdır. İnsanların rəsm çəkmələri, yemək hazırlamaları mənsub olduqları mədəniyyətlər səbəbindən fərqləndiyi kimi, etdikləri vəhşilik də fərqlənə bilir (yəni fərdi səciyyə daşıyır – *R.M.*). Çox təəssüf ki, vəhşiliyə meyillilik universal cəhətdir"[1].

Belə bir yanaşma təkcə Nadir şaha münasibətdə deyil, bütün tarixi şəxsiyyətlərə nəzərən də özünü göstərməlidir. Mən Şah İsmayıl Xətainin irsi haqqında söz açarkən, rəhbər tutduğum baxışa Nadir şah mövzusunda sadiq qalıram. Hər bir görkəmli tarixi şəxsiyyət istər dövlət xadimi və istər hərbiçi, istərsə də mütəfəkkir ilk növbədə öz fəaliyyət sahəsinin tələblərinə və reallıqlarına müvafiq qiymətləndirilməli, başlıca dəyərləndirmə meyarı qismində onların qarşılarına qoyduqları, uğrunda çalışdıqları məqsədlər əsas götürülməlidir. Yəni, Şah İsmayıl Səfəvi kimi Nadir şah da hər şeydən öncə hərc-mərclik içində çırpınan və pərən-pərən düşmüş ölkəni birləşdirmək uğrunda mübarizəyə atılmış, qarşısına qoyduğu məqsədlərə müvəffəqiyyətlə çatmış parlaq tarixi şəxsiyyətdir. Onların hər ikisi Azərbaycanı və İranı vahid dövlətdə birləşdirərək, qazandıqları parlaq hərbi uğurlar nəticəsində dövrlərinin ən qüdrətli imperiyalarından birini yaratmışdılar.

Təbii ki, hər bir qüdrətli rəhbər kimi onların da dövlət ideologiyasına, siyasi sistemə və idarəçilik üsullarına dair

---

[1] Yenə orada, s. XIX.

heç də hər kəs tərəfindən təqdirlə qarşılanmayan baxışları olmuşdur. Həmin baxışların, o cümlədən dövlət idarəçiliyi sahəsində onlar tərəfindən atılan addımların əsrlər sonra aparılan sağlam və soyuqqanlı təhlili göstərir ki, qəbul edilmiş qərarlar ilk növbədə dövrün reallıq və tələblərindən, təhdid və çağırışlardan qaynaqlanırdı. Şah İsmayıl Səfəvi kimi Nadir şah Əfşar da ilk növbədə öz yaşadığı, formalaşdığı mühitin övladı idi və bu səbəbdən də zamanın onun psixologiyasına öz möhürünü vurması təəccüblə qarşılanmamalı, şəxsiyyətin fərdi qüsuru kimi əsla qəbul olunmamalıdır. Nadir şahın hakimiyyətə gedən yolu kasıblıq və səfalətdən başlamış, Allah ona hər anı qanlı mübarizə ilə keçən, qanın su yerinə axdığı, qılıncın qınına qoyulmadığı bir tale yazmışdır. Çətin şəraitdə, sağ qalmaq uğrunda amansız mübarizə mühitində formalaşmış Nadir şahın təbiətində sərtliyin, qəddarlığın, dəmir nizam-intizamın, inadkarlıq və qorxmazlığın, həmçinin maddi nemətlərə güclü bağlılığın olması psixologiyanın bütün qanunauyğunluqları ilə üst-üstə düşür. Bəşəriyyət tarixində bənzər nümunələr kifayət qədərdir.

Məgər uşaqlıq illəri davamlı çətinliklər, qorxular və məhrumiyyətlər içində keçmiş rus çarı IV İvanın, sonradan İvan Qroznıya (1530-1584), monqol tayfa rəhbəri Temuçinin bəşəriyyətin ən qanlı fatehlərindən biri Çingiz xana (1162-1227), Orta Asiyanın türk mənşəli Barlas tayfasının lideri Teymurun qüdrətli Əmir Teymura (1336-1405) çevrilməsi sırf psixoloji təsirin nəticəsi deyilmi? Belə olan halda Əmir Teymurun, Çingiz xanın, İvan Qroznının və digərlərinin qəddarlığı, sərtliyi onların şəxsiyyətini, siyasi dühasını, hərbi məharətini şübhə altına ala, yaxud onların fəaliyyətinə kölgə sala bilərmi? Yəni, Nadir bu mənada qətiyyən xüsusi bir hal, yaxud istisna təşkil etmir və onun ida-

rəçilik fəlsəfəsinə siyasi psixologiyanın qeyd edilən qanunlarını nəzərə almadan qiymət vermək qətiyyən yolverilməzdir. Yaşadığı dövrün reallıqları, qarşısına qoyduğu məqsədlərin çətinliyi, həmçinin xarici və daxili təhdidlərin ciddiliyi Nadirə sərtlik və qətiyyətdən savayı çıxış yolu qoymurdu. Bəli, çox ehtimal ki, o dövrdə atılan bir sıra addımlar yerli əhalini iqtisadi və sosial sıxıntılarla üz-üzə qoymuş, Nadirə münasibətdə kütləvi narazılığın yaranmasına səbəb olmuşdu. Lakin Nadirin qətlindən sonra baş verən hadisələr, Azərbaycan və İranın xanlıqlara bölünərək, sonsuz daxili müharibələr meydanına çevrilməsi, azərbaycanlıların isə son nəticədə ümumiyyətlə, öz dövlətçiliklərini itirmələri hər kəsi qüdrətli fatehin ünvanına səslənən tənqidləri yenidən gözdən keçirmək zərurəti ilə üz-üzə qoydu.

Azərbaycan xanlıqlarının bir-birinin ardınca köməksiz qurban kimi Rusiya tərəfindən işğalı, Qacarlar dövlətinin isə sələflərinin sahib olduğu ərazilərin əhəmiyyətli hissəsindən məhrum olması Nadirin hakimiyyətinin son illərində yaranmış mürəkkəb sosial-siyasi vəziyyəti əlində bayraq edib onu ləkələməyə çalışanları susdurdu və daha dərindən düşünməyə məcbur etdi. "Şərqin Napoleonu" azərbaycanlıların və iranlıların nəzərində onları böyük bir imperiyanın sahibinə çevirmiş, hərc-mərclikdən qurtarmış xilaskar kimi yenidən ucaldı. Qeyd edilən məsələləri obyektiv şəkildə təhlil edən M.Aksvörti yazır:

"1742-ci ildə Nadirin hakimiyyəti ağsamağa başladı, repressiv xarakter aldı və uğursuzluğa düçar oldu. Hakimiyyətinin məqsədi yerinə yetirilmədi, əldə olunan imkanlar itirildi və ölkə əvvəlki vəziyyətinə, hərc-mərcliyə və durğunluğa yuvarlandı. Ancaq son nəticədə hökmdarlar ehtimallar əsasında deyil, öz hakimiyyətlərinin real nəti-

cələrinə müvafiq mühakimə olunmalıdırlar. XIX əsrin əvvəllərində Con Malkolm yazırdı ki, iki əsr sonra iranlılar Nadirin şərəfli fəaliyyəti haqqında qürurla, hakimiyyətinin son illərində həyata keçirdiyi qəddarlıqlar barəsində isə təəssüf hissi ilə danışırdılar. Törətdiyi cinayətlərə baxmayaraq, xalq ona keçmişin əzəmətini geri qaytardığına və ölkənin müstəqilliyini təmin etdiyinə görə minnətdar idi”[1].

M.Aksvörti Nadirin bütün qüsurlarına, dağıdıcı yürüşlərinə, insan kəllələrindən qüllələr ucaltmağa qədər gedib çıxan amansız cəza və qisas üsullarına baxmayaraq onu İran siyasi tarixinin ən qüdrəti hökmdarı, ən böyük fatehi kimi səciyyələndirir. Tanınmış şərqşünas doğru olaraq qeyd edir ki, onun 20 il ərzində öz vətəni və xalqı üçün bacardığı işləri nə ona qədər, nə də ondan sonra heç bir hökmdar həyata keçirə bilməmişdi. Buna görə də qüdrətli fatehin hakimiyyət illəri İran tarixi üçün hərbi və siyasi uğurların miqyası, əhəmiyyəti etibarı ilə (təbii ki, Azərbaycan tarixi üçün xüsusilə – *R.M.*) ayırıcı xətt mahiyyəti daşımaqdadır – Nadirəqədərki və Nadirdən sonrakı dövr:

“Məşhədi işğal etdiyi 1726-cı ildən ölümünə qədər – 1747-ci il arasında keçən 20 ilə yaxın müddətdə Nadir İranın sərhədlərini bərpa etdi, əfqanları ölkədən çıxardı və Dehlidən Bağdada qədər olan ərazidə hakim güc olaraq öz hakimiyyətini qurdu. Bunları həyata keçirərkən o, 20 mildən[2] çox məsafə qət etmiş və bir vuruşmanı çıxmaq şərti ilə 20-dən çox irimiqyaslı döyüş əməliyyatı hə-

---

[1] Yenə orada, səh. 285.

[2] Təxmini hesablamalara görə, Nadirin yürüşləri boyunca qət etdiyi məsafə, bəlkə də, Yer kürəsinin çevrəsi boyunca olan məsafəyə bərabərdir, onun keçdiyi ərazilər dünyadakı ən çətin aşılan, mürəkkəb quruluşlu regionlar sayılır – *M.A.*

yata keçirmişdi. Böyük bir ərazini və nəhəng hərbi gücü idarə etmək qabiliyyətinə, tamamilə qeybdən gələn siyasi uğurlara və nailiyyətlərə diqqət yetirdikdə İran tarixində onu tayı-bərabərini görmürük. Dünya tarixində isə onun çox az bənzəri var idi. Nadirin başqalarını qıcıqlandıran uğurları geniş imkanlar açmışdı və onun qələbələri millət kimi İranın həyatda qalmasını təmin etdi. Bu onun hakimiyyət dövrünün qalıcı təsirlərindən biri idi"[1].

Biz də öz növbəmizdə avropalılardan tariximizin görkəmli şəxsiyyətlərinə münasibətdə belə bir yanaşmanı, yəni onları əməllərinin ölkənin və bütünlükdə bölgənin taleyinə təsirinin miqyasını müvafiq şəkildə qiymətləndirmək üslubunu əxz edə bilsək, bu keçmişimizin əksər qaranlıq səhifələrinə işıq salınmasına kömək edərdi. Belə tədqiqat tərzi heç şübhəsiz ki, tarixşünaslığımızı məzhəb təəssübkeşliyini, şəxsi rəğbət, yaxud nifrəti kimi mənasız qiymətləndirmə meyarlarından təmizləməyə imkan verərdi.

Etiraf etməliyik ki, M.Aksvörti Nadirin siyasi portreti ilə yanaşı, onun psixoloji surətini də bacarıqla qələmə alıb. Onun obrazındakı psixologizm özünü xüsusilə Nadirin hakimiyyətinin son illərinə aid hadisələrin – müharibə və qırğınların həm təsviri, həm də təhlili zamanı tam parlaqlığı ilə göstərir. Nadirin at belində, bitib-tükənməyən müharibələr və təhlükələr əhatəsində keçən həyatı onun səhhətinə dağıdıcı təsir göstərmiş, böyük fateh ömrünün son bir neçə ilini dözülməz ağrılarla mübarizədə keçirmək məcburiyyətində qalmışdı. Bir tərəfdən ölkəsinə və hakimiyyətinə qarşı ortaya çıxan təhdidləri dəf etməli olan, digər tərəfdən daxili çəkişmələri cilovlamağa çalışan, ən

---

[1] Yenə orada.

nəhayət isə ağır xəstəliklərlə çarpışan Nadirin psixologiyasında xoşagəlməz fəsadların davamlı hal alması tam təbii, normal hadisə kimi qarşılanmalıdır.

Nadir dözülməz ağrılara düçar olduğu dövrdən ölümünə qədər keçən müddət ərzində haqlı olaraq daha səbrsiz, çəkinmədən ən qəddar cəza tədbirlərinə əl atan, taleyüklü qərarları ani olaraq, hisslərin təsiri altında qəbul edən, sonsuz problemlərin yaratdığı bezginlik səbəbindən əvvəlki illərdə ona xas təmkindən məhrum olmuş fərqli psixoloji tip olaraq oxucunun qarşısına çıxır. Taleyüklü məsələləri təkbaşına həll etməkdən cana doyan Nadir özünün qürub çağında əldə etdiyi misilsiz hərbi-siyasi uğurları, qazandığı şöhrət və sərvəti, həmçinin qurduğu nəhəng imperiyanı qoruyub saxlamaq naminə ona qarşı meydana çıxan bütün təhdidləri yalnız bir yolla – qəddarlıq və xof aşılamaqla dəf etməyə üstünlük verir. Əvvəlki siyasətçil, tədbirli və böyük səbr sahibi Nadiri yaranmış problemləri ən qısa yolla – edam və qətliyamlarla həll edən amansız Nadir əvəzləyir. Əslində, Nadirin həyatının məhz son mərhələsindən bəhs edərkən, tarixçi bu böyük şəxsiyyətin faciəsini tam həyəcanı ilə qələmə alıb desək, yanılmarıq. Adi tayfa döyüşçüsündən böyük bir imperiyanın banisinə qədər şərəfli ömür yolu keçən, dövrünün ən qüdrətli dövlətlərini onunla qeyri-şərtsiz hesablaşmağa vadar etmiş, doğma xalqını Yaxın və Orta Şərqin ən kəsərli söz sahibinə çevirən düha qurub-yaratdıqlarını vəsiyyət etməyə layiqli bir kimsəni tapa bilmir. Üstəlik o öz sağlığında övlad və qohumlarının, yaxın ətrafının taxt qovğasına başlaması kimi sarsıdıcı prosesləri gözü ilə görmək məcburiyyətində qalır. Bir hökmdar və ata üçün bunlardan daha böyük mənəvi sarsıntı düşünmək qeyri-mümkündür!

1746-1747-ci illərin hadisələrindən danışarkən, M.Aksvörti oxucunun diqqətini Nadiri təngə gətirən xəstəlik və çəkişmələrin onu qarabaqara izləməsinə yönəltməklə, sanki müəyyən mənada qüdrətli fatehin amansızlığını, kəskin davranışını əsaslandırmağa çalışır, onları yaradan xarici amilləri gözdən qaçırmamağı tövsiyə edir: "1746-cı ilin son aylarında xəstəliyinin şiddətlənməsi yenidən Nadirin ruhi vəziyyətində qeyri-sabitlik yaratdı. İsfahanda olarkən Nadir yeni bir həkim tapır ki, bu da Nadir ölənədək onun nazı ilə oynayacaq olan, fransız Pyer Bazin idi. Vəzifəsinin icrasına könülsüz başlayan Bazin Nadiri həmişə ciddiyyətini qoruyan şəxsiyyət kimi təsvir edir, lakin indi o, müxtəlif səbəblərdən, ilk növbədə bədəninin maye ilə dolmasına (şişməsinə) gətirib çıxarmış ödəm xəstəliyindən əziyyət çəkirdi. Onun mədəsi qidanı həzm edə bilmirdi. O, müntəzəm olaraq yeməkdən bir saat sonra yediklərini qaytarırdı. Həmçinin tez-tez qəbz olur, davamlı olaraq ağzı quruyur, qaraciyəri də onu narahat edirdi. Çox güman ki, bu simptomlar əvvəllər yoluxduğu malariya infeksiyasından sonra sarılıq xəstəliyinə tutulması və yenidən həmin xəstəliyi keçirməsinin göstəricisi idi. İntensiv şəkildə içkiyə qurşanması (Nadirin) xəstəliyi daha da ağırlaşdırmışdı. Bazin xəstəliyi sağaltmaq üçün dərman vasitələri axtarmaq və hazırlamaq üçün bir ay möhlət istədi. Xəstəliyinə baxmayaraq, Bazin Nadiri fiziki cəhətdən güclü, hündür, oval üzlü, qarabəniz, qartalburun, qüsursuz ağız quruluşuna malik, alt dodağı xəfif çıxıntılı, kiçik, lakin canlı, ifadəli gözlərə sahib, lazım gələndə yumşalda və idarə edə bildiyi gur səsli biri kimi təsvir edir.

Dövlət problemləri ilə Nadirin səhhətindəki çətinliklər sanki növbələşirdi (biri bitməmiş, digəri özünü göstərirdi). Şərq vilayətlərində baş qaldıran iğtişaşların və üs-

yanların yatırılması şəxsən onun iştirakını tələb edirdi. 1747-ci ilin yanvarında Nadir İsfahanı tərk edərək, Yəzd və Kirman yolu ilə Xorasana tərəf yollanır. Həmin vaxt Sistanda vəziyyətin qarışıq olması ilə bağlı xəbərlər gəlməyə başlayır. Burada üsyana rəhbərlik edən Fətəli Xan Kayani Nadirin əsgərləri tərəfindən ələ keçirilsə də, digər üsyançılar Kuh-e Kvaje qalasına sığınmağa müvəffəq olmuş və Nadir ordusuna meydan oxumağa başlamışdılar. Nadir həmin məsələni həll etmələri üçün 40 000 nəfərlik qoşunla birgə qardaşı oğlu Əliqulunu, daha sonra isə Təhmasib Xan Cəlairi ora göndərdi.

Nadirin pulla bağlı tələbləri o qədər artmışdı ki, problem onun yaxın ətrafına, hətta köhnə dostlarına və ailə üzvlərinə qədər gedib çıxırdı. O, Əliqulunun kiçik qardaşının əmlakını müsadirə etdi, eləcə də gürcü şahzadələri Teymuraz və İraklinin üzərinə böyük miqdarda bac qoydu. Nadirə qanundan kənar iş görənlərin uzun-uzadı siyahısı verildi, onların hamısı ölümə məhkum edildi. Nadirin törətdiyi vəhşiliklər o dərəcədə həddini aşdı ki, şahın qəzəbinə uğrayacaq növbəti qurbanın kim olacağını təxmin etmək belə mümkünsüzləşdi. O, Əliquludan 10000 tümən, Təhmasib Xandan isə 50000 tümən məbləğində vəsait tələb edirdi. Hər ikisindən də cavab gəlmədikdə isə şübhələnməyə başladı. Dəliyə dönən Nadir tez bir zamanda yeni əmrlər verdi, ayrılıqda onların hər birinə digərini həbs etməyi tapşırdı. Çox güman ki, bu cür ağlasığmaz qərarla Nadir onlardan birinin şaha sadiq olduğunu, müvafiq olaraq digərini öldürüb uğur qazanmaq istəyəcəyini düşünürdü"[1].

Müqayisə üçün qeyd etmək lazımdır ki, Nadirin ömrünün son illərində səhhəti və psixoloji sarsıntılar ucba-

[1] Yenə orada, səh. 275-276.

tından düçar olduğu vəziyyətin səbəbləri onun saray təbibi P.Bazin tərəfindən də təxminən eyni məzmunda şərh edilmişdir: "Nadir şahın şəxsi həkimi Bazin yazır ki, şahın səhhəti ömrünün axırlarında pisləşmişdi. İşinin çoxluğu və yorğunluq, ən əsası isə Rzaqulu xanla (Nadirin oğlu ilə) əlaqədar baş vermiş faciəli hadisə ona bir çox xəstəliklər gətirmişdi. Nadir şahın sarayında 4 həkim olmasına baxmayaraq, özünün inandığı həkim yalnız Bazin idi"[1].

P.Bazinin haqqında söz açdığı və Nadirin ruhi çöküşünə gətirib çıxarmış əsas hadisələrdən biri də onun oğlu, vəliəhd Rzaqulu xanın gözlərinin kor edilməsi M.Aksvörtinin qələmə aldığı tarixin ən təsirli, emosional səhnələrindən biridir. Özünə qarşı edilən uğursuz sui-qəsddən sonra qəzəbini cilovlaya bilməyən Nadir tez bir zamanda günahkarların cəzalandırılmasını tələb edir. Saray əyanlarının məharətlə qurduqları tələyə isə Nadirin doğma oğlu Rzaqulu düşür. Belə ki, cızılan plana əsasən əyanlar Nadirin öldürülməsindən sonra daha mülayim xasiyyəti və liberal baxışları ilə seçilən vəliəhd Rzaqulunu taxta çıxarmağı nəzərdə tuturdular. Ancaq əyanlar tədbirli tərpənərək sui-qəsdin icraçılarını hədələyərək, onları ələ keçəcəkləri təqdirdə sifarişçi qismində Rzaqulunun adını çəkməyə məcbur etdilər. Nəticədə Nadirin əmri ilə uğursuz sui-qəsdin təşkilində ittiham edilən Rzaqulunun gözləri çıxarılır.

Çoxları bu hadisəni əllərində bayraq edərək, indi də Nadiri adi insani duyğulardan, hətta atalıq hissindən məhrum yırtıcı kimi təqdim etməyə çalışırlar. Lakin M.Aksvörti, haqqında danışdığımız prosesi tam dəqiqliklə, ardıcıllığı

---

[1] T.Həsənzadə. XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri (Mehdi Bamdadın "Tarix-i-rical-i İran" əsəri əsasında), səh. 43.

pozmadan, həqiqətləri təhrif etmədən canlandırır, kəskin, birmənalı ifadə və qiymətləndirmələrdən çəkinərək, son sözü oxucunun öhdəsinə buraxır. Baş verənləri təhlil edərkən M.Aksvörti günahı yalnız Nadirin üzərinə yıxmağı ədalətsizlik hesab edir. Çünki onun oğlu Rzaqulu sui-qəsdə qədər dəfələrlə açıq şəkildə atasının idarəçilik üsulunu tənqid etmiş, onun müharibə və yürüşlərinin insanlara ancaq bədbəxtlik gətirdiyinə dair siyasi cəhətdən təhlükəli fikirləri hər kəsin qarşısında dilə gətirməkdən çəkinməmişdi. Onun Məşhəddə söylədiyi nitq isə nəinki Nadirin səbir kasasını daşdırdı, həm də Rzaqulunun əli ilə Nadirdən yaxa qurtarmaq üçün dəridən-qabıqdan çıxan saray əyanlarına öz niyyətlərini həyata keçirməyə əlverişli fürsət yaratdı: "Nadirin saray tarixçiləri qeyd edirlər ki, şahın Xorasana gəlişi həmişə bayram və şənliklərlə müşayiət olunurdu, lakin saray həyatının təmtərağı arxasında amansız çəkişmələr səngimək bilmirdi. O dövrün salnaməçilərindən birinin verdiyi məlumata əsasən bu çəkişmələr burulğanında Rzaqulu Məşhəddə olarkən özünü atasını açıq şəkildə tənqid etməkdən saxlaya bilmədi: "Mənim atam bütün dünyanı işğal etmək niyyətinə düşüb, ona görə də bizə və bütün İrana zülm edir. Hər yerdə döyüşlər davam edir.

O, ölməyincə nə bizim, nə İranın, nə də qonşu dövlətlərin dinclik tapması qeyri-mümkündür". Əlbəttə ki, bu sözləri eşidənlər, dərhal Rzaqulunun dediklərini Nadirə çatdırdılar"[1].

Aydın məsələdir ki, Rzaqulunun atasına qarşı belə fikirlər səsləndirməsi Nadirə doğma oğlu barəsində şübhələrə düşməsi üçün ciddi əsaslar verirdi. Nadirin qan-

[1] Michael Axworthy. The Sword of Persia. Nader Shah, from Tribal Warrior to Conquering Tyrant, p. 230.

içənlikdə günahlandıranlar onu da unutmamalıdırlar ki, Məşhəddəki çıxışana qədər Rzaqulu Nadirin hiddətinə səbəb olacaq və onu atasının gözündən salacaq çoxsaylı yanlış hərəkətlərə, saymazyana addımlara yol vermişdi. Atası tərəfindən dəfələrlə xəbərdar edilən, müxtəlif yollarla cəzalandırılan və tənbeh olunan Rzaqulu baş verənlərdən nəticə çıxarmaq yerinə, tam əksinə, Nadirə müqavimət göstərir, mənasız, ona yalnız zərər gətirəcək inadkarlıq nümayiş etdirirdi.

Yersiz tərsliyi ilə yanaşı, Rzaqulunu Nadirin nəzərində hörmətdən salan digər bir cəhət də var idi – dəbdəbəyə, qayğısız həyata hədsiz meyil. Nadir harınlığa, müftəxorluğa nifrət edirdi, dəbdəbəni sevmir, kasıb, əməksevər insanlara xor baxanlara amansız münasibət bəsləyirdi. Nadirin uşaq yaşlarından üzləşdiyi və onda mübariz şəxsi keyfiyyətlərin tərbiyəsinə müstəsna təsir göstərmiş çətinliklər də M.Aksvörtinin nəzərindən qətiyyən yayınmamışdır:

"Gənc yaşlarında Nadir atasını itirir. Qarşıda onu və ailəsini olduqca çətin illər gözləyirdi. Anasının simasında kasıb dul qadının əzablara sinə gərməsi, köməksiz qadının üzləşdiyi çətin yaşayış Nadirin gözləri önündə cərəyan etmişdir ki, bu da onun gələcəkdə qadınlara qarşı həssas münasibətinin yaranmasında həlledici rol oynamışdı. Dul qalan və iki yeniyetmə oğul böyüdən ana üçün yenidən ailə qurmaq qeyri-mümkün idi. Onun vəziyyətində olanların bəziləri yaxın şəhərlərə üz tutaraq dolanışıq üçün əxlaqsız yollara belə düşürdülər. Lakin Nadirin anası olduqca güclü və möhkəm iradəli qadın idi.

Nadir atasının həsrətini çəkirdi. O, kasıblıq şəraitində böyüyürdü və müdafiəsiz qalmışdı. Bəziləri düşünür ki, adətən belə vəziyyətlə üzləşənlər kimi o da əyri yollara düşə və həyatda özünə inamını tamamilə itirə bilərdi.

Lakin müxtəlif sınaqlardan müxtəlif insanlar fərqli cür çıxırlar. Üzləşdiyi vəziyyət Nadirə fərqli təsir göstərmiş, onun yaşamaq, xilas olmaq istəyini möhkəmləndirmiş, özünü müdafiə etmək üçün yorulmaq bilmədən çalışmaq, müxtəlif çətinliklərin öhdəsindən gəlmək və başqaları üzərində üstünlük qazanmağın yollarını öyrətmişdi. Onun başlıca amalı, məqsədi ətrafdakılardan fərqlənmək, ən əsası isə onlardan daha üstün olmaq idi.

Bəlkə də elə bu istək, həmçinin erkən yaşlardan etibarən qazanılmış təcrübə onda, mollalar da daxil olmaqla asanlıqla mövqe qazanmış, zəif təbiətli, səriştəsiz insanlara münasibətdə qəzəb hissi tərbiyə etmişdi. O, heç zaman uşaqlıq və yeniyetməlik həyatının ilk illərində yaşadığı ağrılı-acılı günləri, onunla birgə bu taleyi paylaşmış anasını və qardaşı İbrahimi unutmurdu. Rəvayətlərin birində söylənilir ki, atası öldükdən sonra vəziyyətləri olduqca ağır olduğundan, Nadir meşələrdə, dağlarda odun toplamaqla ailəsinə kömək etməyə çalışırdı.

...Nadir 15 yaşlarında tayfa liderlərindən birinin yanında çalışmağa başlayır. Bu adam Baba Əli Bəy Kusə Əhmədli – Əbivərd şəhərinin başçısı, Xorasan Əfşarlarının ən nüfuzlu nümayəndəsi idi. Ola bilsin ki, Nadirin atasının Baba Əli ilə yaxşı münasibətləri olmuşdur. Nadir Baba Əli bəyin yanında adi əsgər kimi xidmətə başlasa da, sonradan onun ən yaxın silahdaşına çevrilməyi bacarmışdı”[1].

Uşaqlıq və gənclik illərinin məhrumiyyətləri və acıları haqqında xatirələr Nadiri ömrünün sonuna qədər müşayiət edirdi. O, ilk fürsətdəcə hər kəsə hökmdar mərtəbəsinə yoxsulluqdan, məhz öz bacarığı hesabına yüksəldiyini, hər şeyə əməklə, şücaət və mətinliklə nail olduğunu

[1] Yenə orada, səh. 20-21.

xatırlatmaqdan usanmır, məmurlara zəhmətkeş insanlara ikrahla yanaşmağı qadağan edirdi. Hətta Nadir 1740-cı ilin sonu – 1741-ci ilin əvvəllərində Orta Asiya yürüşündən Mərv yolu ilə geri qayıdarkən, Xorasan bölgəsində uşaqlıq illərini keçirdiyi yerlərdə ayaq saxlayaraq, məhrumiyyətlər içərisində keçirdiyi günlərini qəhərlə yada salmış, burada onun qələbələri şərəfinə ucaldılmış qızıl qılınc heykəlinin açılışında bu məsələni xüsusi ilə vurğulamağı lazım bilmişdi: "Mərvi tərk edən Nadir yol boyu uşaqlıq illərini keçirdiyi Əbivərd, Kəlat, Derra Qaz, Kobkan və Kabuşanı ziyarət etdi. Nadir dünyaya göz açdığı torpaqda öz şərəfinə, qızıl qılınc abidəsinin ucaldılmasına dair əmr vermişdi. Bu heykəl vasitəsilə Nadir dünya fatehinə çevrildiyini hər kəsin nəzərinə çatdırmaq istəyirdi. Heykəltəraş Nadirdən abidənin üzərinə həkk edilməsi üçün doğum tarixini soruşur, lakin şah sualın cavabını bilmədiyindən ogünkü tarixin daş üzərində qeyd edilməsini buyurur. Nadir həmin yerlərdə öz sərkərdələrinə gənclik illərindən, yoxsulluq içində keçirdiyi həyatdan, müxtəlif heyvanlara çobanlıq etməsindən ağız dolusu danışırdı. Bütün bunları sadaladıqdan sonra Nadir üzünü sərkərdələrinə tutaraq deyir: "Gördüyünüz kimi, hər şeyə qadir olan Allah məni hansı mərtəbəyə qədər ucaltmışdır, ona görə də hər biriniz kasıb təbəqəyə mənsub insanlara ikrah hissi ilə yanaşmamağı öyrənməlisiz"[1].

Nadirin Hindistanı fəth edərkən onunla bu ölkənin hakimi, moğol hökmdarı Məhəmməd şah arasında baş tutan məşhur dialoq qüdrətli sərkərdənin əməyə, mübarizəyə, çətinliklər qarşısında əsla əyilməməyə nə qədər böyük əhəmiyyət verdiyini tam çılpaqlığı ilə göz önünə

[1] Yenə orada, səh. 227-228.

gətirir. Nadirin çatdırmaq istədiyi mətləbi izah etmək üçün çəkdiyi bayağı bir misalın təsiri bu mövzuda deyiləcək istənilən nəsihətamiz nitqdən, veriləcək tövsiyyələrdən daha təsirli və yaddaqalan olmuşdu desək, əsla yanılmarıq. Hind şahı Məhəmməd şahın "ölkəni nə saxlayar?" sualına Nadir şahın "Şah! Ölkəni belə möhkəm yancaq saxlayar"[1] cavabı hakimiyyət üçün taxtda möhkəm oturmağı bacarmağın, at belində illərlə mübarizə aparmağın məsuliyyətini nəzərə çarpdırır.

Şüurlu həyatının əksər hissəsini at belində keçirmiş, Yaxın və Orta Şərqdə böyük ərazilər ələ keçirmiş bir ata üçün var-dövlətə, dəbdəbəyə, şan-şöhrətə düşkün bir övlada sahib olmaq taleyin yazdığı mürəkkəb sınaqdır desək, yəqin ki, hər kəs bizimlə razılaşar. Nadirin 1740-cı ilin yayında oğlunun iştirakı ilə müşahidə etdiyi hadisə onda öz vəliəhdinin dəbdəbə girdabında ümidsiz şəkildə boğulub getdiyinə dair qəti əminlik yaratdı. Ata ilə oğul, hökmdarla onun varisi arasında təkcə siyasi idarəçilik məsələlərində deyil, mənəvi dəyərlər, həyat qayələri mövzusunda da tam mənada bir uçurum yaranmışdı:

"1740-cı ilin 20 iyun tarixində Nadir ordusu ilə birlikdə Heratı tərk etdi. 5 günlük yol qət etdikdən sonra o, Heratdan 60 mil şimalda dayanaraq yeni çadır qurdurdu. Bu zaman uzun intizardan sonra Rzaqulu xan nəhayət ki, atasının düşərgəsində göründü. Lakin Rzaqulu xan ehtiyatsızlıq edərək, atasının düşərgəsinə 12 000 nəfərlik tüfəngçilər dəstəsinin müşayiəti ilə, şeypur sədaları altında daxil oldu. Oğlunun pişvazına çıxan Nadir onun davranışını təmkinlə seyr edirdi. Düzdür, Nadir oğlu üçün kütlənin gözündən pərdə asmaq məqsədilə müvafiq səviyyədə

[1] Cahangir Hüseyn Əfşar. Azərbaycan Nadir Əfşar dövləti. Bakı, 2014, səh. 233.

qarşılanma mərasimi təşkil etmişdi, lakin şahid olduğu mənzərə onda oğlunun gələcək planlarına dair şübhələri bir qədər də möhkəmləndirdi. Nadir şah təmtərağa və riyakarlığa nifrət edirdi. Çünki bütün bunlar ona İsfahanı, Şah Sultan Hüseyni və Təhmasibi xatırladırdı. Tüfəngçilər alayını gözdən keçirən Nadir onun kiçik qruplara bölünərək öz ordusunun tabeliyinə verilməsini əmr etdi. Nadir şah Rzaqulunun ordusunu əlindən aldıqdan sonra onu davranışı səbəbilə sorğu-suala çəkdi. O, oğluna orduda və hakimiyyətdə ikitirəliyin qeyri-mümkünlüyünü başa salmağa çalışdı və parçalanmanın xalq tərəfindən birmənalı qarşılanmayacağına dair xəbərdarlıq etdi. Nadir, oğluna təmtərağı və dəbdəbəni yaraşdırmadığını da bildirdi, həmçinin onu insanların tənqidinə tuş gəlməyəcək şəkildə davranmağa çağırdı"[1].

M.Aksvörti haqlı olaraq qeyd edir ki, bir ataya, xüsusilə başladığı işlərin gələcəyini əmanət etmək üçün layiqli bir varis görmək ümidində olan hökmdar-ataya sevimli övladının timsalında keçmişin arzuolunmaz hallarını yaşamaq dəhşətli yuxu kimi gəlirdi. Oğlunun saray həyatının cah-cəlallı, qayğısız, məsuliyyətsiz, yaramaz tərəfini seçməsi hər dəfə Nadiri qiyabi də olsa xatırlamaq belə istəmədiyi keçmişə geri qaytarırdı. Bu, elə bir keçmiş, elə bir həyat tərzi və dəyərlər sistemi idi ki, Nadir onlardan qətiyyətlə üz döndərmiş, hərbiçi sadəliyini, nizam-intizam və ləyaqətini sarayın mənəvi bataqlığı xatırladan rahat, isti otaqlardan, əyləncədən üstün tutmuşdu:

"...Sonralar o, (Nadir şah) Səfəvi paytaxtında əyanlarının ona düşmən münasibəti ilə üzləşir, şahın verdiyi bəxşişlərə baxmayaraq, İsfahanda ikən bir çox təhqirlərə mə-

[1] Michael Axworthy. The Sword of Persia. Nader Shah, from Tribal Warrior to Conquering Tyrant, pp. 221-222.

ruz qalırdı. Deyilənə görə, hətta o, vaxtilə şahın əyanları tərəfindən kobud münasibətlə üzləşmiş və illər sonra özü taxta sahib olduğu zaman eyni səhnəni təkrarlayaraq əylənmişdi. Onun Səfəvi sarayının əyanları barəsində təəssüratları necə idi və ümumilikdə Səfəvi rejiminin mahiyyəti (söhbət Səfəvilərin qürub çağından gedir – *R.M.*) nədən ibarət idi?

Bilirik ki, Səfəvi sarayının bir sıra yüksək vəzifəli və nüfuzlu əyanların Nadiri dəstəkləməsinə baxmayaraq, həmin şəxslərin ətrafdakı insanların hədsiz dəbdəbə hərisliyi, xırdaçılığı, tənbəlliyi onda ikrah hissi doğururdu. O, istər geyimində, istərsə də davranışında həmişə zabit ciddiliyinə üstünlük verirdi. Bəzi məsələlər onun şəxsi keyfiyyətlərindən irəli gəlsə də, yaranmış uçurumun əsas səbəbi əyalətdən gəlmiş sərkərdə ilə saray dəbdəbəsi arasındakı ziddiyyət idi"[1].

Rzaqulunun yol verdiyi bağışlanmaz siyasi xətalar, ələlxüsus da atasına qarşı nümayişkaranə şəkildə etdiyi çıxışlar Nadirlə onun arasındakı münasibətləri məlum sui-qəsd ərəfəsində birdəfəlik korlamışdı. Vəziyyət hətta o yerə çatmışdı ki, atılan gülədən yayınaraq yerə yıxılıb zədələnən Nadir oğlunun ona uzatdığı yardım əlini rədd edərək, başqalarının köməyinə üstünlük vermişdi:

"1741-ci ilin 15 mayında onlar dar meşə zolağından keçdikdə yaxınlıqdan atəş səsləri eşidildi. Güllə Nadirin qolunu atın cilovunu tutduğu yerdən və baş barmağını yaraladı, sonra isə onun atının bel nahiyəsinə dəydi. Möhkəm kişnəyən at Nadirlə birgə yerə sərildi. Qatil meşənin kolluqlarla sıx örtülmüş hissəsində, təxminən 20 addım aralıda gizlənmişdi. O, gözətçilərdən yayınaraq karvanın keçdiyi əsnada Nadirə atəş açmağa müvəffəq olmuşdu.

[1] Yenə orada, səh. 23.

Salnaməçilərdən biri yazır ki, Nadir sui-qəsdin icraçısını güllə atılmazdan az əvvəl sezməyi bacarmışdı. Çox güman ki, qatil hədəfi nişan alarkən Nadirin gözünə sataşmış və nəticədə, Nadir çətinliklə özünü nişangahdan yayındırmış, yaxud atını qatilin nişan ala bilməyəcəyi sürətlə sürərək ölümdən canını qurtarmışdı.

Yerə yıxılan Nadir özünə gələndə hərəm gözətçilərinin əhatəsində olduğunu görür və qadınların qışqırıq səslərinin ətrafı bürüdüyünü eşidir. Qatil isə qaçıb gizlənməyi bacarmışdı. Rzaqulu da yaxında idi və kömək məqsədilə atasının olduğu yerə gəlir. Lakin Rzaqulu Nadirin kömək istəyəcəyi sonuncu insan idi, Nadir onu kənara itələyərək acılayır. Ayağa qalxdıqdan sonra da onu yaxına buraxmır. Daha sonra Nadir ona başqa bir at verilməsini əmr edir və qatilin qaçdığı istiqamətə yollanır"[1].

Bəli, böyük ehtimal ki, iranlı tarixçi M.Bamdadın[2] və başqa tədqiqatçıların da qeyd etdikləri kimi, Rzaqulu atasına qarşı təşkil edilmiş sui-qəsdin hazırlanmasından xəbərsiz olmuşdur. Onun belə bir xəyanətin iştirakçısı, yaxud təşəbbüskarı olması inandırıcı deyil. Ancaq onun Nadiri hövsələdən çıxaran davranış tərzi, atasına qarşı açıq-aşkar çıxışları və qısa müddətdə saray çəkişmələrində mahir olan məkrli əyanlarının təsirinə düşməsi hakimiyyət daxilindəki qüvvələrə Rzaquludan öz planlarında alət kimi istifadə etməyə tam imkan verdi. Zərgər dəqiqliyi ilə hazırlanmış bu oyunda onun həqiqi mahiyyətindən və icraçılarından bixəbər qalan Rzaquluya köməksiz qurban rolu ayrılmışdı. Taleyin qəribə oyundur ki, Nadirin əmri ilə gözləri çıxarılan Rzaqulunun həyatına atasının ölümündən

---

[1] Yenə orada, səh. 231-232.

[2] M.Bamdad. "Tarix-i-rical-i İran" ("İran ərənlərinin tarixi"). Tehran, 1944, IV cild, səh. 226.

qısa müddət sonra taxtı ələ keçirmiş əmisi oğlu Əliqulu tərəfindən son qoyulur. Tarix Rzaquluya elə onun öz həyatı bahasına atasının ölümündən sonra ölkənin və ailə üzvlərinin guya xilas olub rahat nəfəs alacağına dair bəslədiyi ümidlərin tamamilə əsassız olduğunu başa salmışdı. Nadirin ölümü həm Rzaqulu başda olmaqla onun bütün yaxınlarının, həm də bütöv bir imperiyanın – Azərbaycanın və İranın sonu oldu.

Əliquludan söz düşmüşkən, əmisinin sayəsində sonsuz sərvət və böyük nüfuz qazanmasına baxmayaraq, o da xəyanətkar çəkişmələrin, dövlətçilik üçün təhlükə kəsb edən iyrənc siyasi oyunların iştirakçısına çevrilməkdən yaxasını qurtara bilməmişdi. Tarixçilər yazır ki, 1747-ci ilin əvvəllərində Sistan və Bəlucistan əyalətlərində qalxan üsyanları yatırmaq üçün Nadir güvəndiyi qardaşı oğlu Əliqulunu həmin əraziyə göndərir. Lakin hökmdar-əmisinin əmrini yerinə yetirmək əvəzinə, Əliqulu üsyançılara qoşularaq mərkəzi hakimiyyətə tabe olmaqdan imtina edir. Sonradan o da məlum oldu ki, Əliqulu Nadirin yaxın ətrafına daxil olan bəzi nüfuzlu əyanlarla gizli əlaqəyə girərək əmisini taxtdan salmağa hesablanmış plan hazırlayıb. Bütün bunlardan xəbər tutan Nadir üsyanı yatırmaq və xəyanətkarları cəzalandırmaq üçün tədbirlər görməyə başlasa da, 1747-ci ilin iyununda gecə saatlarında öz çadırında qətlə yetirilir[1].

Qətlindən bir neçə ay öncə Nadirin bezginliyi elə bir həddə çatmışdı ki, o, yaxınlarını toplayaraq hakimiyyəti təhvil vermək, siyasətdən uzaqlaşmaq niyyətini açıq şəkildə dilə gətirmişdi: "Nadir şah 1747-ci ilin yazında Kir-

---

[1] И.П.Петрушевский. Иран в новое время. // История Ирана (коллектив авторов). Ответственный редактор: Проф. М.С.Иванов. Москва, 1977, стр. 208.

mandan Məşhəd istiqamətinə yola düşərkən, indiki Firdovs adlanan yerdə oğlanlarını yanına çağıraraq onlara hakimiyyətdən getmək fikrini bildirmiş, taxt-tacını onlara təklif etmişdi. Gənc olduqları üçün Nəsrullah Mirzə, İmamqulu Mirzə və Nadirin nəvəsi Şahrux Mirzə bu yükün altına girmək istəməmişdilər"[1].

Qeyd edilən mühüm tarixi-psixoloji məqamları nəzərə almadan, Nadirə birmənalı şəkildə, məsuliyyətsizcəsinə müstəbid, qaniçən ünvanını verənlər öz mövqelərini bir daha nəzərdən keçirsələr, heç də pis olmaz. Çünki Nadirin hakimiyyətinin son illərində konkret faciə və xəyanətlərlə dolu olan hadisələr səbəbindən qəddarlaşmış idarəçilik üsulunu böyük şəxsiyyətin bütün hakimiyyəti dövrünə şamil etmək ədalətsizlikdir. Bu qənaətdə olanlar bir məqamı da unutmamalıdırlar ki, Nadir arxa-arxaya aldığı psixoloji zərbələrə qədər kifayət qədər güzəştli mövqe tutan, əksər hallarda kütləvi zorakılıqdan çəkinən, məğlub etdiyi hökmdarlarla mülayim rəftar edən başçı kimi özünü göstərmişdir. Onun açıq döyüşdə darmadağın etdiyi Hindistan hakimi Məhəmməd şahı son nəticədə əfv edərək, yenidən öz taxtında bərpa etməsi, Əfqanıstan və Orta Asiya yürüşləri zamanı uğursuzluğa düçar olub, itaət bildirən nüfuzlu əmirlərlə hörmətlə davranması Nadirin heç də zorakılıq vaizi olmadığına dəlalət edir[2].

Nadirin guya səbəbsiz yerə əhalini soyub-talaması haqqında səslənən fikirlər də əhəmiyyətli dərəcədə təhrif olunmuşdur. Məlumdur ki, Nadir şah hakimiyyətinin ilk dövrlərində əkinçilərə və sənətkarlara münasibətdə yum-

---

[1] T.Həsənzadə. XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri (Mehdi Bamdadın "Tarix-i-rical-i İran" əsəri əsasında), səh. 47.

[2] Daha ətraflı bax: Michael Axworthy. The Sword of Persia. Nader Shah, from Tribal Warrior to Conquering Tyrant, pp. 175-243.

şaq vergi siyasətinə üstünlük vermiş, bir çox güzəştlərə getmişdir. Mərkəzi hakimiyyəti möhkəmləndirmək, həmçinin təsərrüfat həyatını canlandırmaq məqsədilə ayrı-ayrı nüfuzlu feodalların və ruhanilərin mənimsədiyi geniş torpaq sahələrinin müsadirə edilərək dövlətin nəzarətinə verilməsi də Nadirin bu istiqamətdə atdığı ciddi addımlardan biri idi. Onun parlaq hərbi qələbə ilə sona çatmış və xəzinəyə böyük qənimət gətirmiş Hindistan yürüşündən sonra 3 il müddətində ölkə əhalisini vergilərdən azad etməsi faktı da Nadirin Səfəvi hakimiyyətinin son dövrlərində tənəzzülə uğramış təsərrüfat həyatını dirçəltməyə çalışdığının sübutudur[1]. Bəli, danılmaz həqiqətdir ki, 1744-cü ildə, yəni üsyanların tüğyan etməyə başladığı və xarici təhlükənin gücləndiyi dövrdə Nadir bu güzəştləri ləğv etmək, vergiləri artırmaq məcburiyyətində qalmışdı. Lakin tanınmış şərqşünas İ.P.Petruşevski haqlı olaraq qeyd edirdi ki, Nadir şah dövrünün bütün qüsurlarına baxmayaraq, onun ölkənin iqtisadi problemlərini qulaqardına vurduğunu, təsərrüfatın inkişafı üçün heç bir səy göstərmədiyini demək ədalətsizlik olardı. Başlıca problem aparılan quruculuq işlərinin sistemli, ardıcıl səciyyə daşımamasından, bəzi hallarda isə nəzarətsiz şəkildə icrasından qaynaqlanırdı. Həmçinin müharibələr zamanı dağılmış şəhərlərin yenidən bərpası məqsədilə kənardan məcburi qaydada əhali köçürmələri Nadirə qarşı ciddi narazılığa səbəb olmuşdu. Bununla belə, Nadir şahın dövründə yeni şəhərlərin salınması, suvarma sistemlərinin bərpası və digər quruculuq işləri həmişə davam etdirilmişdir[2].

[1] И.П.Петрушевский. Иран в новое время, стр. 206-207.

[2] Daha ətraflı bax: yenə orada, səh. 207.

Tarixçilər qeyd edirlər ki, Nadir bütün hakimiyyəti boyunca vergilərin vaxtlı-vaxtında toplanılması, vergidən yayınanların kimliyindən asılı olmayaraq, qanunun bütün sərtliyi ilə cəzalandırılması məsələlərində də güzəştsiz mövqe tutmuşdur. Dövlət büdcəsinə daxil olan və sərf edilən vəsaitə ciddi nəzarət həyata keçirilir, bununla bağlı bütün sənədləşmə işləri dəqiqliklə icra olunurdu. Ayrı-ayrı nüfuzlu feodalların dövlətin gəlirlərini mənimsəmək cəhdləri onlara edamdan savayı heç bir şey vəd etmirdi. Nadirin iqtisadi məsələlərdə rəhbər tutduğu sərt xətt dövlət büdcəsinin artıqlaması ilə dolmasına, ordunun ehtiyaclarının yüksək səviyyədə təmin olunmasına gətirib çıxarırdı:

"Nadir şah öz hakimiyyətinin ilk günlərindən etibarən vergi toplanması işini qaydaya salmaq üçün vəzifə bölgüsü apardı. Hətta yürüş zamanı onu 130 mirzə müşayiət edirdi. Onların çoxu dövlət maliyyəsini hesablamaqla məşğul idi. Bu işə ciddi nəzarət sayəsində dövlətin gəlirləri xeyli artmışdı. Xalqdan toplanan vəsait indi ayrı-ayrı adamlar tərəfindən mənimsənilmir, xəzinəyə daxil edilirdi. Həmin vəsaitin əsas hissəsi ordunun saxlanılmasına xərclənirdi. O, vergi toplanması işinə iqtisadi məsələ kimi baxır, azacıq itaətsizlik göstərənləri təqib edir və öldürürdü. Məsələn, Naxçıvanın keçmiş hakimi Mirzə Rza, qoşun başçılarından Quba xan və Məsum xan dövlətin maliyyə işinə kömək etmədikləri üçün şahın qəzəbinə düçar olmuşdular. Nadir şahın daxili siyasəti ayrı-ayrı iri feodalların iqtisadi cəhətdən sarsılmasına gətirib çıxardı"[1]. Azərbaycan xalqının bu böyük övladını

[1] Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Z.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə. Bakı, 2009, I cild, səh. 539.

gözdən salmağa çalışanlar unutmasınlar ki, Nadir şahın əldə etdiyi bütün nailiyyətlər uzunmüddətli müharibələr dövrünə təsadüf etmişdir.

Nadir onun qarşısında dayanan ağır tarixi məsuliyyətin öhdəsindən bacarıqla gələrək, Azərbaycan və İranı osmanlılardan, ruslardan və əfqanlardan təmizləmiş, üstəlik Hindistana qədər uzanan nəhəng bir ərazini qısa müddətdə fəth etməyi bacarmışdı. Sual olunur, bütün bunları boş xəzinə, yaxud dağılmış təsərrüfat sistemi ilə həyata keçirmək mümkün idimi? Təbii ki, yox! Bəlkə də Nadir əldə etdiyi misilsiz zəfərlərdən sonra müəyyən qədər ayaq saxlamalı, müharibələrə ara verməli, iqtisadi həyatın tam şəkildə nizama salınması istiqamətində ardıcıl addımlar atmalı idi. Ancaq tarix ehtimalları sevmir, o həm də görkəmli şəxsiyyətlərin irsini xırda bəhanələrlə təhrif etməyi də heç kimə bağışlamır!

Əfsus ki, böyük maarifçi, ictimai xadim və tarixçi Abbasqulu ağa Bakıxanovdan (1794-1847)[1] başlayaraq, Nadirin şəxsiyyəti ətrafında hər hansı izahat və şərh vermədən, amansız despot obrazı yaratmaq ənənəsi tarixşünaslığımızda, ədəbi ənənəmizdə o qədər dərin kök salıb

---

[1] Abbasqulu ağa Bakıxanov məşhur "Gülüstani-İrəm" əsərində Nadir şahın hakimiyyətinin son illərində qəddar idarəçilik xətti tutduğunu qeyd etsə də, böyük fatehi bu vəziyyətə gətirib çıxarmış vacib siyasi və psixoloji səbəblərə toxunmur: "Nadir şah Xarəzm səfərindən qayıtdıqdan sonra onun beynində xudbinlik və fatehlik qürurundan əlavə, bədgümanlıq fikri və cürbəcür vəsvəsələr yol tapmışdı. Tərəfdarları ilə gözəl rəftarı tərk edərək zülm və şiddət göstərməyə başladı. Fədakar əmirlər, xanlar və sədaqətli məmurlar səbəbsiz çəkçevirə salınırdılar, amansız cəlladların qılıncı ilə öldürülürdülər, iqtidarlarından artıq tələbat nəticəsində çubuğu altında can verirdilər. Mülki işlər tamamilə nizamdan düşdü. Rəiyyətin əlsiz-ayaqsızları, zalımların təpikləri altında əzildi, bədəfkarların və düşmənlərin arzuladığı kimi, ölkənin hər bir tərəfində iğtişaş və hər bir işdə nizamsızlıq əmələ gəldi. Nadir şahın abad etdiyi İran ölkəsi özünün zülmündən viranəliyə çevrildi". [Abbasqulu ağa Bakıxanov. Gülüstani-İrəm. Tərcümə edəni: M.Əsgərli. Bakı, 1951, səh. 158].

ki, onunla mübarizə müəyyən vaxt və səy tələb edir. M.Aksvörtinin tədqiqatının müsbət cəhətlərindən danışarkən, onun Nadir şahın siyasi qərarların qəbulu, həmçinin ordunun və dövlətin idarə edilməsi məsələlərində, saray həyatına münasibətdə rəhbər tutduğu prinsiplərə dönə-dönə toxunması faktını qeyd etməmək olmaz. Bu mənada Nadirin qadınlarla, xüsusilə də anası ilə münasibətləri oxucuda böyük maraq doğurur, onun diqqətini çəkir. Məlumdur ki, Nadir şəxsi həyatını, ailə münasibətlərini daim qapalı saxlamağa çalışır, tarixçilərdən də əsas diqqəti onun siyasi fəaliyyətinə, yürüşlərinə və fəthlərinə yönəltməyi tələb edirdi. M.Aksvörti qeyd edir ki, Nadirin bu xüsusiyyətini bəziləri həmin dövrdə onun hədsiz şöhrətpərəstliyi ilə əlaqələndirirdilər: "Bəziləri belə düşünürdü ki, Nadir şəxsi həyatı ilə bağlı təfərrüatları bilərəkdən qabartmırdı və bundan məqsəd tarixçilərin bütün diqqətini onun siyasi fəaliyyətinə, hərbi qələbələrinə cəmləmək istəyi idi"[1]. Lakin Nadirin idarəçilik fəlsəfəsini təhlil etdikdə görürük ki, onun əsas prinsiplərindən birini də mühüm dövlət qərarlarının qəbuluna kənar müdaxilələrin, xüsusilə hərəmdə olan qadınların və ailə üzvlərinin açıq şəkildə qarışması hallarının qarşısını qətiyyətlə almaq təşkil edirdi.

Müxtəlif mənbələrdə Nadirin belə hallara kəskin münasibətini əks etdirən nümunələr bunun sübutudur. Onlardan birində deyilir ki, Nadirin hərəmlərindən olan və onun xüsusi rəğbət bəslədiyi xanım, hökmdardan təkidlə qəbul edilmiş qərarlardan birini dəyişdirməsini istəyir. Hər kəs həmin xanıma bəslənən xoş münasibətə aldanıb, onun Nadiri öz fikrindən daşındıra biləcəyini güman edirdi.

[1] Michael Axworthy. The Sword of Persia. Nader Shah, from Tribal Warrior to Conquering Tyrant, p. 233.

Lakin çoxlarının zənni özünü doğrultmadı və hökmdar onun işlərinə edilən müdaxiləyə kəskin reaksiya verdi: "Qadınlar mənim işlərimə qarışmamalıdırlar"[1]. Maraqlıdır ki, Nadir bərqərar etdiyi qayda-qanunlara riayət olunmasına diqqətlə yanaşır, bunu ilk növbədə öz yaxınlardan tələb edirdi. Nadir heç kəsə, hətta onun üçün çox əziz olan, gələcək hökmdarı misilsiz məhrumiyyətlərlə boya-başa çatdırmış doğma anasına belə güzəştə getmirdi. Oğlunun təbiətini, qətiyyətini bilən ana (Nadirin anasının adı haqqında mənbələrdə dəqiq məlumata rast gəlmək mümkün olmasa da, bir çox tarixçilər bu xanımın adının Həcər olduğu yazırlar)[2] ömrünün sonuna qədər Nadirin siyasi işlərinə, idarəçilik və maliyyə məsələlərinə qarışmırdı. O, yalnız oğlunun iştirak etdiyi təntənəli mərasimlərdə görünməyə üstünlük verirdi:

"Nadir öz qardaşı İbrahimi Dağıstanda itirmişdi və onun intiqamını almağa səbrsizlənirdi. Həmçinin o, bütün yaxın qohumlarından və dostlarından uzaq düşmüşdü. Onun bu tənhalığı həyatda ən əziz varlığı, onu yoxsulluqla böyütmüş, hər cür əziyyətə birgə qatlaşdıqları anası vəfat edəndə özünü bütün çılpaqlığı ilə büruzə verdi. Nadirin daima sevib əzizlədiyi anası o Hindistan yürüşündə olduğu zaman dünyasını dəyişmişdi. Bu qadın insanlarla ünsiyyətdən qaçır, vaxtının əksər hissəsini sarayın qadınlar üçün ayrılmış qismində keçirməyə üstünlük verir və yalnız Nadirin də iştirak etdiyi ən mühüm tədbirlərdə görünürdü. Onun ünsiyyətdən uzaq olması səbəbindən tarixçilər Nadirin doğum tarixi haqqında belə dəqiq bir məlumat qeydə ala bilməmişdilər"[3].

---

[1] Cahangir Hüseyn Əfşar. Azərbaycan Nadir Əfşar dövləti, səh. 233.

[2] Mehman Süleymanov. Nadir şah. Tehran, 2010, səh. 596.

[3] Michael Axworthy. The Sword of Persia. Nader Shah, from Tribal Warrior to Conquering Tyrant, p. 233.

Əgər Nadirin tarix səhnəsinə çıxdığı dövrün saray həyatını, hökmdarların ətrafında cərəyan edən saraydaxili çəkişmələri diqqətlə araşdırsaq, Nadirin həqiqətən də yaxın əhatəsindən, xüsusilə hərəmdən ehtiyatlanmaq üçün ciddi səbəblərinin olduğunu görərik. Sirr deyil ki, əksər orta əsr müsəlman hakimlərinin sarayları həmişə bitib-tükənmək bilməyən çəkişmələrin, pərdəarxası oyunların cərəyan etdiyi təhlükə, fitnə mənbəyi olmuşdur. Qadınlar isə həm bu oyunların fəal, öz məkrlərini gözəllikləri və zəriflikləri hesabına məharətlə pərdələyən, bəzi hallarda təcrübəli əyanlardan daha amansız, ölümcül siyasi fəndlər tətbiq edən təhlükəli iştirakçılarından biri olmaları, həm də tam əksinə, siyasi hakimiyyətin daha möhkəmləndirilməsinə verdikləri töhfələrlə diqqəti cəlb edirlər. Müsəlman Şərqinin təcrübəsində hər iki halın ibrətamiz təzahürləri vardır. XII əsrdə Atabəylər sarayında Mömünəxatunun rolu və əhəmiyyətinə dair kifayət qədər əhəmiyyətli faktlar məlumdur. Yaxud Şah İsmayıl Xətainin taleyində vəfalı qadının mühüm yer tutması da tarixdən bəllidir. Lakin Səfəvi hakimiyyətində Şah Sultan Hüseynin dövründə onun bibisi Məryəm bəyimin ruhanilərlə birləşərək idarəetmədə törətdiyi xüsusi çətinliklər də Nadir şaha məlum idi. Məryəm bəyim hökmdarı içkiyə qurşanmağa sövq etməklə, özünün məkrli niyyətlərini həyata keçirməyə nail olmuşdu. Ona görə də Nadir şah hərəmlə əlaqənin uyğun balansını yaratmış, faydalı məqamlarından yararlanmış, bu yolla Əfşarlar imperiyasını daha da qüvvətləndirmişdir.

Ümumiyyətlə, özündən əvvəl Səfəvi sarayındakı müsbət təcrübəni yaradıcı şəkildə inkişaf etdirən Nadir şah eşidib-gördüyü daxili çəkişmələrdən, xəyanətlərdən də lazımi dərs çıxarmaqla əsl lider kimi formalaşmışdır. Bu-

nunla belə, heç şübhəsiz ki, Nadirin siyasi qərarlar vermək və dövlətçilik məsələlərində tutduğu qətiyyətli mövqe şəxsi mənfəətlərini güdən, mənsəbpərəst, qanun-qaydaya tabe olmaq istəməyən nüfuzlu feodalları və əyanları son nəticədə onları əməli fəaliyyət tələb edən hökmdara qarşı birləşməyə sövq etmiş başlıca amilə çevrilmişdi. Həmin feodallar həmişə tayfa-qəbilə münasibətləri sistemində yaşayan, əsrlərdən bəri sərt idarəçilik üsuluna alışmış, yalnız güclü, qətiyyətli şəxsiyyətin iradəsi ilə birləşib, böyük hərbi-siyasi uğurlar əldə etməyə adət etmiş insan kütləsinin ancaq işlək qanunlarla vahid siyasi çətir altında toplaşıb bütöv bir xalqa ola biləcəyini anlamaqda çətinlik çəkirdilər. Bu cür siyasi şüursuzluğun nəticəsi idi ki, dövlətçilik miqyasında düşünmək qabiliyyəti olmayan, vətən təəssübkeşliyindən uzaq ayrı-ayrı əyanlar həlledici məqamda doğma xalqının gələcək taleyini qısamüddətli fərdi mənfəətlərə qurban verəcək qədər alçala bilmişdilər!

Nadir şahın rəhbər və sərkərdə kimi portretini çəkərkən M.Aksvörti əcnəbi səyyah və tacirlərin qeydləri əsasında böyük fatehin öz ordusu daxilində sağlam münasibətlər sistemi qurmasından, insanları bacarıqlarına görə qiymətləndirmək qabiliyyətindən, əsgərlərin maddi təminatına, ruh yüksəkliyinə nə dərəcədə həssaslıqla yanaşmasından heyranlıqla söz açır. Onun əfqanlarla həlledici döyüşlər ərəfəsində ruhdan düşmüş, pərakəndə şəkildə fəaliyyət göstərən, ayrı-ayrı tayfa rəhbərlərinin şəxsi münasibətlərinə aydınlıq gətirmək üçün vasitəyə çevrilmiş, köməksiz vəziyyətdəki Səfəvi ordusunu qısa müddətdə nizama salaraq, dəmir intizamı, maddi-texniki təchizatı bərqərar edərək uğur qazanması böyük sərkərdənin təşkilatçılıq qabiliyyətindən, əzmindən xəbər verən nümunələrin yalnız biridir.

Britaniyalı tarixçi əfqanlara həmlə ərəfəsində Səfəvi düşərgəsində Nadirin başçılığı altında aparılan hazırlıq işləri, müşahidə edilən canfəşanlıq və fəallıq haqqında yazır: "1729-cu ilin martında Nadir Novruz bayramını Məşhəddə qeyd etdi və nəhayət, Herat yürüşü üçün genişmiqyaslı hazırlıqlara başladı. O, mühüm hərbi səfərlərdən öncə həmişə etdiyi kimi, bu dəfə də hərbçilərə ziyafətlər verir, onlara silah, at, pul və başqa qiymətli hədiyyələr paylayırdı. Güclü rəqibin qarşısına azsaylı ordusu ilə çıxa bilmək üçün qəti tədbirlərin görülməsi qaçılmaz idi. Həmin hadisələrin canlı şahidlərindən biri olmuş yunan taciri və səyyah Bazil Vatatzesin yazdığına görə, Nadir, ordusunu döyüşə hazırlamaq üçün hər gün təlimlər təşkil edirdi. Biz bilirik ki, Nadir hakimiyyəti boyunca Əbivərddə Baba Əlinin dövründən son günə kimi ordunu bu cür təlimlərə cəlb edirdi, lakin hər hansı başqa mənbədə biz buna dair məlumata rast gələ bilmirik. Vatatzes yazırdı ki, Nadir təlim meydanına gəlir, 1000 və yaxud 100 nəfərdən ibarət heyətləri salamlayırdı. O, görünüşcə olduqca güclü, məğrur və qətiyyətli şəxs təsiri bağışlayırdı. Nadir burada atını bir qədər saxlayır, bir az oturaraq təlim keçən əsgərlərini müşahidə edirdi. Vatatzes onu sanki boğazında bir şey qalmış, nəyisə udmağa çalışan insan qismində təsvir etmişdi. Adəti üzrə axırda o öz hərbçilərinə tərəf dönür, həmin gün hansı döyüş taktikalarının və hansı silahlarla məşq ediləcəyini dəqiqləşdiridi.

Sonra təlimlər başlayırdı. Əsgərlər bir-birinin üzərinə həmlələr edir, təkərli və təkərsiz artilleriya vasitələrini sınaqdan keçirir, süvari və piyada döyüşünə dair bütün mümkün manevr və hücumları məşq edirdilər. Onlar hətta gerçək silahlardan istifadə edir, bir-birini yaralamamaq şərti ilə ehtiyatla döyüşürdülər.

Əsgərlər əlbəyaxa fəndləri də məşq edir, at belində silahla, oxla, mizraqla necə davranmaq lazım olduğunu da göstərirdilər. Onlar hündürdə yerləşdirilmiş şüşə küréni at belində çaparaq vurmalı idilər. Hərbiçilərin çox az hissəsi bunu bacarırdı, lakin Nadir üç-dörd cəhddə iki-üç hədəfi dəqiq nişan almağa müvəffəq olurdu. Vatatzes deyir ki, o, kürəni vurmaq üçün qollarını açanda sanki quş kimi qanadlarını gərir və qartal kimi çox sərrast toxunuşla hədəfi vururdu. Süvarilərin təlimi üç saat davam edirdi. Piyada qoşunları da onlarla birgə təlim keçirdilər. Piyada dedikdə, muşketləri daşıyanlar nəzərdə tutulurdu: "Hər kəs vahid birlik altında toplanır və onlara dayanmadan atəş açmaq və silahlarını sınaqdan keçirtmək imkanı verilirdi. Əgər Təhmasibqulu xan sıravi əsgərlərinin içərisində kiminsə xüsusi qabiliyyətini sezərdisə, həmin adamı yüz nəfərin və ya əlli nəfərin lideri təyin edərdi. O, bütün əsgərlərini cəsarətə və əzmkarlığa həvəsləndirirdi və bir sözlə özü də hərbi ləyaqət və güclü xarakterin ən bariz nümunəsi idi". Vatatzesin təsvir etdiyi kimi, süvarilər, eləcə də ayrı-ayrı silahlı bölmələrin bacarıqlarını birgə təlimlərdə təkmilləşdirmələri dramatik təəssürat oyatsa da, piyadalara odlu silahlardan istifadənin öyrədilməsi, təlimlərdə bahalı hərbi tozların, kürələrin geniş şəkildə sərf edilməsi Nadirin döyüşlərdə ordunun atəş gücünü də maksimuma çatdırmaq niyyətindən xəbər verirdi. Bu vəzifənin öhdəsindən gələ bilmək üçün peşəkar hərbiçilərə ehtiyac duyulurdu. Ordunun çevik, düşünülmüş şəkildə və mütəşəkkil hərəkət etməsi üçün güclü idarəçilik qabiliyyətinə malik iradəli komandanın varlığı tələb olunurdu. Hər gün keçirilən üç saatlıq təlimlər Nadirin əsgərlərini sərt nəzarət və güclü intizamın hökm sürdüyü yüksək səviyyəli orduya çevirmişdi. Onların məşq keçdikləri nəzəri döyüş meydanı

və taktiki düzülüşlər Nadirin öz ağlının məhsulu idi. Vatatzesin sözlərinə görə, Nadir adamlarına öz şəxsi təcrübəsinə əsasən hərəkət etməyi öyrədirdi. Təlimlər, atəş gücünün artırılması, intizam, nəzarət və şəxsi örnək Nadirin müharibə meydanlarındakı uğurlarının açarı idi"[1].

Böyük zəhmət və qətiyyət bahasına Nadirin ordu daxilində yaratdığı nizam-intizam ona türklərlə Bağdad ətrafında baş vermiş uğursuz toqquşmadan sonra nəinki qoşunu qısa müddətdə yenidən döyüş vəziyyətinə gətirməyə imkan verdi, üstəlik türklər üzərində parlaq qələbə qazanmağa da kömək etdi[2].

M.Aksvörtinin Nadirdən danışarkən onun qarşısına qoyduğu məqsədə bütün varlığı ilə köklənən, bütün çətinlikləri aşmağı bacaran güclü şəxsiyyəti haqqında nə qədər heyranlıqla söz açdığı diqqətdən yayınmır. Bu mənada Nadirin Azərbaycan və İran tarixində bir ilk sayılacaq daimi hərbi donanmanın yaradılması zamanı nümayiş etdirdiyi qətiyyət, sözün yaxşı mənasında inadkarlıq və dözüm nümunəsi örnək sayıla bilər. Əvvəllər hərbi ehtiyaclar üçün Hindistanda fəaliyyət göstərən ingilis və holland şirkətlərindən icarəyə müxtəlif ölçülü gəmilər götürən Nadir, yaxşı başa düşürdü ki, avropalıların belə yardımları müvəqqəti səciyyə daşıyır. Çünki, ingilislər Nadir şahın simasında Rusiyanın Qafqaza, İrana və Xəzər hövzəsinə doğru irəliləməsinin qarşısını kəsmiş güclü müttəfiq tapmışdılar. Nadiri dəstəkləməklə ingilislər əslində Şərqdə Rusiya ilə apardıqları qızğın rəqabətdə özlərini əhəmiyyətli dərəcədə sığortalamağı bacarmışdılar.

Ancaq məşhur deyimdə səsləndiyi kimi, "Britaniyanın daimi dostları yox, ancaq maraqları" var idi və Nadir bu

---

[1] Yenə orada, səh. 80-81.

[2] Daha ətraflı bax: yenə orada, səh. 137-145.

həqiqəti bilməmiş deyildi. Üstəlik Rusiya və Britaniya kimi Nadirin də Yaxın və Orta Şərqin gələcəyi ilə bağlı öz planları var idi. Həmin planlar ondan həm dənizdə, həm də quruda eyni dərəcədə bacarıqla döyüşmək iqtidarında olan müasir ordunun yaradılmasını tələb edirdi. Hərbi donanma həmin ordunun ayrılmaz hissəsi, vuran əli olmalı idi. Silahlı qüvvələri müasir artilleriya vasitələri ilə tam şəkildə təmin etməyi bacarmış Nadir donanma quruculuğunda da eyni keyfiyyətə nail olmaq üçün əlindən gələni əsirgəmirdi:

"Nadir Fars körfəzi bölgəsinə daha çox diqqət yetirməyin zəruriliyini anlamışdı. O, Hindistanda ələ keçirilmiş ərazilərlə dəniz vasitəsilə əlaqəni təmin etmək, Fars körfəzindən keçən beynəlxalq ticarəti nəzarət altına almaq, eləcə də osmanlıların nəzarətində olan limanlarla aparılan ticarət əməliyyatlarına təsir göstərə bilmək üçün ciddcəhdlə çalışırdı. Qoyulan vəzifələrin öhdəsindən gələ bilmək üçün Məsqət (Oman) və Hörmüz boğazına nəzarəti ələ keçirmək hava-su kimi vacib idi. Dənizlərə dair planlarını həyata keçirmək üçün Nadir Hindistanın Qərb sahilində, Kambey körfəzində yerləşən İngiltərənin Ost-Hind şirkətinin Suratda şah ordusu üçün gəmilərin hazırlanması barəsində göndərdiyi təklifə müsbət yanaşdı.

Şirkətin istehsalı olan ilk gəmilər 1741-ci ildə ordunun ixtiyarına verildi. Mükəmməlliyi ilə seçilən həmin gəmilərin maliyyə dəyəri çox yüksək idi. Məsələnin maddi tərəfini düşünən Nadir, Buşehrdə öz gəmiqayırma meydançalarının qurulması istiqamətində fəaliyyətə başladı. Donanmanın təşkili prosesini ləngidən ən ciddi səbəb şübhəsiz ki, bu sahədə peşəkar ustaların yoxluğu idi. İşləri çətinləşdirən digər bir amil isə Fars körfəzi sahillərində sıx ağaclığa malik sahələrin yoxluğundan qaynaqla-

nırdı. Gəmilərin düzəldilməsi üçün zəruri xammal – ağaclar 600 mil şimalda yerləşən, sıx Mazandaran meşələrindən daşınırdı. Ağır tikinti materiallarının zədələnməməsi üçün onları nökərlərin çiyinlərinə yükləyirdilər. Onların çoxu yol boyu ağırlığa tab gətirməyərək ya işi yarımçıq qoyub qaçır, yaxud da canlarını tapşırırdılar.

1741-ci ildə körfəz bölgəsində dəniz quldurları və üsyançılarla bir neçə toqquşma baş verdi. 1742-ci ilin əvvəllərində İran donanmasının sərəncamında 15 iri gəmi vardı idi ki, onların hamısı Suratdan, ingilis şirkətindən alınmışdı. Böyük bir gəminin alt-üst olması, Nadirin Buşehrdəki gəmiqayırma mərkəzinin işini daha da artırdı. Həmçinin Omanda yeni iğtişaşların baş qaldırması yenidən ordunun müdaxiləsini qaçılmaz edirdi. Nadir donanmasının yeni gəmiləri ağ fonda qırmızı qılınc təsviri olan bayraq altında üzürdülər"[1].

Təəssüf ki, sonradan Nadirin başının daxili müharibələrə qarışması, mütəxəssis qıtlığı, həmçinin vəsait çatışmamazlığı və digər çətinliklər ucbatından donanma quruculuğu istiqamətindəki işlər yarımçıq qaldı. Şübhəsiz ki, Nadir qiyamları cilovladıqdan və çətinlikləri aradan qaldırdıqdan sonra yenidən dövlətçilik üçün müstəsna əhəmiyyətə malik bu məsələnin həllində yekun nöqtəni qoyacaqdı. Ancaq əfsus ki, "Şərqin Napoleonu" xəyanət nəticəsində öldürüldü və onun digər strateji təşəbbüsləri kimi, donanmanın yaradılması işi də məntiqi yekununa çatmadı.

M.Aksvörti öz əsərində Nadirin siyasi və hərbi fəaliyyəti ilə bağlı məsələlərlə yanaşı, onun ibrətamiz davranışları ilə bağlı çoxsaylı maraqlı faktları da oxucunun diqqətinə çatdırmışdır. Sadalanan misallar hər kəsə hökmdar – Nadirlə bahəm, şəxsiyyət – Nadiri də yaxından tanımağa

[1] Yenə orada, səh. 229-230.

kömək edəcək. Belə nümunələrdən birini – Əmir Teymurun Səmərqənddəki məqbərəsindən qənimət kimi gətirilən qiymətli nefrit daşının taleyi ilə bağlı Nadirin verdiyi qərarı yada salmaq kifayətdir ki, bu böyük şəxsiyyətin son nəticədə nəfsani istəklərə, şöhrətpərəstliyə qalib gələrək insani duyğulara sadiq qalmağı bacardığını əyani şəkildə görmək mümkün olsun:

"Eyni zamanda, Nadirin Səmərqəndə göndərdiyi adamlar Teymurun məqbərəsinin yanında qiymətli yəşim (nefrit) daşından hazırlanmış lövhəni Məşhədə gətirdilər və onu hissələrə parçaladılar.

...Nadir onları (nefrit parçalarını – *R.M.*) əlinə alıb dərin bir fikrə daldı. Çox güman ki, o, gətirilərkən yolda parçalanan daşlara nəzər salıb, Əmir Teymurun məqbərəsinə əl uzatdığına görə dərin peşmançılıq hissləri keçirirdi. Bu, Nadirin nəticəsinə görə sonradan peşman olacağı ilk və son qərar deyildi. Nadirin belə ziddiyyətli şəxsiyyəti əslində, onu ətrafdakıların nəzərində cəlbedici, maraqlı göstərirdi, lakin təəssüf doğuran cəhət Nadirin də əksər hökmdarlar kimi özündən razılıq hissinin əsirliyində olması idi. Gözlənilmədən Nadir qərarını dəyişərək özü üçün hazırlatdığı məzar daşının əvvəl buyurduğu kimi nefritlə deyil, qızılla işlənməsinə göstəriş verdi. Əmir Teymurun sərdabəsindən qoparılaraq gətirilmiş nefrit daşları isə geriyə – Səmərqəndə qaytarıldı"[1].

Daşları Səmərqəndə göndərməklə Nadir əslində keçmiş tarixi irsə, elə onun özü qədər böyük fateh kimi adını tarixə həkk etdirmiş Əmir Teymurun şəxsiyyətinə, xatirəsinə öz rəmzi ehtiramını bildirmiş olurdu. Bununla Nadir sanki tarixin onun öz irsinə münasibətdə də bənzər rəftar nümayiş etdirəcəyinə ümid bəslədiyini göstərirdi...

[1] Yenə orada, səh. 223, 228.

İbrətamizliyi ilə hər kəsdə dərin təəssürat oyadan digər bir hadisə isə bu böyük fatehin verdiyi vədə, sözə ən çətin şərtlər daxilində belə sadiq qalmağı bacardığını göstərməkdədir. O həm də Nadirin hətta məğlubiyyətə uğratdığı hökmdarların belə ləyaqət və şərəfinə, qüruruna nə qədər həssaslıqla yanaşdığını nümayiş etdirir. Söhbət Nadirin Orta Asiyanı fəth etdiyi zaman məğlub etdiyi Buxara hakimi Əbülfəz xanın qızının nikahı ətrafında Nadirlə doğma oğlu Rzaqulu arasında yaranmış ixtilafdan gedir:

"Türküstanın fəthi Nadirin nəzərində olduqca böyük rəmzi məna kəsb edirdi. O vaxtilə oğlu Nəsrullahı Əmir Teymurun nəslindən olan xanımla evləndirdiyi kimi, indi də nikah diplomatiyasına əl ataraq öz soyuna Çingiz xanın qanını qatmaq istəyirdi. Belə qərara gəlinir ki, itaət etməkdən başqa çarəsi qalmamış Əbülfəzin böyük qızı Rzaqulu xanla, kiçik qızı isə Əliqulu xanla izdivac bağlasın. Lakin Rzaqulu Mirzə Əbülfəz xanın kiçik qızını bəyənir, onun daha gözəl və ağıllı olduğunu bildirir, atasından, məhz onunla evləndirilməsini istəyir. Nadir belə bir hərəkətin Əbülfəz xan üçün təhqir olacağını əsas gətirərək Rza Qulunun istəyini rədd edir. Onsuz da Rzaqulu xan əmisioğlu Əliqulu ilə tərəzinin eyni gözünə qoyulmasından məmnun deyildi. İstəyinin qəbul edilməyəcəyi təqdirdə isə o, ümumiyyətlə evlənməyəcəyini bəyan etdi. Eşitdiklərindən hiddətlənən Nadir vəziyyətdən çıxış yolu kimi şəxsən özü Əbülfəz xanın böyük qızı ilə nikaha daxil olmaq qərarına gəldi. Kiçik qız isə razılaşdırıldığı kimi Əliqulu Mirzəyə ərə verildi. Bu hadisə ata ilə oğul arasında artan xətlə gərginləşən münasibətləri dalana dirədi"[1].

Əvvəldə qeyd etdiyim kimi, bizim tarixçilərin axsadıqları əsas istiqamət məhz faktların hərtərəfli təhlilinə, mü-

---

[1] Yenə orada, səh. 223-224.

qayisə və qarşılaşdırılmaya əsaslanan təqdimetmə, çatdırılma tərzidir. Əgər sözügedən qüsurun bir hissəsi, artıq vurğuladığım kimi, şəxsiyyətlərə bəslənən subyektiv rəğbətdən, yaxud qərəzdən qaynaqlanırsa, digər bir qismi əksər tədqiqatçılarımızın hələ də salnaməçilikdən təhlilə, analitik tarixə keçid edə bilməməsindən irəli gəlir.

Toxunduğum bu mühüm mətləb əsla indinin problemi deyil və Azərbaycan tarixi fikrini araşdıranlar bilməmiş deyirlər ki, tarixşünaslığımızın salnaməçilik mərəzindən qurtularaq müasir elmin tələbləri ilə ayaqlaşmasının zəruriliyi məsələsi hələ XIX əsrdə, Mirzə Fətəli Axundov tərəfindən təkidlə qaldırılmış, ancaq çox təəssüf ki, indiyədək tam mənada həllini tapmamışdır. Nə qədər təəccüblü görünsə və təsadüf kimi qiymətləndirilsə də, böyük mütəfəkkir öz iradlarını məhz Nadir şahın irsi kontekstində qələmə almış, Nadirin saray tarixçilərini uzunçuluqda, ifrata varmaqda, yersiz bəzək-düzək və pafosda günahlandırmışdır. Tədqiqatçı Ə.Hüseynzadə "XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı" adlı kitabında bu məsələni xatırladaraq yazır:

"M.F.Axundov mətləb və məqsədin zahiri və cümləpərdazlıq içində itib getdiyini, oxucunun öz fikrini hadisələrin gedişindən ziyadə qafiyələrin düzülüşünə, anlaşılmaz və lüzumsuz sözlərin ətrafına səfərbər etmək məcburiyyətində olduğunu qeyd edir. Rzaqulu xana[1] xitabən deyir: Qardaş, mən ki, şeir divanı oxumuram. Mən tarix oxuyuram. Qoy görüm nə etdilər? Sən Allah, məndən əl çək, öz şeirinlə hisslərimi pərişan etmə! Əhvalat xatirimdən çıxdı". O, müsəlman tarixçilərinin məzmunsuz və anlaşılmaz dilini tənqid ilə yanaşı, onların konkret faktlar-

[1] Söhbət məşhur iranlı tarixçi və şair Rzaqulu xan Hidayətdən (1800-1871) gedir. – *R.M.*

dan uzaq olduqlarını, faktları mücərrəd fikirlərlə və mədhiyyələrlə əvəz etdiklərini də xüsusilə qeyd edir. Mirzə Mehdixan[1] tərəfindən təsvir olunan konkret şəraitin və faktların göstərilmədiyindən şikayət edən M.F.Axundov yazır: "İnsafsız tarixçi heç olmasa yazmır ki, bu müharibədə Nadirin nə qədər qoşunu var idi, piyadaları nə qədər, atlıları nə qədər idi. Neçə topu, neçə zənburəki var idi. Topları nə cür toplar idi. Müharibə meydanının şəraiti necə idi. Atlılar necə düzülmüşdülər və piyadalar necə yerləşdirilmişdilər. Nadirin özü və onun məşhur sərkərdələri harada dayanmışdılar. Hər sərkərdəyə nə kimi tapşırıqlar verilmişdi. Müharibənin qızğın zamanında Nadirin özü nə vəziyyətdə idi və sərkərdələri nə edirdilər. Qələbə üçün hansı əməliyyat əsas amil olmuşdur. Sərkərdələrdən hansı tapşırıqları daha düzgün yerinə yetirmişdir. Vuruşma neçə saat davam etmişdir və s."[2].

M.F.Axundovun kəskin şəkildə tənqid etdiyi məsələlərdən biri də tarixçilərimizin böyük şəxsiyyətlərin məziyyət və qüsurları haqqında söz açarkən faktların dili ilə deyil, gurultulu, boğazdan yuxarı cümlələrdən istifadə etmələri, yersiz yaltaqlığa, yaxud da ikrah doğuran kinə, nifrətə yol verməleridir. Böyük mütəfəkkir və maarifçi öz fikrini Mirzə Mehdi xan Astrabadinin Nadir şahı tərifləmək üçün seçdiyi üslubun nümunəsində kifayət qədər tutarlı şəkildə əsaslandırmışdır: "Tarixçidən konkret faktların obyektiv olaraq göstərilməsini tələb edən M.F.Axundov Astarabadlı Mirzə Mehdini Nadir haqqında faydasız, həqiqətdən uzaq, dəbdəbəli sözlər söyləməkdə ittiham edib belə yazır: "Tarixçi Mirzə Mehdi Astarabadi... Nadirin əqli, fikri və böyük-

[1] Nadir şah dövrünün görkəmli saray tarixçisi Mirzə Mehdi xan Astrabadi nəzərdə tutulur. – *R.M.*

[2] Ə.Hüseynzadə. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı. Bakı, 1967, səh. 60-61.

lüyünü əsla anlamamış və öz zəhlətökən sözləri ilə oxucunun başını qatmağa çalışmışdır. Guya oxucu gərək Nadirin hünəri ilə deyil, müəllifin yazı sənəti ilə tanış olmalı imiş. Ona görə də müəllif Nadir haqqında belə dəbdəbəli sözlər yazmaqla kifayətlənmişdir:

"Elə bir padşah ki, əgər döyüş meydanında onun iradə sərkərdəsi dənizin sükutuna işarə edərsə, dalğa tufanının ləngərçisi olar və əgər ağır dağın hərəkətinə fərman verərsə, sıldırım qayalar narın qum kimi axışıb gedər. Əgər qaranlıq gecədə od yandırmağı qadağan edərsə, ildırım şimşək çaxmağını vurmağa cəsarət etməz və əgər səhər-səhər susmaq əmrini verərsə, sübh nəfəs çəkməyə cəsarət edə bilməz". Bu mübaliğəli sitatı gətirdikdən sonra M.F.Axundov Nadirə yaltaqlanan Mirzə Mehdi xana xitabən yazır: "Yalançının evi yıxılsın! Deyən ola ki, ay axmaq tarixçi, sən ki, zəhmət çəkib bu qədər sözü yazırsan, bari bu zəhməti elə bir mətləb üçün sərf et ki, içindən bir xeyir çıxsın. Nə üçün ancaq cəfəngiyyat yazırsan? Axı özün bir düşün, gör, kürkçü oğlu kimdir, dəniz, dağ, ildırım nədir? Bunların arasında nə əlaqə ola bilər?".

Mirzə Mehdi xanın əsərini cəfəngiyyat adlandıran M.F.Axundovun fikrincə, tarixi əsərlərin vəzifəsi keçmişin təcrübələrindən yeni nəslə istifadə imkanı verməkdir. Yeni nəsil keçmişin təcrübəsindən müsbət və mənfi cəhətləri təhlil və tənqid əsasında ibrət almalıdır. Ona görə tarixçi təsvir etdiyi hadisələri mümkün qədər konkret və obyektiv verməli, onları doğuran ictimai şəraiti, səbəbləri təhlili-tənqidi surətdə yazmalıdır ki, oxucular ondan nəticə çıxara bilsin"[1].

Bu baxımdan M.Aksvörtinin haqqında bəhs olunan əsəri tarixçiləri düşündürəcək və oxucuların marağına səbəb olacaq cəlbedici elmi mənbədir.

[1] Yenə orada, səh. 61-62.

## III
## AZƏRBAYCANIN TARİXİ İRSİNƏ YANAŞMADA BƏZİ QƏRB MÜƏLLİFLƏRİNİN MÜHÜM XƏTASI HAQQINDA

*İranın tarixini odur qanıyla yazan,*
*Rəşadəti, mərdliyi vermiş dünyaya nişan.*
*Vətən eşqi yolunda imtahan vermişdir o,*
*Bu cahanın özünə bir cahan vermişdir o.*
*"Var olsun Azərbaycan" deyir dərdli Şəhriyar,*
*Var olsun bu dünyada, nə qədər ki, dünya var.*

***Məhəmmədhüseyn Şəhriyar***

İnsan əməyinin və təfəkkürünün istənilən məhsulu kimi təbii ki, M.Aksvörtinin barəsində söz açdığımız əsəri də malik olduğu məziyyətlərlə yanaşı, qüsurlardan da xali deyildir. Təbii ki, mən bu qüsurların hamısını sadalamaq niyyətində deyiləm və bu işin əsas yükünü tarixçilərimizin, tənqidçi və mənbəşünaslarımızın, oxucularımızın öhdəsinə buraxmağa üstünlük verirəm. Lakin M.Aksvörtinin diqqətdən kənarda qoyduğu və Azərbaycan tarixi üçün müstəsna əhəmiyyət daşıyan bir vacib mətləb də var ki, onun üzərindən sükutla keçmək yolverilməzdir.

Haqqında danışdığımız məsələ, müəllifin Nadir şahın öz doğma vətəni, yəni Azərbaycanın siyasi taleyində oynadığı böyük rol və qoyduğu dərin iz barəsində ümumiyyətlə söz açmaması ilə bağlıdır. Doğrudur, Nadirin qurduğu imperiyanın mərkəzi İranda yerləşirdi, lakin İranın həm əvvəlki hakimləri – Ağqoyunlular və Səfəvilər,

həm də sonrakı ağası Qacarlar kimi bu şəxsiyyəti də tarix səhnəsinə çıxaran məhz Azərbaycan türkləri idi. Nadir Azərbaycan türklərindən ibarət tayfaları ətrafına toplayaraq əvvəlcə Səfəvilərin əfqanlar tərəfindən ələ keçirilmiş paytaxtı İsfahanı, sonra isə bütün Azərbaycanı və İranı yadelli əsarətindən xilas etmişdi. Sual olunur, əgər Əfşarlar imperiyası fars dövləti, ordu və siyasi hakimiyyət də farslardan ibarət idisə, bir anın içində Azərbaycan türkləri döyüşkən ordu yaradıb o dövrün ən böyük dövlətlərinə – Osmanlı imperiyasına və Çar Rusiyasına qarşı müzəffər mübarizəni hansı qüvvə ilə aparmışdırlar? İkincisi, niyə görə yadellilərə qarşı baş qaldıran üsyanlar məhz Azərbaycanda başladı və azadlıq hərəkatına məhz Azərbaycan türkləri rəhbərlik etdilər? Nəhayət üçüncüsü, M.Aksvörti və digər Qərb tarixçiləri Nadirin ordusunu fars ordusu adlandırdıqları zaman görəsən nə səbəbdən Əfşar tayfalarının, həmçinin onların ətrafında cəmləşmiş kütlənin Azərbaycan türkləri olduğunu nəzərə almağı unudurlar? Halbuki, ən nüfuzlu Qərb tarixçiləri və şərqşünasları heç zaman Əfşarların türk mənşəyini şübhə altına almamışlar[1]. Yeri gəlmişkən, M.Aksvörtinin özü də Nadirin və Əfşarların türk mənşəli olması faktını qəbul edir[2].

Nəticədə çox təəccüblü və Qərb tarixçilərinin səmimiliyinə dair ciddi suallar yaradan mənzərə yaranır – döv-

[1] Bax: Л.Локкарт. Надир шах, стр. 23; Стенли Лен-Пуль. Мусульманские династии. Хронологические и генеалогические таблицы с историческими введениями. Перевел с английского с примечаниями и дополнениями: В.В.Бартольд. Санкт-Петербург, 1899, стр. 218; К.Э.Босворт. Мусульманские династии. Справочник по хронологии и генеалогии. Перевод с английского и примечания: П.А.Грязневича. Москва, 1971, стр. 230; Э.Шмидт. Индия. // Истории человечества. Под ред.: Г.Гельмольта. Санкт-Петербург,1903, II том, стр. 439 və s.

[2] Michael Axworthy. The Sword of Persia. Nader Shah, from Tribal Warrior to Conquering Tyrant, p. 18.

ləti quran sülalə və hökmdar Azərbaycan türklərindən olduğu, ordunun əsas zərbə qüvvəsini və məmur aparatını Azərbaycan tayfaları təşkil etdikləri halda, avropalılar Əfşarlar imperiyasını "fars səltənəti" qismində qələmə verirlər. Nadir şahın parlaq qələbələrində böyük pay sahibi olan və M.Aksvörtinin də şücaətlərini ağızdolusu vəsf etdiyi Sarı xan, Təhmasibqulu xan Cəlair, Babaxan Çavuşlu, Əmirxan bəy Qırxlı, Kəlbəli xan, Qasım bəy Qırxlı, Səlim xan Əfşar, Əmir Əhməd xan kimi tanınmış sərkərdələr, Əlimərdan xan Şamlu, Rzaqulu xan Şamlu, Mustafa xan Şamlu kimi diplomatların[1] hamısı Azərbaycan-türk tayfalarına mənsub olduqları halda, onları elmi ədəbiyyatda "fars" kimi təqdim etmək ənənəsi görəsən hansı maraqlardan irəli gəlir və həqiqətə nə dərəcədə uyğundur?

Burada doğurdan da sağlam məntiqlə uzlaşan, tarixi həqiqətlərlə səsləşən yanaşma tapmaq qeyri-mümkündür. Bəzən Qərb tarixçiləri öz qərəzli yanaşmalarına don geyindirmək, izah tapmaq üçün Əfşarlar dövlətinin siyasi mərkəzinin İranda, Məşhəddə yerləşdiyi faktını qabartmağa çalışırlar. Lakin bu mülahizə zəif və elmi tənqidə dözümsüzdür. Əvvəla ona görə ki, Nadir özünü Azərbaycanın və İranın hakimi elan etmək üçün təşkil etdiyi təntənəli mərasimin keçirilmə yeri kimi Azərbaycanı, daha dəqiq desək Muğan düzünü seçmişdi. 1736-cı ilin yanvarında 20.000 insanın, o cümlədən aparıcı türk-Azərbaycan tayfa başçılarının, nüfuzlu din xadimlərinin və ordu komandanlarının iştirak etdiyi qurultayda Nadir taxta məhz Azərbaycan hökmdarı kimi çıxmışdır. Onun hakimiyyətə

---

[1] Nadir şah dövrünün görkəmli azərbaycanlı sərkərdə və diplomatları haqqında daha ətraflı bax: T. Həsənzadə. XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri (Mehdi Bamdadın "Tarix-i-rical-i İran" əsəri əsasında), səh. 48-71.

gəlməsi məsələsində həlledici söz sahibi olan 54 xanın hamısı müxtəlif türk tayfalarını təşkil edən nüfuzlu feodallar idi. İ.P.Petruşevski haqlı olaraq qeyd edir ki, 54 xanı çıxmaq şərti ilə qurultaya qatılanlardan heç biri söz sahibi qismində çıxış etmir, sadəcə qonaq statusu daşıyırdı[1].

Mənbələrdən o da məlumdur ki, qurultayda Səfəvilər sülaləsinin iqtidarda qalmasına və Nadirin taxta çıxmasına etiraz edən yeganə qüvvə, yəni müxalifət də Azərbaycan türklərindən olan Qacarlar nəsli idi. Çünki bu tayfanın əksər nümayəndələri Gəncə və Qarabağ bəylərbəyi Uğurlu xan Qacarın başçılığı ilə Səfəvi sülaləsinin hakimiyyətdə qalmasına tərəfdar çıxırdılar. Nadir taxt-taca yiyələndikdən sonra təbii ki, Qacarlar bu etirazlarının cəzasını çəkməli oldular. Uğurlu xan Qacarın idarəçiliyində olan bütün ərazilər Gəncə şəhəri istisna olmaqla, onun tabeliyindən çıxarılır və nüfuzlu feodalın rütbəsi aşağı salınır[2]. Həmçinin cəza tədbiri olaraq Qacar tayfasına mənsub çox sayda ailənin məcburi şəkildə Qarabağ və Gəncə bölgəsindən İranın içərilərinə, daha dəqiq Xorasan vilayətinə köçürüldüyü də bilinən tarixi faktdır[3].

Beləliklə, açıq-aydın görünür ki, Nadirin taxta çıxmasını dəstəkləyənlər də, bu təşəbbüsə müxalif mövqe tutanlar da məhz Azərbaycan türklərini təmsil edən tayfaların nümayəndələri idi. O dövrün siyasi proseslərini müfəssəl şəkildə araşdırmış, mənbələrlə ətraflı şəkildə tanış olan istənilən peşəkar tarixçi farsların bu prosesdə zərrə

---

[1] И.П.Петрушевский. Иран в новое время, стр. 204.

[2] И.П.Петрушевский. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. Ленинград, 1949, стр. 124.

[3] Daha ətraflı bax: Мирза-Адыгезал-бек. Карабах-наме. Баку, 1950, стр. 47-48; Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək). Z.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə. I cild, səh. 539.

qədər də söz sahibi olmadığını təsdiqləyər. Bunun əksini iddia etmək isə ya qeyri-peşəkarlıqdan, ya da sadəcə Azərbaycanın tarixi mirasına qarşı məqsədli ayrı-seçkilikdən irəli gələ bilər.

Nadiri farsların adına çıxmaq üçün cidd-cəhdlə çalışan Qərb tarixçiləri bir faktı da unudurlar ki, Nadir 1736-cı ildə özünü şah elan etmək məqsədilə Muğanda qurultay çağırdığı zaman artıq bütün İranın və Azərbaycanın faktiki sahibinə çevrilmişdi. Ruslar Nadirin qətiyyətli hərəkətləri qarşısında ələ keçirdikləri Xəzərsahili vilayətlərdən çəkilmək məcburiyyətində qalmış, Osmanlı ordusu, əfqanlar və özbəklər də ağır məğlubiyyətə uğradılaraq ölkədən qovulmuşdular. Yəni, Nadir bu qurultayı istənilən məkanda, o cümlədən farsların yaşadıqları əyalətlərdə də rahatlıqla keçirə bilərdi. Ancaq böyük fateh məhz Azərbaycanı seçdi və heç şübhəsiz ki, onun bu seçiminə təsir göstərən başlıca amil damarlarındakı türk qanı idi.

Müqayisə üçün bir maraqlı faktı da oxucuların diqqətinə çatdırım ki, Nadirdən təxminən 60 il sonra, 1795-ci ildə, xalqımızın digər böyük oğlu, sərkərdə və görkəmli dövlət xadimi Ağa Məhəmməd şah Qacar da tacqoyma mərasiminin məkanı qismində Muğan düzünü, yəni Azərbaycanı seçmişdi. O da öz addımı ilə Nadir kimi Azərbaycana və doğma xalqına bağlılığını nümayiş və təsdiq etmişdir. Mərasim zamanı Ağa Məhəmməd şah Nadirin böyüklüyünə ehtiram əlaməti kimi onun tacını başına qoymaqdan imtina etmişdir. Qacar yalnız İranı və Azərbaycanın bir qismini özünə tabe etdiyindən, Qafqazdan Hindistana qədər hökmü yeriyən Nadirin tacını başına qoymaq üçün mənəvi haqqı olmadığı qənaətində idi.

Nadirin Azərbaycan tarixindəki müstəsna yerini şərtləndirən və Qərb şərqşünaslarının göz yumduqları həqi-

qətlərdən biri də onun azərbaycanlıların yaşadıqları torpaqları ilk dəfə "Azərbaycan" adlanan inzibati vahiddə birləşdirməsi faktıdır. Əgər Səfəvilər öz adlarını tarixə ilk mərkəzləşmiş Azərbaycan dövlətinin qurucuları kimi yazmağa müvəffəq olmuşdularsa, Nadir də öz növbəsində tarixi Azərbaycan torpaqlarını ilk dəfə eyniadlı inzibati vahiddə toplayaraq onun hüdudlarını konkret şəkildə cızmış şəxsiyyət kimi yadda qalmışdır: "Nadir keçmiş inzibati bölgüləri – Şirvan, Qarabağ, Çuxur-Səd və Təbriz bəylərbəyliklərini ləğv edərək, əslində, Azərbaycan adı altında vahid inzibati bölgü yaratdı. Bölgünün mərkəzi Təbriz şəhəri, hakimi isə qardaşı İbrahim oldu"[1].

Əgər biz hal-hazırda 1813-cü ilin Gülüstan və 1828-ci ilin Türkmənçay müqavilələri əsasında iki yerə parçalanmış vahid, tarixi Azərbaycandan, onun konkret hüdudlarından, əyalət və şəhərlərindən əminliklə söhbət aça biliriksə, bunu ilk növbədə Nadir şaha, onun yaratdığı inzibati vahidə borcluyuq.

M.Aksvörtinin kitabını vərəqləyərkən, oxucuda Nadirin ölümündən sonra İranın düçar olduğu ağır siyasi fəlakətin miqyası haqqında dəqiq təsəvvür yaranır, lakin bu böyük şəxsiyyətin ata yurdu – Azərbaycan və soydaşları – azərbaycan türklərinin sonrakı aqibəti haqqında bir cümləyə belə rast gəlmək olmur. Halbuki, Nadirin qətli ilə ən böyük zərbə məhz Azərbaycan dövlətçiliyinə və Azərbaycan xalqına dəymişdi. Əgər Ağa Məhəmməd şah Qacar öz qılıncının gücü hesabına İranın farslar yaşayan bölgələrində yaranmış hərc-mərcliyi cilovlamağı bacardısa, əfsus ki, Azərbaycanın bütünlüyünü bərpa etmək ona müyəssər olmadı.

---

[1] Azərbaycan tarixi (Ən qədim zamanlardan XX əsrədək). Z.Bünyadovun və Y.B.Yusifovun redaktəsi ilə, I cild, səh. 539.

Tarixi Azərbaycanın güneyində sabitliyi bərqərar edən, ayrı-ayrı xanlıqlara son qoyan Qacarın eyni məqsədi şimali Azərbaycanda da həyata keçirməsinə onun Şuşa qalasındakı qətli imkan vermədi. Nəticədə zəif və bir-biri ilə çəkişən Azərbaycan xanlıqları çar Rusiyası üçün asan yemə çevrilərək, arxa-arxaya işğal olundu. Azərbaycan xalqı öz bütövlüyünü itirdi, onun şimalda qalan hissəsi 1918-ci ilin 28 mayına qədər, yəni Şərqdə ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti elan olunanadək dövlətçiliyindən məhrum oldu. Maraqlıdır, görəsən Nadir şahla bağlı ən xırda məişət təfərrüatlarını belə gözdən qaçırmamağa çalışan M.Aksvörti bu qədər mühüm bir məsələni nə səbəbdən diqqətdən kənarda qoyub? Çox qəribədir ki, M.Aksvörti öz kitabında dəfələrlə Nadir şahın sarayında və ordusunda işlənən çoxsaylı türkdilli terminlərdən söz açsa da, onların mənşəyi barəsində, həmin terminlərdən istifadə edən xalqın kimliyi haqqında mülahizə yürütməyə nədənsə lüzum görmür. Nadir şah zamanında dövriyyədə olan "qızılbaş", "qurultay", "molla başı", "nəşəqçi başı" (hərbi polis funksiyasını icra edən hərbi vəzifə – *R.M.*), "tüfəngçi", "qorçu başı", "keşikçi", "keşikçi başı" kimi sırf türk mənşəli anlayışları işlədən M.Aksvörti Qərb tarixçilərinin bir çoxu kimi, özləri və oxucu üçün böyük maraq doğuran adi bir suala cavab verməkdən yayınır – əgər İranda ərəb əsarətinin süqutundan sonra yaranan dövlət qurumları fars mənşəli idisə, hansı səbəbdən əsrlər boyunca İranda işlənən hərbi və inzibati terminlərin böyük əksəriyyəti 1925-ci ilə qədər, yəni Pəhləvilər sülaləsi taxta çıxanadək məhz türk-Azərbaycan mənşəli olmuşdur? Axı Rza şah Pəhləvinin (1925-1941) fars dilindəki türkmənşəli hərbi terminlərin məcburi qaydada ərəb-fars ifadələri ilə əvəzlənməsi haqqındakı fər-

manı o qədər də uzaq tarix deyil ki, Qərb tarixçiləri onu xatırlamaqda çətinlik çəksinlər? "Müasir fars dilinin leksikologiyası" kitabının müəllifi L.S.Peysikov sözügedən "islahatlar" nəticəsində ərəb-fars tərkibləri ilə əvəzlənmiş türk hərbi toponimlərindən bəzi nümunələr vermişdir.

Tədqiqatçı qeyd edir ki, Rza şahın göstərişi əsasında qarnizon mənasında işlədilən türk sözü "saxlov" fars ifadəsi "padeqan"la, "balabançı" – ərəb-fars mənşəli "təblzan"la, ordu mənasını verən "qoşun" fars kəlməsi "ərteş"lə, "qaravul" – "negahban"la, silah mənasını verən türk mənşəli "qur" sözü ərəb mənşəli "əsləhe" ifadəsi ilə əvəzlənmişdir[1].

Hətta bu "təmizləmələrdən" sonra da fars leksikasında hələ də hərb sahəsinə aid türk mənşəli ifadələr qalmaqdadır – "tup" (top), "tofang" (tüfəng), patron mənasında işlədilən "feşəng" (fişəng), "qamçi" (qamçı) və s.[2]

Nadir şahın qarşısına qoyduğu ideoloji məqsədlər, uğrunda çalışdığı məfkurə də onun fars, yaxud İran dövlətçilik ideallarının keşikçisi, təəssübkeşi, yaxud fədaisi olmadığına birmənalı şəkildə dəlalət edir. Belə ki, İslam dinindəki məzhəb ixtilaflarını, şiə-sünni qarşıdurmasını aradan qaldırıb təfriqəçiliyə son qoymaq naminə Nadirin göstərdiyi çoxsaylı cəhdlər, müsəlman-türk aləmini birləşdirmək üçün səfərbər etdiyi diplomatik imkanlar onun tamam fərqli yolun yolçusu olduğuna sübutdur. Təsadüfi deyil ki, XX əsr həm Azərbaycan, həm də ümumtürk ictimai-siyasi fikrinin ən parlaq nümayəndələrindən hesab olunan Əhməd Ağaoğlu (1869-1939) "İran və inqilabı" adlı əsərində Nadiri türk-İslam aləminin həmrəyliyi na-

---

[1] Л.С.Пейсиков. Лексикология современного персидского языка. Москва, 1975, стр. 48.

[2] Daha ətraflı bax: həmin mənbə; səh. 47-48.

minə çarpışan azsaylı müdrik şəxsiyyətlərdən biri kimi səciyyələndirir, onun bu uzaqgörən təşəbbüsünün Osmanlı sultanının tərsliyi ucbatından baş tutmasından təəssüfünü bildirir: "Nadir bu işdə daha irəli getdi; Hindistanı, Türküstanı, Buxaranı və Xivəni aldı və Osmanlılarla birləşmək istədi; sünni-şiə ixtilaflarını aradan qaldıraraq vahid bir millət və vahid bir ümmət qurmaq sevdasına düşdü. Fəqət bu sevdaya da İstanbulun inadı mane oldu!.."[1].

Nadirin milli təəssübkeşliyindən söz açdığımız zaman bir mühüm məqamı da nəzərə almaq lazımdır. Mən hal-hazırda Nadirlə bağlı tarixçilərin ixtiyarında olan diplomatik sənədləri nəzərdə tuturam. Bu mənada Nadirin Hindistanı fəth etdikdən sonra Moğol hökmdarı Məhəmməd Gürganiyə (1719-1748) ünvanlandığı məktub müstəsna tarixi əhəmiyyətə malikdir. Məktubda Nadir şah məğlub etdiyi Moğol hökmdarına onun və özünün türklüyü səbəbi ilə böyük ehtiram göstərdiyini bildirir. Həmçinin, Nadir şah ona qarşı vuruşmuş Məhəmməd şahı məhz türk olduğu üçün əfv etdiyini xatırladır və Hindistanda türk hökmranlığının davam etməsində qətiyyət göstərəcəyinə söz verir:

"O biri gün şah da öz əmirləri və xanları ilə xəcalət içində fələktəkin ordugaha daxil oldu. Adıçəkilən padşahın gəlişi vaxtı biz humayun hökmdarın türkman və həmin padşahın da türkmanlardan və Gürgani sülaləsindən olduğunu nəzərə alaraq, əziz cavan oğlanlardan olan, arzusuna çatmış Nəsrullah Mirzəni humayun ordugahın girişi önündə [Məhəmməd şahı] qarşılamaq üçün göndərdik.

...Adıçəkilən padşah uca ordugaha daxil olub səltənətin tacı ilə möhürünü təhvil verdi və o gün mübarək çadırda qonaq oldu. Türkmanlıq adətlərini əsas tutaraq

---

[1] Ə.Ağaoğlu. İran və inqilabı // Seçilmiş əsərləri. Bakı, 2007, səh. 123.

o həzrətə həddindən artıq lütf ilə mərhəmət göstərdik və hökmdarlara layiq izzət ilə təmkinlik nümayiş etdirdik. Biz o həzrətin qaldığı çadırı və möhtərəm hərəminin çadırını da şan-şöhrət içində qərar tutduq. Hazırda həmin padşah öz ailəsi və bütün Hindistan əsirləri ilə humayun hökmdarın ordugahında şərəfli yerini almaqdadır. Humayun ordunun müqəddəmətül-ceyşi paytaxt Cahanabada daxil olub və zilqədə ayının iyirmi altısı, çərşənbə axşamı günü göyə ucalan bayraq Cahanabad istiqamətində irəliləyir. Bizim müqəddəs arzumuz odur ki, inşallah, adıçəkilən padşahı türkman soyundan və sahibgiran nəslindən olduğuna görə, türkmanlıq adəti üzrə yenidən səltənətin başında yerləşdirib, Hindistan dövlətinin tac ilə möhürünü özünə həvalə edək. Həmd olsun və bir də həmd olsun bizə mərhəmətini bağışlayan Allaha və şükür olsun və bir də şükür olsun bizə doğru yolu göstərən Allaha"[1]. Belə bir düşüncənin sahibini hansı məntiqlə fars hökmdarı, yaxud fars millətçisi adlandırmaq olar? Bu fikri irəli sürmək real tarixi açıq-aşkar təhrif etmək, danmaq deməkdir!

Görünən odur ki, "İran" anlayışının etnik yox, sırf coğrafi məfhum olması faktını, bu məkanın ərəb əsarətinin bitməsindən 1925-ci ilə qədər, təxminən 1000 illik dövr ərzində türklər, o cümlədən Azərbaycan türkləri tərəfindən idarə edildiyi həqiqətini dünyaya hələ çox xatırlatmalı olacağıq. Maraqlısı budur ki, İrana XI əsrdən bəri hökm edən Qəznəvilərin (962-1186), Səlcuqların (1038-1157), Elxanilərin (1256-1353), Cəlairilərin (1336-1432), Teymurilərin (1370-1506), Qaraqoyunluların (1380-1468), Ağqoyunluların (1378-1503) Səfəvilərin (1501-1736), Əfşarların

[1] Nadir şah Əfşar: Diplomatik yazışmalar. Tərcümə: R.Şeyxzamanlı. Elmi redaktor və ön sözün müəllifi: Akademik R.Mehdiyev. Bakı, 2015, məktub №7.

(1736-1795), Qacarların (1795-1925) türk mənşəli olduqları nüfuzlu Qərb tarixçiləri tərəfindən əsla şübhə altına alınmır[1]. Lakin söhbət ümumilikdə İranın dövlətçilik tarixindən düşdükdə, şərqşünasların əksəriyyəti nədənsə həmin sülalələrin qurduqları dövlətləri farsların adına çıxırlar! Sadaladığım sülalər İranın bütün ərazisinə və ya onun əksər qisminə hökm etmiş dövlətlərin qurucularıdır. Vaxtilə İranın ayrı-ayrı bölgələrini nəzarətdə saxlamış türk mənşəli dövlət qurumlarının siyahısı isə bundan qat-qat genişdir.

"İran" adlanan coğrafiya qədim dövrlərdən başlayaraq özündə bir neçə böyük etnik bölgəni əhatə edib və avropalıların "Persia" adlandırdıqları məkan onlardan yalnız biridir. Bu toponim həm tarixi-coğrafi, həm də etnik-mədəni baxımdan hazırda mərkəzi Şiraz olan Fars vilayəti ilə bağlıdır. "Farsların yaşadığı məkan", "Farsların ölkəsi" mənalarında işlədilən "Persia" kəlməsini Qərb tarixçiləri nədənsə antik dövrün ənənəsini davam etdirərək son vaxtlara qədər bütün İrana, İran ərazisində yaranmış cəmi qeyri-fars mənşəli dövlət qurumlarına şamil etmişlər ki, bu yanaşma da tarixi həqiqətlərlə hər hansı kəsişmə nöqtəsinə malik deyil. Məsələn, türk mənşəli olan, türk dilində danışan və bu dili bütün İranda ünsiyyət, ədəbiyyat dilinə çevirmiş Səfəvi sülaləsinə, onun qurduğu dövlətə də "Persia" demək nə qədər məqsədəuyğundur? Yaxud Səfəvilər dövrünün məşhur diplomatı, türk əsilli Bayat tayfasına mənsub Oruc bəy Bayata "Persia Don Juanı" adı qoymaq nə dərəcədə doğrudur?

[1] Вах: С.Лен-Пуль. Мусульманские династии. Хронологические и генеалогические таблицы с историческими введениями. Перевел с английского с примечаниями и дополнениями: В.В.Бартольд. Санкт-Петербург, 1899, К.Э.Босворт. Мусульманские династии. Справочник по хронологии и генеалогии. Перевод с английского и примечания: П.А.Грязневича. Москва, 1971.

Tarixi məlumat və müqayisə üçün tarixçilərin diqqətinə onu da çatdırmaq lazımdır ki, fars etnik kimliyinin və mədəniyyətinin ənənəvi mərkəzi olan Fars vilayəti özünəməxsusluqları ilə yanaşı, həm də orta əsrlər boyunca çox zaman türk-Azərbaycan sülalələrinin hakimiyyəti altında olub. Qaraqoyunlulardan, Ağqoyunlulardan, Səfəvilərdən, Əfşarlardan və Qacarlardan əvvəl Fars əyalətinin türk hakimlərindən danışarkən, yada ilk növbədə Ağsunqurun əsasını qoyduğu Zəngilər sülaləsi (1127-1222) və Salqurilər sülaləsi (1148-1270) düşür. Hər iki sülalənin türk mənşəyini Qərb tarixçiləri də birmənalı şəkildə təsdiqləyirlər[1].

İran coğrafiyasında fars dili və mədəniyyətinin, xüsusən farsdilli poeziyanın inkişaf etdiyini də qeyd etmək lazımdır. Hətta XI-XII əsrlərdə bütün Şərqdə fars dilinin əsas şeir dili kimi geniş imkanlara malik olduğu da məlumdur. Bu dövrdə poeziyanın fars dilində inkişaf etdirilməsi həm də bu dilin şeiriyyət imkanlarının üstünlüyü ilə bağlı olmuşdur. Bununla belə, Şiraz və bütünlükdə Fars əyalətinin türk sülalələrinin hakimiyyəti altında olduğu dövr də fars ədəbiyyatının və mədəniyyətinin inkişafına ancaq və ancaq müsbət yöndən təsir edib. Türklərin başqa mədəniyyətlərə ehtiramla və dözümlə yanaşmasının nəticəsidir ki, fars və ümumilikdə müsəlman-Şərq ədəbiyyatının parlaq ulduzlarından hesab olunan Sədi Şirazi (1193-1291) monqol yürüşlərinin tüğyan etdiyi qanlı bir dövrdə Şirazda rahat şəkildə yazıb-yarada bilmişdir. Həmin dövrdə Şiraza rəhbərlik etmiş Salquri hökmdarlarının yürütdüyü müdrik siyasət nəticəsində şəhər dağıdıcı monqol yürüşlərindən xilas olmuş, əmin-amanlıq təmin edilmişdir. Təsadüfi deyil ki, Sədi öz "Gülüstanın"da Fars vilayə-

[1] Bax: К.Э.Босворт. Мусульманские династии. Справочник по хронологии и генеалогии, стр. 169-170, 173-174.

tinin hakimi Müzəffərəddin Əbu Bəkr Zəngini mədh edərək, onu ədalət mücəssəməsi adlandırıb:

*Yəqin ki, bu Pars mülkünə toxunmaz afəti-dövran,*
*Ki salmış başına sayə sənin tək sayeyi-dövran.*
*Özünsən arxası hər bir zavallı bəndənin daim,*
*Görüm versin mükafatın sənin ol xaliqa-keyhan.*[1]

Həmçinin Sədi Şirazi "Gülüstana" yazdığı müqəddimədə özünə göstərilən diqqət və qayğıya görə də hökmdara ayrıca minnətdarlıq ifadə etmişdir:

*Mənə ki, salırsan belə xoş nəzər,*
*Günəşdən məşhurdur yazdığım əsər.*
*Olsa da qulunda çox eybü-nöqsan,*
*Hünərdir hər eybi bəyənsə sultan.*[2]

Eyni sözləri Teymurilər zamanında yaşamış fars ədəbiyyatının başqa bir klassiki Hafiz Şirazi haqqında da demək mümkündür. Ümumiyyətlə, bu proses nəinki Qafqaz və İran bölgəsində, həmçinin Orta Asiyada da müşahidə edilmişdir. Fars-tacik ədəbiyyatının klassiklərinin bir çoxu türk hökmdarlarının sarayında, onların himayəsi altında yazıb-yaratmışlar. Ə.Ağaoğlu bu haqda yazırdı: "Burada sırası gəlmişkən bunu da qeyd etmək istəyirəm ki, İrana mədəniyyət tarixində mövqe verən fikir və ədəbi cərəyanların çoxu türk hakimiyyətləri zamanlarında meydana çıxmışdır.

...İranın hələ də yaddaşlarda yaşayan böyük şairləri, məsələn, Rudəki, Ünsiri, Üsəndi, Firdovsi və s. hamısı Qəz-

[1] Sədi Şirazi. Gülüstan. Farscadan tərcümə: M.Soltan, R.Sultanov, İ.Şəms. 3-cü nəşr, Bakı, 2004, səh. 17-18.

[2] Həmin mənbə; səh. 17.

nəvilər zamanında yetişmişdilər və Mahmudun sarayı ətrafında toplanmışdılar. İranın məlum olan klassik ədəbiyyatı isə, məsələn, Sədilərin, Hafizlərin, Xocənti Kamalın və s. əsərləri ya doğurdan-doğruya Səlcuqilər zamanına və yaxud onları təqib edən Atabəylər zamanına təsadüf edir"[1]. Bu, türklərin hakimiyyəti zamanında fars-türk ayrıseçkiliyi yaradılmamasının, yerli xalqların mədəniyyətlərinin inkişafına bəslənilən müsbət münasibətin nəticəsi idi.

Türklərin İranda davam edən uzunmüddətli hakimiyyəti nəticəsində müxtəlif türk tayfaları bir çox bölgələrdə, o cümlədən də farsların üstünlük təşkil etdiyi Fars regionunda məskunlaşmış və oraya gəldikləri ilk andan etibarən öz hərbi-siyasi, ictimai fəallıqları ilə diqqəti cəlb etmişlər. Nümunə kimi Fars bölgəsində Səlcuqların gəlişindən başlayaraq yaşayan türk mənşəli döyüşkən Qaşqay tayfalarını göstərmək olar[2]. Tarixən İranda yaranan türk-Azərbaycan dövlətlərinin ordusunda daima yer alan bu tayfalar qəhrəmanlıqları, mübarizlikləri ilə ad çıxarmışlar. Onların Nadir şah Əfşarın Hindistan yürüşü zamanı göstərdikləri şücaətlər tarixi ədəbiyyatda öz əksini tapmışdır[3]. Bu tayfalar nəinki orta əsrlərdə, həmçinin də XX əsr İran tarixində cərəyan edən mühüm ictimai-siyasi hadisələrin fəal iştirakçıları olmuşlar. XIX əsrdə ingilislərin İrandakı özbaşınalıqlarına, həmçinin Pəhləvi rejiminin zülmünə qarşı Fars bölgəsində baş qaldırmış qiyamların əksəriyyəti məhz qaşqayların adı ilə bağlıdır[4].

Bir sıra əcnəbi tədqiqatçılar, həmçinin bəzi Azərbaycan müəllifləri siyasi mərkəzləri İranın qeyri-türklər yaşa-

---

[1] Ə.Ağaoğlu. İran və inqilabı, səh. 125.

[2] Вах: М.С.Иванов. Племена Фарса. Кашкайские, Хамсе, Кухгилуйе, Мамасани. Москва, 1961, стр. 30-32.

[3] Yenə orada, səh. 32.

[4] Yenə orada, səh. 120-142.

dığı bölgələrində qurulan, yaxud sonradan hərbi-siyasi reallıqların diktəsi ilə paytaxtlarını İranın mərkəzi vilayətlərinə köçürmək məcburiyyətində qalan türk dövlətlərini heç bir tutarlı əsas gətirmədən milli tariximizin ayrılmaz tərkib hissəsi kimi qəbul etməkdən boyun qaçırırlar. Məsələn, nədənsə Azərbaycan tarixşünaslığında kənar təsirlərin nəticəsində oturuşmuş fikrə əsasən I Şah Abbasa qədər siyasi mərkəzi Təbriz və Qəzvində yerləşən Səfəvilər dövləti Azərbaycan dövləti, paytaxt İsfahana köçürüldükdən sonra isə fars dövləti qismində təqdim edilir.

Bu nöqteyi-nəzəri müdafiə edənlər unudurlar ki, Təbriz və Qəzvin kimi İsfahan da Səfəvilərin hakimiyyətində olan şəhərlərdən biri idi. I Şah Abbas paytaxtı İsfahana köçürdükdən sonra da Səfəvi dövlətinin siyasi, yaxud etnik mahiyyətində inqilabi dəyişikliklər baş vermədi. Əvvəlki kimi iqtidar və ordu Azərbaycan türklərinin ixtiyarında idi, Azərbaycan dili saraydakı və hərbi sistemdəki güclü mövqelərini I Şah Abbasın sələflərinin dövründə olduğu qədər qoruyub saxlayırdı. Sonralar da türklər İranın dövlət kimi dağılmasının qarşısını almış, onun yaşayıb varlığını qorumasında mühüm rol oynamışlar.

O ki qaldı dövlətlərin qeyri-türklər yaşayan ərazilərdə yaradılması məsələsinə, burada da tarixi analogiyalar Qərb və fars tarixçilərinin gətirdikləri arqumentlərin lehinə deyil. Nümunə üçün ərəb xilafətinin tarixini xatırlayaq. Məlumdur ki, dördüncü raşidi xəlifəsi Hz.Əlinin (656-661) ölümündən sonra hakimiyyəti ələ keçirmiş Əməvilər sülaləsi (661-750) öz siyasi mərkəzini o dövrdə ərəblərin say baxımından azlıqda olduqları, həmçinin İslamın hələ tam şəkildə üstünlüyü ələ almadığı Suriyaya, Dəməşqə köçürdülər. Suriya İslamın yaranmasına və yayılmasına qədər əsla ərəblərin ənənəvi etnoarealları sırasına daxil

deyildi, üstəlik Şam torpaqları uzun müddət Bizansın tabeliyində olduğundan, yerli əhalinin çoxu xristianlığa etiqad edirdi. Suryanilərin öz əlifbası, qədim dilləri və mədəniyyətləri mövcud idi. Lakin bütün bu faktları bilə-bilə, nədənsə heç kəs Əməvi xilafətinin ərəb mənşəyini şübhə altına almaq barəsində düşünmür! Yaxud ərəblərin Pireney yarımadasında qurduqları Əndəlüs xilafətində kimsə qeyri-ərəb mənşəyi axtarmağa lüzum görmür! Monqolların Çində, Rusiyada, İranda qurduqları ayrı-ayrı dövlətlər zamanla öz dinlərini dəyişsələr də, tarixi ədəbiyyatda monqol-türk əsilli imperiyalar olaraq qalmaqdadırlar. Azərbaycan-türk sülalələrinə gəldikdə isə birdən-birə hamının baxış bucağı, yanaşma fəlsəfəsi 180 dərəcə dəyişir. Həqiqətən də anlaşılmayan və izah olunmayan bir rəftarla qarşılaşdığımız göz önündədir!

Bəli, Azərbaycanla İranın, Azərbaycan türkləri ilə farsların müştərək tarixə sahib olduqları, eyni siyasi taleyi bölüşdükləri tarixi dövrlər əlbəttə ki, olmuşdur və onların inkarı mənasızdır. Eyni ilə də həmin dövrlərin böyük əksəriyyətində farsların Azərbaycan türkləri tərəfindən qurulmuş müxtəlif imperiyaların təbəəsi olması faktı danılmaz tarixi həqiqətdir. Ancaq nədənsə farslar öz dövlətçilik tarixindən söz açarkən ümumi İran ideyasından daha çox, Əhəməni və Sasani irsini qabardaraq, ari mənşəyini önə çəkməyə üstünlük verirlər. Məhəmməd Rza şah Pəhləvinin hakimiyyəti dövründə, daha dəqiq desək, ötən əsrin 70-ci illərində İran dövlətçiliyinin yaranmasının 2500 illiyini qeyd edərkən, əsas kimi Əhəməni dövlətinin qurulduğu tarixin əsas götürülməsi faktını hamımız yaxşı bilirik. İran dövlətçiliyinin banisi qismində isə Əhəməni dövlətinin qurucusu II Kir (e.ə. 559-530-cu illər) təqdim olunur. Məhəmməd Rza şah Pəhləvinin öz həyat yoldaşı ilə

birgə II Kirin məqbərəsi önündə keçirilən təntənəli mərasimdə Əhəməni hökmdarını "Öz millətinin atası" adlandırmasını əks etdirən video kadrları bu gün internet vasitəsilə asanlıqla tapıb izləmək mümkündür. Məhəmməd Rzanın özünə "Aryamehr", yəni "Arilərin günəşi" titulunu götürməsi faktını da buraya əlavə etsək, mənzərə tam şəkildə aydın olar.

Hər kəsə yaxşı məlumdur ki, müasir İran ərazisində Əhəmənilərdən öncə xeyli sayda dövlət qurumları, o cümlədən qüdrətli Midiya dövləti mövcud olmuşdur. Farslar da bu torpaqlarda uzun müddət Midiyanın təbəəsi qismində yaşamışlar. Belə olan halda, ümumi İran tarixindən söz açıb, Azərbaycanın dövlətçilik irsini unutdurmaq istəyənlərin Midiyanı bir kənara atmalarının həqiqi səbəbi məlum olur. Görəsən niyə iranlı tarixçilərin çoxu fars soyundan gələn sülalənin hakimiyyətini önə çəkərək İran dövlətçiliyini konkret etnik qrupun adına çıxmağa cəhd edirlər? Niyə Azərbaycanın öz dövlətçilik və mədəniyyət tarixi ilə öyünməsinə etiraz edilir, müxtəlif adlar altında buna maneələr yaradılır? Azərbaycan tarixçiləri haqqında danışdığımız mətləbləri daim diqqətdə saxlamalı, tariximizlə bağlı bu həqiqətlərin xaricdə akademik səviyyədə təbliğini əsas mənəvi vəzifələrdən biri kimi görməlidirlər.

İnanıram ki, gətirdiyimiz faktlar heç də Azərbaycan-fars qarşıdurması yaratmaq kimi başa düşülməyəcəkdir. Bunlar tarixin obyektiv dərki baxımından hamı üçün əhəmiyyətli olan məsələlərdir. Müasir şəraitdə Azərbaycan-İran İslam Respublikası münasibətlərinin daim inkişaf etdirilməsi müstəqil dövlətimizin əsas prioritetlərindən biridir. Ölkəmiz İran İslam Respublikası ilə hərtərəfli əlaqələrin, qarşılıqlı etimad və əməkdaşlığın genişlənməsində və möhkəmləndirilməsində maraqlıdır.

Ümidvaram ki, cənab M.Aksvörti də qaldırılan məsələlərlə ətraflı şəkildə tanış olduqdan sonra öz dəyərli əsərinin növbəti nəşrlərində tarixi həqiqətlərə və müasir dövrün reallıqlarına lazımi həssaslıqla yanaşacaqdır. Bütövlükdə isə M.Aksvörtinin əsəri bizə həm də müasir tarixşünaslığın analitik üslubunun öyrənilməsi üçün əyani vəsait kimi faydalı olacaqdır. Təbiidir ki, bir müqəddimə çərçivəsində hər hansı kitabı müfəssəl şəkildə, xırdalıqlarına qədər təhlil edib, qiymətləndirmək mümkün deyil. M.Aksvörtinin kitabı da bu mənada istisna təşkil etmir. Sözügedən dəyərli tədqiqatla tam şəkildə tanış olmağın, onun haqqında müəyyən bir rəy söyləməyin ən doğru yolu əsəri diqqətlə mütaliə edib, təhlil süzgəcindən keçirməkdir.

Şübhə etmirəm ki, ingilis aliminin ana dilimizə tərcümə edilmiş əsəri cəmiyyətimiz tərəfindən maraqla qarşılanacaq, çoxsaylı müzakirələrə səbəb olacaq və ən əsası hər bir azərbaycanlının yaddaşında Nadir şah mövzusunu yenidən təzələyəcək. Bu kitab Azərbaycan dilində Nadir şah Əfşarla bağlı elmi mənbə boşluğunun da aradan götürülməsi üçün irəliyə doğru atılmış addım kimi təqdirəlayiqdir. Belə təşəbbüslərin davam edəcəyinə ümid edir və inanıram ki, tariximizlə, mədəniyyətimizlə bağlı sanballı elmi mənbələrin yazılması və tərcüməsi milli kimliyimizi dərk etmək yolundakı işimizi xeyli asanlaşdıracaqdır.

**Akademik Ramiz Mehdiyev**

# NADİR ŞAH

## MİNNƏTDARLIQ

Bu kitabın ərsəyə gəlməsində mən bir çox insanın dəyərli yardım və məsləhətindən faydalanmışam. Həmin şəxslərdən Kris və Homa Randlları, Nargiss Majdini, Kristos Nifadopoulosu və Leo Drollası xüsusilə vurğulamlıyam. Əgər orijinal mətnlərin (ilkin mənbələrin – *red.*) tərcüməsində və materialların ətraflı tədqiqində onların yardımı olmasaydı, bu kitabın ortaya çıxması çox çətin olardı. Tərcümə işində bizə göstərilən dəstəkdən danışarkən, Piter Averinin kömək və təşviqini də unutmamaq lazımdır.

Tədqiqatın redaktəsi işində isə Kris Randl, eləcə də Sendi Morton, Çarlz Melvil, Vilyem Flor, Əli Ənsari və Jil Boudenin yardımları əvəzsizdir. Adlarını çəkdiyim şəxslər təvazökarlıq göstərsələr də, onların verdikləri rəy və təkliflər müəllif üçün dəyərli və əhəmiyyətlidir. Redaktənin ilkin mərhələsində öz tövsiyələrini əsirgəməmiş Endrü Nyumanı da yaddan çıxara bilmərik.

Kitabımın əhəmiyyətli mənbələrindən biri qismində Vilyem Florun hələ işıq üzü görməmiş tədqiqatı çıxış etmişdir ki, onunla tanış olmağa icazə verdiyi üçün müəllifə ayrıca minnətdarlıq bildirmək istərdim. Paul Luft, Əli Ənsari və Anuş Eteşami mənim bu layihəmin Darem Universitetinin Tədqiqat Təqaüdü ilə təmin olunmasında böyük rol oynamışlar.

Etiraf etməliyəm ki, mənim Nadir şah şəxsiyyətinə qarşı marağımın yaranmasında Əli Ənsarinin müstəsna təsiri olmuşdur və onun iştirakı olmadan qaneedici nəticə əldə etməyin inandırıcı görünmür. Sadaladığım şəxslərlə

yanaşı, sözügedən tədqiqatın başlıca istiqamətlərinin müəyyənləşdirilməsində, onların təhlilində, həmçinin yeni elmi materialların aşkara çıxarılmasında mənə köməyi dəymiş şəxslərdən Erni Tukeri, Con Applebini, Ketrin Babayanı, Con Gurneyi, Mansur Sefatgolu, Heidi Hofstetteri (xüsusi minnətdarlıq), Aron Dunneni, Hanna Karteri, Con Karteri, Sergey Turkini, Adrian Stilini, Sancay Subrahmanyamı, Mişel Bernardinini, Cennifer Skarsı, Yan Hezi, Stefen Bleyki, Robert Hillenbrandı, Bernard O'Keyni, Yan Maddoku, Poppi Hampsonu, Bella Prinqlini və İona Molesvorsu qeyd etməyi lazım bilirəm. Həmçinin, xəritələrin hazırlanmasında və ümumilikdə göstərdiyi köməyə görə bacım Helen Aksvörtiyə də minnətdarlığımı bildirirəm. İnes Linnin, Gosiya Lavikin, Ediz Qreyin simasında isə London Kitabxanasının bütün əməkdaşlarına mənbələrin axtarışında mənə göstərdikləri yardım və nümayiş etdirdikləri səbir üçün, eləcə də Kembric Universiteti Kitabxanasının nadir kitablar bölməsinin əməkdaşları Klari Velforda və Les Qudeyə dərin təşəkkürümü bildirirəm. Ən nəhayət, bu kitabın qələmə alınmasında İrac Bağırzadəyə, Keyt Şerata və Klara Dubaya, eləcə də, rus dilindən vacib bir məqaləni mənim üçün böyük həvəslə tərcümə etmiş həyat yoldaşım Selliyə çox sağ ol demək istəyirəm. Həmin insanların zəhməti olmadan, bu tədqiqat heç zaman məntiqi yekununa çata bilməzdi.

## TRANSLİTERASİYA ÜZRƏ QEYDLƏR

Transliterasiya həmişə mühüm problemdir və nə qədər qəribə də olsa, əsas mətndə müəyyən dəyişikliklər etmədən bu prosesdən müvafiq nəticə əldə etmək müşkülə çevrilir. Mən ilk növbədə Nadir adının özündən başladım. Ənənəvi transliterasiyadan istifadə etməməyə üstünlük verdim. Çünki, bu adın ərəbcə tələffüzü kimi müasir iranlılar üçün İran tarixində əhəmiyyətli yeri olan bu şəxsiyyəti yadlaşdıra bilərdi. Buna görə də, filoloq olmayan oxucularda çaşqınlıq yaratmamaq üçün ümumilikdə İran (fars dilinin) tələffüz qaydalarına uyğun transliterasiyadan istifadə etdim. (Qeyd: Fars tələffüzündə "Nadir" sözü "Nader" kimi səslənir və müəllif də əsərdə böyük fatehin adını daha çox "Nader şah" formasında təqdim etmişdir – *E.Ə., C.H.*)

**Bağışlayan və mərhəmətli Allahın adı ilə**

*Müdrik insanlar bilirlər ki, narahatlıq və qarışıqlıq dövrləri gələndə, bəxt rüzgarı ədalətsiz olan kəslərin tərəfindən əsəndə, bəşərin sahibi olan Allah öz lütfünü bəxş etmək üçün müəyyən bir şəxsi göndərir.*

***Mirzə Mehdi Astrabadi***

## MÜƏLLİFİN ÖN SÖZÜ

*Qaranlıq bir gecə, dalğaların qorxusu və ölüm saçan dəniz!*
*Sahildəki xoşbəxt insanlar bizim halımızdan nə anlayacaq ki?*

***Hafiz Şirazi***

Nadir şahın əhvalatı faciəvi səhnələrdən, amansız intriqalardan tutmuş hərbi uğurlara qədər, cah-cəlal, zənginlik, qorxu, qəddarlıq, psixoloji pozğunluqla müşayiət olunmuş və onun ölümünün yeri və vaxtı Qərb oxucuları üçün qaranlıq qalmışdır. 18-ci əsrin əvvəllərindən başlayaraq o, heç kəsin tanımadığı sıravi hərbçi kimi əvvəlcə İranı əfqanların işğalından azad etmiş, Osmanlı türklərini ölkədən qovmuş, rusları uzaqgörən manevrlə öz vətənindən çıxarmış, daha sonra isə Osmanlıları məğlub edib onlara məxsus torpaqları imperiyasına qatmış, özünü şah elan etmiş, Əfqanıstana həmlə edib zəfər qazanmış, sonra isə Hindistana yürüş edib Dehlini tutmuş və yenidən Qərbə dönüb Osmanlıları növbəti dəfə məğlub etməzdən qabaq Mərkəzi Asiyaya irəliləmiş, Türkmənistanı və Özbəkistanı özünə tabe etmişdir. 1740-cı illərin əvvəllərində Nadir bəlkə də dünyada bənzəri olmayan çox güclü bir ordu yaratmışdı. Onun ordusunun hərbçiləri arasında elə sərkərdələr yetişdi ki, sonralar onlar Əfqanıstanda və Gürcüstanda müstəqil dövlətlər yaratmağa belə nail oldular. Lakin Dehlinin fəthi ərəfəsində onun imperiyasında dağılma işartıları ortaya çıxdı. O, xəstələndi, get-

dikcə daha qəddar və zalım oldu və nəhayət, öz hərbçiləri tərəfindən öldürüldü. Nadir Şahdan sonra İran (o dövrlərdə Qərbdə bu ölkəyə "Persia" deyilirdi – müəllif) 18-ci əsrdə Polşanın üzləşdiyi tale ilə üzləşdi – o öz qonşuları, əfqanlar, ruslar və Osmanlı türkləri tərəfindən hissə-hissə bölüşdürüldü. İranın süqutu ilə Osmanlı imperiyası, Rusiya, Mərkəzi Asiya, Əfqanıstan və Hindistan arasında əlaqələr növbəti onillik və əsrlərdə müxtəlif cür cərəyan edəcəkdi.

Nadir şahın Dehlini tutması ilə Ost-Hind şirkətinə Hindistanda Moğol dövlətinin zəifliyini əyani şəkildə başa salmışdı. Şirkətin nümayəndələri vaxt itirmədən Hindistanda əyalət başçılarının əli ilə torpaq sahələri əldə etmək, öz mənfəətlərini qorumaq üçün hərəkətə keçdilər. Nadir şah olmasaydı, Britaniyanın bu torpaqlardakı hakimiyyəti daha gec və fərqli bir şəkildə bərqərar olacaqdı. Nadirin həyatı nağıla bənzəyirdi, lakin qəribədir ki, o, İran hüdudlarından kənarda tarixi şəxsiyyət kimi yaddaşlarda qalmamışdı. Bu niyə belə olmuşdu? Ənənəvi Britaniya yanaşması nöqteyi-nəzərindən Nadirin fəthləri tarixinin kölgəsində qalmalı idi. Biz Qərb tarixşünaslığının yanaşmasını nə qədər rədd etsək də, bu gün də onun təsirindən çıxa bilmirik. Sözügedən yanaşmaya əsasən İran və Şərq aləmi islahı qeyri-mümkün, passiv və inkişafdan qalmış bir məkan idi. Nadir kimi qəddar, qətiyyətli bir hökmdarın rolu nədənsə bu yanaşma tərəfindən ümumiyyətlə, nəzərə alınmamışdı. Onun Hindistanda hərbi uğurları Kliv və digər müstəmləkəçilərin şöhrətini geridə qoya bilərdi və ümumilikdə Qərbin hərbi gücünün müstəsnalığına kölgə salmış olardı. Bütün bunların nəticəsində Nadirin Hindistandakı tarixi uğurları layiqli qiymətini almadı. Nadir şəxsiyyəti, Viktorian tarixi ənənəsinin meyarları səbəbindən diqqətdən kənarda qalmışdı. Ümumiy-

yətlə isə, Stalindən və Hitlerdən bu yana avropalılar heç kəsi 19-cu əsr müəllifləri kimi heyranlıqla böyük tarixi şəxsiyyət qismində qabartmırlar. Lakin bu o demək deyil ki, biz həmin şəxsiyyətləri inkar etməliyik. Belə parlaq simaların insan əzablarına laqeydliyi bizi təəssüfləndirsə də, İskəndər, Napoleon kimi şəxsiyyətlərin qeyri-adi zəka sahibi olması, həmçinin onların qazandıqları böyük uğurlar danılmazdır. Nadirin hakimiyyəti dövründə qəddarlıq halları çox olsa da, ömrünün son illərində onun daha da zülmkar hökmdara çevrildiyini kimsə inkar etmir. Ancaq gəlin onu da yaddan çıxarmayaq ki, çətin dövrlər insanı dəyişir və buna görə də şəxsiyyəti ümumi standartlara (yaranmış konkret vəziyyəti nəzərə almadan) uyğun olaraq mühakimə etmək doğru deyil. Etibarlı tarixçilərin birinin yazdığına görə, Nadir həmişə öz hünəri ilə seçilmiş və heç vaxt zəif insan olmamışdır. Russo vaxtilə yazırdı ki, hər hansı bir kitabı başa düşmək üçün ilk növbədə, onu oxuyub qurtarana və məğzini tam anlayana qədər hər cür tənqiddən uzaq qaçmaq lazımdı. Yalnız belə olduqda, obyektiv bir nəticəyə gəlib-çıxmaq mümkündür. Bu dahi insan (Nadir şah) haqqında yazmağa başlayarkən mən də məhz bu prinsipə üstünlük verdim.

18-ci əsr İran tarixi haqqında yeni mənbələrin tapılması indi də davam edir. Vilyem Flor, Mansur Sefatgol və Ernest Taker o dövrə aid yeni materialların tədqiqi və təhlili üzərində çalışmış və hadisələri düzgün şəkildə anlamağımız üçün əllərindən gələni əsirgəməmişlər. Ost-Hind şirkətinin materiallarının son illərdə tərcümə edilib çap olunmasında Vilyem Florun böyük zəhməti var. Rus arxivlərində bir çox çap edilməmiş materialların tədqiqi isə Nadirin Rusiya ilə, həmçinin Qafqazdakı hadisələrlə əlaqəsini öyrənməyə kömək edə bilər. İnterpretasiyalara gə-

lincə, məncə, bu dövrdə Avropa xaricindəki hərbi-siyasi proseslər hələ tam dəqiqliyi ilə öyrənilməyib və Jos Gommas tərəfindən başlanan araşdırmaların bundan sonra da davam etdirilməsinə ehtiyac duyulur. Nadirin doğum tarixi və onun həyatının ilk illəri haqqında məlumatlar çox azdır və bu yöndə yeni tədqiqatlara ehtiyac var. Osmanlı arxiv sənədlərinin də müfəssəl tədqiqi zəruridir.

Tarixin digər dövrlərindən fərqli olaraq, tədqiqatçılar hər hansı bir materialı dəfələrlə araşdırsalar da, yenə də 18-ci əsr İran tarixinə dair yeni bir məlumat əldə etmək mümkündür. Mən materialları süzgəcdən keçirərkən, Nadirin həyatında olub-keçənləri dəqiqliklə canlandıra bilmək üçün bacardığımı etdim. Lakin məlumatlarda əksini tapmış və mənbələr vasitəsilə yalan, yaxud doğruluğunu aydınlaşdıra bilməyəcəyimiz müxtəlif hekayə və lətifələr var ki, onların səhihliyini təsdiq edə biləcək heç kim həyatda yoxdur. Mənbələrdə rastımıza çıxan təmsillər, Nadirin zamanında və o dövrə yaxın vaxtda yaşayanların onun haqqında hansı qənaətdə olduqlarını anlamağa imkan verir. Bütün bunlara çox da dərinə getmədən, ötəri yanaşmaq olardı, lakin mən materialları oxuculara qabaqlayıcı xəbərdarlıqla ötürməyə üstünlük verdim ki, mühakiməni özləri yürütsünlər. Hər bir tarixi hekayənin öz dönüş nöqtəsi olur. Mən mənbələrdə əksini tapan məlumatların, o cümlədən 18-ci əsr müəlliflərinin əlyazmalarının tənqidi zamanı ehtiyatlı mövqe tutmağa üstünlük verdim. İran tarixində bu dövr müstəmləkəçilikdən əvvəlki mərhələ kimi xarakterizə olunur və ümumilikdə Orta Şərq tarixinə yanaşmamızı müəyyən edən mövcud çərçivələrin və konstruksiyaların çoxu uyğunsuz, qeyri-dəqiqdir. Mən ixtiyarımda olan və çoxları tərəfindən qeyri-dəqiq

hesab edilən məlumatları belə yararsız sayıb üzərindən keçməkdənsə, onları dəyərləndirməyə üstünlük verirəm.

Əgər Nadir şah öz hərbi uğurlarının nəticələrindən istifadə edib, ölkəni və ordunu oğullarına sakit bir şəkildə ötürsəydi, onun güclü sülaləsi bəlkə də, İranın ərazi bütövlüyünü qoruyar, həmin dövrdə Avropa ölkələrinin hərb sahəsində əldə etdikləri uğurlar dövlətləri tərəqqiyə apardığı kimi, İranın da iqtisadi və inzibati cəhətdən möhkəmlənməsini təmin edərdi. İnkişafda olan İran Osmanlı və Moğol imperiyalarının da zəifləməsi səbəbi ilə sünni və şiələr arasındakı ixtilafları da həll edər və Avropa kimi bunun üçün mərkəz rolunu oynaya bilərdi.

21-ci əsrin əvvəllərindən etibarən Qəndəhar, Kabul, Bağdad, Nəcəf, Bəsrə, Mosul, Kərkük kimi şəhərlər yenidən tarixi proseslərin cərəyan etdiyi mühüm ərazilərə çevrilməyə başladı. İran Nadir şahın vaxtında olduğu kimi, yenə də bölgədəki əsas mərkəzlərdən biri rolunu oynamağa davam edir. Nadirin hekayəsinin bu qədər ətraflı təsviri İran tarixi üçün olduqca faydalıdır. Bu kitab 1938-ci ildə Laurens Lokkartın Nadir şahla bağlı işıq üzü görmüş tədqiqatı kimi böyük sərkərdənin keçdiyi həyatı yoluna tam şəkildə işıq salmasa da, yeni məlumatlar və yanaşmalar hesabına mövzuya yeni nəfəs gətirmək iqtidarındadır. "Nadir şah" əsəri yeni nəsil oxucular üçün təqdim edilir. Onun həyatı və ümumən İran tarixi VIII Henri və Roma tarixi qədər bizə də məxsusdur. Nadir şahın əhvalatı da Maqbetin, III Riçardın həyatı kimi həyəcanlı və inanılmazdır. Bu, həqiqətən də başqa bir əhvalatdır.

Nadirin müasir dövrümüzlə əlaqəsini şərh edərkən bir məsələyə də toxunmaq zəruridir. Bu gün İrandan qorxaraq İranı real təhdid kimi görənlər bu kitabdan da istifadə edərək İranın qonşuları üçün hər zaman real təhlükə

olaraq qalacağını daha uca səslə, əminliklə dilə gətirə bilərlər. Lakin bu, heç də belə deyil. Nadir ona görə fərqlənir ki, ona qədər və ondan sonrakı İran tarixi müxtəlif cür cərəyan etmişdir. Nadir istənilən halda müstəsna şəxsiyyət kimi qəbul olunmalıdır. Kitabda təsvir edilən qanlı hadisələr, zülmkarlıq halları əsla İranın və ya İslam dininin, yaxud da Yaxın Şərqin səciyyəvi cəhəti kimi qələmə verilə bilməz. İnsanların rəsm çəkmələri, yemək hazırlamaq mədəniyyəti bir-birindən fərqləndiyi kimi, etdikləri vəhşiliklər də fərqli səciyyə daşıyır. Çox təəssüf ki, vəhşiliyə meyillilik bütün bəşəriyyət üçün universaldır. Fərqlər ancaq insanın müxtəlif yer və zamanlardakı həyat tərzindən, şəraitindən, üzləşdiyi çətinliklərdən qorunmaq tərzindən irəli gələ bilər.

# MÜQƏDDİMƏ:
# ZİRVƏ NÖQTƏSİNDƏ

*Biz səni skiflərin çadırına aparacağıq.*
*Orada sənin qarşına Əmir Teymur çıxacaq.*
*Onun nitqləri dünyanı istehza ilə hədələyirlər,*
*Onun qılıncı isə şahları və məmləkətləri cəzalandırır.*
*Ola bilsin ki, onun faciə güzgüsündəki əksi,*
*Sizi maraqlandırıb, həyəcanlandırsın!*

***K.Marlo***
***("Əmir Teymur")***

1739-cu ilin 20 mart tarixində Nadir şahın başçılığı altında İran ordusu Dehliyə daxil oldu. Əsgərlər şəhərin kənarındakı Şalimar bağlarından Şah Cahanın qırmızı daşlı qala divarlarına qədər Nadirin yolu üstdə iki cərgədə sıraya düzülmüşdülər. Şəhər əhalisi isə qalanın içərisində gözləyirdi. Nadir 20 min atlı və 100 filin müşayiəti ilə irəliləyirdi. O, saraya çatdıqda boz rəngli kəcavəsindən yerə endi və içəri daxil oldu. Qalanın ətrafındakı toplardan Nadiri salamlamaq üçün havaya yaylım atəşləri açıldı və elə təəssürat yaranırdı ki, sanki bu dəqiqə şəhər dağılacaq. On il qabaq, yəni 1729-cu ildə İranda çox ağır vəziyyət hökm sürürdü, ölkə səfalət girdabında çırpınır, üzləşdiyi böhrandan qurtula bilmirdi. 6 il idi ki, paytaxt İsfahan şəhəri əfqan işğalçıları tərəfindən zəbt edilmişdi. Şimal və Qərb əyalətlərinin bir hissəsi rusların, digər qismi də türklərin nəzarəti altına keçmişdi. On il ərzində Nadir bütün düşmənlərini məğlubiyyətə uğradıb, müasir tarixdə

əhəmiyyətli sayılacaq siyasi dəyişikliklərə rəvac vermiş oldu. İran əraziləri Qafqaz dağlarından Yamun çayına qədər genişləndirildi.

İsfahan zəfərindən iki il dörd ay qabaq Nadir və onun adamları tərəfindən 1750 mildən çox ərazi işğalçılardan təmizləndi, Əfqanıstan sərhədində yerləşən ərazilərin çoxu nəzarət altına alındı. 1739-cu ildə o, həyatının çiçəklənən dövrünü yaşayırdı və bəlkə də onun uğurlarının miqyasını 340 il əvvəl Dehlini zəbt etmiş hökmdar Əmir Teymurun (Tamerlan) qələbələri ilə eyni müqayisə etsək yanılmarıq. Teymur kimi onun da yenilikləri keçmişdən daha çox, gələcəyə hesablanmışdı. Teymur kimi o da Hindistan torpaqlarını özünə birləşdirməkdənsə Dehlinin misilsiz xəzinəsinə sahib olmaq niyyətində idi. O dövrdə Dehli dünyanın ən böyük paytaxt şəhərlərindən hesab olunurdu. Burada xüsusilə Şah Cahanın vaxtından başlayaraq tarixin bütün dövrlərinə aid abidələr vardı. Şəhər Cahanabad adı ilə tanınırdı və burada 400 minə yaxın əhali yaşayırdı. Müsəlman aləminin üç böyük imperiyası Osmanlı, İran və Moğol dövlətləri arasında ən zəngini və dəbdəbəlisi məhz moğollar hesab olunurdu. Dehli haqlı olaraq öz zənginliyi ilə öyünürdü.

Nadir Moğol imperatoru Məhəmməd şahın sarayına daxil olan kimi Məhəmməd şah onu böyük təntənə ilə qarşıladı və ona qiymətli hədiyyələr bağışladı. 24 fevral tarixində Moğol ordusu Karnal döyüşündə məğlub edildikdən sonra heç bir çıxış yolu qalmayan Məhəmməd şaha bir gün öncə İran süvarilərinin müşayiəti ilə şəhərə qayıtmağa icazə verilmişdi ki, bu da Nadiri layiqincə qarşılamağa hesablanmış addım idi.

Dehlidəki ilk görüş Şah Cahan tərəfindən inşa edilmiş dəbdəbəli otaqlardan ibarət xüsusi qonaqlar üçün nə-

zərdə tutulan iqamətgahda keçirildi. Bina günəşdən qorunmaq üçün qırmızı zolaqlı ağ mərmərlə üzlənmişdi. Qübbələr, divarlar və tavanlar qızıl və gümüşlə bəzədilmişdi (sonradan iranlılar tərəfindən dağıdılmış və əridilmişdi). Məhəmməd şahın yeri qızıl saplı bahalı xalılarla döşətdirilmiş və hər tərəf gözəl mebellərlə bəzədilmişdi. Binanın mərkəzində taxt qoyulmuşdu. Altı addım uzunu və dörd addım eni olan bu taxt göz oxşayırdı. Taxtın dörd ayağı da qızıldan idi, hər tərəfinin üst hissəsi qiymətli daş-qaşlarla örtülmüşdü ki, bunların bəziləri iri ölçüləri ilə fərqlənirdi. Bəzi mirvarilər hətta göyərçin yumurtası böyüklüyündə idi. Taxtın üzərindəki örtüyü on iki sütun saxlayırdı. Onun içərisi də almazlarla və mirvarilərlə bəzədilmişdi, mirvarilərin çoxu saçaq qismində yuxarıdan asılmışdı. Taxtın ön hissəsində ətrafı yaqutlarla bəzədilmiş böyük Kuh-e-Nur almazı bərq vururdu. Otağın bir divarının üzərində, yuxarı hissədə fars dilində bunlar yazılmışdı: "Əgər dünyada Cənnət varsa, o da budur, o da budur, o da budur!"

Qəbul otağı, elə hazırlanmışdı ki, sanki ev yiyəsi olan Məhəmməd şah hələ də hansısa səlahiyyətə malik idi, lakin bu vəziyyət daha çox atanın oğluna baş çəkməsini xatırladırdı. Nadir şah Məhəmməd şahın İranla dostluğu qoruyacağı şərti əsasında Hindistanı idarə etməsinə icazə verdi. Çünki, onların hər ikisi türk əsilli idilər. İmperator təşəkkür edərək baş əydi. O, həyatını xilas edə bilmişdi, indi də öz tacını qoruyub saxlamalı idi. Öz növbəsində Məhəmməd şah Nadirə moğolların bütün xəzinəsini, qızıl, bahalı daş-qaşlar və əlbəttə ki, moğolların Hindistanda hökmranlıq etdiyi son iki əsrdə düzəltdirdikləri bu taxtı təklif etdi. Nadir etirazını bildirdi. Məhəmməd şah isə israr etməyə davam etdi. Nadir yenə razılaşmadı. Nə-

hayət ki, Məhəmməd şahın təkidindən sonra Nadir onun təklifini qəbul etdi. Məğlub edilmiş imperator qalib düşmənin onun qiymətli xəzinəsini qəbul etməsi üçün bu gülünc səhnəni oynamağa məhkum edilmişdi.

Digər mühüm məsələni də qeyd etmək lazımdır. Belə ki, Səadət xan, qubernator Əvad (Oud) xan və imperiyanın digər adlı-sanlı zadəganları iranlıların ölkəni işğal etməsinə qədər artıq Moğol imperiyasını zəiflətməyə macal tapmışdılar. Səadət xanın ağılsızlığı 24 fevral tarixindəki Karnal döyüşündə moğolların məğlubiyyəti və onun özünün əsir düşməsi ilə nəticələnmişdi. Nadir tərəfindən əsir alındıqdan sonra o, Nadirin mərhəmətini qazanmağa çalışdı və Məhəmməd şaha sadiqliyindən əl çəkdi. O, Dehli camaatından tutulacaq xəracı toplamaq üçün məmur təyin olundu və Nadirlə birgə şəhərə yollandı. Sarayda Nadir şah Səadət xanı hələ də xərac toplamağa başlamadığı üçün kəskin şəkildə məzəmmət etdi. Bu, Səadət xana çox ağır təsir bağışladı. Ləyaqət hissinin tapdalandığına (xüsusilə Karnal döyüşü zamanı) dözə bilməyən Səadət xan zəhər içərək özünü öldürdü. Nadir və ətrafı Şah Cahan qalasının xüsusi otaqlarını öz ixtiyarlarına keçirdilər, Məhəmməd şah isə qadınların qaldığı otaqlarda yerləşdi. İran ordusu şəhərin müxtəlif məntəqələrində düşərgə saldı və gün ərzində beş vaxt qılınan namazlardan sonra ucalan dualar zamanı Nadir şahın da adı səslənirdi. Onun şərəfinə üzərində "dünyanın xanlar xanı, şahlar şahı, taleyin hökmü (sahebgiran) yazılmış (sonuncu ifadə Nadirin doğulma tarixinin ulduzların xoş düzülmə saatına təsadüf etdiyini vurğulamaq üçün yazılmışdı) sikkələr də zərb olunmuşdu. O dövrdə Nadir şaha Dehlidə Moğol imperatorları kimi "şahənşah" deyə xitab edilirdi. Məhəmməd şahın hakimiyyətdə saxlanılmasının hansı məqsəd güd-

düyü dəqiq bilinməsə də, Nadir şahın Dehlidə olduğu müddətdə həqiqi iqtidar sahibinin kim olduğunu başa düşmək o qədər də çətin deyildi.

Karnaldakı məğlubiyyətə və iranlıların Dehliyə təntənəli şəkildə daxil olmasına baxmayaraq, şəhər sakinləri müstəmləkəçilərə baş əyməkdən boyun qaçırırdılar. Bazarda insanlar İran kəndlərindən və əyalətlərindən olan əsgərlərə gülürdülər. Cavab olaraq Nadir öz ordusuna cəza olaraq sakinlərin burunlarının ya qulaqlarının kəsilməsinə, həmçinin onları ölənə qədər döyməyə icazə vermişdi. O, əsgərləri arasında çox ağır, sərt nizam-intizam yaratmağı da əsla unutmurdu. Nadir yaxşı bilirdi ki, üç əsr yarım əvvəl Teymurun əsgərləri nəzarətdən çıxmış, şəhəri yandıraraq talan etmiş, insanları öldürərək özbaşınalıqlar törətmişdilər. Nadirin əsgərləri istirahət vaxtı dəstə şəklində, kiçik qruplarla bölünərək şəhəri gəzirdilər.

Karnalda Moğol ordusunun az bir hissəsi məhv edilmişdi. Nadir şah moğol zadəganlarına və Məhəmməd şaha daha çox psixoloji fəndlərlə təsir edərək üstünlük qazanmışdı. Moğol ordusunun qalan hissəsi qaçmağa üstünlük vermiş və sərkərdələr isə Nadirə təslim olmuşdular. Ümumilikdə türk-fars mədəniyyətinin vəhdəti də bu məsələdə az rol oynamamışdı. Moğol sülaləsi türk-monqol mənşəli idi və öz soy-kökünü birbaşa Əmir Teymurdan götürürdü. Onlar həmçinin iki yüz il boyunca İran mədəniyyətinin təsirini güclü şəkildə hiss etmişdilər. Nadir həm özünün, həm də Məhəmməd şahın eyni xalqa mənsub olduğunu vurğulamaq üçün Məhəmməd şahla Mərkəzi Asiya xalqlarının danışdıqları türk dilində ünsiyyət qurmağa üstünlük vermişdi. Moğol zadəganlarının əksəriyyətinin Hindistana şimaldan köç etmiş ailələrdən çıxması bu sülalənin zəifləməsinə gətirib çıxarmış əsas

amillərdən idi. Nizam – əl-Mülkün əsli-kökü Səmərqənd-dən, Səadət xanınkı isə İranın şimal-şərqində yerləşən Xorasandan idi. Moğol zadəganları Nadirin amansız xarakteri və onun döyüşkən ətrafı ilə müqayisədə aciz təsir bağışlayırdılar. Buna görə də, iranlıların Hindistanda asanlıqla irəliləməsinin səbələri aydın olur. Moğol zadəganları üçün şərəf və qürur incə məsələ idi. Nadir isə yersiz qürura nifrət edirdi. O, moğolların ifrat həssaslığına qəzəblənirdi. O, vəzirdən hərəmxanasında neçə qadın olduğunu soruşdu. Vəzir cavabında 850 qadının olduğunu bildirdi. Nadir kinayə ilə gülərək dedi ki, ona 150 cariyə də hədiyyə edəcək ki, vəzir hərbi vəzifə olan minbaşı rütbəsini daşıya bilsin. Bununla belə, İran-türk mədəniyyətinin yaxınlığı səbəbi ilə moğol zadəganları hindlilərə itaətdənsə, iranlıların rəhbərliyi altında özlərini daha rahat hiss edəcəklərindən əmin idilər. Bu yaxınlıq moğol zadəganlarının iranlılara olan qəribə bağlılığından irəli gəlirdi. Nadir üçün onların üzərində qələbə qazanmaq, onlara hökm etmək elə bu səbəbdən o qədər də çətin olmamışdı. Nə qədər amansız olsa da, çətinliyi birbaşa güc yolu ilə həll etməkdənsə, ona başqa bir vasitə taparaq aradan qaldırmaq Nadirin siyasəti idi. Şah Cahan üçün tikdirilmiş möhtəşəm sarayda o özünü rahat hiss edirdi. Lakin hadisələr hətta ən sadiq adamların da xəyanəti nəticəsində hər an nəzarətdən çıxa bilərdi. Şah Cahanın sarayından və qırmızı daşlarla bəzədilmiş qaladan kənardakı Dehli şəhərində hər şey o qədər də asan nizamlanmırdı. Elan edilmişdi ki, 21 mart tarixində, günün ikinci yarısından etibarən şəhər əhalisi xərac vermək üçün toplanacaqdı. Karnal döyüşündən sonra əsgərlərin çoxu burada sığınacaq tapmışdılar. Əhalinin əksəriyyəti qorxu və təlaş içində olsalar da, bəziləri qəzəb hissi ilə alışıb-yanır və öz

əvvəlki liderlərinə sədaqətlərini qorumağa üstünlük vermişdilər. Bazarda hər cür iğtişaş törətməyə hazır gənclər vardı. Onlar qarışıqlığın onların işinə yarayacağını düşünür, qisas almaq üçün istənilən vaxt iğtişaş törətmək üçün dəstə-dəstə toplanırdılar.

İranlıların yeni il şənlikləri (Novruz bayramı) 21 mart tarixinə təsadüf edir və adəti üzrə Nadir öz əsgərləri üçün bayram tədbirləri hazırlamışdı və onlara ən şərəfli ənamlardan hesab edilən bahalı əbalar hədiyyə edilirdi. O, şəhərə gəliş vaxtını elə təyin etmişdi ki, bayramı orada keçirə bilsin. Lakin həmin gecə şəhərdə Nadirin Məhəmməd şahın cariyələrindən biri tərəfindən öldürülməsi, zəhərlənməsi, yaxud da həbs edilməsi kimi şayiələr yayılmağa başladı. Şəhərin Paharqanc adlanan ərazisində qarğıdalı saxlanan anbarda günün ikinci yarısında narazılıq dalğası baş qaldırdı. Nadirin əsgərlərinin bir çoxu qarğıdalının qiymətində yaranmış narazılığı yoluna qoymaq üçün əraziyə yolandılar. Yerli tacirlərin çoxu müəyyən olunmuş aşağı qiymətlərdən narazı idilər və axşama doğru öz tərəfdarlarının sayını çoxaltmağa müvəffəq oldular. Qəzəbli dəstə bura gəlmiş əsgərlərə hücum çəkərək onları qətlə yetirir və şəhərin digər ərazilərindən gələnlərin köməyi ilə qarşılarına çıxan iranlılara hücum çəkirdilər. Əsgərlər öz növbəsində dəstələrə bölünərək küçələrdə, bazarlarda gəzişərək anidən hindlilərə həmlə edirdilər, onlar nə baş verdiyini anlamağa macal tapmamış öldürülürdülər.

Nadirin saraydakı xidmətçiləri hökmdarı yuxudan oyadıb bu xəbəri ona çatdırmağa tələsdilər. Nəhayət ki, qorxudan əsə-əsə, titrəyə-titrəyə də olsa, onlar baş verənləri Nadirə xəbər verdilər, lakin o, eşitdiklərinə inanmadı. Nadir dedi: “Mənim ətrafımdakı xainlərdən kimsə hindliləri baş verənlərdə təqsirkar bilib, onları öldürə, yaxud

onların var-dövlətini ələ keçirməyə çalışar. Nadir nə baş verdiyini dəqiqləşdirmək üçün iki nəfəri göndərdi. Amma onlar saray qapısından bir neçə metr aralıda ölü tapıldılar. Sonra o, min nəfərə yaxın inandığı hərbiçisini şəhərdəki iğtişaşları yatırtmaq üçün göndərdi və onlara heç kəsə atəş açmamağı tapşırdı. Bu adamlar onun tapşırığına əməl etsələr də, qarşı tərəf iranlıları atəşə tutmağa başladı.

Aydın oldu ki, baş verənləri yatırtmaq üçün min nəfər azlıq edəcək və iğtişaşçıların sayının heç olmasa yarısı qədər qüvvə olmadan üsyan alovunu söndürmək mümkün olmayacaq. Bütün gecə boyunca atışmalar davam etdi və əhali düşməni daş-qalaq etməkdən çəkinmirdi. İranlılar qalaya və müdafiə oluna biləcəkləri digər yerlərə sığınmışdılar. 22 mart tarixində, səhər vaxtı Nadir öz sarayından çıxaraq Rövşən-öd-dövlə məscidinə yollandı. Nadir öz adamları ilə birlikdə ora çatar-çatmaz əhali məscidin yaxınlığındakı eyvanlardan, pəncərələrdən daşlar atmağa başladı, atəş səsi eşidildi və Nadirin yanındakı əsgərlərdən biri yerə yıxıldı. O, artıq öz düşüncələrində qəti qərara gəlmişdi və sonuncu olan hadisə onun səbir kasasını tamamilə daşırdı. Nadir məscidin yuxarı hissəsinə qalxdı və burada o qızılı günbəzin yanında dayandı. Dayandığı yerdən Çandni-Çuk rayonunun evlərinə, dükanlarına tamaşa etməyə başladı. O, əsgərlərinin öldürüldüyü yerlərdə bir nəfərin də sağ buraxılmamasına əmr verdi və qırğına başlamaq üçün qılıncını çəkdi. Üç minə yaxın hərbiçiyə yerli əhaliyə qarşı kütləvi qırğına başlamaq əmri verilmişdi. Qaldırılmış qılıncı ilə Nadir elə bir qəzəb və dərin hüzn içərisində idi ki, kimsə ona yaxınlaşmağa cəsarət etmirdi. Nadir hər vəchlə çalışırdı ki, idealı saydığı Teymurun bir vaxtı Dehlidə törətdiyi kimi dəhşətli qırğını törətməsin. Lakin baş verənlər ona başqa çıxış yolu qoyma-

mışdı. Onun qara gözləri şəhərdən qalxan tüstüyə zillənmişdi və hər tərəfi qışqırıq səsləri bürümüşdü.

Qətliam səhər saat doqquzda başladı. Əsgərlər qarşılarına çıxan bütün evlərə və dükanlara soxulurdular. Bəzi yerlərdə onlara müqavimət göstərənlər olsa da, əksər yerlərdə insanlar müqavimətə macal tapmadan yerindəcə öldürülürdü. Paharqanc rayonunda çaxnaşma yaratmaqda şübhəli bilinən insanlar həbs olunaraq Yamun çayının sahillərinə gətirildi və burada başları kəsildi. Bazarda toplaşan həmin cavanlar sanki qeybə çəkilmişdilər və onların davakarlığının əvəzini sayılıb-seçilən ailələrin başçıları, şəhərin dinc əhalisi canı ilə ödəməli oldu. Hərbiçilər qarşılarına çıxan bütün evlərə od vururdular və insanlar, xüsusilə də qadınlar və uşaqlar evlərində yanaraq öldülər. Ailəsinin namusuna xələl gəlməsin deyə bəzi kişilər çarəsizlikdən və çaşğınlıqdan öz qadınlarını və uşaqlarını öldürür, sonra isə özləri intihar edirdilər. Bəzi qadınlar isə əsgərlərdən qorunmaq üçün özlərini quyulara atırdılar.

İki nəfər cavan Seyid Niyazi xan və Şahnəvaz xan isə ölüm və zorakılığın hakim kəsildiyi şəhərdə şayiələr gəzdirir, bununla da zorakılığın daha da alovlanmasına yardım göstərirdilər. Həmin şəxslər evlərini qorumaq üçün buraya soxulmuş əsgərlərin əl-qolunu bağlayaraq onları diri-diri yandırmışdılar. Daha sonra onlar Nadirin atları və filləri saxlanılan yerlərə hücum eləmiş, heyvan gözətçilərini öldürərək heyvanları şəhərin ətrafındakı qalaya aparmışdılar. Lakin qalada müqavimətlə rastaşmış və əsgərlər tərəfindən tutularaq Nadirin hüzuruna gətirilmiş və amansızlıqla edam olunmuşdular.

Qadın əsirlərlə Nadir bir qədər mərhəmətlə davranırdı. Əsir götürülənlər Nadirin hüzuruna gətirilirdi və

onların əksəriyyətinin təcavüzə məruz qalmış qadınlar olması üzə çıxırdı. Nadir onlara evlərinə geri dönməyə icazə verdi.

Qətliam səhərə qədər davam etdi. Minlərlə ev və dükan yandırıldı, canlı və cansız nə varsa alova bürünmüşdü. Bahalı paltar dükanları, zinət dükanları əsgərlər tərəfindən talandı. Talanların ən böyük məsuliyyəti tacirlərin və dükan sahiblərinin üzərinə düşürdü. Gün çıxdıqca şəhərdəki mənzərə daha aydın görünməyə başladı. Ölənlərin meyitləri küçələrdə qalaqlanmış, yollar qana boyanmışdı. Nəhayət, Məhəmməd şah Nizam ül-Mülkü qırğını dayandırmaq xahişi ilə Nadir şahın yanına göndərdi. Nizam Nadirin yanına gələndə o, şirniyyat yeyirdi. Nadirə yaxınlaşan Nizam bu qırğını dayandırması üçün öz canından belə keçməyə hazır olduğunu söylədi. Bununla kifayətlənməyib o, çəkinmədən Nadirdən bu günahsız insanların canını aldığı üçün Allahın qəzəbinə uğramaqdan qorxmağı tövsiyə etdi. Günorta saat üç radələrində, altı saatlıq qətldən sonra Nadir üsyançıları bağışladığını söylədi. Qızılbaş əsgərləri öz şahlarına o qədər sadiq və elə bir məsuliyyət hissi ilə, ciddi nizam-intizamla tabe idilər ki, onun bircə sülh kəlməsi ilə onlar bir anda qətl və talanlara son qoydular. Bu, dünyada ən gözəl şeydir ki, qana-susamış, vəhşi əsgərlər bir kəlmə ilə tabe olub, növbəti qətl və talanları törətməkdən əl saxlayırlar.

Ölənlərin sayı durmadan artırdı. Nadir şəhərin müəyyən yerlərində baş vermiş qırğınları altı saatdan sonra dayandırmışdı. İğtişaşlarda ölənlərin sayı 20-30 minə çatırdı. Öldürülən əsgərlərin sayı da dəqiq deyildi, lakin bu rəqəmin bir neçə yüz olduğu təxmin edilirdi. Meyitlər hələ bir neçə gün küçələrdə qaldı. Uzun müddət küçələr ölülərin üzərindəki güllər və yarpaqlarla dolu olan bir

bağı xatırladırdı. Nadirin fikrincə, onun cəza tədbiri uğurlu alınmışdı, çünki Dehli camaatı tərəfindən daha heç bir narahatlıq yox idi. Dəfn edilməmiş meyitlərin üfunət qoxusu hər yeri bürüdükdə, onları daşıyaraq çaya atmağa başladılar. Evlərdə və dükanlarda qalanları da yandırıb külə çevirdilər. Nadirin bu qırğınlara son qoymasının daha bir səbəbi də şəhərin zəngin bölgələrindəki sərvətinin öz adamları tərəfindən talan edilməsinə mane olmaq idi. Şah oradakı var-dövləti öz əlində cəmləşdirmək istəyirdi. Onun Dehlidə qalmağının əsas səbəbi xərac toplamaq idi. O, şəhərin bütün qapıları önündə bura girmək istəyənlərə icazə verən, çıxmaq istəyənlərin isə qarşısını kəsən xüsusi mühafizə dəstələri yerləşdirmişdi. Bu qırğınlardan sonra şəhər zadəganlarının sərvəti talanmışdı. Paytaxtdan kənarda yaşayan zadəganların sərvətininin ələ keçirilməsi üçün həmin yerlərə əsgərlər göndərildi. Sağ qalanların isə sərvəti qiymətləndirildi və onların hər birinə fərdi vergi tətbiq olundu. Bu vaxtdan etibarən zadəganlar yarımmüstəqil oldular. Onlara öz xüsusi mülk torpaqlarını istənilən şəkildə əkib-becərməyə və sərbəst şəkildə idarə etməyə icazə verildi. Nizam ül-Mülkün guya oğlunun onun yoxluğunda Dekkandakı torpaqlarını və bütün sərvətini mənimsəyərək ona tabe olmaqdan boyun qaçırdığı haqqında yalan uydurmasına da göz yumuldu. Digərləri ilə isə belə yumşaq rəftar etmirdilər. Nadirin vergi yığanları bu cür bəhanələri xoşlamırdılar. Məhəmməd şahın vəzirindən isə böyük miqdarda xərac ödəməsi tələb edildi. Buna görə, Nadir ən ağır cəzalardan hesab edilən, sağlamlıq üçün böyük ziyanı olan üsula əl ataraq onu qızmar günəşin altında saxladı. Nəhayət ki, xeyli miqdarda bahalı daş-qaş və fillərdən əlavə, onun sərvəti son rupisinə qədər müsadirə olundu.

Benqal əyalətinin qubernatoruna bu vilayətin yeddi kurur dəyərində (kurur – say vahidi, 10 milyon) qiymətləndirildiyi deyildikdə o, zarafatla bu pulların Benqaldan Dehliyə daşınması üçün bir neçə karvanın tələb olduğunu bildirdi. Etdiyi zarafat müqabilində o, bir neçə dəfə döyüldü və bu cür rəftara dözə bilməyib ailəsi ilə birlikdə zəhər içərək həyatına son qoydu. Əhalidən alınan vergilərin çoxluğu və alınacaq vergilərin dəyəri bilindiyi üçün 27 mart tarixində Nadir İranda elan olunması üçün bütün təbəələrinin üç il müddətinə vergilərdən azad edilməsinə dair fərman verdi. Eyni zamanda, o, əsgərlərin bir illik məvaciblərini, üstəlik onlara altı aylıq məvacibləri qədər də əlavə vəsaitin ödənilməsini əmr etdi.

Nəhayət ki, Dehli əhalisindən ümumilikdə yığılacaq verginin miqdarı 2 kurur dəyərində müəyyənləşdi və moğol məmurlarına bu vergiləri toplamaq tapşırıldı. Bu məqsədlə şəhər 5 hissəyə ayrıldı və minlərlə süvariyə lazım gəldikdə güc tətbiq etmək əmri verildi. Pulların toplanması prosesi olduqca əzablı keçirdi və əhali şəhərdən qaçmaq üçün yollar axtarırdı.

Nadirin ümumilikdə Dehlidən topladığı xəracın miqdarı, Məhəmməd şah və digər zadəganlardan hədiyyə edilmiş bəxşişlər, əhalidən tutulan vergilər, imperiya xəzinəsindən götürülən bahalı daş-qaşlar və zinət əşyaları, müsadirə edilmiş mebel, məişət əşyaları, bəzəkli silahlar da daxil olmaqla ağlasığmaz idi. Müasir tədqiqatçıların hesablamalarına əsasən bu miqdar 70 kurur civarında (87.5 million funt-sterlinqə yaxın) idi, bəziləri isə Nadirin əsgərlərinin əlavə olaraq 10 kurur da yığdıqlarını söyləyirlər. Bu məbləğin əsas hissəsini bahalı daş-qaşlar təşkil edirdi və onların sayı-hesabı bilinmirdi. Toplanılan cavahiratın və əldə edilən qənimətin dəqiq qiyməti və hesabı

haqqında araşdırma aparmaq isə faydasızdır. Bu cür zəngin qənimətin, qiymətli əşyaların dəyərini hesablamaq istədikdə, qiymətləndirmə meyarlarının özü belə aciz qalır.

Ləl-cavahiratın içərisində ən dəyərliləri Xoruz pipiyi adlanan taxt və Kuhe-nur almazı idi. Nadirin ölümündən sonra taxt sındırıldı, Kuhe-nur almazı İrandan aparıldı. Digər cavahiratlar da dağıdıldı, lakin bircə Nadirin 1739-cu ildə gətirtdiyi daş-qaşlı tac bu gün də İranda saxlanmaqdadır. Bu daş-qaşın arasında Dəryayi-Nur adlanan dünyanın ən böyük çəhrayı almazı var. 19-cu əsrdə İran şahları özlərini mədh etmək üçün əsərlər yazdırır və bahalı ləl-cavahirat, işləməli qablar, daş-qaşlarla örtülmüş qılınc, qalxan, qədəhlər və s. hədiyyə verirdilər.

Dehli viran edilmişdi. Üstəlik, kütləvi qırğınlar, talanlar və yanğınlar səbəbi ilə şəhərin iqtisadi həyatı iflic olmuş, ticarətdə durğunluq yaranmışdı. İnsanların halı acınacaqlı idi, zinət əşyalarının da qiyməti kəskin şəkildə aşağı düşmüşdü. Bu da öz növbəsində əhalidən tələb olunan pulu əldə etmələri üçün böyük çətinlik törədirdi. Çox ailələr vardı ki, öz mal-mülklərinin, pullarının əldən getməsindən əlavə, özləri də dərin sarsıntı keçirərək həyatlarına son qoymağa qərar vermişdilər. Əhalidən vergi toplandığı bir vaxtda, Nadir oğlu Nəsrullanı Moğol şahzadəsi – İmperator Aləmgirin nəvəsi və Məhəmməd şahın qardaşı qızı ilə evləndirdi. Məhəmməd şah bəyə mirvaridən boyunbağı, xəncər dəsti, və qızılla bəzədilmiş fil hədiyyə etdi. Eləcə də, Nadir yeni evlənən cütlüyə pul və cavahiratla birgə saysız hədiyyələr bəxş etdi və Yamun çayının sahillərində cütlüyün şərəfinə atəşfəşanlıq oldu. Qaydaya əsasən, toydan qabaq, qız tərəfi bəyin əsil-nəcabətini və yeddi nəsilini öyrənməli idilər. Bunu eşitdikdə Nadir belə dedi: "Onlara de ki, o, Nadirin oğludur, o qılıncın

oğludur, o qılıncın nəvəsidir və yeddi nəsili yox, onun yetmiş nəsli də belədir".

6 aprel tarixində – toy günü, qızılbaş qoşunları Nadirin anti-şiə fərmanlarını pozaraq təzəcə girən Məhərrəm ayının ilk sabahının ənənəsinə əsasən şiə şəhidi Hüseynin şərəfinə ağılar deməyə başladılar. Din sahəsində verdiyi fərmanlarının pozulmasından başqa, Nadiri oğlunun toy günü əsgərlərinin onun sərt rejiminə qarşı nümayişkaranə hörmətsizliyi qıcıqlandırmışdı. O, itaət göstərməyən əsgərlərini edam etdirdi və meyitlərini şəhər darvazalarından bir ay müddətində asılı saxlamağa əmr verdi ki, digərlərinə də ibrət olsun.

Xəraclar toplandıqdan, oğlunun toy mərasimi yekunlaşdıqdan sonra Nadir rahat nəfəs aldı. İndi o, həm Dehlinin və həm də onun bütün xəzinəsinin sahibi idi. Nadirin ad-sanı heç kimlə müqayisə edilə bilməzdi. Min illər idi ki, İran tarixində hələ heç kim bu qədər böyük hərbi uğur əldə edə bilməmişdi. İndi yalnız Moğol imperiyasının gələcək idarəçiliyinə dair tədbirlər hazırlamaq və geri çəkilmək qalırdı. Onun Dehlini talan edib tərk etməsi kimi, bu qərarında da tərəddüd əlaməti yox idi. Nadir Hindistanı həmişəlik işğal edib burada qərar tutmaq niyyətində deyildi. Məhəmməd şahı təlaş bürümüşdü. Lakin Dehli İranın şimal-şərqindən, Xorasanda güclü mövqeləri olan Nadirin taxtından çox uzaqda idi və Novruz qırğınları iranlıların hakimiyyəti üçün heç də uğurlu başlanğıc hesab edilmirdi. Onun səltənəti hələ yeni idi. Nadir cəmi 3 il əvvəl özünü şah elan etmişdi. Hakimiyyətinin çoxlu əleyhdarları vardı və onların sayı da get-gedə çoxalırdı. O, bilirdi ki, malik olduğu hərbi gücə baxmayaraq İran əhalisi ürəklərində onun hakimiyyətini hələ də qəbul etmir və Səfəvi sülaləsinin yenidən bərpasına ümid bəslə-

yir. Moğol ərazilərini mühafizə etmək üçün Nadir öz vətənindən uzun müddət ayrı qalmamalı olduğunu da başa düşürdü. Lakin o, gedişindən öncə ölkədə elə bir şərait yaratdı ki, lazım olduğu vaxt Hindistanın işlərinə qarışa bilsin və beləcə, məsələni istədiyi kimi həll etdi.

Bu razılıq 12 may tarixində Məhəmməd şah və Moğul zadəganlarının da qatıldığı tədbirdə əldə olunmuşdu. Nadir Məhəmməd şaha bahalı əşyalar, o cümlədən bahalı qaşlarla bəzədilmiş qılınc da hədiyyə etdi. Lakin ən əhəmiyyətli bəxşişlərdən biri tac idi ki, bunu da Nadir şəxsən Məhəmməd Şahın başına taxdı və bununla da onun suverenliyini təsdiqləmiş oldu. Məhəmməd şah bir daha Nadirə təşəkkürünü bildiriərək Tibetdən Kəşmirə kimi hind torpaqlarının onun ixtiyarında olduğunu söylədi. Əlbəttə ki, bütün bunlar əvvəlcədən hazırlanmış plana əsasən yerinə yetirilirdi və bu tamaşanın yekununda Nadirin xasiyyətinə xas kinayə ilə dolu yumor özünü göstərdi. Nadir Dehliyə çatan kimi Məhəmməd şah ona bəxşişlər təqdim etmək məcburiyyətində idi. Bu ərazilərin Nadir tərəfindən təşkil edilən sənədlərində iki türkəsilli hökmdara aid olması qeyd edilirdi. Sənəd də Məhəmməd şahın adından yazılmışdı: Əlahəzrət, Gürkan ailəsinin timsalında (Gürkan – güregen, Teymurla Çingiz xan arasında yaranmış qohumluq bağları əsasında verilən titul – kürəkən nəzərdə tutulur – *red.*) məqamının böyüklüyü ilə mənim Hindistanda taxt-tacımı yenidən özümə bağışlayır. Daha sonra, imperiyanı idarə etmək üçün Nadir Məhəmməd şaha bir neçə məsləhət verdi. Nadir ona Moğol zadəganlarının istifadə müddəti bitmiş torpaqlarını müsadirə etməyi və onlara ölkənin xəzinəsindən birdəfəlik ödəniş etməyi tövsiyə etdi. O, əlbəttə ki, hərbi sahədə də məsləhətlərini verməyi unutmadı. Məhəmməd

şaha 60.000-lik daimi, muzdlu ordu saxlamaq və ən kiçik rütbəsinə kimi bütün hərbçilərinin adlarını və ailələrini bilib tanımaq tövsiyə olundu. Lazım gəldikdə, o, konkret vəzifələri yerinə yetirmək üçün adamlar təyin etməli, onların ixtiyarına lazımi qədər əsgər verməli, məsələ həll edildikdən sonra isə əsgərlər öz əsas qərərgahlarına geri qaytarmalı idi. Heç kim yaradılacaq bu cür birləşmələrdə uzun müddət qala bilməzdi.

Nadir həmçinin Məhəmməd şaha Nizam ül-Mülkə inanmamağı, hər hansı bir zadəgan etiraz səsini ucaldarsa, dərhal gücdən istifadə etməyi, daha ciddi hallarda isə Nadirin harada olmasına baxmayaraq, ona xəbər verməsini tapşırdı. Nadiri Dehliyə kimi müşayiət edən Gürcüstan şahzadəsi İrakli qeyd edirdi ki, Nadir şəhərin zadəganlarına Məhəmməd şaha sədaqətlə xidmət etmələrini tapşırdı, əks təqdirdə, harada olmasından asılı olmayaraq altı ay ərzində geri dönüb onların hamısını həlak edəcəyi ilə hədələdi.

Bu razılaşma əslində, himayədarlıq sazişi idi. Məhəmməd şahın şahlığı yalnız Nadirin himayəsi altında davam edə bilərdi və Nadirin bura növbəti səfərlərinin gözlənildiyi açıq-aydın görünürdü. Mənbələrin birində qeyd olunur ki, Nadir özünün ən etibarlı adamlarından birinə Məhəmməd şahın hökmdarlığa yaramadığını açıq şəkildə söyləmişdi. Bəs onda Nadir onu hansı səbəbdən taxtında saxlamışdı? Bu zəif imperatorun hakimiyyətini bərpa etməklə Nadir onunla Nizam ül-Mülk kimi güclü rəqib arasında istədiyi an çaxnaşma yaradıb yenidən Hindistana müdaxilə edə bilərdi. Əgər Hindistanı tərk etdikdən sonra Nadirin hakimiyyəti çiçəklənərək davam etmiş olsaydı, əlbəttə ki, o, 1739-cu ildə etdiklərini təkrarlamaq üçün bura geri dönəcəkdi. Nadir Xorasanda, Qəndəharda

(Nadirabad) və digər yerlərdə tikinti layihələri həyata keçirmək üçün geri qayıdarkən, oranın ən yaxşı sənətkarlarını (ustalarını, bənnalarını, nəqqaşlarını, daşyonanlarını) özü ilə aparmaq qərarına gəlmişdi. Nadir onların yol xərclərini də öz üzərinə götürmüşdü. Sənətkarlar üç il müddətinə onun üçün çalışacaqdılar, azad olduqdan sonra öz istəkləri ilə ya onun yanında qalıb işləməli, yaxud geri dönməli idilər. Lakin onların çoxu (iranlılar) Lahora gəlib çatmazdan qabaq qaçıb getmişdilər.

Nadirin özü ilə apardığı şəxslərin sırasında Ələvi xan adlı birisi də vardı ki, Nadir hələ Hindistana gəlməmişdən qabaq tutulduğu xəstəliyi (bədən toxumalarında maye toplanması) müalicə etməsi üçün onu öz yanında baş həkim vəzifəsinə götürmüşdü. Ələvi xan Nadirin xəstəliyinin müvəqqəti də olsa yüngülləşməsində əhəmiyyətli rol oynayaraq şöhrət qazandı. Lakin bu xəstəlik Nadirə həm fiziki, həm psixoloji cəhətdən mənfi təsir göstərmiş və ömrünün son illərində onun daha da qəddarlaşmasına səbəb olmuşdu.

Nadir Dehlidən öz istəyi olmadan hər hansı qadının əsir aparılmasını sərt şəkildə qadağan etdi. İnsanlar arasında az da olsa hörmət qazanmaq niyyətində olan Nadir, şəhərdəki qırğınlardan sonra əsgərləri tərəfindən götürülmüş qadınlara mərhəmət göstərmək niyyətində idi. Ordu Şalimar bağlarına çatdıqdan sonra bütün düşərgələrdə elan edilməyə başladı ki, istər qadın olsun, istərsə də kişi, götürülmüş bütün əsirlər öz şəhərlərinə qayıtmalıdırlar. Qərara qarşı çıxmaq fikrinə düşən hər kəs ya canından, ya da mülkündən olacaqdı. Əsir götürülənlərin böyük əksəriyyəti qadınlar idi. Hətta Dehlidə qaydalara uyğun şəkildə ərə gedən qadınlar və rəsmi sənədlə alınıb-satılan qullar yalnız öz istəkləri olduğu halda iran-

lıların yanında qala bilərdilər. Bu qayda elan edildikdən sonra demək olar ki, bütün qadınlar Dehliyə, öz evlərinə geri döndülər. Bəzilərinin ərlərinin artıq geri dönməyib qalmasını təkid etdikləri qadınları belə Nadir bir neçə gün sonra geri göndərdi.

Nadirin qadınlara göstərdiyi mərhəmətin başqa səbəbləri də ola bilərdi. Nadir düşərgəsindəki əsgərlərinin hərb işindən savayı başqa işlərə baş qoşmaması və yaxud İranla Hindistan arasında məlumat mübadiləsinin baş tutmaması üçün vasitəçiləri aradan qaldırdı. Buna baxmayaraq, İran ordusunda hind qadınları hələ də qalmaqda idi. Nadirin informasiya ötürülməsi səbəbi ilə bu işə qarışması məntiqli görünmür. Çünki onun özü də kifayət qədər böyük sənətkarlar ordusunu ardınca aparırdı. Nadirin Dehlidəki hərəkətləri olduqca amansız idi, lakin indi o, özünü bir qədər yumşaq tərəfdən göstərirdi. Əsir düşən qadınlara qarşı o, bir çox hallarda mərhəmət göstərmişdir ki, mənbələrdə də bu haqda məlumatlara rast gəlmək mümkündür. Bəlkə də, etdiyi qəddar hərəkətləri unutdurmaq üçün sadəcə mərhəmətli olmağa çalışırdı. O dövrdə yaşayanlardan birinin nəql etdiyi rəvayətə əsasən, Nadirin Dehlini tərk etməsindən, mülk və ərazi məsələlərinin həll olunmasından sonra iranlı əsgərlər bir müddət rahatlaşmış və vaxtlarını əyləncə məclislərində keçirməyə başlamışdılar. Dövrün tanınmış xanım müğənnisi Nurbay Nadir və onun hərbçiləri üçün belə bir mahnı da oxumuşdu:

*Ürəyimə geri dönəcəkdinizsə*
*Nəyə görə onu tərk etmişdiniz?*
*Qədəhləri qaldırın rəqs edin,*
*Bura ibadət etməyə gəlməmisiniz.*

Nadir Nurbayın nəğmələrindən heyrətə gəlmiş, onun gözəlliyinə valeh olmuşdu. O, xidmətçilərinə Nurbaya 4 min rupi verməyi tapşırmış və gedərkən onu özü ilə aparacağını söyləmişdi. Lakin, şahın niyyətindən xəbər tutan müğənni xəstəliyə düşmüşdü: onun ürəyi susmuşdu. Bunun qəsdən olub-olmamasından asılı olmayaraq, deyəsən bu xanım Nadiri fikrindən daşındıra bilmişdi. Nadir öz əsgərlərinə və hərbçilərinə qoyduğu qadağanı nəzərə alaraq, bu qadını zor gücü ilə, onun iradəsinə zidd aparmaq niyyətindən əl çəkdi. Hindlilərdən birinin Nurbaydan Nadir şahın onun istənilən arzusunu yerinə yetirə biləcəyi təqdirdə ondan nə istəyəcəyinə dair sualına bu xanımın cavabı təxminən belə olmuşdu: “Mən özümü bu qətliamda günahkar hiss edərəm”.

Yüklənmiş saysız-hesabsız atlar və dəvələr yola çıxmaq üçün hazır vəziyyətə gətirilmişdi. 16 may 1739-cu ildə Nadir Dehlini tərk etdi. Onu görənlərin söylədiklərinə görə, Nadirin başında ağ Kəşmir şalı və qırmızı parçadan çalma vardı, əyninə isə bahalı qaşlarla bəzənmiş libas geyinmişdi. O, cavan və güclü idi, həm də düz qaməti vardı. Saqqalı və bığları qara rəngə boyanmışdı. Küçələrdən keçərkən önünə baxır, onu yola salmağa çıxan əhaliyə hər iki əli ilə pullar səpirdi.

## I FƏSİL

## SƏFƏVİ SÜLALƏSİNİN QÜRUBU

*Ey İran, bədbəxt səltənət!*
*Bir zaman qəhrəmanlar idarə etmiş səni!*
*Onlar öz hiyləgərlikləri və şücaətləri ilə*
*Afrikanı və soyuqdan donmuş Avropanı ram etmişlər.*
*Günəşin utancaq halda dumanı dəlib işıq saçdığı ölkə!*
*İndi isə sənin taxtın Saturn və Sintiey ulduzunun qovuşduğu*
*O qara gündə doğulmuş şəxsə qismət olub! Nadan şüurlu!*
*Yupiter və Marsın xeyir-dua vermədikləri insan!*
*Və budur qılıncını çəkmiş türk təhdid etməkdədir səni!*
*Üzərinə yeriməkdədir tatar övladı!*

***K.Marlo***
***("Əmir Teymur")***

Dehlinin gələcək fatehi İranın şimal-şərq bölgəsində, Xorasan əyalətinin şimal hissəsində, mədəniyyətdən uzaq təhlükələrlə dolu yerdə dünyaya göz açmışdı. Nadirin doğum tarixi dəqiq bilinməsə də, onun 1698-ci ilin 6 avqust tarixində anadan olduğu güman edilir. Nadirin atası kasıb təbəqənin nümayəndəsi olsa da, qürurlu adam idi. Onun Əfşar tayfasının çobanı və ya kürkçü olduğu haqqında məlumatlara rast gəlmək mümkündür. Nadirin atasının adı İmamqulu idi. Gələcək fatehin təvəllüdü haqqında mənbələrdə kifayət qədər məlumat olmasa da, onun atasını Xorasan əyalətinin şimal hissəsində hamı çox yaxşı tanıyırdı. Saray tarixçisi Nadirin barədəsində olan məlu-

matlarda heç bir dəyişiklik etməmişdir, onun həyatını olduğu kimi qələmə almışdır. Mənbələrdə yazıldığı kimi, "qılınc öz gücünü hazırlandığı dəmirdən deyil, Nadirin temperamentindən alırdı"[1].

Nadirin atasının mənsub olduğu Əfşar tayfaları İranın şimal-şərqində Xorasanda məskunlaşmış, yarımköçəri türk nəsillərindən ibarət idi. Nadir Xorasanın paytaxtı, Məşhədin şimal-qərb hissəsində yerləşən Dərə-Gəz regionundakı Allahu Əkbər dağlarının qərb hissəsindəki Dəstgerd adlı qala ilə əhatələnmiş kənddə doğulmuşdu. Doğularkən ona, "Gözəllik qulu" mənasına gələn Nadirqulu adı verilmişdi. Lakin Nadir böyüyüb özünü şah elan etdikdən sonra adını dəyişərək özünə "tapılmayan", yaxud "möcüzə" mənalarına gələn Nadir adını götürmüşdür. Əvvəllər bu ad, onun seçilmək arzusundan irəli gələrək, qeyri-adi bacarıqlarını göstərmək üçün ləqəb kimi işlədilirdi.

Qərb oxucuları, mənbələrdə göstərilmiş qeydlərdən irəli gələrək Nadir haqqında geniş məlumat ala bilərlər. Onun doğulduğu kənd əyalətin inzibati mərkəzi rolunu oynayırdı. Onun atası mal-qara və dəvə sürülərini otarmaqla məşğul idi. Lakin biz müasir Qərbi Avropa modelinə uyğun şəkildə, o dövrün çobanlarını varlıların torpaqlarında işləyən, əhalisinin böyük hissəsini kəndlilər təşkil edən oturaq əhali kimi təsəvvür etsək, yanlışlığa yol verərik. Burada əlbəttə ki, kəndlilər də vardı, dükanlar da. Bununla yanaşı burada əkinə yararlı sahələr də çox idi[2].

---

[1] Bununla tarixçi Nadirin qazandığı bütün uğurların onun öz şəxsi keyfiyyətləri ilə bağlı olduğunu, Nadirin valideynlərinin, yaxud qohumlarının dəstəyi ilə əsla yüksəlmədiyini vurğulamaq istəmişdir. – *C.H., E.Ə.*

[2] XIII əsrdə Monqol yürüşləri dövründə bəzi vilayətlərdə əkinə yararlı torpaqların müəyyən hissəsi tamamilə yararsız hala salındı və nəticədə bu torpaqların müəyyən bir qismi kənd təsərrüfatı üçün yararlığını həmişəlik itirmişdi.

Xorasanın o qədər də geniş olmayan münbit torpaqlarında döyüşkən köçəri və yarımköçəri tayfalar (Əfşarlar, Kürdlər və digərləri) öz sürülərini otarırdılar. Bu insanların çoxu Nadirin atasının mənsub olduğu Əfşarlar da daxil olmaqla, tayfa birlikləri şəklində üsyanları yatırtmaq, sərhəd əraziləri hücumlardan qorumaq üçün həmin torpaqlara İranın qərb hissəsindən köçürülmüşdülər. Döyüşkən türkmənlər atın belində bəzi ərazilərə basqınlar edir və Mərkəzi Asiyanın qədim İpək yolunda ucuz qiymətə satmaq üçün heyvanları və qulları qənimət kimi özləri ilə aparırdılar. Türkmənlər sünni, iranlılar isə şiə idilər. Türkmən tayfalarının əsas məşğuliyyəti demək olar ki, bütün tarix boyu heyvandarlıq olmuşdu. Xorasanda yaşayan tayfalar fars deyil, ya türk, yaxud da kürd dilində danışırdılar. Nadirin ana dili, Mərkəzi Asiya və İranda yaşayan türk tayfalarının istifadə etdiyi dilin dialektlərindən biri idi, amma o, çox tez bir müddətdə böyük şəhərlərin və yüksək mədəniyyətin dili olan fars dilini də öyrənməyi bacarmışdı. Lakin o, gündəlik həyatında yalnız öz ana dilində danışırdı. Ancaq türk dilini bilməyən insanlarla rastlaşdıqda fars dilindən istifadə edirdi. Nadir sonralar bu dildə yazmağı və oxumağı da öyrənmişdi.

Köçəri və yarımköçəri heyvandarlıqla məşğul olan əhali XVIII əsrin əvvəllərində İran əhalisinin üçdə birini təşkil edir və onların sayı üç milyonu keçirdi. Bu tayfalar istər qohumluq telləri ilə, istərsə də ticarət və siyasi əlaqələrlə bir-birinə sıx bağlı idilər. Təbii ki, mədəniyyət cəhətdən onlardan daha çox inkişaf etmiş farsların adət-ənənələri onlara da öz təsirini göstərmişdi, lakin Teymur və Çingizin dövründən başlayaraq onların həyat tərzi türk-monqol qaydalarına uyğun formalaşmışdı. Onlar bu böyük fatehlərin tutduqları torpaqlarda məskunlaşan əha-

liyə rəhbərlik etməyə çalışırdılar. XVIII əsrin əvvəllərində mərkəzi hakimiyyətdə boşluqlar yarandıqda tayfalar arasındakı çəkişmələr də dərinləşdi. Artıq tayfa başçılarının bir çoxu özlərini müstəqil mülkədarlar kimi aparmağa başlamışdılar. Əvvəllər, yəni mərkəzi hakimiyyətin güclü olduğu dövrlərdə, şah tez-tez tayfa başçılarını yerli və regional idarəçilik məsələlərində başçı təyin edir və onların daxili işlərinə müdaxilə etmirdi. Yerli əhali isə tayfa başçılarının onları qoruması və əmin-amanlığı təmin etməsi müqabilində yığılan məhsullardan onlara vergi ödəyirdilər. Köçəri tayfalar isə mərkəzi hökumətə ya ümumiyyətlə vergi vermir, ya da çox kiçik məbləğ ödəyirdilər.

Nadir belə bir ziddiyyətli şəraitdə böyüyüb boya-başa çatmışdı. Türkcə danışan İran rəiyyəti müasirləşmiş Fars mədəniyyəti ilə tanış olmuşdu. Əksinə, İstanbuldan Səmərqəndə, Dehliyə və bunun kimi böyük şəhərlərdə yaşayan, hətta at belə çapmağı bacarmayan şəhər əhalisi olduqca təkəbbürlü idi. Nadirin ailəsinin həyatı olduqca sakit məcrada cərəyan edirdi. Onlar qarın əridiyi vaxtlarda mal-qara və qoyun sürülərini Kobkan ətrafınakı sərin dağlıq ərazilərdəki otlaqlara çıxarır, payız düşəndə isə geri gətirirdilər. Oğlunun doğulmasını xeyli müddət intizarla gözləyən İmamqulu övladı Nadirlə olduqca mehriban davranırdı. Sonralar, uşaqlığının xoşbəxt günlərini tez tez yada salan Nadir özü də olduqca qayğıkeş və İmamqulu kimi səbrli ataya çevrilirdi.

Nadirin artıq on yaşı olarkən at çapması, ova getməsi haqqında məlumatlar günümüzə gəlib çatıb. Onun barəsində gəlib çatan məlumatlarda Nadir bir yaşı olarkən üç yaşındakı uşaq kimi görünməsinə, on yaşında at çaparkən ayı, pələng ovuna çıxmasına dair xəbərlər əksini tapmaqdadır. Digər rəvayətə görə, Nadir balaca ikən, həmyaşıdları

ilə oyun oynadığı zaman özünü şah kimi aparir və yoldaşlarını şahlığının xırda əyalətlərini idarə etmək üçün təyin edirdi. Nadir təyin etdiyi canişinləri öz aralarında vuruşdurur, qalib gələnə isə öz paltarlarını çıxarıb hədiyyə edir, evə paltarsız qayıdırdı. Anası bunu görəndə çox əsəbləşir, Nadir də canını ondan qurtarmaq üçün atasının yanına qaçardı. Nadirin atası onu özü ilə birgə evə gətirər və anasına uşağın istədiyini etməsinə icazə verməsini söyləyərmiş.

Gənc yaşlarında Nadir atasını itirir. Qarşıda onu və ailəsini olduqca çətin illər gözləyirdi. Anasının simasında kasıb dul qadının əzablara sinə gərməsi, köməksiz qadının üzləşdiyi çətin yaşayış Nadirin gözləri önündə cərəyan etmişdir ki, bu da onun gələcəkdə qadınlara qarşı həssas münasibətinin yaranmasında həlledici rol oynamışdı. Dul qalan və iki yeniyetmə oğul böyüdən ana üçün yenidən ailə qurmaq qeyri-mümkün idi. Onun vəziyyətində olanların bəziləri yaxın şəhərlərə üz tutaraq dolanışıq üçün əxlaqsız yollara belə düşürdülər. Lakin Nadirin anası olduqca güclü və möhkəm iradəli qadın idi. Nadir atasının həsrətini çəkirdi. O kasıblıq şəraitində böyüyürdü və müdafiəsiz qalmışdı. Bəziləri düşünür ki, adətən belə vəziyyətlə üzləşənlər kimi o da əyri yollara düşə və həyatda özünə inamını tamamilə itirə bilərdi. Lakin müxtəlif sınaqlardan müxtəlif insanlar fərqli cür çıxırlar.

Üzləşdiyi vəziyyət Nadirə fərqli təsir göstərmiş, onun yaşamaq, xilas olmaq istəyini möhkəmləndirmiş, özünü müdafiə etmək üçün yorulmaq bilmədən çalışmaq, müxtəlif çətinliklərin öhdəsindən gəlmək və başqaları üzərində üstünlük qazanmağın yollarını öyrətmişdi. Onun başlıca amalı, məqsədi ətrafdakılardan fərqlənmək, ən əsası isə onlardan daha üstün olmaq idi. Bəlkə də elə bu istək,

həmçinin erkən yaşlardan etibarən qazanılmış təcrübə onda, mollalar da daxil olmaqla, asanlıqla mövqe qazanmış, zəif təbiətli, səriştəsiz insanlara münasibətdə qəzəb hissi tərbiyə etmişdi. O, heç zaman uşaqlıq və yeniyetməlik həyatının ilk illərində yaşadığı ağrılı-acılı günləri, onunla birgə bu taleyi paylaşmış anasını və qardaşı İbrahimi unutmurdu. Rəvayətlərin birində söylənilir ki, atası öldükdən sonra vəziyyətləri olduqca ağır olduğundan Nadir meşələrdə, dağlarda odun toplamaqla ailəsinə kömək etməyə çalışırdı.

Fəsillər dəyişəndə, köç etmək vaxtı çatanda qarşıda onları nə gözləyəcəyini əvvəlcədən bilmək qeyri mümkün idi. Mənbələrin birində söylənir ki, Nadir hələ uşaq olanda anası ilə birgə Türkmən tayfaları tərəfindən əsir götürülmüşdü. Sonralar bu xəbərlər əfsanələşdirilmiş və hələ o vaxtlarda Nadirin onu əsir götürənlərlə sövdələşməsi, onu azad edəcəkləri təqdirdə gələcəkdə onlarla əlaqə quracağı deyilirdi. Bütün bu hadisələr Nadirin istənilən şəraitdə üstünlüyü ələ ala bilmək, vəziyyətdən çıxmaq qabiliyyətindən xəbər verir. Hər nə olursa olsun, bütün bunlar onun kiçik yaşlarından necə çətin şəraitdə formalaşmasının göstəricisidir.

Nadir 15 yaşlarında tayfa liderlərindən birinin yanında çalışmağa başlayır. Bu adam Baba Əli Bəy Kusə Əhmədli – Əbivərd şəhərinin başçısı, Xorasan Əfşarlarının ən nüfuzlu nümayəndəsi idi. Ola bilsin ki, Nadirin atasının Baba Əli ilə yaxşı münasibətləri olmuşdur. Nadir Baba Əli bəyin yanında adi əsgər (tüfəngçi)[1] kimi xidmətə başlasa

[1] Baba Əli bəyin sərəncamındakı tüfəngçilər hər kəsin başa düşdüyü kimi piyadalardan təşkil olunmamışdı. Onlar daha çox sürətli atların, qatır, yaxud dəvələrin üzərində döyüşməyə üstünlük verirdilər ki, bu da cəld türkmən tayfaları ilə mübarizədə yeganə seçim idi.

da, sonradan onun ən yaxın silahdaşına çevrilməyi bacarmışdı.

Ox və mizraqla davranmağı o, hələ Dərə-Gəz vadisində öyrənmişdi. Bu silahlar tayfa həyatında və ovçuluqda geniş istifadə edilən ənənəvi vasitələr hesab olunsa da, İranın uzaq şimal-şərq hüdudlarına qədər olan geniş bir məkanda onlar hərbi nöqteyi-nəzərdən köhnəlmiş hesab edilirdi. Sözügedən vasitələrin yerini barıt, odlu silahlar tutmuşdu. Yeni silahlardan istifadəni dərindən öyrənən Nadir müasir hərbin qayda-qanunlarını, taktiki incəliklərini də yaxşı mənimsəmişdi. Sonralar İranda və ətraf ərazilərində Nadirin yeni silahlar vasitəsilə hərb sisteminə gətirdiyi yeniliklər tam mənada bir inqilab effekti yaratmışdı. Amma bu günlər hələ çox uzaqda idi.

Nadirin əsas işi Baba Əlinin qoşunlarına rəhbərlikdən və onların etdiyi basqınlara nəzarət etməkdən ibarət idi. Nadir basqınlar zamanı əldə olunan qənimətlərin sayına da (insan, heyvan, əmlak və s.) nəzarət etməklə vəzifələndirilmişdi. Şübhəsiz ki, belə hallarda çox vaxt nəyin kimə mənsub olmasını ayırd etmək müşkül məsələyə çevrilirdi və Nadir də öz növbəsində belə anlaşılmazlıqlardan faydalanırdı. Elə bu səbəbdəndir ki, sonralar onun guya oğru, quldur olmasına dair şayiələr geniş yayılmağa başladı[1].

1714-1715-ci illərdə Yamut tayfasından olan türkmənlər Xorasanın şimalına basqın etdilər, Baba Əlinin

---

[1] Geniş yayılmış və bəzi Avropa müəlliflərinin əsərlərinə belə yol tapmış şayiələrdən birində deyilirdi ki, Nadir ilk oğurluğunu hələ atasının çobanlıq etdiyi zaman etmişdi. Belə ki, o, atasının otardığı sürüdən 700-ə qədər qoyunu oğurlayıb satmış, əldə etdiyi pulla isə kiçik quldur dəstəsi yaradaraq karvanları qarət etməyə başlamışdı. Nəticədə Nadir qısa zamanda varlanmışdı. **[Вах: Биография Надира Тахмасп Кули-Хана // Новая история Ирана (Хрестоматия). Отвественный редакторы: М.С.Иванов, В.Н.Зайцев. Москва, 1988, стр. 30]. –** ***С.Н., Е.Ә.***

sərhəd qüvvələrindən olan bir neçə min əsgəri türkmənlərə qarşı döyüşüb onları məğlubiyyətə uğratdılar və 1400 nəfəri əsir götürdülər. Nadir döyüş vaxtı göstərdiyi şücaət hesabına Baba Əlinin diqqətini cəlb etdi. Məhz buna görə də Baba Əli Nadiri qələbə xəbərini şaha çatdırmaq üçün İsfahana, Sultan Hüseynin hüzuruna göndərdi və ona 100 tümən bəxşiş verildi. Bu, Nadirin İsfahana ilk səfəri, fərqli dünya ilə ilk tanışlığı idi. Bu günümüzdə də, İsfahanın mərkəzi meydanında bazar, məscidlər şəhər mədəniyyətinin inkişaf səviyyəsini göstərirdi və bu şəhər o dövrdə dünyanın ən abad, gözəl məkanlarından biri idi. Mavi daşlarla örtülən, 17-ci əsrə aid olan, böyük şah Abbasın əmri ilə inşa edilən Şah məscidi hər kəsi valeh etməkdə idi. 18-ci əsrin əvvəllərindəki İsfahan o vaxtdan bəri viran edilmiş İsfahandan öz görünüşü, səfalı bağları, böyük bulvarları ilə fərqlənirdi. Burada 1716-cı ildə olmuş bir şəxs yazırdı ki, şah sarayının içərisini görə bilməsə də, çöl qapılarının nəhəngliyi, şəffaf parlaq şüşələri, möhtəşəm güzgülərlə bəzənməsi sarayın daxili möhtəşəmliyinə dair onda aydın təsəvvür yaratmağa kifayət etmişdi. O, şahı çoxlu sayda süvari və piyada mühafizəçilərin müşayiətilə meydanda gəzərkən canlı şəkildə görmüşdü.

Şah əyanlarının qızıla olan hərisliyini və sevgisini görən insanda onların sanki qızıldan yarandıqları düşüncəsi yaranırdı. Onlar cəsarət və fəzilət kimi keyfiyyətlərdən çox uzaq idilər. Nadir kimi iti zehinli gənc üçün baş verənlərin mahiyyətini anlamaq heç də çətin deyildi. Şahın əyanları hökumət işlərinə və şəxsən şahın özünə məşvərət məclisindən daha güclü təsir göstərmək iqtidarında idilər.

İsfahanda olarkən Nadir kücədə təsadüfən bir baxıcı ilə qarşılaşmış və ondan öz taleyi ilə bağlı məlumat almaq

istəmişdi. Baxıcı adəti üzrə fal açdıqda gördüklərindən olduqca təəccüblənmişdi. O, falı bir neçə dəfə təkrarladıqdan sonra Nadirin qarşısında baş əyərək demişdi: "Sən tezliklə böyük hökmdar olacaqsan və dünyanın dörddə bir hissəsi sənə tabe olacaq". Nadir öz növbəsində isə qəzəblənərək demişdi: "Sən dəlisən, ya xorasanlı olduğum üçün məni ələ salırsan? Yaşlı baxıcı isə fikrində təkid etməyə davam etdi: "Mən sənə yalan demirəm, yalnız səndən çox xahiş edirəm hökmdar olanda, mənim övladlarımla yaxşı davranarsan". Böyük fatehin gənclik dövrünə aid bu rəvayətlər onun qazandığı parlaq qələbələrin tale tərəfindən əvvəlcədən yazıldığını göstərməyə xidmət edirdi. Deyilənlər, həm də şəhər camaatının qaba rəftarlı xorasanlıdan olan gözləntilərini göstərirdi.

Sonralar o, (Nadir şah) Səfəvi paytaxtında əyanlarının ona düşmən münasibəti ilə üzləşir, şahın verdiyi bəxşişlərə baxmayaraq, İsfahanda ikən bir çox təhqirlərə məruz qalırdı. Deyilənə görə, hətta o, vaxtilə şahın əyanları tərəfindən kobud münasibətlə üzləşmiş və illər sonra özü taxta sahib olduğu zaman eyni səhnəni təkrarlayaraq əylənmişdi. Onun Səfəvi sarayının əyanları barəsində təəssüratları necə idi və ümumilikdə Səfəvi rejiminin mahiyyəti nədən ibarət idi? Bilirik ki, Səfəvi sarayının bir sıra yüksək vəzifəli və nüfuzlu əyanların Nadiri dəstəkləməsinə baxmayaraq, həmin şəxslərin ətrafdakı insanların hədsiz dəbdəbə hərisliyi, xırdaçılığı, tənbəlliyi onda ikrah hissi doğururdu. O, istər geyimində, istərsə də davranışında həmişə zabit ciddiliyinə üstünlük verirdi. Bəzi məsələlər onun şəxsi keyfiyyətlərindən irəli gəlsə də, yaranmış uçurumun əsas səbəbi əyalətdən gəlmiş sərkərdə ilə saray dəbdəbəsi arasındakı ziddiyyət idi.

Üç əsr öncə, böyük ərəb tarixçisi və mütəfəkkiri İbn Xəldun köçəri tayfalarla şəhər həyatı arasında dəyişkən münasibətlərin təhlilinə əsaslanan İslam dövlətlərinin yüksəliş və süqut səbəblərinə aydınlıq gətirən unikal nəzəriyyə hazırlamışdı. İbn Xəldun yorulmaz səyyah idi. O, İspaniyadan Suriyaya qədər geniş ərazidə səfər edərkən Əmir Teymurla da görüşmüşdü. Baxmayaraq ki, Nadir heç vaxt onun haqqında eşitməmişdi, İbn Xaldunun nəzəriyyəsi Nadirə və onun müasirlərinə yaxşı tanış olan xürafat və cəhalətin səbəblərinə aydınlıq gətirir, o dövrdə yaşayanların dünyanı necə dərk etmələri haqqında fikir yürütməyə imkan verirdi.

İbn Xəldun nəzəriyyəsinin əsas məğzini ehtiyaclar toplusu təşkil edirdi. Köçəri tayfa ittifaqlarının hərbi və siyasi məqsədlər ətrafında birləşməsinin əsas səbəbi kimi güclü qarşılıqlı dəstək, birlik, dağlarda, səhralarda yaşadıqları məhrumiyyət və bu kimi problemlər göstərilirdi. Döyüşkən köçəri tayfaların əsas hədəfi ərazilər tutaraq şəhərləri ələ keçirmək, sülalə hakimiyyətinin əsasını qoymaq və şəhər əhalisini idarə etmək idi. Lakin, şəhərdə hakimiyyətini qurduqdan sonra tayfa başçısı öz köçəri tərəfdaşları ilə məsafə saxlayır, tayfalararası rəqabətin fəsadlarından özünü müdafiə edir, şəhər əhalisi arasında özünə sosial dayaq yaratmağa can atırdı.

İbn Xəldunun fikrincə, hakimiyyətlərinin möhkəmlənməsindən əmin olduqdan sonra keçmiş tayfa başçıları rahatlığa, dəbdəbəyə meyil edir, öz adlarını ucaltmağa çalışırlar və XVII əsrin əvvəllərində Şah Abbasın Səfəvilərin paytaxtı İsfahanda etdiyi kimi, təmtəraqlı binalar inşa etməyə başlayırdılar. Əvvəlki sərt, kobud dəyərlər və həyat tərzi unudulur, saray həyatının dəbdəbə və təmtərağına meyil hər şeyə üstün gəlir. Hakimiyyətlərinin son illərində

isə padşahlar israfa daha çox yol verirlər. Nəsildən-nəslə keçən miras, xəzinələr hakimiyyətin əsas dayaqları olan əsgərlərə deyil, əyləncələrə sərf edilirdi ki, bu da son nəticədə ciddi narazılığa rəvac verirdi. Bu proses dövri səciyyə daşıyır və təkrarlanırdı.

Bu nəzəriyyə XVIII əsrin əvvəllərində artıq yavaş-yavaş aktuallığını itirməyə doğru gedirdi, lakin Səfəvilərin zamanı onun müəyyən cəhətləri öz reallığını qorumaqda idi. Səfəvilər XV əsrin əvvəllərində Şərqi Anadolunun türk əsilli tayfalarının ittifaqı[1] hesabına tarix səhnəsinə çıxa bilmişdilər. Radikal şiə fikirləri ilə silahlanan tayfalar dini-hərbi qardaşlıq təşkilatı ətrafında möhkəm birləşdilər. Bu hərbi ittifaqın üzvləri özlərini Qızılbaşlar adlandırırdılar və gənc İsmayılı özlərinə başçı təyin etmişdilər. Onlar 1501-ci ildə Azərbaycanı tutdular və İsmail özünü Təbrizdə şah elan etdi. Bir neçə il ərzində onlar İranın Qərb hissəsini, Xorasanı, Fars vilayətini də ələ keçirmişdilər. Lakin 1514-cü ildə Osmanlılar İsmayılı Çaldıran döyüşündə məğlubiyyətə uğratdıqdan sonra onlar Anadoluya geri çəkilmək məcburiyyətində qalmışdılar. Məğlubiyyət Səfəvilərin ərazilərini qədim İran hüdudları ilə məhdudlaşdırdı. Osmanlılar və Səfəvilər arasındakı rəqabət sünni-şiə ixtilaflarını bir qədər də kəskinləşdirmiş oldu.

Səfəvilər İran torpaqlarını fəth etməzdən əvvəl bu ərazilərdə yaşayanları şiəlik məzhəbinə meylləndirə bilmiş,

---

[1] Səfəvilərin Azərbaycanda guya Anadoluda yaşayan türk tayfalarının dəstəyi ilə hakimiyyətə gəlməsi haqqında fikirlər Qərb tarixşünaslığında Səfəvi mövzusunda kök salmış yanlışlıqlardan biridir. Çünki, Səfəvilərin özləri Azərbaycanın qədim Ərdəbil şəhərindən idilər, onların tərəfdarlarının əksəriyyətini təşkil edən Qacarlar, Əfşarlar, Rumlular, Ustaclılar və digər böyük tayfaların hamısı Azərbaycan ərazisində yaşayan türk tayfaları idilər. Bəli, Şərqi Anadoluda da Səfəvilərin çox sayda tərəfdarının olduğu danılmazdır, lakin Səfəvi dövlətinin məhz Azərbaycan türklərinin şücaəti və mübarizəsi hesabına yaradıldığı gün kimi aydındır. – *C.H., E.Ə.*

Qum, Məşhəd kimi şəhərləri şiəliyin əsas mərkəzlərinə çevirməyi bacarmışdılar. Ümumilikdə say etibarı ilə sünnilər üstünlük təşkil edirdilər. Farsdan kənarda isə şiələr xüsusilə Anadoluda və Livanda say üstünlüyünə malik idilər. Lakin Səfəvilər və onların Qızılbaş tərəfdarları İranda hakimiyyəti ələ keçirdikdən sonra şiəliyi dövlət ideologiyası mərtəbəsinə qaldırdılar. Səfəvilər Livanda və Ərəbistanda yaşayan şiə ruhanilərini bura köçürür və məktəblərdə, mədrəsələrdə, eləcə də məscidlərdə şiəliyi məcburi şəkildə təbliğ edirdilər. Sünni ruhaniləri bu torpaqları tərk etməyə başladılar. Eyni zamanda Osmanlı dövləti də şiəliyi qəbul edənləri təqib etməyə başlamış, onları Qızılbaşlara casusluqda ittiham etmişdilər. O dövrdə İranda baş verənləri anlamaq üçün ilk növbədə Səfəvilərin təbliğ etdiyi şiəlik məzhəbinin mahiyyətini anlamaq zəruridir.

İslam dünyasında baş verən ixtilafların kökü Məhəmməd peyğəmbərin (s.ə.s) həyatda olduğu dövrə qədər gedib çıxır. Şiə müsəlmanları inanırlar ki, Məhəmməd peyğəmbər sağ ikən Əlini öz xələfi və varisi elan etmişdi. Lakin digərləri bunun əksi olaraq, iddia edirlər ki, 632-ci ildə, yəni Peyğəmbərin ölümündən sonra keçirilən seçkilərdə xəlifələr bu ardıcıllıqla rəhbər seçilmişdilər: Əbu Bəkr, Ömər və Osman. Sonuncu 656-ci ildə öldürülmüşdü. Bu üç xəlifə müharibələr aparıb və yeni torpaqlar fəth etdikləri, idarəçiliklə məşğul olduqları zaman Əli bütün siyasi işlərdən kənarlaşaraq, vaxtını ibadətlə keçirirdi. Osmanın ölümündən sonra öz sələflərindən zahidliyi ilə seçilən Əli özünə böyük tərəfdar ordusu toplamışdı. Əli qanuni yolla dördüncü xəlifə seçilsə də, bəziləri onun xəlifəliyini qəbul etməyib, yeni dövlət başçısına müharibə elan etdilər. Müharibənin nəticəsi qeyri-müəyyən oldu, tərəflərdən heç biri qəti qələbə qazana bilmədi. Nəhayət, 661-ci ildə

Əli sui-qəsd nəticəsində qətlə yetirildi. Xəlifənin qatili bəlkə də onu qarşı tərəfə güzəştə getməsindən hiddətlənərək, bunu ümumi işə xəyanət kimi qiymətləndirən keçmiş Əli tərəfdarlarından biri olmuşdur[1].

Əlinin qətlindən sonra İslam dünyasında ixtilaflar dərinləşdi. Əli yaşadığı dövrdə ona qarşı olan Əməvilər nəsli hakimiyyətə yiyələndi. Əlinin tərəfdarları isə onun oğlu Həsəni özlərinin imamı və lideri kimi qəbul etdilər. O, şiələrin ikinci imamı elan olundu. Həsənin ölümündən sonra isə şiələr Əlinin ikinci oğlu Hüseyni özlərinə üçüncü imam seçdilər. Hüseyn Əməvilərin xilafətini rədd etdi və üsyana qalxdı. Lakin o, ailəsi və tərəfdarları ilə birgə 680-ci ildə Kərbəlada törədilən qətliam nəticəsində öldürüldü. Hüseynin şəhid edilməsi və peyğəmbər nəslinin Kərbəladakı qətli şiəlik tarixinin ən mühüm və faciəli hadisələrindən hesab edilir. O vaxtdan bəri, hər il Hüseynin qətli şiə mü-

[1] Qeyd: M.Aksvörti IV Raşidi xəlifəsi Hz.Əlinin qətli və qatili haqqında danışarkən xaricilərin ona qarşı apardıqları ədavətə işarə edir. Məlum olduğu kimi, Şam hakimi Müaviyə ibn Əbu Süfyanla müharibənin əvvəlində Hz. Əlini dəstəkləyən bir qrup müsəlman onun qarşı tərəfin sülh danışıqları haqqındakı təklifini qəbul etməsi səbəbindən ondan üz çevirdilər. Sonradan radikallaşan bu qrup Hz.Əlini devirmək və hakimiyyəti qəsb etmək məqsədi ilə ona qarşı üsyan qaldıraraq müharibəyə başladılar, lakin məğlubiyyətə düçar oldular. Döyüş meydanında məğlub olan xaricilər (xəvariclər) siyasi terrora əl ataraq həm Müaviyəni, həm də Hz.Əlini eyni vaxtda qətlə yetirərək növbəti dəfə hakimiyyətə yiyələnməyə cəhd etdilər. Həyata keçirilən sui-qəsd cəhdi nəticəsində Hz.Əli məsciddə namaz qılarkən aldığı ölümcül yaradan bir neçə gün sonra vəfat etdi. Müaviyə isə ağır yaralansa da, onun həyatını xilas etmək mümkün oldu. Son nəticədə Hz.Əlinin ölümündən məharətlə istifadə edən Müaviyə hakimiyyəti qəsb edərək, Əməvilər sülaləsinin (661-750) əsasını qoyur, özü isə xilafət tarixində ilk mütləq hakim statusu qazanaraq İslam aləmində monarxiya üsul-idarəsinin banisinə çevrilir. Bununla da İslam peyğəmbəri Hz.Məhəmmədin əsasını qoyduğu və onun ilk dörd xələfi – Əbu Bəkrin, Ömərin, Osmanın və Əlinin dövründə 30 il müddətində mövcud olmuş demokratik quruluşlu dövlətin varlığına son qoyuldu. Bizə Hz.Əlinin qatilinin adı da məlumdur – İbn Mülcəm. – *C.H., E.Ə.*

səlmanları tərəfindən yad edilir və bu hadisə onlar tərəfindən xəyanət və ədalətsizlik kimi lənətlənir.

Şiə imamları şiələrin mənəvi liderləri hesab olunurdu və onlar xilafətə qarşı siyasi-ideoloji müxalifətin əsas qüvvəsini təşkil etmişlər. Altıncı imam Cəfər Sadiqin oğulları arasında 765-ci ildə düşən ixtilaf şiəlik tarixinin sonuncu ciddi fikirayrılığı hesab edilir. Belə ki, imamın böyük oğlu İsmayılın tərəfdarları özlərini yeddincilər və ya İsmaililər adlandırır, onun ikinci oğlu Kazımın ardıcılları isə bunu qəbul etmirlər. 873-cü ildə on ikinci imam Məhəmməd qeybə çəkilmişdir. O vaxtdan bəri şiələr onun bir gün yenidən gələcəyinə böyük inamla yanaşırlar.

Səfəvilərin ilk hökmdarları şiə təəssübkeşi olduqlarını nümayişkaranə şəkildə hər yerdə bəyan etdirdilər. İlk üç xəlifə – Əbu Bəkr, Ömər və Osman da onlar tərəfindən lənətlənirdi. Bu qatı şiəlik tezliklə Osmanlı dövləti ilə qarşıdurmaya gətirib çıxardı. Belə ki, Osmanlı sultanları XVI əsrin əvvəllərindən etibarən özlərini xəlifə, yəni bütün İslam dünyasının siyasi və mənəvi lideri elan etmişdilər.

Qızılbaşların şiəlik ətrafında birləşməsinə baxmayaraq, iqtidara təsir göstərmək naminə müxtəlif tayfalar arasındakı qarşıdurmalar səngimək bilmirdi. Səfəvi sülaləsi tədricən hakimiyyəti zəiflədən qızılbaşlarla məsafə saxlamağa qərar verdi. Gürcülərdən və ermənilərdən dönmə qulamlara-qullara daha çox etimad göstərilməyə başlandı. Böyük Şah Abbasın vaxtında İran Osmanlılarla müharibədə itirilmiş torpaqlarını bərpa etdi və dövlətin əvvəlki şöhrəti özünə qayıtdı. Lakin II Şah Abbasın dövründəki müvəqqəti yüksəlişə baxmayaraq, Səfəvi dövləti get-gedə zəifləyirdi.

Nadir İbn Xəldunun nəzəriyyədə təsvir etdiklərini öz gözləri ilə canlı şəkildə görəcəkdi. Zamanla isə onun seç-

diyi sərt idarəçilik qaydaları İbn Xəldunun fikirləri ilə tamamilə üst-üstə düşəcəkdi.

Səfəvi monarxiyasında Şah hərəmini idarə edən xüsusi məmurlar tərəfindən varislərin hərəkət azadlığını məhdudlaşdırmaq ənənəsi var idi. Bu cür yanaşma səltənət varislərinin şaha qarşı mümkün siyasi iddialarını məhdudlaşdırmağa xidmət edirdi. Lakin onlara ikinci dərəcəli dövlət işlərində iştirak etməyə, dövlətin nüfuzlu şəxsləri ilə əlaqələr yaratmağa icazə verirdilər. Hərəm daxilində şəhzadələr ayrıca və xüsusi nəzarət altında yaşayırdılar. Onlar ətraf aləmdən təcrid olunmuş şəkildə böyüyür, ətrafa qarşı həmişə bir qorxu, inamasızlıq hissi ilə yaşayırdılar. Nəhayət, taxta çıxmaq zamanı çatanda, onlar bu böyük məsuliyyətin qarşısında özlərini itirirdilər. Səfəvilərin yüksəliş dövrü hesab edilən I Şah Abbasın hakimiyyəti illərində idarəçilik sistemi mütləqiyyət prinsipinə əsaslanırdı. Doğrudur, yerli hakimlərə bəzi məsələlərdə müəyyən sərbəstlik verilirdi. Lakin ümumilikdə bu sistem şahın ətrafında mərkəzləşmişdi və güclü iradənin olması mütləq idi. XVII əsrin sonlarında, yəni ölkə üçün ciddi xarici və siyasi təhlükənin mövcud olmadığı bir dövrdə yaranmış rahatlıq şah hakimiyyətində arxayınlıq yaratdı və idarəçilik məsələlərində bir-birinin ardınca kobud xətalara yol verildi. Şah getdikcə dövlət işlərinə daha az vaxt ayırır, mühüm işlərin böyük hissəsini yüksək vəzifəli məmurlara həvalə edirdi. Şübhəsiz ki, o dövrdə dövlət xadimlərinin və məmurların arasında işini bilən, məsuliyyətli insanlar var idi, ancaq tədricən onları başa düşməyə başladılar ki, şah fədakarlıq edən, dövlətin maraqları naminə var gücü ilə çalışanları əsla qiymətləndirmir. Əksinə, ümumi maraqları bir kənara qoyub şəxsi mənfəətləri naminə çalışanlar isə şahın nəzərində daha böyük hörmət sahiblərinə

çevrilir, dövlətdən daha çox qayğı görürlər. Belə olan təqdirdə heç kəsdə dövlət maraqları naminə çalışmaq həvəsi qalmır, tədricən laqeydlik və səmərəsizlik bütün idarəçilik sisteminə sirayət edirdi.

Səfəvi dövlətinin süqutunun səbəblərinə dair müxtəlif yanaşmalar mövcuddur və bu məsələ ətrafında mübahisələr hələ də aparılır. Ancaq bir şey aydındır ki, Səfəvilər kimi güclü bir dövlətin süqutu birdən-birə, təsadüf nəticəsində baş verə bilməzdi. Belə hesab olunur ki, İran iqtisadiyyatının silkələnməsi XVII əvvəllərində avropalıların dəniz ticarətini genişləndirməsi və İranın ənənəvi marşrutlar üzrə apardığı ticarət əməliyyatlarının zəifləməsi ucbatından baş verdi. Lakin son dövr tədqiqatçıları bu yanaşmanı rədd edərək bildirirlər ki, sözügedən dövrdə ticari həyat əvvəlkitək canlı şəkildə cərəyan edirdi. Onların fikrincə, ölkəni zəiflədən və parçalayan başlıca amil həmin dövrdə İranda baş qaldıran tayfalararası mübarizə nəticəsində əfqanların Xorasana və şimali Hindistan əyalətlərinə artan dağıdıcı basqınları oldu. Nadirin də yüksəlişi məhz həmin dövrə təsadüf edir. İqtisadiyyatın zəifləməsi və sosial böhran bəzi tayfaların müvəqqəti güclənməsinə gətirib çıxarmışdı ki, bu, onların uzun müddət hakimiyyətdə olan hakim sülaləni zəiflətməsinə imkan verirdi.

O dövrdə ipək istehsalının mərkəzləri Gilanda və şimal-qərb bölgəsinin digər məntəqələrində cəmləşmişdi və bu sahə İran iqtisadiyyatının, həmçinin xəzinə gəlirlərinin mühüm hissəsini təşkil edirdi. Belə ki, ipək ölkənin ixrac etdiyi ən əhəmiyyətli məhsullardan hesab olunurdu. XVII əsrin sonuna doğru ənənəvi olaraq İranın bu məhsulu ixrac etdiyi Hindistan artıq öz ipəyini dünya bazarına çıxarmağa başlayır. Benqal ipəyi İran məhsulundan daha yüksək keyfiyyətə malik olduğu üçün Avropa bazarların-

da ona böyük tələbat yaranır. Eyni zamanda, Hindistan pambığının İrana ixracı da artmışdı, bu da ödənişlərlə bağlı müəyyən çətinliklər yaradırdı. İpəklə yanaşı İranın ixrac məhsulları arasında cins atlar da var idi. Lakin onlardan gəlirə əsla arxayın olmaq olmazdı. Ölkədən gümüş pulların xaricə axını da ölkənin iqtisadi həyatını zəiflədirdi. Bütün çətinliklərə və böhrana baxmayaraq, ipək ticarəti davam edirdi. Ölkənin qərbində aparılan ticarətdə əsas pay sahibi alman,yaxud ingilis Ost-Hind şirkəti deyil, ermənilər idi. Ölkənin ipəkdən əldə etdiyi gəlirlərin aşağı düşməsi hökumətin qoyduğu vergilərdən gələn vəsaitin də kəskin şəkildə azalmasına səbəb olmuşdu. İranda ticarətin vəziyyəti həqiqətən də acınacaqlı idi. Avropanın Asiyada iqtisadi üstünlüyü ələ keçirməsi də təxminən bu dövrə təsadüf etmişdi. Həmin vaxta qədər iranlıların Hindistanla apardıqları ticarətin həcmi avropalılar apardıqları ticarəti əhəmiyyətli dərəcədə üstələyirdi. Səfəvilər ölkənin iqtisadi və sosial həyatını nizama salmaq imkanlarını tamamilə itirmişdilər. Avropa və ya Asiyada istənilən dövlətin gücünü əsasən müharibələr müəyyən edirdi. Dövlətin tabeliyindəki ərazilər kiçik olduqda həmin dövlət özü də zəif olurdu.

Şah Sultan Hüseynin atası Şah Süleyman 1694-cü ildə ölüm yatağına düşdüyü zaman o, iki oğlundan hansının varis olacağına hələ qərar verməmişdi. Şah öz yaxınlarını yanına çağırıb onlara belə dedi: "Əgər istəsəniz Hüseyn Mirzəni seçin, əgər sizin əsas məqsədiniz ölkənin qüdrətidirsə, o halda Abbas Mirzəni taxta çıxarın". Şah Süleyman dünyadan köçəndə onun ətrafındakılar, hərəmi idarə edən və qoruyan məmurlar üstünlüyü asanlıqla təsir göstərə biləcəkləri Sultan Hüseynə verdilər. Sultan Hüseyn həm də böyük bibisi, hərəmdə həlledici

söz sahibi olan Məryəm Bəyimin də sevimlisi idi və o, bütün qayda-qanunlara müvafiq şah elan edildi. Şah Süleyman sərxoşluğa meyilli bir adam idi. Şəraba hədsiz aludəçiliyi onun sağlamlığına ağır zərbə vurmuş və vaxtından əvvəl xəstələnərək yatağa düşməsinə səbəb olmuşdu.

İlk vaxtlar hadisələr əyanların istədikləri kimi cərəyan etmirdi. Sultan Hüseyn Mirzə olduqca süst və zəif idi. O özünü ibadətə həsr etmişdi və tanınmış şiə müctəhidi Məhəmməd Bağır Məclisinin təsiri altında dövlət işlərinə dair qeyri-adi qərarlar qəbul edirdi. O, ilk növbədə, sufilərə qarşı sərt tədbirlərə əl atdı, daha sonra isə mərhum şahın içki hücrəsinin dağıdılmasına göstəriş verdi. İçki şüşələri camaatın gözləri qarşısında sındırıldı və ümumilikdə içkini qadağan edən fərman imzalandı. Əyalət başçılarına və digər nüfuzlu məmurlara şəriət qanunlarına əməl etmək tapşırıldı və xəbərdarlıq edildi ki, buna qarşı çıxanlar sərt şəkildə cəzalandırılacaq. Musiqi məclislərində rəqs etməyə qadağa qoyuldu. Bundan əlavə qəhvəxanaların, əxlaqsızlıq yuvalarının və digər bu kimi şəriətə zidd məkanların fəaliyyəti qadağan edildi. Bu fərmanlar məscidlərin ətrafındakı daşlara həkk edildi ki, hər kəs onları oxuyub tanış ola bilsin. Eyni zamanda, qadınların ərləri olmadan bağlarda gəzişməsi, ehtiyac olmadan küçəyə çıxıb dolaşması, həmçinin icazəsiz hərəmi tərk etməsi məhdudlaşdırıldı. Sufiliklə məşğul olmaq qanundan kənar elan edildi. Hakimiyyət tamamilə müctəhidlərin əlində cəmləşdi. Məhəmməd Bağır Məclisi bir növ İslam inqilabı həyata keçirmişdi.

Lakin saray əyanları və məmurlar baş verənlərdən əsla məmnum deyildilər və bu narazılığın nəticəsi kimi Məryəm Bəyimin ətrafında narazılardan ibarət güclü ittifaq formalaşmağa başladı. Bu zəhmli qadın Səfəvi haki-

miyyətinin son illərində siyasi proseslərə təsir göstərmək iqtidarında olan az sayda ağıllı insanlardan biri kimi seçilirdi. Təbii ki, onun yaşadığı dövrdə siyasi hadisələrə təsirini ətraflı şəkildə öyrənmək üçün geniş bir tədqiqata ehtiyac duyulur. Biz onun nə doğum, nə də vəfat tarixi barəsində hər hansı məlumata sahib olmasaq da, mənbələr 1694-cü ildə artıq onu yaşlı bir qadın kimi təsvir edirlər. O, 1629-1642-ci illərdə hakimiyyətdə olan Şah Səfinin qızı idi. O, şahın hərəmində ardıcıl olaraq hakimiyyətə gələn şahlardan birinin qızı, digərlərinin isə bibisi və böyük bibisi idi. İllər keçdikcə o, artıq hərəmdə mühüm mövqe qazanmağı bacarmışdı. Ancaq qadın olduğu və hərəmdə yaşamalı olduğundan onun hərəkət azadlığı da məhdud idi. O, yalnız şaha və onun əhatəsindəkilərə təsir göstərmək hesabına öz nüfuzunu qoruya bilmişdi.

Məryəm Bəyim Məhəmməd Bağır Məclisinin idarəçilik məsələlərində əldə etdiyi üstünlüklə barışmaq istəmirdi. Onun qadınlara qarşı tətbiq etdiyi saysız qadağalar, o cümlədən şərab içməyə icazə verməməsi Məryəm Bəyimi hiddətləndirmişdi. Lakin bütün bu çəkişmələr və ixtilaflar fonunda sarayın ümumi nüfuzunu da düşünmək olmazdı. Belə bir vəziyyətdə bu xanım hiyləyə əl atmağa qərar verdi və özünü xəstəliyə vurdu. Şahın ona olan rəğbətindən istifadə edən Məryəm bəyim Şah Sultan Hüseynə bildirdi ki, həkimlər ona hər gün az miqdarda şərab içməyi xəstəliyinin tək əlacı olduğunu söyləyiblər. Şah dərhal şərab üçün ermənilərə adam göndərdi, lakin onlar burada bir hiylə olduğunu düşünüb, şahın əmri ilə artıq şərab istehsal etmədiklərini dedilər. Onlar şahın elçisini Polşa səfirinə yönəltdilər və bildirdilər ki, siyasi məqsədlərdən dolayı bu diplomatın ehtiyatda şərab

şüşələri saxlaması mümkündür. Nəhayət, şərab tapılıb saraya gətirilir. Onu Məryəm Bəyimin içməsi üçün qədəhə süzdükdə bu qadın etiraz edib dedi ki, əgər şah onunla birgə badə qaldırmasa şərabı dilinə də vurmayacaqdır. Məryəm Bəyim şahı inandırmağa çalışırdı ki, bu qədər məsuliyyətin və dövlət işlərinin yükü altında onun dincəlməsi üçün şərabdan istifadə etməsi faydalı olardı. Şah bir neçə qədəh içdi və sanki bir anda fərqli insana çevrildi. O bu qadının israrlı xahişləri qarşısında davam gətirə bilməyib, iri bir qədəhi əlinə alaraq içdi və özündə əvvəllər heç zaman duymadığı gümrahlıq hiss etdi. Zamanla şah şəraba o qədər dadandı ki, onu ayıq halda tapmaq qeyri-mümkün oldu. İndi o, sərxoşluq ucbatından hətta ən kiçik dövlət işləri ilə belə məşğul olmaq iqtidarında deyildi.

Hiylə vasitəsilə Məryəm Bəyim öz qardaşı oğlunu dövlət işlərindən tamamilə təcrid edib, saraydakı təsir gücünü bərpa etməyə nail olmuşdu. Dindar və ibadətə meyilli olan Şah Sultan Hüseyn içki asılılığından əziyyət çəkməyə başlamışdı. Getdikcə onun bu asılılığı xəstəlik halını aldı və şah vaxtının çoxunu yalnız, özünə qapanmış şəkildə keçirməyə üstünlük verirdi. O, pis xəbərlər eşitmək istəmədiyini hər kəsə elan etmişdi və bu səbəbdən də şahı qəzəbləndirməmək üçün dövlət məsələlərində yaranan problemlərin hamısı ondan gizlədilirdi. Şah dövlət işləri ilə məşğul olmağı atasının ömrünün son illərində etdiyi kimi, baş vəzirə həvalə etmişdi. Əvəzində o özünün bütünlüklə İsfahan yaxınlığında Fərəhabad adlı yerdə gözəl bağların salınması işinə həsr etdi. Həmçinin onun əmrinə əsasən hərəmxanadakı qadınların sayı artırıldı və ölkənin hər yerindən şah üçün gözəl qadınlar paytaxta gətirildi.

Hərəm və onun saraya təsiri haqqında danışarkən, belə düşünmək olar ki, Qərb səyahətçilərinin bu məsələ barəsində verdikləri məlumatlarda uydurmaların payı böyükdür və bəzən onların əsasını şayiələr təşkil etmişdir. Əlbəttə ki, Şah Sultan Hüseynin hərəmxanası haqqında o dövrdə çoxsaylı şayiələr dolaşmaqda idi. Məsələn, insanlar deyirdilər ki, əgər kiminsə gözəl qızı olardısa, həmin adam çalışardı ki, hərəm xadimləri mütləq bu barədə xəbər tutsunlar. Çünki gözəl qızlar şəriət qaydalarına əsasən şahın zövcəsinə çevriləcəkdilər. Xüsusi nəzakət və sevgi ilə, son dərəcə xoş və tovlayıcı rəftarı ilə şah bakirə qızları öz hərəminə çevirməkdə israrlı idi.

Bunu yazan müəllif qeyd edir ki, şah bu minvalla üç mindən artıq "qızılgül ətirli, badam gözlü, şəkər dodaqlı qızı" qoxlayıb onların ətirini almış və iki mindən çox sərv qamətli xanımla yatağa girmişdi. Daha sonra bu qadınlar şahdan hamilə qalır və onlara çoxlu hədiyyələr verilirdi. Onların əksəriyyəti sonradan zadəganlara ərə verilir və nəticədə Şah Sultan Hüseynin zadəganların mülklərində öz varisləri peyda olurdu. Eyni mənbə onu da əlavə edir ki, hərəmdə saxlanılan qadınların əksəriyyəti şaha nifrət bəsləyir və adi adamlarla izdivacı onunla olmaqdan daha üstün tuturdular. Onlar şah devrilənə qədər, yaxud özlərinə münasib ər tapanadək qalmağa məhkum idilər.

Lakin onu da unutmaq lazım deyil ki, Qərb müəlliflərinin yazdıqları və bəzən şişirdilmiş təəssürat yaradan məlumatların çoxu əsasən İran qaynaqlarından götürülürdü, yəni yerli səciyyə daşıyırdı. Düşünmək olar ki, hadisələr həqiqi mahiyyətindən daha çox qabardılıb. Ancaq bu şişirtmələr Qərb müəlliflərinə o zaman dövriyyədə olan şayiələr haqqında aydın təəssürat yaratmağa imkan verir. Bütün tənqidçilər istər iranlı olsun, istərsə də

avropalı, eyni insan xislətinə malikdirlər. Şah hərəminin sirləri, gizli tərəfləri onların hər birində təbii olaraq böyük maraq oyadır. Qalmaqallı məlumatlardan, şayiələrdən istifadə etməklə onlar oxucuya öz fikirlərini daha canlı, oxunaqlı şəkildə çatdırmağa çalışırlar. Sirlər, xüsusilə həyat hekayələri müəlliflərdə təxəyyül üçün güclü həvəs yaradır. Şah Sultan Hüseynin hərəmindəki həyat əlbəttə ki, təsvir edildiyindən daha azad və canlı idi. Hərəm parlaq boyalarla bəzədilmiş əyləncə yerindən daha çox şah ailəsinin və onun xanımlarının yaşadıqları və gündəlik işləri ilə məşğul olduqları bir məkan idi. Şah Sultan Hüseynin hərəmində yaşadığı zövq və buranın saxlanılması üçün xərclədiyi vəsait kifayət qədər böyük idi. Əslində, onun əyləncələrə həddən artıq meyilli olması və şəhvətinin sərhəd tanımaması təəccüblü görünməməlidir. Ən azından ona görə ki, o dövrün bu xüsusiyyətinə müasiri olduğumuz zamanda da şahid olur, onlar arasındakı oxşarlıqları görə bilirik. Hərəm haqqında ifrat fikirlər və qadınların dövlət işlərinə mənfi təsiri Qərb müəlliflərində Səfəvi rejiminə qarşı ikrah doğuran başlıca xüsusiyyətlər idi. Lakin şah barəsində Qərb müəlliflərinin tənqidi xarakter daşıyan fikirlərinin heç də hamısını İran mənbələri birmənalı şəkildə bölüşmürlər.

Nəzərdən qaçırmaq olmaz ki, hakimiyyətinin ilk dövründə Şah Sultan Hüseyn dini dəyərlərin, mənəviyyatın müdafiəsinə qalxmış, qan tökülməsinə əngəl olmuş, tərifəlayiq işlər görmüşdü. Bununla belə o, heç vaxt güclü hökmdar kimi şöhrət qazana bilmədi. Onun səriştəsizliyi və zəifliyi saray əyanları, həmçinin zadəganları arasında ədavətin yaranmasına səbəb olmuşdu. Mühüm bir məsələ haqqında qəti qərar vermək lazım gəldikdə, şah məsələ nə olur olsun, "yaxşıdır" deyib problemin üstündən

keçməyə üstünlük verirdi. Tarixçilərdən biri yazır ki, saray adamları "yaxşıdır sözünün şahın sevimli ifadəsi olduğunu bildiklərindən, öz aralarında ona "yaxşıdır" ləqəbi qoymuşdular.

Qədim yunan filosofu Heraklit təbiətin dəyişkən olduğunu vurğulayaraq, hətta sonu görünməyən bir çaya ikinci dəfə girməyin yalnış olduğunu, yeni suların daima üzü aşağı axdığını vurğulamışdı. Digərləri isə bunu insan şəxsiyyətinin səciyyəsi kimi səciyyələndirmişlər. Bəlkə də, Şah Sultan Hüseyn şahlıq etdiyi ilk dövrdə ciddi böhranlarla üzləşsəydi, o, çox güman ki, daha tədbirli və ehtiyatlı biri kimi formalaşar və hadisələr fərqli cür inkişaf edərdi. Hər şey müvəffəqiyyətlə nəticələnsə idi, onun çox güclü bir dövlət başçısı olacağı da istisna deyildi.

Amma ki, Səfəvi torpaqları təbii sərhədlərlə əhatələnmişdi, böyük ərazini tutan İran yaylası onu təbii qalxan kimi hər tərəfdən qoruyurdu. Bu səbəbdən də Şah Sultan Hüseynin hakimiyyətinin ilk dövrləri sakitlik və dinclik içində keçdi. İsfahanda şah özünü tamamilə içkiyə, gözəl qadınlarla əyləncəyə və əsrarəngiz bağların salınmasına həsr etmişdi. O, hələ atasının vaxtından qalan hücrədə yaşayırdı. Şahın yaratmış olduğu bu sistemin başında duran saray adamları və məmurlar bir-birinə rəqib gözü ilə baxır, üstünlük əldə etmək üçün açıq-aşkar yarışırdılar. Dövlət işlərinə münasibətdə tam bir etinasızlıq hökm sürürdü və əvəzində hər kəs öz şəxsi mənafeyi naminə çalışırdı. Xorasanın acı həqiqətlərindən və bəhrəsiz dağlarından uzaqlarda, paytaxt İsfahanda şahla ilk görüşdə Nadirin rastlaşdığı mənzərinin mahiyyəti bundan ibarət idi.

Baba Əli gənc Nadiri İsfahana türkmənlər üzərində qələbə xəbərini çatdırmaq üçün göndərməklə, həm də

ona bəslədiyi dərin hörmət və ehtiramını göstərmiş oldu. İsfahandan geri döndükdən sonra Nadirin 1715-ci ildə Baba Əlinin qızı ilə evlənməsi ilə bu əlaqələri daha da möhkəmləndirdi və Nadirin həmin izdivacdan 1719-cu ildə Rzaqulu adlı oğlu dünyaya gəldi. Rzaqulu adı və Nadirin digər oğullarının, eləcə də atasının – İmamqulunun adı Nadirin şiə mühitində böyüməsinin və gənc yaşlarında şiəliyə rəğbətlə yanaşmasının göstəricisi hesab olunmalıdır.

Baba Əli Xorasanın sayılıb-seçilən adamlarından idi və onun Nadirə olan inamı digərlərində qısqanclıq yaratmışdı. Əslində, Baba Əlinin ona qarşı bu cür münasibəti yalnız rəğbətlə deyil, digər amillərlə də şərtlənirdi. Bəlkə də, qohumluq bağları, həmçinin Baba Əli və Nadirin atası arasındakı möhkəm dostluq münasibətləri onlar arasında mənəvi bir bağlılıq, qarşılıqlı öhdəlik mühiti yaratmışdı. Baba Əlinin qızı ilə nikahdan sonra Nadir Xorasanın siyasi işlərində əhəmiyyətli bir fiqura çevrilmişdi və qarışıqlığın hökm sürdüyü bir ölkədə yeni dövlətin qurulması üçün müəyyən imkanlar da əldə edə bilmişdi. Belə bir vəziyyətdə Əfşar tayfasının bəzi nümayəndələrinin ona qarşı kin saxlaması əlavə gərginliyə səbəb olur. Az sonra Xorasanın şimalında hələ o qədər də böyük nüfuz sahibi olmayan Nadirlə kürdlər arasında da ədavət yaranır. O, uğurları ilə düşmənlərinə qalib gəlsə də, öz tayfası içərisindən bəzilərinin ona düşmən kəsilməsi və gələcəkdə ona qarşı xəyanət toxumlarının səpilməsinə rəvac verəcəkdi.

1710-cu ildən etibarən Şah Sultan Hüseynin İsfahanda sürdüyü qayğısız və məsuliyyətsiz həyat tərzi əyalətlərdə münaqişə və üsyanlara səbəb olmağa başladı. 1699-cu ilin əvvəlində Bəluclar cənub-şərqdən Kirman vilayətinə çox sayda qoşun yeridirlər. Şah Sultan Hüseyn

İranda Gorgin xan kimi tanınan gürcü şəhzadəsini bu iğtişaşları yatırmaq üçün ora göndərir. Döyüş vaxtı o, cəsur və qətiyyətli idi, siyasi fəndlər və hiylələr isə onun bacardığı iş deyildi. O, qürurlu və özünə arxayın olan biri idi. İstənilən məsələni öz gücü ilə həll etməyə üstünlük verirdi. Gorgin bəluclarla danışıqlardan sonra sülhü bərqərar edib asayişi təmin etdi. Özü də Kirmanda vəziyyətə nəzarət etmək üçün qaldı. Bəluclar 1704-cü ildə Qəndəhara hücum edərkən o, yenə də onlara qarşı döyüşdü. İndiki Əfqanıstan ərasizi İran və Moğol imperiyaları arasında bölüşdürülmüşdü, sərhəd isə Qəndəharla Kabul arasındakı ərazidən keçirdi. Qəndəhar da Herat kimi Səfəvilərə tabe olan əfqan əyalətlərinin paytaxtına çevrildi.

Gorgin Qəndəhara çatdıqda bəluclar ona tabe oldular. Gorgin xan Kirmanı tərk etməzdən əvvəl artıq şah onu Qəndəharın hakimi təyin etmişdi. O, bu sərhəd ərazilərdə də öz hökmünü təmin etdi. O, bütün bunları özünəməxsus şəkildə, yəni qorxutmaq yolu ilə həyata keçirirdi və getdikcə əfqan əhali arasında gürcülərə qarşı nifrət baş qaldırırdı. 1706-cı ilin yayında Şah Sultan Hüseyn, saray adamları, hərəmxanası və mühafizəçiləri ilə birgə, 60 min nəfərdən ibarət böyük bir ordunun müşayiətilə müqəddəs şəhərlər hesab edilən (şiə məzhəbinin tərəfdarları üçün – mütərcim) Qum və Məşhəd şəhərlərini ziyarətə yollandı. Bu ziyarət bir ilə qədər uzandı. Ziyarətin xərcləri olduqca çox idi. Bir tərəfdən dövlətin xəzinəsi boşalmış, digər tərəfdən isə əyalətlərdəki vəziyyət olduqca acınacaqlı hal almışdı. Ziyarət yolunun üzərində yerləşən şəhərlərin əhalisi isə ikiqat narahatlıqla üzləşirdi. Çünki şahın, onun qadınlarının hərəkət etdiyi xətt boyunca yerləşən evlər boşaldılır, yaxud onların qapı və pəncərələri bağlatdırılırdı. Şahdan bir mil irəlidə və geridə onu qoru-

yan mühafizə dəstələri hərəkət edirdi. Şah yol boyu əylənmək üçün özünə məşğuliyyət də tapmışdı və bu məşğuliyyətindən olduqca məmnun idi. Belə ki, o, qadınları aparan qatırları qamçı ilə vurur, qatırlar isə zərbədən diksinərək üzərlərindəki xanımları yerə çırpırdılar. Şah ağır-ağır, tələsmədən Məşhədə doğru irəlilədiyi bir vaxtda İsfahanda ərzaq qıtlığı başlamışdı. Şəhərdəki məmurların yoxluğundan istifadə edən tacirlər taxılın qiymətlərini qaldırmışdılar. Xalq üsyan vəziyyətinə çatmışdı. İnsanlar meydana toplanaraq Aliqapı sarayına daşlar atır, Şah Sultan Hüseynin ünvanına təhqiredici ifadələr səsləndirir və onun hərəmdən çıxarılıb onlara verilməsini tələb edirdilər. Şah Sultan Hüseyn Gorginin qardaşı oğlanlarından birini – Keyxosrovu Məşhəddən İsfahana göndərir və o da öz növbəsində etirazları cilovlaya bilir.

Paytaxtda həmin vaxt güclü hakimiyyətin olmadığı açıq-aşkardır. Güclü iqtidar heç zaman kəskin qiymət artımına və kütləvi aclığın yaranmasına imkan verməzdi. Şah sarayının daşa basılması Sultan Hüseynin şəxsi nüfuzunun, eləcə də Səfəvi monarxiyasına olan etimadın təhlükəli səviyyəyə qədər azaldığının göstəricisi idi. Hər bir iqtidar yalnız müəyyən bir yerə qədər insanları ovsunlaya, tovlaya bilər. Hətta diktaturanın belə dayanıqlığı tabe olanların razılıq səviyyəsi və tabe edənlərin malik olduqları nüfuzun həddi ilə müəyyən olunur. Əgər hörmət və etibar səviyyəsi aşağı enməyə başladısa, təbəələrin də inamı laxlamağa başlayır.

Narahatlıq doğuran məsələlərdən biri də şimal-qərbdə, Dağıstan dağlarında yaşayan döyüşkən ləzgi tayfaları ilə bağlı idi. Ləzgi tayfaları son dövrlərdə Rusiya dövləti üçün, eləcə də İranın özü üçün Qafqazdakı digər xalq – çeçenlər kimi daim təhlükə və gərginlik mənbəyi

hesab edilirdilər. Türkmən, əfqan, bəluc və kürd tayfaları kimi, ləzgilər də sünni müsəlmanları hesab olunurdular və şiə məzhəbinin nümayəndələri ilə onlar arasında ədavət var idi. 1706-cı ildə onların bir hissəsi Gürcüstana köçürüldü. Onlara sülh şəraitində yaşamaq müqabilində büdcədən ayrılmış maddi yardım isə rüşvətxor Səfəvi məmurları tərəfindən mənimsənildi. Dövlətin mərkəzi sistemində nəzarətin zəifləməsi digər problemlərə də səbəb olmuşdu. Artıq dövlət yollarda və karvan xəttlərində tacirləri və səyahətə çıxanları etibarlı şəkildə qorumaq iqtidarında deyildi. Bəzi hallarda isə səyyah və tacirlərin elə məmurların öz sifarişi ilə talan edildikləri güman olunurdu.

Qəndəharda məskunlaşan Gorgin burada da öz dəmir əli ilə Səfəvi hakimiyyətini gücləndirməyə çalışırdı. Bu əyalətdə əfqan əsilli Gilzai tayfasından olan Mir Veys adlı feodal hörmət və nüfuz sahibi hesab edilirdi. O, tanınmış ailədən çıxmış, olduqca zəngin bir adam idi. Mir Veys ehtiyacı olanlara və ona üz tutanlarla əliaçıqlıqla və səxavətlə davranırdı. İnsanlar gürcülərdən olan narazılıqlarını ona söyləyirdilər. Gorgin Mir Veysə inanmırdı.

Nadirin taleyində əfqanlar xüsusi yer tuturdular. Həmin dövrlər İbn Xəldunun nəzəriyyəsinə uyğun olan əsəbiyyət özünü xüsusilə göstərirdi. Əfqanlar çox az yeyir, demək olar pəhriz saxlayırdılar. Hətta ən əlamətdar günlərdə belə dadlı təamlardan yemirdilər. Şərab isə ümumiyyətlə içilmirdi. Onun əvəzinə, əfqanlar bol miqdarda su içirdilər. Onlar çox sadə geyinir, başlarını qırxdırır və çiyinlərindən sallanan libaslardan istifadə edirdilər. Yalnız zəngin əfqanlar ayaqqabı geyinirdilər. Sadə insanlar isə ayaqyalın gəzir, əsgərlərin isə heç zirehli paltarları da yox idi. Əfqanlar döyüşkənlikləri və əzmkarlıqları ilə seçilirdilər. Onlar öz cəsurluqları ilə qonşularından seçilirdilər.

Həmçinin döyüşlərdə onları dəmir intizam fərqləndirirdi. Onlar adətən at belində döyüşə yollanır və ənənəvi silahlardan – oxdan, mizraqdan, qılıncdan, qalxandan istifadə edirdilər. Bu dövrdə Gilzai əfqanları Qəndəharda, Əbdali tayfasından olan əfqanlar isə Heratda məskən salmışdılar. Əbdali və Gilzai tayfaları arasında düşmənçilik hökm sürürdü və bu, bəzən toqquşmalara da gətirib çıxarırdı.

Hər iki tayfanın nümayəndələri sünni məzhəbinə mənsub idilər və üstünlük uğrunda amansız rəqabət aparırdılar. Qəndəhara başçı təyin edilən Gorgin Mir Veysi şübhəli məsələlərdə günahkar bilib həbs etdirmişdi. Daha sonra isə onu İsfahana göndərmişdi. O, Mir Veysi Şah Sultan Hüseyn barədə yalanlar uydurmaqda günahlandırmış, onu dövlətə qarşı çıxan təhlükəli şəxs hesab edərək həbs etdiyini bildirmişdi. Gorgin xan belə hesab edirdi ki, Mir Veysin paytaxtda qalması əfqanların yaşadıqları ərazilərdə Səfəvi haklimiyyətini bərpa etməyə kömək göstərəcək. Lakin bunun tam əksi baş verdi. Paytaxta gətirilən və orada cərayan edən eybəcərlikləri görən Mir Veys Səfəvi hakimiyyəti üçün əfqan torpaqlarında daha böyük problemə çevriləcəkdi. Sonralar Nadir kimi Mir Veys də burada cərayan edən özbaşınalıqların şahidi olmuşdu. O, bu mühitə tez alışdı və hətta Şah Sultan Hüseynin özü ilə belə əlaqələr yaratmağı bacardı.

Getdikcə o, Şah Sultan Hüseynin ən sevimli, yaxın ətrafına daxil adamlarından birinə çevrildi. Mir Veys Məkkəyə getmək üçün icazə aldı və Qəndəhardakı sünni müsəlmanları, öz soydaşlarını iranlıların zorakı idarəçiliyindən azad etmək üçün nüfuzlu din xadimlərindən fətva aldı. 1708-ci ilin yayında Mir Veys Məkkədən İsfahana qayıtdı.

Gorgin olduqca qəddar adam idi. Evinə geri dönən Mir Veys öz ardıcıllarını başına toplayıb, gürcülərin zülmünə qarşı üsyana hazırlaşmağı əmr etdi. 1709-cu ilin aprelində üsyançıların əlinə əlverişli bir fürsət düşdü. Mənbələrin birində göstərilir ki, həmin vaxt Mir Veys şəxsən özü Gorginin çadırına getdi və içəridə bütün çadırı dağıtdı. Gorginin hər hansı müqavimətinin qarşısını almaq üçün isə onu anındaca qətlə yetirdi. Gürcülərin əksəriyyəti Gorginlə birlikdə öldürüldü. İsfahanda Gilzai üsyanının baş verməsi Səfəvi hökumətini yuxudan ayıltdı. Şah Sultan Hüseyn Mir Veysə inanmaqla səhv etmiş olduğunu anlamışdı. O, etirazçılarla danışıq aparmaq üçün iki nəfər elçi göndərsə də, onların hər ikisi həbs edildi. Hadisələrin qarşısını almaq üçün Gorginin qardaşı oğlu Keyxosrov hərbi qüvvə ilə üsyançıların üzərinə göndərildi. Lakin o, Heratda Əbdali tayfasından yardım almaq əvəzinə çox ləng hərəkət edərək vaxt itirdi. 1711-ci ilin oktyabrında Qəndəharın mühasirəsi uğursuz bir şəkildə başa çatdı. İranlılar geri çəkilən kimi Mir Veys əks-hücuma keçdi. Baxmayaraq ki, gürcü əsgərləri əfqanlarla döyüşdə cəsarətlə vuruşdular, lakin bu, onları məğlubiyyətdən qurtara bilmədi. Keyxosrov özü atı ilə çayı keçməyə çalışarkən, yıxıldı və aldığı xəsarətlərdən yerindəcə həlak oldu. Ordunun çox hissəsi xilas ola bildi. Ancaq baş verənlər olduqca ciddi məğlubiyyət idi və uğursuzluq nəticəsində Səfəvi hakimiyyəti Qəndəhar üzərindəki nəzarəti tamamilə itirmişdi. İsfahandan göndərilmiş sonrakı ekspedisiyalar da Qəndəhara çatmadan məhv edilmişdilər. Göndərilən ordulardan birinin komandanı isə Herata çatmamış yolda dünyasını dəyişmiş və nəticədə əsgərlər pərən-pərən düşmüşdülər. Mir Veys demək olar bütün Qəndəhar əyalətinda nəzarəti öz əlinə keçirmişdi. Lakin

o vəkil və ya naib ləqəbi ilə tanınır, özünü şah elan etməyə tələsmirdi. O, 1715-ci ildə dünyasını dəyişdi. Deyilənə görə, ölüm yatağında olarkən ondan gələcəkdə iranlılarla necə rəftar etmək lazım olduğuna dair soruşduqda, Mir Veys belə demişdi: "Əgər iranlılar sizə hücum edərlərsə, onlarla sülh bağlayın. Yox, əgər onlar zəiflik göstərsələr, İsfahanın qapılarına qədər onları qovun".

Mir Veysdən sonra hakimiyyətə onun qardaşı gəlir. Lakin onun qardaşı Gilzai başçılarından daha az nüfuz sahibi idi. Onlar Mir Veisin böyük oğlu Mahmudu rəhbərliyə gətirməyə üstünlük verdilər. Mahmud da onların bu təklifini qəbul etdi. 1717-ci ildə o həyatındakı ilk qanlı qətli həyata keçirdi – doğma əmisini hakimiyyət naminə öldürdü. Sonrakı dövrdə zəifləmiş Səfəvilər artıq Qəndəhar üzərində nəzarəti özlərinə qaytarmaq üçün cəhd göstərmədilər. Belə ki, onlar Heratda əbdalilərin üsyanını yatırtmaqla məşğul idilər və bu da Səfəvilərin süqutunu sürətləndirən addımlardan oldu. Əbdalilər Gilzai tayfasının ən böyük rəqibi idilər. Keyxosrovun ordusunun Gilzailər tərəfindən necə darmadağın edildiyinin şahidi olan əbdalilər daha zəif olan iranlılarla ittifaqa meyil göstərdilər. Heratın Səfəvi hakimi meydana gələ biləcək təhlükələrin qarşısını almaq üçün bəzi feodalları həbs etmək qərarına gəldi. Lakin az sonra onun özü adamları tərəfindən həbs edilərək idarəçilikdən kənarlaşdırıldı. İsfahandan göndərilən yeni başçı Əbdali tayfası tərəfindən müdafiə olundu və Məşhəd valisinin də etirazları cilovlamaq cəhdləri uğursuzluqla nəticələndi.

Məşhəddən Əbdalilərə qarşı göndərilən 500 nəfərlik orduya Baba Əli bəy, yəni Nadirin qayınatası şəxsən rəhbərlik edirdi. Nadir isə Əbivərddə Baba Əlinin əvəzinə rəhbər qismində qalmışdı. Baba Əli qızğın döyüşlərin bi-

rində ağır yaralandı və bir müddət sonra dünyasını dəyişdi. Onun yerini qardaşı Qurbanəli tutdu. Nadir bu dəfə də Təkkə tayfasından olan türkmən atlılarına qarşı uğurlu əməliyyat keçirdi. Qısa müddət sonra Qurbanəli də tutulduğu ağır xəstəlikdən vəfat etdi. Bəziləri isə belə güman edir ki, Qurbanəli xəstəlikdən deyil, Nadirin hazırladığı sui-qəsd nəticəsində öldürülmüşdü. İstənilən halda Qurbanəlinin ölümü Nadiri hədəfinə bir addım da yaxınlaşdırdı. O, İsfahandan Əbivərdə yeni təyin olunan başçı – Həsənəli xanın müavini vəzifəsini icra etməyə başladı. Zaman keçdikcə Nadir onun etibarlı silahdaşına çevrildi.

Səfəvi rejimi şərq istiqamətində başlayan qiyamlardan əziyyət çəkirdi. Bu qiyamları yatırmaq məqsədilə göndərilən qoşunların iflasa uğraması isə bu rejimin əvvəlki nüfuzunu tamamilə alt-üst etdi. İsfahandan Heratı ələ keçirmək üçün göndərilən dəstələr bir-birinin ardınca uğursuzluğa düçar olurdular. Nadir özü də bu dəstələrdən birini Əbivərddən gətirdiyi qoşunlarla müşayiət etmişdi. Nadir iştirakçısı olduğu döyüşlərdə müharibə texnikasını və əsgərlərə başçılıq etmək qaydalarını dərindən öyrənmək üçün səy göstərirdi.

Beləliklə də, İsfahandan gələ biləcək hər cür təhlükədən özlərini sığortalayan Əbdalilər ənənəvi rəqibləri olan Gilzai tayfasına hücum etmək qərarına gəldilər, lakin 1720-ci ildə Mir Veysin oğlu Mahmudla döyüşdə ağır məğlubiyyətə uğradılar. Bu məğlubiyyətdən sonra onların öz daxillərində ixtilaflar meydana gəldi və hər bir qrup üstünlüyü ələ keçirmək üçün var gücü ilə çalışırdı. Mahmud bəzi Əbdali başçılarını sadiqlik əlaməti kimi Şah Sultan Hüseynin yanına göndərdi. Şah Sultan Hüseyn bu kələyi başa düşmədi və Mahmudu Qəndəhar əyalətinin başçısı təyin etdi, ona Hüseynqulu xan ünvanını da verdi.

Şahın özü tərəfindən kiməsə ad verilməsi o zaman böyük bir şərəf hesab edilirdi.

İsfahandakı mərkəzi hakimiyyət hər gün gələn pis xəbərlərlə daha da sarsılırdı. Günlərin birində isə belə bir xəbər yayıldı ki, İran körfəzindəki bəzi adalar, Səfəvilərə məxsus mülklər ərəb qəbilələri tərəfindən ələ keçirilmişdir. Hərəmin başçısı Məryəm Bəyim yaranmış mürəkkəb şəraitdə ciddi tədbirlər görülməsinin zəruriliyini tam mənada anlayan bəlkə də yeganə insan idi. Onun təkidi nəticəsində toplanan vəsait hesabına Şah Sultan Hüseyn saray əyanları ilə birgə Qəzvinə ordu toplamağa yola düşdü. Lakin yüksək vəzifəli məmurlar heç bir iş görmək iqtidarında deyildilər. Onlar mühüm məsələlərin həllini təxirə salır, əvəzində bir-birləri ilə çəkişməyə başlayır, hər kəs yalnız öz şəxsi marağı üçün, digərlərinə qarşı ikiüzlülük edir, dövləti narahat edən problemlərə əhəmiyyət belə vermirdilər.

1717-1720-ci illərdə şimal-qərb əyalətlərinidə, Kürdüstan və Şirvanda yenidən arasıkəsilməz qiyamlar baş verirdi. Şirvanın, eləcə də Kürdistanın sünni müsəlmanları Şah Sultan Hüseynin rejiminin ilk illərində üstünlük qazanmış şiə ruhanilərinin məzhəb ayrıseçkiliyinə dözmək istəmirdilər. Bu məzhəbin əsas lideri Məhəmməd Bağır Məclisi 1699-cu ildə vəfat etmişdi. O, olduqca iradəli və məqsədyönlü bir insan idi. Şiəliyə və şəriət qanunlarına bütün qəlbi ilə bağlanmışdı. Məhz onun fəaliyyəti nəticəsində şiəliyin sünnilik, sufilik və ölkədəki digər dini ideyalar üzərindəki üstünlüyü təmin edilmişdi. Onun fars və ərəb dillərində qələmə aldığı əsərlər ilahiyyat aləminə dəyərli töhfə hesab olunur. Məclisinin ölkədə və sarayda böyük təsir imkanları var idi. Onun şiəliyə dair qələmə aldığı əsərlər günümüzə qədər əhəmiyyətini qoruyub saxlamaqdadır.

İranda, eləcə də digər müsəlman ölkələrində xristian və yəhudi azlıqları digər qeyri-müsəlman icmalarından ciddi şəkildə fərqləndirilirlər. İslam etiqadına əsasən İncil də müqəddəs kitab, ilahi vəhy hesab edildiyindən, ona inananların hamısı əhli-kitab kateqoriyasına daxildir. Buna baxmayaraq, Məhəmməd Bağırın vəfatından sonra onun yerinə təyin edilən nəvəsi, böyük ayətullah Məhəmməd Hüseyn ermənilərin və yəhudilərin təqib olunması işinə şəxsən rəhbərlik etməyə başladı. Üstəlik şahın özü də hələ İslamdan çox-çox əvvəl mövcud olan atəşpərəstlərin zorla öz dinlərini dəyişdirərək müsəlmanlığı qəbul etmələrinə dair fərman verdi. Mühafizəkar İslam ənənələrini bir sıra mistik təlimlərlə birləşdirib təbliğ etməyə çalışan sufilərlə yanaşı, Hindistandan olan qeyri-müsəlman tacirlərlər də təqiblərə məruz qaldılar. Təzyiqlər sünni müsəlmanlardan da yan keçmədi. Bəzən saray əyanlarının arasında da ifrat şiəliyi qəbul etməyənlərin olması da üzə çıxırdı ki, bu narazılıq isə öz növbəsində siyasi məsələlərə də sirayət edirdi.

Məhəmməd Bağır haqqında rəvayətlər bu gün də dolaşır. Rəvayətlərin birində deyilir ki, guya bir nəfər Məhəmməd Bağır dünyasını dəyişdikdən sonra onu yuxusunda görüb və mərhumun o dünyadakı vəziyyəti ilə maraqlanıb. Məhəmməd Bağır isə cavabında bildirib ki, o heç bir əməlimdən xeyir görməyib, birindən savayı. Bu da günlərin birində bir yəhudini almaya qonaq etməsi olub. Rəvayətin əsas məğzi ondan ibarətdir ki, Məclisi kimi, həyatı boyunca ifrat məzhəbçiliyi yayan şəxsin bütün fəaliyyəti puça çıxıb, ona savab gətirən isə bir tək insani əməli olub. Nadirin özü də dinə münasibətdə kəskin mövqedən çıxış edə bilərdi. Sonralar hakimiyyətə gəldiyi zaman o, şiəliyi ümumiyyətlə ictimai-siyasi proseslərdən

təcrid etmək imkanına da malik idi. Ancaq o belə bir addım atmadı. Çünki belə bir davranış təkcə şiəliyin deyil, ümumilikdə İslam dininin mövqelərinin zəifləməsi və dinin gözdən düşməsi ilə nəticələnərdi.

Şahın mövqeləri olduqca zəifləmişdi. Mollalar həmişəki kimi şahın başlıca məsləhətçiləri idilər. Sünnilərin yaşadıqları ərazilərdə qalxan üsyanlar bitib-tükənmək bilmirdi. Bunun ən bariz nümunəsi Şirvan qiyamı oldu. Sünnilər öldürülür, onların kitabları yandırılır və onların məscidləri isə tövlələrə çevrilirdi. Baş verənlər Kürdüstanda da hiddətlə qarşılandı. Gilzai və Əbdalilər isə etiraz əlaməti olaraq qiyama qalxdılar. Şirvan üsyançıları kömək üçün hətta Osmanlı dövlətinə müraciət də ünvanladılar. Nəhayət ki, Şamaxının sünni sakinləri 1721-ci ildə qiyamçı ləzgi tayfalarının üzünə şəhər qapılarını açdılar. Nəticədə ətraf ərazilərdə şiələrin kütləvi qırğını başladı. Şiələrin başçısı, onun qardaşı oğlu və digər qohumları izdiham tərəfindən tikə-tikə doğrandı, onların əti isə itlərə yem oldu. Qiyam nəticəsində əyalət üzərində nəzarət Osmanlı dövlətinin əlinə keçdi.

Şah Sultan Hüseynə növbəti zərbə 1719-cu ildə şərqdən endirildi. Mir Veysin oğlu Mahmud Gilzai 10 min əsgərlə Kirmana hücum etdi. Kirmanın başçısı qaçdı və Mahmud maneəsiz şəhərə daxil oldu. Şəhər talan edildi.

Kirmanda Mahmud sonra gözlənilməz qərarlar verməyə başladı. O, ilk növbədə yerli əhalinin sünniliyə keçməsinə dair əmr verdi və cinayət törədən əsgərlərin hamısını cəzalandırdı. Zərdüştilər fürsətdən istifadə edib şiələrə qarşı hücuma keçdilər, lakin sonralar özləri əfqanlar tərəfindən məhv edildilər. Zaman keçdikcə qətllərin sayı daha da artırdı və dəyən ziyan dəhşətli miqyas aldı. Nəhayət, əfqanlar buranı tərk etmək qərarına gəldikdə,

şəhərdəki binaların hamısını yandırılmış vəziyyətdə, şəhər bazarını isə meyitlərlə dolu halda qoyub getdilər. Mahmud əldə etdiyi böyük qənimətlərlə vətənə qayıtdı. Bu hadisə sonradan baş verəcək dəhşətli hadisələrin ilk xəbərçisi oldu.

Mahmud geri çəkilən kimi baş vəzir şahı və onun yaxın əyanlarını şimal-şərqə doğru hərəkət etməyə təşviq edir və Qəndəhar üzərinə yürüşə başlamağın vacibliyinə hər kəsi inandırmağa çalışır. Belə güman etmək olardı ki, yaranmış vəziyyətdə güclü bir şəxsiyyət vəziyyəti tamamilə ələ ala bilərdi və bu, vəziyyəti düzəltmək üçün son şans idi. Lakin şah yenə də Tehrandan irəli getməyi bacarmırdı. Yenə də əyanların ədavəti bütün təşəbbüsləri alt-üst etdi. Ölkənin baş ruhanisi ayətullah Məhəmməd Hüseyn şahın şəxsi həkimi ilə birləşib həm Fətəli xana, həm də digərlərinə qarşı münaqişəyə girişmişdilər. Vəzirin ləzgi əsilli, sünni məzhəbinə mənsub olması onları qıcıqlandırırdı. Kimsə Fətəli xanın adından kürdlərin başçısına məktub hazırladı. O, başçını şahı və onun ailəsini öldürmək üçün razı saldı. Məktubu şaha göstərdikdə o, Fətəli xanın həbsini əmr etdi. Onun gözləri çıxarıldı və xəzinəsinin yerini deməsi üçün ona işgəncə verildi.

Şah Sultan Hüseynin hakimiyyətinin son illərində sanki məqsədli şəkildə iqtidarı gözdən salacaq hər şey edilirdi. Saray əyanlarından kimsə dövlətə təhdid törədən təhlükənin qarşısını almağa çalışdıqda, həmin şəxsin uğur əldə edəcəyindən ehtiyatlanan digər məmurlar çəkişmələrə əl atıb onu gözdən salmaq üçün bir-biri ilə yarışırdılar. Əyanlar ani olaraq həmin şəxsə qarşı birləşib onu gözdən salırdılar.

Bütün bunların yekunu olaraq Səfəvi dövləti süquta uğradı. Çünki mühüm dövlətin vəzifələrinin etibar edildiyi

şəxslərin heç biri öz məsuliyyətini dərk etmir, əksinə, dövlətə zərər vuran fəaliyyətlə məşğul olurdular. Saray əyanları sanki başqa bir dünyanın sakini idilər və hakimiyyətin aqibəti onları qətiyyən maraqlandırmadığından hər kəs qayğısız, rahat həyat sürməyə davam edirdi.

Məhəmmədqulu xan Şamlı adlı bir nəfər baş vəzir təyin olunduqdan sonra şah 1721-ci ildə öz əyan-əşrəfi ilə birlikdə İsfahana qayıtdı. Onun yoxluğunda yenidən çaxnaşma baş vermiş və bir qrup əyan onun qardaşı Abbası taxta çıxarmağa cəhd belə göstərmişdi. Məryəm Bəyim var gücü ilə İsfahandakı prosesləri nəzarət altında saxlamağa çalışırdı və o, görəndə ki, şah Qəzvində boş yerə vaxt sərf etməklə məşğuldur, var gücü ilə onun geri qayıtması üçün çalışmağa başladı. Lakin şah onun təklifini rədd etmiş və tərəflər arasında mübahisə də baş vermişdi. 1719-cu ildən sonra mənbələrdə Məryəm bəyim haqqında heç bir məlumata rast gəlinmir. Məlum olan yalnız odur ki, şah 1721-ci ildə geri qayıtdıqda Məryəm Bəyim artıq dünyasını dəyişmişdi. Sarayda ölkənin aqibəti haqqında düşünə bilən bir nəfər belə sağlam təfəkkürlü insan qalmamışdı.

Sadə insanlar şahın İsfahana dönməsinə sevinirdilər (çünki onun yoxluğundan istifadə edən tacir və sənətkarlar özbaşınalıq edirdilər) və hökmdar qayıtdıqdan sonra əvvəlcədən hazırlatdığı Fərəhabaddakı bağ evində məskunlaşdı. Məşhədə göndərilmək üçün xeyli əsgər toplansa da, onların yalnız bir hissəsini döyüşə göndərmək mümkün oldu. Məlik Mahmud Sistani, Tun və Təbas ərazilərinin keçmiş idarəçilərinin eyni zamanda qiyama qalxması qüvvələrin parçalanmasına gətirib çıxardı. Son nəticədə Məlik Mahmudun qiyamının qarşısını almaq müm-

kün olmadı, üstün gəldi və bundan sonra o, şimal-şərq əyalətlərində mütləq hakimə çevrildi.

Fərəhabadda isə Şah Sultan Hüseyn aşbazların hazırladığı ləzzətli təamlardan dadır, tabeliyindəki əyalətlərdən gətirilən gözəl qadınlarla eyş-işrətlə məşğul olur, şərab içir və məst halda inşa edəcəyi gözəl saraylar haqqında planlar qururdu. Onun ərsəyə gətiridyi binalardan olan Madəre-Şah adlanan şedevr günümüzə qədər gəlib çıxmasa da, onun qonşuluğunda inşa edilən qonaq evi onun memarlıq zövqünün bəhrəsi kimi dövrümüzədək salamat qalmışdır. Onun zövqünü oxşayan incə tağlar, mavi rəngli minarələr qürub edən Səfəvi dövlətini dağılmaqdan qoruya bilməzdi. Şah Sultan Hüseynin Fərəhabadda sürdüyü qayğısız həyat cənnəti xatırlatsa da, cəhənnəm kimi dəhşətli günlər artıq o qədər də uzaqda deyildi.

Kirmanda ordusu ilə birgə üstünlük qazanan Mahmud 1721-ci ilin yayında İranın mərkəzi hissəsinə ikinci hücum üçün hazırlıqlara başladı və bu məqsədlə Qəndəharı tərk etdi. Bəluclar və qiyam qaldırmış digər qüvvələr də ona qoşulmuşdular. Lakin bu dəfə onları daha ciddi müqavimət gözləyirdi. Paytaxtdan göndərilmiş yeni vali qaları möhkəmləndirdi və 50 minə yaxın əhali onların divarları arxasında sığınacaq tapdı. Lakin qala müdafiəçilərinin lazımi qədər ərzaq ehtiyyatı olmadığından, ciddi çətinliklərlə üzləşməli oldular. Onların vəziyyətini əfqanların odlu silahlardan açdığı aramsız atəş daha da mürəkkəbləşdirirdi. Qala divarlarını uçurmağa imkan verən ağır artilleriyaya malik olmayan əfqanlar qalanı hər tərəfdən mühasirəyə aldılar və 1722-ci ilin fevralına qədər qızğın döyüşlərin getməsinə baxmayaraq, 3000 nəfər hələ də müdafiə olunmağa davam edirdi. Qidanın olmaması insanları vəhşiliyə sövq edirdi. Qala müdafiəçilərini öz şü-

caəti hesabına döyüşə ruhlandıran vali isə əfqanların növbəti həmlələrindən birinin gedişində öldürülmüşdü. Ondan sonra bu vəzifəyə gələn vali isə əfqanlara mühasirəni dayandırmaları üçün 1700 tümən məbləğində qızıl və gümüş təklif etdi. Mahmudun özü də artıq xeyli uzanmış mühasirəni sona çatdırmaqdan məmnun idi. Döyüşlərin gedişində onun ordusu xeyli tələfat vermişdi. O bu arada Yəzdə də yürüş etmiş, lakin şəhər müdafiəçilərinin güclü müqaviməti ilə üzləşib geri çəkilmək məcburiyyətində qaldı. Mahmud bu zaman heç kəsin gözləmədiyi bir qərar verdi. O, Yəzddən qayıdarkən qəflətən ordunu İsfahana tərəf döndərdi. Martın əvvəllərində onun ordusu paytaxtdan 18 mil məsafədə dayanmışdı. Onun ordusu Golnabad kəndində düşərgə saldı.

İsfahandakı məmurlar Mahmudun Kirmana yürüş etdiyini biləndə onsuz da böyük qorxu hissi keçirmişdilər, lakin onun paytaxta doğru irəliləməsi vəziyyəti tamamilə dalana dirədi. Yeni vəzir Məhəmmədqulu xan şaha məsləhət gördü ki, əlavə qüvvələr gələnə qədər əmrində olan ordunu şəhərdə saxlasın və gözləsin. Əfqanların Yəzd və Kirmanda uğursuzluqlarını nəzərə alsaq, vəzirin verdiyi məsləhətin olduqca ağıllı bir tövsiyə olduğunu deyə bilərik.

Lakin həmişə olduğu kimi, bu səfər də sarayda ciddi cəbhələşmə var idi. Bir qrup məmur vəzirin dediyi fikrə tərəfdar çıxır və şaha gözləməyi təklif edir. İkinci qrupa isə Ərəbistan valisi Seyid Abdullah başçılıq edirdi və onun nümayəndələri tam əksinə, gözləməməyi və vaxt itirmədən əfqanlar üzərinə hücum etməyi təklif edirdilər. Seyid Abdullah Məhəmmədqulu xandan fərqli olaraq şahın sevimlisi idi və hökmdar onun verdiyi təklifi daha məqbul hesab etdi. İsfahanda, eləcə də ona yaxın ərazilərdə qo-

şun hissələri cəmləşdirildi və 3 mart 1722-ci ildə Səfəvi ordusu əfqanlar üzərinə hücuma keçdi. Seyid Abdullahın özü də tabeliyindəki 12.000 nəfərlik ərəb atlılarından ibarət qoşunla onlara qoşuldu. Ümumilikdə müxtəlif millətlərdən təşkil olunmuş Səfəvi ordusunun döyüşçülərinin sayı 42.000 nəfərə çatırdı. Ordunun böyük hissəsi döyüşə hazır deyildi və əsgərlərin silahlanmasında da ciddi problemlər var idi. Belə ki, əsgərlərin əksəriyyəti səriştəsiz və adi ağaclarla silahlanmışdı.

Ordunun döyüşkən hissəsini isə əsasən Gorgin xanın qardaşı oğlu Rüstəm xanın başçılıq etdiyi şahın şəxsi mühafizə dəstəsi, həmçinin lor tayfalarından toplanmış Əli Mərdan xanın rəhbərlik etdiyi atlı dəstələri təşkil edirdi. Sözügedən şəxslərin hər biri təcrübəli sərkərdə idi. Ordunun tərkibində artilleriya ustası Əhməd xanın başçılıq etdiyi və fransalı topçu Filip Kolombun yardımı ilə hazırlanmış 24 ədəd artilleriya qurğusu mövcud idi. Lakin Seyid Abdullah ilə vəzir Məhəmmədqulu xan arasındakı nifaq ordunun effektiv komandanlığını təmin etməyə imkan vermirdi.

Vəzir və Seyid Abdullah ayrı-ayrılıqda öz ordularını irəliyə aparır, bir-biri ilə heç bir məsələdə əlaqələndirmə fəaliyyəti həyata keçirmirdilər. Ordunun bölmələri bir-birindən xəbərsiz iki böyük dəstə kimi hərəkət etməkdə idilər. 7 mart tarixində Səfəvi ordusu təntənəli marşla Golnabad kəndini keçib İsfahan-Yəzd yolu üzərində salınmış əfqan düşərgəsinə yaxınlaşdı. Bu yola çıxmaq üçün Səfəvi ordusu su kanalını keçmək məcburiyyətində idi və manevr icra olunarkən əfqanlarla şahın əsgərləri arasında məhəlli atışma baş verdi. Nəticədə əfqanlar geri çəkilməyə məcbur oldular. Şahın münəccimləri ona xəbər verdilər ki, Səfəvilər 8 mart tarixindən əvvəl döyüşə başlamamalı-

dılar. Hökmdar onların sözü əsasında orduya həmin gün döyüş əməliyyatları aparmamağı tapşırdı. O gün əfqanlar da hücuma cəhd etmədilər. Beləliklə də, hər iki ordu bir-birlərinə bir mil məsafədə sakit bir gecə keçirdilər.

Növbəti gün əfqanlar üç hissəyə ayrılıb, elə də böyük olmayan 3 təpənin üzərində mövqe tutdular. Mahmud isə mərkəzin qüvvələrinə rəhbərliyi öz üzərinə götürmüşdü. Əmənullah xan sağ cinaha, Nəsrullah xan adlı əvvəllər quldurluq fəaliyyəti ilə məşğul olmuş, Sistandan olan zərdüştlük əqidəsinə mənsub şəxs isə sol cinaha komandanlıq edirdi. Səfəvi ordusu isə öz növbəsində qarşı tərəfdə dörd cinaha bölünmüşdü. Əli Mərdan xan lorlardan olan digər rəhbərlə birgə sol tərəfdə, şahın vəziri Məhəmmədqulu xan mərkəzdə, Rüstəm xan onun sağ tərəfində, Seyid Abdullah isə ərəb dəstələri ilə birlikdə sağ cinahda mövqe tutdular. Ağır silahlar vəzirin qarşısında, mərkəzdə yer almışdı.

Əfqanlar hər cəhətdən iranlılara uduzurdular. Onlar sayca daha az idilər, onların Kirmandakı itkiləri (mənbələrdə bu itkinin 11 minə yaxın olduğu qeyd edilir), belə düşünməyə əsas verirdi ki, Seyid Abdullahın rəhbərlik etdiyi ərəb dəstələri asanlıqla əfqanları Şərq istiqamətində sıxışdırmağa müvəffəq olacaq. Növbəti gün əfqanlar yenə də öz mövqelərində möhkəm dayanmışdılar. Onları qorxudan başlıca amil Səfəvi ordusunun çoxluğu və əzəmətli görünüşü idi. Lakin onlar hər yolla üstünlüyü ələ almağa çalışırdılar. Onlar iranlıların çoxluğunun döyüş əməliyyatı zamanı onların əlaqələndirilməsinə əngəl olacağına ümid edirdilər. Öz növbələrində isə əfqanlar say azlığını əlverişli yerləşmə hesabına kompensasiya etməyə çalışırdılar. Əfqanlar Səfəvi komandanlarının taktiki xətalara yol ve-

rəcəyini gözləyir, bundan istifadə edərək güclü zərbə endirməyə ümid edirdilər.

Vaxt keçdikcə aradakı məsafə də tədricən azalırdı. Tərəflər bir-birinə qarşı məsafədən həmlə edir və bunu həyəcanla izləyirdilər. Orduların zahiri görünüşündə də kəskin ziddiyyət nəzərə çarpırdı. Əfqanlar daha sadə və kasıb geyimlərdə idilər. İranlılar isə rəngbərəng, dəbdəbəli paltarlarda döyüşə çıxmışdılar. Lor tayfalarından olan döyüşçülər onları simvolizə edən rəngdə, ərəblər ağ paltarlarda, şah mühafizəçiləri isə dəbdəbəli, parlaq libaslarda vuruşurdular.

Ordusunun bütün cəhətlər üzrə düşmən tərəfi üstələməsinə baxmayaraq, vəzir əfqanlar qədər hücuma can atmırdı. Zaman ötdükcə Rüstəm və Seyid Abdullah xan dərin narahatlıq keçirtməyə başladılar. Nəhayət ki, günorta saat dörddə Rüstəm xan öz adamlarına hücum əmri verdi. Elə ki şahın mühafizə dəstəsi Nəsrullahın adamları ilə toqquşdu, Seyid Abdulla da öz adamları ilə əfqanların sol cinahına hücum etdi. Nəsrullahın adamlarının bir-bir yerə sərildiyini görən Mahmud düşündü ki, artıq uğur ondan üz döndərmişdir və hadisələrin belə davam edəcəyi təqdirdə, qaçıb xilas olması üçün öz adamlarına ən sürətli atının hazırlanmasını əmr etdi. Əgər Səfəvi ordusunun mərkəz qüvvələri təzyiqi davam etdirsəydi, əfqanların məğlubiyyəti qaçılmaz idi.

Lakin vəzir öz hərəkətsizliyi ucbatından yaranmış vəziyyətdən öz lehinə istifadə edə bilmədi. Seyid Abdullah isə öz ordusu ilə həlledici hücuma keçmək əvəzinə, əfqan düşərgəsini talamaqla məşğul olmağa başladı. Əli Mərdan xan solda üstünlüyü ələ keçirəndə, əfqanlar üzərində atıcı silahların yerləşdirildiyi dəvələri döyüşə daxil etmək qərarına gəldilər. Bu növ silahlara zənburək deyilirdi. Lor

tayfalarının üstünlüyü ələ keçirdiyi cinahda güclü atışma baş verdi və ciddi itkilər oldu. Əli Mərdan xan yaralandı, onun qardaşı öldürüldü və əfqanlar zənburəklərin atəşini şiddətləndirərək lorlardan olan əsgərlərin döyüş meydanından qaçmasına nail olurlar. Məhəmmədqulu xan bu cinahdan uzaqda mövqe tutduğu üçün lorlara heç bir kömək edə bilmədi. Əfqanların hücumu isə o qədər ani və çevik oldu ki, Səfəvilərin ixtiyarında olan artilleriya qurğularından yalnız 3 atəş açmağa macal tapıldı.

Səfəvi ordusunun mərkəz hissəsi hələ də manevr həyata keçirə bilmirdi. Mahmud cəsarətini topladı və Rüstəm xanın başçılığı ilə mühasirəyə alınan Nəsrullahın rəhbərlik etdiyi əfqan ordusunun sol cinahına kömək etmək üçün hücuma keçdi. Bu cəsur hücum iranlıları geri çəkilməyə məcbur etdi və üstəlik onların hər tərəfdən mühasirəyə düşməsi təhlükəsini yaratdı. Rüstəm xan da öz növbəsində hücuma cavab verməyə çalışdı, lakin mərkəzin qüvvələri köməyə gəlmədiyindən Rüstəm xanın vəziyyətdən çıxmaq təşəbbüsləri nəticə vermədi. Onun atının ayağı sürüşdü və Rüstəm xan yerə yıxıldı. Əfqanlar onun başının üstünü aldılar və onu öldürdülər. Səfəvi ordusunun tamamilə darmadağın edilməsinə az qalmışdı. Əfqan düşərgələrindəki talanlardan sonra Seyid Abdullah öz ərəb dəstələri ilə daha təhlükəsiz məsafəyə uzaqlaşmaq qərarına gəldilər.

Vəzir Məhəmmədqulu xanın fəaliyyətsizliyi Rüstəm xanın uğursuzluğunun əsas səbəbi idi. Seyid Abdullahın hərəkətləri də məyusluq yaratmışdı. Bu iki şəxs arasındakı nifaq ordu üçün faciəli sonluğa gətirib çıxarmışdı. Vəzir rəqibi Seyid Abdullahın qələbə qazanacağından ehtiyatlanıb ona kömək etmək üçün yerindən belə tərpənmədi. Əfqanlar deyirdilər ki, Səfəvilərin mərkəz qüvvələrinin

saatlarla sürən hərəkətsizliyi olmasaydı, onlar çətin ki, qələbə qazana bilərdilər. Lakin əfqanların döyüşkənliyi də bu vuruşmada öz sözünü dedi. Əmanullah xanın iti zəkası və zənburəklərdən kütləvi istifadəyə əmr verməsi mütərəqqi yenilik kimi döyüşün taleyini həll etmişdi. Zənburəklərin istifadəsindən əlavə o, Səfəvilərə onların ixtiyarındakı artilleriyadan istifadə etməyə də imkan vermədi.

Bu sıradan bir toqquşma və ya əhəmiyyətsiz bir məğlubiyyət deyildi. Baş verənlərin bir adı var idi – şah ordusunun döyüş meydanından qorxaqcasına qaçışı! Qeyri-bərabər döyüşdə sayca üstün olan tərəf biabırçı şəkildə məğlub olmuş və laxlayan monarxiyanın nüfuzuna sarsıdıcı zərbə endirilmişdi. Daha sonra cərəyan edəcək uğursuzluqlar məhz bu məğlubiyyətdən irəli gələcəkdi.

Bu hadisənin araşdırılması fakt və dəlillərin təhlilini tələb edir. Səfəvilərin məğlubiyyətini şərtləndirən başlıca amillər iqtisadi fəallığın azalması, dini ekstremizmin artması, saray çəkişmələri, uzun sürən dinclik və əmin-amanlıq, ordunun zəifləməsi idi. Ordunun vəziyyəti həqiqətən də ayrıca bir söhbətin mövzusu idi. Məlumdur ki, Səfəvi ordusu müasir dövlətlərin orduları kimi müstəqil və strukturlaşmış qurum deyildi. Ordunun maaş alan yeganə hissəsini şahın şəxsi mühafizə dəstəsi təşkil edirdi. Onlara ayrıca maaş ödənilir və onların xüsusi formaları vardı. Onlar üçün hətta dinclik dövrlərində də bütün imtiyazlar saxlanılırdı. Artilleriyaya gəlincə isə, ondan düzgün istifadə etmədikdə ciddi bir üstünlüyün əldə edilməsi mümkün deyildi. Golnabad döyüşü bunun ən bariz örnəyi idi. Səfəvi ordusunun ixtiyarında döyüşdən öncə kifayət qədər böyük sayda odlu silah arsenalı mövcud idi. Lakin səriştəsizlik ucbatından onlar döyüşün gedişatında həlledici rol oynaya bilməmişdilər.

Səfəvi ordusunun böyük hissəsini ayrı-ayrı tayfalardan yığılan döyüşçülər təşkil edirdi. İran ordusunun bu cür formalaşma qaydası Daranın dövründən mövcud idi. Döyüşçülərin böyük bir hissəsi etibarlı tayfa liderlərinə xidmət edən mahir, təcrübəli və hər cür manevr qabiliyyətinə malik süvarilərdən ibarət olurdu. Onlar Qərb süvarilərindən öz mübarizə keyfiyyətinə görə fərqlənirdilər. Lakin unutmaq lazım deyil ki, İran Avropa deyildi və burada əsgərlərin döyüş səriştəsinə təsir edən amillər başqa idi. Səfəvi ordusunun bu dərəcədə zəifləməsi təbii ki, bir sıra səbəblərdən qaynaqlanırdı və qətiyyən təsadüfün nəticəsi deyildi. Ordunun təchizat və ödəniş sisteminin təşkilində yol verilən kompleks xətalar nəzərə alınmalı və təhlil olunmalıdır. Bu məğlubiyyət Səfəvi hakimiyyəti üçün ağır mənəvi zərbə olduğundan ciddi ruh düşkünlüyü yaratmışdı. Bəzi insanlar belə hesab edirdilər ki, əgər əyalət hakimləri vaxtlı-vaxtında daha çox əsgər toplaya bilsəydi, ordunun sayı bundan da çox ola bilərdi. Nəticədə əfqanlar üzərində say üstünlüyü hesabına qələbə qazanmaq mümkün olardı. Döyüşdə uğuru təmin edəcək mühafizəçilər olduqca yaxşı vuruşurdular və çox hazırlıqlı idilər. Vəzirin komandasından başqa heç kəs amansız davranış nümayiş etdirmirdi. Mənbələrdə qeyd olunur ki, qəzəb və sərtlik onun şəxsi təbiətindən irəli gəlirdi.

Ümumilikdə Səfəvi ordusu həmişə mətanətlə vuruşurdu. Lakin fərqli tayfalardan ibarət qoşunun effektiv şəkildə idarə edilməsi üçün ciddi nəzarət mexanizminin olması, düşünülmüş rəhbərliyin tətbiqi tələb olunurdu. Bu cəhət həmin vaxt Səfəvi ordusunda qətiyyən yox idi. Şahın özü bütün işlərdən kənarda qalmışdı və onun yoxluğunda heç kəs baş rolu öz üzərinə götürmək istəyində deyildi. Səfəvi dövlətinin idarəçilik sistemini ayaqda sax-

layan güclü şah üsul-idarəsinin zəifləməsi ucbatından imperiya tamamilə iflasa uğramışdı.

Qazandığı uğura hələ də inana bilməyən Mahmud döyüş meydanında bir qədər yubanmağa, Səfəvi qoşunlarını təqib etməməyə üstünlük verdi. O, adamlarına çox da uzaqlaşmağa icazə vermədi. Mahmud Səfəvilərin onları pusquya salmasından ehtiyatlanırdı. İranlıların ümumi itkiləri beş minə çatırdı, onlar hər şeyi, silahlarını belə döyüş meydanında qoyub qaçmışdılar. İlk qaçanlar İsfahana çatanda şəhər əhalisi arasında çaxnaşma düşdü. Saray əyanları şahın İsfahanda qalaraq əyalətlərdən yeni qüvvə toplamaq üçün hər kəsi səfərbər edəcəyini düşünürdülər. Yalnız şahın şəxsi iştirakı ilə əyalətlərdəki qüvvələri bir araya gətirmək olardı. Üç gündən sonra Mahmud yürüşünü davam etdirdi və İsfahanın cənub-qərb hissəsindəki Fərəhabad saray-kompleksini nəzarət altına aldı. Ermənilərin yaşadıqları məhəllələrin dörddə bir hissəsi də Yeni Culfa adlanan məntəqə ilə birlikdə işğal olundu.

Mahmud dərhal ermənilərin var-dövlətini taladı, cavan qadınlarını isə əsir aldı. Erməni icmalarının başçıları məcburən ailələrini əfqanların qarşısında sıraya düzmüş və əlliyə yaxın qızı əfqan əsirliyinə göndərməyə razılıq vermişdilər. Mahmud onların ən gözəllərini özü üçün seçdi, qalanlarını isə əsgərləri arasında hədiyyə olaraq bölüşdürdü. Qadınların göz yaşları və yalvarışları əfqanlara o dərəcədə təsir etdi ki, onlar kişilik duyğuları və mərhəmət hissi arasında qalır və bir çox hallarda onlara rəhm edirdilər. Qadınların bəzilərinə evlərinə, ailələrinin yanına qayıtmağa icazə verənlər də var idi. Bir neçə gün sonra məlum oldu ki, qadınların çox az hissəsi əfqanların düşərgəsində qalmışdı, çoxlarına isə geri qayıtmaq müyəssər olmuşdu. Erməni rahiblər geri qaytarılan qızları yenidən

xaç suyuna çəkir, onların valideynlərinə bunun qızların əvvəlki təmizliyini geri qaytarmaq üçün vacib olduğunu bildirirdilər. Yalnız xac suyuna çəkildikdən sonra onlar özlərinə halal ər tapa bilərdilər, əks halda ömürlərini əxlaqsız kimi başa vurmalı olacaqdılar.

İsfahanın mühasirəsi 1722-ci ilin mart ayından oktyabr ayına kimi davam etdi. Şəhərdə vəziyyət son dərəcə acınacaqlı idi. Şah iki oğlunu hakimiyyəti bölüşdürmək üçün hərəmdən çıxardı, lakin onun oğulları kobud rəftarları ilə seçildiklərindən ölkənin baş ruhanisi, həmçinin Golnabadda məğlub edilmiş komandirlər şahı oğullarını hərəmə geri qaytarmağa məcbur etdilər. Şaha tövsiyə olundu ki, o vaxt itirmədən yeni ordu toplamağa başlasın. Ancaq o, bunu etmədi. Əfqanlar İsfahanı tamamilə mühasirəyə aldıqda şahın son imkanı da əldən çıxmış oldu. Mühasirənin ilk mərhələsində əhalini şəhərdən çıxarmaq üçün şərait vardı və təxliyə hesabına şəhərdəki ərzaq ehtiyatlarına qənaət etmək mümkün idi. Bu addımların heç biri atılmadı və şəhərə ətraf ərazilərdən gələn qaçqınlar vəziyyəti daha da ağırlaşdırdılar. Şahın fəaliyyətsizliyini görən əyalətdəki başçılar mərkəzi hakimiyyətə xidmət etmək, yaxud öz şəxsi maraqlarını qorumaq lazım olduğu məsələsində tərəddüdə düşdülər. Yeganə güclü potensial müttəfiq qismində gürcü çarı Vaxtanq qalmışdı, lakin o da Səfəvi rejiminin bu dərəcədə zəifliyini və iradəsizliyini görüb təəssüflə kənara çəkildi. Gürcü çarının qərarına təsir edən digər bir amil də var idi. Belə ki, ona Rusiya çarı I Pyotrun Qafqaza yürüş etməyə hazırlaşdığı haqqında dəqiq məlumat çatmışdı. Vaxtanqın nəzərində xristian-rus imperiyası Şimal müharibəsində İsveçə qalib gəldikdən sonra çökməkdə olan Səfəvilər dövlətindən daha cəlbedici görünürdü. Müasirlərinin bir qismi belə

düşünürdü ki, Vaxtanqın kiçik həmləsi İsfahanı xilas edə bilərdi, lakin o, buna qətiyyən səy göstərmədi və əfqanlara qarşı döyüşməkdən yayındı. Xorasanda da ölkənin digər yerlərində olduğu kimi, İsfahanın mühasirəsi hakimiyyətin bağışlanmaz xətası kimi qarşılandı və ölkənin nüfuzlu şəxsləri Səfəvi iqtidarının çökəcəyi zaman taxta kimin oturacağına dair ciddi şəkildə düşünməyə başladılar.

Əbivərddə Şah Sultan Hüseynin təyin etdiyi vali vəzifəsindən kənarlaşmışdı. Nadir kiçik dəstəsi ilə bölgədə nəzarəti tamamilə ələ almışdı. Mahmudun rəhbərlik etdiyi əfqan ordusu İsfahan kimi iri şəhəri mühasirədə saxlamaq üçün say baxımından az idi və onların artilleriyaları da kifayət qədər deyildi. Əfqanların hücumları uğursuzluqla nəticələnirdi. Hər iki tərəfdən ölənlərin sayı çox olsa da, əfqanlar üstünlük qazana bilmirdilər. Əfqanlar əhalini aclıqla ram etmək üçün blokada rejimini uzun müddət qorumaq məcburiyyətində idilər.

Səfəvi komandirləri mühasirəni yarmaq üçün bir neçə uğurlu həmlə həyata keçirsələr də, əfqanları geri çəkilməyə məcbur etmək mümkün olmadı. Bu həmlələrin bir neçəsi ərəb dəstələrinə rəhbərlik edən Seyid Abdullah tərəfindən yerinə yetirilmişdi. Əslində o, özü əfqanlarla gizli əməkdaşlıq qurmuşdu. Lakin hələ də heç nədən şübhələnməyən şah onu ən yaxın adamlarından biri hesab edirdi. Vəziyyət ağırlaşdıqca əhalinin narazılığı da güclənirdi. İnsanlar şah sarayının önünə yığılaraq hökmdarın öz hakimiyyətini qardaşına ötürməsini tələb edirdilər. İsfahanın ətraf kəndlərindən gəlmiş kəndlilər şahın həkiminin və baş mollanın evlərinə hücum çəkərək bütün fəlakətlərin meydana gəlməsində onları günahlandırmışdılar. Loristan və Qəzvindən gələn hökumət qüvvələri may

ayında şəhərdə qalxan qiyamları yatırtmağa çalışsalar da, nəticə əldə olunmamışdı.

Şahın əyanları onun iki böyük oğlunu siyasətdən kənarlaşdırsalar da, üçüncü oğlu – Təhmasibin dövlət işlərinə cəlb olunmasına razılıq verdilər. Təhmasib də atası kimi zəif şəxsiyyət idi və o, ətrafı üçün heç bir təhdid təşkil etmirdi. Nəhayət ki, şah Təhmasibin qoşun toplaması üçün əyalətlərə getməsinə icazə verdi. Təhmasib də 7-8 iyun tarixlərində artıq özünə min nəfərdən ibarət bir qoşun toplaya bilmişdi. Lakin o, əyalət başçıları ilə səylərini birləşdirib birgə vahid ordu yaratmaq yerinə Qəzvinə yola düşdü və burada vaxtını keçirməyə başladı. Onun əyalətlərdəki rəhbərlərə əsgər toplamaq üçün göndərdiyi məktublar isə atasının göndərdiyi məktublardan daha az əhəmiyyət kəsb etdiyi üçün heç kəsə maraqlı deyildi. Artıq İsfahanda aclıq və qıtlıq hakim kəsilmişdi. İyun ayının sonlarında Baxtiyari tayfasından olan 8 minlik ordu şəhərin mühasirəsini yarmağa çalışsa da, ağır döyüşlərdən sonra əfqanlar tərəfindən geri oturduldu.

Avqustun əvvəllərində şah əfqanların danışıqlar haqqındakı təklifini rədd etdi. Həmin ərəfədə paytaxtın varlı adamları at əti yeyir, kasıblar isə it və pişikləri kəsib yemək məcburiyyətində qalmışdılar. İsfahan şəhəri bir vaxtlar ağaclarla dolu idi. İndi onların çox hissəsi kəsilmişdi. Onların budaqları və yarpaqları belə qida kimi satılırdı. Ayaqqabı dərisi belə qaynadılaraq qida kimi istifadə olunurdu. Nəhayət, elə bir vaxt gəlib çatdı ki, artıq küçələrdə cəsədlərə belə rast gəlinməyə başlandı. Ac sakinlər artıq insan əti yeməyə başlamışdı, uşaqlar belə oğurlanaraq yeyilirdi. Zaman keçdikcə pul öz dəyərini tamamilə itirmişdi, küçələrdə dəfn olunmamış meyitlərin sayı isə getdikcə artırdı.

Sentyabrın sonlarına doğru Məlik Mahmud Sistani axır ki, bir neçə minlik ordusu ilə Golnobada çatdı. Əfqanlar bu hücumun İsfahanı xilas etməyə hesablanmış sonuncu cəhd olduğunu anlayıb Nəsrullahı danışıqlar aparmaq üçün göndərdi. Nəsrullah Məlik Mahmuda 7 bəzədilmiş at və xeyli ipək, nəğd pul və cəvahirat dolu 2 dəvə bağışladı. O, Məlik Mahmuda izah etdi ki, İsfahan dağılmaqdadır və şəhərin alınması Şah Sultan Hüseynin də sonu demək olacaqdır. Əfqanlar isə buranın yeni hakiminə çevriləcəklər. Əfqanlarla əməkdaşlıq müqabilində Məlik Mahmuda Xorasanın yeni başçısı olmaq istiqamətində kömək ediləcəyi vəd olundu. Məlik Mahmud heç vaxt ürəkdən İshafanın vəziyyətini yüngülləşdirmək niyyətində olmamışdı desək, yanılmarıq. O, Nəsrullahın onu inandırmasına icazə verdi və şimal-şərqə döndü. Bütün adamlarını başına yığan Məlik Mahmud Xorasanın paytaxtı Məşhədə istiqamət götürdü. İsfahanın xilası üçün yaranmış son imkanın da əldən çıxması kütləvi qiyamlara gətirib-çıxardı. Minlərlə adam aclıqdan qırıldı, şəhəri müdafiə edən qarnizon o qədər zəif idi ki, əfqanlar bura istədikləri vaxt rahatlıqla həmlə edə bilirdilər. Lakin Mahmud dağıdıcı hücumlara imkan vermirdi. Çünki şəhərin və oradakı zəngin sarayların sərvətini özü üçün qoruyub saxlamaqda maraqlı idi.

1722-ci ilin oktyabrında Şah Sultan Hüseyn axır ki, Mahmuda təslim olduğuna dair xəbər göndərdi, lakin əfqanlar nədənsə danışıqları uzadırdılar. Nəhayət, oktyabrda şah əfqanların göndərdiyi atın belində onlara təslim olmağa yollandı. İnsanlar bu mənzərəni sakitcə seyr edirdilər. Şah Fərəhabada, əvvəlki cənnətinə çatanda ona bildirdilər ki, Mahmud yatıb və onun oyanmasını gözləmək lazımdır. Uzun sürən alçaldıcı intizardan sonra şahı Mah-

mudun hüzuruna apardılar və onlar bir-birlərini salamladılar. Mahmud qızılı yastığına sərilmişdi. Şah dedi: "Oğlum, Uca Allah daha mənim hakimiyyətdə qalmağımı istəmir və artıq sənin üçün taxta çıxma zamanı gəlib. Mən öz taxtımı bütün qəlbimlə sənə dövr edirəm və mən sənə uğurlu idarəçilik arzulayıram". Şahı hakimiyyət rəmzi olan libasını çıxardıb, Mahmuda aparmağa məcbur etdilər. Devrilmiş şahla yeni şah birlikdə çay, qəhvə içdilər və Mahmud maraqla devrilən şahı müşahidə etməyə başladı. Beləliklə də, İranda Səfəvilərin iki əsrdən çox davam etmiş hakimiyyətinə nöqtə qoyulmuşdu. Az sonra Əmənullah xan 3 min əfqan döyüşçüsünü şəhərə gətirdi. Sarayın qapıları dəyişdirildi və iranlı mühafizəçilər əfqanlarla əvəz olundu. Mahmudun təntənəli girişi üçün küçələrdəki meyitlər təmizləndi. Hesablamalara görə 8 ay ərzində İsfahanda 80 minə yaxın adam aclıqdan və xəstəlikdən dünyasını dəyişmişdi. 1710-cu ilə aid yazışmalarında hollandlar İsfahan əhalisinin sayının 550 min nəfərə yaxın olduğunu qeyd etmişdilər. Mühasirə dövründə bu rəqəm yüz minə enmişdi. Əksəriyyət şəhərdən qaçmışdı. Böyük, əzəmətli şəhər artıq heç vaxt əvvəlki günlərinə qayıtmayacaqdı.

# II FƏSİL

# TƏHMASİBQULU XAN

*Təbiət kişilərin qanında özündən elə bir iz qoyub ki, imkanları yetdiyi təqdirdə onların hər biri rahatlıqla yırtıcıya çevrilir.*

***Daniel Defo***

Əbivərddən cənubda yerləşən (o şəhərlə Məşhəd arasındakı ərazi düzənlik xəttindən yuxarı qalxmışdı və 18-ci əsrdə həmin dik yarğanlar Atak adı ilə tanınırdı) iyirmi mil ərazi yarğanlardan ibarət idi. Bu yarğanlar Nadirdən qabaq qala mənasını verən Kəlat adı ilə tanınırdı, Nadirdən sonra isə Nadiri-Kəlat kimi məşhurlaşdı. Bu ərazi təbii quruluşu etibarı ilə müdafiə istehkamını xatırladırdı və geniş bir sahəni əhatə edirdi. Nadir təqribən 1720-ci ildə bu yerlərdən bir müddət istehkam kimi istifadə etmişdi. Kəlat Əmir Teymurun da istifadə etdiyi qalalardan biri idi. O, buranı 1382-ci ildə uzun sürən mühasirədən sonra ələ keçirmişdi. Kəlatın Əmir Teymurla bağlılığı bəlkə də, Teymurla Nadir arasındakı ilk paralellərdən birinə çevriləcəkdi.

Bir rəvayətdə deyilir ki, Nadir Kəlatda Teymurun imzası ilə zəngin bir xəzinə tapmışdı. Yazı Teymurdan Nadirə birbaşa nəsihət idi – bu yerə gəlib-çıxan şəxs dövrünün nadiri və hökmranı olacaqdır. Bu sözlərdən başqa, Əmir Teymur həmin şəxsə ordusunun sayına və gücünə arxayın olmamağı tövsiyə edirdi. Çünki, Teymurun özü Kəlatı yal-

nız uzun sürən mühasirədən sonra ala bilmişdi: "Sizin ordunuz qələbə qazanarkən fərəhlənməyin, Allaha şükür edin".

Sözügedən rəvayət bizə onu yazan adamın fikirlərindən daha çox, Nadirin düşüncələri haqqında təsəvvür yaratmağa imkan verir. Lakin o da mümkündür ki, Nadir belə bir rəvayəti Teymur kimi şəxsiyyətlə bağlılığı göstərmək üçün uydurmuş olsun. 1722-ci ilin noyabr ayında əfqanların İsfahan şəhərini istila etməsi xəbəri Məşhədə çatanda, insanlar üsyana qalxdılar. Xorasan əyalətində və ümumilikdə İranda anarxiya baş alıb gedirdi. Yerli hakimlər, eləcə də hərbi komandanlar artıq özlərini müstəqil hökmdarlar kimi aparırdılar. Nadir hələ də Əbivərdı əlində saxlayırdı və ziddiyyətlərə baş qoşmaqdan çəkinirdi. O, hələ Xorasanın şimalında tam üstünlüyə malik deyildi və burada bir vaxtlar qarışqa olanlar indi ilana çevrilmiş, tülkülər isə aslan olmuşdu. Hakimiyyətə can atan çox sayda tayfa başçıları, ordu komandanları var idi. Onlardan bəziləri Nadirə qoşulmuşdular, digərləri isə yeni imkanlar axtarışında vurnuxurdular.

İsfahanın mühasirəsindən sonra əfqanlarla razılığa gələn Məlik Mahmud Sistani öz ordusu ilə Məşhədə çatan kimi qiyamçılara qarşı tədbir görməyə başladı. Müstəqil iqtidara can atan qiyamçıların liderini cəzalandırdı. Məşhəddə yerləşən Məlik Mahmud Sistani Xorasanda Nadirin əsas rəqiblərindən birinə çevrilmişdi.

Nadirin Kəlatı öz istinadgahına çevirməsi ona yerli feodallarla müqayisədə müəyyən taktiki üstünlüklər yaradırdı. Hətta Məlik Mahmud Sistani bir neçə minlik orduya malik olsa da, Məşhəd üzərində nəzarəti təmin etsə də, onun əyalətdə yeganə söz sahibi olması qeyri-mümkün idi. Vaxtilə Nadirin Əbivərddəki üstünlüyü ilə barışan yerli

başçılar Məlik Mahmudun Məşhəddə möhkəmlənməsindən istifadə edib Nadirə tabe olmamağa başladılar. Onlar Əbivərdın azad edilməsi üçün Məlik Mahmudla əlaqələr yaradır, onunla yaxınlaşmağa çalışırdılar.

Məlik Mahmudla Nadir bir-birlərinə layiq, siyasətdə bir-birlərinə bərabər və bir-birlərindən ehtiyat edən iki güclü rəqib idilər. Onların hər ikisi də öz yerlərini möhkəmləndirməyə can atır, birbaşa toqquşmadan hər vachlə yayınırdılar. Yerli feodalların Nadirin başı üstündən Məlik Mahmuda müraciət etmələri onun Xorasanın şimalındakı nüfuzunu gücləndirmişdi. Lakin Nadirin üzərinə qoşun göndərmək yerinə Malik Mahmud buraya öz etibarlı adamlarını yollamağı üstün tutdu. O vaxta qədər Nadir (Həsən Əli xanın ölümündən sonra) buranın faktiki sahibi idi. Təyin olunan yeni başçının vəzifəsi çoxunun düşündüyü kimi Nadiri təhqir etmək və ya onun nüfuzuna kölgə salmaq deyildi. Nadir yeni təyin olunan başçının müavini vəzifəsini yerinə yetirəcək və əvvəlkindən də geniş səlahiyyətlərə malik olacaqdı. Xüsusilə hüquqi məsələlərdə ona geniş səlahiyyətlər verilmişdi. Nadir öz narazılığını ustalıqla gizlədib, təyinatı qəbul etdi. Yerli feodallar isə təəssüf və təəccüb hissi ilə baş verənləri müşahidə etməklə kifayətləndilər.

Artıq Məlik Mahmudun birbaşa tabeliyində çalışan Nadir öz səlahiyyətlərini daha da genişləndirmək üçün çalışırdı, ancaq bununla yanaşı, artıq Nadirin düşmənləri Məlik Mahmudun da düşmənlərinə çevrilmişdi. Bu səbəbdən yerli feodallar ya Nadirlə dil tapmalı olur, əks halda isə sadəcə öldürülürdülər. Tabe olmaq istəməyənlər qalalara sığınır, gizlənməyə çalışırdılar. Lakin Nadir onları mühasirəyə alaraq, məhv edirdi. Belə toqquşmalar ona ciddi tələfatlar hesabına başa gəlsə də, Nadir qətiyyətlə

mübarizəsini davam etdirirdi. Nadir onun hökmünü qəbul edənləri isə öz himayəsinə götürür, onlar sədaqətlərini sübut etdikdən sonra orduya cəlb olunurdular. Təslim olmayıb müqavimət göstərənləri isə ağır cəzalar gözləyirdi. Allahverdi adlı bir feodal uzun müddət döyüşdükdən sonra nəhayət ki, təslim olmuş və Nadirin düşərgəsinə gətirilmişdi. Onunla bərabər iki adam da əsir alınmışdı. Allahverdi düşərgədə olarkən riskə gedərək əvəzini həyatı ilə ödədiyi səhvə yol verdi. Gecə ikən o, Nadirin gözətçilərindən yayınaraq fürsət tapıb Nadiri öldürməyə cəhd etdi. Sui-qəsd baş tutmadı və Nadir onun başının kəsilməsinə göstəriş verdi. Allahverdi kimi feodallar ram edildikcə, Nadir onların silahlı dəstlərini də öz ordusuna qatırdı. Könüllü tabe olanlarla yaxşı rəftar edilməsi, tabe olmayanların isə qəddarlıqla ram olunması taktikası həmin dövrdə uğurlu nəticələr verirdi. Nadir bu taktikaya ömrü boyu sadiq qalacaqdı.

Bəzən Nadirin qəddarlığı həqiqətən də sərhədləri aşır, zülm halını alırdı. Lakin məsələyə birtərəfli yox, tam şəkildə yanaşdıqda onun bu qəzəbinin əsassız olmadığını başa düşürük. Nadir lüzumsuz yerə qəddarlıq etmirdi, əksər hallarda o, düşmənlərini məhv etməkdənsə, öz tərəfinə çəkməyi üstün tuturdu.

Onun nüfuzu güclənirdi, artan şöhrəti onun tərəfdarlarının sayının çoxalmasına da səbəb olurdu. Bütün bunlar isə Nadirin gələcək uğurları üçün münbit zəmin hazırlayırdı. Nadirin ordusuna qoşulanlar arasında Təhmasib xan Cəlairin başçılıq etdiyi böyük Cəlairlər tayfası da var idi. Təhmasib xan zamanla Nadirin tam etibarını qazanmış, onun dostuna və böyük etimad göstərdiyi silahdaşına çevrilmişdi. İllər sonra Nadirlə Təhmasib xanın müasirləri onların fərqli cəhətlərini təsvir etməyi də unutma-

mışdılar. Nadir hündür, yaraşıqlı və ifadəli üz cizgilərinə sahib idi. Təhmasib isə boyca balaca, xoşagəlməz görkəmi ilə seçilirdi. Görünüşündəki eybəcərliyə baxmayaraq, Təhmasib xanın peşəkarlığına söz ola bilməzdi. O, ağıllı və digərləri üzərində üstünlük qazanmağı bacaran şəxsiyyət kimi tanınırdı. Nadir Təhmasib xana etimadını göstərmək üçün Kəlatın idarəçiliyini və mühafizəsini ona tapşırmışdı. Həmin vaxt Nadirin tabeliyində 1200 nəfərə yaxın yaxşı silahlanmış hərbi qüvvə cəmləşmişdi.

1724-cü ildə artıq Nadir Məlik Mahmuda qarşı çıxmaq üçün kifayət qədər gücü olduğunu hiss edirdi. Onların arasında yaranan ilk gərginliyin səbəbi Məlik Mahmudun özünü şah, hakimi-mütləq kimi aparmağa cəhd göstərməsi idi. O özünü bütün İranın şahı elan etmək istəyir və özünü ölkənin hakimi kimi tanıtdırmağa cəhd göstərirdi. Nadir belə vəziyyətlə əsla barışa bilməzdi. Çünki Məlik Mahmud şah kimi tanınsaydı, Nadirin taleyi tamamilə onun iradəsindən asılı vəziyyətə düşəcəkdi. Nadir Məlik Mahmudun Əbivərdə təyin etdiyi başçıya hücum etməklə, öz real gücünü nümayiş etdirmək qərarına gəldi.

Rəvayətə görə hadisələr belə cərəyan etmişdi. Nadir, Məlik Mahmud və onun başçı təyin etdiyi şəxs Məşhəddən kənarda ova çıxmışdılar. Axşama doğru Məlik Mahmud şəhərə geri dönəndə, Nadir başçını söhbətə tutur. Qaranlıq düşəndə onlar geri dönməyə hazırlaşırlar. Nadir birinci ata minir, başçı da ayağını yəhərə qoymağa hazırlaşanda, Nadir qəflətən qılıncı ilə zərbə endirərək onun başını boynundan ayırır. Bu, həm də Nadirin adamları üçün başçının dəstəsinə hücum etmək üçün işarə idi. İstisna deyil ki, Nadir istədiyi vəzifəni ələ keçirmək üçün çox sayda cinayətə və satqınlığa da əl atmışdı, ancaq bunların böyük əksəriyyəti tarixçilər tərəfindən qeydə alınma-

mışdı. Müvəffəqiyyətə nail olmaq üçün o, hər cür zülmkarlığa əl ata bilərdi, onun bu hərəkətləri son nəticədə mənsub olduğu Əfşarlarla kürdlər arasında dərin düşmənçilik toxumları da səpmişdi.

Əbivərdin müdafiəsini təşkil edən Nadir öz əsas qüvvəsini götürüb Məşhədə yollandı. İrəliləyərkən o, Məlik Mahmudun qüvvələri ilə rastlaşdı və onları şəhərdən kənara sıxışdırmağa müvəffəq oldu. Məlik Mahmud şahlıq libasını geyinib öz adına pullar kəsdirəndə Nadir Məşhədə getmədi, lakin bir çoxları hörmət əlaməti olaraq bu addımı atmışdılar. Məşhədə gedənlər arasında Nadirin yaxın qonşuları Çameşqəzak kürdləri də vardı. Nadir öz növbəsində artıq güclü, yaxşı təchiz edilmiş orduya, artilleriya və zənburəklərə malik nüfuzlu feodala çevrilmişdi. Nadirin əsas rəqibləri Çameşqəzak kürdləri idi. İstər öz tayfasından olsun, istərsə də kənardan Nadir həmişə bir sıra Əfşar feodallarının davranışlarından narahatlıq keçirirdi. Mərvlilər köçəri tayfalardan hücumlar zamanı Nadiri köməyə çağırır, onu hər vəchlə müxtəlif Türkmən tayfaları arasında gedən ara müharibələrinə qatmaq istəyirdilər. İştirak edib-etməməsinə baxmayaraq, hər belə müraciət onun şöhrətini daha da artırırdı. Həmin dövrdə keçmiş Səfəvi şahı Şah Sultan Hüseynin oğlu II Təhmasibin də ətrafında müəyyən güc mərkəzi formalaşmağa başlamışdı. 1725-1726-cı illərdə Təhmasibin ordusu İranda cərəyan edən böyük siyasi oyunlara təsir edə bilmək üçün hələ çox kiçik idi.

Təhmasib atasının devrilməsindən və İsfahanın süqutundan sonra özünü yeni şah elan etmişdi. Lakin onu dəstəkləyənlərin sayı o qədər az idi ki, 1722-ci ilin dekabrında əfqanlar onu rahatlıqla Qəzvindən də qovmağa müvəffəq oldular. Buradan o, Azərbaycana getdi ki, bəlkə Osmanlı

qoşunlarının köməyi ilə yenidən taxtını geri qaytara bilsin. Nəticə əldə edə bilməyən Təhmasib oradan Xəzər dənizinin cənubunda yerləşən və döyüşkən Qacar tayfaları tərəfindən idarə olunan Mazandarana və Astarabada qaçdı. Nəhayət, orada Qacarlar ona kömək göstərməyə razılıq verdilər. Bu zamana kimi isə Səfəvilərin şimal və qərb torpaqları ruslar və osmanlılar tərəfindən işğal olunmuşdu.

Əfqanların İsfahanı işğalı ərəfəsində həm türklər, həm də ruslar Şah Sultan Hüseynin yanına elçilər göndərərək, Şah Sultan Hüseyn haqqında, həmçinin onun saray həyatı, dövlət işləri, əyanları haqqında zəruri məlumatlar toplamışdılar. Hər iki tərəf belə bir nəticəyə gəldi ki, şahın özü dövlət işlərində zəif idi və səriştəsiz məsləhətçilərlə əhatə olunmuşdu. Onlar başa düşdülər ki, Səfəvi monarxiyası ciddi böhran içindədir və sarayda vəziyyəti düzəldə biləcək heç kim yoxdur. Yaranmış vəziyyəti həm ruslar, həm də türklər özləri üçün əlverişli bir fürsət kimi nəzərdən keçirirdilər. Hər iki dövlət əfqanların İrana hücum edəcəkləri təqdirdə bu ərazilərin itiriləcəyindən narahatlıq keçirirdi. Ruslar İsveçlə müharibədən qalib ayrılmışdılar. Osmanlılar da təzəcə müharibəni yekunlaşdırmışdılar. 1718-ci ildə Passarovits müqaviləsinə əsasən osmanlılar Belqradı və digər Balkan torpaqlarını itirmişdilər. Böyük Osmanlı vəziri Damad İbrahim paşa və Sultan III Əhməd dağıdıcı müharibələri dayandırıb, maliyyə sistemini, ədəbiyyat və elmi, tikinti layihələrini səhmana salmaq istəyirdilər.

Sultan hətta ecazkar bağlar salınmasına, onların ərazisində Hollandiyada olduğu kimi müxtəlif güllərin, xüsusilə də lalələrin əkilməsinə qərar verdi. Sonralar onun dövrü Lalə dövrü adı ilə yaddaşlarda qaldı. Lakin Səfəvilər dövlətinin süqutunu başa düşdükdə, Osmanlılar Şərqdə asanlıqla yeni ərazilər tuta biləcəklərini düşünərək, hə-

rəkətə keçdilər. 1639-cu il razılaşmasına əsasən Səfəvi-Osmanlı sərhəddində atəşkəs və dinclik bərqərar olmuşdu, lakin əvvəllər bu ərazilər tez-tez osmanlıların nəzarəti altına keçirdi. Burada şiə məzhəbinin yayılması və təbliği İranın qərbində yaşayan sünni əhalinin tez-tez Osmanlılara müraciət etməsinə səbəb olurdu. Nəticədə Səfəvilərlə Osmanlılar arasında gərginlik yaranır, ədavət alovlanırdı. Osmanlılar Şirvanın ləzgi və sünni əhalisi tərəfindən köməyə çağırıldıqda, xristian gürcü knyazları da ruslarla əlaqə yaradıb, onları hadisələrə müdaxilə etməyə həvəsləndirmişdilər. Ruslar Şamaxıda rus tacirlərinin artan problemlərini bəhanə gətirib asanlıqla hadisələrə müdaxilə edə bilərdilər. Pyotr Gilandakı ipək ticarətinə göz dikmişdi və ümumilikdə, Xəzəryanı əraziləri ələ keçirmək üçün planlar fikirləşirdi. 1722-ci ildə Pyotr öz şöhrətinin zirvəsində idi. İsveçi Böyük Şimal müharibəsində məğlub edən Rusiya artıq şimali və şərqi Avropada ciddi rəqibə çevrilmişdi və bütün gücü ilə rəmzi olaraq Avropaya istiqamətlənmiş Sankt-Peterburqu genişləndirməyə çalışırdı. Aparılmış ardıcıl islahatlar Rusiyanı müasirləşdirmiş və avropalaşdırmışdı. Lakin bütün bu nailiyyətlər yalnız qəddar idarəçilik üsulları hesabına qazanılırdı. Qərbdə isə bu metodlar artıq çoxdan köhnəlmişdi.

Sankt-Peterburqun tikintisində çoxlu insan tələf olmuşdu. Pyotrun öz oğlu da atasına xəyanətdə şübhəli bilinib işgəncə ilə öldürülmüşdü. Nadirlə Pyotr heç vaxt qarşılaşmamışdılar, lakin Nadirin müasirləri arasında öz zəkası, qəddarlığı baxımından ona bərabər tutula bilən yeganə adam Pyotr idi. Həştərxandan Dərbəndə qədər yürüşə çıxmış hərbi dəniz və quru qüvvələrinə Pyotr şəxsən rəhbərlik edirdi. Onun qarşısına elə ciddi bir maneə çıxmadı, lakin xəstəlik və isti onun əsgərləri arasında bö-

yük itkilərə səbəb olmuşdu. Həştərxandan gəlmiş təchizat gəmiləri də burulğana düşmüşdü. Həmin il havalar da qışın soyuq keçəcəyindən xəbər verirdi. Pyotr Dağıstan boyu sahilyanı əraziləri öz nəzarəti altına aldı və ordusunun bir hissəsini burada qoyub yoluna davam etdi.

İran yerli feodalları isə Səfəvi dövlətinin zəifləməsindən istifadə edib şəxsi mənafelərinin qorunması üçün çalışırdılar. Gürcülər Səfəvilərin əsas köməkçiləri idi, belə ki, onlar böhran anında onları canlı qüvvə il təchiz edirdilər. Lakin gürcü knyazı Vaxtanq 1722-ci ilin payızında ruslara Gürcüstana daxil olmaları üçün çağırış etdi. Ruslar gəlmədikcə Vaxtanqla digər gürcü şahzadələri arasında münaqişələr böyüyürdü. 1723-cü ilin yayında isə Ərzurumun başçısı İbrahim paşa bura müdaxilə etdi. Gürcüstanın yüksək vəzifəli məmurları Ərzurumlu İbrahim Paşanın razılığını qazanmaq üçün bir-birləri ilə yarışırdılar, lakin o, bütün hakimiyyəti öz əlində cəmləşdirməyə üstünlük verirdi. Beləliklə də, bəzi gürcü knyazları Osmanlı qüvvələrinə qarşı müqavimət göstərə bilmək üçün dağlara və meşələrə çəkilməyə qərar verdilər. Vaxtanq və onun oğlu isə həyatlarını Rusiyada, sürgündə başa vurdular. Səfəvi qarnizonlarının İrəvan və Təbrizin müdafiəsində göstərdikləri rəşadətə baxmayaraq, 1725-ci ilin sonuna doğru Osmanlı ordusu indiki Gürcüstan və Ermənistan ərazisini, Şirvanı və Azərbaycanı işğal etməyə müvəffəq oldu. Cənubda isə Osmanlılar Bağdad paşasının başçılığı ilə Kirmanşahı, Həmədanı və digər ətraf ərazilərə hakim oldular. Osmanlı sultanı artıq Səfəvi torpaqlarının qərb hissəsinə bütünlüklə nəzarət edirdi. Rusların və türklərin torpaq iddiaları iki ölkə arasında gərginliyin artmasına səbəb olmuş və real müharibə təhlükəsi meydana gəlmişdi. Lakin heç bir tərəf müharibə məsələsində

qəti qərara gəlməmişdi. Ruslar gürcü və erməni xristianlarının mənafelərini qorumaq məsələsində mənəvi məsuliyyət daşıdıqlarını bəyan edirdilər. Osmanlının baş vəziri və rusların İstanbuldakı səfiri arasında uzun danışıqlardan sonra fransız vasitəçilərin iştirakı ilə 1724-cü ildə İranın bölüşdürülməsi haqqında razılıq əldə olundu.

Osmanlı-Rusiya sazişinə görə, hər iki ölkə hərbi yolla tutduqları Səfəvi torpaqlarının onlara mənsubluğunu qarşılıqlı şəkildə tanımaq öhdəliyini götürürdülər. Ruslar Bakını tutduqdan sonra Təhmasibin göndərdiyi nümayəndələr də Pyotrla eyni məzmunlu razılıq imzaladılar. Sazişə əsasən ruslar Dərbəndi, Gilanı, Mazandaranı və Astarabadı ələ keçirdilər və rusların tətbiq etdiyi siyasətə əsasən burda yerli əyalət xanlarının daxili idarəçilik səlahiyyətlərinə də toxunulmurdu. Osmanlı-rus sazişinə əsasən Təhmasib bu bölgü ilə razılaşdığı halda Səfəvi dövlətinin qalan hissəsində hökmdar kimi fəaliyyətini davam etdirə bilərdi. Sazişdə həmçinin sərhəd xətlərinin Dağıstan-Şirvan arasından keçəcəyi və rusların sahilyanı əraziləri idarə edəcəkləri müddəası öz əksini tapmışdı. Lakin böyük Pyotrun 1725-ci ilin fevralında vəfatından sonra rusların bu bölgəyə marağı azaldı. Bununla belə onlar ordularının bir qismini Xəzərin qərb sahillərində saxlamağa davam edirdilər.

Bütün baş verənlərin fonunda İsfahanda taxta çıxmış yeni şah mümkün olan hər vasitə ilə öz hakimiyyətini gücləndirməyə çalışırdı. O, devrilmiş şah Hüseyni və onun böyük ailəsini sarayda dustaq etmişdi. Şahın qanuni həyat yoldaşlarını çıxmaq şərti ilə hərəmdəki digər qadınların hamısını öz yaxın əyanlarına hədiyyə vermişdi. Mahmudun özü isə devrilmiş Səfəvi şahının qızlarından biri ilə nikah bağlamışdı. O, öz hakimiyyətinə münasibətdə əda-

lətli qərarlar vasitəsilə rəğbət yaratmağa çalışırdı. Əvvəlcə onun əmri ilə aclıqdan əziyyət çəkən şəhərə qida gətirilmiş, daha sonra isə Şah Sultan Hüseynə xəyanət edərək onu pis vəziyyətdə qoyub-qaçan saray əyanlarının hamısı dar ağacından asılmışdı. Mahmudun fikrincə, bir dəfə öz ağasına xəyanət etmiş kəs, fürsət düşdükdə yenidən öz əməlini təkrarlaya bilər. Xainlərdən yalnız Seyid Abdulla ölüm cəzasından qurtula bildi. Onun əmlakı müsadirə edilmiş, özü isə zindana salınmışdı. Mahmud Səfəvi sarayındakı məmurların heç birinə inanmır, əfqanlara onları diqqətlə izləməyi, bir an belə gözdən qoymamağı tapşırırdı.

Mahmud mülayim xarakteri ilə yanaşı, öz qəddar üzünü də göstərməyi unutmurdu. O, İsfahanda yaşayan və vaxtilə Culfadan köçürülmüş ermənilərin boynuna böyük miqdarda xərac qoymuşdu. Öz istədiyini almadıqda, Mahmud qarət və talanlara əl atmaqdan da çəkinmirdi. Təhmasib 1722-ci ilin noyabrında, yəni özünü şah elan etdikdən sonra Mahmud Əmənullah xanı qoşunla Qəzvinə göndərmişdi. Şəhər təslim oldu, lakin yerli sakinlər əfqanların soyğunçu rəftarından qəzəblənib 1723-cü ilin yanvarında üsyan qaldırdılar. Qiyam uğurlu oldu və əfqanların çoxu öldürüldü. Qalanlar isə çıxış yolu tapıb, vuruşa-vuruşa İsfahana qaçdılar. Mahmud Qəzvində məğlub olub geri qayıdan əfqanları görüb isfahanlıların da həvəsə düşüb qiyam edəcəklərindən narahat oldu. O, 1723-cü ilin 24 yanvarında Səfəvi nazirlərini və zadəganlarını görüşə çağıraraq, onlara hədiyyələr veriləcəyini bildirdi və mərasimə gözəl geyimlərdə gəlmələrini istədi. Əyanlar saraya gəldikdə, onları bir-bir Mahmudun qəbuluna salır, üzərlərindəki qızıl əşyalarını çıxarıb, sonra da başlarını kəsirdilər. Keçmiş baş vəzirdən savayı hamı bu aqibəti yaşadı.

Onun öldürülməməsini Mahmuddan əfqan döyüşçüləri xahiş etmişdilər. Törətdiyi qətliamla kifayətlənməyən Mahmud əyanların övladlarını da öldürtdürür. Ümumilikdə 3 minə yaxın adamın qətlə yetirildiyi xəbər verilir.

1723-1724-cü illər ərzində Mahmud uğurla öz iqtidarını gücləndirməyə müvəffəq olmuşdu. Ardıcıllıqla Xorasan, Qolpayeqan və nəhayət, Şiraz ələ keçirilir. Lakin Səfəvi əyalətlərinin böyük hissəsi onun hökmündən kənarda idi. Müharibələri və istilaları davam etdirmək üçün Mahmudun çoxlu əsgərə ehtiyacı var idi. Onun öz adamları arasında da ixtilaflar yox deyildi. Əmənullah xan və Mahmudun qardaşı oğlu Əşrəf xüsusi fəallıqları ilə digərlərindən seçilirdilər. Əfqanlar arasında ziddiyyətlər İsfahanın cənubunda Zaqros dağlarının Kuhqelu tayfalarına qarşı uğursuz yürüşdən sonra daha da dərinləşmişdi. Növbəti məğlubiyyət isə Yəzd şəhərinə edilən uğursuz yürüş zamanı baş verdi. Əfqanlar Qəndəhara doğru geri çəkilməli olmuşdular.

Silsilə uğursuzluqlar Mahmudun əsəblərini əvvəlkindən daha çox gərmişdi. O, şübhəli və hirsli bir insana çevrilmişdi. Əfqanların buradakı hakimiyyətinin gələcəyi ona qaranlıq görünməyə başlamışdı. Onlar Qəndəhardakı ana yurdlarından xeyli uzaqda idilər və olduqları yerdə hər tərəf təhdid və qorxu saçırdı. Bəzi əfqan döyüşçüləri hadisələrin gedişatından ümidsizliyə qapılıb hətta evlərinə geri dönməyə başlamışdılar. Əsgərlərin geri qayıtmasının qarşısını almaq üçün Mahmud onların ailələrini İsfahana gətirdərək şəhərdə yerləşdirmişdi. Döyüşçülər ruhdan düşmüşdülər. Mahmud artıq heç kimə, hətta ən yaxın adamlarına belə güvənmirdi. Xüsusilə Mahmud öz qardaşı oğlu ilə düşmənçilik aparırdı. Əşrəfin ordudakı şöhrəti və nüfuzu onu çox narahat edirdi. Mahmud belə dü-

şünürdü ki, onun uğursuzluqları ilahi işarədir. O, din tərəfindən bəyənilən bir ayin icra etmək niyyətinə düşmüşdü. Mahmud hindlilərdən gələn və əfqanlar tərəfindən geniş istifadə olunan tapasya adlanan ayinə müraciət edərək 40 gün müddətində tənhalığa çəkildi. Mahmud yeraltı sərdabada, işıqsız bir məkanda azacıq su və çörəklə qidalanaraq səssizliyə qapanmışdı. Bir müddət sonra o narahat bir ruhu xatırladırdı. Bəlkə də, bu üsul yüksək şüur sahibləri üçün ruhi qidalanma mənbəyidir, lakin bu həmişə fəal həyat tərzi keçirmiş Mahmudu sərsəmə çevirmişdi.

1725-ci ildə Mahmuda keçmiş şahın oğullarından birinin qaçıb xilas olduğu xəbərini verdilər. Alınan xəbər onun ruhi vəziyyətini daha da mürəkkəbləşdirdi və o, sağ qalmış bütün Səfəvi şahzadələrinin öldürülməsinə əmr verdi. Yalnız Şah Sultan Hüseyni sağ buraxdılar. Zavallı şahzadələr, Hüseynin – qardaşları və əmiləri, eləcə də onun müxtəlif qadınlardan olan oğulları sarayın həyətinə gətirilir, əlləri arxadan bağlanır, sonra da Mahmudun iki köməkçisi bir-bir onların başını vururdu. Ərşə qalxan bağırtı və yalvarışları eşidən Sultan Hüseyn həyətə qaçır və övladlarnı ölmüş halda və ya can verərkən görür. Onun iki kiçik oğlu qatillərin əlindən çıxıb ona doğru qaçırlar. Mahmud onların üzərinə atılır. Hüseyn təlaşla uşaqlarını qorumağa çalışır. Mahmud onun bu iki kiçik oğlunun yaşamasına icazə verir, beləliklə, onlar son anda xilas olurlar. Keçmiş şahın 100 yaxın ailə üzvü bu qətliamda öldürülmüşdü. Bu Sultan Hüseynə qarşı həyata keçirilmiş ilk qəddar cəza idi, lakin dəhşətli əzabları bununla sona çatmayacaqdı.

Mahmuda gəlincə, o törətdiyi qırğının sonuncu qurbanına çevriləcəyindən yəqin ki, xəbərsiz idi. Onun həyatı 1717-ci ildən öz doğma əmisini qətlə yetirdiyi an-

dan etibarən qətl və qırğınlarla müşayiət edilirdi. Onun amansızlığının həddi yox idi. Mahmudu müalicə etmək üçün, ona hər cür tibbi vasitə tətbiq olunsa da nəticə əldə edilmirdi. Hətta erməni keşişləri "müqəddəs" bir əlyazmanı (Qospelin – qırmızı əlyazma) ağlını itirmiş şahın başına fırlatmağı təklif etmişdilər. Mühafizəkar xristianların nəzərində bu əlyazma müqəddəs hesab olunur, onun təsirinə isə hər kəs inamla yanaşırdı. Bunun dəliliyə qarşı ən yaxşı vasitə olduğu xüsusilə vurğulanırdı. Ağlını itirmiş hökmdar Mahmud buna inanmış, kifayət qədər uzun vaxt ötdükdən sonra nisbətən yaxşılaşmış, hətta minnətdarlıq kimi erməni keşişlərinə iki min tümən də göndərmişdi. Lakin çox keçmir ki, o yenə də əvvəlki halına qayıdır. Hökmdarın psixoloji problemləri zamanla daha dəhşətli formaya keçmişdi. Eyni zamanda Mahmud iflic olur və üstəlik cüzam xəstəliyinə də tutulur. Onun bədəninin yarısı çürüməyə başlayır, bağırsaqlarında problemlər özünü göstərir. Hökmdar dəhşətli ağrılardan əzab çəkirdi, gözlənilmədən qəzəblənir və dişləri ilə öz əllərini gəmirirdi. Əfqanlar Mahmudun sonunun çatdığını özləri üçün qətiləşdirdilər. Mahmudun əvvəllər şübhələndiyi və İsfahanda həbsə atdırdığı qardaşı oğlu Əşrəf, Əmənullah xan və digərləri tərəfindən 1725-ci ilin 22 aprel tarixində azad edilir. Şahın mühafizəçiləri hazırlanmış qəsd nəticəsində öldürülür və nəzarət tamamilə hərbçilərin əlinə keçir. Üç gündən sonra Mahmud da sakitcə öldürülür. 26 aprel tarixində Əşrəf yeni şah elan olunur.

Səfəvi taxtının qanuni varisi Təhmasib yaranmış vəziyyətdən istifadə edib İsfahan üzərinə yürüşə çıxmaq istəyir, lakin cəsur Qacarlar onu əfqanların kifayət qədər güclü olduğuna inandıraraq, mövqeyindən daşındırırlar. Təhmasibin sərkərdəsi Fətəli xan Qacar Astrabaddakı qə-

rargahı ətrafında öz tərəfdarlarını yerləşdirir və əlverişli vəziyyətin yaranmasını gözləməyə başlayır. O, Xorasanda Şah Təhmasibi təşviqat aparmağa və İsfahan üzərinə yürüşdən qabaq Məlik Mahmuddan Məşhədi geri almağa təhrik edir. Xorasandakı qarışıq vəziyyət də əfqanlara hücum etməzdən əvvəl Təhmasibə döyüşkən ordu toplanmasını diktə edirdi. Hər şey düzgün hesablanmışdı, bircə şeydən başqa – Qacarların mənfəətpərəstliyindən savayı.

1726-cı ilin sonlarında Nadir Çameşqəzak kürdləri ilə toqquşur və onları Kabuşan adlı ərazidə məğlubiyyətə uğradır. Bu ağır keçən döyüşdə qazanılmış qələbə onun öz təsirini genişləndirməyə və qərbdəki tayfalar arasında da şöhrət qazanmasına imkan verir. O, Məlik Mahmud Sistaninin Məşhəddən kənarda gücsüzlüyünü və özünün Xorasan üzərindəki geniş təsirini nümayiş etdirmək üçün Herat istiqamətinə qoşun göndərir. Şah Təhmasib Nadirin arzu etdiyi təqdirdə ona və Qacarlara qoşulub Məşhəddə Məlik Mahmuda qarşı mübarizə aparmağa razılığını bildirir. Təhmasib qayıdarkən Nadirin Əbivərddəki nümayəndəsinin vəzifəsini təsdiqləmək üçün Xorasana çağırır. 1726-cı ilin sentyabrında Təhmasib və Fətəli xan Qacar Astrabaddan Xorasana doğru yürüşə çıxırlar və öz qərargahlarını Kabuşanda qururlar. Sentyabrın 19-da əfşarlardan və kürdlərdən ibarət yaxşı silahlanmış iki minlik ordusu ilə onlara qoşulur. Bir mənbəyə istinadən deyilir ki, Təhmasib Nadirlə yolda qarşılaşır. Təhmasib yaxınlaşarkən Nadir öz adamlarına yolu açmağı və şaha hörmət əlaməti olaraq ona baş əyməyi tapşırır. Sonra Nadir ona yaxınlaşaraq diz çökür və Təhmasibin ayağına toxunaraq deyir: "Mənim ağam mən burdayam, mən və mənim ordum sizin sadiq qullarınızıq və lazım olduğu təqdirdə

canımızı verməyə hazırıq". Təhmasib olduqca təsirlənir. Dərhal ona sərkərdəlik və alicənablıq rütbəsi olan Xan titulu verilir. Bu hadisə Nadiri əyalət başçısı simasından çıxarıb ölkə əhəmiyyətli şəxsə çevirir. Nadirin Təhmasibin yürüşündəki iştirakı, ordunun çox tez bir vaxtda Kabuşana hərəkət etməsinə təsir edir.

Nadir meydana çıxandan sonra Təhmasiblə Fətəli xan arasında münasibətlər soyuyur. Təhmasib Fətəli xanın ərazisinə münasib olmayan bir vaxtda gəlir. Nəticədə məlum olur ki, Təhmasib və adamlarının Tehran yaxınlığında mühasirəyə alınaraq həbs edilmək təhlükəsi var. Fətəli xan Təhmasibin əmrlərinə tabe olmaqdan boyun qaçırır və yaranan münaqişə döyüş həddinə çatır. Təhmasibin adamları Qacarlar tərk-silah olunur. Lakin Fətəli xan bütün baş verənlərdən sonra da sülh istəyirdi. Çünki, Təhmasib gərəkli vasitə idi.

Qarışıqlıq dövründə Səfəvi amili ordunu cavan şahın ətrafında toplamaq üçün böyük əlverişli vasitə olaraq qalırdı. Ona xidmət etdikləri dövrdə Qacarların əldə etdikləri torpaqlar və mülklər tam qanuni hesab ediləcəkdi. 1726-cı ilin əvvəllərində Fətəli xan Təhmasibi demək olar ki, öz dustağına çevirmişdi. Lakin Xorasana girmək və Nadirə onun ordusuna qoşulmağa icazə verməsi bağışlanmaz səhvi idi. Xorasanda Fətəli xan çox vaxt öz iqamətgahından kənarda olurdu. Hətta onun Astrbaddakı mülkü də mühafizəsiz idi. Digər tərəfdə isə Nadir öz torpaqlarında rahat fəaliyyət göstərirdi və o, öz şöhrətinin zirvəsinə doğru irəliləyirdi. Nadir çox keçmədən Şah Təhmasibi öz təsiri altına alacaq və Təhmasib də Fətəli xanın təzyiqlərindən qurtulmaq imkanı qazanacaqdı. Onun atasının vaxtında Səfəvi sarayını idarə edən nüfuzlu əyanlar da yenidən siyasətə qayıtmaq fürsəti əldə etmişdilər.

Aralarındakı növbəti mübahisələrdən birində Fətəli xan təkəbbüründən Təhmasibin gözləri önündə onun əşyaları içərisindən Şah paltarlarını tapıb-çıxararaq öz əyninə geyinmişdi. Bu səfeh hərəkət idi – Təhmasib yumşaq təbiəti ilə seçilən atasından fərqli olaraq çılğın bir adam idi.

Fətəli xan artıq başa düşmüşdü ki, Nadir tezliklə Təhmasibin ən yüksək vəzifəli və etibarlı adamlarından birinə çevrilməkdədir. Fətəli xan işlərin belə olacağını gözləmirdi. Çünki, Xorasana girmək təşəbbüsünün də müəllifi onun özü idi. Bir neçə gün sonra Nadir qoşunlarını öz ixtiyarında cəmləyərək Məşhədə doğru bir neçə təsirli həmlə həyata keçirtdi. Həmlələr bu istiqamətdə uğursuzluğa düçar olmuş Fətəli xanı tamamilə gözdən salmağa hesablanmışdı. Astrabaddan uzaqda, hətta Fətəli xanın öz Qacar qohumları da onu satmağa hazır olduqlarına işarə verirdilər. O, Nadir və cavan şah haqqında şaiyələr yayırdı. Müxtəlif yollar axtaran Fətəli xan Astrabada çəkilməyə və Məlik Mahmudla birləşməyə qərar verir. 10 oktyabr tarixində Nadirin casuslarından biri Fətəli xanın Məlik Mahmuda göndərdiyi məktubu ifşa etdi. Nadir bundan sonra baş verəcəklərdən əsla məsuliyyət daşımırdı. O, vaxt itirmədən Fətəli xanın məktubunu Təhmasibə göstərdi. Təhmasib məktubu oxuyandan sonra olduqca qəzəblənir və dərhal Fətəli xandan tutduğu işə görə hesabat istəyir. Artıq onlar arasında inam itmişdi və Təhmasib onun işini bitirməyi Nadirə tapşırır. Nadir öz yaxasındakı şalını açır və onunla Fətəli xanın əllərini bağlayır. Bəlkə məsuliyyətdən çəkindiyi üçün, bəlkə də Fətəli xanın edam edilməsindən sonra ona sadiq qoşunların itirilmə qorxusu Nadiri bir qədər fərqli davranmağa sövq etdi. O, şaha Məşhəd alınana və Məlik Mahmudun işi bitənə qədər Fətəli xanın Kəlatda saxlanmasını təklif edir. Təmkin Nadiri baş-

qalarından fərqləndirən xüsusiyyəti idi. O düşmənini digərləri kimi ilk dəfədən məhv etmirdi. Nadirin əsas məqsədi zavallı Qacarın sağ qalması deyildi.

Təhmasib Nadirin məsləhəti ilə razılaşır, lakin Nadir başqa işlərlə məşğul olarkən o, Fətəli xanı öldürmək üçün iki nəfər göndərir. Mühafizəçilərə deyilir ki, onu öldürmək əmrini Nadir verib. Bu yolla Fətəli xan şahın düşərgəsinə gətirilir və orada edam olunur. Onlar Fətəli xanın qanlı başını Şah Təhmasibin ayaqları altına atırlar. Şah düşməninin məhv edilməsindən olduqca məmnun olur və Nadiri Qurçi-başı (baş komandan) vəzifəsinə təyin edir. Ya bu zaman, ya da bir az əvvəl o, Nadirə başqa titul da vermişdi – Təhmasib qulu xan (Təhmasibin xidmətçisi). Həmin vəzifə bəlkə də alçaltma mənasında qəbul edilə bilərdi, lakin o, Şahın adından çıxış edə bilmək üçün çox böyük imkanlar və səlahiyyətlər verirdi. Şahın öz adından istifadəyə icazə verməsi, onun edə biləcəyi ən böyük lütfkarlıq hesab olunurdu. Əgər əvvəllər Təhmasibin nazirləri onun yeni baş komandanın Fətəli xandan daha yumşaq olacağını düşünürdülərsə, zamanla onlar yanıldıqlarını başa düşdülər. Ağa-qul münasibətləri yenidən bərpa edilirdi. Qacar tayfasının bir çox liderləri zamanla həbs edildilər, lakin Qacarlardan olan bir qrup Nadirin başçılığı altında çalışmağa razı idi. Nadirin qarşısına qoyulan yeni məqsəd Məlik Mahmudu məğlubiyyətə uğratmaq, Məşhədi ələ keçirtmək və mərkəzi hakimiyyəti gücləndirmək idi. O, səbrsizcəsinə, hər gün müdafiəni yara bilmək üçün həmlələr edirdi. Məlik Mahmud Fətəli xanın ölümünü eşidəndə, şah qüvvələrinin gücünün azaldığını düşünür və artilleriya da daxil olmaqla böyük qüvvə ilə hücuma keçir. Lakin Nadir öz adamları ilə onun qarşısına çıxır və onları geri çəkilməyə məcbur edir. Növ-

bəti hücuma hazırlıqlar başlanır. Döyüş zamanı Məlik Mahmudun çox sayda etibarlı hərbiçisi öldürülmüşdü. Onların arasında hadisələrin axarına təsir edə biləcək artilleriya komandanı da vardı. Məlik Mahmudun yaxşı silahlara malik olması onun üstün cəhətlərindən idi, lakin onları düzgün işlədə bilən adamların azlığı atəş gücünün effektivliyini əhəmiyyətsiz etmişdi.

1726-cı ilin noyabr ayının əvvəllərində mühasirənin sonuna doğru şah düşərgəsində kiçik bir münaqişə baş vermişdi. Belə ki Şah Təhmasibin adamları öz ənənələrinə sadiq qalaraq dövlətin başçısını daima sərxoş vəziyyətdə saxlamağa çalışırdılar. Başqaları üçün onu təsir altına salmaq çox asan idi. Günlərin birində artıq sərxoşluğa qurşanmış Təhmasibin sarayında olan bir gürcüdən onun üçün çaxır gətirilməsi tələb olundu. Gürcü söylədi ki, onda çaxır yoxdur, lakin sarayda olan rus emissarı Avramovda bir neçə şüşə ola bilərdi. Ancaq o da çətin ki, həmin şüşələri kiməsə verməyə razılaşardı. Təhmasib bütün rusları düşərgədən çıxardır və içkilərin ona verilməyəcəyi təqdirdə hamısının başını vurduracağı ilə hədələyir.

Şahın xidmətçiləri Avramovu köynəkdə hökmdarın hüzuruna çıxardırlar. Avramov şahın qəzəbindən ehtiyatlanaraq ondan mərhəmət diləyir. Təhmasib isə öz növbəsində onu ələ salır və çaxır tələb edirdi. Avramov vəziyyətin çıxılmaz olduğunu görüb içki gətirməyə yollanır. Şah öz hücrəsinə geri dönərkən sürüşərək yerə yıxılır və onun libası palçığa bulaşır. Nəticədə onun əhvalı bir qədər də pisləşir. O, Avramovu bu natəmizliyi yaratmaqda ittiham edərək, möhkəm acılayır. Lakin Avramov çaxırı şaha təqdim etdikdə onun əhvalı xeyli yüksəlir. Hökmdar yemək sifariş edir və musiqiçilərə şən nəğmələr ifa etməyi

tapşırır. Şah musiqi sədaları altında əl çalıb şənlənir, lakin qəfil onun əhvalı yenidən pisləşir. Təhmasib əhvalının pozulmasında yenə də Avramovu günahkar bilir. Qorxu və həyəcan içində olan Avramov özünü müdafiə etməyə çalışır və heç bir günahı olmadığını bildirir. Avramov şahın şadlanması üçün yenidən çaxır gətirməyə yollanır. Həmçinin Avramov şah üçün gələcəkdə də çaxır və şərab tədarük etməyi öhdəsinə götürür. Rus diplomatı Avramov sonradan bütün baş verənləri qələmə alır. Şahın içki düşkünü, xaraktersiz və zəif insan olduğuna dair məlumatlara təkcə onun qeydlərində deyil, digər mənbələrin məlumatlarında da rast gəlmək mümkündür. Təhmasibin yaxın adamlarından biri Avramova söyləyir ki, belə davranışla şah heç vaxt dövlət işlərində uğur əldə edə bilməyəcək. Çünki, o, artıq tamamilə içki aludəçisinə çevrilmiş və heç kim onu islah etmək iqtidarında deyil.

Zaman keçdikcə Təhmasibin Nadirin rəhbərliyi altında formalaşan ordusu güclənirdi. Xəzər sahillərini qəsb edən rus ordusunun komandanı Levaşovla Təhmasibin saray əyanları arasında müəyyən əlaqələr də yaranır. Ruslar Osmanlıların Qafqazdakı və İrandakı uğurlarından heç də məmnun deyildilər. Lakin rus əsgərlərinin çoxu xəstəliklərdən və dözülməz istilərdən durmadan tələf olurdu. Ruslar yaranmış vəziyyətdə Təhmasibin və Nadirin Səfəvi dövlətinin hakimiyyətini bərpa etməsini öz maraqları üçün daha məqbul variant hesab edirdilər. Onlar yaxın gələcəkdə Təhmasiblə Nadirin Osmanlı dövləti ilə toqquşacağına əmin idilər. Onlar Xəzər sahillərindən çıxmağa, hətta lazım gəlsə Osmanlı ilə mümkün müharibə zamanı hərbi qüvvə ilə dəstək olmağa hazır olduqlarını bildirdilər. Buna baxmayaraq, Nadir ruslara Təhmasibdən daha

çox şübhə ilə yanaşırdı. Nadir ehtiyatlanırdı ki, bir gün ruslar Təhmasibdən ona qarşı istifadə edə bilərlər. Avramov yazır ki, ruslarla saziş imzalamaq zərurəti yarandıqda, Nadir Təhmasibə bildirmişdi: "Ruslar kimdi ki, mənə əmr versinlər gedib onların hamısını məhv edəcəm". Lakin Avramov yazır ki, Təhmasib Nadirin sözlərinə etiraz edərək, ona təpinmiş, siyasi işlərə qarışmamasını tələb etmişdi. Nadir də hərbi reallıqları qiymətləndirərək ruslarla ittifaqa razılıq verdi.

1726-cı ilin payızı idi və Nadirin böyük qələbələrinə hələ xeyli müddət qalırdı. Təhmasibin ordusu güclənmiş, Məlik Mahmudun qüvvələri isə get-gedə zəifləyirdi. Məşhəddə artıq ərzaq çatışmazlığı yaranmış, kənardan kömək gələcəyinə dair ümidlər isə puça çıxmışdı. Məlik Mahmudun tərəfdarları bir-bir ondan uzaqlaşmağa başlamışdılar. Onun komandanlarından bir neçəsi Nadirə xəbər göndərərək, onun şəhərə hücum edəcəyi təqdirdə gecə ikən şəhər darvazalarını açacaqlarına söz verdilər. Vədə verilmiş gecə onlar sözlərinin üstündə durdular. Nadir və onun adamları şiələr üçün müqəddəs hesab edilən şəhərə daxil oldular. Məlik Mahmud şəhəri qorumaq üçün atəş açılmasına əmr versə də, onun müqaviməti boşa çıxdı. Öz çarəsizliyini görən Məlik Mahmud Nadirin yanına üz tutdu və şahlıq libasını ona təhvil verdi. Nadir onun Məşhədin mərkəzindəki İmam Rza məqbərəsinə sığınmasına icazə verdi.

Lakin bir neçə ay sonra Məlik Mahmud Mərvdəki türkmən tayfaları ilə gizli əlaqə yaradaraq onları bu müqəddəs şəhərə yürüş etməyə inandırmağa çalışırdı. Nadirin mərhəmətinə xəyanətlə cavab verən Məlik Mahmud, həmçinin onun qardaşı və qardaşı oğlu 1727-ci il

10 mart tarixində edam edildi. Məlik Mahmud təslim olmamışdan əvvəl qoşunlarını şəhərdə yerləşdirən Nadir müqəddəs İmam Rza məqbərəsini ziyarət etmiş və şükr edərək torpağı öpmüşdü. Şəhərin fəthindən öncə əhd etdiyi kimi bu türbənin yanında daha bir minarə inşa etdirdi və həmin minarə bu günə qədər qalmaqdadır. Buradan elə başa düşmək olar ki, o da ilk vaxtlar şiəliyə rəğbətlə yanaşmışdır. Nadir başqa cür davrana da bilməzdi. Bunun əksi ona ictimaiyyətin rəğbətini qazanmağa, Qızılbaş ordusundakı nüfuzunu möhkəmləndirməyə və din xadimləri ilə dil tapmağa imkan verməzdi. Rəvayətlərdən birində deyilir ki, Nadirin dini inancı İmam Rza türbəsində bir yoxsulun yalvarışına şahid olduqdan sonra daha da möhkəmlənmişdi:

"O dövrdə çoxları düşünürdü ki, Məşhəddə basdırılmış İmam Rza hələ də möcüzələr yaratmaq gücündədir. Məsələn, görmə qabiliyyətini itirmiş insanlar onun qəbrinin üstünə gəlir və uzun müddət dua etdikdən sonra onların gözləri açılır, görməyə başladıqlarını deyirlər. Nadir orada olarkən belə insanlardan biri məqbərəyə gələrək dua etməyə başlayır. Həmin şəxsin iki ildən bəri göz nurundan məhrum olduğu məlum olur. Nadir müdaxilə edərək həmin adama deyir: "Bu sənin inamının olmamasını sübut edir. Əgər sənin həqiqətən inamın olsaydı, sən çoxdan sağalmışdın. Yadında saxla, dostum, əgər mən geri dönəndə də səni bu vəziyyətdə görsəm sənin başını kəsdirəcəm". Bir müddət sonra geri qayıdan Nadir həmin zavallı adamın görmə qabiliyyətinin özünə qayıtdığını öyrənir. Möcüzə! Möcüzə! İnsanlar bir anda həmin adamın başına yığılırlar. Orada əyləşən din xadimi gülümsəyərək deyir: "İnam həqiqətən də hər şeydir".

1726-cı ilin sonlarına doğru Nadirin bacarığı və qətiyyəti sayəsində İran torpaqlarında Səfəvi amilinin dirçələcəyinə dair ümidlər artmışdı. Fətəli xan Qacar kimi Nadir də Şah Təhmasiblə ittifaqın əhəmiyyətini yaxşı başa düşürdü. Bəlkə də gənc şah və vəzirləri Nadirin Fətəli xandan daha asan və tez təsir altına düşəcəyini güman edirdilər. Nadirə verilən Qurçibaşı titulu Fətəli xana verilən vəkil titulundan nüfuz etibarı ilə daha zəif idi. Lakin çox az adam başa düşürdü ki, Nadirin hərəkətləri əyanları yanıltmağa hesablanmışdı. Nadir Təhmasibin adamlarına gerçək gücünü göstərməyin və hər kəsi öz yerinə oturtmağın yolları ətrafında baş sındırırdı.

# III FƏSİL

# ƏFQANLARLA MÜHARİBƏ

*Müharibə hər şeyin atası və hər şeyin ağasıdır. O, bəzilərini firon, bəzilərini isə insan edir, bəziləri əsir olur, bəziləri isə azadlığa çıxırlar.*

***Heraklit***

1726-cı ildə Məşhədin tutulmasından sonra Nadirlə Şah Təhmasib arasındakı ziddiyyətlər dərinləşir. Saray əyanları Təhmasibi Nadirə qarşı qızışdırmaq üçün əllərindən gələni əsirgəmirlər. Nadirlə tarixi illər əvvələ gedib çıxan köhnə ədavətlərini yada salan bəzi kürd əyanları da ona qarşı aparılan təbliğata həvəslə dəstək verməyə başlamışdılar. Atası kimi Təhmasib də ətrafdakıların onu idarə etməsinə imkan verirdi. 1727-ci ilin fevralında o, Məşhəddən qaçır və kürdlərin şəhəri Kabuşana sığınır. Elə burada da o, Nadiri xain elan edir və hər yana onunla mübarizə aparmaq üçün hərbi dəstək gözlədiyinə dair car çəkir. Şahın məmurları da öz növbəsində Nadirə qarşı birləşmək üçün kürd tayfalarını ayağa qalxmağa çağırır, onlar da bu çağırışa səs verirdilər. Ancaq Nadir də cəld tərpənir. O, Məşhəddə Təhmasibin və onun məmurlarının bütün mülkiyyətini müsadirə edir və qardaşı İbrahim xana şəhərə nəzarət etməyi tapşırır. Özü isə ordusunun başında Kabuşana istiqamət götürür. O, şəhəri mühasirəyə alır, Qaraçorlu tayfalarının həmlələrini dəf edir və hücum edənlərdən bəzilərini əsir götürür. Nadir torpağı

qazdırır və kürdləri diri-diri torpağın altına salaraq ölümcül şəkildə qorxutduqdan sonra onları sağ buraxır.

Tezliklə Təhmasib məğlub qismində sülh danışıqlarına razılıq verir. Nadir onunla danışıqlar aparır, lakin Şah Təhmasibin onu qətlə yetirə biləcəyindən narahatlıq keçirdiyini göstərir. Məhəmməd Hüseyn adlı əyan etirazını bildirərək deyir ki, Nadirin narahatlığı yersizdir, çünki Təhmasib onu öldürməyəcəyinə and içib. Nadir kinayə ilə cavab verir: "Mən şahı tanıyıram, onun necə də düzdanışan və sözünün üstündə duran olduğunu da görmüşəm. O, Fətəli xanı sağ qoyacağına dair səhər and içdi, axşam isə onun başının kəsilməsini əmr etdi".

Lakin istənilən halda artıq razılıq əldə edilmişdi. Nadir Məşhədə qayıdır, Təhmasib isə incik halda bir qədər sonra, camaatın 21 mart iranlıların yeni il şənliklərini qeyd edəcəkləri zaman şəhərə yollanacaqdı. Məsələ, daha iki həftə, Nadirin kürd başçılarından birinin qızı ilə evlənməsi səbəbindən uzandı. Saray tarixçisinin yazdığına görə, Təhmasibin Məşhədə qayıtdığı gün Nadir yuxusunda iri su quşu görür. O, tüfənglə onu vuraraq yaralayır və tutur. Daha sonra o, fəvvarəsi olan bir su hovuzu görür, hovuzda başında dörd buynuzu olan böyük ağ balıq görür. Nadir yanındakılara balığı tutmağı əmr edir, lakin onlardan heç biri bunu bacarmır, axırda Nadir özü suya girir və balığı tutur. Səhər ayılanda o, yoldaşlarına yuxusunu danışdıqda, onlar Nadirin dövlət başçısı olacağını söyləyirlər. Balığın başındakı dörd buynuz isə İrana, Hindistana, Türküstana və Xarəzmə işarə idi. Bu rəvayətdə ziddiyyətli məqamlar çoxdur. Həqiqətənmi Nadir yuxu görmüşdü, onun tarixçisi yuxunu dəqiq qeyd etmişdimi? O necə yuxu görmüşdü və ya tarixçi yuxunun yozumunu özündən əlavə etmişdimi? Balığın başındakı

dörd buynuzla bağlı məqam isə xüsusi əhəmiyyətli idi. Dörd buynuzla Nadirin qırmızı dörd zolaqlı papağı arasındakı bağlılıq açıq-aşkardır. O, bütün şəkillərində bu papaqla təsvir olunub. Nadir taxta çıxdıqdan sonra özünün dörd tərəfin şahı olduğuna dair işarələrin pulların üzərində həkk olunmasına diqqət yetirirdi.

Nə Təhmasibin asılılığı, nə də evlilik Nadirin şah və saray əyanları ilə bağlı təlaşına son qoymuşdu. Nadir İsfahana hər hansı həmlə olmadan Heratda cəmləşmiş Əbdali əfqan tayfaları ilə sülh bağlamağı təkidlə istəyirdi. Baxmayaraq ki, Əbdalilərin başı daxili qarşıdurmalara qarışmışdı, onlar çox güclü və mübariz olduqlarından istənilən vaxt təhlükə yaratmaq iqtidarında idilər. Onlar Məşhədi iki dəfə – 1716 və 1722-1723-cü illərdə mühasirəyə almışdılar.

Ənənəvi rəqib münasibətləri çətin ki, Əbdaliləri İsfahanda hakimiyyətə gələn Gilzailəri bir araya gətirə bilərdi, üstəlik Nadirlə Təhmasibin Məşhəddə qurduğu ordu Xorasandan qıraqda hər hansı əməliyyatın qarşısını almaq üçün gərəkli idi. Bütün bunlara baxmayaraq, Təhmasibin adamları ilk fürsətdəcə ona Nadirin yalnız öz gücünü artırdığını xəbər verirdilər. Təhmasib isə əvvəlki Səfəvi paytaxtını geri qaytarmağa çalışırdı. Təhmasibin adamlarının Nadirə qarşı tədbirlər tökməyə ara vermədiyi bir vaxtda Xorasan kürdləri yenidən baş qaldırdılar. Mərvdəki tatarlar, eləcə də bəzi türkmən tayfaları da üsyana qalxdılar. Bir yerdə ara sakitləşəndə, digər yerdə qiyamlar alovlanırdı. Nadir yəqin ki, bu cür çaxnaşmalar zamanı təkbaşına, etibar etdiyi qardaşı İbrahim xan, Təhmasib xan Cəlair kimi sınanmış silahdaşları olmasaydı, çətin ki, Məşhəd və Kəlat kimi əhəmiyyətli yerləri öz əlində saxlaya bilərdi. Nadirin əsas narahatlığı Səfəvilərin

əvvəlki paytaxtını geri qaytarmaqdan daha çox, Xorasanı qoruyub saxlaya bilməklə bağlı idi. Bu məsələdə fikirlər haçalanırdı. Nadirin türk mənşəyi onu hələ də Şərqə – Çingiz xanın varislərinin idarə etdiyi Buxara və Teymurun qədim paytaxtı Səmərqənd istiqamətində hərəkət etməyə həvəsləndirirdi. Məşhəd və Əbivərd İsfahan arasındakı müəmmalı bir sərhəd kimi idi, lakin Nadir üçün bu şəhərlər regionun mərkəzi kimi əhəmiyyətə malik idilər. Vaxtilə Qədim Xorasan Herat vilayətinə daxil idi; Teymurun varisləri əfqan dağlarını aşıb Hindistanı tutmuşdular. Məşhəd və Xorasan dünyanın mərkəzi halına gəlmişdi. 1727-ci ilin yayında Nadir isti və susuzluğa, eləcə də təchizatla bağlı çətinliklərə baxmayaraq, Əbdali əfqanlarının üzərinə hücum etməyə cəhd göstərdi. O, hərbi sursatları dəvələrə yüklətmişdi. Bu indiyə qədər həmin yerlərdə artilleriyanın nə səbəbdən təkərli qurğularla deyil, heyvanların köməyi ilə daşındığına dair sual da yarada bilər. Cavab isə sadədir. Ölkədə kifayət qədər ağır artilleriyanın təkərli qurğularla daşınması üçün yararlı yollar yox idi. Həmin sursatlar olmadan isə mühasirələr ağır və uzun sürürdü. Ordu sentyabrda Sənqanın mühasirəsinə başlamışdı. Bir gün Nadir döyüşçülərinin yanında artilleriyanın mühasirəyə alınmış qalanın divarlarını necə dağıtdığını müşahidə edirdi. Həmin vaxt Nadir bir neçə addım geri çəkildi. Ağasının başının üzərində olduğunu görən işçi yəqin ki, həyəcandan atılacaq mərmini alışdırmağı unutmuşdu. Bəlkə də, o səhvən bir yerə iki mərmi qoymuşdu. Yol verilən xəta nəticəsində silah yerindəcə partlamış və ətrafa metal parçaları səpilmişdi. Atıcı özü və onun yanında dayananlar həlak oldular. Nadirə isə heç bir şey olmamışdı. Şəhər 1 oktyabr ta-

rixində alınmışdı və əhalinin tez bir zamanda ram edilməsi üçün çox sayda insan qətlə yetirildi.

Az sonra əfqanların 7000-8000-lik ordusu əraziyə yaxınlaşmışdı. Nadir onları Sənqan yaxınlığında təxminən eyni sayda olan ordusu ilə qarşıladı. Nadirin saray tarixçisi əfqanlar barəsində belə yazmışdı: "Bəziləri pişik olduqları halda, siçanla vuruşanda pələng kimi görsənə bilər, lakin özləri pələnglə qarşılaşanda dönüb siçan olurlar". Əslinə qalsa, iranlılar nə siçan, nə də pələngdirlər. Onlar özləri ilə fəxr edirdilər, qisas almaq arzusunda idilər və əvvəllər olduğu kimi əfqanları dəfələrlə məğlub etmələrinə güvənib müharibəyə ciddi yanaşmırdılar. Onların əksəriyyətinin döyüş təcrübəsi də yox idi. Nadir əsgərlərinin ürəyini oxuyaraq onlara olduqları yerdə qalmağı və çox riskə getməməyi tapşırdı. Onlar döyüşdə düşməni atəşə almaq üçün özləri üçün səngərlər qazmışdılar. Bu arada Nadir özü 500 nəfər süvarisini götürərək, qalanın ətrafında hücuma keçənlərin üzərinə yeridi. Dörd günlük mübarizə və atışmadan sonra əfqanlar Herata çəkilməli oldular.

Nadir əsgərlərinə onları təqib etməyə icazə vermədi. O, yəqin ki, Məşhəddə həllini gözləyən problemlər haqqında düşünürdü. Bəlkə də o, heç indiki zamanda əfqanlarla genişmiqyaslı müharibəyə başlamaq niyyətində də deyildi. O, Məşhədə qayıtdıqda Təhmasiblə olan narazılıq hələ də davam etməkdə idi. Buna görə də Nadir əfqanlarla məsələni birdəfəlik həll etmək qərarına gəlir. Nadir şəhərdən kənarda olarkən eşidir ki, Təhmasib onun müttəfiqlərinə təzyiqlər edir və onlardan Nadirə tabe olmamalarını istəyir. Nadir dərhal Təhmasibin üstünə gedir. O da öz növbəsində Səbzəvar şəhərinə çəkilir. Nadir

gəlib çatanda Təhmasib qapıları onun üzünə bağlatdırır, lakin artilleriya öz işini görür. Şəhər toplardan bombalanır. 23 oktyabr 1727-ci il tarixində Təhmasib təslim olur. Şah qəzəbli və ümidini itirmiş halda idi. Həmin gecə o öz çadırını əlini yumaq bəhanəsi ilə tərk edir və qaçır. Düşərgədən xeyli uzaqlaşsa da, Nadir onu bir mil aralıda tutmağa müvəffəq olur. Təhmasib bıçaq çıxarır və özünü öldürmək istəyəndə, Nadir dərhal onu tərk-silah edərək düşərgəyə geri gətirir. Nadir onu yalnız iki gözətçinin müşayiəti ilə Məşhədə göndərir. Bundan sonra o özü şahın adından fərmanlar verməyə başlayır.

Bu vaxtdan etibarən artıq Təhmasib Nadirin itaətindən çıxmaq üçün elə bir ciddi səy göstərmədi. Növbəti bir neçə ay içərisində kürdlər və yomut tayfalarına qarşı ekspedisiyalar göndərilmiş, 1728-ci ilin yayında isə əfqanlara qarşı da kiçik hücumlar təşkil edilmişdi. Təhmasibin Səbzəvarda top atəşinə tutulmasından sonra adamlarının əksəriyyəti onu tərk etmişdi, lakin onlar hələ də Nadirə qarşı düşmənçilikdən əl çəkmirdilər. Bu vaxt Təhmasibin keçmiş sərkərdələri Məhəmməd Əli xan və qohumu Zülfüqar xan şahın adından çıxış edib Mazandaran və Astarabadın yeni başçıları olduqlarını elan etdilər. Təhmasib bu işdə əlinin olmadığına Nadiri inandırmaq istəsə də, Nadir onun Zülfüqarla əlaqəsindən məlumatlı olduğunu bildirdi. 1728-ci ilin noyabrında Nadir Təhmasiblə birgə Mazandarana gəldi. Məhəmməd Əli xan dərhal ona itaət etdi, Zülfüqar isə boyun əymədi. Nəhayət, o da tutuldu. Nadir onları saxlaya bilərdi, lakin, Zülfüqar həbsdə də ona qarşı etirazını davam etdirdi və nəhayət, "ədalətli" Nadir onun çiyinlərini belə bir səfeh başı gəzdirmək yükündən xilas etdi. Dekabrın sonlarında Mazan-

daranda nəzarəti ələ alan Nadir Gilanı qaytarmaq tələbi ilə rus komandanlığına elçi göndərdi.

1729-cu ilin martında Nadir Novruz bayramını Məşhəddə qeyd etdi və nəhayət, Herat yürüşü üçün genişmiqyaslı hazırlıqlara başladı. O, mühüm hərbi səfərlərdən öncə həmişə etdiyi kimi bu dəfə də hərbiçilərə ziyafətlər verir, onlara silah, at, pul və başqa qiymətli hədiyyələr paylayırdı. Güclü rəqibin qarşısına azsaylı ordusu ilə çıxa bilmək üçün qəti tədbirlərin görülməsi qaçılmaz idi. Həmin hadisələrin canlı şahidlərindən biri olmuş yunan taciri və səyyah Bazil Vatatzesin yazdığına görə, Nadir, ordusunu döyüşə hazırlamaq üçün hər gün təlimlər təşkil edirdi. Biz bilirik ki, Nadir hakimiyyəti boyunca Əbivərddə Baba Əlinin dövründən son günə kimi ordunu bu cür təlimlərə cəlb edirdi, lakin hər hansı başqa mənbədə biz buna dair məlumata rast gələ bilmirik. Vatatzes yazırdı ki, Nadir təlim meydanına gəlir, 1000, yaxud 100 nəfərdən ibarət heyətləri salamlayırdı. O, görünüşcə olduqca güclü, məğrur və qətiyyətli şəxs təsiri bağışlayırdı. Nadir burada atını bir qədər saxlayır, bir az oturaraq təlim keçən əsgərlərini müşahidə edirdi. Vatatzes onu sanki boğazında bir şey qalmış, nəyisə udmağa çalışan insan qismində təsvir etmişdi. Adəti üzrə axırda o öz hərbçilərinə tərəf dönür, həmin gün hansı döyüş taktikalarının və hansı silahlarla məşq ediləcəyini dəqiqləşdirirdi. Sonra təlimlər başlayırdı. Əsgərlər bir-birinin üzərinə həmlələr edir, təkərli və təkərsiz artilleriya vasitələrini sınaqdan keçirir, süvari və piyada döyüşünə dair bütün mümkün manevr və hücumları məşq edirdilər. Onlar hətta gerçək silahlardan istifadə edir, bir-birini yaralamamaq şərti ilə ehtiyatla döyüşürdülər. Əsgərlər əlbəyaxa fənd-

ləri də məşq edir, at belində silahla, oxla, mizraqla necə davranmaq lazım olduğunu da göstərirdilər. Onlar hündürdə yerləşdirilmiş şüşə kürəni at belində çaparaq vurmalı idilər. Hərbiçilərin çox az hissəsi bunu bacarırdı, lakin Nadir üç-dörd cəhddə iki-üç hədəfi dəqiq nişan almağa müvəffəq olurdu. Vatatzes deyir ki, o, kürəni vurmaq üçün qollarını açanda sanki quş kimi qanadlarını gərir və qartal kimi çox sərrast toxunuşla hədəfi vururdu. Süvarilərin təlimi üç saat davam edirdi. Piyada qoşunları da onlarla birgə təlim keçirdilər. Piyada dedikdə muşketləri daşıyanlar nəzərdə tutulurdu: "Hər kəs vahid birlik altında toplanır və onlara dayanmadan atəş açmaq və silahlarını sınaqdan keçirtmək imkanı verilirdi. Əgər Təhmasibqulu xan sıravi əsgərlərinin içərisində kiminsə xüsusi qabiliyyətini sezərdisə, həmin adamı yüz nəfərin və ya əlli nəfərin lideri təyin edərdi. O, bütün əsgərlərini cəsarətə və əzmkarlığa həvəsləndirirdi və bir sözlə, özü də hərbi ləyaqət və güclü xarakterin ən bariz nümunəsi idi". Vatatzesin təsvir etdiyi kimi, süvarilər, eləcə də ayrı-ayrı silahlı bölmələrin bacarıqlarını birgə təlimlərdə təkmilləşdirmələri dramatik təəssürat oyatsa da, piyadalara odlu silahlardan istifadənin öyrədilməsi, təlimlərdə bahalı hərbi tozların, kürələrin geniş şəkildə sərf edilməsi Nadirin döyüşlərdə ordunun atəş gücünü də maksimuma çatdırmaq niyyətindən xəbər verirdi.

Bu vəzifənin öhdəsindən gələ bilmək üçün peşəkar hərbiçilərə ehtiyac duyulurdu. Ordunun çevik, düşünülmüş şəkildə və mütəşəkkil hərəkət etməsi üçün güclü idarəçilik qabiliyyətinə malik iradəli komandanın varlığı tələb olunurdu. Hər gün keçirilən üç saatlıq təlimlər Nadirin əsgərlərini sərt nəzarət və güclü intizamın hökm sürdüyü yüksək səviyyəli orduya çevirmişdi. Onların məşq

keçdikləri nəzəri döyüş meydanı və taktiki düzülüşlər Nadirin öz ağlının məhsulu idi. Vatatzesin sözlərinə görə, Nadir adamlarına öz şəxsi təcrübəsinə əsasən hərəkət etməyi öyrədirdi. Təlimlər, atəş gücünün artırılması, intizam, nəzarət və şəxsi örnək Nadirin müharibə meydanlarındakı uğurlarının açarı idi.

Ordunun təlimləri artıq yekunlaşmışdı. Nadir Təhmasiblə birgə mayın əvvəllərində Məşhəddən Herata üz tutur. Bir qədər sonra Nadirin ordusunun təlimlərindən və bu hazırlıqların ciddiliyindən xəbər tutan əfqanlar Heratda Allah Yar xanın başçılığı altında birləşmişdilər. O da Heratdan Nadirə qarşı hücuma keçməli olan orduya rəhbərlik edirdi. İki ordu Heratdan 50 mil qərbdə, Kafir Qala adlanan yerdə qarşılaşdılar. Nadir bu dəfə də adamlarını ehtiyatla piyadaların artilleriyanı mərkəzdən əhatə etdiyi bir şəkildə yerləşdirdi. Təlimlərə ümumiyyətlə vaxt sərf edilmədi. Sənqan döyüşündə olduğu kimi o, yenə də əsas qüvvələrdən kənarda ehtiyat süvariləri dəstələrinin başında mövqe tutdu. Nadir düşmənin gücünü öyrənmək üçün onlarla atışmaya kiçik süvari dəstəsini göndərdi. Lakin əfqanların bu hücumu uğurla dəf etməsi onun bütün planlarını pozdu. Əfqanlar Nadirin piyadalarının sol cinahına hücum edib, onların döyüş nizamını dağıtmağa da müvəffəq olmuşdular. İranlı tüfəngçilər geri çəkilməyə başladılar. Bunu görən Nadir sükutunu pozdu və həmlə edib əfqanlardan birini elə öz qılıncı ilə öldürdü. Gözlənilməz həmlə ilə üzləşən düşmən atlıları geri çəkilmək məcburiyyətində qaldılar. Döyüş zamanı Nadir ayağından yaralandı. Gecənin gəlişi ilə o, ordusuna geri çəkilmək əmri verdi və nəticədə hər iki ordu ilkin mövqelərinə döndü.

Ağır keçən döyüşdən sonra Nadirin ordusu taqətdən düşmüşdü. Lakin əfqan döyüşçüləri onlardan daha artıq

yorulmuşdular və növbəti gün onlar Hari Rud çayı istiqamətində geri çəkilmək qərarına gəldilər. Nadir uğur qazanmışdı və o, irəliləyərək Herat yaxınlığına qədər gəldi. Növbəti iki gün ərzində də əfqanlarla xırda toqquşmalar baş verirdi. Allahyar xanın adamları canlarını çətin qurtardılar. Nadirin adamları döyüş bölgəsində mövqe tutduqdan sonra başlanan qum fırtınası döyüşləri daha iki gün təxirə saldı. Vəziyyətin onun lehinə olmadığını görən Allahyar xan adamlarını sülh bağlamaq məqsədilə Nadirin yanına göndərdi. Ancaq Nadir tələsməmək qərarına gəldi. O tələb etdi ki, əgər əfqan başçıları bu məsələyə ciddi yanaşırlarsa, özləri şəxsən Nadirin düşərgəsinə gəlməlidilər. Bu ərəfədə Allahyar xan ona əlavə kömək gələcəyini eşidib, mübarizəni davam etdirmək haqqında düşünməyə başladı. Əfqanlara kömək həqiqətən də gəlmişdi, ancaq Şakiban yaxınlığındakı iki günlük döyüşlərdən sonra əfqanlar say üstünlüyünə baxmayaraq, məğlubiyyətə uğradılar. Allahyar xan yenə sülh istəyi ilə Nadirə elçilər göndərdi. Lakin Nadir cavab verdi ki, əfqan liderləri onun hakimiyyətini qəbul etməkdən boyun qaçırdıqları və ordularında hərbçilər qaldığı müddətdə müharibə davam edəcəkdir.

Bu cavabdan sonra Əbdali tayfa başçıları bir-bir Nadirin yanına gəlib tabe olduqlarına dair and içirlər. Onlar Gilzailərlə müharibədə Nadirə yardım edəcəkləri, həmçinin gələcəkdə onun əleyhinə çıxmayacaqları barəsində də söz verdilər. Nadir onları xoş qarşıladı, baxmayaraq ki, Təhmasib və onun nazirləri bunu narazılıqla qarşıladılar. Çünki, onlar Herata təntənəli şəkildə daxil olmaq istəyir, bir tərəfdən də Nadirin hərbi gücünün və nüfuzunun artmasından narahatlıq keçirirdilər. Əfqanlara gəlincə isə, onlar sonradan Nadirin ən etibarlı və cəsur döyüşçülərinə

çevriləcəkdilər. Danışıqlar davam edirdi. Əbdali başçıları hədiyyələr gətirir və özləri də Nadirdən xələtlər alıb mükafatlandırılırdılar. Bir çox əfqan başçıları Təhmasibin xidmətinə qəbul edilir, bəzi qəbilələr Məşhəd ətrafındakı ərazilərə köçürülürdülər. Allahyar xan Təhmasibin adından Heratın başçısı kimi təsdiqləndi və əfqan əsirlərin hamısı azadlığa buraxıldılar. Nadir Təhmasiblə birgə, ordunun başında Məşhədə geri döndü və 1729-cu il 1 iyul tarixində şəhərə daxil oldu. Əfqanlara qarşı yürüşlərin onların tamamilə ram edilməsinə və hərbi ittifaqa cəlb olunmasına qədər davam edəcəkdi. Onlar bir müddət sonra yenidən üsyan qaldıracaqdılar. Hələlik isə bu yürüşlər Nadirin ordusunu qüvvətləndirir və bütün iranlılara əfqanların məğlubedilməzliyi haqqındakı fikirlərin uydurma olduğunu əyani şəkildə nümayiş etdirirdi. Sözügedən amil Gilzailərin Heratdan İsfahana edə biləcəkləri təhlükəli yürüşün qarşısının alınmasında da mühüm rol oynamışdı. Nadir tərəfindən belə bir psixoloji effektin əldə edilməsi həqiqətən də təqdirəlayiqdir.

Avropadakı müharibələrin gedişindən fərqli olaraq Yaxın Şərqdə və Asiyada cərəyan edən hərbi proseslər kifayət qədər zəif və pərakəndə şəkildə sənədləşdirilmişdir. Avropalılar hər şeyi kağıza köçürüb əbədiləşdirirdilər. Bura əsgərlərin xatirə və gündəlikləri, hərbi nəzəriyyə kitabları, taktikanın öyrənilməsinə dair əsərlər və s. daxil idi. Nadir şahın apardığı müharibələrə gəldikdə isə, onlara dair bu qəbildən olan mənbələr yox dərəcəsindədir, yazılan az sayda qaynaqlar isə hələ də işıq üzü görməyib. Nadirin gördüyü işlər barədə yazanlar onun əsgərləri deyildi və bu mövzuda yazılanların əksəriyyəti isə şablon bir şəkildə qələmə alınmışdı. Yəqin ki, Nadir bu kimi məsələlərin məhz bu şəkildə tarixin yaddaşına köçürülməsini

istəmiş, onun hərbi uğurlarının sirrini kiminsə öyrənməsində maraqlı olmamışdır.

Biz Nadirin ordusundakı döyüşçülərin etnik mənsubiyyətini, ümumi kəmiyyətini, müxtəlif vaxtlarda və müxtəlif yerlərdə ona komandanlıq etmiş şəxslər haqqında məlumatlıyıq, lakin bu məlumatlar ordunun hansı şəraitdə və hansı taktiki sxemlər əsasında hazırlanmasına dair ətraflı təsəvvür yaratmaq iqtidarında deyil. Şərqin müharibə ənənələri fərqli idi. Misal üçün, biz bilirik ki, Qərbdəki həmkarlarından fərqli olaraq Nadirin əsgərləri süngüdən istifadə etmirdi. Avropalılar süngüdən 40-50 il əvvəldən süvarilərin hücumlarını dəf etmək üçün istifadə edirdilər. Bu səbəbdən də Qərbdə hərbi əməliyyatlar zamanı atlardan mümkün qədər az istifadə etməyə çalışırdılar. İnsanlar öz atlarını təhlükəyə atmaq istəmirdilər. Nadir isə tam əksinə, ixtiyarındakı at sürülərini istifadə etmələri üçün həvəslə hərbiçilərin sərəncamına verirdi.

Qərblə Şərqin hərb ənənələrində digər fərqliliklər də nəzərə çarpırdı. Şərqdə döyüş əməliyyatları zamanı artilleriya piyadaların kəskin həmlələrinin qarşısını almaq, vahimə yaratmaq üçün əlavə vasitə kimi tətbiq olunurdu. Həmçinin toplar və digər atəş vasitələri süvarilərin qarşısında maneə qismində yerləşdirilirdi və istifadəsi zamanı əlavə xəndəklərin qazılması üçün vaxt sərf olunurdu. Biz bilirik ki, 18-ci əsrdə Avstriya süvariləri də bu üsula əl atmış və at belində döyüş taktikalarını osmanlılarla döyüşlərdə uğurlu şəkildə nümayiş etdirmişdilər. Belə bir ümumi təəssürat oyanır ki, Şərqdə bu cür üsulların uğurlu tətbiqi ilə öyünürdülər. Şərqdə istifadə olunan muşketlər Qərbdəkilərlə müqayisədə daha ağır idi və böyük ölçüləri ilə fərqlənirdi.

Nadirin yenilikləri əfqanlarla döyüşlərdə uğurla sınaqdan keçirildi və genişmiqyaslı hücumlar zamanı odlu silahlar geniş şəkildə tətbiq edilməyə başladı. Lakin bu yeni silahlar şərqli döyüşçülər tərəfindən onların adət etdikləri ox, mizraq yay qədər bəyənilmirdi. Çünki şahların və döyüşçülərin qəhrəmanlığını vəsf edən "Şahnamə" kimi əsərlərdə bu cür ixtira və yeniliklərdən əsla bəhs olunmurdu. Bu əsərlərdə yaydan və oxdan məharətlə istifadə edən cəsur döyüşçülər alicənablıq və zadəganlıq rəmzi kimi qəbul edilirdi.

Nadir ordunun təlimlərinə və silahlandırılmasına xüsusi diqqət yetirdiyindən onun əsgərlərinin döyüş qabiliyyəti yüksək səviyyəyə çatmışdı. Ancaq bu səviyyənin qorunması zəhmət tələb edirdi. Əsgərlər daima təlim keçməli və hər cür vasitələrlə xidmətə həvəsləndirilməli idilər. Onlar Səfəvilərin vaxtında əyalətdən gələn əsgərlər kimi yalnız döyüşlər ərəfəsində toplanır, sonra məvaciblərini alıb evlərinə geri dönürdülər. İndi isə onlar mütəmadi qaydada yeni silahlarla təmin olunur, təlimlərə cəlb edilirdilər. Nadir onlara silahlarını da götürüb evə getməyə icazə verə bilməzdi. Onlara vaxtlı-vaxtında və yaxşı ödəniş edilməli idi ki, ordu əsgər qıtlığından əziyyət çəkməsin. Əsgərlər yeməklə, paltarla təchiz edilir, silahlar köhnəldiyi, yaxud sıradan çıxdığı vaxt yenisi ilə əvəzlənir, onlara hərbi sursatları ölkə boyunca daşıya biləcək heyvanlar verilirdi. Ən dözümlü atlar isə süvarilərin ixtiyarında idi. Nadirin ordusu günbəgün çoxalırdı. Bütün bunların nəticəsində ordunun saxlanma xərcləri də əhəmiyyətli dərəcədə artmışdı. Nadir artan xərcləri ödəyə bilmək üçün yeni mənbələr axtarır və bu da vergilərin artırılması ilə nəticələnirdi. Ordunun şəxsi heyətinin ge-

nişləndirilməsi, peşəkar orduya keçid, silah təchizatının daima yenilənməsi, tükənən ehtiyatların yeniləri ilə əvəzlənməsi və bütün bu kimi proseslər Avropada 150 il əvvəl başlayan texniki və iqtisadi tərəqqinin hesabına mümkün olmuşdu.

Nadir şah İranda Şərqin mövcud imkanları şəraitində hərb sahəsində inqilabi dəyişikliklər etməyə nail olsa da, inqilabın daha dərin təsirlər göstərə bilməsi üçün uzun müddət tələb edilirdi. Lakin bununla belə nəticələr də göz qarşısında idi. Mənbələr Sənqan yaxınlığındakı Gerurd vadisində baş vermiş döyüş haqqında ətraflı məlumat verməsələr də, aydın olur ki, Əbdali atlıları pərakəndə və aqressiv şəkildə hücum etsələr də uğur qazana bilməmişdilər. Buna qədər onlar çox sayda odlu silahın istifadə olunduğu döyüş əməliyyatlarında iştirak etməmişdilər. Onlar bir-birinin ardınca keçirdikləri uğursuz döyüşlərdə, güclü artilleriyaya və tüfəng atəşi nəticəsində ağır məğlubiyyətə düçar olmuşdular. Əfqanlar heç zaman rastlaşmadıqları yeni növ döyüş taktikası ilə və olduqca nizamlı ordu ilə üz-üzə gəlmişdilər. Nadir döyüşçülərinə rəqibləri ilə mübarizədə qətiyyətlə döyüşməyin qaydalarını aşılaya bilmişdi.

Əbdali tayfaları ilə müharibəyə Nadir səylə və diqqətlə hazırlaşmışdı. O, yəqin ki, gördüyü tədbirlərin nə qədər effektli olacağını döyüş anına qədər dəqiq təxmin edə bilmirdi. Lakin o, hər bir halda uğurlu nəticənin əldə ediləcəyinə inanırdı. Artıq qələbə qazanmış şah qüvvələri İsfahan üzərinə, Gilzai tayfasının rəhbəri Əşrəfə qarşı yürüşə hazır vəziyyətdə dayanmışdılar. 1725-ci ildə əmisioğlu Mahmudu devirən Əşrəf özünü İsfahanda şah elan etmişdi, bəzən ifrat qəddarlıqla, bəzən də mərhəmətli addımları ilə hökmranlıq etməyə çalışırdı. Əşrəf Mahmu-

dun öldürmək istədiyi keçmiş Səfəvi hökmdarı Şah Hüseynə mərhəmətlə yanaşırdı və o, hələ də sarayın həyətində qalmış meyitlərin toplanıb, layiqli şəkildə dəfn olunmasını tapşırmışdı. Bu kiçik mərhəmətin müqabilində şah qızlarından birini Əşrəfə ərə də vermişdi. Sözügedən izdivac müqabilində Əşrəf İsfahanda yerli sakinlərin bir hissəsinin rəğbətini də qazana bilmişdir. Lakin bununla yanaşı, Əşrəf gələcəkdə mümkün rəqiblərdən yaxasını qurtara bilmək üçün Mahmudu devirməkdə ona kömək etmiş keçmiş silahdaşı Əmənullah xanı da qətlə yetirməkdən çəkinməmişdi. Həmçinin Əşrəf öz doğma qardaşını da kor etdirmiş, gələcəkdə heç bir maneə olmasın deyə onu hərəmə həbs etdirmişdi. Bundan başqa Mahmudun yaxın ətrafına daxil olan şəxslərin də çoxu qətlə yetirilmişdi. Əşrəf Mahmudun özü qədər qəddar və mərhəmətsiz idi, lakin qətiyyət və özünə inam baxımından ondan geri qalırdı. Onun siyasi işlərdə səriştəsi də elə çox deyildi və buna görə də İsfahanda əfqanların hakimiyyəti çox uzun sürə bilməzdi.

İndi İsfahanda Əşrəfin hakimiyyətinə ən böyük qorxu 1725-ci ilin yayına kimi İsfahanın bütün qərb və şimal-qərb ərazilərini istila etmiş Osmanlı ordusundan qaynaqlanırdı. Əşrəf 1725-ci ilin yayında tutulan torpaqların azad edilməsi tələbi ilə səfirini İstanbula göndərir. Məktubun sonunda bu kəlmələrlə bitən şeirdə deyilirdi: "Allah istədiyi yerə öz sevimli bəndəsini təyin edir. Fərqi yoxdur ki, o, kəs paltarlarını necə geyinir". Buradan belə nəticəyə gəlinir ki, Osmanlı sultanın nə düşünəcəyindən asılı olmayaraq, Allah Gilzailəri üstün tutaraq hakim təyin etmişdi. Osmanlı rəhbərliyini bu məktub qane etmir. Çox güman ki, onlar Əşrəfdən onun tabe olması məzmununda müraciət gözləyirdilər. Türklər əfqanların sün-

niliyi dəstəkləyən və İranda şiəliyə qalib gələn güc kimi məşhurlaşmağında qətiyyən maraqlı deyildilər. Çünki bu halda müsəlmanların nəzərində əfqanlar sadə, intizamlı, İslamı himayə edən ideala çevrilirdilər.

Əşrəfin məktubuna cavab hazırlamalı olan Osmanlı ruhaniləri belə qərara gəldilər ki, əfqanların İsfahanda qeyri-qanuni şəkildə hakimiyyətə gəlməkdə günahlandırsınlar və buna görə də, onların müstəqil tərəf kimi tanınmasının qeyri-mümkünlüyünü bəyan etsinlər. Osmanlı sultanları Allahın yerdəki kölgəsi statusunu daşımaqdan məmnuniyyət duyurdular, əlbəttə ki, onların əfqanlara verəcəyi cavab bundan fərqli ola bilməzdi. Əşrəf üsyankar idi və sultana tabe olmayana qədər Osmanlı ordusu onunla döyüşəcəkdi. Osmanlı imperializminin ruhuna uyğun bu cavab əfqanlara göndərildi və 1726-cı ilin martın 30-da əfqan elçisi məyus şəkildə İsfahana geri döndü. 1726-cı ilin mayında isə Osmanlılarla əfqanlar arasında müharibə başladı. 1726-cı ilin payızında sultanın Bağdaddakı canişini Əhməd Paşa 70-80 minlik ordu ilə Həmədandan İsfahana yürüşə başlayır və Səfəvi torpaqlarında qanuni hakimiyyətin tezliklə bərqərar ediləcəyini bəyan edir. Osmanlılarla döyüşə Əşrəf 12 min nəfərlik kiçik ordusu ilə çıxmaq məcburiyyətində qalmışdı. Yolda o, Osmanlıların rəğbətinə səbəb olacaq bir addım atmaq niyyətinə düşür və üç nəfər adamını İsfahana geri göndərir. Onlar İsfahana çatdıqda sarayın güzgülü zalında devrilmiş şah Sultan Hüseyni yaxalayıb onun başını kəsirlər. Sonra kəsilmiş başı da götürüb Əşrəfin yanına geri dönürlər. Əşrəf kəsilmiş başı osmanlılara göndərir və Əhməd paşaya layiqli cavab gözlədiyinə dair məktub yazır. Beləliklə, Şah Sultan Hüseynin kəsilmiş başı hesabına ona ümid etdiyi cavabı alacağını intizarla gözləyirdi. La-

kin Əhməd paşa irəliləməyə davam edirdi və bu iki ordu bir-biri ilə 12 mil məsafədə üz-üzə dayandılar. Lakin burada əfqanların xeyrinə olan və döyüşün təxirə salınması ilə nəticələnən hadisələr baş verir. Əşrəf Osmanlı ordusundakı kürdlərin yanına adam göndərərək, onları döyüşdən imtina etməyə çağırır. Əhməd paşa öz növbəsində əfqanların real gücünü öyrənmək üçün kəşfiyyat dəstələri göndərir, ancaq casusların çoxu əfqanlar tərəfindən öldürülür. Həmin ərəfədə Əhməd paşanın işini çətinə salan daha bir hadisə baş verir. Əfqanlardan olan dörd nəfər din adamı Osmanlı düşərgəsinə gəlir və öz nürani görkəmləri, ahıllıqları səbəbindən rahat bir şəkildə, maneəsiz Əhməd paşanın çadırına kimi irəliləyə bilirlər. Onlar Osmanlıların xristian ruslarla ittifaqa girdiklərini və onlarla əməkdaşlıqdansa əfqanlarla müttəfiqlik münasibətləri qurmalarının vacibliyinə dair çıxış edirlər. Bu nurani şəxslərin sözləri demək olar ki, hər kəsə dərin təsir göstərmişdi. Əhməd paşa onlarla müzakirələrə etiraz etməyə çalışsa da, azanın verilməsi onun öz sözünü yarıda saxlamasına səbəb olur. Azandan sonra həmin dörd nəfər bir daha Əhməd paşanı qan tökməkdən çəkilməyə çağırırlar.

Əhməd paşa gecikdiyini yəqin etmiş və o, ruhanilərin təkidlərinə baxmayaraq, on topdan atəş açılmasına əmr verdi. Lakin əfqan ruhanilərinin çıxışları öz təsirini göstərmişdi. Osmanlı ordusunun çox hissəsi irəli getmək istəmirdi, kürd döyüşçülərinin çoxu isə əfqanların tərəfinə keçdilər. Əhməd paşa ordunu yenidən topladı və düşmənin sağ cinahına hücum etməyə razı saldı, ancaq bu cəhd də uğursuz alındı. Filin üzərində hind şahzadələri kimi əyləşən Əşrəf tütək çalmaqla öz döyüşçülərinə əminlik və arxayınlıq təlqin edirdi. Osmanlıların daha iki hücumu uğursuzluqla nəticələndi və artıq Əhməd Paşa

12 min nəfər döyüşçüsünü itirərək geri çəkilmək məcburiyyətində qaldı. Həmin gecə Osmanlı düşərgəsindəki kürdlər də gərginlik yaratmışdılar. Onlar ordu düşərgəsini talamağa başlamış və Əhməd paşa bütün yükünü və sursatlarını qoyub aradan çıxmışdı. Osmanlılar əvvəlcə Həmədana, sonra isə Bağdada çəkilməli oldular.

1727-ci ilin yayında Əhməd paşa yenidən əfqanlarla müharibə etmək qərarına gəldi, lakin o, dövrdə İstanbulda heç kim vuruşmaq həvəsində deyildi. Osmanlı torpaqlarında yaşayan müsəlman əhalinin əksəriyyəti əfqanlarla fəxr edir və onların qələbəsini Allahın işarəsi kimi qəbul edirdilər. Əşrəf sülh təklif edən zaman Osmanlı tərəfi reallıqları nəzərə alıb, buna müsbət yanaşdı. Sazişə əsasən Osmanlılar tutduqları torpaqlara yiyələnir, Əşrəf isə hakim olduğu ərazidə özünü qanuni şah elan etdi. Bu Əşrəfin qələbəsi demək idi. Əvvəlki Osmanlı-Rusiya sazişində Təhmasib şah olaraq tanındığı halda, yeni Osmanlı-əfqan müqaviləsi Əşrəfin hökmdarlığını tanıyır və təsdiq edirdi. Ancaq Osmanlı-əfqan sazişinin də ömrü çox uzun olmayacaqdı.

Osmanlı nümayəndələri 1729-cu ildə sazişin təsdiqlənməsi üçün İsfahana gəldikləri zaman Əşrəf onları şəhərin girişində qarşılamaq üçün hazırlıq görür və onların şəhər əhalisinin acınacaqlı yaşayışını görməməsi üçün əlindən gələni edir. O yaxşı bilirdi ki, şəhər əhalisi kasıb, sərvətləri tükənmiş bir halda, əfqanların qarətlərindən yaranmış xofun altında yaşayır. İran əhalisinin yaşayış səviyyəsi həqiqətən acınacaqlı idi. Osmanlılar uşaqları və qadınları qul kimi satırdılar, lakin bu ənənə 1725-ci ilin sonunda demək olar ki, tamamilə aradan qalxdı. Digər yerlərdə də ticarət siyasi qeyri-stabillik, qeyri-müəyyənlik və cinayətkarlıq səbəbindən acınacaqlı vəziyyətdə idi. Müharibə şəraitindən irəli gələn tələfatlar, aclıq və xəs-

təliklər, kütləvi köç halları əhalinin sayını üçdə bir qədər azaltmışdı.

Əşrəf idarə etdiyi ərazidə əhalinin təbəqələşməsi haqqında xüsusi fərman vermişdi. Əlbəttə ki, bu təsnifatın əvvəlində əfqanlar özləri mövqe tutmuşdular. Daha sonra ermənilər, darqazinlər (İranın qərb torpaqlarında, Həmədan yaxınlığında yaşayan və əfqanlara qoşulan sünnilər), hind tacirləri, atəşpərəstlər, yəhudilər və ən sonda yeddinci və ən sonuncu təbəqə olan yerli iranlılar gəlirdilər ki, onlara da qul kimi münasibət göstərilirdi. Buna görə də yerli əhalidə əfqanlara, ruslara və türklərə qarşı bir nifrət yaranmışdı. Belə təbəqələşmə halları ölkənin müxtəlif yerlərində və əksəriyyəti keçmiş Şah Sultan Hüseynin qanuni varisi kimi qələmə verilən şəxslərin qaldırdıqları üsyanlara səbəb olurdu. Qiyamların heç biri əhəmiyyətli uğura səbəb olmurdu, çünki onların arasında hər hansı mütəşəkkil əlaqə mövcud deyildi. İsfahanın mühasirəsi zamanı ətraf kəndlərin nümayişkaranə şəkildə etiraza qalxması, Qəzvin əhalisinin əfqanlara qarşı inadkar müqaviməti, həmçinin Təbriz və Həmədanın uğurla müdafiə olunması üsyanların cilovlanmasını əhəmiyyətli dərəcədə çətinləşdirmişdi.

Əşrəf Təhmasibin baş verənlərə görə ciddi narahatlıq keçirdiyinə inanmırdı. Lakin belə görünür ki, Nadirin Herata qarşı həyata keçirdiyi uğurlu əməliyyat onu ciddi şəkildə düşünməyə vadar etmişdi. 1729-cu ilin avqustunda o, 30 minlik ordusu ilə Məşhədə Təhmasib qüvvələrinə qarşı hücuma başladı. Əşrəf düşünmüşdü ki, şah qüvvələri Əbdali tayfaları ilə müharibədə olduğundan yaranmış fürsəti dəyərləndirmək lazımdır. Ancaq Nadirin onun hücumuna bu qədər cəld reaksiya verəcəyi qətiyyən əfqan liderinin planlarına daxil deyildi. Əşrəfin əs-

gərlərinin böyük hissəsi onun Osmanlılarla müharibədəki uğurundan sonra orduya yeni qoşulmuş döyüşçülərdən təşkil edilmişdi. Əşrəf öz ordusunu şimala, Tehrana tərəf apardı. Yol boyu dağınıq Səfəvi qarnizonlarının əsgərləri də ona qoşuldu. Daha sonra Əşrəf üzünü şərqə – Xorasana tərəf çevirdi. Sentyabrın əvvəllərində o, Semnanı 40 minlik güclü ordu ilə mühasirəyə aldı. Nadir dərhal ordusunu və təchizatını nizama salaraq 12 sentyabr tarixində Təhmasibi əfqanları qarşılamaq üçün bura gətirdi. Onun ordusu əfqanlardan az idi. Nadirin ordusundakı döyüşçülərin sayı 25 min nəfərə çatırdı. Bir həftəlik yürüşdən sonra iranlılar Damğandan şimal-şərqə doğru 50 mil uzaqlıqda yerləşən Bastam məntəqəsində mövqe tutdular. Əşrəf öz növbəsində Nadirin yaxınlaşdığı xəbərini əldə edən kimi öz ordusuna Semnan istiqamətində hərəkət etmək əmrini verdi. Bundan xəbər tutan Nadir dərhal adamlarını Şahruda tərəf göndərdi. Burada Əşrəfin göndərdiyi Məhəmməd Seyidəli xanla Nadirin ordusu arasında atışma başladı. Nadirin təcrübəli döyüşçüləri üstünlüyü ələ keçirdilər və sorğu-sual olunmaları üçün əsir götürdükləri 14 nəfəri özləri ilə aparırlar. Nadir ordusunu irəli apararaq Şahrud çayı boyunca təpəli vadiləri qət edə bildi. Onlar əfqanların Mehmandost kəndindən bir neçə mil uzaqda yerləşən və iki böyük dəstəsinə və əsas qüvvələrinə yaxınlaşdılar. Mənbələrdən biri xəbər verir ki, həmin gecə təşkil olunmuş içki məclisində Təhmasib bu döyüşü udacaqları təqdirdə bacısını Nadirə ərə verəcəyini hər kəsin önündə elan edir.

Növbəti gün, 29 sentyabr 1729-cu il tarixində səhər tezdən Nadirin dəstələri dörd, əfqanlar isə üç hissəyə bölünmüş halda döyüş nizamı alırlar. Əşrəf özünə çox güvənirdi. Çünki əfqanların sayı Nadirin döyüşçülərindən

xeyli çox idi. O, mərkəzdən idarə etdiyi dəstəsinə iki yerə ayrılaraq və düşməni əhatəyə almağı əmr edir. İki və ya üç mindən ibarət seçmə döyüşçülərindən ibarət dəstəyə isə iranlıları məğlubiyyətə uğratdıqdan sonra Nadiri və Təhmasibi əsir almağı tapşırır. Artıq aydın idi ki, o, bu döyüşdən sonra irəliləyib Xorasanı tutmaq fikrinə düşəcək. Ordular irəli yeridikcə aralarındakı məsafə tamamilə daralırdı. XIX əsrdən fərqli olaraq o vaxt müharibələr başqa cür cərəyan edirdi. Hətta ən dəhşətli müharibələrdə belə insaniyyət əsla unudulmurdu. İnsanlar son anda bir-birlərinə dəstək olur, düşmən olsalar belə bir-birini öldürməkdən, yaralamaqdan çəkinməyə çalışırdılar. Müharibədə əsgərlər daha çox qəfil hücuma məruz qaldıqda düşmənlə amansız rəftar edirdilər. Döyüşçülər müharibə meydanına gəlməzdən qabaq yoldaşları ilə birlikdə yığılır, qarşılarındakı düşməni görmək üçün müşahidə aparırdılar. Döyüş nəğmələrində gözəl gəlin döyüşə hazırlanmış dəhşətli ordu ilə müqayisə olunurdu. Düşmənlər bir-birini axtarır, qarşı tərəfi aydın şəkildə görməyə və onun üstün cəhətlərini tapmağa çalışırlar. Tərəflərdən biri digərindən aşkar şəkildə üstün idisə, zəif tərəf geri çəkilməyə üstünlük verirdi.

Lakin ordular arasındakı təhlükəsiz məsafə qət edildikdən sonra geri çəkilmək təhlükəli idi. Bunu hər iki tərəf bilirdi. Ölümün gözünə baxmaq üçün, qorxu hissini tam şəkildə duymaq üçün, bəlkə də ondan ləzzət almaq üçün hər iki tərəfin kifayət qədər vaxtı var idi. Komandanlar uğur əldə etmək üçün ölümə, qurbanlar verməyə, hər şeyə hazır idilər. Əsgərlər də qələbə üçün hər şeyə razı idilər, hətta öldürüləcəklərini bilə-bilə... Axı niyə? Bu adamların əksəriyyəti cavan idi və gənclik enerjisi ilə dolu idilər. Bəlkə şöhrət xatirinə, bəlkə qarətlər naminə?

Lakin əsas amil onların mənsubiyyəti idi. Onlar yoldaşları ilə, qəbilədən olan qohumları, yaxın dostları ilə əhatə olunmuşdular. Hər kəs qorxurdu, lakin qorxulu əsas şey dostlarını itirmək duyğusu idi. Onlar ətrafdakıların gözündə ucalmaq üçün qəhrəmanlığa hazır idilər. İranlılar üzərində yeddi il əvvəl Golnobadda, şah ordusunun geyindiyi rəngbərəng döyüş libasları yox idi. Əksinə, indi intizamlı, sadə və uğur əldə etmək istəyən bir ordu vardı. Bu dəfə yubanma baş vermədi. Nadirin əsgərləri yerlərində durmur, eyni zamanda hücum üçün irəli də getmirdilər. Onlar düşmənin yaxınlaşmasından qabaq sağa doğru vadi istiqamətində geri çəkilməyə başladılar. Geri çəkilən hissələr bir neçə min atlı tərəfindən əhatələnmişdilər. Məhəmməd Seyidəli xanın başçılıq etdiyi əfqan dəstələri dərhal onlara tərəf hücuma keçdilər. Əfqanlar elə düşündülər ki, iranlılar geri çəkilirlər və artıq onların qələbəsi an məsələsidir. Lakin iranlılar geri çəkilmə manevrini həyata keçirməklə əfqanları şiddətli atəşə məruz qoydular. Gözlənilməz atəş əfqan süvarilərinin bütün döyüş nizamını pozur və onların sıralarında çoxsaylı tələfata gətirib çıxarır. Əfqanların Nadirin ordusunun mərkəzinə güclü zərbə endirmək cəhdləri iflasa uğrayır. Əfqan komandirləri ordunun pozulmuş döyüş nizamını bərpa etməyə cəhd göstərsələr də, Nadirin ordusu tərəfindən həyata keçirilən şiddətli artilleriya atəşi onların bütün səylərini yarımçıq qoyurdu. Eyni zamanda Nadirin tüfəngçiləri qəfil həmlə ilə əfqan qoşunlarının mərkəzində qüvvələri aramsız atəşin köməyi ilə əhəmiyyətli dərəcədə sıxışdırmağa müvəffəq olmuşdular.

Əfqanların qeyri-peşəkar şəkildə düzəldilmiş və hərbi qanunlara uyğun gəlməyən artilleriyası Nadirin peşəkar topçu və tüfəngçiləri qarşısında aciz qalmışdı. Mərkəz-

dəki qüvvələrin pərən-pərən düşməsi nəticəsində əfqan ordusunun döyüş nizamı tamamilə dağıldı və onlar qaçmağa başladılar. Əfqanların itkiləri 12.000 nəfərə çatmışdı. Günorta üçün artıq döyüşün taleyi tamamilə həll edildi. İranlıların tapdalanmış ləyaqəti özlərinə qaytarılmışdı, əfqanların isə Osmanlı dövləti ilə müharibədə qazandıqları qələbədən sonra sərhəd tanımayan iddiaları və ümidləri parça-parça olmuşdu. Onların İrandakı macərası məyusluqla başa çatmaq üzrə idi.

Nadir qaçıb canını qurtaran əfqan döyüşçülərinin təqib edilməsinə həvəs göstərmirdi. O, əlavə riskə getmir, ordusunu qorumağa çalışırdı. İranlılar qələbə çaldıqdan sonra Nadir Damğan üzərinə hücuma hazırlaşmağa başladı. Yolda olarkən o, Osmanlı dövlətinə elçi göndərərək Azərbaycanın işğal olunmuş ərazilərinin tezliklə azad edilməsini tələb etdi. Nadirin məsləhətləşmədən belə bir addım atması şahla onun arasında yenidən gərginliyə səbəb oldu. Şah inciyərək Nadirin düşərgəsini tərk etdi, onun qvardiyasının döyüşçüləri də şahın ardınca yollandılar. Ancaq Nadir onların arxasınca adam göndərdi və danışıqlar nəticəsində 5 gündən sonra şah geri dönməyə razılıq verdi. Hələlik inciklik onun qəlbindən silinmişdi. Təhmasib Nadirdən İsfahan üzərinə hücuma keçməsini, şəhərin ələ keçirilməsini istəyirdi. Lakin Nadir hazırkı vəziyyətdə Məşhədə çəkilib, qışı burada keçirib yeni qüvvələr toplamağa üstünlük verirdi. O, şaha İshafan üzərinə həlledici hücum üçün gələn ilin martını, yəni yazın gəlməsini gözləməyi məsləhət gördü. Tərəflər arasındakı mübahisə başa çatdı və tərəflər ilk növbədə əfqanlarla müharibəni başa çatdırmağa dair razılığa gəldilər.

Bu arada əfqanların lideri Əşrəf qaçaraq Varamin adlı məntəqədə gizlənmişdi. O, qoşunlarının sağ qalan hissəsi

ilə Tehrana çəkilərək gücünü bərpa etmək, Nadirdən bu məğlubiyyətin əvəzini çıxmaq istəyirdi. Lakin Nadirin göndərdiyi dəstələr Əşrəfi izləyərək ona göz açmağa imkan vermirdilər. Hücumların birində Əşrəf öz dəstəsi ilə birlikdə İsfahan istiqamətində qaçmağa başladı. Əfqanlar arxalarında topları və təchizatlarını qoyub qaçırdılar.

Aparılan döyüş əməliyyatlarında odlu silahlar və artilleriya əhəmiyyətli rol oynayırdı. Nadir özü də odlu silahın və artilleriyanın necə böyük gücə malik olduğunu yaxşı anlamış və ondan səmərli istifadə edə bilmək üçün müvafiq döyüş təlimləri işləyib hazırlamışdır. Lakin onun ordusunun əsas hissəsini piyadalar təşkil edirdi. Süvarilər tayfa və qəbilələrdən yığılan dəstələrin əsasında formalaşmışdı (türkmən, əfşar, qacar, kürd). Piyadalar əsasən möhkəm cavan kəndlilərdən toplanırdı. Onlar döyüşlərdə daha mübariz və cəsur idilər.

Əşrəfin yeganə məqsədi başsız qalmış İsfahanı nəzarət altına almaq idi. İsfahanda Əşrəf ona qarşı baş qaldıran qiyamın qarşısını almaq üçün 3000-ə yaxın dinc sakini və nüfuzlu din xadimini qətlə yetirmişdi. Onun adamları isə dükanları talamış, bazar meydanını da yandırmışdılar. Çıxılmaz vəziyyətə düşən Əşrəf Osmanlı qubernatoru Əhməd paşadan yardım istədi. Türklər ona kömək etməyə razılıq vermişdilər. Çünki, Osmanlı imperiyası İranda baş verən hərc-mərcliyin davam etməsində, onun daha da dərinləşməsində maraqlı idi.

Əşrəf aldığı kömәkdən sonra ordusu ilə İsfahandan çıxaraq 31 oktyabr tarixində Murçexor adlanan məntəqədə mövqe tutdu. Nadir həmin vaxt Təhmasibi Tehrana yola saldı. Söhbətin İsfahanın azad olunmasından getdiyi bir vaxtda o, mübahisəyə səbəb olacaq söhbətlərdən, qələbənin kimə şöhrət gətirəcəyinə dair ziddiyyətlərdən

sığortalanmağa çalışırdı. Nadir işini əvvəlcədən möhkəm tutmuşdu. Onun əmri ilə ordu cənubdan, daha uzun yolla irəlilədi. Çünki, dağlıq ərazilərdə ağır silahları daşımaq ciddi çətinliklər törədə bilərdi.

İran qoşunları yaxınlaşdığı zaman onların önündəki qüvvələr – Qaracorlu kürdləri gecə ikən əfqan kəşfiyyat dəstələrinə həmlə edərək 100 nəfəri əsir aldılar. Əşrəf Murçexora çatdıqda Nadirin qoşunları artıq orada idi. 13 noyabr 1729-cu il səhər çağı Əşrəfin müdafiə mövqeyini tutmuş qoşunlarına hücum etmək əvəzinə, Nadir onları daha düzənlik ərazilərə cəlb etməyə çalışır, İsfahanın tutulacağına dair şüarlar səsləndirirdi. Nadir ordusuna çağırışlar edir, havaya atəşlər açılır, müharibə ruhlu nəğmələr səslənirdi. Çoxsaylı musiqiçilərin səsləndirdikləri hərbi marşlar müsəlman ölkələrinin ordularında mühüm əhəmiyyətə malik idi. Nəğmələrdə ordunun komandanı müharibənin əsas siması kimi şərəflə vəsf olunur və İbn Xəldunun yazdığı kimi "allah" adlanırdı; bayraqlar, şeypurların çalınması və s. kimi ruhlandırıcı tədbirlər görülürdü. Onlar inanırdılar ki, bu hərəkətlər dostları fərəhləndirir, düşmənləri isə təlaşa salırdı. İbn Xaldun qeyd edirdi ki, "əlbəttə, musiqi eşitmək və dinləmək qəlbin rahatlığına və həyəcana səbəb olur". Beləliklə də çalınan əzəmətli musiqilər insanın ruhi aləminə təsir edərək, onda hər şeyə laqeydlik yaradır, ölümə hazır vəziyyətə gətirirdi.

Əşrəf yerindən tərpənmir və tutduğu mövqeləri qorumağa çalışırdı. O öz adamlarını Nadirdən öyrəndiyi taktikaya əsasən silah-sursatını cinahlarda, piyadaları isə mərkəzdə yerləşdirir ki, manevr etmək daha asan olsun. O, Nadirin yeni döyüş üslubunu onun özünə qarşı istifadə etmək istəyirdi. Əşrəf ordusundakı artilleriya sayını artırmaqla üstünlük qazanacağını düşünürdü. Lakin bütün bu

cəhdlər əbəs idi. Çünki, Nadirin illərlə hazırladığı yeni döyüş üsulunun incəliklərini bir neçə həftə ərzində öyrənib, ona qarşı əks tədbirlər hazırlamaq mümkün deyildi. Nadir əsgərlərinə komandanlarına tabe olmağı tapşırdı, süvari ordusuna isə ani hücumlara məruz qalmamaq üçün talanlara baş qoşmamağı əmr etdi. Həmin vaxt Nadirin ordusu var qüvvəsi ilə hücuma keçdi. Əfqan atlıları yaranmış gərginlikdə bir neçə həmləyə cəhd etsələr də onların heç biri nəticə vermədi. Göy üzü tüstüdən, atılan bombalardan və istifadə olunan tozlardan tamamilə qara rəngə boyanmışdı. Nadirin ordusu Əşrəfin ağır silahlarını ələ keçirməyə müvəffəq olmuşdu və əfqanlar pərakəndə şəkildə qaçmağa başlamışdılar. Dərhal İsfahana geri qayıdan Əşrəf elə o axşam əlinə keçən bütün dəyərli əşyaları, pulları yük heyvanlarına yüklətdirib Səfəvi xanədanına mənsub qadınlarla birgə şəhərdən qaçır. O, səhərin açılmasına bir saat qalmış Şiraza doğru yola çıxır.

Döyüşdə xeyli sayda Osmanlı əsgəri də əsir götürülmüşdü, lakin Nadir onlarla humanist şəkildə davranırdı, hətta türk əsirlərinin Bağdada qayıtmasına icazə də vermişdi. Nadir həmçinin onun icazəsi olmadan 16 noyabr tarixində İsfahana daxil olaraq və əfqanların əmlakını talan etmiş əsgərlərinin də cəzasını verməyi düşünürdü.

Şəhərdə talanlar və qarətlər bir anda hər yeri bürüsə də, tezliklə onları cilovlamaq mümkün oldu. Hərbiçilər şəhərdə nəzarəti tamamilə ələ aldılar. Həm İsfahanda, həm də bəzi başqa şəhərdə qalmış əfqanlarla da humanist şəkildə rəftar olunurdu. Onların çoxu azadlığa buraxıldı. Əfqanların qoyub qaçdıqları dəyərli əşyalar qənimət kimi əsgərlər arasında bölüşdürüldü. Qisas almaq istəyənlərə isə Mahmud Gilzainin qəbrini açmağa icazə verildi.

Nadir 1729-cu il 9 dekabr tarixində şəhər kənarında Şah Təhmasibi rəsmi mərasimlə qarşıladı. Təhmasib Nadiri gördükdə, atından endi, sanki hörmət əlaməti kimi öz borcunu ödəmək istəyirdi. Sərkərdə də eyni cür hərəkət edir, ona hörmət əlaməti kimi qarşısına gəlir və onun göstərdiyi ehtirama eyni ilə cavab verir. Şah onun düşmənlərini İsfahandan çıxaran və ölkəni xilas edən şəxsə xoş münasibətini göstərmək üçün onunla birgə bir neçə addım irəliləyir. Azca söhbət etdikdən sonra şah irəli keçir və onun ardınca xan öz ordusu ilə gəlir.

Şəhər əhalisi Təhmasibi sevinclə qarşılamışdı, lakin o, əfqanların vurduqları ziyanın həcmini gözləri ilə gördükdə, yaşanan xoşbəxtlik kədər göz yaşları ilə əvəz olundu. O öz sarayında dolaşarkən qulluqçu qiyafəsinə bürünmüş və hərəmxanada nəzarətçi olan yaşlı bir qadın onun boynuna sarılmışdı. Şah bu qadının öz anası olduğunu anladı. İsfahanda əfqan işğalı başa çatmışdı, lakin Səfəvi sülaləsinin hakimiyyətinin bərpasına sevinmək mənasız idi.

## IV FƏSİL

# OSMANLILARLA MÜHARİBƏ

*Yırtıcılarla mübarizə aparan insan mübarizə əsnasında özünün də yırtıcıya çevrilməməsinə diqqət yetirməlidir.*

***F.Nitşe***

Şah Təhmasib və İsfahan xalqı əfqan istilasının başa çatmasından, onların paytaxtdan qovulmasından çox xoşbəxt idilər. Səfəvi hakimiyyətinin bərpa olunmasını hər kəs məmnuniyyətlə qarşılamışdı. Lakin tezliklə məlum oldu ki, Nadirin şəhərin azad olunması işində güddüyü məqsədlərlə əhalinin və şahın istəkləri qətiyyən üst-üstə düşmür. Kənardan necə görünməsindən asılı olmayaraq Nadir yeganə və həlledici güc sahibi idi. Tezliklə o da aydınlaşdı ki, onun İsfahan və şah hakimiyyəti barəsində intiqamçı düşüncələri hər şeyə üstün gələcək qədər güclüdür.

İranın əfqan talanlarından sonrakı vəziyyəti qoşunların uzunmüddətli təminatını həyata keçirməyə qətiyyən kifayət etmirdi. Ərzaqları qurtaran və təminatları zəifləyən əsgərlər əhalini incitməyə başlamışdılar. Sadə insanlar döyülür, məcburən onların əlindən sonuncu pulları alınırdı. Şəhərdəki evlərin qarət edilməsi isə adi hala çevrilmişdi. Pul əldə edə bilmədikdə əsgərlər daha amansız hərəkətlərə əl atır, kasıb, ödəniş etmək iqtidarında olmayan insanları qula döndərib kölə kimi bazarda satmaqdan belə çəkinmirdilər.

Deyilənə görə, əsgərlərdən hansısa nüfuzlu və zəngin bir şəxsin həyat yoldaşını zorlamışdı. Həmin şəxs Nadirin yanına gələrək çox böyük təhqirə məruz qaldığını bildirərək, bu iyrənc əməli törətmiş əsgərin cəzalandırılmasını tələb etdi. Nadir həmin şəxsi xeyli dinlədikdən sonra ona belə bir cavab verdi: "Məncə də sən bu təhqirlə yaşaya bilməzsən". Bu sözlərdən sonra o, həmin adamın edam olunması barəsində tapşırıq verdi. Daha sonra Nadir öz əsgərlərinə xəbərdarlıq etdi ki, kimsə bir daha belə bir hərəkətə cəsarət etsə, o, ölkənin düşmənləri ilə mübarizəni buraxıb ordunun cəzalandırılması ilə məşğul olacaqdır. Orduda sərt nizam-intizam tədbirləri görüldü və qayda-qanun təmin edildi.

Bu hadisə o dövrdə İranda qadınlara bəslənən münasibətin səciyyəsini başa düşməyə imkan verir. Köçəri tayfaların və təsərrüfatla məşğul olan əhalinin iqtisadi həyatı qadının roluna da müəyyən mənada təsir göstərmişdi. Kişilər öz həyat yoldaşlarını və ailənin digər qadın üzvlərini kənar baxışlardan uzaqda, evin bir guşəsində saxlayırdılar. Bu qaydanın az da olsa pozulması şərəfsizlik hesab edilir və istehza ilə qarşılanırdı. Sənətkarların, tacirlərin və yuxarı dairələrdə təmsil olunan şəxslərin həyat yoldaşları daha sərt məhdudiyyətlərlə üzləşir, ətraf aləmdən təcrid olunmuş şəkildə yaşayırdılar.

Holland və ingilis Ost-Hind şirkətlərinin rəhbərləri Nadirin İsfahanı tutmasından ən çox razı qalan tərəflər idi desək, səhv etmiş olmarıq. Onlar ümid edirdilər ki, vəziyyətin sabitləşməsi, əfqanların qovulması, Səfəvi hakimiyyətinin bərpası onlara uzun sürən dağıntı və müharibələrdən sonra nəhayət ki, rahat bir şəkildə ticarətlə məşğul olmağa imkan verəcək. Onlar iqtisadi vəziyyəti ağır olan, pula ehtiyac duyan Səfəvilərdən yeni ticarət güzəşt-

ləri qoparmağa ümid bəsləyir, İran bazarındakı mövqelərini möhkəmləndirmək üçün hər vəchlə yaranmış vəziyyətdən öz xeyirləri üçün istifadə etməyə çalışırdılar. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, o dövrdə İsfahanın avropalılar icması fransız konsulundan, əsasən fransız olan bir neçə din xadimindən, ingilis və Ost-Hind şirkətlərinin rəhbərlərindən və nümayəndələrindən ibarət idi. İsfahanın ələ keçirilməsi Nadirə ilk dəfə olaraq avropalı diplomat və tacirlərlə görüşmək, birbaşa ünsiyyət yaratmaq imkanı yaratmışdı. İsfahanda olduğu 6 həftə ərzində Nadir avropalılarla, daha dəqiq desək, ingilis Ost-Hind şirkətinin nümayəndələri ilə bir neçə dəfə görüşdü, onlarla xoş və səmimi münasibətlər yaratmağın tərəfdarı olduğunu nümayiş etdirməyə çalışdı. Nadir hətta ingilis şirkətinə əfqanların şəhəri işğalı müddətində dəymiş zərəri aradan qaldırmağa da kömək edəcəyinə söz verdi. Bunun müqabilində o, ingilislərin əfqanlara mümkün köməyinin qarşısını almağa ümid edir, onlardan qaçan əfqanlara əsla yardım etməmələrini istəyirdi. Eyni vaxtda şah da ingilis tacirlərini yüksək səviyyədə qarşıladı və onlara qonaqpərvərlik nümayiş etdirdikdən sonra dəymiş maddi zərərin ödəniləcəyinə dövlətin də çalışacağını bildirdi.

Həm hollandlar, həm də ingilislər hakimiyyətin həqiqi sahibi olan Nadirin rəğbətini qazanmaq üçün ona bahalı hədiyyələr təqdim etmək məsələsində bir-biriləri ilə yarışa girmişdilər. Əvvəlcə ingilis şirkətinin təmsilçisi Nadirin hüzuruna gələrək ona bahalı ənamlar təqdim etdi. Bundan xəbər tutan holland şirkətinin nümayəndəsi də vaxt itirmədən Nadirin görüşünə yollanaraq ona qiymətli hədiyyələr apardı. Lakin ingilis və hollandlar kimi Nadirin də öz planları var idi və o, tərəflər arasındakı rəqabətdən özünə uyğun bir şəkildə istifadə etməyə çalışırdı. Nəha-

yət ki, bir dəfə onun əlinə belə bir əlverişli fürsət düşdü. Məsələ burasındadır ki, istər hollandlar, istərsə də ingilislər bir-birini Nadirin gözündən salmaq üçün cəhdlər edirdilər. Lakin uzun müddət bu fəaliyyət gizli şəkildə aparılırdı. Zamanla isə ingilislərlə hollandlar arasındakı qarşıdurma açıq şəkil alır. İlk olaraq hollandlar ingilislərin əfqanlara gizli yardım etdikləri iddiaları ilə Nadirə müraciət edirlər. İngilislər də onlardan geri qalmayaraq eyni ittihamı hollandlara qarşı irəli sürürlər. Nadir yaranan bu çəkişmədən bəhrələnmək fürsətini əldən vermir və özünü elə göstərir ki, guya hollandların ittihamları ona daha əsaslı və inandırıcı təsir bağışlamışdır. İngilisləri cəzalandırmaq adı altında o, yaxın adamlarından ibarət silahlı dəstəni ingilis şirkətinin qərargahına göndərir. Silahlılar ingilis şirkətinin rəhbər şəxsləri olan Kokkel və Qikaydan ümumilikdə 3000 tümən pul tələb etdilər və bu vəsaitin 1000 tüməninin dərhal ödənməsini istədilər. Əks halda onlar ingilis nümayəndələrini güc tətbiq edəcəkləri ilə hədələdilər. Uzun sürən danışıqların nəticəsində ingilislər yalnız 300 tümən ödəyəcəklərini bildirdilər. Həmin vəsaiti alan silahlılar özləri ilə birgə ingilis şirkətinə məxsus atları da apardılar.

Bu özbaşınalıqdan hiddətlənən ingilislər dərhal şahın hüzuruna gedib Nadirdən şikayət edərək, tədbir görülməyəcəyi təqdirdə, şəhərdən gedəcəklərini bildirdilər. Şahın ingilis nümayəndələrinə şəxsi rəğbəti olduğundan onları böyük hərarətlə qarşılayır, lakin onun özü də gözəl başa düşürdü ki, real iqtidar sahibi deyil. Heç bir şeyə baxmayaraq, şah məsələni araşdıracağına və ingilislərə dəymiş ziyanın ödəniləcəyinə söz verdi. Üstəlik o, ingilis nümayəndələrindən xahiş etdi ki, İsfahanı tərk etməsinlər və şəhərdə qalıb fəaliyyətlərini davam etdirsinlər. Şahla

görüşdən və aldıqları vədlərdən sonra ingilislər İranı tərk etmək fikrindən daşındılar, vəziyyətin düzəlməsini gözləmək qərarına gəldilər.

Bu arada Nadir öz mövqelərini gücləndirmək üçün daha bir addım atdı. Belə ki, o şahın xəbəri olmadan onun bacılarından biri Raziyə Bəyimlə izdivac bağladı. Daha sonra isə şahdan öz böyük oğlu Rzaqulu Mirzənin mərhum Şah Sultan Hüseynin qızlarından biri Fatimə Sultan bəyimlə nikahına formal icazə aldı. Nadirin bu hərəkətləri əslində, onun güc nümayişindən savayı bir şey deyildi. Nadir özünün iqtidarın yeganə sahibi olduğunu başa düşmüşdü və bunu başqalarına da izah etmək istəyirdi. Mənbələrdə hətta belə məlumat da var ki, Nadir bir müddət şaha nazir və əyanları müvafiq vəzifələrə təyin etməyə imkan vermirdi. O öz mövqeyini bununla izah edirdi ki, nazirlər və əyanlar dəbdəbəli və böyük məsrəflər tələb edən həyat tərzi keçirirlər. Yəni, onların saxlanılması büdcəyə baha başa gəlir. Ordu isə ölkənin və hakimiyyətin əsas dayağı rolunu oynadığından həmin vəsaitin ordunun maaşlarına sərf edilməsi daha məqsədəuyğun olardı. Ümumiyyətlə, Nadirin ordudakı nüfuzu çox böyük idi və ordu onun siyasi mübarizədə əsas dayağı rolunu oynayırdı. Şah Təhmasib də vəziyyəti başa düşür və anlayırdı ki, Nadir İsfahanda olduğu müddətdə onun real şəkildə hakimiyyətə yiyələnməsi xülya olaraq qalacaq. Ona görə də o, Nadirdən tələb etdi ki, Səfəvi nəslinin şərəfini xilas etmək üçün tədbir görüb dərhal mərhum Şah Sultan Hüseynin əfqan hakimi Əşrəfin əsirliyindəki övladlarını azad etsin. Bu məqsədlə Nadirin Şiraz istiqamətinə yeni səfər etməsi tələb olunurdu. Nadir bir qədər vaxt istədi və əsgərlərinin əfqanlarla müharibədə yorulduqlarını, istirahət etməli olduqlarını dedi. Lakin bü-

tün bunlar bəhanə idi. Nadir vaxt uzatmaq hesabına şahdan özü üçün əlavə güzəştlər, xüsusilə də mülk kimi onun ixtiyarına veriləcək yeni ərazilər qopartmağa çalışırdı. Onun şahın bacısı ilə nikahı da bu məqsədə hesablanmışdı. Təsadüfi deyil ki, Nadir həm özünün, həm də oğlunun toyunun Məşhəddə olacağını elan etdi və bununla da şaha Məşhəd şəhərini əfqanlarla müharibənin gedişində qələbə təqdirində onun idarəçiliyinə veriləcəyinə dair vədi xatırlatdı.

Təhmasib ağsaqqallar məclisini toplayıb onun vasitəsilə Nadirə təzyiq edib onu yürüşə göndərməyə də cəhd göstərdi. Lakin ordunun Nadirin qərarını dəstəkləməsi şahı güzəştə getməyə məcbur etdi. Şah Xorasanı, Mazandaranı və Kirmanı Nadirə mülk kimi hədiyyə verdiyini bildirdi. Nadir də öz növbəsində tezliklə bütün Xorasanı düşmənlərdən azad edəcəyinə, həmçinin Şirazı tutub Səfəvi nəslinin nümayəndələrini azad edəcəyinə söz verdi. Həmçinin şah tərəfindən Nadirə sözügedən vilayətlərdə xəzinəyə gedəcək vergiləri toplamaq hüququ da verilmiş oldu. Hər kəs Nadirin vergilərin toplanması məsələsində nə qədər amansız və güzəştsiz olduğunu yaxşı bilirdi. Onun bu məsələdəki qəddar davranışı zamanla bütün ölkədə ona qarşı qorxu hissi formalaşdırmışdı. Deyilənlərə görə, İsfahan sakinlərindən biri Nadirə nəyəsə görə cərimə ödəməli idi. Nadir bu cərimənin alınmasını yerli vergi məmurlarından birinə həvalə etdi. Lakin vergi məmuru aldığı pulu heç kəsə demədən qadınlarla əylənməyə və şəraba xərclədi. Bir neçə həftədən sonra Nadirin adamları onu şəhərin böyük bazarında yaxalamağa müvəffəq oldular. Onun başı kəsilərək Nadirə təqdim olundu. Bu hadisə Nadirin maliyyə məsələlərinə nə qədər həssas yanaşmasının təcəssümüdür. Xalq ara-

sında Nadirin insanı vahiməyə salan qəddarlığı haqqında çoxsaylı rəvayətlər dolaşırdı. Ola bilsin ki, bu rəvayətlərin çoxu uydurmadır. Lakin onların tamamilə həqiqətdən uzaq olduğunu da demək olmaz. Çünki, həmin dövrün insanları az da olsa həqiqətəuyğun olmayan rəvayətləri qətiyyən danışmazdılar.

Nadirin Raziyə Bəyimlə izdivacının dəqiq tarixi haqqında bizdə heç bir məlumat yoxdur. Raziyə Bəyim vaxtilə əfqan hakimi Əşrəf tərəfindən əsir aparılması ilə barışmamış və canını əfqan əsirliyindən qurtara bilmişdi. Buna baxmayaraq o, əfqanların onun atasını və digər kişi qohumlarını öldürməsinin canlı şahidi olduğundan ciddi psixoloji zərbə almışdı. Onun Nadirlə izdivaca qədər olan həyatının şüurlu hissəsi İsfahanın hərəm otaqlarında keçmişdir. Lakin izdivacdan sonrakı növbəti 20 ili bu xanım at belində, Nadirin yürüşləri zamanı onu müşayiət etməklə keçirməli olacaqdı. Nadir bu nikahın bağlandığı zaman artıq Gövhərşah adlı xanımla evli idi. Bu xanım onun əvvəlki hamisi Baba Əli xanın kiçik qızı idi. Çox ehtimal ki, hərəmdə bu iki qadın arasında daim gərginlik hökm sürmüşdür, lakin bizim bu barədə heç bir məlumatımız yoxdur. Nadirin digər xanımları haqqında isə biz demək olar ki, məlumatsızıq. Lakin son dövrlərdə aparılan bəzi tədqiqatlar sayəsində bir sıra məsələlərə qismən də olsa aydınlıq gətirmək mümkün olmuşdur.

Tarixçilər, ümumiyyətlə, o dövrdə qadınlar və onlar arasındakı münasibətlər haqqında birmənalı məlumatlar vermirlər. Dövrümüzə qədər gəlib çatan məlumatlarda qadınların hətta sosial-dini qaydaları pozduqları, əxlaq çərçivələrindən çıxdıqları və hamamlarda nalayiq hərəkətlərə yol verib ərlərinə itaət etmədiklərinə dair qeydlərə də rast gəlmək mümkündür. Məsələn, XVII əsrin sonlarına

aid olan bir mətndə bir qadının İsfahandan Məkkəyə Həcc ziyarətinə yollanması və bu zaman etdiyi işlər onun özü tərəfindən qələmə alınmış şeirdə əksini tapıb. Həmin qadının əri Şah Sultan Hüseynin saray katiblərindən biri idi. Şeirdən belə məlum olur ki, Həcc ziyarətindən sonra həmin xanım özbaşına Təbrizə yollanmış və orada yaşayan rəfiqəsinin evində qonaq qalmışdır. O zamanlar üçün qadının təkbaşına səyahətə çıxması qəbuledilməz hal hesab olunurdu və belə məsələlər ictimai tənqid hədəfinə çevrilirdi.

Nəhayət ki, Nadir izdivac vasitəsilə Təhmasibdən istədiyi güzəştləri qopara bilmişdi. 1729-cu ilin 24 dekabr Nadir öz ordusu ilə birgə əfqan hakimi Əşrəflə məsələni birdəfəlik həll etmək üçün Şiraza doğru yola çıxdı. O, Şiraz yaxınlığında Zərqan adlı yerə çatdıqda məlum oldu ki, Əşrəf 20.000 nəfərlik qoşunu ilə Nadirin ordusunu qarşılamağa hazırlaşır. Tərəflər arasında baş verən döyüşdə əfqanlar şücaətlə və inadla vuruşsalar da, Nadirin hərbi məharəti hər şeyi iranlıların lehinə həll etdi. Əfqan döyüşçülərinin bir çoxu həlak oldu. Əşrəf isə Şiraza qaçmağa müvəffəq oldu. Nadir əsgərlərinə şəhəri mühasirəyə almağı tapşırdı. Lakin Əşrəf elçi göndərərək sülh imzalamağa hazır olduğunu bildirdi və Nadirdən mərhəmət istədi. Öz növbəsində Nadir əsirlikdə olan Səfəvi şahzadələrinin qaytarılacağı təqdirdə sülh bağlamağa razılığını bildirdi. Doğrudur, əsirlikdə olanların çoxu azadlığa buraxıldı, ancaq Əşrəf vədini yerinə yetirməyərək ətrafındakıların məsləhətinə qulaq asaraq qaçdı. Nadir aldadıldığını başa düşdükdə, Əşrəfin tutulması üçün 500 nəfərdən ibarət say-seçmə əsgərini göndərdi. Döyüş zamanı əfqanlar darmadağın edildi, lakin Əşrəf bu səfər də qaçıb canını qurtara bildi. Şiraza qayıdan Nadir əsgərlərinə Əşrəfi sona qədər təqib etməyi tapşırdı. Əşrəfin tərəfdarla-

rının bir hissəsi Fars körfəzi istiqamətinə yollanaraq qayıqlar vasitəsilə ərəb qəbilələrinin yaşadıqları ərazilərə keçməyə cəhd göstərdilər. Bu zaman onların böyük əksəriyyəti həmin qəbilələrin hücumuna məruz qaldılar və qətlə yetirildilər. Digər əfqanlar isə əsir götürüldülər və uzun illər əsirlik həyatı ilə barışmalı oldular. Əşrəfin özünə gəlincə, o Qəndəhar istiqamətinə, yəni Şərqə doğru hərəkət edərək, Əfqanıstanın dağlıq ərazilərində sığınacaq tapmaq istəyirdi. Lakin Qəndəharın hakimi, Nadirə sadiq olan Hüseyn Sultanın göndərdiyi dəstələr Zərdkuh adlanan yerdə Əşrəfi və onun ətrafındakıları haqlayaraq qətlə yetirdilər. Hüseyn Sultan bu xəbəri Nadirə çatdırdı. Əşrəfin və ordusunun məhvi Nadirə digər strateji məqsəd – Osmanlı türklərinin Azərbaycan ərazisindən təmizlənməsi uğrunda mübarizəyə başlamasına imkan yaratmışdı.

Əşrəf üzərində qələbədən sonra Nadir bir müddət Şirazda qaldı və müharibənin ciddi zərbələr vurduğu şəhərin bərpası üçün 1500 tümən məbləğində yardım da göstərdi. Əfqanlarla müharibənin gedişində Şiraz sakinlərinin xeyli hissəsi döyüşlərdə həlak olmuşdu. Nadir Şirazın da daxil olduğu Fars vilayətinə yeni hakim təyin etdi. Bu, Məhəmmədəli xan idi. Onun ilk gördüyü işlərdən biri isə şəhərdə çoxsaylı yaşıllıqların, xüsusilə də böyük bağların salınması oldu. Eyni zamanda Nadir Şirazdan Hindistandakı Böyük Moğol imperatoruna məktub göndərərək onu İranda cərəyan edən hadisələrlə tanış etdi. O, əfqanların məğlubiyyətə uğradıldığını, İsfahanın azad olunduğunu bildirdi, həmçinin bu yaxınlarda Qəndəhar istiqamətinə yürüş edəcəyinə dair xəbərdarlıq etdi. Nadir imperatora yazdı ki, döyüş əməliyyatlarına başlayacağı təqdirdə, onun ölkəsinə üz tutacaq əfqan qaçqınlarını qəbul etməsin.

Nadir bütün hazırlıqlarını türklərlə müharibəyə yönəltmişdi. O hələ əfqan işğalı ilə mübarizə dövründə həm Osmanlı dövlətindən, həm də Rusiyadan yardım istəmiş, lakin heç bir cavab almamışdı. Ruslar proseslərə qarışmaqdan imtina etsələr də, türklər məzhəb təəssübkeşliyi səbəbindən əfqan tayfa başçılarına, xüsusilə də Əşrəfə siyasi dəstək göstərirdilər. İranda hökm sürən pərakəndəlik və mərkəzi hakimiyyətin zəifliyi hər iki dövlətin mənafelərinə cavab verirdi. Belə ki, Rusiya həmin dövrdə Azərbaycanın Xəzər sahilində yerləşən vilayətlərinə nəzarət edirdi, Osmanlı dövləti isə Həmədana qədər Azərbaycanın quru ərazilərinin böyük əksəriyyətini öz torpaqlarına qatmışdı. II Təhmasib əfqanlar üzərində qələbədən sonra Osmanlı dövlətinə səfir göndərərək Azərbaycan ərazilərinin boşaldılmasını tələb etdi. Danışıqlar uzun çəksə də, yekunda tərəflər belə razılaşdılar ki, Osmanlı dövləti işğal etdiyi əraziləri qaytaracaq, Səfəvilər isə türklərin müharibə gedişindəki xərclərinə müvafiq maddi təzminat ödəyəcəklər.

Lakin tərəflər danışıqların nəticəsini sənədləşdirməyə macal tapmamış, Nadir 1730-cu ilin iyununda Osmanlı dövlətinə qarşı genişmiqyaslı hərbi əməliyyatlara başladı. O, iyun ayının ortalarında gözlənilmədən Nəhavənd yaxınlığındakı türk qarnizonuna hücum edib onu məğlubiyyətə uğratdı. Türk ordusu təlaş içində geri çəkilməyə başladı və Nadir qarışıqlıqdan istifadə edərək Həmədan şəhərini tutdu. Bununla kifayətlənməyən Nadirin qoşunları hücumu davam etdirib Ərdəlan və Kirmanşahı da nəzarət altına aldılar. Osmanlı dövləti Səfəvilərlə apardığı danışıqlar prosesini dayandırıb 24 iyul tarixində qarşı tərəfə müharibə elan etdi. Müharibə elanına baxmayaraq, Osmanlı tərəfi Bağdad valisi Əhməd paşaya tapşırıq verdi

ki, müharibə hazırlıqları ilə yanaşı, mümkün sülh yollarını da axtarmağı unutmasın. Lakin Nadirin inadkarlığı sülhə olan son ümidləri də dəfn etdi. Nadir Dimdim və Marağa arasında, Miyanduab adlı məntəqədə mövqe tutmuş Osmanlı ordusuna güclü zərbə endirdi. Türklər Nadirlə açıq döyüşdən yayınaraq Marağaya doğru geri çəkilib müdafiə mövqeyi tutmağa cəhd göstərdilər. Ancaq Nadirin iti və qətiyyətli manevrləri türklərə mövqe tutub müdafiə olunmağa imkan vermədi. 20 mil məsafədə türk əsgərlərini təqib edən Nadirin endirdiyi həlledici zərbə nəticəsində türk qoşunları darmadağın edildi, çox sayda Osmanlı əsgəri əsir götürüldü. Nəticədə Marağa, Dimdim və Savçubulaq əraziləri də Nadir tərəfindən azad olundu. İki günlük fasilədən sonra Nadirin ordusu Urmiya yaxınlığında mövqe tutan Osmanlı qoşunlarına həmlə etdilər. Osmanlılar bu səfər də açıq döyüşdən yayınaraq Təbriz qalasına çəkildilər. Bu zaman Təbrizdə gözlənilmədən türk qoşunlarının komandanı Mustafa paşa qiyam qaldıraraq mərkəzi komandanlığa tabe olmaqdan boyun qaçırdı. Üsyan nəticəsində Osmanlı qarnizonunun bir hissəsi qılıncdan keçirildi. Üsyançılar şəhərdən çıxmağa macal tapmamış Nadir yenə də gözlənilməz hücum taktikasından istifadə edib onları məğlubiyyətə uğratdı. 12 avqust tarixində Nadir qalib kimi Təbrizə daxil oldu. Türklər Təbrizin itirilməsi ilə barışmaq istəmirdilər və bir neçə gündən sonra Rüstəm paşanın rəhbərlik etdiyi digər bir Osmanlı ordusu Təbriz üzərinə yeridildi. Nadir bu səfər də hadisələri qabaqlayaraq onlara şəhərə aparan yolun üzərində hücum etdi. Osmanlı ordusu darmadağın edildi, Rüstəm paşa və digər yüksək rütbəli Osmanlı zabitləri isə əsir düşdülər. Nadir hərbi əsirlərlə xoş davrandı və onlara vətənlərinə geri dönməyə şərait yaratdı.

Osmanlı sarayında bu məğlubiyyətin bütün məsuliyyətini baş vəzir İbrahim paşanın üzərinə yıxdılar. İbrahim paşa təbiəti etibarı ilə həlim bir insan idi və sülh tərəfdarı kimi tanınırdı. Lakin cəbhədə baş verən uğursuzluqlar və ölkədəki mürəkkəb sosial vəziyyət 1730-cu il 28 sentyabr tarixində bütün Osmanlı dövlətini lərzəyə gətirən Patron Xəlil üsyanı ilə nəticələndi. Üsyançılar İbrahim paşanı və III Sultan Əhmədi hakimiyyətdən kənarlaşdırdılar və taxta Sultan II Mahmud çıxdı. Osmanlı imperiyasında yaranmış daxili siyasi problemlər Nadirin öz fəthlərinin coğrafiyasını genişləndirməsinə şərait yaratmışdı. Nadir də vəziyyətdən əlverişli şəkildə istifadə edib yürüşlərini davam etdirməkdə qərarlı idi. Ancaq bu dəfə baş verən gözlənilməzlik Nadirin lehinə olmadı və onun öz planlarını dəyişməsinə səbəb oldu. Belə ki, Nadir belə bir xəbər aldı ki, Heratda əfqan hakimləri arasında münaqişə baş vermiş, Nadirə sadiq olan Allahyar xan onun düşməni Zülfüqar xan və tərəfdarları tərəfindən sıxışdırılaraq şəhərdən çıxarılmışdı. Lakin Zülfüqar xan bununla kifayətlənməmiş Məşhədə doğru irəliləyərək şəhəri mühasirəyə almağa cəhd göstərmişdi. Həmin vaxt Məşhədi Nadirin qardaşı İbrahim idarə edirdi. Nadir qardaşına qətiyyən əfqanlarla açıq döyüşə girməməyi və özünün gəlişinə qədər müdafiə mövqeyi tutmağı tapşırdı. İbrahim qardaşının məsləhətinə əməl etmədi və özündən arxayın bir şəkildə əfqanlara hücum etdi, ancaq itki verib geri çəkilmək məcburiyyətində qaldı. Məşhəd Nadir üçün strateji əhəmiyyətə malik şəhərlərdən sayılırdı, ona görə də o, vaxt itirmədən Təbrizdən Məşhədə doğru istiqamət götürdü. Azərbaycanı tərk etməzdən əvvəl 60.000 ailədən ibarət türk tayfalarının, o cümlədən əfşar qəbiləsinin nümayəndələrinin Xorasana köçürülməsinə dair əmr verdi. 11 no-

yabr tarixində Nadir Məşhədə çatdı və əfqanlarla müharibə hazırlıqlarına başladı.

Nadirin Məşhədə gəlməsindən xəbər tutan Zülfüqar xan özünə əlavə dəstək almaq üçün Qəndəhar hakimi Sultan Hüseynin yanına getdi. Əvvəlcə onlar arasındakı danışıqlar nəticə vermədi, lakin sonradan tərəflər razılığa gələ bildilər və Qəndəhar hakimi kömək məqsədilə 3000 döyüşçü göndərdi. 1731-ci ilin yanvarında oğlu Rzaquluya təntənəli şəkildə toy mərasimi təşkil edən Nadir Novruz bayramını da Məşhəddə keçirdi. Bayramdan dərhal sonra o, Herata doğru hərəkətə başladı. Heratın tarixi çox qədim dövrlərə gedib çıxır və onun haqqında məlumatlara antik mənbələrdə belə rast gəlmək mümkündür. Vaxtilə Teymurilər də onu öz dövlətlərinin paytaxtına çevirmişdilər.

Heratın mühasirəsinə qədər Nadirlə əfqan sərkərdələri arasında bir neçə şiddətli döyüş baş verdi. Döyüşlərin birində Nadir az qala əsir düşəcəkdi, lakin onun mühafizə dəstəsinin şücaəti və çevikliyi nəticəsində o, əfqan döyüşçülərinin əhatəsindən sivişib çıxmağa müvəffəq olmuşdu. Bir dəfə isə əfqan topçuları onun çadırını atəşə tutmuş, lakin xoşbəxtlikdən uçan çadır Nadirə heç bir xəsarət yetirməmişdi. Döyüşlərin birində isə Nadirin əsgərləri Zülfüqar xanın qoşunlarına ağır zərbə vuraraq onları geri çəkilməyə vadar etmişdilər. Nadirin müttəfiqi Allahyar xan əlavə qüvvələrlə onun köməyinə gəldikdən sonra Nadir Heratın tamamilə ətraf aləmdən təcridini həyata keçirdi, şəhərə aparan bütün yollar nəzarətə götürüldü, qala isə hər tərəfdən mühasirəyə alındı. Mühasirəyə uzun müddət davam gətirməyən Zülfüqar xan 22 iyul tarixində qaladan çıxaraq Nadirin qoşunları ilə açıq dö-

yüşə girmək qərarına gəldi. Lakin onun qoşunları ağır məğlubiyyətə düçar oldu, özü isə qaçarkən çaydan boğulmaqdan canını güclə qurtara bildi. Əfqanlar Nadirin müttəfiqi Allahyar vasitəsilə sülh istədilər və o da buna razılıq verdi. Ancaq əfqanlar sözlərinin üstündə durmadılar və yenə də üsyana qalxdılar. Bu səfər də Nadirin qoşunları onları cilovladılar və elə əfqanların öz istəyi əsasında Allahyar onların rəhbəri təyin edildi.

Hər kəs vəziyyətin sakitləşdiyini güman etsə də, bu səfər də qaçaraq canını qurtarmış Zülfüqar xan 40.000-ə yaxın canlı qüvvə ilə Heratı geri almaq üçün hücuma keçdi. Tərslikdən həmin vaxt Allahyar xan da Nadirə itaət etməkdən boyun qaçırıb əfqanların tərəfini tutdu. Bu dəfə Nadir amansız davrandı. Zülfüqarın ordusu açıq döyüşdə məğlub edildikdən sonra Allahyarın da ailəsi əsir alındı. 27 fevral 1732-ci ildə Herat Nadirə təslim oldu. Onun əmri ilə əbdali tayfasından olan 60.000 əfqan ailəsini Xorasanın müxtəlif məntəqələrinə köçürdü. Burada onlar əvvəldən köçürülmüş köçəri türk tayfaları ilə qonşu olacaq və bir-birini tarazlayacaqdılar. Nadir ümumilikdə 10 aya yaxın davam etmiş Herat mühasirəsi zamanı əksər hallarda əfqanlara qarşı mülayim və güzəştli mövqe tutmağa çalışırdı. Bununla da Nadir əfqanların rəğbətini qazanmaq, onları öz tərəfinə çəkmək haqqında düşünürdü. Nadir yaxşı başa düşürdü ki, gələcəkdə onun hakimiyyət uğrunda mübarizədə və Osmanlılarla müharibədə cəsur əfqan döyüşçülərinə böyük ehtiyacı olacaqdı. Ona görə də Nadir indidən onlarda özünə qarşı kin və düşmənçilik oyatmaq istəmirdi.

Nadirin 1730-cu ilin ikinci yarısından Xorasana, əfqanların qiyamını yatırmağa yollanması II Təhmasibdə

özünü şah kimi təsdiqləməyə müəyyən ümidlər yaratmışdı. Onun ətrafı da II Təhmasibi inandırmağa çalışırdı ki, şah Nadirin köməyi və iştirakı olmadan da Osmanlı dövləti ilə müharibəni davam etdirib uğurla Azərbaycanın hələ də işğalda olan ərazilərini azad etmək iqtidarındadır. Beləliklə də, şah Nadirə xəbər vermədən 1731-ci ilin yanvarında Türkiyə əleyhinə hərbi əməliyyatlara başladı. Əvvəlcə Həmədana gələn şah daha sonra Təbrizə yollandı və Nadirin bura təyin etdiyi valini işdən kənarlaşdıraraq ora öz adamını təyin etdi. Təbrizdən isə şah 18.000 nəfərlik ordu ilə Naxçıvan və İrəvan qalalarının alınması üçün hücuma keçdi. Yürüşün əvvəli Təhmasib üçün uğurlu alındı və türklər Naxçıvanı tərk edib İrəvan qalasına çəkildilər və müdafiəyə başladılar. Bütün cəhdlərə baxmayaraq, şahın ordusu İrəvan qalasını tuta bilmədi və Eçmiədzin istiqamətinə çəkildi. Burada da tərəflər arasında vuruşma baş verdi və şahın qoşunları üstünlük qazana bildilər. Lakin bir tərəfdən İrəvan qarnizonunun komandanı Əli paşa, digər yandan da Bağdaddakı ordunun komandanı Əhməd paşa iki istiqamətdən şahın ordusuna qarşı hücuma keçdilər. Əhməd paşanın qoşunları Həmədan və Ərdəlanı ələ keçirib bu şəhərləri taladılar. Tərəflər arasında Həmədandan 20 mil şimal-şərq istiqamətindəki Kurican adlı ərazidə baş verən döyüşün əvvəlində Səfəvilər üstünlük qazansalar da, yeniçərilərin qətiyyətli hücumu nəticəsində onlar məğlubiyyətdən qurtula bilmədilər.

II Təhmasibin özü 3000 nəfər əsgəri ilə mühasirəyə düşdü və çətinliklə qaçıb canını qurtara bildi. Səfəvi qoşunu ağır məğlubiyyətə uğramışdı. Şahın bütün artilleriyası və qida ehtiyatı türklər tərəfindən ələ keçirilmişdi.

O vaxt İranda fəaliyyət göstərən ingilis casuslarından biri yazırdı ki, qələbədən sonra türk komandanlığı rahatlıqla paytaxt İsfahanı da ələ keçirə bilərdilər, lakin onlar Həmədanla kifyətləndilər. Təhmasibin qısa, lakin faciəli yürüşü nəticəsində Nadirin türklərlə müharibədə ələ keçirdiyi Azərbaycan ərazilərinin böyük bir hissəsi yenidən Osmanlı dövlətinin nəzarəti altına qayıtdı.

Osmanlılar Səfəvi əsirlərinin bir qismini qılıncdan keçirmişdilər, bir hissəsini isə kölə kimi satışa çıxardılar. Bəzilərinə isə müəyyən yollarla evlərinə dönmək müyəssər olmuşdu.

## V FƏSİL

# DÖVLƏT ÇEVRİLİŞİ

*Dostlar, əgər biz bu dünyada bu qədər çətinliklə çatacağımız məqsədə doğru can atırıqsa, bizim cəhd göstərməməyimiz nə qədər düzgün olardı?! Məncə, bu mümkünsüzdür. Əgər mən İran taxt-tacına sahib olmaq niyyətinə düşsəm, bunu asanlıqla edərəm. Məgər mən bu məqsəd uğrunda çalışmağa başlasam, mənim əsgərlərim məni dəstəkləməyəcəklər?*

***Kristofer Marlo***
***("Əmir Teymur")***

Təhmasibin Kuricanda bir neçə həftə apardığı uğursuz döyüşlər nəticəsində Osmanlı ordusu Həmədanı, Təbrizi və iranlıların 1730-cu ildə onlardan geri aldıqları digər əraziləri ələ keçirdi. Bununla da Nadirin Qərb cəbhəsində əldə etdiyi bütün uğurlara kölgə salınmış oldu. Osmanlılar sülh danışıqlarına başlamağa razılıq verdilər. Onlar Kermanşaha, Həmədana və Təbrizə dair danışıqlara etiraz etmədiklərini bəyan etmişdilər. Lakin bunun müqabilində indiki Ermənistan, Gürcüstan və Araz çayı ətrafındakı bəzi ərazilərə dair (söhbət əsasən Naxçıvan və İrəvandan gedirdi – *C.H., E.Ə.*) Səfəvi şahından güzəşt tələb edirdilər. Aparılan danışıqlardan sonra 1732-ci ildə Təhmasib Osmanlı dövləti ilə sülh müqaviləsi imzalamağa razılıq verdi. Həmin saziş barəsində Nadir Heratdan Fə-

rəhə hərəkət edərkən, yolda məlumat almışdı. Nadir Qəndəhar üzərinə hücumunu təxirə salmaq məcburiyyətində qaldı. Əgər Təhmasib hər şeyi götür-qoy edə biləcək biri olsa idi, başa düşərdi ki, Nadir ona öz yoxluğunda nüfuz qazanmaq imkanı yaratmışdı. Lakin Təhmasib bunu bacarmadı. O, əlindəki bütün imkanları boşa vermişdi.

Nadir belə bir vəziyyətdə Herata dönmək qərarına gəldi və buradan Osmanlılara sərt məzmunlu məktub ünvanladı. Öz məktubunda o, sultan Əhməddən tələb etdi ki, Azərbaycanın Osmanlı ordusu tərəfindən işğal edilmiş bütün torpaqlarını geri qaytarsın. Əks təqdirdə, Nadir türkləri müharibəyə başlayacağı ilə hədələdi. Daha sonra o, oxşar məzmunlu məktubla Bağdaddakı Osmanlı nümayəndəsi Əhməd paşaya da müraciət etdi.

Eyni zamanda Nadir bütün xalqa müraciət ünvanlamağı lazım bilmişdi. Onun müraciətində deyilirdi ki, uca Allahın iradəsi ilə artıq əfqanlar üzərində qələbə qazanılmışdır. Lakin şahın Osmanlılarla imzaladığı saziş rüsvayçı və alçaldıcıdır. Nadirin öz müraciətində sərt şəkildə tənqid etdiyi məsələlərdən biri də Osmanlı-Səfəvi müqaviləsində türk əsirliyində olan iranlıların aqibətinə aydınlıq gətirilməməsi ilə bağlı idi. Nadir imperiyanı dərhal rüşvətxorluqdan və digər pisliklərdən qurtarmağın vacibliyini vurğulamış, həmçinin dövlətin öz sərhədlərini bərpa etmək naminə böyük müharibəyə başlamalı olduğunu qeyd edirdi. O, martda Məşhədi tərk edərək, ordusunu yeni müharibələr üçün irəli aparacağına da and içirdi.

Nadir yazdığı məktubdan və etdiyi müraciətdən onun qarşı tərəfə, yəni türklərə və öz soydaşlarına İranın hakimi kimi xitab etməsi təəssüratı yaranırdı. Şiəliklə bağlı məsələdə də Nadir kəskin və barışmaz mövqe tutdu. Məlum olduğu kimi Səfəvilərin dövründə onlar hakimiyyətin arxa-

dayağı rolunu oynayırdılar. Onların məhv edilməsi cəmiyyət tərəfindən birmənalı qarşılanmayacaqdı, onlara toxunmamaq isə xoş niyyət kimi qəbul ediləcəkdi. Nadir şiə amilindən öz lehinə istifadə etmək niyyətində olduğu üçün özünü daha çox cəfəriliyin müdafiəçisi qismində təqdim etməkdə maraqlı idi.

Nadir öz müraciəti kimi məktubunun da geniş yayılaraq oxunmasına çalışırdı. O, həm Təhmasibin əsir götürülmüş adamlarını, həm də ümumilikdə iranlıları Osmanlı dövləti ilə müharibəyə hazırlamaq, səfərbər etmək naminə fəaliyyət göstərirdi. Nadir tələsmədən, ardıcıllıqla öz təbliğatını davam etdirir, ehtiyatı əsla əldən vermirdi. Ona öz gücündən əmin olmaq və onu nümayiş etdirmək üçün zaman lazım idi. Əldə edilən nəticələr Nadir üçün oldugu qədər tarix üçün də qeyri-adi bir hadisə idi. Çünki, heç bir şanlı keçmişə malik olmayan sadə insan 200 ildən artıq hakimiyyətdə olan sülaləni üstələməyə müvəffəq olurdu. Nadirin varlığı və yürütdüyü siyasət Səfəvilərin vəziyyətini həqiqətən də çətinləşdirmişdi. Onun çağırışı eşidilməmiş, görünməmiş bir məsələ idi – xalq taxta irsən, qanuni yolla çıxmış hökmdarla mübarizəyə səslənirdi. Lakin onu da etiraf etmək lazımdır ki, o vaxt üçün sülalə özünü ciddi şəkildə nüfuzdan salmış, onun dayaqları isə laxlamışdı. İnqilab barəsində söz-söhbət artıq açıq şəkildə gedirdi.

Nadirin Təhmasibin gələcəyi barəsindəki fikirləri və tutduğu mövqe hər yerdə, məscidlərdə, bazarlarda, hətta rəsmi şəxslərin gizli yığıncaqlarında əsas müzakirə mövzusu idi. Bir neçə ay ərzində Təhmasibin bir neçə yaxın adamı Nadirin yanına gələrək onu türklərlə əldə edilmiş sazişə qol qoymağa inandırmağa çalışdı. Onların arasında Həsən Əli Xan da var idi. Bu həmin Həsən xan idi ki,

ilk dəfə 1726-cı ildə Nadiri Xorasanda qarşılamışdı. Digər bir məmur isə Mirzə Zəki xan idi. Həmin şəxslər Təhmasibin sarayında yüksək rütbə sahibi idilər və onların Nadirin yaxın adamlarına çevrilməsinə az qalmışdı. O dövrdə həm türklər, həm də iranlılar arasında içki ziyafətləri çox məşhur idi. Nadir Təhmasibdən və Şah Sultan Hüseyndən fərqli olaraq içkinin onu üstələməsinə heç zaman imkan vermirdi. Nadirin içki ziyafətlərinin yeganə məqsədini günün yorğunluğunu çıxarmaq, dincəlib rahatlanmaq təşkil edirdi. Adətən içki məclislərində müzakirə edilən söhbətlər tez bir zamanda yayılırdı. İçki məclislərində Nadir həmişə açıq söhbətlərin aparılmasına müsbət yanaşırdı. Belə məclislərin birində Nadir bir kişidən soruşdu ki, on kişi tərəfindən sevilmiş bir qadin necə övlad dünyaya gətirə bilər? "Elə sənin kimi" – deyə həmin kişi cavab verdi. Bu zaman insanların üzü güldü, əhavalı yüksəldi. Nadir vəzifəli şəxslərlə əylənərkən onlardan həm də Osmanlı dövlətinə qarşı hökm sürən əhvali-ruhiyyəni öyrənir, alınan məlumatlara əsasən öz gələcək planlarını qurur, yaxud da onlara düzəlişlər edirdi.

O dövrdə insanların diqqətini ciddi şəkildə özünə cəlb etmiş şəxslərdən biri də İsmail Mirzə adlı şəxs idi. İsmail iddia edirdi ki, o, şah Təmasibin qardaşlarından biridir və mərhəmətli insanlardan biri tərəfindən – Səfəvi ailəsi Mahmud Gilzai tərəfindən qılıncdan keçirildiyi zaman xilas edilmişdir. İsmayıl ilk vaxtlar Təhmasib tərəfindən qəbul olunmuş, onun fikirləri dinlənilmiş və şah ona öz qardaşı kimi münasibət bəsləməyə razılıq vermişdi. Ancaq daha sonra Nadirin tərəfdarlarından bəziləri Təhmasibi taxtda İsmail Mirzə ilə əvəzləmək niyyətinə düşmüşdülər. Ancaq bu təşəbbüs boşa çıxmışdı. İsmail günahsız olduğunu sübut etməyə çalışsa da, buna müvəffəq olmamış

və həyatını dar ağacında başa vurmuşdu. Onunla birlikdə bu təşəbbüsü dəstəkləyənlər də edam olunmuşdu.

Nadir Novruz bayramını Heratda qeyd etdikdən sonra Məşhədə yola düşdü. Buradan o, İsfahana, Şah Təhmasibə məktub yazaraq onunla Tehranda, yaxud da Qumda görüşmək istədiyini bildirdi. Məşhəddə olduğu zaman Nadir ruslardan məktub aldı. Onlar Nadirə Gilanı boşaltmağa hazır olduqlarını yazmışdılar. Dərhal Nadir Gilana öz nümayəndələrini göndərdi. Onların vəzifəsi rusların bu ərazidən çıxmasına nəzarət etmək idi. Nadir əsla tələsmir, ova gedir, səyahətlər edirdi. Tehrana gəldikdə o, öz ordusunu pulla, qiymətli hədiyyələrlə mükafatlandırdı. Onun növbəti dayanacağı ünvan İsfahan idi. Ancaq Nadir şəhərə çatanda Təhmasib onu qarşılamağa gəlmədi. Təhmasiblə görüşmək üçün Nadir şəhərə getmək məcburiyyətində qaldı. Gündüzün istisindən qorunmaq üçün Nadir əsasən gecələr hərəkət etməyə üstünlük verirdi. Onu 32000 döyüşçü müşayiət edirdi. Bu qüvvə paytaxtı belə mühasirəyə almağa kifayət idi. İki gün sonra Nadir Safabad bağçalarının yerləşdiyi əraziyə yollandı və 3000 nəfərlik heyətlə şahın hüzuruna çıxdı. Bu görüş cəmi 15 dəqiqə çəkdi. Deyilənə görə, görüşün belə qısa çəkməsinə səbəb görüşə qədər onların arasında ətraflı məktublaşmanın olması idi. Belə ki, Nadir Təhmasibə göndərdiyi çoxsaylı məktublar vasitəsi ilə onun yaxın adamlarını və əyanları ifşa etmişdi. Məktublar vasitəsi ilə Nadir Səfəvi şahına onun adamlarının xəyanətkarlığını və etibarsızlığını göstərməyə çalışırdı.

İsfahandan qayıdarkən isə Nadir Təhmasibi Hezarcazeb bağçasına dəvət etdi. Deyilənlərə görə, şah təklifi qəbul edib bu məkana gəldi və orada qoşunlara da baxış keçirdi. O, at sürərkən gənc əsgərlərdən biri səslənərək

dedi: "Əgər zat ailələri icazə verərlərsə, biz onları (düşmənləri) darmadağn etməyə hazırıq". Bununla Nadir ordusunun ona nə qədər itaətkar olduğunu nümayiş etdirirdi. O, şaha başa salmaq istəyirdi ki, onun suverenliyi Nadirə itaət edən əsgərlərdən asılıdır. Nadir Təhmasibi yeməyə dəvət etdi. Məclis Nadirin istədiyi kimi cərəyan edirdi. Təhmasib və onun yaxın adamları doyunca içib sərxoş oldular. Hər şey plan üzrə getdi. Təhmasibin şəraba olan düşkünlüyü ondan istifadəni asanlaşdırdı. Hezarcazeb bağlarındakı görüş zamanı Təhmasibin yaxın adamı Bican bəy də iştirak edirdi. Təhmasib işarə verdiyi təqdirdə o, Nadiri öldürməyə hazır dayanmışdı. Lakin Təhmasib tərəfdən belə bir işarə gəlmədi. Şah içib sərxoş olduqdan sonra Nadir nazirləri və xidmətçiləri çağırıb onun düşdüyü vəziyyəti onlara nümayiş etdirdi, həmçinin buna görə onları ittiham etdi. Onlar da qorxu içində bu ittihamları təkzib etdilər. Onlar bildirdilər ki, şahın düşdüyü vəziyyətin yeganə səbəbkarı onun özüdür.

Nadir fürsətdən bəhrələnib yaxın adamlarını əhali arasına göndərərək, artıq şahın ölkəni idarə etmək iqtidarında olmadığı fikrini ictimailəşdirdi. Yaranmış qarışıqlıqda şah taxtdan salındı. 5 gün sonra, 7 sentyabr 1732-ci il tarixində şahın bir neçə aylıq körpə oğlu III Şah Abbas adı altında formal olaraq taxta çıxarılır. Nadirin ətrafındakıların çoxu ona belə bir addımın doğru olmadığını bildirir, ona hakimiyyəti öz əlinə almasının zəruriliyini təlqin etməyə çalışırlar. Lakin Nadir irsi hakimiyyət prinsipini pozmaq istəmədiyini əsas gətirir və baş vəzir vəzifəsini öz öhdəsinə götürdüyünü elan edir. O, Səfəvilər nəslinin əhali arasında hələ böyük nüfuz sahibi olaraq qaldığını başa düşürdü və onların devrilməsini elan etməklə əlavə gərginlik yaratmaq istəmirdi. Şah Təhmasib

isə öz hərəmxanası ilə birgə, güclü mühafizənin müşayiəti ilə Məşhədə yola salınır.

Müasirlərindən biri belə yazır ki, tacqoyma mərasimi zamanı körpə Şah Abbas ağlamağa başlayır. Nadir uşağın hansı səbəbdən ağladığını soruşur, lakin əyanlar onun səbəbi daha yaxşı bildiyini deyib, fikir bildirməkdən çəkinirlər. Nadir isə belə bir cavab verir ki, şah ona görə ağlayır ki, o yalnız Osmanli türklərinin və Qəndəharın deyil, həmcinin Türküstan və Hindistan hakimlərinin ona tabe olmamasından narahat olub və onların hamısının başını bədənindən ayırmaq istəyir. Əlbəttə ki, körpə bir hökmdarın vəkili olmaq Nadirin hərəkət imkanlarını olduqca genişləndirmiş, onun gücünə güc qatmışdı. Nadirin öz planlarını həyata keçirməsi üçün qan tökməsinə belə ehtiyac qalmamışdı.

Nadir növbəti bir neçə həftəni İsfahanda keçirir. Burada onun rus elçisi ilə görüşü də baş tutmuşdu. Nadirin hakimiyyətə gəlməsi Rusiyada da məmnunluqla qarşılanmışdı. Eyni zamanda ingilislər də Nadirin hakimiyyəti ələ almasına müsbət yanaşmışdılar. Əsasən də ona görə ki, Nadir Osmanlı dövləti ilə mübarizədə ingilislərin işinə yarayacaqdı.

İngilis Ost-Hind şirkətinin məktub və qeydlərində Nadirin şəxsiyyəti və həyat tərzi haqqında çox maraqlı məlumatlara rast gəlmək mümkündür. Onlar Nadirin ucaboylu görkəmə və uca səs tonuna malik olduğunu qeyd edirdilər. Eyni zamanda Nadirin evdə oturmadığı, vaxtının çox hissəsini at belində keçirdiyi də vurğulanırdı. Həmçinin, məlumatlar arasında Nadirin cibində hər zaman bir neçə ədəd şəftəli qurusu gəzdirdiyi və onları gün ərzində su ilə içdiyi də öz əksini tapmışdır. Bu müəlliflər Nadirin qadınlara qarşı da bir zəifliyinin olduğunu da yazırlar.

Lakin onun hərəmə yalnız gec saatlarda, gecənin qaranlığında getdiyi də məlumdur. Gündüzlər o, heç vaxt hərəmdə vaxt keçirməzdi.

İsfahanda Nadirin adamlari tacirləri, xüsusilə də ingilisləri, hollandları və erməniləri sıxışdırmağa başlamışdılar. Hindistanlı banyan tacirlərləri də əziyyət çəkənlərin sırasında idi. Məhəmməd Tağı xan Şirazi Nadirin etibarlı adamlarından hesab olunurdu. Onun maliyyə məsələlərindəki yüksək bacarığı Nadir tərəfindən xüsusi qiymətləndirilirdi. Nadir, şah ailəsinə mənsub olan bəzi yerləri də satışa çıxartmışdı. Tacirlər və artistlər paytaxtda yaşamağın dəbdəbəsini Səfəvilərin zamanında artıqlaması ilə hiss edirdilər. Nadirin gəlişindən sonra isə həmin dəbdəbədən əsər-əlamət qalmamışdı. Nadiri bir çoxları, o cümlədən Hollandiyanın Şərqi-Hind şirkətinin nümayəndələri qətiyyən sevmirdilər. Nadir 1733-cü ildə öz adamalarına bu şirkəti bağlamağı tapşırsa da, firma 1739-cu ildən onun ölümünə qədər İranda fəaliyyət göstərə bilmişdi.

Nadirə münasibət birmənalı olmasa da, o insanlar arasında hədsiz dərəcədə məşhur idi. Cəmiyyətin müəyyən bir qismi isə ümumiyyətlə ona xilaskar gözü ilə baxırdı. Yunan əsilli Basile Vatatetz qeyd edir ki, onun özü bir dəfə maraqlı bir hadisənin şahidi olmuşdur. Belə ki, o, Məşhəd küçələrinin birində iki uşağın oyunun qaydalarını müəyyənləsdirmək üstündə mübahisə etdiyini görür. Mübahisə əsnasında uşaqlardan biri digərini vurur. Sonuncu isə qəzəblənərək deyir: "Sən məni necə vura bilərsən? Bəs sən bilmirsən ki, Təhmasibqulu xan Məşhəddədir?

Nəql edilən hadisə onu göstərir ki, sadə xalq arasında Nadirin ədalətli bir hakim olduğuna dair güclü inam hissi hökm sürürdü.

İsfahanın cənub-qərbində cərəyan etmiş 21 günlük müharibənin gedişində Nadir bir qrup bəxtiyari ailəsinin Xorasanda yerləşdirilməsinə əmr vermişdi. Bu addım həmin ərazidə yaşayan kiçik Zənd qəbiləsinə qarşı yönəlmişdi. Bu qəbilənin nümayəndələri bu ərazidə hələ əfqan işğalı dövründə məskunlaşmışdı. Nadir bu qəbilənin nümayəndələrinə qarşı çox sərt cəza tədbiri görmüşdü. Belə ki, onun əmrinə əsasən bu qəbiləyə aid olan 500-ə qədər ailə qətlə yetirilmişdi. Həmin ailələrin qadın və uşaqları isə əsir götürülmüşdü.

Qərb istiqamətində hərəkət edərək Nadir Osmanlı ordusu ilə üz-üzə gəldi. Nadir bu dəfə tamam başqa bir plan əsasında hərəkət etmək qərarına gəlmişdi. Onun əsas hədəfi Azərbaycanın Osmanlı işğalından təmizlənməsi idi. Nadir Bağdadda, İraqda yaranmış qarışıqlıqdan istifadə edərək, Qafqaz ərazisindəki hakimiyyətini bərpa etmək üçün çalışırdı. Osmanlılar Nadirin hücumuna əsaslı şəkildə hazırlaşmışdılar. Belə ki, Zöhab və digər ərazilərdəki postlar möhkəmləndirildi. Nadir qarla örtülmüş vadiləri aşaraq irəliləməyə davam edirdi. Onun əsgərlərinin bir çoxu məhz belə çətin şəraitlərə dözməkdə çətinlik çəkirdilər. Nəhayət ki, o, 600 adamı ilə birlikdə Nadir Zöhaba gəlib çıxmağı bacardı. Nadir qəflətən, hələ hava işıqlanmadan hücuma keçmək əmrini verdi. Nə baş verdiyini başa düşməyən Osmanlı əsgərləri iranlı atlıların ayaq səslərinə oyandılar. Nəticədə, onlarn bir çoxu öldürüldü, xeyli sayda əsgər isə əsir götürüldü. Daha sonra Nadir Həmədan yolunu tutdu. Burada onun ordusuna xeyli canlı qüvvə qoşuldu. Bağdadın mühasirəsinin çətin və uzun çəkəcəyini bilən Nadir Əhməd paşanın şəhərdən çıxaraq Kərkük istiqamətinə irəliləməsinə nail olur. Nadir 7000 əsgərini Kərkük şəhərinin mühasirəsini davam etdirmək

üçün burada qoyur, özü isə yenidən cənuba doğru hərəkət edərək, Osmanlı qoşunlarının bir hissəsini əhatəyə almağı bacarır. Nəticədə Bağdad ətrafındakı ərazilər üzərində nəzarət Nadirin ixtiyarına keçdi.

Əhməd paşa da öz növbəsində çox çevik və güclü xarakterə malik şəxs idi. O, Bağdada daha çox öz şəxsi mülkü kimi yanaşırdı. Nadir alman bir mühəndisin yardımı ilə Dəclə çayını keçməyə müvəffəq olmuşdu. Belə ki, bu mühəndis palma ağaclarından və heyvan dərisindən ordunun keçidi üçün möhkəm üzən bir körpü düzəltməyi bacarmışdı.

Nadir 15 fevral 1733-cü il tarixində 2500 əsgəri ilə birlikdə çayı keçdi. Lakin bu körpü İran atlılarına uzun müddət davam gətirmək iqtidarında deyildi. Bir qrup atlı növbəti gün çayı keçdikdən sonra körpü uçdu və onu su apardı. Yolların acınacaqlı olması Nadirin hərəkət sürətinə ciddi şəkildə təsir göstərirdi. Nadir körpünün uçması səbəbindən ona qoşulmaq üçün gəlmiş 1500 döyüşçünü gözləmədən Osmanlı ordusuna qarşı hücuma keçdi. Onun əmrinə əsasən kürd, türkmən və Əbdali əfqanlarından ibarət hissələr düşmənə güclü zərbə endirməyə nail oldular. Əhməd paşa hücumun qarşısını almaq üçün yeniçərilərdən ibarət əlavə qüvvələrdən istifadə etmək qərarına gəldi. Türk piyadaları əvvəl Nadirin əsgərlərinə güc gəlməyi bacardılar, ancaq əfqanlardan ibarət qüvvələrin müdaxiləsi vəziyyəti Nadirin lehinə dəyişdi. Nəticədə Osmanlı qoşunları darmadağın edilərək, geri oturduldu. Onlar odlu silahlarını və ölmüş əsgərlərinin meyitlərini döyüş meydanında atıb qaçmışdılar.

Nadir Bağdad ətrafında 2700 qüllədən ibarət mükəmməl mühasirə sistemi yaratmışdı. Qüllələr bir-birinə çox yaxın yerləşirdi və onlar Dəclə çayının hər iki sahili

boyunca səpələnmişdi. Təxmini hesablamalara görə o dövrdə Dəclə çayının hər iki sahilində, Bağdadda 300.000 insan yaşayırdı. Şəhəri müdafiə edən hərbi qüvvə isə 80.000 atlıdan və piyada qoşunlarından ibarət idi. Qazanılmış hərbi üstünlükdən istifadə edərək Nadir Samirə, Hillə, Kərbəla və Nəcəf şəhərlərini də ələ keçirir. Onun əmri ilə bu şəhərlərin hər birinə yeni hakimlər təyin edilir.

İranlılar 21 martda müharibə şəraitində olmalarına baxmayaraq, böyük təntənə ilə Novruz bayramını qeyd etdilər. Lakin Bağdadda vəziyyət olduqca gərgin idi. Qida və ərzaq ehtiyatlari tükənmişdi. İnsanların bəziləri aclıqdan at, eşşək, it və pişik, hətta siçan əti belə yeyirdilər. Yemək tapa bilməyənlərin bir qismi acından tələf olur, digərləri isə intihara əl atırdılar. Bəziləri isə xilas yolunu iranlılara təslim olmaqda tapırdılar. Sonradan məlum oldu ki, Bağdadın mühasirəsi zamanı 60.000 insan ölmüşdü. Nadir psixoloji təsir effekti yaratmaq üçün iri cüssəli əsgərlərə gecələr təbil və bayraqlarla ətrafda gəzişməyi tapşırmışdı. Osmanlıların gücü artıq tükənmək üzrə idi. Nəhayət ki, onlar danışıqlara başlamağa razılıq verdilər. İyul ayının onuncu günü Əhməd paşa danışıqlara başladı. Yalnız avqust ayının 11-də Osmanlı ordusu təslim olmağa razılıq verdi.

Lakin bu zaman Osmanlı cəbhəsində ciddi dəyişiklik baş verdi. Topal Osman paşa Osmanlı ordusunun baş komandanı vəzifəsinə təyinat almış və dərhal 80.000 nəfərlik ordu ilə İraq istiqamətinə hücuma başlamışdı. Topal Osman paşa Osmanlı ordusunun ən təcrübəli komandanlarından hesab olunurdu.

O, 1733-cü ildə artıq ahıl çağına qədəm qoyan şəxs idi. Uzun və macəralı bir ömür yaşamışdı. Sultan Mahmud onu 1730-cu ilin sentyabrında baş vəzir vəzifəsinə təyin

etmişdi. Lakin o, Təbrizi Səfəvilərə verdiyi üçün vəzifəsindən uzaqlaşdırılmışdı. Sonralar sultan onu yenidən xidmətə çağırmışdı. Topal Osman aldığı çoxsaylı yaralar səbəbindən fransız bir həkimin müşayiəti ilə irəliləyirdi. Nadir onun yanına elçi göndərdi, lakin o, elçini həbs edərək, yoluna davam etdi. Osmanlı ordusu Samirə şəhərinə gəlib çatanda Nadir Bağdadı mühasirədə saxlayan əsgərlərinin bir qismini çıxararaq Topal Osmana qarşı göndərdi. Nadir çox böyük bir seçim qarşısında qalmışdı. Belə ki, bir tərəfdən Bağdadın ələ keçirilməsi günün məsələsi idi. Lakin mühasirəni bir qədər də uzatsa idi, Topal Osman paşanın hücumuna məruz qalmaq təhlükəsi ilə üz-üzə qalacaqdı. Həmçinin, ordusunu ikiyə bölüb müxtəlif cəbhələrdə döyüşə girişmək Nadirə məğlubiyyət vəd edirdi. Nadir məğlubiyyət təqdirində Bağdadı da itirəcəkdi. Nadir 12.000 nəfərlik ordunu Məhəmməd xan Bəlucun başçılığı ilə mühasirədə qoyub, özü 70.000-lik qoşunla Topal Osman paşa ilə müharibəyə yollanır. Bu müharibə Nadir üçün çox böyük əhəmiyyətə malik idi. Çünki, qələbə Nadirə nəinki Bağdadı, həm də bütün Qafqazın açarını bəxş edəcəkdi. Osmanlılar çox uğurlu mövqe seçmişdilər. Belə ki, Osman paşanın əmri ilə düşərgə elə bir formada təşkil edilmişdi ki, Dəclə çayı onun arxasında qalırdı və müvafiq olaraq türk əsgərləri rahatlıqla çayın suyundan istifadə edə bilirdilər. Lakin Nadirin əsgərləri belə bir imkandan məhrum idilər. Nəticədə, iranlılar çox tez yorulub əldən düşürdülər.

İyul ayının 19-da səhər saat 8-də tərəflər arasında döyüş başladı. İlk əvvəl hər iki ordunun avanqard qüvvələri bir-biri ilə toqquşdu. Ardınca türk topçuları Nadirin əsas qüvvələrini şiddətli atəşə tutdular. Lakin Nadirin süvari dəstələri çevik manevrlər hesabına atəşdən yayınıb

şimal-şərq istiqamətindən Osmanlı ordusunun mövqelərinə həmlə etdilər. Bir saatdan sonra hücumun əsas hissəsi başladı və Nadir 50.000 qoşunla türk ordusunun mərkəzdəki qüvvələrinə zərbə endirdi. İranlılardan və əfqanlardan ibarət 3 piyada alayı Osmanlı ordusunun mərkəzini sıxışdırmağa müvəffəq oldu. Nadirin döyüşçüləri hətta türk artilleriyasının bir qismini də ələ keçirməyi bacardılar. 2000 nəfərdən ibarət kürd muzdlu dəstəsinin döyüş meydanından fərarilik etməsi Osmanlı ordusunun vəziyyətini daha çətinləşdirdi. Lakin Topal Osman paşa vəziyyətdən çıxmaq üçün əlindən gələni edirdi. Onun əmri ilə ehtiyatda saxlanan 20.000 nəfərlik qüvvə döyüş meydanına yeridildi. Bunun nəticəsində iranlıların güclü həmləsini dəf etmək mümkün oldu.

Nadirin özü bütün döyüşü vuruşmanın ən qızğın cərəyan etdiyi nöqtələrdə keçirtdi. O, əsgərlərinə hər cür dəstək olmağa, onları ruhlandırmağa çalışırdı. Lakin bu zaman həlledici bir hadisə baş verdi. Əvvəlcə Nadirin türk topçularının yerləşdiyi nöqtəyə həmləsi zaman açılan atəş onun atının yaralanması ilə nəticələndi. Yaralanan at Nadirlə birlikdə yerə yıxıldı. Lakin Nadir özünü itirmədən yenidən ayağa qalxdı və ona verilən ikinci ata minib yenidən döyüşə qoşuldu. Lakin bu səfər də Osmanlı əsgərlərindən biri onun atının baş nahiyəsinə atəş açaraq heyvanı ağır yaraladı. O da öz növbəsində yıxılaraq Nadiri yerə çırpdı. Doğrudur, Nadir bu dəfə də çevik şəkildə ayağa durmağı bacardı, lakin öz sərkərdələrinin güclü bir şəkildə yerə çırpıldığını görən iranlılar onun öldüyünü zənn edərək, təlaşa qapıldılar. Orduda başıpozuqluq və gərginlik yarandı. Nadirin əsgərləri ümidsiz və nizamsız şəkildə döyüş meydanından geri çəkilməyə başladılar. Nadirin sərkərdələri bu qaçısın qarşısını almağa çalışsa-

lar da, heç bir nəticə əldə edə bilmədilər. 9 saatlıq döyüşün yekununda iranlıların məğlub olduqları açıq-aşkar başa düşülürdü. Bütün cəhdlərin mənasızlığını anlayan Nadir ordunun sağ qalan bölmələri ilə birlikdə döyüş meydanından çəkilmək haqqında əmr verdi. Onun əsgərlərinin bir qismi ümidsizlik içərisində susuzluqdan Dəclə çayının sahilində can verdi. Ümumilikdə Nadir döyüş zamanı 30.000-ə qədər əsgər itirmişdi. Onun 3000 döyüşçüsü isə əsir alınmışdı. Osmanlılar 500-ə qədər iranlı əsgəri yaralı halda döyüş meydanında öldürmüşdülər. Osmanlıların itkiləri də az deyildi, onların 20.000-dən çox döyüşçüsü məhv edilmişdi.

Nadirin məğlubiyyətindən xəbər tutan Bağdad hakimi Əhməd paşa şəhəri mühasirədə saxlayan iranlılara qarşı qəfil həmlə etmək qərarına gəldi. Onun gözlənilməz hücumu nəticəsində Bağdadı mühasirəyə almış Nadirin 12.000 nəfərlik ordusu qısa zamanda dağıldı. Həmin ordunun komandanı Məhəmməd xan Bəluc isə bir neçə atlının müşayiəti ilə silah-sursatları və ərzaq ehtiyatını da döyüş meydanında ataraq qaçdı. Qaçmağa macal tapmayan piyadalar isə ya öldürüldü, ya da təslim olmaq məcburiyyətində qaldı.

Topal Osman 24 iyul tarixində böyük təntənə ilə Bağdada daxil oldu. Əhməd paşanın əsgərləri döyüş meydanında qalmış meyitlərin başlarını kəsib bədənlərini Dəclə çayına atdılar.

Bu həqiqətən də faciə idi, Osmanlı İraqındakı hərbi yürüş əvvəlki uğurlardan fərqli olaraq məğlubiyyətlə nəticələnmişdi. Nadirin özündən razılığı onun əsgərlərinə baha başa gəlmişdi. Ordunun məğlub olmasının əsas səbəbi qüvvələrin iki hissəyə parçalanmasından qaynaqlanırdı ki, bu da səhv addım idi. Nadir ya Bağdad ətrafında,

yaxşı möhkəmləndirilmiş istehkamında Topal Osman paşanın yaxınlaşmasını gözləyib, buradaca onunla döyüşə başlamalı, yaxud da Bağdadın mühasirəsini qısa müddətə götürüb var gücü ilə Osmanlı qoşunlarına hücum etməli idi. Onun döyüşçüləri şücaətlə vuruşurdular, lakin həmin qanlı gün göstərdi ki, Nadirin qurduğu müasir ordu heç də məğlubedilməz deyil və uğur onları heç də həmişə müşayiət etmir. Bağdad ətrafındakı məğlubiyyətə qədər Nadirin hərbi karyerasında buna bənzər heç bir şey olmamışdı, lakin sonradan baş verəcək hadisələr daha da qeyri-adi olacaqdı.

# VI FƏSİL

# NADİR ŞAH

*Çox yaşa Əmir Teymur və Asiyanı fəth etmək uğrunda irəli!*

***K.Marlo***
***("Əmir Teymur")***

Məğlubiyyətdən sonra Nadirin düşündüyü əsas məsələ Bağdad ətrafında darmadağın edilmiş ordusunun bərpası idi. Onun sərkərdələrinin çoxu bütün əmlakını və silahlarını itirmişdilər. Osmanlılardan uzaq, təhlükəsiz bir məsafəyə çəkildikdən sonra Nadir ətrafındakılarla söhbət zamanı ordusunun yaxşı döyüşdüyünü, məğlubiyyətin isə qətiyyən əsgərlərindən qaynaqlanmadığını birmənalı şəkildə bəyan etdi. Eyni zamanda o, bir sıra ciddi xətalara yol verdiyini də etiraf etməkdən çəkinmədi və məsuliyyətin böyük bir hissəsini öz üzərinə götürdü.

Mövcud vəziyyətdə Nadirin qarşısına qoyduğu əsas məqsəd Topal Osmanla yenidən döyüşə girmək, əvvəlki məğlubiyyətin əvəzini çıxmaqdan ibarət idi. Həmin günlər Nadir üçün olduqca təhlükəli və həssas mərhələyə çevrilmişdi. Çünki, Nadirin düşmənləri onu məhv etmək üçün dayanmadan əlverişli bir fürsət axtarırdılar. Nadir də öz növbəsində tərəddüd etmir və qətiyyətlə hərəkət etməyə üstünlük verirdi. Çünki, hakimiyyətdə qala bilmək və yaratmaqda olan dövləti yaşada bilmək üçün Osmanlı üzərində qələbə ona hava-su kimi lazım idi. Nadir ordunun tez bir zamanda yenidən formalaşdırılması üçün lazım

olan bütün tədbirlərin görülməsinə dair tapşırıqlar verdi. Xorasan, Herat, Sistan, Fars və Kuhgelu hakimlərinə əlavə canlı qüvvə göndərmələri əmr olundu. Nadirin əsgərləri ona "baba bozorg" ("böyük ata") deyə xitab edirdilər. Nadir avqustun 4-də Həmədana çatdı. 1733-cü ilin 2 oktyabrında isə o, Həmədandan çıxaraq Kərkükə doğru irəlilədi. Eyni zamanda Topal Osman paşa da İstanbuldan ona yeni qüvvə göndərilməsi və özünün daha gənc bir komandanla əvəzlənməsi üçün az qala yalvarmağa başlamışdı. Onun sağlamlığında çox ciddi problemlər yaranmışdı. İstanbulda isə bu yalvarışlara qulaq vermirdilər və tam əksinə, hər kəsin başı Şərq cəbhəsində qazanılmış uğuru təntənə ilə qeyd etməyə qarışmışdı. Sultan Topal Osman paşanın ailəsinə bir sıra qiymətli hədiyyələr və imtiyazlar verdi. Topal Osman paşa çox yaxsı başa düşürdü ki, Nadir ordusunu yenidən təşkil edib hücuma keçəcəkdir.

Bu vaxt Təhmasibin guya həyatda olması və Xorasanda qüvvə toplayaraq tezliklə hücuma keçəcəyi barəsində şayiələr də yayılmağa başlamışdı. Nadir Səfəviləri dəstəkləyən qüvvələri arxayın salıb zərərsizləşdirmək üçün Təhmasibin Mazandarana aparıldığını bildirdi. Nadirin anası da oğlu ilə söhbətlərində ona Təhmasiblə ehtiyatla davranmağı tövsiyə edirdi. Nadirin ailə üzvlərinə, xüsusilə də onu çətinliklə böyütmüş anasına möhkəm bir şəkildə bağlı olduğu danılmaz həqiqətdir. Lakin siyasi və ictimai məsələlərə qarışmağı Nadir hətta anasına belə qadağan etmişdi.

Nadir yeni formalaşdırılmış ordusu ilə Osmanlı qoşunlarına qarşı 24 oktyabr tarixində hücum əməliyyatına başladı. 12 000 Osmanlı əsgəri köməyə gəlsə də, baş verən qızğın və qanlı döyüşdə türklər xeyli itki verdilər. Hər iki ordunun süvari qoşunları xüsusi qəddarlıqla vuruşur, son nəfəslərinə qədər döyüş meydanından çəkilmək is-

təmirdilər. Topal Osman paşanın xəstəliyi daha da kəskinləşdiyindən o, döyüşü kənardan, xərəkdə əyləşmiş şəkildə seyr edirdi. Döyüşün gedişində hər iki tərəf artilleriyanın imkanlarından geniş şəkildə istifadə edirdi. Bu da əsgərlər arasındakı tələfatın sayını əhəmiyyətli dərəcədə artırır, xeyli insanın yaralanmasına, yaxud şikəst qalmasına gətirib çıxarırdı. Nəhayət, qızğın döyüşün gedişində Nadirin ordusu tədricən üstünlüyü ələ alaraq Osmanlıları sıxışdırmağı bacardı. Atılan güllələrdən biri Topal Osman paşanı ağır yaraladı və o, üzərinə çətinliklə oturduğu atdan ölü olaraq yerə yıxıldı. Allahyar adlı bir şəxs onun başını bədənindən ayıraraq Nadirin hüzuruna gətirdi. Döyüşdə Osmanlı ordusu ümumilikdə 20.000-dən çox döyüşçüsünü itirmişdi. Qazandığı qələbədən dərhal sonra Nadir ona xəyanət edərək Osmanlıların tərəfinə keçmiş bəzi ərəb qəbilə rəislərinin öldürülməsinə dair əmr verdi və onun tapşırığı amansızlıqla icra olundu.

Osmanlıların qüvvələri Təbrizdən çıxarıldı. Nadir müəyyən sayda qüvvəni şəhərin təhlükəsizliyini təmin etmələri üçün Təbriz istiqamətində saxlamağa qərar verdi. Məhəmməd Xan Bəlucun üsyanına baxmayaraq, Nadir Bağdada getməyə qərar verdi. Bu zaman Əhməd paşa danışıqlar aparmaq təklifi ilə çıxış etdi və diplomatik proses başlandı. Beləliklə də, 19 dekabr 1733-cü il tarixində tərəflər axır ki, razılığa gəldilər. Sazişə əsasən Osmanlılar 1722-ci ildə işğal etdikləri əraziləri geri qaytarmaq öhdəliyini götürdülər. Həmçinin iranlı zəvvarlara Osmanlı ərazisindən istifadə etməklə müqəddəs torpaqlara Həcc ziyarətinə yollanmağa icazə verildi. Lakin Nadir Bağdadın mühasirəsini Xuzistanda baş qaldıran üsyan səbəbilə yarımçıq qoymaq məcburiyyətində qaldı. Zaman göstərdi ki, bu müqavilənin Nadirə heç bir praktik faydası olma-

yacaqdı. Türklər Nadirin başının Məhəmməd xan Bəlucun qiyamını yatırmağa qarışdığını görüb yeni müharibəyə hazırlaşdılar və bölgəyə əlavə qüvvələr göndərməklə yanaşı, əldə edilən sazişin şərtlərini yerinə yetirməkdən yayınmağa başladılar.

Məhəmməd xan Bəlucun qiyamına gəlincə, Nadirin qoşunları onun öhdəsindən məharətlə gəldi. Qiyamçılar məğlubiyyətə uğradılar, Məhəmməd xan Bəlucun özü isə əvvəlcə Şiraza, oradan isə Fars körfəzində yerləşən Qeys adasına qaçıb canını qurtarmağa çalışdı. Lakin Nadirin əmri ilə Təhmasib xan Cəlair onu sona qədər təqib etdi. Adaya desant çıxarmaq üçün Təhmasib xan çətinliklə də olsa ingilis və holland şirkətlərindən iki gəmi icarəyə götürdülər, Bəhreyn hakimlərinin də bəziləri öz gəmilərini Nadirin ordusunun ixtiyarına verdilər. Təhmasib xan gəmilərin köməyi ilə adanı mühasirəyə aldı və çıxarılan desant Məhəmməd xan Bəlucu ələ keçirdi. Həbs edilən Məhəmməd xan Bəluc qandallanaraq İsfahana göndərildi. Burada Nadirin əmri ilə onun gözləri çıxarıldı və 3 gün sonra Məhəmməd xan Bəluc dünyasını dəyişdi. Nadir Fars körfəzinə desant çıxarılması əməliyyatından istifadə edib itaətsizlik edən bəzi nüfuzlu ərəb şeyxlərini də sərt şəkildə cəzalandırmaq niyyətinə düşdü. Onun əmri ilə Şeyx Əhməd Mədani edam olundu, Şeyx Cabbar isə 10.000 tümən məbləğində təzminat ödəməyə məcbur edildi. Üsyançılarla əlbir olan, yaxud onlara rəğbət bəsləyən şeyxlərin qalaları dağıdıldı. Bəzi üsyançı ərəb qəbilələrinin nümayəndələri isə Xorasana köçürüldü. Beləliklə də, Körfəz bölgəsində Nadirin hakimiyyətinə qarşı çıxacaq heç bir real güc mərkəzi qalmamışdı.

Qiyamın yatırılmasından sonra Nadir Şiraza getdi. O, burada təntənəli şəkildə 1734-cü ildə Novruzu qeyd etdi.

Şirazda olarkən Nadir Tağı xanı buranın hakimi təyin etdi. İlk baxışdan Nadir və Tağı xan təbiətləri etibarı ilə bir-birindən fərqli şəxslər idilər. Tağı xanda Nadiri valeh edəcək xüsusi bir keyfiyyət yox idi. Üstəlik, Nadir həmişə hakim təyin etdiyi şəxsin həmin bölgənin yerli əhalisindən olmamasına xüsusi diqqət yetirirdi. Lakin Tağı xan istisna təşkil edirdi və bu da Nadirin ona bəslədiyi xüsusi münasibətin göstəricisi hesab olunmalı idi. Tağı xanın maliyyə-vergi məsələlərində xüsusi bacarıq və səriştə sahibi olması onu Nadirin gözündə ucaldan başlıca amilə çevrilmişdi. Novruz bayramından sonra aprel ayında İsfahana çatdi. Burada o, Novruz bayramı günlərində oğlu Rzaqulunun arvadı Fatimə Bəyimin dünyaya oğlan uşağı gətirdiyinə dair xəbər aldı. Nadir ona Şahrux adını verdi. Adətə görə Nadirin adamları Quran falı açdılar. Quranda bu surə açıldı.

"Biz insanı bu dünyaya göndərdik və ona öz istəklərini həyata keçirməsini söylədik. Allah hər şey üzərində ixtiyar sahibidir. İnsanlar isə bundan xəbərdar olmaya da bilər". Nadir mətni çox diqqətlə nəzərdən keçirdikdən sonra onu bir kənara qoydu. 60 ildən sonra Ağa Məhəmməd şah Qacar Nadirin nəvəsinin hakimiyyətinə son qoyacaqdı. Şahruxun özü isə ailəsi ilə birlikdə Mazandarana gondəriləcək və yolda olarkən şiddətli ağrılara dözməyərək dünyasını dəyişəcəkdi. Bu, 1734-cü ildə Məşhəddə Novruz bayramı günlərində dünyaya gəlmiş oğlanın kiçik bir həyat hekayəsi idi.

Nadir Fars körfəzində yaranmış qeyri-sabit siyasi vəziyyəti sahmana saldıqdan sonra diqqətini və gücünü yenidən Osmanlılarla yaranmış problemin həllinə yönəltdi. 1734-1735-ci illər arasında türklərlə aparılan amansız müharibələr nəticəsində çoxsaylı tələfatlar hesabına olsa da, Azərbaycan ərazisinin böyük hissəsi, həmçinin Cənubi

Qafqaz demək olar ki, bütünlüklə Osmanlı qoşunlarından təmizləndi. Türklər də bu müharibədə canlı qüvvə baxımından böyük itkilər verdilər. Azərbaycanın Gəncə, Şamaxı, İrəvan, Naxçıvan kimi strateji əhəmiyyətə malik şəhərlərinin azad edilməsi Nadirin böyük hərbi qələbəsi demək idi. Xüsusilə də Gəncənin mühasirəsi zamanı çətinliklərlə və ciddi müqavimətlə üzləşən Nadir şah ruhdan düşməyərək sona qədər mübarizə aparmışdır. Yeri gəlmişkən, Nadir türklərə qarşı döyüşlərdə dəfələrlə rus hərbi mühəndislərinin köməyindən istifadə etmiş, artilleriyanın təkmilləşdirilməsi məsələsindən onların təcrübə və bacarığından bəhrələnməyi bacarmışdır. Bu, xüsusilə Gəncə qalasının mühasirəsi zamanı özünü qabarıq şəkildə büruzə vermişdir. Rus əsgərləri Nadirin ordusunda istifadə edilən geyimlərdə döyüşlərdə iştirak etmiş, qalanın alınmasında xüsusilə fərqlənmişlər[1].

Rusiyanın Nadirə kömək etməkdə öz siyasi məqsədləri var idi. Belə ki, çarizm düşmən münasibətdə olduğu Osmanlı dövlətinin güclənməsindən və Qafqaz bölgəsində söz sahibinə çevrilməsindən narahatlıq keçirirdi. Ruslar Nadirin Türkiyəyə qarşı apardığı müharibəni öz məqsədlərinə uyğun kimi qiymətləndirir və Osmanlının Qafqazın sahibinə çevrilməsindənsə, bölgənin iranlıların hakimiyyəti altında qalmasına üstünlük verirdilər. Nadirə kömək etməklə ruslar həm də türklərlə mümkün müharibə zamanı onun dəstəyini qazanmağa ümid bəsləyirdilər. Əvvəlcə

[1] Bu fəslin tərcüməsi zamanı Nadirin Osmanlı dövləti ilə apardığı müharibələrə dair hissə mütərcim tərəfindən müəllifin hərbi-taktiki məsələlərin təsvirinə deyil, müxtəlif məzmunlu düşüncələrə üstünlük verməsi səbəbindən ixtisar edilmişdir. Oxucular Nadir şahın 1734-1736-cı illərdə Osmanlı dövləti ilə apardığı müharibələrin hərbi-taktiki təhlilinə dair bu mənbələrdən ətraflı məlumat ala bilərlər: ***Локкарт. Надир шах. Перевод с английского: Н.Р.Гезаловой, Баку, 2004, стр. 98-116; M.Süleymanov. Nadir şah. Tehran, 2010, səh. 217-280. – Mütərcim.***

1732-ci ildə Rusiya ilə Səfəvi dövləti arasında imzalanan sazişə görə Rusiya Mazandarana və Gürgana olan iddialarından əl çəkir, Gilanı İrana qaytarır, həmçinin bölgənin Osmanlı qoşunlarından təmizlənəcəyindən sonra Xəzər sahilindəki bütün əraziləri geri qaytarmaq haqqında öhdəlik götürürdü. 1735-ci ildə, yəni Nadirin türklər üzərində qələbəsindən və Azərbaycan torpaqlarının azad olunmasından sonra Rusiya ilə imzalanan Gəncə müqaviləsinə əsasən Dərbənd və Bakı da Nadirin hakimiyyəti altına keçdi. Lakin göstərilən bütün dəstəyə və edilən güzəştlərə baxmayaraq, Rusiya Nadirdən Osmanlı dövlətinə qarşı hərbi-siyasi müttəfiq kimi istədiyi şəkildə istifadə edə bilməyəcəkdi. Nadir Dağıstanda ləzgilərlə yaranmış münaqişəni də öz xeyrinə həll edərək, onlarla sülh sazişi imzalamağa nail oldu.

Toplantı, yığıncaq mənasını verən qurultay anlayışı monqol mənşəlidir. Nadirə qədər öz hakimiyyətini rəsmiləşdirmək üçün Asiyanın iki böyük fatehi – Çingiz xan və Əmir Teymur da qurultay çağırmışdılar. Çingiz xan qurultay çağırmaqla hər kəsə real hakimiyyətin sahibi olduğunu nümayiş etdirmək istəmişdi, məqsəd əsla hər hansı seçkinin keçirilməsi deyildi. Ümumiyyətlə, qurultay mahiyyətcə seçki yox, daha çox hakimiyyətin elan edilməsi prosesidir. Nadirin Muğan düzündə təşkil etdiyi qurultay da bu mənada istisna təşkil etmirdi. Qurultayın keçirilməsi haqqında bir çox maraqlı təfərrüatlar katolikos Abraham tərəfindən qələmə alınmışdır. O, gecikməmək üçün çevik tərpənmiş və qurultay başlamazdan bir müddət öncə, yəni 14 yanvar tarixində bu əraziyə gəlmişdi. Nadir katolikosla 22 yanvar tarixində görüşdü. O, katolikosu xoş qarşıladı və onunla bir çox mövzularda söhbət etdi, din xadimini özünü maraqlandıran məsələlərə dair sorğu-suala tutdu.

Belə bir təəssürat yaranmışdı ki, Nadir əslində, nə baş verdiyindən, barəsində sual verdiyi məsələlərdən ətraflı

şəkildə xəbərdardır. Sadəcə o, istəyirdi ki, onun tabeçiliyindəki insanlar bilsinlər ki, o hər şeydən, o cümlədən torpaqların əkilib-becərilməsi bağlı müəmmalı vəziyyətdən də. Nadir söhbət əsnasında katolikosa İrəvanda xidmət edən rəsmi şəxslərin, məmurların davranışı ilə, həmçinin əkin-biçin işlərinin gedişi ilə bağlı suallar ünvanladı. Şahla söhbətdən sonra katolikos xəbər tutdu ki, Nadir onunla söhbətdən əvvəl İrəvana gizli adamlar göndərmiş və onların vasitəsilə gələn il üçün nəzərdə tutulan əkin işlərinin vəziyyəti ilə bağlı zəruri məlumatları toplamışdı. Katolikos çaşbaş qalmışdı. O, Nadirin onun dürüstlüyünü yoxladığını, yaxud həqiqətən də əkin biçin işlərində erməni kəndlilərinin üzləşdiyi çətinlikləri müəyyən etməyə çalışdığını başa düşməkdə çətinlik çəkirdi. Həmin ərəfədə həqiqətən də, qoşqu heyvanlarının, həmçinin taxılın çatışmamazlığı ucbatından ciddi çətinliklər meydana gəlmişdi. Ancaq Nadir katolikosu arxayın salaraq bildirdi ki, "Allah mərhəmətlidir və sizi ehtiyac içində qoymaz". Söhbətdən sonra o, katolikosa geriyə, öz şəhərinə qayıtmağa icazə verdi və növbəti gün ona hədiyyə olaraq üzərində naxışlarla İsa Məsihin təsviri işlənmiş iki gözəl, bahalı libas göndərdi. Belə bir ehtimal irəli sürülür ki, həmin libaslar Gürcüstan yürüşü zamanı əldə edilmiş qənimətlər arasından seçilmişdi.

Beləliklə də, ölkənin qarşısında dayanan başlıca problemlər həllini tapdıqdan, təhdidlər isə aradan qaldırıldıqdan sonra Nadir özünü şah elan etməyin zamanı gəldiyini başa düşürdü. Onun əmri ilə 1736-cı ilin fevral ayının əvvəllərindən etibarən Muğan düzündə, Araz və Kür çayının qovuşduğu məkana toplaşmağa başladılar. Tarixçilər qeyd edirlər ki, ümumilikdə bu qurultaya 20.000-ə qədər adam toplanmışdı. Xidmətçiləri və mühafizəçiləri də buraya əlavə etsək, 100.000-ə qədər insanın həmin vaxt

Muğan düzünə toplaşdığını demək mümkündür. Qurultayda həlledici söz sahibi 54 nüfuzlu xan idi. Nadir qurultay iştirakçılarına göndərdiyi məktubda vətən qarşısında öz borcunu yerinə yetirdiyini və məmləkəti işğalçılardan təmizlədiyini bildirir, bundan sonra dinc, sakit həyat keçirmək istədiyini, ömrünün qalan hissəsini Allaha ibadətə həsr etməyi düşündüyünü deyirdi. O, qurultaya toplaşanlara II Təhmasibi, yaxud Səfəvi nəslindən başqa bir şəxsi özlərinə şah seçməyə çağırış etdi. Təbii ki, bütün bunlar hazırlanmış bir siyasi tamaşa idi və Nadir hakimiyyəti heç kəsə vermək niyyətində deyildi. Bu həqiqəti qurultaya toplaşanların hamısı başa düşürdü. Ona görə də feodallar bir ağızdan Nadiri şahlığa ən layiqli şəxs hesab etdiklərini bildirdilər və ondan savayı heç kəsə itaət etməyəcəklərini dilə gətirdilər. Nadir isə guya bu çağırışları nəzərə alıb, lütfkarlıqla şah olmağa razılıq verdi, lakin bunun üçün 3 şərt irəli sürdü: 1. Heç kəs keçmiş şahın heç bir övladını Nadirin əleyhinə dəstəkləməməlidir. 2. Feodalların hər biri qeyri-şərtsiz Nadirə və onun vəliəhdinə tabe olmalıdır. 3. Hər kəs Səfəvilərin rəsmi din elan etdiyi şiəlik məzhəbindən çıxıb sünniliyə keçməli idi. Hər kəs Nadirin bu şərtlərini qəbul edərək, onlara hörmətlə yanaşacağına söz verdi. Yalnız şiə ruhaniləri Nadirin şah elan edilməsinə etiraz etdiklərini bildirdilər. Çox keçmədi ki, bu etirazın rəhbəri mollabaşı öz çadırında ölü tapıldı. Beləliklə də, Nadir 1736-cı ilin martında Muğan düzündə özünü şahənşah elan etdi. O, artıq İranın tamhüquqlu, rəsmi hakimi idi. Səfəvi sülaləsinin sonuncu hökmdarı II Təhmasib və onun körpə oğlu III Abbas isə Xorasana yola salındı.

Bundan sonra Nadirin adı kəsilən sikkələrin də üzərində görünməyə başladı. O dövrdə müsəlman aləmində hökmdarın müstəqilliyinin rəmzi kimi cümə namazları zamanı onun şərəfinə xütbə verilir, dualar oxunurdu. Hə-

min vaxtdan etibarən Nadirin adının cümə namazlarında çəkilməsi də adət halını aldı. Sikkələr üzərində həkk olunması üçün o dövrün şairlərindən biri tərəfindən (Qəvamüd-din – mütərcim) ərəb dilində belə bir şüar da qələmə alınmışdı: "Baş verən ən yaxşısıdır!" ***(ərəb. "Al – Khair fi ma waga`a").*** Lakin bu şüarda ərəb dilinin xüsusiyyətinə uyğun olaraq sözlərin yerini dəyişdikdə tam əks mənanın alınması qaçılmazdır – "Baş verən ən yaxşısı deyil"[1]. Bəzi baməzə adamlar əyləncə məqsədi ilə bu ifadələrin yerlərini dəyişərək əylənirdilər. Lakin hər bir halda Nadir üçün nəzərdə tutulan dövlət möhürünün üzərindəki yazı artıq hazır idi və onun üzərinə belə sözlər həkk olunmuşdu: "O vaxtdan ki, dövlətin və dinin cöhvəri qeyb oldu, Allah onu iranlı Nadirin simasında bərpa etdi".

Nadir tacqoyma mərasimi ərəfəsində qurultaya yığılmış nümayəndələri aşağıdakı şərtlər əsasında Osmanlı dövləti ilə sülh danışıqlarına başlamağın zəruriliyinə inandıra bilmişdi:

1. İranlılar özlərinin əvvəlki məzhəblərindən əl çəkməyə razılıq verirdilər, bunun müqabilində isə onların sünniliyin qaydalarına əsaslanacaq, lakin cəfərilik adını daşıyacaq məzhəbi Osmanlılar tərəfindən beşinci sünni məzhəbi kimi qəbul olunacaqdır;

2. 4 ənənəvi sünni məzhəbinin hər biri Kəbə ərazisində bir sütunla təmsil olunduğu üçün İmam Cəfər Sadi-

---

[1] İngilis tarixçisi L.Lokkart qeyd edir ki, Nadir şahın hakimiyyətə gəldiyi zaman Səfəvi sülaləsinin təəssübünü çəkən şairlərdən biri sikkələr üzərində həkk olunmuş şüara işarə olaraq aşağıdakı məzmunda sətirlər qələmə almışdı: "O gün ki, "Baş verən ən yaxşı" baş verdi. biz malımızın və canımızın təhlükəsizliyinə dair bütün ümidlərimizi dəfn etdik". Deyilənə görə, Nadir bundan xəbər tutduqda bir neçə şairin edam olunmasını əmr etdi. ***[Вах: Л.Локкарт. Надир шах. Перевод с английского: Н.Р.Гезаловой, Баку, 2004, стр. 126]. – С.Н., Е.Ә.***

qin təmsil etdiyi məzhəbi də təmsil edəcək müvafiq sütun ucaldılmalıdır;

3. İranlı hacılara rəhbərlik edəcək şəxsin (Əmirül-Hacı) hüquqi statusu onun suriyalı və misirli həmkarlarının statusları ilə eyniləşdirilməlidir, həmçinin iranlı zəvvarların rahatlıqla Kəbəni ziyarət etməsinə şərait yaradılmalıdır;

4. Hər iki tərəf hərbi əsirlərin qarşılıqlı şəkildə azad edilməsinə dair öhdəlik götürməli, əsirlərin kölə qismində satışına qətiyyən yol verilməməlidir;

5. Tərəflər öz saraylarında daimi qaydada səfirlərin saxlanılmasını təmin etməlidirlər.

Şənliklər tacqoyma mərasimindən sonra da, Novruz bayramı boyunca və ondan sonrakı bir neçə gün ərzində də davam etdi. Nadirin növbəti hədəfi Qəndahar idi. O, öz ordusundakı əfqan döyüşçüləri ilə şəhər haqqında, gəzən söz-söhbətlər barəsində danışır, şəhərə hazırladığı hücum əməliyyatından söz açırdı. Nadir şənliklərdə iştirak etdikdən sonra, nəhayətki 1736-cı ilin 14 aprel tarixində Muğan düzündəki düşərgəni tərk edərək 3 ay müddətində qalacağı Qəzvinə yola düşdü. Məhz bu şəhərdə olarkən Nadir bütün ölkə boyunca sünni müsəlmanların dinə təhqir hesab etdikləri bəzi ənənəvi şiə vərdişlərindən imtina edilməsinə əmr verdi.

Nadir öz məqsədinə nail olmuşdu. Belə ki, o, hələ Dərrə-Qəzdə uşaqlıq illərində qumun üzərində oynayarkən arzuladığı, xəyalını qurduğu İran taxt-tacına əyləşmişdi. Çox güman ki, Nadir özünün və ailəsinin yoxsulluqda yaşadığı vaxtlarda onlara həqarətlə yanaşan, ələ salan insanlara əhəmiyyət versəydi, bu qədər uca mərtəbəyə yüksəlmiş insan ola bilməzdi. Lakin o da həqiqətdir ki, əksər hallarda biz çox-çox uzaq görünən məqsədlərə çatdıqda başa düşürük ki, onlar bizim təsəvvür etdiyimizdən tamamilə fərqli və qəribə mahiyyətə malikdirlər.

## VII FƏSİL

# DEHLİNİN QAPILARINA DOĞRU

*Bizi ən qəti məqsədimizə – içimizdəki müstəbidliyə təkcə ağlımız yox, həm də vicdanımız aparır.*

***F.Nitşe***

1736-cı ilin əvvəlində Nadir hakimiyyəti ələ alıb iqtidarını möhkəmləndirdikdən sonra onun qarşısında həllini gözləyən iki mühüm məsələ dayanırdı – Osmanlı dövləti ilə sülh danışıqlarının başlanması və Qəndəhara hücum ərəfəsində güclü təbliğatın həyata keçirilməsi. Hər iki məsələ bir-birilə sıx şəkildə bağlı idi. Lakin Nadir Əfqanıstan məsələsində təkcə Qəndəharla kifayətlənmək niyyətində deyildi. Onun nəzərləri daha uzaqlara dikilmişdi. Martın əvvəllərində o, Muğanı tərk etməzdən öncə onun düşərgəsində çoxsaylı söhbətlər və şayiələr dolaşırdı. Nadir şahın katolik keşişi Abrahamla söhbəti isə xüsusi maraq doğurmuşdu. Söhbət əsnasında onlar arasında belə bir dialoq olmuşdu.

– Nadir: Xəlifə, sənin xəbərin varmı, mən sənin sabah buranı tərk etməyinə icazə verəcəyəm?

– Katolik keşişi: Qoy mənim Vəli nemətimin (şahımın) ömrü uzun, hakimiyyəti davamlı olsun. Mən Allahıma ümid edirəm. Mən bu gün sizin İranı fəth etdiyinizi görürəm. Elə bir an gələcəkdir ki, mən bütün Qəndəharın da sizin iradənizə tabe olacağını görəcəm. Nadir məmnun halda gülümsədi və dedi: Afərin sənə!

1734-cü ilin əvvəlində Nadirin Hindistanla bağlı fikirləri təzadlı idi. Hələ 1730-cu ildə Moğol hakimiyyətinə sərt məktub göndərdikdə onun Hindistanla əlaqəli müəyyən planlarının olması nəzərə çarpırdı. O, Moğol imperatorundan əfqan qaçqınlarının onun ölkəsinin ərazisinə daxil olmasının qarşısını kəsməyi tələb etmişdi. Moğol imperatorunun qaçqınlar məsələsində laqeydlik göstərməsi Nadirə hücuma keçmək üçün bəhanə verəcəkdi. Nadir Abdulla Köprülü paşanı iyun ayında Bahavard döyüşündə məğlubiyyətə uğratdıqdan sonra Osmanlı dövləti ilə intensiv danışıqlar başlamışdı. 1736-cı ildə Muğanda aparılan danışıqlar və əldə ediləcək nəticələr İstanbulda təmkinlə qarşılandı. Çünki Rusiya ilə mümkün müharibə Osmanlılara baha başa gələcəkdi. Eyni zamanda belə görünürdü ki, Avstriya ilə müharibə qaçılmazdır və onun başlanması an məsələsidir. Lakin Osmanlı diplomatiyası bütün mümkün vasitələrdə Nadiri onun müttəfiqinə çevrilmiş Rusiyadan ayırmaq niyyətində idilər. Osmanlılar Nadirin yeni məzhəb – Cəfəriliyi himayə etməsindən olduqca narahatlıq keçirirdilər. Hər hansı yeni məzhəbin Osmanlılar tərəfindən qəbul edilməsi, ümumiyyətlə, mümkün deyildi. Nadirin bu təklifi nə vaxtsa Osmanlı sultanı ilə onun arasında yaralı bir mövzuya cevriləcəkdi. Osmanlı tərəfini təmsil edən diplomat danışıqlar zamanı bildirdi ki, əgər sultan Cəfəri məzhəbini qəbul etsə, o zaman Krım xanı Tartar xan da onun himayəsinə kecməyi qəbul edəcəkdir. Danışıqları uzatmaq məqsədi ilə və Cəfəri məzhəbini daha dərindən öyrənmək bəhanəsi ilə Osmanlılar hər iki ölkənin alimlərinin bir yerə toplaşıb müzakirələr aparmasında israr etdi.

1736-cı ilin oktyabr ayında Osmanlı dövləti ilə və İran arasında imzalanan müqaviləyə əsasən Nadir müstəqil

hökmdar, şah kimi tanındı. Əvvəlki dövrlərdə oldugu kimi sərhədlər dəqiqləşdirildi. Dini məsələlərə isə bu müqavilədə qətiyyən toxunulmadı. Nadir Osmanlı dövləti ilə imzalanan müqaviləni heç vaxt tam şəkildə təsdiqləmədi. Əvəzində Nadir ruslara söz vermişdi ki, onların xəbəri və razılığı olmadan o, heç bir sülh danışıqlarına başlamayacaq. Lakin bu zaman ruslar da Nadirə qəzəbli idilər. Çünki, osmanlılarla müharibə artıq qızışmaq ərəfəsində idi. Buna baxmayaraq, Nadir Osmanlılarla rusların arzuladıqları kimi müharibə etmək əvəzinə, məzhəb məsələsini aydınlaşdırmaq üçün uzunmüddətli sülh prosesinə təkan vermişdi. Nadirin də məqsədi məhz bu idi. Dini məsələləri danışıqlar mövzusuna çevirməklə, Nadir həqiqətən də uzaqgörən addım atmışdı. 1736-cı ildə Nadirlə Osmanlı dövləti arasında müharibənin yenidən başlaması ehtimalı hələ də qalırdı. Bu Qara dəniz sahillərinə doğru irəliləyən rusların da işinə yarayardı. Ruslar Nadirə Osmanlı dövlətinə qarşı hərbi əməliyyatlara başlaması üçün təzyiqlərə başladılar. Lakin o, yaxşı bilirdi ki, belə bir müharibə sadə xalq üçün ağır və dağıdıcı sınaq olacaqdır. İnsanlar əvvəlki müharibələrin yaralarını sarımağa macal tapmamışdılar. Həm də Nadirin dini siyasətinin pərdəarxası məqamlarına baxmayaraq, o, hər hansı xristian ölkəsi ilə müsəlman dövlətinə qarşı ittifaq yaratmaq istəyindən uzaq idi. Nadir Qəzvində olarkən ona daha bir sevindirici xəbər gətirmişdilər. Fars korfəzinin cənub hissəsində yerləşən Bəhreyn adası onun ordusunun tabeliyinə keçmişdi. 1717-1718-ci illərdə ada Osman sultanının nəzarətinə keçmişdi. İranlıların yenidən körfəzdə güclənməsi prosesi 1734-cü ildən etibarən, yenidən başladı. Nadir Lətif Xanı yeni admiral kimi təsdiqlədi. Lətif xan gəmilərə nəzarət məsələsində ciddi problemlərlə üzləşmişdi. Tağı xan Şirazi Bəhreyn

qalasının açarlarını Nadirə göndərdi. Bundan sonra iranlılar heç bir ciddi müqavimət görmədən qalanı ələ keçirməyə müvəffəq oldular.

Qəzvində olarkən Nadirə daha bir xoş xəbər çatdırıldı ki, bu da üsyançı Bəxtiyari tayfasının qaldırdığı qiyamın yatırılması ilə bağlı idi. Bəxtiyarilər hələ 1730-cu ildən Nadirə ciddi problemlər yaratmağa başlamışdılar. Onlar əvvəlcə İsfahan ətrafında olan səyyahları talan etdilər. 1735-ci ilin payızında Əli Muradın başçılığı altında üsyan başladı. Bir necə ay sonra 20000 adam Lordan olan tayfa başçıları ilə birgə üsyançılara qoşuldu. Hətta bəziləri belə deyirdilər ki, guya o, Nadiri darmadağın edib Təhmasibi azadlığa buraxmaq istəyir. Təbii ki, Nadir də belə bir təhlükənin baş qaldırdığını görüb başqa bir istiqamətə hərəkət edə bilməzdi. O, öz ordusuna göstəriş verdi ki, üsyançılar üzərinə hücuma keçərək bu qiyamı yatırsınlar. Bəxtiyarilər inadla müqavimət göstərsələr də, sonda məğlub oldular.

Əli Murad ailəsi ilə birgə dağlıq ərazidə, mağaralardan birində gizlənmişdi. Bir dəfə, onunla birgə olan qadınlardan hansısa su götürmək üçün aşağıya enəndə, Nadirin adamları onu yaxaladılar və sorğu-suala tutdular. Doğrudur, qadın əvvəlcə müqavimət göstərdi. Ancaq 24 saat ac-susuz qaldıqdan sonra suyu Əli Muradın ailəsi üçün apardığını etiraf etdi. Əli Muradin izinə düşdülər. Əli Murad ələ keçəcəyini anlayıb müqavimət göstərməyə çalışdı. Lakin hər şeyin əbəs olduğunu anladıqda, arvadlarını və uşaqlarını Nadirin əlinə keçməsinlər deyə öz əlləri ilə öldürdü. Özü isə təslim olmaq qərarına gəldi. Onun gözləri çıxarıldı. Ayaqları və qolları kəsildi. Bir neçə gündən sonra o, qan içində su istəyə-istəyə can verdi.

Nadir yerli əhalini bir qədər də qıcıqlandırmamaq üçün cəza tədbirlərini başa vurduqdan sonra bu ərazidən müəy-

yən müddətlik uzaqlaşmağı məqsədəuyğun hesab etdi. 15 oktyabrda Nadir 200.000 minlik ordu ilə İsfahana üz tutdu. Nadir vergiləri iki dəfə qaldırdı. Onun əsgərləri tacirləri döyür, onlardan vergilərini vaxtında ödəməyi tələb edir, əks halda onların evlərindən çıxmırdılar. İngilis mənbələrinin məlumatlarında deyilir ki, Nadirin dövründə İsfahanda cəmi 8000 adam yaşayırdı. Bu, Şah Sultan Hüseynin vaxtındakından çox azdır. Belə ki, onun zamanında şəhərin əhalisi 90000, Əşrəf Gilzainin dövründə isə 40000 adam yasayırdı. Nadirin adamları tacirlərin minik heyvanlarını da müsadirə edib özləri ilə aparırdılar. Sanki bütün İran Nadirin Qəndəhar üzərinə yürüşünə hazırlıq üçün səfərbər olmuşdu. Kermanda vergi məmurları əhalidən zorla 1500 tümən gümüş pul toplaya bilmişdilər. Vergiləri ödəmək üçün əhali bəzən əmlakını və minik heyvanlarını satmağa məcbur olurdular. Bəndər-Abbasda isə əhalidən xeyli sayda ərzaq müsadirə edilmiş, dükanlar talanmışdı.

Nadir öz adətinə uyğun olaraq, yürüşlər ərəfəsində öz əsgərlərinə, xüsusilə də ordu komandanlarına pul və qiymətli hədiyyələr paylayırdı. 11 noyabr tarixində Şiraz vilayətinin hakimi Tağı xan bu vilayətin xəracını tam şəkildə toplayaraq Nadir şahın hüzuruna gəldi. Nadir öz sevimli əyanını sevinclə qarşıladı, ona xələt və at bağışladı. Bu hazırlıqlar nəticəsində bütün ölkə boyu dərin böhran yaranmışdı, pul, ərzaq və minik heyvanlarının qıtlığı açıq şəkildə özünü göstərməkdə idi. Nadir 22 dekabr tarixində Kermana çatdı. Onun ordusu Şərqə doğru hərəkətini davam etdirərək 19 fevral 1737-ci ildə Bəmi də keçərək Gereşkə daxil oldu. Bu ərazidəki otlaqların azlığı Nadirin ordusu üçün ciddi problem yaradan amillərdən birinə çevrilmişdi. Atların qidalanması üçün böyük otlaq sahələrinə, yaşıllıqlara ehtiyac var idi. Lakin əvvəlki illərdə bu

ərazilərdə cərəyan etmiş döyüş əməliyyatları nəticəsində otlaq sahələrinin əhəmiyyətli bir qismi yandırılaraq məhv edilmişdi. Yaz fəsli gəlmədiyindən otlaq tam şəkildə yaşıllaşmamış, ot örtüyü tamamilə bərpa olunmamışdı. Daha bir problem isə dağ çaylarında tədricən özünü göstərən daşqınlarla bağlı idi. Bütün bunlara baxmayaraq, Nadir yaza qədər bur ərazidə qalmağa qərar verdi və Novruz bayramını da Gereşkdə keçirdi.

Herat kimi Qəndəhar da möhkəm qala divarları olan şəhərlərdən idi və Nadirin onu asanlıqla ələ keçirəcəyi inandırıcı görünmürdü. Onun yolunun üstündə çox sayda palçıqdan tikilmiş qalalar da var idi. Eyni zamanda Nadirin ordusu artilleriya sarıdan da əziyyət çəkirdi, odlu silahlar kifayət etmirdi. Ancaq Nadir öz məqsədindən dönmək niyyətində deyildi. O, öz əsgərlərinə bu ərazidə Nadirabad adlanacaq şəhərin inşasına başlamağı tapşırdı. Belə bir şəhərin inşası mühasirənin davam etdirilməsi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edirdi. Çünki, əsgərlərin təhlükəsizliyini, həmçinin rahatlığı baxımından yaxşı möhkəmləndirilmiş etibarlı bir istinadgahın olması mütləq idi. Hüseyn Sultan özü Nadirin nəzarətində olsa da, onun adamları qala ətrafında hələ də qalmaqda idilər. Nadir Hüseyn Sultanla mehriban davranırdı, lakin bunun əksinə olaraq Məhəmməd Səid xanı təhlükəli düşmən hesab etdiyindən onun gözlərinin çıxarılmasını əmr etmişdi.

Deyilənlərə gorə, bir dəfə Nadirin düşərgəsinə bir nəfər adam gəlir. Bu adam Nadirə bir şeir oxudu, lakin Nadir ona həsr edilmiş şeiri bəyənmədi. Əhvalı korlanan hökmdar öz adamlarına əmr etdi ki, həmin şəxsi kölə kimi satışa çıxarsınlar. Lakin həmin şəxsə müştəri tapılmadığından onu satmaq mümkün olmadı. Nadir ondan soruşdu: "Sən buraya necə gəlmisən?" Həmin adam üzərində gəldiyi

eşşəyə işarə etdi. Nadirin əmri ilə eşşəyi satıb onun pulunu həmin insana verdilər ki, çıxıb getsin. Poeziyanı Nadir qətiyyən sevmirdi.

1737-ci ilin yayında və payızında Nadirin ordusunda ciddi tələfatlar baş vermişdi. Malyariya xəstəliyi sülh şəraitində belə xeyli sayda insanın ölümünə səbəb olmuşdu. Üstəlik Nadirin həzm sistemində də problemlər yaranmış, xəstəlik onu narahat etməyə başlamışdı. 1738-ci ilin qışına doğru Qəndəharda mühasirədə olan əfqanlar aclıqdan artıq öz atlarını kəsib yeməyə məcbur olmuşdular. Nadir isə öz növbəsində sıraları seyrələn orduya yeni qüvvələrin cəlb edilməsi ilə məşğul idi. Onun əmrinə əsasən İsfahan və onun ətrafında olan məntəqələrdən 13 və 25 yaş arası 1500 nəfər ordu sıralarına cəlb edildi. Gənclər ordu sıralarına cəlb edilməzdən öncə məşqlərə çağrılır, onların fiziki qüvvəsinin artırılması üçün hazırlıqlar aparılırdı. Davamlı məşqlərdən və hazırlıqlardan sonra bu gənclər o qədər amansızlaşmışdılar ki, qarşılarına çıxan hər şeyi dağıdıb talan edirdilər. 21 mart 1738-ci ildə Nadir hədiyyələr və ziyafətlərlə növbəti Novruz bayramını təntənə ilə qeyd etdi. 23 martda bəxtiyarilər də müharibə üçün son hazırlıqlarını tamamladılar. Orduya nəzər salarkən, Nadir öyrəndi ki, Adine Mostafi adlı molla hücumda iştirak etməkdən boyun qaçırır. O bildirdi ki, mollalıq və müharibə bir araya sığmayan məsələlərdir. 24 mart günorta namazından dərhal sonra Nadirin ordusu hücuma başladı. Şah Sultan Hüseyn çox umidsiz görünürdü. Əfqanlar döyüş meydanına əlavə qoşunlar cəlb etmişdilər. Lakin iranlı atıcılar qalanı güllə yağışına tutdular. Sultan Hüseyn şəhər əhalisinin kiçik bir hissəsinin çıxarılmasına sərait yaratdı, qalanlarını isə ölümə tərk etdi. Növbəti gün Gilzai qəbilə başçıları gözəl şahzadə Zeynəbi əfqan əs-

gərlərinin müşayiəti ilə Nadirin düşərgəsinə göndərdilər. Nadir bu hadisədən məmnun qalmışdı. Şah Sultan Hüseyn ailəsi ilə birgə Mazandarana göndərildi. Nadir şəhər həbsxanasında Əbdali lideri Zülfüqarı və onun qardaşını da tapmışdı. Onlar da Mazandarana yola salındı. Nadir orada 15 yaşlı gənc bir oğlanı da tapmışdı. O öz istedadı və çevikliyi ilə Nadirin diqqətini cəlb etmişdi. Nadir onun bacarığından bəhrələnmək qərarına gəldi və gənci öz ordusunda xidmətə cəlb etdi.

Qəndəharın köhnə qala divarları yerlə-yeksan edilmişdi. Yerli sakinlər isə tikilməkdə olan Nadirabada köçürülürdülər. Şəhər əyalətin yeni paytaxtı qismində seçilmişdi. Gilzai qəbiləsinə daxil olan Xotakilər nəsli isə Xorasanda məskunlaşdırıldı. Sultan Hüseyn məhz bu ailəyə mənsub idi. Əhalinin əsas hissəsinin köçü aprel ayının ortalarına qədər davam etdi. Gilzailərin yalnız bir nüfuzlu ailəsinə məskunlaşdığı yeri tərk etmək icazəsi verilmədi.

Nadir Molla Adineyi yanına çağırtdırdı. Çünki qazanılan qələbədə onun xəfiyyəlik fəaliyyəti az rol oynamamışdı. Mollaya hədiyyə olaraq bir çanta təqdim olundu. Yalniz Nadir çıxıb getdikdən sonra molla çantanın qızılla dolu olduğunun fərqinə varmışdı. Lakin molla bir müddət sonra çantanı Nadirin hüzuruna apararaq yanlışlıq olduğunu bildirdi. Lakin Nadir bildirdi ki, həmin çanta qiymətli daş-qaşla aşıb-daşsa da, onu geri götürməyi özü üçün qətiyyən məqbul hesab etmir və belə bir hərəkəti özünə əskiklik bilir. Belə davranış Nadir üçün tam təbii idi. Çünki Nadir hədiyyə qəbul etməkdənsə, hədiyyə verməyi üstün tuturdu. Nadir Qəndəhar qalasını ələ keçirdikdən sonra 2 ay burada qaldı.

1738-ci ilin mayında İstanbuldan gələn səfir Nadirin düşərgəsinə çatdı. Yol uzun və təhlükəli olduğundan sə-

fir İstanbuldan Qəndəhara olan məsafəni yalnız 1 ilə qət edə bilmişdi. Səfir ilk növbədə Osmanlı sultanının Nadirin taxta çıxması münasibətilə təbrikini çatdırdı. Lakin o, Cəfəriliyin beşinçi məzhəb qismində qəbul edilərək, Kəbədə onun üçün xüsusi bir sütunun ucaldılması təklifinə sultanın rədd cavabı verdiyini də bəyan etdi. Nadir sultandan alınan cavabın onu qane etmədiyini bildirdi. O bəyan etdi ki, qaldırılan məsələ onun xarici siyasətinin əsasını təşkil edir. Nadir bu məsələnin yenidən nəzərdən keçirilməsi məqsədilə sultanın yanına yenidən elçilər göndərilməsinə qərar verdi. Beləliklə də, Osmanlı dövləti ilə aparılan diplomatik danışıqlar yenidən uzandı.

Dərin siyasi böhran keçirən Moğol imperiyasının zəifliyi Nadirin işinə tamamilə yarayırdı. Nadirin Hindistandan aldığı məktublar da Moğol imperiyasının acınacaqlı vəziyyətini sübut etməkdə idi. Nadir Moğol imperatorunun qarşısında əfqan qaçqınlarını qəbul etməmək barəsində tələb qoymuşdu. Nadir Kabula doğru istiqamət götürmüşdü. Şəhərə yaxınlaşdıqda onu qarşılamaq üçün nümayəndə heyəti şahın önünə çıxmışdı. Kabul hakimi Moğol imperatoruna və Dehli hakiminə müraciət edərək, oradakı qoşunların saxlanılması üçün verilməli olan beş illik vergini ödəmək iqtidarında olmadığını və bunun üçün ona bir il vaxt lazım olduğunu bildirmişdi. Bu ümidsiz xəbər Dehli hakimi Xan Dövrana gəlib çatdıqda o, qoşunlarını Peşəvərə doğru geri çəkmək qərarını verdi. Əsgərlərin bir qismi isə qalanı ələ keçirmək qərarına gəlmişdi.

Nadir bir neçə həftə ərzində şəhərin qala divarlarını amansız atəşə məruz qoydu. Şəhər əhalisi ondan mərhəmət umur və bunun üçün Nadir şaha yalvarırdılar. Deyilənlərə görə, Nadir öz əsgərlərinə Hindistan qadınlarına təcavüz etməyə belə icazə vermişdi. Ağır artilleriyanın az-

lığı Nadirin işini xeyli çətinləşdirmişdi. Nəticədə isə şəhərin mühasirəsi bir qədər də uzanır və çətinləşirdi. İyun ayında isə şəhərin mühasirəsi uğurla başa çatdırıldı. Nadir şah Moğol hökmdarı Məhəmməd şaha məsləhət xarakterli bir məktub göndərdi. Məktubda o, şaha əfqan partizanlarına qarşı birgə mübarizə aparmağı təklif etdi. Həmçinin öz məktubunda Nadir şah Kabulu zəbt etməsi barədə də məlumat verirdi. Şah Kabullilərlə ədalətlə və mərhəmətlə rəftar etdiyini yazır, onların əmlakına toxunmadığını bildirirdi. Məktub Nadirin Məhəmməd şaha öz dostluğunu ifadə edən sözləri ilə başa çatırdı. Dehliyə məktubu iranlı bir çapar aparırdı. Lakin bədbəxtlikdən məktub ünvanına gəlib çatmadı. Yolda olarkən qasid qətlə yetirilmişdi. Böyük ehtimalla onu Cəlalabad yaxınlığında öldürmüşdülər.

Kabuldan Nadir öz ordusunu şimala doğru, Carikar bölgəsi istiqamətində apardı. Bu ərazidə kifayət qədər ot ehtiyatı var idi. Hava küləkli, otlaqlar isə geniş idi. Nadir həmçinin həmin ərazidə yaşayan əfqan tayfalarını özünə tabe etmək məqsədini güdürdü. Əfqanıstandakı hərbi əməliyyatlar Nadirin ordusuna xeyli qənimətlər gətirmişdi. Hadisələrin axarı ondan xəbər verirdi ki, yaxın vaxtlarda Nadir daha çox gəlir və qənimət əldə edə biləcək. Sentyabr ayının əvvəlində ordu Gəndəmak-Cəlalabad-Peşəvər marşrutu ilə hərəkətə başladı. Buradakı siyasi vəziyyət bir əsr əvvəlkindən heç bir şeylə fərqlənmirdi. Britaniyalılar Gilzai tayfalarının mütəmadi hücum və basqınlarından əziyyət çəkməyə davam edirdilər. Yolda olarkən Nadir öz göndərdiyi elçisinin öldürüldüyü xəbərini aldı. Nadir eşitdiyi xəbərdən hiddətləndi və elçinin qətlə yetirildiyi Cəlalabad istiqamətinə atlı dəstələri göndərdi. Nadirin əsgərləri o qədər sürətlə hərəkət edib hadisə yerinə çatdılar ki, şəhəri müdafiə edən qarnizon müqavimət göstər-

məyə macal tapmamışdı. Lakin Nadirin elçisini öldürən şəxs fürsət tapıb dağlara qaçmış və buradakı çoxsaylı dərin mağaralardan birində gizlənməyə müvəffəq olmuşdu. Lakin Nadirin əsgərləri onu yorulmadan axtarır və həmin şəxsin izinə düşmək üçün əllərindən gələni edirdilər. Nəhayət, çoxsaylı səylər öz nəticəsini verdi və qatil ələ keçirildi. Müqavimət göstərdikləri üçün həmin ərazidəki kişilərin hamısı öldürüldü, qadınlar isə əsir götürüldü. Bu hadisələr Cəlalabadın cənubundakı böyük bir mağaranın ətrafında cərəyan etdi. Sözügedən mağaranın adı Tora-Bora idi. Bu həmin yer idi ki, orada 2001-ci ilin dekabrında Amerika əsgərləri bütün cəhdlərinə baxmayaraq, gizlənmiş Üsamə bin Ladeni ələ keçirə bilməmişdilər.

Nadirin əsas qoşunları Cəlalabadda dayandı və Bahar-Sofia adlanan məntəqədə düşərgə saldı. Sözügedən məntəqə Cəlalabaddan cənub-qərbdə yerləşirdi. 7 noyabr 1738-ci ildə Nadirin böyük oğlu Rzaqulu Mirzənin qoşunları da əsas qüvvələrlə birləşdilər. O, Nadirin əmrinə uyğun olaraq Bəlxdən hərəkət edərək bu əraziyə gəlmişdi. Nadir öz övladlarını gördüyü zaman özünü çox xoşbəxt hiss etdi. O, yaşa dolduqca övladlarından onu tez-tez ziyarət etmələrini istəyirdi.

Rzaqulu Mirzə 1736-cı ildə Nadirin taxta çıxması mərasimindən sonra Xorasanın idarəçiliyinə məsul şəxs təyin edilmişdi. Nadir ona Əntəhudda və Bəlxdə baş qaldırmış üsyanların yatırılmasını tapşırmışdı. Eyni zamanda o, Əfqanıstanın şimalında, dağlıq ərazidə Nadirin hakimiyyətinə qarşı alovlanmış etirazları da ram etməli idi. Nadir yaxın silahdaşı və dostu Təhmasib Xan Cəlairi də onunla birlikdə göndərmişdi ki, o, da gənc şahzadəni müşayiət etsin və onu baş verəcək çətinliklərdən və xətalardan sığortalasın. Məsələni mürəkkəbləşdirən başlıca amil üsyançıların Əfşar-

lar qəbiləsindən olması idi. Əslində, baş verən hadisələr onu göstərirdi ki, Nadirin bütün qələbələrinə baxmayaraq, onun bəzi qohumları və yaxınları yaradılmış idarəçilik sistemi ilə razılaşmaq istəmir, buna etiraz bildirirdilər.

Əntəhuddan Rzaqulunun kiçik ordusu Bəlxə dogru hərəkət etdi. Rzaqulu Bəlx istiqamətinə çatdıqda burada qalmaq əvəzinə, daha da irəliyə getmək niyyətinə düşdü. O öz ordusunu Oxus şəhəri üzərinə hücuma apardı. Belə bir hərəkət əslində, Nadirin əmrini pozmaq mənasına gəlirdi. Təhmasib xan onu uğurlarının ardınca getməyə həvəsləndirirdi. Avqust ayında 8500 nəfərlik ordu Qarşı şəhərinə doğru irəlilədi. Sözügedən şəhər strateji əhəmiyyətə malik idi. O, özbək xanı Əbül Fəzl üçün də böyük əhəmiyyət kəsb etməkdə idi. Özbək xanı mühasirədə olan şəhəri qoruyarkən Xocənddən, Daşkənddən və Səmərqəddən hərbi yardım da alırdı.

Baş verənlər Nadirdə narahatlıq hissi doğurmuşdu. Rzaqulu Mirzə və Təhmasib xan çətin vəziyyətə düşmüşdülər. Hərbi əməliyyatların miqyası gündən-günə genişlənirdi. Özbəklər hətta müəyyən müddət Nadirin ordusunu geri çəkilməyə də vadar etmişdilər. Lakin yaranmış vəziyyətdə artilleriya yenə də öz sözünü dedi. Özbəklər artilleriyanın aramsız və dağıdıcı atəşi qarşısında geri çəkilmək məcburiyyətində qaldılar. Rzaqulu böyük bir qələbə əldə etmişdi. O, öz müvəffəqiyyətindən sevinməli idi, çünki, 19 yaşlı gənc üçün bu böyük bir uğur hesab olunurdu. Lakin daha sonra Nadirdən qəti tapşırıq gəldi. Tapşırığa əsasən qoşunlar Oxusa doğru geri çəkildilər. Nadir Təhmasib xanı özbaşına şəkildə hərəkət etdiyi üçün məzəmmət etdi. Ancaq öz oğluna Nadir heç bir söz demədi. İstənilən halda o, doğma övladının zəfərindən məmnunluq duyurdu. Eyni zamanda Nadir Abül Fəzlə məktub

yazaraq, onun Buxara üzərindəki hakimiyyətini tanıdığını və ona hörmətlə yanaşdığını bildirdi. Qışa qədər iranlılar yenidən Oxusun cənubuna doğru irəliləyib, Hindiquş dağlarının şimalında yerləşən Gündüz vilayətində dayandılar.

Nadirin Oxus ətrafında yaranmış vəziyyətdən narahat idi. Narahatlıq əsasən xarəzmlilərin hücumları ilə əlaqədar idi. Nadir Orta Asiyanı işğal etmək arzusu ilə yaşayırdı. Bu torpaqlar Əmir Teymurun doğulduğu məkan idi. Ona görə də Nadir bu torpaqların fəthi şərəfini heç kəslə, o cümlədən doğma oğlu Rzaqulu ilə də bölüşmək niyyətində deyildi. 17 noyabrda, yəni altı aylıq fasilədən sonra Rzaqulu Oxusu tərk edib, Bəlxə çatdı.

Hər bir ata kimi Nadir də övladları ilə qürur duyurdu. Yaşa dolduqca o, arvadları və usaqları ilə daha cox vaxt keçirməyə çalışırdı. Hətta Nadir son Səfəvi şahlarından fərqli olaraq, oğlanlarını saray otaqlarına həbs etmək əvəzinə, onların inkişaf etməsinə şərait yaradır, bunun üçün çalışırdı. Hakimiyyətin davam etməsi, münaqişəsiz şəkildə varislər arasında bölüşdürülməsi Nadir üçün böyük əhəmiyyət kəsb edirdi. Nadirin həyatda olmayacağı dövrdə də onun sülaləsi davam etməli idi. İqtidar isə Nadirin gənc və təcrübəsiz oğlanları üçün ağır yük idi. Ümumiyyətlə, həmin dövrdə Nadir haqqında müəyyən xoşagəlməz şayiələr yayılmağa başlamışdı.

Nadir ikinci dəfə Rzaqulu ilə birgə Təhmasib xanı göndərməmək qərarına gəlmişdi. Çox güman ki, o, oğlunun artıq kifayət qədər təcrübə və səriştə sahibi olduğu qənaətinə gəlmişdi. Rzaqulu öz əmisi oğlu Əliqulu ilə birlikdə Əbivərd yaxınlığında qərargah salmışdı və Məşhədə qayıtmağa hazırlaşırdı.

Rzaqulunun gedişindən sonra Nadir ordusu ilə birlikdə yoluna davam etdi. Cəlalabad ətrafında olduğu zaman

Nadirə xəbər gəldi, bölgənin moğol canişini Dehlidən istədiyi köməyi ala bilməmişdir və o, Nadirə qarşı təkbaşına döyüşmək qərarına gəlib. Canişin 20.000 nəfərlik ordusu ilə Xeybər keçidində mövqe tutmuşdu. Bununla da o, Peşəvərə gedən yolu kəsmişdi. Lakin onun sərəncamındakı ordu Xeybərin dar yollarını tam şəkildə mühafizə etmək üçün yetərli deyildi. Nadir isə öz növbəsində ordusunu parçalamaq niyyətində deyildi. Yaranmış vəziyyətdə Nadir dəfələrlə etdiyi kimi yenə də manevrə əl atmaq qərarına gəldi.

26 noyabr 1738-ci il tarixində iranlılar Barikaba doğru istiqamət götürdülər. Bu məntəqə Xeybər keçidindən 20 mil məsafədə yerləşirdi və şimal-qərbə doğru uzanırdı. Sözügedən əraziyə yetişdikdə Nadir ordusunu iki hissəyə ayırdı. Ordunun bir hissəsini o Mürtəza adlı qardaşına tapşırdı, özü isə 12000 nəfərlik qoşunla Xeybər keçidinə tərəf yollandı. Eyni zamanda Nadir bahalı hədiyyələr paylamaqla ətraf ərazilərdə nüfuz sahibi olan yerli hakimlərin hamısını öz tərəfinə çəkmişdi. Qoşun Bazar vadisinə yetişdikdə Nadir dayanmağı və istirahət etməyi əmr etdi. Bu zaman Moğol imperatoruna xəbər verdilər ki, Nadirin adamları artıq Cəlalabad həndəvərindədilər. Moğol sərkərdələri Nadirin onlardan cəmi 50 mil məsafədə olduğunu eşitdikdə ümidsizliyə və təşvişə qapıldılar. Onlar müqavimətin əbəs olduğunu başa düşsələr də, sona qədər vuruşmaq qərarına gəldilər. Lakin hər şey gözlənildiyi kimi oldu, moğolların qoşunu məğlubiyyətə uğradı, əsgərlərin bir hissəsi isə döyüş meydanından qaçmağa üstünlük verdi. Nadir Xeybər keçidini asanlıqla ələ keçirdi. Peşəvərə gedən yol açıq idi və 1739-cu ilin yanvarında o öz qoşunları ilə birgə şəhərə daxil oldu.

Peşəvərdə olarkən Nadir sarsıdıcı bir xəbər aldı. Belə ki, onun qardaşı İbrahim Qafqazda ləzgilərlə döyüşdə

öldürülmüşdü. Ləzgilər əvvəlcə ona qarşı mülayim rəftar etmişdilər. Lakin sonradan onun başını bədənindən ayırıb, agacdan asdılar. Sonra isə cəsəd yandırıldı. İbrahimin ölümü Nadirə çox pis təsir etdi. Çünki, o, qardaşıyla uşaqlıqdan həyatın bütün çətinliklərini yarı bölmüşdü.

6 yanvar 1739-cu il tarixində Nadirin ordusu Peşəvəri tərk etdi və Pəncaba doğru yönəldi. Onun ordusu üçün xüsusi qayıqlar hazırlanmışdı. Ravi çayına gəlib çatanda Nadir əhatəyə alındığını hiss etdi. Onun əmri ilə ordu qəfil həmlə edərək onları tələyə salmağa çalışan moğol əsgərlərinin bütün planlarını alt-üst etdilər. Toqquşmalar növbəti gün də davam etdi. Əyalət hakimi Nadirin yanına elçi göndərərək atəşkəs haqqında təklif irəli sürdü. O, Nadirin Lahora daxil olub, dağıntılar, talanlar törətməsinin qarşısını almağa çalışırdı. Əldə edilən razılığa əsasən müəyyənləşdirilmiş məbləğdə xərac ödəndikdən sonra Nadir əyalət hakimini Lahora hakim təyin etdi.

Nadirin Kabulu ələ keçirməsi Dehlidə ciddi narahatçılıq doğurmuşdu. Məhəmməd sah Nizam ül-Mülkü yanına çağırdı. Şah kömək üçün mümkün olan hər kəsə müraciət edirdi. O, hətta Maratxlara belə üz tutmaqdan çəkinməmişdi. Maratx lideri Baji Rao Məhəmməd şah əleyhinə təbliğat aparması ilə hər zaman məşhur olmuşdur. Nizam ül-Mülk Nadirə qarşı qoşun göndəriləcəyinə söz verdi. Moğol ordusu 13 dekabrda Dehlini tərk edərək səfərə çıxdı. Ancaq ordu 15 mildən uzağa gedə bilmədi və Şalimar bağçaları adlı yerdə dayandılar. Yalnız 12 yanvar günü onlar şəhərin şimalına yetişə bildilər. Nadirin casusları Moğol ordusunun paytaxt Dehlini tərk etməsi haqqında məlumat gətirdilər. 6 fevralda isə onların Şirhin adlı yerə gəlib çatdıqları barəsində məlumat daxil olmuşdu. Moğol qoşunları Dehliyə 75 mil məsafədə yerləşən Karnal məntəqəsində mövqe tutdular.

Nadir kəşfiyyat məqsədilə 6000 nəfərlik kürd dəstələrini moğolların cəmləşdiyi əraziyə yolladı. Alınan məlumata əsasən, Moğol ordusunun sərəncamında 2000 fil, 3000 atıcı və ümumilikdə 300.000 canlı qüvvə cəmləşmişdi. Lakin moğolların düşərgəsində olan insanların ümumi sayı bundan qat-qat çox idi və 1 milyon nəfəri keçirdi. Nadirin əsas qüvvələri fevral ayının 19-da Şahabad adlı yerdə mövqe tutdu. Bu ərazi moğolların Karnaldakı düşərgəsindən 35 mil məsafədə yerləşirdi.

Elə həmin gecə Nadirin əmri ilə kürd kəşfiyyat dəstələri moğolların artilleriyasının cəmləşdiyi əraziyə qəfil basqın həyata keçirdilər. Gözlənilməz hücum nəticəsində qarşı tərəf müdafiə olunmağa macal tapmadan, bir neçə strateji mövqeyi əldən verdi. Uğurdan həvəslənən kürd dəstələri bir qədər də irəliləməyə müvəffəq oldular. Nadir özü isə sürətlə şimala doğru irəlilədi. Kürd dəstələri isə ələ keçirdikləri əsirləri Nadirin düşərgəsinə yola saldılar. Ayın 22-də Nadirin əsas ordusu Zanaser adlı yerə çatdı. Nadir kiçik oğlu Mürtəza Mirzəni burada qoyaraq irəliləməyə davam etdi.

Nadir Moğol ordusunun yaxşı möhkəmləndirilmiş mövqelərinə birdən-birə böyük tələfatla nəticələnəcək irimiqyaslı hücum əməliyyatı təşkil etmək niyyətində deyildi. İlk növbədə düşməndə xof yaradacaq üsullara əl atılırdı. Məsələn, odlu silahla təchiz olunmuş əsgərlər elə əminliklə manevr edirdilər ki, qarşı tərəfin vahiməyə düşməməsi mümkün deyildi. Deyilənə görə, hətta Moğol düşərgəsində "Nadir gəldi", "Nadir gəldi" deyə hay-küy salıb qaçanlar da olmuşdu. Nadirin adamlarının zahiri görünüşü həqiqətən də vahiməli idi. Belə ki, onun əsgərləri qoyun dərisindən hazırlanmış geyim geyinirdilər. Onun üzərindən isə yaxası açıq bir köynək geyinilirdi. Çiyinlərinə isə yundan hazırlanmış əba keçirirdilər. Tüfəngçilər isə başlarına dəmirdən dəbilqə keçirir və qalxan götürürdülər.

Nadir moğolların düşərgəsinə yeddi istiqamətdən həmlə etmək qərarına gəlmişdi. Plana uyğun olaraq ordu hərəkət edərək Kunparanın şimal-şərqində düşərgə saldı. Qurulan taktikaya əsasən Yamun çayı düşərgənin arxasında qalırdı. Həmçinin ordu Karnal səhrasını tam şəkildə müşahidə etmək imkanı qazanmışdı.

Karnaldan şimala doğru isə Moğol hökmdarı Məhəmməd şah düşərgə salmışdı. Onun mövqe tutduğu ərazi Kunparadan təxminən 4 mil uzaqlıqda yerləşirdi. Nadir olduğu yerdən dalğalanan Moğol bayraqlarını aydın şəkildə müşahidə edə bilirdi. O, belə qərara gəldi ki, moğolları qabaqlayıb ilk həmləni məhz özü etsin. Əks halda düşmən ondan tez hərəkət edib hücuma keçə bilərdi.

Nadir düşərgəsindəki zabitləri bir araya topladı. Moğollarla döyüşdə əldə ediləcək qələbə müqabilində onlara böyük təltiflər və hədiyyələr vəd etdi, orduya axşam çağı həyata keçirilməsi planlaşdırılan hücuma hazır olmağı tapşırdı. Həmin ərəfədə Nadir Səadət xanın moğolların köməyinə gəldiyinə dair məlumat aldı. O, Avaddan çıxmış və ayağındakı yaraya baxmayaraq, Məhəmməd şahın yardımına tələsməyi lazım bilmişdi.

Döyüşə hazır vəziyyətə gətirilmiş Nadirin ordusu təxminən 160.000 nəfərdən ibarət idi. Buna düşərgə mühafizəçiləri və qulluqçular da daxil idi. Ordunun silah təchizatı baxımından ciddi problemləri olmasa da, yalnız 100.000 döyüşçünün fəal hərbi əməliyyatlarda iştirak etmək iqtidarında olduğu bilinirdi. Bəzi mənbələrdə hətta belə bir məlumata rast gəlirik ki, Nadirin ordusunda 40 rus və 3 ingilis hərbiçisi də xidmət edirdi. Lakin bu məlumatı bir qədər dəqiqləşdirmək lazımdır. Çox güman ki, Nadirin ordusunda xidmət edən ingilis və ruslar döyüşçü yox, hərbi mühəndislər olmuşdu. Həmçinin ordu tərki-

bində kişi paltarı geyinmiş müəyyən sayda qadın döyüşçülərin olmasına dair məlumatlar da mövcuddur.

24 fevral tarixində Nadir öz ordusuna 3 hissəyə ayrılmaq haqqında əmr verdi. Sağ cinahın qüvvələrinə Təhmasib, mərkəzin qoşunlarına Nadirin oğlu Mürtəza, sol cinaha isə Fətəli xan Kəyani komandan təyin edildi. Səadət xanın moğolların köməyinə gələn qüvvələri isə təxminən 20-30.000 nəfərdən ibarət idi. Qüvvələrin bir hissəsi yolda ilişib qalsa da, Səadət xan bütün çətinliklərə baxmayaraq, özünü Məhəmməd şahın düşərgəsinə vaxtında çatdırmağa müvəffəq olmuşdu. O, özünü yetirdikdən sonra dincəlmək məqsədilə düşərgəsinə çəkilib istirahət etmək qərarına gəldi. Lakin istirahət etməyə macal tapmamış ona belə bir xəbər gəldi ki, Nadirin adamları onun dəstələrinə qəfil hücum edib xeyli qənimət ələ keçirmişdilər. Onun adamları hədsiz dərəcədə yorğun idilər. Yolda olarkən Səadət xana daha 4000 nəfərlik əlavə qüvvə də qoşuldu.

Səadət xan səhrada hərəkət edərkən gözləmədiyi halda iranlılarla üz-üzə gəldi. Nadir plana əsasən əvvəlcədən bu ərazidə kürdlərdən ibarət kəşfiyyat dəstələri yerləşdirərək, oranı tam nəzarət altına almışdı. İranlıların hərbi hiyləsi baş tutmuş və nəticədə Səadət xan moğolların əsas qüvvələrindən təcrid vəziyyətinə düşmüşdü. Səadət xan yaranmış vəziyyətdən çıxmaq üçün moğollara kömək etmələri məqsədilə qasid göndərdi. Məhəmməd şah ona kömək etmək istədiyini bildirsə də, vəzir Nizam ül-Mülk buna qəti şəkildə etiraz etdi. Sərkərdə Dövran xan da kömək göndərməyin mənasız olduğunu dedi. Onun fikrincə, Səadət xan çox ehtiyatsız hərəkət edib tələyə düşmüşdü. Qəzəblənən Məhəmməd şah sərkərdə Dövran xanı acıladı və onu təkəbbürlü tənbəl adlandırmaqdan belə çəkinmədi. Eşitdiyi sözlər onu ayağa qalxaraq filin

üzərinə oturub döyüşə yollanmağa vadar etdi. Onun ixtiyarındakı ordu 8-9 min döyüşçüdən ibarət idi. Nadirin saray tarixçisi yazırdı ki, moğol döyüşçülərinin çoxluğundan hər tərəf qara rəngə boyanmışdı. Nadirin ordusu irəliyə doğru hərəkətə başladı. Nadir ordunun önündə 1000 nəfərlik kürdlərdən, Qacarlardan və bəxtiyarilərdən ibarət dəstələr yerləşdirmişdi. Onların əsas məqsədi Dövran xanı Kuncupara sıxışdırmaqdan ibarət idi. Digər qüvvələrin qarşısında isə manevrlər hesabına Səadət xanı iranlıların mərkəzdəki ordusu ilə döyüşə cəlb etmək vəzifəsi qoyulmuşdu. Səadət xan Dövran xanın onun köməyinə gəlib çatması üçün yavaş-yavaş hərəkət etmək qərarına gəlmişdi. Bu isə, Nadirin qurduğu plana tam uyğun idi. Səadət xanın aramla hərəkət edən qüvvələri Nadirin güclü və gözlənilməz hücumuna məruz qaldı. Səadət xanın adamlarının əksəriyyəti yaralanaraq atlardan yıxılırdılar. Nəticədə meydanda böyük əlbəyaxa döyüş başlandı. İranlılar manevrlər hesabına Səadət xanın kiçik ordusunu mühasirəyə almağa başladılar.

Öz növbəsində Dövran xan Kuncupara çatdıqda Nadirin dəvələr üzərindəki qoşunları və artilleriyaçıları onları əhatəyə aldı. İranlıların odlu silahlardan açdıqları atəş moğolların fillərini qorxuya saldı və onlar hürkmüş halda Nadirin ordusu istiqamətində qaçmağa başladılar.

Məhəmməd şah da öz düşərgəsindən Nadirin artilleriyaçılarının açdıqları vahiməli atəş səslərini açıq-aydın eşidirdi. Moğol hökmdarı öz ordusunu hücuma aparmağa çalışdı. Lakin Nizam ül-Mülk sanki Dövran xandan qisas alırmış kimi qoşunların irəliləməsinə mane oldu. Onun tabeliyindəki adamlar fillərinin üstündə əyləşib qəhvə içirdilər. Dövran xanın oğlanları döyüşdə öldürüldülər, onun özü isə fildən yıxılaraq yaralandı. Onun ən sadiq adamaları sona qədər döyüşdülər, lakin bir çoxu

qaçıb canını qurtardı. Səadət xan isə döyüşməyə davam edərək, qarşı tərəfi ox atəşinə tutmağa başladı. Lakin Xorasan adlı bir döyüşçü onun filini yerə yıxaraq Səadət xanın başının üstünü kəsdirdi. Moğol düşərgəsində Səadət xanın əsir alınması və Dövran xanın öldürülməsi xəbəri böyük məyusluq yaratmış və dərin ümidsizliyə səbəb olmuşdu. Ağır yaralı olan Dövran xan düşərgəyə gətirildi və az sonra dünyasını dəyişdi.

Qazanılan əhəmiyyətli uğurlara baxmayaraq, Nadir moğolların yalnız bir hissəsinə qalib gəlmişdi. Səadət xanın da əsir götürülməsi onun üçün əhəmiyyətli nəticələrdən biri idi. Lakin gərginlik əsla səngiməmişdi və əsas döyüş hələ qarşıda idi. Moğol ordusundakı fillər Nadirin nəzərində artilleriya məşqləri aparmaq üçün çox gözəl hədəf rolunu oynayırdılar. Hər iki ordu odlu silah baxımından kifayət qədər ciddi təchizata malik idi. Lakin moğollarda ciddi bir nizamsızlıq, pərakəndəlik nəzərə çarpırdı. Xüsusilə də ordunun vahid mərkəzdən idarə edilməsi məsələsində böyük problemlər özünü göstərirdi. Hindistan ordusundakı əhval-ruhiyyəyə maddi çətinliklər də mənfi təsir edirdi. Belə ki, moğol əsgərləri silah almaqla yanaşı, həm də atlarını samanla təmin etməli idilər. Moğollardan fərqli olaraq Nadir ordunun rahatlığı və qüsursuz təminatı məsələsində həmişə həddindən artıq diqqətli və həssas davranırdı. Bəziləri haqsız yerə Nadirin bu döyüşdə asanlıqla qələbə çaldığını deyir və məsələni hədsiz şişirdirdilər. Bəziləri Nadirin bu qələbəsinin asanlığını çox şişirtməyə meyilli oldular. 24 fevral axşamında Nadir Səadət xanı yanına çağıraraq ondan Moğol imperatoru ilə danışıqlar aparmağın ən asan yolunu soruşdu. Səadət xan öz növbəsində ona Nizam ül-Mülklə əlaqə yaradıb danışıqlara başlamağı təklif etdi. Nadir bu

təklifə qulaq verib elçi göndərdi. Nizam ül-Mülk bir neçə etibarlı adamı ilə birgə danışıqlar aparmaq üçün Nadirin düşərgəsinə gəlməyi qəbul etdi. Sülh rəmzi olaraq Qurani-Kərimin bir nüsxəsi də Nadirə göndərilmişdi.

Hadisə şahidlərinin məlumatlarından belə aydın olur ki, hər iki tərəf çox mülayim rəftara üstünlük verirdi. Nadir söhbət əsnasında qarşı tərəfdən vəziyyəti hansı səbəbdən bu qədər mürəkkəbləşdirdiyini və onu Hindistana hücum çəkməyə vadar etdiklərini soruşdu. Nizam ül-Mülk onun suallarına cavab verməyə çalışırdı. O bildirdi ki, onların Nadirin tələblərini yerinə yetirmək üçün imkanları olmayıb. Bu zamana kimi susmalarının əsas məqsədi isə o olmuşdur ki, Nadiri öz gözləri ilə görüb, onun ayaqlarına qapansınlar. Nadir gülümsədi və dedi ki, Moğol imperatoru ona çox şey borcludur. İlk əvvəl o, vaxtı ilə Teymurun Dehliyə göndərdiyi bahalı tac müqabilində ödəniş tələb etdi. Daha sonra o bildirdi ki, vaxtı ilə moğollar iranlılara 10000 at və qoşun üçün müraciət etmiş, lakin aldıqları yardımın müqabilində heç bir ödəniş etməmişdilər. Həmçinin Nadir xatırlatdı ki, vaxtı ilə iranlılarla moğollar arasında qarşılıqlı hərbi yardım haqqında saziş əldə edilsə də, iranlıların apardıqları heç bir müharibədə moğollar onlara yardım əlini uzatmayıblar. Əlbəttə ki, Nadirin sadaladığı məsələlər şişirdilmiş, bəzən isə heç tarixi əsası belə olmayan iddialar, bəhanələr idi. Ancaq nə etmək olardı? İndiki halda Nizam ül-Mülk etiraz etmək iqtidarında deyildi. O, Nizam ül-Mülkə dedi ki, Moğol imperatorunu öz düşərgəsinə gətirmək üçün iki adam göndərəcəkdir.

26 fevral günü Məhəmməd şah nəzərdə tutulduğu kimi düşərgəyə gəldi. Nadir onu öz çadırının önündə qarşıladı. Onlar qiymətli xalçanın üstündə əyləşdilər. Qonaqlara qəhvə təqdim olundu. Daha sonra yemək süfrəsi açıldı.

Nadir qonaqları yeməklərin zəhərli olmamasından əmin etmək üçün ilk növbədə özü onlardan daddı. Yemək bitdikdən sonra onlar moğolların Nadirə ödəyəcəyi xəracın miqdarı barədə razılığa gəldilər. Səadət xan Nadiri əmin etmək istəyirdi ki, əgər o, Moğol düşərgəsinə getsə və ona Nizam ül-Mülkün aradan götürülməsində yardım göstərilsə, bu zaman razılaşdırılandan daha çox xəracın alınması mümkün olacaqdır. Zaman keçdikcə Moğol əsgərləri arasında aclıq baş qaldırırdı. Mart ayının 7-də Nadir Məhəmməd sahı yenidən görmək niyyətini dilə gətirdi. Bu səfər Məhəmməd şah qadınları ilə birgə gəldi. O, Nadirə xeyli qiymətli hədiyyələr gətirmişdi. Nadir Məhəmməd şahı dərhal qəbul etmədi və bir müddət çadırın çölündə gözlətdi. Nəzarətçilərə isə onu gözdən qoymamaq tapşırılmışdı. Yəqin ki, bununla Nadir onun artıq əsiri olduğunu nəzakətli bir şəkildə başa salmaq istəyirdi. Nadir o günlərdə ordunun üç aylıq maaşının verilməsini əmr etdi. Moğol döyüşçülərinə isə düşərgələrini tərk edib, evlərinə dönmək icazəsi verildi. Lakin onların çoxu yolda kəndlilər və quldurlar tərəfindən öldürüldü. Moğol ordusu tamamilə dağıldı.

12 martda Nadir Məhəmməd şahla birgə Dehliyə istiqamət götürdü. Onlar martın 18-də Şalimar bağları adlanan əraziyə çatdılar. Təhmasib Xan Cəlair və Səadət xan Dehlinin darvazalarını Nadirin üzünə açmaq üçün öndə gedirdilər. 19 martda Məhəmməd şah şəhəri Nadirin təntənəli girişi üçün hazırlamağa göndərildi. Səadət xan Şalimar bağları ərazisində dayandı ki, Nadir şəhərə daxil olarkən müşayiət etsin. Nadir isə 20 mart 1739-cu il tarixində Dehliyə ayaq basdı.

## VIII FƏSİL

# İRANIN XARABALIQLARI

*Bəlkə də, bizə bağlı olan və bizi qorxulu, dağıdılmış yolla aparan gözəgörünməz bir qüvvə mövcuddur. Yoxsa biz heç vaxt o yolu keçə bilməzdik. Əgər belədirsə, deməli, bu qüvvə bizim vücudumuza nüfuz edib və bizimlə bütünləşib. Əks halda biz ona qulaq asmazdıq, o, bizim içimizdə kök salıb, sirli fəaliyyətini həyata keçirə bilməzdi.*

***Eta Hoffman***

Nadir iki aya yaxın Dehlidə qaldı. Bu müddət ərzində əsir götürülmüş imperator Məhəmməd şah və onun əyanları ilə rəsmi görüşlər keçirdi, oğlu Nəsrullahı Moğol şəhzadəsi ilə evləndirməyə cəhd etdi, bəzi məlumatlara görə, müğənni Nur Bai ilə eşq macərası da yaşadı, getdikcə şiddətlənən ağrılarının müalicəsi üçün ağıllı və təcrübəli təbib Əlvi Xanı öz xidmətinə götürdü. Lakin əsas hadisələr[1] – kütləvi qırğınlar və təxminən 700 milyon rupi dəyərində qızıl, gümüş, qiymətli daş-qaşlardan ibarət qənimətin toplanması, Nadir şah bura gələndən bir gün sonra baş verdi. Həmin sərvətin dəyərini təsəvvür etmək olduqca çətindir. Müqayisə üçün deyək ki: Yeddi İllik Müharibə (1756-1763) Fransa Hökumətinə 1,8 milyard türk lirəsinə başa gəlib. Bura bütün hərbi xərclər – quruda və suda baş verən hərbi əməliyyatlar, eləcə də, Avstriya hö-

[1] Proloqda verilən kimi.

kumətinin ödədiyi təzminatlar daxildir. Həmin məbləğ o dövrün pulu ilə təxminən 90 milyon funt sterlinqə bərabər idi: göstərilən rəqəm Nadirin Dehlidən əldə etdiyi sərvətin dəyərinə yaxın idi[1]. Nadir o zaman Dehlidən təqribən 87,5 milyon funt sterlinq dəyərində qənimət toplamışdı. Bu rəqəmin təsəvvürümüzdə daha aydın canlanması üçün başqa bir müqayisə gətirək: həmin vaxt İngilterədə adi işçinin illik məvacibi 20 funt sterlinqə bərabər idi. Karnal qələbəsi və Dehlinin fəthi Nadiri beynəlxalq siyasətin irimiqyaslı oyunçusuna çevirdi.

Tacirlər baş verənlər haqda məlumatları (Hindistanın fəthi) tezliklə bütün müsəlman dünyasına yaydılar və İranın dominantlığının (Əfşarlar dövlətinin) yeni epoxası başlamış oldu. Avropa şirkətlərinin Hindistandakı nümayəndəlikləri və dini missionerlər öz vətənlərinə təşviş içində məktub göndərərək yatırdıqları kapitalın sonrakı taleyi barədə və İran, onun fəthləri haqda əlavə məlumatlar tələb etdilər. Londonun xəbər qəzetləri bununla bağlı informasiya işləyib hazırladı. Nadir özü bir neçə ay sonra uğurlarının əzəmətini ortaya çıxarmaq üçün Osmanlı səfirinə və Rusiya hakimiyyətinə böyük həcmdə qiymətli daş-qaşlar və fillər göndərdi[2]. Bir neçə ay ərzində Nadir şah haqqında Avropanın aparıcı dillərində kitablar meydana çıxdı və onun adı sadə xalqdan daha çox geniş mütaliəsi olan məlumatlı təbəqəyə tanış idi. Dehlinin fəthi Nadirin uğurlarının ən yüksək zirvəsi oldu. Nadir Dehlidə hər hansısa bir çevriliş olacağı təqdirdə ya şəxsən geri

[1] Fransızların bu məbləğdə, yaxud bir az artıq pulun Amerikadakı İstiqlaliyyət Müharibəsinə dəstək üçün göndərmələri və digər müharibə borclarının acı nəticəsi kimi Fransa İnqilabını törədən böyük iqtisadi böhrana səbəb oldu.

[2] Moğol xəzinəsinin yalnız çox kiçik bir hissəsi Rusiyaya göndərilmişdi, onlardan bəzisi bu gün Sankt-Peterburqdakı Ermitaj muzeyində saxlanılır.

dönərək, ya da oğlanlarından birini göndərərək öz hakimiyyətini bərqərar etmək ehtimalını nəzərə almışdı. Keçmiş Moğol imperiyasının Qərbi Hindistandakı torpaqlarının fəthi, ona hələ Dehlidə olarkən Fars körfəzi bölgəsində hərbi dəniz qüvvələri vasitəsilə öz nüfuzunu genişləndirməyə şərait yaratmışdı. Nadirin növbəti əmri pul islahatı ilə bağlı idi. Onun göstərişinə əsasən həmin ana qədər işlədilən bütün gümüş sikkələr dövriyyədən çıxarıldı və hind rupisini əvəz edəcək yeni gümüş pullar dövriyyəyə buraxıldı. Bu yeniliyin 1739-cu ilin sonuna qədər bütün imperiyanın ərazisində icrasına göstəriş verildi. Bir yandan bu vahid pul sisteminin tətbiqi köhnə hind İran ticarət ənənələrini canlandırdı. Keçmişdə İran ticarətinin əhəmiyyətli bir hissəsi hind tacirlərinin əlində cəmləşmişdi. Beləliklə, yeni pul islahatının həyata keçirilməsi və Avropa müstəmləkəçilərinin ələ keçirdikləri ərazilərin də tutulması Hind-İran imperiyasının gücünü və məğlubedilməzliyini göstərirdi.

Lakin bu təşəbbüsün gələcəyi dumanlı görünürdü. Və onun nə kimi fayda verəcəyini əvvəlcədən demək çətin idi. Nadirin əmri ilə 30000 nəfərin qətlə yetirilməsi çətin ki, İran hakimiyyətinin xeyrinə idi. Bu halda Hindistanda deyil, artıq İranda nələrin baş verəcəyi qabaqcadan məlum idi. Qətliamlardan əvvəl, Nadir sələflərinin əksinə şiddətə son çarə kimi üz tuturdu, daha sonralar isə onun hakimiyyəti dövründə zorakılıqlar bir-birinin ardınca törədilirdi. Xoş xasiyyətli, mülayim Nadirin belə dəhşətli qətliamlara rəvac verməsi əvvəllər ağlasığmaz görünürdü. Dehlidəki qırğın təkcə təəccüb doğurmadı, həm də Nadiri yeni-daha qəddar simada təqdim etdi (Nadirin ümidsiz xəstəliyi onu səbirsiz və əsəbi etmişdi). Əvvəllər heç təsəvvür edilməsi belə mümkün olmayan vəhşiliklər indi adi

hal almış, gündəlik hadisəyə çevrilmiş və hətta təbii qarşılanmağa başlamışdı. Keçmişdə törətdiyi kütləvi siyasi qətllərdən fərqli olaraq Dehlidəki qırğın şəhər üzərindəki hakimiyyətini qoruyub saxlamaq və böyük qənimət əldə etmək üçün lazım idi. Bu hadisədən sonra Nadir şahın şiddətdən istifadəyə münasibəti xeyli adiləşdi. 1739-cu ilin 16 may günündə Nadir Dehlini tərk etdi. Adamları ilə birlikdə Şalimar bağlarında gecələdi və sonuncu qadın əsirlərin qaytarılması haqqında əmrini təsdiqlədi. Mayın 17-də şimala tərəf üz tutdu, onun əsas qayğısı əldə etdiyi qəniməti təhlükəsiz şəraitdə İrana daşımaq idi. Ordu 10 000 dəvəyə və ata yüklənmiş xəzinə aparırdı. Karvanda həmçinin 300 fil də vardı. Böyük miqdarda qızıl, gümüş əridilərək külçələrə yığılmışdı, külçələrin ortasından dəlik açılmış, oradan da ip keçirilmişdi. Bir dəvənin üzərinə iki külçə qoyularaq hər tərəfdən yaxşıca bərkidilmişdi. Burada həm də, ləl-cəvahiratla dolu mücrülər və 1000 yeni kəsilmiş sikkə vardı.

Qızıl dolu yük, daş-qaşlar və digər qənimətlər Hindistan səfərinin əsas məqsədi idi. Əldə edilən sərvət Nadirə İranda 3 il müddətində vergiləri ləğv etməyə imkan verdi, insanların rifah halının yüksəlməsinə və iqtisadiyyatın dirçəlməsinə şərait yaratdı. Eyni zamanda ordunun xərclərinin ödənilməsi, Türküstana və Dağıstana təşkil edilən yürüşlərin maliyyələşdirilməsi mümkün oldu. Osmanlı imperiyası ilə aparılacaq yeni müharibə hazırlıqları üçün tələb edilən vəsait təmin edilmişdi. Lakin əvvəlcə o, xəzinəni vətənə təhlükəsiz şəraitdə gətirməli idi. Qənimətlə yüklənmiş heyvanlar o qədər çox idi ki, onları qoruyub saxlamaq da çətinlik törədirdi. Ölkə daxilində hər kəs bilirdi ki, İran ordusu ilə böyük bir sərvət səyahət edir. Ordu Lahorun yaxınlığında olarkən, kəndlilər və quldurlar ya-

maclardan enir, gecələri, gizlicə karvandan bacardıqları qədər heyvan aparırdılar. Həmin vaxt təqribən 1000-ə yaxın heyvan oğurlanmışdı. Buna cavab olaraq Nadir ətraf kəndləri yandıraraq viran qoydu. Karnal döyüşünün baş verdiyi ərazidən keçərkən şəhər hakiminə 5000 rupi verərək, öz ordusunun keçmiş düşərgəsinin yerində "Fəthabad" adlı yeni kənd salınmasını əmr etdi, yəni "Fəth olunmuş məkan". Bu vəsait yalnız kənd salınmasına ayırılmışdı. Çünki Nadirə yeni qələbələr üçün pul lazım idi. Nadirin gedişindən sonra Dehlidə sağ qalanlar öz gələcək taleləri barədə narahatlıq keçirirdilər. Məhəmməd şah hələ də imperator idi, lakin Moğol dövləti dəhşətli zərbədən əziyyət çəkirdi. Bunu, 1762-ci ildə Britaniyanın Havananı işğal etməsiylə İspaniya İmperiyasına, yaxud da 1942-ci ildə Yaponiyanın Sinqapuru tutması ilə Britaniya hökumətinə dəyən zərərlə müqayisə etmək olar. Lakin:

> Hətta hökm gününün trampeti (musiqi alətidir) haqqında
> İdeya irəli sürmək üçün yetərli olan bu xəfif rüzgar belə,
> Qürur şərabından məst olmuş və özləri ilə fəxr edən insanları
> Dərin arxayınlıq yuxusundan, tənbəllikdən oyada bilmirdi.
> Onların bütün söhbətləri pislik və paxıllıqla dolu idi.

Nüfuz uğrunda gedən mübarizədə digərlərini üstələməyi bacardı. Belə ki, onun iki əsas rəqibi Dövran xan və Səadət xan öldürülmüşdü və o, ordunun keçmiş baş komandanlığını ələ keçirmişdi. Nizam ül-Mülkün yüksəlişi ətrafdakıların müəyyən narazılığına səbəb olsa da, ümumi sükutu pozmadı. Hətta o, Nadir şah tərəfindən mükafatlandırıldı da. Nizam ül-Mülkün Nadir şahla gizli saziş bağladığı da istisna deyil. Bunun doğru olub-olmadığını isə biz heç vaxt bilməyəcəyik. Nizam ül-Mülk xərac toplama

məsələsində də digər əyanlarla müqayisədə daha tədbirli idi. Təsadüfi deyil ki, Nadir Şah Hindistanı tərk edən ərəfədə Məhəmməd şahı Nizam ül-Mülkdən ehtiyatlanmağı tapşırmışdı. Bu xəbərdarlıq ya qara zarafat, ya da ikibaşlı oyun idi.

Nadir getdikdən sonra da Məhəmməd şahın Nizam ül-Mülkə olan mənfi münasibəti keçmişdəki tək dəyişməz qaldı. Oğlanları arasındakı ixtilafları həll etmək üçün Dekana yollanan Nizamın yerini əyanlardan biri tutdu. 80 yaşlı, beli bükülmüş Nizam ömrünün son illərini yaşayırdı. Bu hadisələrdən cəmi bir neçə il sonra o, dünyasını dəyişdi və Böyük imperator Aləmgirin dövrünün sonuncu şahidi də tarixə qovuşmuş oldu. Moğol imperiyasının sonu o qədər də uzaq görünmürdü, çünki onun düşmənlərinin gücü və iradəsi böyük təhlükəyə çevrilmişdi. Əvvəlcə Avadx, Dekkan və Benqal müstəqillik əldə edərək imperiyadan qopdu. Bu azmış kimi 1748-ci ildə əfqanların Dehliyə hücumunu dəf etməkdə aciz olan Məhəmməd şah da vəfat etdi. Üstəlik Nadir şahın ölümündən (1747) sonrakı 10 il ərzində Dehli əfqanlarla maratların amansız mübarizə meydanına çevrildi. Nəhayət, 1761-ci ildə, Panipat döyüşündə əfqanlar maratlar üzərində həlledici qələbə qazanaraq Dehlini ələ keçirdilər.

Nadir ordusunu aramsız istilərdən qorumaq üçün marşrutunun istiqamətini Sirxindən şimala doğru – Himalay dağının yamaclarına tərəf dəyişdi. Bu isə o demək idi ki, Lahor şəhəri Nadirin yolu üstündə idi. Qırğın və dağıntı təhlükəsindən ehtiyatlanan Lahor valisi Nadirə xərac ödəmək məcburiyyətində qaldı. Yol boyunca Nadirin sərkərdələrindən bəzisi havanın yüksək hərarətinə tab gətirməyərək canlarını tapşırdılar. "İstidən qızmış dəbilqələri odlu sobanı xatırladırdı". Çayı adlamaq onlar üçün

ciddi problemə çevrilmişdi, yaranan daşqınlar isə ordunun onsuz da çətin vəziyyətini ikiqat mürəkkəbləşdirdi. Qoşun Çinab çayını keçərkən axının təsirindən körpünün dəmir kəndirləri qırıldı və "qulaqbatıran gurultu ilə" su qayıqlara dolmağa başladı. Körpü ilə irəliləyən əsgərlərin bir hissəsi çaya düşərək boğuldu. Baş verənlərdən sonra qayıqları və salları, canlı qüvvəni, minik heyvanlarını nizama salmaq zərurəti meydana çıxdı. Bu isə çox vaxt tələb edirdi.

Nadir şah adamlarını və onların daşıdıqları yüklərin yoxlanılmasını əmr verdiyi üçün səfərin müddəti bir qədər də uzandı. O, xəbərdarlıq etdi ki, heç kim müəyyənləşdirilmiş miqdardan artıq qənimət mənimsəyə bilməz. Hərbçilərin bəziləri oğurladıqları qənimətləri qaytarmaqdansa onu torpağa basdırmağa və ya çaya atmağa üstünlük verirdilər. Yəqin ki, həmin qənimətin bir hissəsi hələ də tərk edildiyi yerdədir. Nadirin bu əmri ordunu onun ödədiyi məvacibdən asılı vəziyyətdə saxlamağa xidmət edirdi, əks halda xeyli qənimət əldə edən əsgərlərin qoşundan ayrılaraq fərariliyə qurşanması təhlükəsi vardı. Nadirin bu addımı onun uzaqgörənliyi ilə yanaşı, müəyyən qədər də xəsisliyindən qaynaqlanırdı: Çünki o, Dehlidən gətirdiyi xəzinəyə bütünlüklə sahib olmaq istəyirdi. İyulun 14-də taqətdən düşmüş ordusu ilə birlikdə Nadir qərb sahilinə adladı. Bu keçid top atəşi ilə qeyd edildi.

Şiddətli yağışda irəliləyən ordu Yusifzadə qəbiləsinin hücumlarına məruz qalsa da, Celumu keçməyə müvəffəq oldu və Hindistan yürüşünə Rəvalpindi istiqamətində davam etdi. Nadir həmişə orduya yeni qüvvələrin cəlb edilməsinə həssaslıqla yanaşırdı. Ordudakı fillərin saxlanılması ciddi çətinliklərlə müşayiət olunurdu, ona görə ki, bu nəhəng heyvanların qidalanması böyük ərzaq ehtiyatı

tələb edirdi. Qeyd olunan problemi qismən həll etmək üçün Nadir şah fillərin ordunun önündə getməsini əmr etdi, yürüşün gedişində onlardan 75-i Kabul ilə Herat arasında tələf oldu. Hindistanı tərk edən ordu Pişəvərdəki Xeybər keçidinə çatdı. 1739-cu ilin dekabrın 2-də isə Kabula daxil oldu.

Nadir Kabulu öz imperiyasının qərb vilayətlərinin inzibati mərkəzi qismində nəzərdən keçirirdi. Yeni fəth olunmuş ərazilərin nizama salınması və orada idarəçilik sisteminin yaradılması vacib vəzifələrdən biri kimi qarşıya qoyulmuşdu. Nadir Kabulda olarkən böyük əfqan tayfalarının başçıları hörmət əlaməti olaraq onun görüşünə gəldilər. Onlar özləri ilə birlikdə Nadirin hüzuruna 40000 döyüşçü gətirmişdilər. Nadirin Hindistandakı hərbi uğurları əfsanələşdirilmişdi. Əfqan qəbilə başçıları belə hesab edirdilər ki, Nadirlə ittifaq onlara böyük mənfəət gətirəcək. Orduya yeni qoşulan qüvvələrin müşayiəti ilə xəzinə Herata göndərildi, Hindistandan gətirilmiş böyük top da qənimətlər sırasında idi. Herata göndərilən ordunu Nadir əlavə qüvvələrlə gücləndirdi. İxtiyarındakı qoşunun digər hissəsinə isə Türküstan istiqamətində nəzərdə tutulan yürüşə hazırlaşmaq əmrini verdi. Nadirin özü isə azsaylı qüvvə ilə qaldı. Vaxtilə 1738-ci ildə Xeybər keçidi yaxınlığında məğlub etdiyi keçmiş Moğol canişinlərini də Kabul və Peşəvərdəki vəzifələrinə qaytardı. Yalnız Sind valisi Xudayar xan Nadirə tabe olmaqdan boyun qaçırdı. Nadirin Hindistandakı qələbələrinə dair gəzən əfsanələrə baxmayaraq, Xudayar Xan itaət etmək istəmirdi. Sonra məlum oldu ki, Nadir ona məxsus əraziləri ələ keçirərək Məhəmməd şahın ixtiyarına vermişdir. Nadir Hindistanla haqq-hesabını hələ tam çürütməmişdi. Xudayar xan əmin idi ki, Nadirin ordusu qışın oğlan çağında belə asanlıqla

qarlı dağları aşa bilməyəcək. Lakin Nadir şah bu məsələni həll etmək üçün Kabulda 6 gün qaldıqdan sonra yenidən hərəkətə keçdi. Ordu yol boyunca şaxtalı havada, çətin keçilən dağlarda hərəkət etdi, dəfələrlə gur dağ selləri ilə üzləşən qoşun ciddi itkilərə məruz qalaraq, Kurram vadisinə enməyə nail oldu[1].

1740-cı ilin, 5 yanvar tarixində Nadirin ordusu yerli qəbilələrlə lokal toqquşmalardan sonra nisbətən mülayim iqlimli Dera İsmayıl Xan bölgəsinə doğru irəlilədilər. Oradakı yerli feodallar Nadirə öz itaətlərini bildirdilər, ardınca o, Hind çayını keçərək Dərə-Gəz (Dərgəz) Qazi Xan vilayətinə çatdı, lakin hələ də Xudayar Xana edilən çağırışlar cavabsız qalmaqda idi. Nadir öz qoşunu ilə Larkanaya çatdıqda, Xudayar xanın cənuba doğru qaçdığını öyrəndi. Ordunun keçdiyi marşrutun üzərində yerləşən bütün şəhərlərin hakimləri Nadirə tabe olduqlarını bəyan etdilər. Nadir əsas qüvvələri Larkanada, Nəsrullah Mirzənin ixtiyarında qoyaraq, azsaylı seçmə döyüşçüləri ilə, Hind çayının aşağı axını ilə irəliləyərək düşmənin axtarışına başladı. Aparılan axtarışlar əsnasında Xudayar xanın elçisi gözlənilmədən Şahdadpur adlanan ərazidə Nadir şahın hüzuruna gələrək, ona qiymətli hədiyyələr və məktub təqdim etdi. Elçi ilə söhbət zamanı məlum oldu ki, Xudayar xan xeyli uzaqda səhralarla əhatəli, əlçatmaz Umorkot bölgəsində sığınacaq tapıb.

Alınan məlumatdan sonra fevralın 26-da, cəsur Nadirin əmri ilə ordu növbəti yürüşə səfərbər oldu. Onun rəhbərliyi ilə süvari qüvvələri gecənin qaranlığında səhranı aşaraq Umorkota doğru istiqamətləndilər. Həmin ərəfədə

---

[1] 2001-ci ilin sonu və 2002-ci ilin əvvəllərində Əl-Qaidə və Taliban dəstələrinin qalıqları sözügedən Kurram vadisinin ən ucqar təpələrindən enərək, Tora-Bora mağaralarına, Zaver Kili və Şah-e Kot vadilərinə hücum etmişdilər.

Xudayar xan qəsb etdiyi xəzinə ilə qaçıb gizlənməyin yollarını axtarırdı. Hara gedəcəyini düşündüyü zaman qəflətən qarşısında, Nadir şahın toz duman içərisində ona doğru irəliləyən əsgərlərini gördükdə, Xudayar xanı çaşqınlıq bürüdü, hətta həyəcandan dili topuq vurmağa başladı. Nadirin amansız sərkərdələri onu əsir alaraq, qarlı əfqan dağlarından cənubi Sindin isti səhrasına tərəf apardılar. 1000 milə bərabər həmin məsafəni ordu 2 aya qət etdi. Xudayar xan yaxşı anlayırdı ki, Nadir şah heç zaman qarşısına qoyduğu məqsəddən əl çəkmir. Nadirin döyüşçüləri onun qollarını zəncirləyərək, işgəncələrə məruz qoydular və nəticədə gizlədilən sərvətin yerini müəyyənləşdirdilər. Vaxtilə hərc-mərclik zamanı İsfahandan oğurlanmış bu sərvət, sonuncu Səfəvi şahlarından olan Sultan Hüseynə məxsus idi. Nadir şahın Qəndəharı tutmasından az əvvəl bu xəzinə şəhərdən çıxarılmış və Xudayar tərəfindən mənimsənilmişdi. Nadir şah yeni qənimətlərlə və əsir edilmiş Xudayar xanla birlikdə Larkanaya qayıtdı.

Larkanada olarkən Nadir Lahor valisini hüzuruna çağırtdırdı və ona fərariliklə qəti mübarizə aparmağı tapşırdı. Lahor hakimi Nadirin düşərgəsinə öz oğlu ilə gəlmişdi (Nadir onun oğluna böyük rəğbətlə yanaşırdı), onların ikisi də qəbul zamanı özlərini Moğol hakimlərindən daha çox Nadirin vassalı kimi göstərməyə çalışırdılar. Lakin çağırılmış qonaqlardan biri hələ də gəlib çıxmamışdı.

Nadir şah vaxtilə Böyük İsgəndərin quru və su yolu ilə Məkrana və Hind düzənliyinə etdiyi yürüşləri yada salaraq, Hindistanda ələ keçirdiyi yeni torpaqların dəniz vasitəsilə əlçatanlığını yoxlamaq qərarına gəldi. Bu məqsədlə o, Tağı xan Şiraziyə İrandan Hindistana 25 000 nəfərlik hərbi qüvvənin gətirilməsini tapşırdı. Həmin qoşunun bir hissəsi quru, digər hissəsi isə su yolu ilə Şərqə hərəkətə

başladı. Hollandların hədiyyə verdiyi böyük bir gəmi və müsadirə olunmuş başqa gəmilər Fars Körfəzi boyunca irəlilədi. Tağı xan Şirazi İsgəndər olmasa da, eyni çətinliklərlə üzləşdi. Ərzaq və su ehtiyatı tükənən ordu Bəluc tayfaları tərəfindən məğlubiyyətə uğradıldı. Yekunda ağır itkilərə məruz qalan ordu aprelin 16-da Bəndər Abbas limanına geri dönmək məcburiyyətində qaldı. Baş verənlərdən sarsılan Tağı xan Nadir şahdan aldığı məktubla Nadirabada-Qəndahara çağırıldı.

Nə qədər qəribə olsa da, Tağı xanın düçar olduğu məğlubiyyət Nadir şahın əhvalını qətiyyən korlamamışdı. Böyük nüfuz qazanmış Nadirin hakimiyyəti, fəth olunan ərazilərin sakinləri tərəfindən də məmnuniyyətlə qəbul olunurdu. Bir müddət dincələn Nadir təntənəli Novruz şənliklərinin təşkil edilməsinə əmr verdi və həmçinin əməllərindən peşman olduğunu dilə gətirən Xudayar xanı bağışlayaraq öz keçmiş vəzifəsinə bərpa etdi. Həmin təyinat münasibətilə Nadir Xudayar xana yeni ad da qoydu – Şahqulu xan. O, Sind vilayətini üç hissəyə bölərək, Xudayar xana Hind çayının cənub-şərqi deltasının yaxınlığında yerləşən Tatta adlanan ərazinin idarəçiliyini həvalə etdi. İranla həmsərhəd Bəlucistan vilayətinə bitişik olan hissəni və şimal əraziləri Dera İsmail xan adlanan yerdə ona öz itaətini bildirmiş Dautputra qəbiləsinin ixtiyarına verdi. Xudayar xan da öz növbəsində hər il Nadirin büdcəsinə 10 000 rupi həcmində xərac verməli və öz oğlunun rəhbərliyi ilə 2000 nəfərlik hərbi qüvvəni yürüşlər zamanı Nadirin sərəncamına göndərməli idi. Nadir həmişə olduğu kimi indi də məğlubiyyətə uğratdığı düşmənləri ilə mərhəmətlə davranırdı.

Nadir Larkanada olarkən Bəlx hakimi ona çoxlu qovun göndərmişdi. Nadir bu meyvəni çox sevirdi və hərbi

yürüşlərə çıxarkən özü ilə xeyli qovun götürürdü, ümumilikdə Nadir və onun sərkərdələri Herat, Mərv və Bəlx hakimlərindən razı qalmışdılar. Nadirin cins atları bəyəndiyini yaxşı bilən oğlu Rzaqulu xan atasına gözəl ərəb atları bağışladı. Məhəmməd şah da Nadirin hüzuruna qiymətli ənamlar göndərirdi, Nadir də cavab olaraq Dehliyə qovun yüklənmiş 200 dəvə və bir neçə at yollayırdı. Şübhəsiz bu zaman Nadir ən yaxşı atları özünə saxlayırdı, çünki onları Məhəmməd şah kimi səfehə verməyin mənası yox idi.... Yürüşün bütün gərginliyindən sonra yaxşıca dincələn, cənubun isti havasından həzz alan Nadiri yeni həkimi Əlvi xanın nəzarəti altında xəstəliyinin yüngülləşməsi, şirin qovunlar, sevimli oğlu tərəfindən hədiyyə edilən gözəl cins atlar, Umorkotdan ələ keçirilən xəzinə və Hindistanın istilası ilə ətrafda artan nüfuzu sözsüz ki, sevindirməyə bilməzdi.

Aprelin ortalarında "özünü xoşbəxt və Solomon kimi güclü hiss edən" Nadir ixtiyarındakı digər atlar və hədiyyələrlə birlikdə Şahqulu xanı (Xudayarı) yeni statusda evinə yola salıb, Lərkanəni tərk etdi. Nadir Novruz şənlikləri zamanı Tehranda olan Rzaqulu Mirzəyə onu qarşılamaq üçün Herata gəlməsini buyurdu. Nadir Heratı Amu-Dərya hövzəsindəki yürüşlərdən əldə edilən qənimətlərin toplanacağı mərkəz kimi nəzərdən keçirdi. Nəhayət, 1740-cı ildə, mayın 4-də qoşunu ilə birlikdə Nadirabada (Qəndəhara) daxil oldu.

Nadirabada doğru irəliləyərkən Nadir şah Rzaqulu Mirzə tərəfindən keçmiş səfəvi şahı Təhmasibin və onun oğlanları İsmayıl və Abbasın işinin çoxdan bitirildiyinə demək olar ki, əmin idi. Qəndəharda (Nadirabad) Nadir Tağı Xan Şirazi ilə rastlaşdı və onu Məkrandakı biabırçı məğlubiyyətə görə cəzalandırmaq qərarına gəldi. Nadiri

qəzəbləndirən başqa bir məsələ isə oğlu Rzaqulu Mirzənin özünü Şah əvəzi kimi apardığına dair yayılan söz-söhbətlərlə bağlı idi. Tağı xan baş vermiş məlum hadisə ilə bağlı sorğu-suala çəkildi.

Tağı xanla Rzaqulu xan arasındakı soyuq münasibətlər çoxdan məlum idi. Nadirin yoxluğunda onun imperiyasını idarə edən Rzaqulu Mirzənin hökmü bütün İran ərazisində keçərli idi, Tağı xan isə Rzaqulu Mirzəylə ciddi rəqabət aparırdı, və o, Fars körfəzində həmçinin imperiyanın cənub vilayətlərində Nadirdən sonra əsas söz sahibinə çevrilmək iddiası ilə yaşayırdı. Bir-birini həzm etməyən bu iki şəxs arasında mübahisələr adi hal almışdı. Bir dəfə Rzaqulu Mirzə əlinə düşən fürsətdən yararlanaraq Tağı xan Şirazini təhqir etdi. Belə ki, Tağı xan böyük oğlunun əvəzinə kiçik oğlunu Rzaqulu Xanın sarayına göndərdiyi zaman, İsfahan yolunda onun qarşısı kəsildi. Rzaqulu xanın göstərişinə əsasən Tağı xanın oğlu qarət olundu və atdan endirilərək geriyə, Bəndər Abbasa qovuldu. Tağı xan baş verənləri Nadir şaha çatdırdıqda, sonuncu çox məyus oldu.

Rzaqulu xan bununla kifayətlənməmişdi. O, Nadirin təhkim etdiyi məsləhətçiləri əvvəlcə öz yanından qovmuş, daha sonra isə əhəmiyyətsiz məsələlərə dair yaranmış fikir ayrılığına görə onların başlarının kəsilməsinə əmr vermişdir. Üstəlik Rzaqulu xan həmişə birbaşa şahın inhisarında sayılan Xəzəryanı bölgədəki ipək ticarətinə də əl uzatmışdı. Sözügedən sahə o dövr üçün çox gəlirli hesab olunurdu və Rzaqulu xan bu addımı ilə öz maddi mənfəətini güdürdü. Fars körfəzi bölgəsindəki ənənəvi ipək ticarəti Tağı xanın nəzarətində olduğundan Rzaqulu Mirzə üçün əlçatan deyildi. Rzaqulu xan öz vəsaiti ilə 12 000 nəfərlik ayrıca tüfəngçilər alayı təsis edir və xüsusi ola-

raq onlar üçün nəzərdə tutulmuş, qızıldan və gümüşdən bəzəkləri olan geyim forması tikdirir, silahlar sifariş verir. Onu da etiraf etmək lazımdır ki, heç nəyə baxmayaraq, Nadirin Hindistanda olduğu dövrdə Rzaqulu Mirzə tərəfindən idarə olunan ölkədə sülh və əmin-amanlıq hökm sürürdü. Rzaqulu xanla Tağı xan arasındakı gərginliyin əsl səbəbi ikincinin əhalidən müxtəlif adlar altında rüşvət topladığına dair yayılan xəbərlər və rəiyyətə qarşı zülmkar davranışı idi. Baş verənlərlə Rzaqulu xan qətiyyən barışmaq niyyətində deyildi. Bütün məziyyətlərinə baxmayaraq, Rzaqulu xan atasının yoxluğunda ciddi siyasi xətaya da yol verdi. Məsələ burasındadır ki, 1739-cu ildə Nadir Hindistan yürüşündə olduğu zaman onun dünyasını dəyişdiyinə dair xəbərlər yayılır və Rzaqulu xan yaranmış boşluqdan istifadə edərək, bir vaxtlar atasının etdiyi kimi Muğan düzündə özünü şah elan etdi. O, qurultay keçirərək, yeni əmrlərini xalqa çatdırdı. Öz hakimiyyətinin gücünü nümayiş etdirmək üçün yeni pul vahidinin, dövlət möhürünün hazırlanmasını əmr etdi.

Bu hadisələr ərəfəsində Səbzəvarda saxlanılan keçmiş Səfəvi şahı Təhmasib və onun oğlanlarının gözətçisi Məhəmməd Hüseyn xan Qacar[1], Məşhədə gələrək Rzaqulu xanı bu şəxsləri öldürməyə təhrik edir. O, Rzaqulu Mirzəni inandırmağa çalışırdı ki, Nadirin ölüm xəbəri təsdiqlənəcəyi halda, Səbzəvarın əhalisi ayağa qalxaraq, Təhmasibi yenidən taxta çıxarmağa və Səfəvilər sülaləsini bərpa etməyə çalışacaq. Doğrudur, Rzaqulu Mirzə atasının Hindistandakı uğurlarından tam təfsilatı ilə xəbərdar idi, lakin 1739-cu ilin yaz, payız aylarında Nadirin

[1] O, 1726-cı ilin sonunda Fətəli Xan Qacarın ölümündən sonra Təhmasibin ordusuna tabe olan Qacarlar qəbiləsinin başçısı, həmin Məhəmməd Hüseyn Xan idi.

Pəncab yaxınlığında apardığı hərbi əməliyyatlar zamanı rabitənin müvəqqəti kəsilməsi belə bir vəziyyətin yaranmasına gətirib çıxarmışdı. Bir mühüm məqamı da unutmaq olmaz ki, Rzaqulu xanın ətrafındakı əyanlar da vəziyyətin gərginləşməsində "böyük pay sahibi" idilər. Onlar Rzaqulu Mirzəni Təhmasibin və övladlarının öldürülməsinə təhrik edir və vəliəhdi hətta Nadirin sağ-salamat geri qayıdacağı təqdirdə belə bu addımın vacibliyinə inandırmaq üçün dəridən-qabıqdan çıxırdılar. Artıq özünü tamhüquqlu şah qismində görən Rzaqulu Mirzə müəyyən tərəddüdlərə baxmayaraq, Səfəvi xanədanının sonuncu nümayəndələrinin də qətlinə fərman verdi. Əmri icra etmək üçün Məhəmməd Hüseyn Xan Qacar Səbzəvara geri qayıtdı. Məhəmməd Hüseyn xan Qacar Təhmasibi hərəmxanada haqladı, lakin sonuncu özünə qarşı təhlükə hiss edərək buranı tərk etməkdən boyun qaçırdı. Hərəmxanadakı qadınlardan biri həyəcanlı şəkildə və gözüyaşlı Təhmasibi qorumağa çalışdı. Hərəmxanada qalxan səs-küyə və qadınların fəryadına baxmayaraq, Məhəmməd Hüseyn Qacar çölə çıxmaq təklifini rədd edən Təhmasibi qətlə yetirmək üçün hərəmxanaya daxil oldu və keçmiş Səfəvi hökmdarını kəndirlə boğdu.

Çox keçməmiş Təhmasibin 9 yaşlı oğlu Abbas da qılınc zərbəsi ilə öldürüldü. Qatillərdən qaçıb canını qurtarmağa çalışan Təhmasibin kiçik oğlu İsmayıl isə gizlənmək üçün özünü quyuya atdı, lakin tapılıb çıxarıldıqdan sonra fəryad qopararaq atasının və qardaşının taleyi ilə maraqlandı. Onların qanlarına qəltan edilmiş cəsədlərini gördükdə isə azyaşlının ah-naləsi göyə qalxdı. Hərəmxanadakıların yalvarışlarına baxmayaraq Məhəmməd Hüseyn xan kiçik İsmayıla da rəhm etmədi, sonuncu Səfəvi varisinin də başı kəsildi. Tarixçilər arasında bu ha-

disələrin dəqiq başvermə vaxtı ilə bağlı müəyyən fikir ayrılıqları var, lakin hadisələrin ardıcıl təhlili belə deməyə əsas verir ki, sadalanan qətllər Rzaqulu xanın Nadirin Karnaldakı parlaq qələbəsinə dair xəbəri almasından əvvəl baş verib. Bu, təxminən 1739-cu ilin, may-iyun aylarına təsadüf edir.

Rzaqulu xanın xanımı Fatimə Bəyim qətlə yetirilmiş Təhmasibin bacısı idi və o hələ qardaşının və qardaşı övladlarının başına gətirilmiş müsibətdən xəbər tutmamışdı. Mənbələrdən birinin verdiyi məlumata görə Fatimə Bəyim bu hadisəni Nadirin Karnal qələbəsinin şərəfinə təşkil edilmiş ziyafətdə, bir vaxtlar onun xidmətində olmuş yaşlı bir qulluqçu qadından öyrənir. Aldığı xəbərdən sarsılan Fatimə Bəyim özünə qəsd edir.

Nadir Hindistanda olanda oğlunun davranışları ilə bağlı narahatedici və həyəcanlı xəbərlər almışdı. Doğrudur, bu xəbərlərin içində həqiqətlə yanaşı, çoxlu şaiyələr və mübaliğələr də vardı. Lakin heç bir halda dəhşətli qətllərə bəraət qazandırmaq mümkün deyildi. İyunun 5-də Nadir Nadirabaddan Herata yollandı. Burada şahın şərəfinə Hindistandan qənimət kimi gətirilmiş qiymətli daş-qaşlarla, mirvarilərlə işlənən böyük bir çadır quruldu. Çadırın içində xəzinə, həmçinin tovuzquşu əks olunmuş taxt vardı. Hindistandan qayıtdıqdan sonra Nadir şah Məhəmməd şahın xəzinəsindən qəsb etdiyi ləl-cəvahiratdan istifadə etməklə qiymətli qılıncların, qalxanların, silahların yerləşdirilməsi üçün qabların və yəhər-yaraq dəstlərinin hazırlanmasını əmr etmişdi. Bütün bunlar şaha nümayiş etdirilmək üçün həmin çadırda toplanmışdı. Sadə xalqın və səyahətçilərin də çadıra yaxınlaşaraq içəridəkilərə tamaşa etməsinə icazə verilmişdi. Bir neçə gündən sonra Nadiri salamlamaq üçün üçüncü oğlu İmamqulu, nəvəsi

Şahrux və qardaşı oğlu Əliqulu Herata gəldi, lakin Rzaquludan heç bir səs-səda yox idi.

Nadir onun görüşünə gələn gənc şahzadələri sevinclə qarşıladı, onlara qiymətli daşlarla bəzədilmiş kəmərlər və qolbaqlar hədiyyə etdi. Əliqulu xan da Rzaqulu Mirzə kimi gənc idi. 1736-cı ilin sonu, 1737-ci ilin əvvəlində Nadir Əliqulu xanı gürcü şahzadəsi Kezevan adlı xanımla evləndirmiş və Məşhədin idarəçiliyini bir müddət onun öhdəsinə buraxmışdı. Qardaşı İbrahimin vəfatından sonra Nadir onun oğlu Əliquluya xüsusi nəvazişlə yanaşırdı. Nadir Əliqulunu doğma övladlarından ayırmırdı. Onu daim hərbi və inzibati idarəetmə məsələlərinə yaxından cəlb edirdi. Lakin Əliqulu idarəçilik işlərinə qətiyyən həvəsli deyildi. Məşhəddə olduğu dövrdə ona tapşırılan dövlət məsələləri ilə məşğul olmaqdansa, vaxtını eyş-işrət məclislərində keçirməyi daha üstün tuturdu. Nadir Əliquluya söz vermişdi ki, ilk fürsətdəcə Dağıstana yürüş edərək, qardaşı İbrahimin qisasını alacaq. Heratdakı görüşdən sonra Nadir Əliqulunu yanında saxladı, Nəsrullahı və digər şahzadələri isə geriyə – Məşhədə yola saldı. Nadir Heratı tərk etməyə hazırlaşsa da, yenə də Rzaqulu xandan xəbər ala bilmədi.

Həmin günlərdə Nadir bəzi mühüm məsələlər haqqında daha dərindən düşünməyə başladı, onu narahat edən başlıca məqam isə oğlu Rzaqulu xanın şah taxtına olan iddialarını açıq-aşkar büruzə verməsi idi. Nadirin yoxluğunda bu məsələ ilə bağlı dedi-qodular gizlində pıçıltı ilə danışılırdı, lakin Nadirin bir dəfə oğlunun davranışından hamının içində narazılıq etməsi Tağı xan və digər əyanların Rzaqulu Mirzəni xəyanətdə açıq şəkildə ittiham etməsinə şərait yaratdı. Bu danışıqlar və ittihamlar Nadirin şübhələrini bir qədər də artırdı. Rzaqulu xa-

nın Türküstana yürüşü, Nadirin oğluna qəzəbləndiyinə dair dedi-qodular, Səfəvi nəslinin nümayəndələrinin qətli, ən sonda digər şahzadələrdən fərqli olaraq Rzaqulu xanın atasının görüşünə gəlməməsi vəziyyəti daha da mürəkkəbləşdirmişdi. 1740-cı ilin iyunun 20-də ordusu ilə birlikdə Nadir Heratı tərk etdi. 5 günlük yol qət etdikdən sonra Nadir Heratdan 60 mil şimalda dayanaraq yeni çadır qurdurdu, bu zaman uzun intizardan sonra Rzaqulu xan nəhayət ki, atasının düşərgəsində peyda oldu. Lakin Rzaqulu xan ehtiyatsızlıq edərək, atasının görüşünə 12 000 nəfərlik tüfəngçilər dəstəsinin müşayiəti ilə, şeypur sədaları altında daxil oldu. Oğlunun pişvazına çıxan Nadir onun hərəkətlərini təmkinlə seyr edirdi. Düzdür, Nadir oğlu üçün kütləyə hesablanmış qarşılanma mərasimi təşkil etdi, lakin gördükləri onun oğlunun gələcək planlarına dair şübhələrini bir qədər də yəqinləşdirdi. Nadir şah təmtərağa və riyakarlığa nifrət edirdi, çünki bütün bunlar ona İsfahanı, Şah Sultan Hüseyni və Təhmasibi xatırlatdı.

Tüfəngçilər alayını gözdən keçirən Nadir onun kiçik qruplara bölünərək öz ordusunun tabeliyinə verilməsini əmr etdi. Nadir şah oğlu Rzaqulunun ordusunu əlindən aldıqdan sonra onu davranışı səbəbilə sorğu-suala çəkdi. O, oğluna orduda və hakimiyyətdə ikitirəliyin qeyri-mümkünlüyünü başa salmağa çalışdı və parçalanmanın xalq tərəfindən birmənalı qarşılanmayacağına dair xəbərdarlıq etdi. Nadir oğluna təmtərağı və dəbdəbəni yaraşdırmadığını bildirdi, həmçinin ona insanların tənqidinə tuş gəlməyəcək şəkildə davranmağa çağırdı. Söhbət əsnasında hiddətlənmiş Nadir oğlunu keçmiş səfəvi şahı Təhmasibin qətlinə görə möhkəm tənbeh etdi. Cəza tədbiri kimi isə Məşhədin idarəçiliyi Rzaquludan alınaraq digər şahzadə Nəsrullah mirzəyə tapşırıldı. Baş verənlər tə-

biətcə tərs və inadkar olan Rzaqulu xana zərbə oldu, buna baxmayaraq, Nadir Türküstana təşkil etdiyi yürüşdə Rzaqulunun da iştirakına icazə verir.

3 gündən sonra, iyulun sonunda Nadir Bəlx yaxınlığında yerləşən Andxoy vilayətinə doğru istiqamət götürdü. Yürüş ərəfəsində həmin əraziyə göndərilən hind ustalarına ordu üçün xüsusi qayıqlar düzəltmək əmr olunmuşdu. Amudərya çayı yaxınlığındakı bərədə işə başlayan sənətkarlar Nadirin gəlişinə qədər artıq 1000-ə yaxın qayıq hazırlamışdılar. Avqustun 10-da Nadirin əmrinə əsasən Kilif çayının yaxınlığında qaravul dəstəsi yerləşdirildi, qayıqlar ərzaq ehtiyatı, silah və toplarla yükləndi. Qoşun Kerki çayının axını istiqamətində irəliləyirdi. Nadirin əmri ilə Carcouya doğru hərəkət edən 8000-lik əsas ordunun başında Rzaqulu xan dayanırdı, Əliqulu xan isə eyni çayın şimal sahili boyunca hərəkət edirdi. Bununla da Nadir sanki iki əmioğlu arasında düşmən tərəfin həmləsini dəf etmək üçün yarış təşkil etmişdi. Nadir Rzaqulunu başa salmaq istəyirdi ki, həyatda hər şey əziyyətlə, mübarizə ilə qazanılmalıdır. Ordunun əsas zərbə qüvvəsi Carcouya yaxınlaşanda, Nadirin 12 000-lik güclü və təcrübəli tüfəngçilər bölüyü, şimal sahili ilə irəliləyən ordu ilə birləşdi. Nadirin döyüşlərdə "bişmiş" mühəndisləri adətlərinə uyğun olaraq, düşmən ərazisinə keçmək üçün, hər iki tərəfdən qülləlləri olan körpü düzəltdilər. Hərəmlər və xidmətçilər də daxil olmaqla ordunun qalan hissəsi Nadirin rəhbərliyi ilə yoluna davam etdi.

Nadirin hücumundan xəbər tutan Buxara əmiri Əbülfəz müharibənin qarşısını almaq üçün öz vəzirini şahın hüzuruna göndərdi. Vəziri hörmətlə dinləyən Nadir bildirdi ki, əgər Buxara hökmdarı həqiqətən sülh istəyirsə, hüzura şəxsən özü gəlməlidir. Buxara hakimi Əbülfəz

Nadirin bu təklifinə razılıq versə də, onun özbək əyanları buna qəti etirazlarını bildirdilər. Onlar bu hadisələrdən 3 il bundan əvvəl Rzaqulu xanla Buxara yaxınlığında döyüşdə düçar olduqları məğlubiyyətin əvəzini çıxmaq üçün fürsət axtarırdılar. Bu məqsədlə onlar gələcək addımlarına dair məsləhətləşmələr apardılar. Belə qərara alındı ki, Əbülfəz xan öz qoşunu ilə Buxaranın cənub qərbində yerləşən Qarakolda mövqe tutmuş Nadir ordusunun mövqelərinə həmlə etsin. Lakin Əbülfəz xan təşviş və qorxu içində idi. Böyük ehtimalla onlar Nadirin ordusuna qəfil zərbə endirmək niyyətində idilər. Sentyabrın 10-da baş verən ilk toqquşmada Nadirin əmri ilə toplardan və zamburaklardan (XVIII-XIX əsrlərdə əsasən müsəlman ölkələrində dəvənin üzərinə quraşdırılan artilleriya vasitəsi) açılan intensiv artilleriya atəşi özbək ordusunu pərən-pərən salmaq üçün kifayət etdi. Cəmi iki gündən sonra Əbülfəz xan nüfuzlu əyanları ilə birlikdə Nadirin düşərgəsinə gələrək təslim oldu.

Nadir şah Əbülfəz xanın illik xərac müqabilində Buxaradakı hakimiyyətini qoruyub saxlamasına razılıq verdi. Daha sonra Nadir Buxara məscidlərinin birində xütbə oxutdu, öz adına pul kəsdirdi və əsgərlərinə qarətlə məşğul olmağı qadağan etdi. O, 1000-ə yaxın özbəyi öz xidmətinə qəbul edərək, Xorasana göndərdi. Əvvəlcə Nadir Əbülfəzin hakimiyyəti altında olan torpaqları Amurdəryanın cənubundakı əraziyə birləşdirdi, ancaq sonradan bu fikrindən daşınaraq oktyabrın 6-da geri döndü, Əbülfəzi yenidən şah elan edərək, dövlət möhürünü ona qaytardı. Eyni zamanda Nadirin Səmərqəndə göndərdiyi adamlar Teymurun məqbərəsinin yanında qiymətli yəşim (nifrit) daşından hazırlanmış lövhəni Məşhədə gətirdilər, daşı hissələrə ayırdılar.

Həmin ərəfədə Nadirin səhhəti yenidən pisləşməyə başladı, ağrıları kəskinləşdiyi zaman Nadir əsəbi olurdu, bədbin əhval-ruhiyyə onu tərk etmirdi. Şahın hind həkimi Ələvi Xan xəstəliyin ağrılarını səngidir və Nadirə pəhriz saxlamağı tövsiyə edirdi. Təbib həmçinin Nadirə şərabdan uzaq durmağı da təkidlə məsləhət görürdü. Nadir həkimin tövsiyələrini məsuliyyətlə yerinə yetirən üzüyola bir xəstə deyildi. O, tez-tez tərs davranışları ilə Ələvi Xanı özündən çıxarırdı. Bəzən elə olurdu ki, əsəblərini cilovlaya bilməyən Ələvi Xan Nadirə qəzəblə cavab verir və başqa həkimlərə müraciət etməsini istəyirdi. Nadir həkimin bu səmimiyyətinə hörmətlə yanaşırdı. Ələvi Xan Nadiri cilovlamağı bacaran azsaylı isanlardan idi. Mürəkkəb təbiətli ata və ipə-sapa yatmayan, çılğın oğul, bir sözlə, saraydakı ab-hava olduqca gərgin idi.

Türküstanın fəthi Nadirin nəzərində olduqca böyük rəmzi məna kəsb edirdi. Belə ki, o, vaxtilə oğlu Nəsrullahı Əmir Teymurun nəslindən olan xanımla evləndirdiyi kimi, indi də nigah diplomatiyasına əl ataraq öz soyuna Çingiz xanın qanını qatmaq istəyirdi. Belə qərara gəlinir ki, itaət etməkdən başqa çarəsi qalmamış Əbülfəzin böyük qızı Rzaqulu xanla, kiçik qızı isə Əliqulu xanla izdivaca daxil olsun. Lakin Rzaqulu Mirzə Əbülfəz xanın kiçik qızını bəyənərək, onun daha gözəl və ağıllı olduğunu bildirir, atasından, məhz onunla evləndirilməsini istəyir. Nadir belə bir hərəkətin Əbülfəz xan üçün təhqir olacağını əsas gətirərək, Rzaqulunun istəyini rədd edir. Onsuz da Rzaqulu xan əmisioğlu Əliqulu ilə tərəzinin eyni gözünə qoyulmasından məmnun deyildi. İstəyinin qəbul edilməyəcəyi təqdirdə isə o, ümumiyyətlə, evlənməyəcəyini bəyan etdi. Eşitdiklərindən qəzəblənən Nadir, vəziyyətdən çıxış yolu kimi Əbülfəz xanın böyük qızı ilə özü nigaha daxil oldu.

Kiçik qız isə razılaşdırıldığı kimi Əliqulu Mirzəyə ərə verildi. Bu hadisə ata ilə oğul arasında artan xətlə gərginləşən münasibətləri dalana dirəmiş oldu.

Nadir Buxaradan Xarəzm hakimi İlbarsa məktub göndərdi. Məktubda İlbarsın tabe olması və Nadirin hüzuruna gəlməsi tələb edilirdi. İlbars məktubu gətirən elçiləri amansızlıqla öldürtdürdü. Göndərdiyi səfirlərin qətli xəbərindən hiddətlənən Nadir Xivəyə yürüş əmri verdi. Carcou Nadirə bir anlıq uşaqlıq illərini xatırlatdı. Onun yaddaşında Xorasanda keçirdiyi günlər, türkmən köçərilərinin mütəmadi basqınları və çəkdiyi əzab-əziyyətlər yenidən canlandı. Yolda olarkən Nadir məlumat aldı ki, İlbarsın göstərişi ilə türkmənlərdən və özbəklərdən ibarət ordu onun Amurdərya üzərində qurdurduğu körpünü dağıtmaq üçün hərəkətə keçib. Nadir süvari qoşununun bir hissəsi ilə, gecə ikən körpüyə doğru istiqamətləndi. Sübh tezdən körpünün olduğu əraziyə çatan Nadir qısa zamanda ordusunu döyüş nizamına saldı və çayın sahilindən bir qədər aralıda mövqe tutdu. Bir gün sonra Nadirin kəşfiyyatçıları uzaqda qaraltı müşahidə etdilər və düşmənin yaxınlaşdığına dair şahı məlumatlandırdılar. Nadirin qoşunları çevik hərəkətlə və böyük cəsarət hissi ilə düşmən üzərinə hücuma keçdilər. Şah süvarilərinin nizələrlə məharətli döyüşü qısa zamanda türkmənlərin ordusunda çaxnaşma yaratdı, onların döyüş nizamı pozuldu və düşmən qaçmağa üz tutdu.

Qazanılan qələbədən sonra Nadir bir neçə gün daha burada qaldı və qısamüddətli istirahətdən sonra ordunun əsas hissəsi də özünü yetirdi. Nadir şah istirahətdə olarkən oğlu Rzaqulu xan ondan Məşhədə qayıtması üçün icazə istədi. Nadirin salnaməçiləri yazırlar ki, Nəsrullahdan fərqli olaraq Rzaqulu həmişə atasının yanında sıxılır, özünü

narahat hiss edirdi. Öz növbəsində Nadir də onu bezdirən oğlundan yaxa qurtarmaq üçün Rzaqulunun xahişini müsbət qarşıladı. Bu günlərdə Fars vilayətinin hakimi taxtında öz mövqeyini möhkəmləndirən Tağı xan Şirazi də İrana geri qayıtdı. Həmin ərəfədə Tağı xan həqiqətən də çətin vəziyyətə düşmüşdü. Onu şahın qəzəbindən lehinə işləyən yeganə amil ədavətdə olduğu Rzaqulunun atasının gözündən düşməsi idi. Tağı xan özünü şahın sevimlisi və ən yaxın məsləhətçisi hesab edirdi. Ətrafdakıların da Tağı xan Şirazidən xüsusi bir narazılığı yox idi. Çox keçməmiş Nadirin sevimli qardaşıoğlu Əliqulu da Məşhədə gəldi. Onun bu gəlişini Rzaqulu özü üçün təhqir kimi qəbul etdi və bunun nəticəsində onlar arasındakı sərin münasibətlər bir qədər də soyudu.

Oktyabrın 19-dan etibarən ordu topları və digər silah-sursatı qayıqlara yükləyərək, Carcounu tərk etdi. Amudəryanın aşağı axınına doğru enən ordu qum fırtınasına düşdü, qalxan toz-dumanda qoşun görünməz oldu. Əsgərlər bir-birləri ilə yalnız səslə ünsiyyəti təmin edirdilər. Qum fırtınasından bir çoxunun gözü zərər çəkdi. Belə bir şəraitdə Nadir mümkün pusqulara və qəfil həmlələrə qarşı qabaqlayıcı tədbirlər görməyi də unutmadı. Belə ki, o, ordunu 4 hissəyə bölərək, onları müvafiq olaraq öndə, sağ və sol cinahlarda yerləşdirdi, yerdə qalan hissəni isə karvanın və yüklərin qorunması üçün ayırdı. Əsgərlərə heç bir halda cərgəni pozmamağa dair göstəriş də verilmişdi, əks halda onları ağır cəza gözləyirdi. Nadir isə öz növbəsində sütun kimi qoşunun başında hərəkət edirdi. Ordu istənilən həmləni dəf edə biləcək vəziyyətdə idi. Türkmənlər bir neçə hücum cəhdi həyata keçirsələr də, hər dəfə Nadir ordusunun qətiyyəti qarşısında geri çəkilməli olurdular.

Xarəzm vilayətinin sərhəddində yerləşən Dəvə Boyun adlanan əraziyə çatdıqda Nadir ordunun ərzaq ehtiyatlarının və yükünün saxlanacağı anbarın tikintisinə göstəriş verir. Nadir şah İlbarsın onunla açıq döyüşdən yayındığını bilir, ona görə də həlledici həmlənin vaxtını gecikdirirdi. Bu ərazidə yaşayan türkmən tayfaları ilə lokal toqquşmalar müşahidə edilsə də, irimiqyaslı hərbi əməliyyatlardan danışmaq mümkün deyildi. İlbars Hazaraspdakı möhkəmləndirilmiş qalada müdafiə mövqeyi qurmuşdu. Qala Nadirin ordusu tərəfindən hər tərəfdən mühasirəyə alındı və toplar da daxil olmaqla bütün döyüş vasitələri hazır vəziyyətə gətirilmişdi. Nadir döyüş meydanına noyabrın 6-sı gəldi. O, başa düşürdü ki, İlbars təslim olmaq niyyətində deyil. Ona görə də hücum əməliyyatlarına ara verərək, hiyləyə əl atırdı. Nadir öyrənmişdi ki, İlbarsın xəzinəsi və ailə üzvləri Xarəzmdəki yaxşı möhkəmləndirilmiş 5 qaladan birində, Xangah qəsrindədir. Nadir İlbarsı qaladan çıxarmağa məcbur etmək üçün adıçəkilən qəsrə doğru irəliləməyə başladı.

Nadirin bu taktiki gedişi özünü doğrultdu. Xangaha çatmağa az qalmış İlbarsın da qaladan çıxıb buraya istiqamət götürdüyü xəbər verildi. Yomut və təkkə türkmənləri Nadirin ordusuna hücum edərək, onları geri oturtmağa cəhd göstərdilər. Lakin çevik tərpənən Nadir onları qabaqlayaraq düşmənin üzərinə güllə atəşi yağdırdı. Döyüşdə türkmənlər böyük tələfata uğradılar, xeyli sayda döyüşçü isə Nadirə əsir düşdü. Qalaya həmlədən çəkinən İlbars özbəklərdən və türkmənlərdən ibarət ordusunu cəmləyərək, ixtiyarındakı odlu silahları döyüş vəziyyətinə gətirdi. Artilleriya silahlarının içində 1716-cı ildə ruslardan qənimət kimi ələ keçirilmiş toplar da vardı. Ancaq həlledici döyüşdə İlbars ordusu ağır məğlubiyyətə

düçar oldu. Bu uğursuzluqdan sonra İlbars Xangahdakı qalaya sığındı. Qala tamamilə mühasirəyə alındı. Nadir istehkamçılarına qalanın ətrafına çox sayda partlayıcı vasitə döşədilməsinə əmr verdi.

Noyabrın 14-də Nadirin hücumu ərəfəsində qaladakı özbək qarnizonun əksər hissəsi təslimolma bayrağını qaldırdılar. Ertəsi gün İlbars da silahı yerə qoydu. Şah təslim olmuş İlbarsın həyatını bağışlamaq istəsə də, döyüş meydanında öldürülən əsgərlərin yaxınları və silahdaşları Nadirin bu təşəbbüsünə qəti etiraz etdilər. Öldürüləcəyindən qorxan İlbars məsuliyyəti öz üzərindən ataraq, törədilən qətllərdə, guya ondan xəbərsiz hərəkət etmiş sərkərdələrini günahlandırdı. İlbarsın döyüşçüyə yaraşmayan qorxaq davranışından qəzəblənən Nadir ona aşağıdakı sözlərlə xitab etdi: "Əgər sən öz tabeliyindəki bir neçə nəfəri belə idarə edə bilmirsənsə, heç yaşamağa da layiq deyilsən". Nadir şah İlbarsla birlikdə onun 30-a yaxın nüfuzlu əyanının, sərkərdə və döyüşçüsünün boğazlarının kəsilərək öldürülməsinə əmr verdi.

İlbarsın ölümündən sonra Xarəzmdəki digər böyük qalalar da müqavimətdən əl çəkdilər. Yalnız Xivə Nadirlə mübarizəni davam etdirməkdə israrlı idi. Bu şəhərdə həm də türkmənlər tərəfindən qaçırılmış, məcburi şəkildə əkin-biçin işlərində istifadə edilən xeyli sayda iranlı əsir də var idi. Xivəlilər möhkəm qala divarlarının onları Nadirdən qoruyacağını düşünürdülər. Şahın ordusu sürətlə şəhərə doğru irəlilədi və qısa zamanda qalanı mühasirəyə aldı. Cəmi 4 gün ərzində Nadirin əsgərləri qala ətrafındakı böyük gölməçələri qurudaraq, yerində xəndəklər və qalaya lağım atmaq üçün dəliklər qazdılar. Artıq noyabrın 25-də ordu hücuma hazır vəziyyətə gətirildi. Xivəlilər müqavi-

mətin mənasızlığını və böyük fəlakətlə nəticələnə biləcəyini başa düşüb təslim olmaq qərarına gəldilər.

Nadir Xivə və onun ətrafında, Xorasanın şimalından olan, şaha böyük rəğbət bəsləyən xeyli sayda iranlı əsirlə qarşılaşdı. Nadir onlara atlar bağışladı, pul və digər hədiyyələr verdi. Eyni zamanda Əbivərdın cənubunda yerləşən ərazidə iranlı əsrlər üçün "Xivəabad" adlı şəhərciyin salınmasına da əmr verildi. Xivə əsirlərinin arasında 1716-cı ildə Böyük Pyotrun Xarəzmə yürüşü zamanı tutulan ruslar da vardı. Nadir onlara öz vətənlərinə qayıtmaları üçün müvafiq miqdarda pul ayırdı və əsirlər nəhayət ki, Rusiyaya geri döndülər. 4000-ə yaxın özbək isə Nadirin xidmətinə qəbul olundu. Əbülfəzin qohumu olan Tahir xan Xarəzmin valisi təyin edildi. Xivədə ələ keçirilmiş əcnəbilər arasında Tomson və Hoqq soyadlı iki ingilis tacir də var idi. Şahın əmri ilə onlara bu torpaqlarda ticarətlə məşğul olmaq üçün xüsusi icazə sənədi verildi. Hər hansı çətinliklə rastlaşacaqları təqdirdə ingilis tacirlərə birbaşa Nadirə müraciət etmələri tapşırıldı. Nadir ordunun saxlanması üçün həmişə xəsis tacirlərdən müəyyən miqdarda pul qopartmasına baxmayaraq, onlar Nadirə rəğbətlə yanaşırdılar. Şah Hindistan yürüşündən qayıdandan sonra ticarət əhlini ciddi şəkildə himayəsinə götürmüşdü. Tacir karvanlarının təhlükəsizliyinin təmin edilməsinə böyük diqqət yetirilirdi. Tacirlərin karvanlarını qarət edən soyğunçuların cəzalandırılmasına dair, həmçinin, ticarətə əngəllər törədən məmuların tənbehi haqqında şaha ünvanlanan bir çox şikayət ərizələrinə ciddi yanaşılırdı.

Baş vermiş bir hadisə Nadirin ticarət yollarının təhlükəsizliyi istiqamətində atdığı addımların ona nə qədər böyük etibar qazandırdığını əyani şəkildə sübut etdi. Belə ki, Kabuldan Nişapura gələn bir tacirin yolda quldurlar tə-

rəfindən qarət olunduğu haqda xəbər şaha çatdı. Hadisə ilə bağlı taciri sorğu-sual edən Nadir ondan qarət zamanı ətrafda hər hansı şahidlərin olub-olmadığını soruşdu. Tacir cavabında orada kimsənin olmadığını bildirdi. Hökmdar tacirə ünvanladığı ikinci sualında həmin ərazidə ağacların, daşların, kolların varlığı ilə maraqlandı. Tacir şaha orada böyük bir ağacın olduğunu bildirdi və məhz onun kölgəsində istirahət etdiyi zaman soyulduğunu dedi. Nadir etibarlı adamlarından ikisini hadisənin baş verdiyi əraziyə göndəri və onlara tapşırdı ki, oğrular tapılana, yaxud talan edilmiş əmlak qaytarılana qədər hər səhər ağacı qamçılasınlar. Altında bir həftə əvvəl oğurlanmış qənimətlər gizlədilən ağac bu zərbələrdən ciddi bir zərər görmədi. Tezliklə oğrular tapıldı və Nadirin adamları tərəfindən təzyiqlərə məruz qaldıqdan sonra mənimsədikləri sərvəti geri qaytardılar. Oğurlanmış malların tapılması xəbərini Nadir gülüşlə qarşıladı: "Mən qamçılanan ağacın nə hasil edəcəyini bilirdim". Baş verən hadisədən sonra Nadir əyalət hakimlərinə karvan yollarının təhlükəsizliyinin təmin edilməsi üçün ciddi tapşırıq verdi. Noyabrın 29-da Nadir verdiyi yeni fərmanla bundan sonra veriləcək bütün xütbələrdə və yazılacaq rəsmi məktublarda özünə əvvəllər olduğu kimi Vəlinemət adı ilə deyil, Şahənşah (Şahlar şahı) deyə xitab edilməsini əmr etdi. (Nadirin fəxri titulları arasında "Əsrin "Nadiri", "İran ordusunun komandiri", "Hindistan, Xarəzm və Özbək torpaqlarının şahına tac geyindirən" və sair adlar da var idi).

Dekabrın 9-da Nadir Xivəni tərk etdi. Carcoudan və Mərvdən keçərək Məşhədə doğru yola çıxdı. Nadir qət edəcəyi marşrutun üzərində səhralıq ərazinin olduğunu bildiyi zaman, ordunu su ilə təmin etmək üçün, əvvəlcədən həmin ərazidə çoxlu su quyularının qazılmasını tap-

şırdı. Mərvə çatdıqda o, vilayətin Qacarlar tayfasından olan hakimini Əfşarlar nəslinə mənsub biri ilə əvəzlədi və çoxsaylı siyasi qətllər həyata keçirdi. Şahın qəzəbinə tuş gələnlərdən biri də vaxtilə Rzaqulu Mirzəni Səfəvi şahzadələrini öldürməyə və özünü şah elan etməyə inandırmış Rəhim sultan da vardı.

Mərvi tərk edən Nadir yol boyu uşaqlıq illərini keçirdiyi Əbivərd, Kəlat, Dərə-Gəz (Dərgəz), Kobkan və Kabuşanı ziyarət etdi. Nadir dünyaya göz açdığı torpaqda öz şərəfinə, qızıl qılınc abidəsinin ucaldılmasına əmr verdi. Bu heykəl vasitəsilə Nadir dünya fatehinə çevrildiyini hər kəsin nəzərinə çatdırmaq istəyirdi. Heykəltəraş Nadirdən abidənin üzərinə həkk edilməsi üçün doğum tarixini soruşdu, lakin şah sualın cavabını bilmədiyindən, ogünkü tarixin daş üzərinə həkk edilməsini buyurdu. Nadir həmin yerlərdə öz sərkərdələrinə gənclik illərindən, yoxsulluq içində keçirdiyi həyatdan, müxtəlif heyvanlara çobanlıq etməsindən ağız dolusu danışdı. Bütün bunları söylədikdən sonra Nadir üzünü sərkərdələrinə tutaraq dedi: "Gördüyünüz kimi hər şeyə qadir olan Allah məni hansı mərtəbəyə qədər ucaltmışdır, ona görə də hər biriniz kasıb təbəqəyə mənsub insanlara əsla ikrah hissi ilə yanaşmamağı öyrənməlisiz".

Kəlatda olarkən Nadir şəhərdə yenidənqurma işlərini həyata keçirməyə başladı. Onun layihəsinə əsasən şəhər qala divarları ilə əhatə olunmalı, mərkəzdə isə meydanlar, hamamlar, məscidlər tikilməli, həmçinin xəzinənin saxlanması üçün yer inşa edilməli idi. Bura Nadirin Hindistandan gətirdiyi sərvətin mühafizəsi üçün nəzərdə tutulmuşdu. Plan özündə həmçinin qala daxilində mərmərdən məqbərə və sarayın tikilişini, su təchizatı sisteminin yenidən qurulmasını, geniş bağların salınmasını ehtiva edirdi.

Nadir bir müddət sonra Kivaqabada səfər etdi. Burada o orduya yeni qatılanlara baxış keçirərək onların geyimlə, pul və ərzaqla təmin olunmasına göstəriş verdi. Nəhayət, 1741-ci ildə, yanvarın 17-də Nadir Məşhədə daxil oldu. Nadir Məşhəddə iki aya yaxın qaldı. O, Xorasanın mərkəzi olan bu şəhəri iqamətgahının, şəxsi sarayının və ordusunun cəmləşdiyi öz dövlətinin paytaxtı seçmişdi. Şah İsfahandan daha çox Məşhəddə oturmağa üstünlük verirdi. Həmin ərəfədə Nadirə orduya tələbatdan daha artıq ərzaq və pul ödənildiyinə dair məlumat verildi. Dağıstana yürüşü ərəfəsində olduğundan o, baş verənləri sakit qarşıladı. Üstəlik Nadir doğma oğlu və qardaşı oğlu arasındakı soyuqluğu aradan qaldıraraq onları barışdırmağa nail oldu. Büdcə gəlirlərinin yenidən təftişi həyata keçirildi. Yoxlamaların nəticəsinə görə bir neçə vergi məmuru edam edildi.

Məşhəddə olduğu dövrdə Nadir Hindistandan və Türküstandan gətirdiyi qənimətlərdən xeyli sayda qiymətli əşyanı buradakı İmam Rza türbəsinə bağışladı. Hədiyyələr arasında bahalı xalçalar, çıraqlar və qiymətli daşlarla işlənmiş qıfıl da vardı. Səmərqənddən, Teymurləngin məqbərəsindən götürülmüş nefrit daşları da gəlib çıxmışdı. Nadir onları əlinə alıb dərin bir fikrə daldı. Çox güman ki, o, gətirilərkən yolda parçalanan daşları gözdən keçirərək, Əmir Teymurun məqbərəsinə əl uzatdığına görə peşmançılıq hissləri duyurdu. Bu, Nadir verdiyi qərara görə sonradan peşman olduğu ilk və son hadisə deyildi. Nadirin belə ziddiyyətli şəxsiyyəti əslində onu ətrafdakıların nəzərində cəlbedici, maraqlı göstərirdi, lakin təəssüf doğuran cəhət Nadirin də əksər hökmdarlar kimi özündənrazılığı idi. Gözlənilmədən Nadir qərarını dəyişərək özü üçün hazırlatdığı məzar daşının əvvəl buyurduğu kimi nefrit daşı

ilə deyil, qızılla işlənməsinə göstəriş verdi. Əmir Teymurun sərdabasından qoparılaraq gətirilmiş nefrit daşları isə geriyə – Səmərqəndə qaytarıldı. Nadir özü üçün Məşhəddə ikinci türbəni inşa etdirirdi. İnsanlar öz aralarında zarafatla Nadirin dünyada onun üçün ayrılmış yerlərdən başqa (məzar yerləri nəzərdə tutulur – mütərcim) hər yerdə olduğunu deyirdilər. Hətta zarafatcıl şəxslərdən birinin eyni məzmunlu yazını onun tikilməkdə olan türbə daşının üzərinə həkk etdiyini söyləyirlər. Lakin Nadirin bundan xəbər tutduqda günahkarlara ölüm cəzası verəcəyindən çəkinərək, həmin yazını tez bir zamanda pozdular. Böyük ehtimalla Nadir bu barədə məlumatlandırılmışdı, lakin o, öz qəzəbini cilovlayaraq sevimli paytaxtında qan tökmək, edamlar həyata keçirmək istəmirdi.

Nadiri Fars körfəzində atacağı gələcək addımlar ciddi şəkildə düşündürürdü. Onun özü heç zaman o bölgəyə getməmiş, əmrlərin icrasını müxtəlif sərkərdələrinə həvalə etmişdi. Bir vaxtlar Fars körfəzindəki donanma admiral Lətif xanın komandanlığı altında fəaliyyət göstərirdi. O, 1736-cı ildə iki dəfə Bəhreyn ərazisində hərbi əməliyyat keçirərək müvəffəqiyyət qazanmışdı[1]. Həmçinin 1737 və 1738-ci illərdə Oman sultanına qarşı üsyan etmiş qiyamçıları yatırtmaq üçün Lətif xan ora ekspedisiyalar təşkil etmişdi. Həmin yürüşlər də uğurla başa çatdırıldı. Lakin donanmanı müşayiət edən Tağı xan yürüş zamanı həm Lətif xanla, həm də Oman hakimi ilə ciddi mübahisə etmişdi. Yürüşdən sonra Lətif xan zəhərlənərək dünyasını dəyişdi.

Lətif xanın vəfatından sonra ekspedisiya çevik şəkildə dağlıq əraziyə çəkildi. Tağı xan hərbi strategiya və də-

[1] 7-ci hissəyə bax.

nizçilik məsələləri sahəsində ciddi bir peşəkar deyildi. O, daha çox maliyyə işlərində bacarıq və səriştə sahibi idi. Bu səbəbdən də qısa müddətdən sonra Nadirin donanması uğursuzluğa düçar oldu. Baş verənlər azmış kimi donanmaya cəlb edilmiş ərəb dənizçiləri də üsyan edərək quldurluğa başladılar. Onlar üsyanı dayandırmaq üçün hökumət qarşısında bəzi tələblər irəli sürmüşdülər. Lakin 1739-cu ildə üsyançılara qarşı göndərilmiş ordu onları darmadağın etdi və qiyam yatırıldı. Nadir Muskatda (Oman sahillərindəki) nüfuzunu bərpa etməyə çalışırdı. Bir müddət sonra Nadirin əmri ilə Tağı xan Sində (Hindistan sahillərinə) yürüşə çıxdı, lakin Məkranda donanma biabırçı məğlubiyyətə uğradı[1]. Tağı xanın uğursuzluğundan sonra ərəb dənizçilər, yenidən qiyam qaldıraraq, hökumətdən onlara əlavə pul ödənməsini tələb etdilər. İkinci üsyan əvvəlkindən daha geniş miqyas alsa da, üsyançıların əksəriyyəti ilə güc tətbiq etmədən razılığa gəlmək mümkün oldu. Nadir Fars körfəzi bölgəsinə daha artıq diqqət yetirməyin zəruriliyini anlamışdı. Nadir dənizdən Hindistanın ələ keçirilmiş əraziləri ilə dəniz vasitəsilə əlaqəni təmin etmək, həmçinin Fars körfəzindən keçən beynəlxalq ticarətə nəzarəti ələ almaq, eləcə də osmanlıların nəzarətində olan limanlarla aparılan ticarət əməliyyatlarına təsir göstərə bilmək üçün ciddi-cəhdlə çalışırdı. Sadalanan vəzifələrin öhdəsindən gələ bilmək üçün Muskata (Oman) və Hörmüz boğazına nəzarəti ələ keçirmək hava-su kimi vacib idi. Dənizlərdəki planlarını həyata keçirmək üçün Nadir Hindistanın qərb sahilində, Kambey körfəzində yerləşən İngiltərənin Ost-Hind şirkətinin Suratda şah ordusu üçün gəmilərin hazırlanmasına dair göndərdiyi təklifə müsbət yanaşıldı.

[1] Bu hissədə həmin hadisə təsvir olunub.

Şirkətin istehsalı olan ilk gəmilər 1741-ci ildə ordunun ixtiyarına verildi. Mükəmməlliyi ilə seçilən həmin gəmilərin dəyəri çox yüksək idi. Məsələnin maddi tərəfini düşünən Nadir, Bəsrədə öz şəxsi gəmiqayırma meydançalarının qurulması istiqamətində fəaliyyətə başladı. Donanmanın təşkili prosesini ləngidən ən ciddi səbəb şübhəsiz ki, bu sahədə bacarıqlı ustaların yoxluğu ilə bağlı idi. İşləri çətinləşdirən digər bir amil Fars körfəzi sahillərində sıx ağaclığa malik sahələrin olmamasından qaynaqlanırdı. Gəmilərin düzəldilməsi üçün lazım olan ağaclar 600 mil şimalda yerləşən, sıx Mazandaran meşələrindən daşınırdı. Ağır tikinti materiallarının zədələnməməsi üçün nökərlərin çiyinlərində daşınırdı. Onların çoxu yol boyu ağırlığa tab gətirmir, işi yarımçıq qoyub qaçır, yaxud da canlarını tapşırırdılar. 1741-ci ildə körfəz bölgəsində dəniz quldurları və üsyançılarla bir neçə toqquşma baş verdi. 1742-ci ilin əvvəllərində İran donanmasının sərəncamında 15 iri gəmi vardı ki, onların hamısı Suratdan, ingilis şirkətindən alınmışdı. Böyük bir gəminin alt-üst olması, Nadirin Beşradakı gəmiqayırma mərkəzinin işini daha da artırdı. Həmçinin Omanda yeni iğtişaşların baş qaldırması yenidən ordunun müdaxiləsini qaçılmaz edirdi. Nadir donanmasının yeni gəmiləri ağ fonda qırmızı qılınc təsviri olan bayraq altında üzürdülər.

1741-ci ildə Məşhəddə olarkən Nadir digər hərbi planlar üzərində də eyni həssaslıq və diqqətlə işləyirdi. Qarşıda onu çətin Dağıstan yürüşü gözləyirdi, Nadir ləzgilərdən öz qardaşı İbrahimin qisasını almaqda qərarlı idi. Osmanlı dövləti ilə də yeni müharibə təhlükəsi meydana gəlmişdi. 1741-ci ilin 14 martında Nadir ordunun illik məvacibini əvvəlcədən ödəyərək Məşhəddən Dağıstana səfərə çıxdı. Xorasanın idarəçiliyi müvəqqəti Nəsrullaha

həvalə olunmuşdu, Rzaqulu və İmamqulu isə Nadirlə birgə yürüşə yollandılar. Onlar Kabuşanda Novruzu qeyd etdikdən sonra Astarabada doğru irəlilədilər. Tarixçilər yazırlar ki, Nadir Novruz şənlikləri zamanı başına möhtəşəm və bahalı bir tac qoymuşdu. Həmin tac qeyri-ənənəvi görünüşü ilə fərqlənirdi. Onun üzərində şahlığın rəmzi olan qara vağ quşunun təsviri əvəzinə, qiymətli daşlarla işlənmiş 4 vağ quşu öz əksini tapmışdı. 4 rəqəmi Nadirin istila etdiyi İran, Hindistan və Türküstanı, həmçinin növbəti hədəf kimi seçdiyi Osmanlı imperiyasını təcəssüm etdirirdi (çünki Nadir ləzgilərlə müharibədən sonra Osmanlı torpaqlarına qarşı yürüş etməyi nəzərdə tuturdu). Dəbdəbəni sevməyən Nadir, həmin tacı cəmi bircə dəfə geyindi və sonradan onu birdəfəlik kənara qoydu.

Nadirin saray tarixçiləri qeyd edirlər ki, şahın Xorasana gəlişi həmişə bayram və şənliklərlə müşayiət olunurdu, lakin saray həyatının təmtərağı arxasında amansız çəkişmələr səngimək bilmirdi. O dövr salnaməçilərindən birinin verdiyi məlumata əsasən bu çəkişmələr zəminində Rzaqulu Məşhəddə olarkən hətta atasını tənqid etməkdən çəkinməmişdi: "Mənim atam bütün dünyanı işğal etmək niyyətinə düşüb, ona görə də bizə və bütün İrana zülm edir. Hər yerdə döyüşlər davam edir. O ölməyincə, nə bizim, nə bütün İranın, nə də qonşu dövlətlərin ondan dinclik tapması qeyri-mümkündür". Əlbəttə ki, bu sözləri eşidənlər, Rzaqulunun dediklərini yubanmadan Nadirə çatdırdılar. Astarabada yola düşən ordu Gürgan dərəsində güclü yağışa düşdü. Qoşun bir neçə dəfə çayı keçməli oldu, çoxlu sayda insan və minik heyvanı sulara qərq olaraq can verdi. Sel ordunu onun düşərgə saldığı ərazidə də rahat buraxmadı. Güclü su axını minlərlə insanı və heyvanı apardı. Nadirin 500 000 tümən dəyərindəki xə-

zinəsi də sel sularının qurbanı oldu. Sel hər tərəfi ağuşuna alsa da, təpədə düşərgə salan Nadir daha da yüksəyə çıxmaqdan imtina etdi. O, öz taxtında əyləşərək selə tamaşa etmək qərarına gəlmişdi. Su daha təhlükəli həddə çatdıqda, Nadir filin üzərində təhlükəsiz yerə çəkilməyə məcbur oldu. Daşqın səngidikdən sonra onun adamları dərəyə yuvarlanmış çoxsaylı əşyaların axtarışına çıxdılar. İtirilən əşyaların bir qismini tapmaq müyəssər oldu, ölənlərin cəsədləri torpağa tapşırıldı. 3 gündən sonra ordu Astrabada doğru yoluna davam etdi. Əsgərlərinə dinclik verən Nadirin ləzgilərə qarşı Dağıstana yürüşə göndərdiyi Əbdalilər tayfasından ibarət qoşun müəyyən hərbi uğurlar qazanmış, bir sıra yerli qəbilələri itaətə məcbur etmişdilər. Lakin yürüşdən geri dönən Əbdalilərin bir qismi yolda qar uçqununa düşərək faciəli şəkildə həlak oldular. Nadir Əbdalilərin böyüklərinə 200 000 rupi miqdarında maddi yardım və qəhrəmancasına çarpışan döyüşçülərə isə bahalı libaslar göndərdi. Dağıstan yürüşünün çətin olacağını Nadir keçmişin təcrübəsindən də bilirdi, lakin bu onu əsla məqsədindən çəkindirmirdi.

Qoşun Astrabaddan, Mazandaranın sıx meşə zolaqlarından keçərək Sari istiqamətinə hərəkət edirdi. Əlborz dağlarından keçərək Tehrana tərəf dönən yol Savad Kuh bölgəsinə çıxırdı. Adəti üzrə Nadir əsas qüvvələrdən bir qədər arxada gəlirdi. O, yüksək rütbəli saray əyanlarının və məmurlarının əhatəsində hərəkət etməkdənsə, qadınlarla ünsiyyət şəraitində səyahət etməyi üstün tuturdu. Nadirin həyatının çox hissəsi yollarda keçmişdi və o istər boş vaxtını, istərsə də gecələri qadınlarla keçirməkdən həzz alardı. Bu, onun həyatının ikinci yarısında daha qabarıq şəkildə özünü büruzə verməyə başlamışdı. Nadir öz xanımları ilə səfərdə olduğu zaman onu 1 mil, yaxud

daha artıq məsafədə öndə gedən keşikçilər qoruyurdular. Qadınlar adətən ağ atların belində gedirdilər. Yol boyunca müğənni qadınlar müxtəlif mahnılar səsləndirərək məclisi rövnəqləndirərdilər. Ümumilikdə şahın hərəmində 60-a yaxın qadın vardı (Nadirin arvadları, cariyələri, xidmətçi qadınlar, müğənnilər və rəqqasələr). 1741-ci ilin, mayın 15-də onlar dar meşə zolağından keçdikdə yaxınlıqda atəş səsləri eşidildi. Güllə Nadirin atın cilovunu tutduğu yerdən qolunu və baş barmağını yaraladı, sonra isə onun atının bel nahiyəsinə dəydi. Möhkəm kişnəyən at Nadirlə birgə yerə sərildi. Qatil meşənin kolluqlarla sıx örtülmüş hissəsində, təxminən 20 addım aralıda gizlənmişdi. O, gözətçilərdən yayınaraq karvanın keçdiyi əsnada Nadirə atəş açmağa müvəffəq oldu.

Salnaməçilərdən biri yazır ki, Nadir ona sui-qəsd etmək istəyən insanı güllə atılmazdan öncə görmüşdü. Çox güman ki, qatil hədəfi nişan alarkən o, Nadirin gözünə sataşmış və Nadir çətinliklə özünü nişangahdan yayındırmış, yaxud da atını qatilin nişan almağa çətinlik çəkdiyi sürətlə sürərək ölümdən canını qurtarmışdı. Yerə yıxılan Nadir özünə gələndə qadınların qışqırıq səsləri ətrafı bürüdü. Qatil isə qaçıb gizlənməyi bacarmışdı. Rzaqulu da yaxında idi və kömək məqsədilə atasının olduğu yerə gəldi. Lakin Rzaqulu Nadirin kömək istəyəcəyi sonuncu insan idi, Nadir onu kənara itələyərək acıladı. Ayağa qalxdıqdan sonra da onu yaxına buraxmadı. Daha sonra Nadir ona başqa bir at verilməsini əmr etdi və qatilin qaçdığı istiqamətə yollandı. Ancaq qatil izini azdırmağı bacarmışdı. Rzaqulu və əsgərlərinin də axtarış səyləri nəticəsiz qaldı. Onlar meşənin içərilərinə doğru irəliləsələr də, atəş açan şəxsi ələ keçirmək mümkün olmadı. Nadirin yaraları ciddi deyildi, onun zədələnən baş barmağı sarılandan

sonra yenidən at belinə çıxması mümkün idi. Ordu gecələmək üçün uyğun düşərgə yeri axtarırdı. Növbəti gün Nadir əyanlardan uzaqlaşaraq, adəti üzrə topladığı dövlət divanına gəlmədi. 3 gün keçdikdən sonra Nadir sərkərdələrini yanına çağırdı və ona sui-qəsd edənin uzun boylu, qarabəniz, xəfif saqqallı olduğunu dedi. Şah orduda bu əlamətlərə uyğun şəxslərin xidmət edib-etmədiyi ilə maraqlandı. Komandirlər cavablarında orduda belə bir adamın olmadığını bildirdilər. Əsgərlər ətraf kəndləri gəzərək şübhəli şəxslərin axtarışına başladılar. Şübhəli şəxs qismində saxlanılan insanlar qorxudan rüşvət müqabilində canlarını qurtarmağa çalışırdılar.

Lakin hərbçilər rüşvət təklif edənlərə bu hərəkətlərlə əslində öz günahlarını etiraf etdiklərini bildirirdilər. Tutulanlardan biri isə əsgərlərə onu azad etmələri üçün yalvarır və bildirirdi ki, belə təhlükəli hərəkətə cəsarət edən şəxs onun kimi qorxaq biri ola bilməz. Bu cür addım ancaq cəsur, qorxmaz insandan qaynaqlanar. Şahın sözləri əsasında qatilin təsvirini yaratmaq üçün İsfahandan rəssamlar çağırıldı və çəkilən həmin rəsm imperiyanın hər yerinə göndərildi. Nadir əmr verdi ki, qatil tapılacağı təqdirdə təzyiq və işgəncələrə məruz qoyulmadan, sağ-salamat onun hüzuruna gətirilməlidir. Həmçinin, elan edildi ki, qəsdi törədən şəxs könüllü şəkildə günahı etiraf edib, öz hərəkətinin səbəbləri haqqında məlumat verəcəyi halda da onun həyatı bağışlanacaq. Həmin günlərdə iki qardaş, Dilavər xan Teymaninin oğlanları Nadirə vaxtilə onun dediyi əlamətlərə uyğun gələn bir nəfərin sarayda xidmət etməsi haqqında məlumat verdilər. Onların dediyinə görə həmin şəxs cəsarətilə digərlərindən seçilirdi, üstəlik onun mahir atıcılıq qabiliyyəti var idi. Deyilənə görə, sözügedən şəxs hətta qaranlıqda ilanın başını dəqiq nişan

almağı bacarırdı. Ancaq sarayda xidmət etdikdən bir müddət sonra həmin şəxs qəflətən yoxa çıxmışdır. Nadir onlara barəsində danışdıqları şəxsi tapmağı əmr etdi.

Nadir ordusu ilə Əlborz dağlarını aşaraq Tehrana gəldi. O, Rzaquluya burada qalmağı, əyalətin gəlirləri ilə məşğul olmağı tapşırdı. Şahzadəyə nəzarət etmək məqsədilə xüsusi keşikçilər də ayrıldı. Rzaqulu növbəti dəfə özünü təhqir olunmuş hiss etdi. Şah ona qarşı həyata keçirilmiş qəsdin arxasında oğlunun ola biləcəyindən ciddi şəkildə şübhələnirdi. Nadir Tehranda olduğu günlərdə həm də Rusiya nümayəndəsi Kaluşkinlə müzakirələr apardı. Rus elçisinin bu görüş haqqında təəssüratlarından aydın olur ki, Nadir hərəkət azadlığını qoruyub saxlayan qətiyyətli şəxsiyyətdir və onu nədəsə məhdudlaşdırmaq müşkül olacaq. Səfir hər hansı məsələ haqqında konkret söz deməyə çətinlik çəkirdi. Onun qeydlərindən belə görünürdü ki, Nadir Osmanlı imperiyası ilə münasibətləri əvvəlkindən yaxşıya, yaxud pisə doğru o qədər də dəyişməmişdi. Lakin elçi Kaluşkin Nadirin Rusiyaya yanaşmasının da hansı məcrada inkişaf etdiyini müəyyənləşdirməkdə tərəddüd edirdi. İyunun əvvəllərində Nadir Tehrandan Qəzvinə yola düşdü. Nadir öz qardaşı İbrahimi Dağıstanda itirmişdi və onun intiqamını almağa çox yaxındı. Bununla belə, o, bütün yaxın qohumlarından və dostlarından uzaq düşmüşdü. Onun bu tənhalığı həyatda ən əziz varlığı, onu kasıbçılıqla böyütmüş, hər cür əziyyətə birgə qatlaşdıqları anası vəfat edəndə özünü bütün çılpaqlığı ilə büruzə verdi. Nadirin daim sevib əzizlədiyi anası o, Hindistan yürüşündə olduğu zaman dünyasını dəyişmişdi. Bu qadın insanlarla ünsiyyətdən qaçırdı, vaxtının əksər hissəsini sarayın qadınlar üçün ayrılmış hissəsində keçirməyi üstün tutur və yalnız Nadirin də iştirak etdiyi ən

mühüm tədbirlərdə görünürdü. Onun ünsiyyətdən uzaq olması səbəbindən tarixçilər Nadirin doğum tarixi haqqında dəqiq bir məlumat qeydə ala bilməmişdilər. Bəziləri belə düşünürdü ki, Nadir şəxsi həyatı ilə bağlı təfərrüatları bilərəkdən qabartmırdı və bunda məqsəd tarixçilərin bütün diqqətini onun siyasi fəaliyyətinə, hərbi qələbələrinə cəmləmək istəyi idi. Yaxınını itirən hər bir insan kimi, anasının ölümü Nadiri də dərindən sarsıtdı. Onun daim qadınlara mülayim münasibət bəsləməsi böyük ehtimalla uşaqlıqdan anasından gördüyü böyük nəvazişdən irəli gəlirdi. Doğmalarını itirən insan çaşqınlıq və tənhalıq içində çırpındığı kimi, Nadirin də çöhrəsi həmin vaxt birdənbirə soldu. Nadir anasının vəfatı xəbərindən sarsılaraq göz yaşlarına boğulmuşdu və Hindistandan dönər-dönməz ilk iş kimi məscidə, anasının məzarını ziyarətə yollandı. 1734-cü ildə Dağıstana yürüş etdiyi zamanı Nadirə böyük faydası toxunmuş, bir müddət də şahın məsləhətçisi kimi fəaliyyət göstərən Təhmasib xan Calair həmin ərəfədə Kabul və Sinddə idi. Nadirin Hindistanda ələ keçirdiyi ərazilərin nəzarəti ona tapşırılmışdı. Karnal döyüşündə Nadirin sağ əli hesab olunan Nəsrullah isə Məşhəddə idi. Vaxtilə Nadirin sevimlisi olan Rzaqulu cəza olaraq Tehranda, gözətçilərin nəzarəti altında saxlanılırdı. Onun əzizlədiyi məmuru Tağı xan da Şirazda qalmışdı.

Nadirin ağrılarını azaltmağa müvəffəq olmuş, Dehlidən çıxanadək onun əsəblərini müalicə etmiş hindli həkim Ələvi xan Həcc ziyarəti məqsədilə olduğu Qəzvindən Məkkəyə getmək üçün Nadirdən icazə istədi. Nadir hələ Dehlidə olarkən öz həkiminə onu Həccə göndərəcəyinə söz vermişdi və vədinə sadiq qalmağa borclu olduğundan Ələvi xanın ziyarətə getməsinə mane olmadı. Ələvi xan Nadir şahın əsəblərinin müalicəsinə xüsusi həssas-

lıqla yanaşırdı, bunun üçün bütün bacarığını sərf edirdi. Bəlkə elə onun səylərinin nəticəsi idi ki, Qəzvində olduğu iki həftə ərzində Nadir cəza olaraq kiminsə döyülməsini, yaxud edamını nəzərdə tutan hər hansı cəza tədbirinə əl atmamışdı. Lakin indi Nadiri sakitləşdirəcək, onun qəzəbini cilovlayacaq, hərəkətlərinə yön verəcək kimsə qalmamışdı. Qəzvində olarkən Nadir xəbər tutdu ki, ləzgilərlə döyüşdə onun müttəfiqləri Əbdalilər uğur qazansalar da, digər Dağıstan tayfaları Gürcüstana basqın edərək oranı viran qoymuşlar. Eşitdiklərindən hiddətlənən Nadir söz verdi ki, baş verənlərə görə Dağıstan camaatının cəzası çox ağır olacaq. Nadir bildirdi ki, tayfa hakimlərinin qızlarını fahişəyə çevirərək öz qardaşının intiqamını alacaq. Onun əmri ilə 5000 dağıstanlının başı kəsildi. Viran qalmış Gürcüstanda abadlıq işlərinin aparılması isə əfqanlardan ibarət dəstəyə tapşırıldı. Nadir Şirvan torpağına ayaq basdıqda keçmişin xatirələri yenidən onun gözləri önündə canlandı. Vaxtilə o, burada 150.000-lik güclü ordusunun[1] başında mərkəzi hakimiyyətə qarşı çıxmış ləzgilərin qiyamını necə yatırdığını xatırladı. Onlar dağlardan enərək, Nadirə öz itaətlərini bildirmiş və qiyam etməyəcəklərinə dair söz vermişdilər. Ləzgilər avqustun ortalarına kimi, yəni Nadir və ordusu Qumuqda qaldıqları müddət sülhə sadiq qaldılar. Yalnız Surxay adlı tərsliyi ilə seçilən bir tayfa başçısı var idi ki, o, heç vəchlə Nadirə tabe olmur, ipə-sapa yatmaq istəmirdi. Nadir onun hüzuruna gəlmiş ləzgi tayfa başçılarını ehtiramla qarşıladı, onlara qiymətli bəxşişlər verdi. O, qiyamda iştirak etmiş bütün ləzgi tayfa başçılarının sülh bağlamaq üçün hüzura gələcəklərinə ümid edərək, bütün ayı Qu-

[1] Ordunun böyük əksəriyyəti əfqanlardan, özbəklərdən və hindlilərdən ibarət idi (Bazin, səh. 289).

muqda qaldı. Qumuqda olduğu vaxt Məşhəddən gələn qasid Xarəzmdə iğtişaşların baş qaldırdığına dair xəbər gətirdi, Xivənin tutulduğunu bildirdi. Ötən ilin sonunda hökumətin həmin əyalət üçün nəzərdə tutduğu quruculuq tədbirləri təxirə salındı[1]. Nadir üsyanı yatırmaq məqsədilə göndərdiyi Nəsrullaha kömək üçün öz məsləhətçilərinin də bir qismini onun ordusuna qoşdu.

Sentyabrda Nadir çətin keçilən dağ yolları ilə Dağıstanın ucqarında yerləşən Kunzah qalasının yaxınlığında Avaria dağında ləzgilərin sonuncu müqavimət ocağını söndürməyə yollandı. Həmin ərazi bütünlüklə dağlıq bölgə olduğundan ordu çətinliklə hərəkət edirdi. Yay fəsli olmasına baxmayaraq, hər tərəf qar örtüyünə bürünmüşdü. Nadirin əsas yürüşündən əvvəl bölgəyə göndərilmiş Əbdalilərin səyləri nəticəsində ləzgi tayfalarının əsas hissəsi itaətə məcbur edilmişdi. Sonuncu müqavimət dalğasının yatırılması üçün o qədər də böyük zəhmət tələb olunmadı. Şah inanılmaz dərəcədə asan bir uğur qazandı. Artıq uzun zaman idi ki, Nadirin hamının adət etdiyi davranışında müəyyən dəyişikliklər baş vermişdi. Belə ki, xroniki xəstəlik səbəbindən düçar olduğu şiddətli ağrılar ona əziyyət vermiş, sərt xarakterini, mənəm-mənəmliyini əhəmiyyətli dərəcədə yumşaltmışdı. Bu, özünü Nadirin üsyançı tayfalarla rəftarında da göstərirdi. Həmçinin Nadir oğlu ilə bağlı onu didib-dağıdan şübhələrdən hər vəchlə qurtulmağa çalışırdı. O, artıq 5-10 il əvvəl olduğu qədər həyat dolu, çevik Nadir deyildi.

Üsyançıların yüksəklikdəki sonuncu dayaq məntəqəsinə həlledici həmlə qışın əvvəllərinə qədər uzandığından

---

[1] Əslində, bir il içində Xivədəki üsyan yatırıldı, üsyançılar qovuldu. Xivə əhalisi 1743-cü ilin yayında öz nümayəndələrini Mərvdə olan Nəsrullahın yanına göndərərək, itaət etdiklərini bildirdilər.

ordunun vəziyyəti müəyyən qədər çətinləşmişdi. Nadir ordunu o qədər də ciddi təhlükə törətməyən kiçik bir qalanın tutulması əməliyyatı ilə yormaq istəmir, yekun zərbənin vurulmasını daha isti aylara qədər təxirə salmaq barəsində düşünürdü. Belə olduqda əməliyyatın icrası daha da asanlaşacaqdı. Sentyabrın sonundan başlayan şiddətli külək, qar və yağış Nadiri geri çəkilməyin zəruriliyinə inandırdı. Ordu şərq istiqamətinə, Dərbəndə tərəf, nisbətən düzənliyə, Xəzər dənizinin sahillərinə doğru çəkildi. Nadirin ordusu ilə geri çəkilən əsnada ona müqaviməti davam etdirən qaraqaytaqlılar Nadirin ordusuna qoşulmaq üçün Dərbəndə doğru dağ meşələri ilə irəliləyən bir qrup hərbçiyə hücum edərək, onların atlarını və digər sursatlarını ələ keçirdilər. Hücum edənlər arasında şaha tabe olan ləzgi tayfalarının da nümayəndələri vardı. Həmin tayfaların bir qisminə Dağıstanı tərk edərək Xorasanda məskunlaşmaq əmri verilmişdi. Qorxu və vahimə yaratmaq məqsədilə xeyli yaşayış məntəqəsi, kəndlər yandırıldı. Nadirin yenidən sərtliyə əl atması onun nisbətən mülayim davranışı səbəbilə sakitləşmiş ehtiraslarını yenidən qızışdırdı, Dağıstan xalqları Nadirin onlara gələcəkdə mərhəmətlə yanaşacağına dair dərin şübhəyə düşdülər. Tərəddüdlər və amansız rəftar Dağıstan xalqlarının müqavimətini daha da gücləndirmiş oldu.

Lakin Avariada müqaviməti davam etdirən tayfaların hərbi imkanları zəif idi, onların həmlələri isə əsasən uğursuzluğa düçar olurdu. Dağıstanlılar 6 il əvvəlki acı məğlubiyyəti yaxşı xatırlayırdılar. O vaxt Hindistanı zəbt edən Nadir böyük nüfuz qazanmış və xof yaratmışdı. Nəticədə onun hədə-qorxularından çəkinən ləzgilər müqavimət göstərməyə ehtiyatlanmışdılar. İndi isə Nadirin geri çəkilməsi onlarda böyük təəccüb doğurmuşdu, axı Nadir

istədiyini qoparmadan əl çəkən biri deyildi! Müqavimət hərəkatına qoşulan dağıstanlıların sayı get-gedə artırdı. Nadirin Qafqaza əvvəlki yürüşü zamanı törətdiyi qırğınların acı xatirələri onların mübarizliyini daha da artırırdı. Bununla belə onlar Nadirlə açıq döyüşə girməkdən çəkinir, belə bir addıma cəhd də göstərmirdilər. Salnaməçilərdən biri yazır ki, gecə ikən Nadirin Dərbənddəki düşərgəsi qəfil hücuma məruz qaldı və dağıstanlı döyüşçülər onun yaxşı qorunan hərəmxanasına belə basqın edib qiymətli əşyalar talamış və xanımlarından bir neçəsini də özləri ilə əsir aparmışdılar. Basqın edib qız qaçırtmaq Qafqaz kişilərinin sevimli "məşğuliyyətlərindən" biri idi.

Baş verənlər Nadiri özündən tamamilə çıxardı və mühafizə tədbirlərinin təşkilinə məsul bir sıra məmur və gözətçilər yol verdikləri səhlənkarlığa görə edama məhkum olundular. Şah and içdi ki, Dağıstan üsyançıları ilə məsələyə son nöqtə qoymayınca geri dönməyəcək. 16 oktyabrda Dərbənddə düşərgə salmış Nadir ayın 25-də oranı tərk etdi. Öz adamlarına əmr etdi ki, Dağıstan ərazisində bir-birindən 2-3 saatlıq məsafədə yerləşən istehkamlar inşa edilsin. Noyabrın 19-da Nadir yenidən Dərbəndə qayıtdı. Bu andan etibarən Nadirin Dağıstan yürüşünün ən çətin və ən ağrılı mərhələsi başlandı. Tayfaların artan müqaviməti fonunda ordunun təminatı əsas problem kimi önə çıxırdı. Dağıstanın qayalıq ərazilərdə pərakəndə şəkildə yaşayan xalqı nə qədər mehriban olsa da, Nadirin çoxsaylı ordusunu təmin edəcək qədər zəngin deyildi. Üstəlik uca dağlar, sıldırım qayalıqlar və sıx meşələr partizanların həmlələri üçün ideal şərait hesab olunurdu. Yaranmış vəziyyətdən yalnız bir çıxış yolu qalırdı – ordunun ərzaq və silah təchizatını dəniz yolu ilə Dərbənd üzərindən təmin etmək. Lakin qoyulan tapşırığı tam həcm-

də həyata keçirə bilməsi üçün Nadirin Xəzər dənizində kifayət qədər iri tutumlu gəmisi yox idi. Nadir gəmi üçün Rusiya hökumətinə müraciət etdi, lakin rədd cavabı aldı. Ruslar gəmilərin onlara qaytarılmayacağından ehtiyatlanırdılar. Ən əsası isə Rusiya öz sərhədləri yaxınlığında əməliyyat aparan Nadirin hərbi fəaliyyətindən ciddi narahatlıq keçirirdi. Şahın rus elçilərinə qarşı soyuq münasibəti də onların şübhələrini xeyli artırmaqda idi. Sözdə Nadirlə müttəfiq olduğuna görə rus hökuməti öz tacirlərinə onun ordusu üçün lazımi məhsullar, ərzaq və sairə satmağa icazə vermişdi, lakin onların təklif etdikləri qiymətlər çox yüksək oldu. Üstəlik Rusiya hökuməti ticarət gəmilərinin yoxlanışını da gücləndirmək qərarına gəldi. 1742-ci ilin yayında Nadir ingilis taciri, dəniz kapitanı Con Eltona, Kazandakı müştərək rus-ingilis şirkətinin istehsalı olan gəmi vasitəsilə Gilandan Dərbəndə düyü daşımasına dair razılıq əldə etdi. Bağlanmış saziş rusları narazı saldı[1]. Rus elçisi Kaluşkinin öz hökumətinə göndərdiyi məktubda Terek çayı ətrafındakı, həmçinin Həştərxandakı sərhəd dəstəsinin, həmçinin Kizlyar qalasının möhkəmləndirilməsi məqsədilə əlavə hərbi qüvvələrin göndərilməsini tövsiyə edirdi.

Eyni zamanda 1742-ci ildə Osmanlı dövlətinin elçisi Nadirin Dərbəndin şimalındakı düşərgəsinə gələrək, onun 1738-ci ildə Nadirabaddan İstanbula ünvanlanan məktuba sultanın yazılı cavabını gətirdi. Osmanlının mövqeyi dəyişməz qalırdı – sultan cəfəri məzhəbini qəbul etməkdən qəti şəkildə boyun qaçırdı. Nadir sultana ikinci mək-

---

[1] Elton Nadirin xidmətində çalışaraq 1745-ci ildə Xəzər dənizində onun üçün 2 freqatdan, 18 silahdan və 4 xırda gəmidən ibarət kiçik bir donanma inşa etdi. Lakin Xəzər dənizində ticarəti və digər sahələri nəzarət altına alan ruslar Eltonun bu hərəkətindən çox qəzəblənmişdilər. Elton 1751-ci ildə Gilanda öldürüldü.

tubunu yazdı, bu dəfə göndərilən namə daha kəskin və sərt tərzi ilə seçilirdi. Məktubda Nadir səlist diplomatik dillə, aydın bir şəkildə keçmişdə Anadolunun, Türküstanın və Hindistanın müxtəlif əyalətlərinin İran imperiyasının tərkibində olduğunu xatırlatdı. Səfəvilərin hakimiyyəti zamanı həmin ərazilər itirilmişdi, Nadir taxta çıxandan sonra Osmanlı sultanının hakimiyyəti altında olan torpaqlar istisna olmaqla, qalan əraziləri geri qaytarmaq siyasəti yürüdürdü. Nadir beşinci məzhəb yaratmaq təklifinin sultan tərəfindən qəbul ediləcəyinə, iki imperiya arasında dostluq əlaqələrinin bərpa olunacağına və ixtilafın, ədavətin silinib gedəcəyinə hələ də ümid edirdi. Nadir belə qərara gəlir ki, əgər Sultan bu təklifə də razılıq verməsə özü İstanbula getsin, qardaşca, dostca hər ikisi müzakirə keçirsinlər və ikisini də razı salacaq bir nəticəyə gəlsinlər. Nadir beynində Osmanlı sultanı ilə görüşünü, Məhəmməd şahla, Əbülfəzlə keçirdiyi və çox məmnun qaldığı görüş kimi canlandırırdı. Sultanla söhbətində Nadir öz əvvəlki mövqeyini dəstəkləyərək, xüsusilə dini siyasətinin önəmindən danışdı, o, imperiyanın aparıcı ruhanilərini yenidən çağıraraq, həmin məsələ ilə bağlı daha bir fərman imzaladı. Bu, artıq əvvəlkindən fərqli olaraq daha çox sünni məzhəbinə yaxın idi, eyni zamanda 4 xəlifənin təriflənməsi, şiəliyə daxil olan 3 lənət və bütün İslam dininin parçaladığına görə Səfəvilər imperiyasının qurucusu Şah İsmayılın günahlandırılması da bura daxil idi. Qeyd olunur ki, toplanmış bütün ruhanilər və hüquqşünaslar məsələyə bu nöqteyi-nəzərdən yanaşılmasının düzgün olduğunu bildirdilər. Yeni fərmana əsasən bütün səhv sayılan və ziddiyyət təşkil edən təlimlər tərk olunmalı, həmişə ibadətlərdə 4 xəlifəyə dərin hörmət bəslənməli idi, əks təqdirdə – "göyün qəzəbinə, yaxud da bizim nifrətimizə düçar olunacaqdı".

Osmanlılarla münasibətlərə aydınlıq gətirməzdən əvvəl, Nadir ləzgilərlə müharibəni sona çatdırmaq niyyətində qəti idi. O, əvvəlki kimi enerjili deyildi, rütubətli iqlim onun səhhətinə pis təsir edirdi. May ayında şah üsyançıların müqavimətini qırmaq üçün Təbasarana yola düşdü, lakin ləzgilərn "vur və qaç" taktikalarına məruz qalan ordu dəfələrlə çıxılmaz vəziyyətə düşdü. Nadirin məyusluğu daha da artdı. İyul ayında o, daimi basqınlara qarşı təhlükəsizliyi təmin etmək məqsədilə Dərbəndin şimal qərbində, sahildən bir qədər şəhərin içinə doğru, daha da möhkəmləndirilmiş istehkam qurdurdu. Nadir onu ordu üçün ruhlandırıcı olmayan – "İran Xarab" – İranın Xarabalığı adlandırdı. Adın bu cür istehzalı olması həqiqətə çevrilərək, Nadirin təsəvvür belə etməyəcəyi qədər haqlı olduğunu sübuta yetirdi.

Nadirin əsgərləri üsyançıların kəndlərini yandıraraq, Avariadakı digər hücuma doğru hərəkətə keçdilər. Beləliklə, yavaş-yavaş Təbasaranın dağətəyi hissələrini ələ keçirdilər. Lakin avqustda onun ön hissədəki 6000 hərbçisi pusquya düşərək məğlub oldular, necə ki, qardaşı bir zaman belə həmlələrin birində öldürülmüşdü. Nadir əsəbləşərək məsuliyyətsizliyinə görə bir neçə hərbçisini qətlə yetirdi. Sentyabr ayında bu dəfə şəxsən onun komandanlığı altında baltalarla meşəliyə doğru hərəkət edən digər hərbi birləşmə də geri çəkilmək məcburiyyətində qaldı. Həmin vaxt İran imperiyasının başqa qüvvəsi qaraqaytaqlıların Qureyş qalasını tutaraq, nəhayət, itaətə məcbur etdi. Quraiş qalası təməlinə kimi darmadağın olundu. Bu sonuncu xoş xəbərə baxmayaraq, Avaria və Kunzax qalası hələ də mübarizəni davam etdirirdi. Əvvəlkinə nisbətən Nadir bir azca irəli getmişdi. Oktyabr ayında o, əsəbi halda İran Xaraba geri döndü. Bir dəfə yayda Nik Qadam adlı

bir nəfəri Nadirin yanına gətirdilər. O, Herat yaxınlığında tutulmuş və Nadirə sui-qəsdə cəhd etdiyini boynuna almışdı. O, Nadirin verdiyi təsvirə əsasən, Dilavar xanın oğlanlarının təxmin etdikləri həmin adam idi. Nadir söz verdi ki, əgər Nik Qadam həqiqəti söyləsə, onun həyatını bağışlayacaq, əks təqdirdə isə o dərhal qətlə yetiriləcək. Nik Qadam öz hekayəsini nəql etdi. O, Rzaqulunun xidmətçilərindən birinin dostu olub. Nadir Hindistandan qayıdan ərəfədə, ona Rzaquluya belə bir sərrast atıcı lazım olduğu deyilib və Nik Qadamın ustalığı ona (Rzaquluya) nümayiş olunub. Rzaqulu Nik Qadamdan onun üçün bir vəzifəni icra etməyi xahiş edib. Atıcısı isə "əgər öz övladlarımın kəlləsini belə istəsən gətirərəm", – deyə cavab verib. Hekayəyə görə, Rzaqulu ona "Şah at çaparkən onu öldürə bilərsənmi?" – deyə soruşub. Bütün bu söhbət Məhəmməd Hüseyn xan Qacarın və digər əyanların yanında olub.

Nik Qadam düşünmək üçün vaxt istəyib sonra geri dönərək bu işin öhdəsindən gələcəyinə söz verib. O, Nadir Türküstana yürüşə getməzdən əvvəl onu öldürməyi planlaşdırıb, lakin həmin vaxt xəstə olduğuna görə niyyətini həyata keçirə bilməyib. Nəhayət, Savad Kuh adlanan ərazidə şans onun üzünə gülüb, lakin bu dəfə Allah Nadirin həyatını xilas edib. Nadir söz verdiyi kimi Nik Qadamın həyatını bağışlasa da, gözlərinin çıxarılmasını əmr etdi. Nadir Tehrana adam göndərərək oğlunu İran Xaraba gətizdirdi. Rzaquluda şübhə oyatmamaq üçün həmin vaxt Nəsrullahı, İmamqulunu və Şahruxu da Məşhəddən yanına çağırtdırdı. Şahzadələr Tehranda görüşüb birlikdə Dağıstana getdilər. 1742-ci ilin oktyabrında onlar Dərbəndə çatdılar, Nadirin düşərgəsinə yaxınlaşanda, Rzaquluya dur əmri verildi, digər şahzadələr isə birbaşa

şahın yanına getdilər. Nadir Nəsrullahı, İmamqulunu və Şahruxu həmişəki kimi böyük fərəhlə qarşıladı, lakin növbəti gün Rzaqulu gələndə onunla soyuq görüşdü. Atasının çadırına getməzdən əvvəl Rzaqulu həmişə olduğu kimi qılıncını, oxunu, yayını çıxarıb kənara qoydu, lakin o çadıra daxil olanda Nadir gördü ki, xəncər hələ də onun belindədi. Bu zaman Nadir qışqırdı "silahı oradan götür". Rzaqulu qabı ilə birlikdə xəncəri qəzəblə yerə atdı, orada olan hərbçilərdən biri tez silahı yerdən götürüb apardı. Nadir yüksək səslə Rzaqulunun ağlını itirdiyini bildirdi və onun aparılıb, nəzarətdə saxlanmasını əmr etdi.

Növbəti bir neçə gün ərzində Nadirin yaxın adamları, əyanlar – Mirzə Zəki, Həsənəli xan, baş molla və digərləri Rzaqulunun yanına gedərək bağışlanması üçün üzr istəməyə razı salmağa çalışdılar. Lakin şahzadə olduqca inadkar idi və hər şeyi inkar edərək, üzr istəməli səhv bir iş görmədiyini bildirdi. Rzaqulu atasının həyatına qəsd etmədiyini, bunun doğru olmadığını söylədi və bildirdi ki, atası onun həyatına son qoymaq istəyir. Bir mənbənin verdiyi məlumata görə, Rzaqulu atasının Dağıstana yürüşünü tənqid edərək, bunun mənasız olduğunu, hücumlarda və əks-hücumlarda ordunun əldən düşdüyünü, qida ehtiyatının çatışmazlığından əziyyət çəkildiyini, eyni zamanda İran əhalisinin onun atasının boş qürurunun qurbanı olduğunu bildirmişdi. Bütün bunların casuslar tərəfindən Nadirə çatdırılması və Nik Qadamın da etirafı, onu Rzaqulunun günahkar olduğuna inandırırdı. Lakin şah oğlunu necə cəzalandıracağını bilmirdi – onu öldürmək, gözlərini çıxartdırmaq, yaxud Təhmasib şah kimi sürgün edərək həbsxanada saxlamaq. Bu mərhələdə Nadir onu hətta əfv də edə bilərdi, lakin Rzaqulu o qədər təkəbbürlü idi ki, atasından üzr istəmirdi. Nadir yenə də öz oğlu ilə danış-

mağa çalışdı, lakin Rzaqulu bütün ittihamları boynundan ataraq atasını öldürmək və onun taxtına sahib çıxmaq istəmədiyini və əgər şaha qəsd etmək niyyəti olsaydı, Nadir Hindistanda olanda özünü şah elan edə bilərdi. Nəyə görə Nadiri öldürmək üçün geri dönməyini və nəzarəti yenidən ələ keçirməyini gözləyirdi? Qəzəb və mərhəmət hissi qarışıq Nadir oğlunu üzr istəməyə və itaətkarlığa and içməyə çağırmağa çalışdı, lakin buna müvəffəq ola bilmədi. Nadir oğlunu nə qədər sərt sorğu-suala tuturdusa, bir o qədər də sərt Rzaqulu öz günahsızlığını elan edirdi. Hər ikisi hiddətləndi. Nəhayət, Nadir onun gözlərini çıxartmaqla hədələdi. Bir versiyaya görə, Rzaqulu "onları çıxart və arvadının münasib bir yerinə qoy", – deyə qışqırmışdı.

Nadirin məsləhətçiləri vəziyyəti düzəltməyə çalışaraq deyirdilər ki, bəlkə də bütün bu məlumatlar kinli insanların uydurmasıdır, çünki Rzaqulunun gözlərinin kor edilməsi, yaxud edamı ölkəyə böyük zərbə olardı. Onun qədər bacarıqlı və qabiliyyətli başqa bir şahzadə yoxdu. Lakin Nadirin qəzəbindən çəkinərək, onu əlavə etdilər ki, əgər şahzadə doğrudan da günahkardırsa, cəzalandırılması mütləqdir. Bədbəxtlikdən, sarayda qəzəbdən dəli olmuş şahı cilovlaya biləcək Ələvi xan kimi ikinci bir şəxs yox idi. Uzun tərəddüddən sonra Nadir oğlunun gözlərinin çıxarılmasına göstəriş verdi. Əmr yerinə yetirildikdən sonra Nadir oğlunun gözlərinə baxıb ağlamağa başladı. Savad Kuhda yaralandıqdan sonra Nadir hərəmxanaya çəkilərək 3 gün gözə dəymədi. Həmin müddət keçdikdən sonra şah yenidən divanxanada göründü, bu dəfə o, "İranlılarda mərhəmət və dürüstlük yoxdur" deyərək, şahzadəni qorumaq məqsədilə ona müraciət etmədiklərinə görə saray əhlini qınadı. Nadir qüssədən ağlını itirmiş halda qışqırdı: "Bu necə atadır və bu necə oğuldur?"

## IX FƏSİL

# KƏLLƏLƏRDƏN QÜLLƏLƏR

*Mən alov çarxlarına bağlıyam,*
*hətta göz yaşlarım belə qurğuşun tək qaynamaqdadır.*

***U.Şekspir***
***("Kral Lir")***

Rzaqulunun gözləri kor olandan 3 gün sonra Nadir oğlunun yanına gəldi. O, şahzadənin başını öz sinəsinə qoyaraq onu öpür və göz yaşlarına boğulurdu. Orada olan saray əyyanlarının çoxu da göz yaşlarını saxlaya bilmədi. Əvvəlcə Rzaqulu danışmaq istəmirdi, lakin sonra belə dedi: "Gərək biləsən ki, mənim gözlərimin nurunu almaqla sən özünü kor qoydun və öz həyatını isə məhv etdin". Belə görünürdü ki, Rzaqulu atasının ölümünü planlamaqda günahkar deyildi[1]. Ən həqiqətə uyğun gəlməyən versiyalardan biri bu idi ki, Rzaqulunun öz atasının ölümünü hələ Nadir Hindistandan qayıtmamış, 1740-cı ilin, iyun ayında onlar Heratda görüşməzdən əvvəl planlaşdırmasıdır. Əgər Rzaqulu atasının ölümünü artıq planlaşdırmışdısa, həmin görüşdə nəyə görə belə ehtiyatsız davranırdı? Həmin şəraitdə atasının hüzuruna belə təmtəraqla çıxmaq və onun hiddətinə səbəb olmaq ağlasığmaz görünürdü. Nadirin Rzaqulunu vitse krallıqdan çıxarıb, ordusunu tərk-silah etməsindən və onu mühafizəçilərin

[1] Bir çox müasirin fikrincə, belə idi, onların arasında Mirzə Mehdi, Pere Bazin və Con Malkolm da var idi.

nəzarətində saxlamasından sonra Rzaqulunun atasına qarşı sərtləşməsi fikri həqiqətə daha çox uyğun gəlir. Digər ağlabatan fikirlərdən biri də bu idi ki, Nadirin Hindistanda ölməsi xəbərinin doğru olmadığı bilinəndə, Rzaqulunun ətrafında olan saray əyanları öz məqsədlərinə çatmaq üçün (onlar Nadirin yerinə Rzaqulunun taxta çıxmasını istəyirdilər) Nadiri öldürməyə qərar verirlər. Məhəmməd Hüseyn xan Qacar (Təhmasibin və ailəsinin qatili) və Dilavər xan Teymaninin oğlanları da həmin dəstənin içərisində önəmli yer tuturdu. Bir dəfə onlar Nik Qadamın bacarığını görüb, qəsd planı üçün onun uyğun olduğunu yəqin edirlər; əgər Nik Qadam etiraz etsəydi, onu öldürəcəkdilər. Lakin, plan baş tutmayanda, sui-qəsdçilər təşvişə düşdülər.

Uğursuz qəsddən sonra Teymani qəbiləsindən olan çox sayda əsgərin Nadirin ordusundan qaçması şahı şübhələndirdi. Görünür, Nadirin qəzəbindən qorunmaq üçün canilər yeganə çıxış yolu kimi bütün günahı Rzaqulunun üstünə atdılar. Nadirlə oğlu arasındakı münasibətləri gərginləşdirmək onlar üçün daha asan idi. Onlar Nik Qadamı Nadirə təhvil verdilər ki, Rzaqulunu günahkar çıxaran uydurulmuş hadisəni nəql etsin. Nik Qadam bunu etmək məcburiyyətində idi, əks təqdirdə onun övladlarının başı kəsiləcəkdi. O, çox cəsarətli və bacarıqlı idi, Nadiri inandıra bildi. Rzaqulunun atasına qarşı dikbaş və əyilməz münasibəti, düşünülmüş planın daha asanlıqla istənilən nəticə verməsinə şərait yaratdı. Lakin Rzaqulu kor edildikdə Nadirin əsəbi soyudu və başa düşdü ki, Rzaqulu kimlərsə tərəfindən ya bu işə həvəsləndirilib, yaxud da ona kömək olunub. Qatillərdən bəzisi Təhmasib və onun ailəsini qətlə yetirdiklərinə görə edam olundu. Nadir Dilavər xanın oğlanları da daxil olmaqla qalan cinayətkarları

da öldürtdü. Lakin Məhəmməd Hüseyn xan Qacarı bağışladı. Bəlkə də ona görə ki, Nadir Astrabaddakı qacarların etirazından çəkinir, onlarla problem yaşamaq istəmirdi, amma o da var ki, əgər Nadirin Məhəmməd Hüseyn xan Qacara qəzəbi tutmuş olsaydı, Qacarlar tayfasının üsyan etmək təhlükəsi belə onu qoruya bilməzdi. Məhəmməd Hüseyn xan Qacarın öldürülməməsinin bir səbəbi də Təhmasib şahın və övladlarının qətlindən sonra Nadirlə belə razılığa gəldilər ki, bundan sonra Məhəmməd Hüseyn xan Qacar Rzaqulunun ətrafında dolanaraq Nadirə casusluq etsin. Orada bir nəfər belə xəbər gətirən olmalı idi. Məhəmməd Hüseyn xanı gözü ilə görənlərdən birinin yazdığına görə, 1744-cü ildə o, şahın böyük etimad göstərdiyi əyanlardan biri idi və yüksək titullara sahib idi. Şah taxtına ən yaxın əyanlardan biri, məmurlar məmuru, şahlığın şəriklərindən biri idi[1].

Rzaqulu tamamən günahkar olmasa da, bu işdə müəyyən qədər günahı da vardı. Nadir Hindistandan qayıtdıqdan sonra onu acılaması və alçaltması, Rzaqulunun atasının öldürülməsi ilə bağlı fikirlərini dəyişdi (artırdı). O, ətrafında dolanan əyanların fikirlərini az-çox sezmişdi, lakin bu barədə gedib atasına bir söz deməmişdi. O, adamları şübhəli işlər həyata keçirən ilk şahzadə deyildi, Rzaqulu ağılsız olmasa da, özünü bütün bunlardan xəbərsiz kimi aparırdı. Nadirin ölümündən bir neçə il keçdikdən sonra onun saray tarixçisi Mirzə Mehdi öz keçmiş rəhbəri haqqında əvvəl heç vaxt dilə gətirmədiyi səmimi fikirlərini kağıza köçürmüşdü. O, yazırdı: "Hakimiyyətə gələndən, Xarəzmə yürüşdən qayıdana və Dağıstana yürüşə çıxa-

[1] Məhəmməd Hüseyn xan həm də Nadirin hərəmxanasında ən sevimli xanımlarından biri olan Cukinin atası idi. Ola bilsin ki, Nadir və Cuki izdivac da bağlamışdılar.

nadək, Nadir şah imperiyanın işlərini və ədalət məhkəməsini qayğı ilə idarə edirdi və belə olan təqdirdə İran əhalisi də onu qorumaq üçün canlarından keçməyə belə razı idilər[1], lakin həmin vaxtdan sonra o öz siyasətini (davranışını) tamamilə dəyişdi. Bəzi pisniyyətli casusların, narazı məmurların təhriki ilə ən yaxşı və sevimli oğlu Rzaqulunun gözlərini çıxartdı. Tez və axmaqcasına həyata keçirilən bu qəddar qərardan sonra vicdan əzabı çəkən Nadir sanki ağlını itirdi. Onun hakimiyyəti altındakı torpaqlardan ardıcıl olaraq pis xəbərlər alan Nadirin qəzəbi daha da şiddətləndi".

Bəzi adamlar deyə bilərlər ki, Nadirin tükənmək bilməyən işğalçılıq planları, böyük arzularını həyata keçirmək üçün İran iqtisadiyyatının yetərsizliyi, eləcə də orduya yararlı qüvvələr toplamaqda yüksək qabiliyyətə malik Nadirin indi çətinlik çəkməsi onun sonuncu uğursuzluqlarını qaçılmaz etdi. Lakin insanlar dəyişirdi və Nadir kimi ağıllı insanlar şəraitə baxıb ona uyğunlaşırdılar. Nadirin xüsusən müharibə şəraitində hadisələrə yanaşmada köhnəfikirli olmasına baxmayaraq, o artıq əvvəlki metodlarından imtina edərək, daha orijinal və parlaq yollar axtarırdı. Nadirin öz metodları ilə idarəçilik sistemini yaratması, yaxud dəyişdirərək böyük və uğurlu imperiya qurması, eləcə də onu oğlanlarından və ya nəvələrindən birinə ötürməsi istisna deyildi. Hindistanda olarkən vergiləri bir müddətliyə ləğv etməsi onu göstərirdi ki, Nadir öz metodları ilə məqsədləri arasındakı gərginliyin fərqindədir.

Tarixi hadisələrin ağlabatan səbəblərinin ardınca qaçdığımız zaman biz insan təbiəti üçün səciyyəvi olan tə-

[1] İsfahanın əhalisindən başqa, ölkənin bütün vətəndaşları, hətta xırda azlıqlar belə ölkənin qorunması üçün əllərindən gələni etməyə hazır idilər.

sadüfləri və ehtimalları unuduruq, həmçinin böyük işləri də kiçik qəribəliklərə çevirə bilən səbəb-nəticə arasındakı xaotik əlaqəni də gözardı edirik[1]. Biz bəzən tariximizdə dəmir determinizmi inşa edən, tarixin gedişatında inkişaf prosesinə yox, əslində mental (əqli) prosesə aid olan səbəbləri yüksəklərə qaldırırıq. Determinist tarixdə insan təcrübəsinin həqiqi mahiyyətini üzə çıxarmamaq ehtimalı istisna olunmur. Bu təcrübədə seçim, bəxt, şıltaqlıq və təsadüflər mühüm rol oynayır, bəlkə də üstünlük təşkil edir. Hadisələrin alternativ gözlənilməz inkişafı həmişə mümkündür. Nadir bilirdi ki, hərbi sənayeni inkişaf etdirmək üçün pula və materiallara təcili ehtiyac var. Avropada hərbi inqilab adlanan proses İranda da inzibati və iqtisadi irəliləyişlərin modernləşdirilməsi kimi izlənilirdi. Nadirin seçimi belə idi: daha dəqiq desək, qərara alınan seçimlər prosesi irəliyə götürə bilərdi.

Gördüyümüz kimi, bu istiqamətdə maraqlı addımlar atılmasına baxmayaraq, o öz seçimlərində sabit qalmadı. Bunun səbəbi Nadirin xəstəliyi deyildi, çünki Ələvi xan onu müalicə edib, ağrılarını yüngülləşdirirdi, bu da ona özünü cilovlayıb, dövlət işlərini idarə edə bilməsinə imkan yaradırdı. Əgər o Ələvi xanı başqası ilə əvəz etsəydi, o zaman 1740-cı ilin əvvəllərində yarana biləcək böhranın qarşısını ala bilməzdi. Bu baş vermədi, çünki onun öz daxili problemi vardı: Nadir oğlu Rzaquluya görə dərin iztirab keçirirdi. Oğlunun gözlərinin çıxarılması Nadirin əvvəlki uğurlarının və özünə inamının əsas dayağı olan

[1] Əgər Mazandaran meşəsində Nik Qadamın açdığı atəş, azacıq səmtini dəyişib Nadiri öldürsə idi, 1741-ci ilin yazında Rzaqulu taxta çıxarılacaqdı. Müasirləri Rzaqulunun bacarıqlarını yüksək qiymətləndirirdilər və onun atasının hərbi qabiliyyəti ilə özünün ticari və iqtisadi biliyini birləşdirəcəyinə inanırdılar. Rzaqulu imperiyanı irəliyə, yeni, daha mütərəqqi istiqamətdə inkişaf yoluna apara bilərdi.

qətiyyətini sarsıtmışdı. O, Nadirin qətiyyətini kökündən elə silkələdi ki, şah bir də əvvəlki kimi ola bilmədi[1]. Bunun əvəzinə o dəlicəsinə acının, qəzəbin, işgəncənin dibinə düşdü.

Rzaqulunun gözlərini kor etməsi niyə görə Nadiri bu qədər dərindən yaraladı (silkələdi)? Bəlkə kimsə çox sadə şəkildə deyə bilər ki, o, oğlunu çox sevirdi. Yaxud əvvəldən məqsədə çevirdiyi, sülaləsini gücləndirmək niyyətini özü şikəst qoyduğuna görə. Ya da Nadir keçmiş Səfəvilər dövlətinin modelinə qarşı özünün layihəsi əsasında imperiya quruculuğunu müəyyənləşdirirdi; yalnız Səfəvi şahlarının törətdikləri ən qəddar əməllərdən birini, Şah Abbas kimi oğlunun gözlərini kor etməsini təkrarladı[2]. Bəzisi onun oğlunun gözlərini kor etməsini öz atasının ölümü ilə bağlayırlar, belə ki kiçik yaşlarından atasız böyüyən Nadir ata sevgisindən uzaq düşdü. Buna görə də o oğlanlarına öz məhəbbətini verə bilmədi. Nadirin öz ailəsinə yad münasibəti, düşmənlərə qarşı sipər, dayaq olmaqla, onun yaxınlarına bağlılığını daha da gücləndirirdi. Lakin indi o həmin dayaqları öz əməlləri ilə parçaladı. Bu ehtimallarda həqiqət payı var. Hamısının dediyi bir şey var ki, Rzaqulunun cəzalandırılması, Nadirin xəstə və əsəbi olduğu vaxta təsadüf etdi və şahın qəlbində heç vaxt sağalmayan yaralar qoydu. Psixiatr və eksiztensialist

---

[1] Əbdülkərim Kəşmiri yazır ki, əvvəl həmişə yürüşlərində kütlə önündə, səmimiyyətlə ibadət edən Nadir Dağıstana yürüşü zamanı ibadəti dayandırmışdı, ehtimal olunur ki, o dindən tamamilə uzaqlaşmasa da, onda dinə qarşı mizantropik bir nifrət oyanmışdı.

[2] Bunun hətta daha böyük prototipi Firdovsinin "Şahnamə" əsərində var: Rüstəmin öz oğlu Söhrabı cəzalandırması hekayəsi: Dənizdə balıqlardan çöldə atlara kimi, düzlərdə döyüşlərdən hər kəs onu tanıyır. Lakin o insan ki, öz bədbəxt qürurundan gözləri tutulub oğlunu düşmənindən ayırmaqda çətinlik çəkər. (Cerom V. Klintonun tərcüməsindən, Söhrab və Rüstəmin faciəsi, səh. 119

Viktor Frankl Osvensim düşərgəsində topladığı təcrübəsinə əsasən, Fridrix Nitşenin bu sözlərini ixtibas etməyi çox sevirdi: "Kim ki, həyatda nə üçün yaşadığını dəqiq bilir, istənilən yükü daşıya bilər, ancaq o kəslər ki, bu hissi itiriblər ölümə məhkumdurlar". İrani Xarabda Nadir Rzaqulunun gözlərini çıxartdırmaqla öz dinamikasının əsasını sarsıtdı.

Rzaqulunun yaraları sağalandan sonra Nadir onu Kəlat qalasına göndərdi. 1742 və 1743-cü ilin qışı əzab və nifrət dolu keçdi, Nadir günahının əsəbini Dağıstandakı ruslardan çıxdı. Çox güman ki, ruslar Nadirin ləzgilərə qarşı yürüşünə mane olurdular. Qafqazda belə bir ənənə var idi, ruslar ləzgilərin Nadirə qarşı müharibə apara bilmələri üçün onları silah və sursatla təmin edirdilər. İlk vaxtlar ruslar Nadirin cənub sərhədinə, Terek çayına kimi irəliləməsindən narahat olmuşdular. İndi acıqlı, hirsli və narahat halda Nadir rusların sərhəddində yerləşən və bir vaxtlar həmin ərazilərin İrana aid olduğunu iddia edərək Kızlar qalasını tutmaq barədə müzakirələr aparırdı. Bir fərziyyəyə görə o buradan davam edərək, çeçenlərin köməyi ilə hətta Krıma qədər gedib çıxa bilərdi.

1742-ci ilin noyabrında Nadir ordusu ilə birlikdə İran Xarabda şimala tərəf, Rusiya sərhədlərinə doğru irəlilədi. Maraqlıdır, görəsən onun ordusu ruslarla qarşılaşsa idi, nə baş verəcəkdi? Nadir heç vaxt Avropa hərbi qaydalarında təlim görmüş bir orduyla mübarizə aparmamışdı, buna görə də ehtimal olunur ki, onun qoşunu Qərb hərbi taktikasına qarşı tab gətirə bilməzdi: Xəndək taktikası XVIII əsrin ortalarında formalaşdı. Lakin 1806-cı ildə baş vermiş Yena döyüşünə diqqət yetirək. Həmin həlledici qarşılaşmada XVIII əsrin hərbi sistemini mənimsəmiş Prussiya ordusu, xəndək texnikasını sadələşdirən, yüngül

süvari qoşunu və atıcıları xüsusilə önə çıxaran, manevrlərin sürətini artıran, kəmiyyətə yox, daha çox keyfiyyətə üstünlük verən, ağır artilleriyanın qəfil həmlələri ilə lazımi məqamda həlledici zərbərlər endirməyə qadir olan modern Fransız sistemi tərəfindən məğlubiyyətə uğradıldı. Bu sonuncu təsviri Nadir şahın hərbi sisteminə də eynilə aid etmək olar. XVIII əsrin sonunda Avropada müharibə təcrübəsini formalaşdıran islahatlardan sonra Qərbin ordu quruculuğu Şərq modelinə yaxın olmağa başladı (müstəqil səbəblərdən olsa belə, bir az şüurlu şəkildə edilmiş imitasiya idi). 1742-ci ilin noyabrında həmin döyüş manevrlərini Dağıstan yürüşündə həyata keçirsələr də, bu, Nadirin əsgərlərinin bacardığının ən yaxşısı deyildi. Lakin kim deyə bilər Nadir ordusu Ruslara qalib gəlsəydi nələr baş verərdi.

Nadir şimala yürüşündən sonra osmanlıların Qafqaza qoşun yeritdiyini öyrəndi. İki Osmanlı elçisi Nadirin düşərgəsinə gələrək, Sultandan məktub gətirdi. Məktubda sultan yenidən Nadirin dinlə bağlı təklifini rədd etdiyini bildirirdi. Nadir isə cavabında hədə-qorxu gələrək, bu məsələni həll etmək üçün Sultanla şəxsən görüşəcəyini dedi. Eyni zamanda Şah Bağdada Əhməd Paşaya ismarıc göndərərək, çox mübahisəli şəhəri təslim etməyi əmr etdi. Kifayət qədər təcrübəyə malik olan bu iki şəxs bir-birini çoxdan tanıyırdı. İsmarıca cavab olaraq Əhməd Paşa hədiyyə kimi yaxşı cins ərəb atları və Nadirin tələbini qəbul etdiyini bildirən məktub göndərdi, lakin bu sadəcə baş aldatmaq idi[1]. 1743-cü ilin fevralın 10-da Nadir Osmanlı

---

[1] Bir çox professional müasir Osmanlı tarixçiləri Əhməd Paşanın Nadir şahla dost olduğuna inanır və eyni zamanda onun təslim hiyləsi işlətdiyini təsdiqləyirlər. Əhməd paşanın sadiq olmadığını vurğulamaq üçün bir vaxtlar etibar etdiyi Nizam əl-Mülkün Məhəmməd şaha xəyanətini göstərərək, ona Nizam əl-Mülk ləqəbini verirlər.

kimi güclü düşmənin ona qarşı silahlandığı bir vaxtda, Rusiyaya hücumun mümkün olmadığını anlayıb, cənub istiqamətində, Muğan düzünə tərəf hərəkət etdi. Dərbəndə əfqanlardan ibarət əhəmiyyətli qarnizon saxladı. Gözəl, mülayim havanı qar və şiddətli yağışlar əvəz etmişdi. Dağlardan gələn sel bir neçə dəfə ordunun marşrutundan keçdiyindən, çoxlu sayda heyvan və insan itgisinə səbəb olmuşdu, onsuz da az olan ərzaq ehtiyatı da bundan zərər görmüşdü. Qoşun əsgərlərinin çoxunu itirmişdi. Məzlum ordunun qalıqlarının Muğan düzünə, Kür çayına çatması 40 gün çəkdi. Hələ də hind ipəklərindən paltar geyinən əsgərlərin üst-başları cır-cındır içində idi.

Həmin il Nadirin düşərgəsində Novruz şənliyi məyus keçmişdi; lakin Dağıstan yürüşü bitdiyinə görə əsgərlər arasında bir rahatlıq hökm sürürdü. Ləzgilər döyüşlərdə İran ordusuna üstün gələ bilməsələr də, eyni zamanda iranlılar da düşməni tamamilə məğlub edə bilməmişdilər, ləzgilərin daxilində müqaviməti davam etdirən və təslim olmayanlar vardı. Bütün həyatı boyu, apardığı mübarizələrdə ləzgilər yeganə qəbilə idi ki, dimdik duruş sərgiləyərək, Nadiri geri çəkilməyə məcbur etmişdi: Tarixdə unudulmuş partizan müharibələrinin verdiyi dərs sanki yenidən təkrarlanırdı (Napoleonun İspaniyada, ABŞ-ın Vyetnamda məruz qaldığı). Aprelin 18-də Nadirin başçılığı altında ordu cənuba tərəf hərəkətə keçdi. Təbrizi keçərək mayın 18-də Mərivana çatdı, burada Məşhəddən onu qarşılamaq üçün gələn Nəsrullah, İmamqulu və Şahruxla görüşdü. Dehlidən gələn, müxtəlif naxışlarla bəzədilmiş qapı və digər hədiyyələr gətirən elçi də şahzadələrlə birlikdə idi. Onların hamısı bir yerdə Sənandaşa doğru istiqamət aldılar. Burada onlar Bağdada basqına hazırlaşırdılar. Nadir yaxşı mühasirə qurmaq üçün güclü

artilleriyasını əvvəlcədən göndərdi, eyni zamanda yüzlərcə əsgər Həmədan, Kirmanşah istiqamətində irəliləyirdi. Osmanlılara qarşı müharibəyə başlamaq, Nadiri İslam dünyasının bir nömrəli şəxsiyyətinə çevirməyə hesablandığı üçün çox vacib idi. Həmin yürüşə hazırlıqlar apokaliptik ölçüdə idi.

Nadirin vergi məmurlarından biri 1743-cü il yürüşündə ordunun rayonlar üzrə illik hesabatını hazırlamışdı. Xanvey məlumat verirdi ki, həmin məmur bir il sonrakı hesabatında Nadir ordusunun şəxsi heyəti haqqında rəqəmlər də öz əksini tapmışdı. Onun tərəfindən hazırlanan sənəddə təəccüblü olsa da, qoşunun 375 000 nəfərdən ibarət olduğu ortaya çıxdı. Bura türkmənlərdən və özbəklərdən ibarət 60 000, əfqanlardan və hindlilərdən ibarət 70 000, Xorasandan 65 000, İrandan 120 000 (Kürdüstan, Həmədan, Loristan, Fars və Xuzestan), Azərbaycandan və Qafqazdan 60 000 nəfər daxildir. Siyahıya həmçinin xidmətçilər və düşərgə müşayiətçiləri də daxildi. Lakin bəzi müəlliflərin fikrincə, əsgərlər xidmətçilərin maaşını öz məvaciblərindən ödəməli idilər. Həmin qeydlər bütün ordunun deyil, döyüşən əsgərlərin ödəmə dərəcəsini izləmək üçün aparılırdı. Çıxarılan ümumi məbləğ əyalətlərdəki qarnizonlara şamil deyildi: məsələn Nadir Dərbəndə əfqanlardan ibarət qoşun saxlamışdı, eləcə də Kirmanşahdakı yeni güclü mühasirə artilleriyasının da uçotu ayrıca qeyd edilirdi. Nadir yaxşı bilirdi ki, İraqda Osmanlının nəzarətində olan kiçik şəhərlərə hücum edib, nəzarəti ələ keçirmək üçün ona çox sayda yaxşı təlim görmüş muşketyorlar, eləcə də çevik süvari dəstələri və böyük şəhərləri ələ keçirməyə imkan verən bahalı mühasirə silahları lazımdır. Nadir yeni yürüşə hazılaşmaq üçün əyalət hakimlərindən, öncəki aylarda Dağıstanda, qərb

vilayətlərində itirilmiş qoşunun əvəzinə, yeni qüvvələr göndərməyi tələb etdi. Bu cür nəhəng ordu böyük gücü təmsil edirdi. O, növbəti dekadada Avropada başlayan Yeddi İllik Müharibənin baş qəhrəmanları olan Avstriya və Prussiyanın, ikisinin birlikdə ordusundan daha çox idi. Lakin xərcləri də olduqca ağır idi. Bunun bəzi əlamətləri hələ Nadir Dehlidə böyük qənimətlər əldə edərək ölkədə 3 illik vergilərin ləğv olunması ilə bağlı hökm verəndə üzə çıxmışdı, 1736-cı ildən ordunun İrandan kənarda olması, qısa müddətə də olsa ölkədə iqtisadi dirçəlişə və rifahın yaxşılaşmasına gətirib çıxardı. Lakin buna baxmayaraq Nadir Türküstan yürüşünün xərclərini Hindistandan taladığı sərvətdən deyil, ayrıca büdcədən ödəmişdi. Dağıstan yürüşünün xərclərinin də çox olması inzibati işlərə baxan məmurların vergiləri çoxaltmasını tələb etdi. Nadir bunun necə ağır nəticələri olacağını bilməli idi: bəlkə də, onun vecinə belə deyildi. Yəqin dolayı yolla da olsa, oğluna etdiklərinin əvəzini ölkədən, əhalidən çıxırdı.

Bağdad yürüşünə hazırlıqlar, 1740-cı ildən bəri ağır olan vəziyyəti daha da dərinləşdirdi. Vergi toplayanlar[1] insanları evlərini, mallarını belə satmağa məcbur edir, əllərində olan hər şeyi mənimsəyib onları dilənçi vəziyyətinə salırdılar. Mübadilə üçün kifayət etməyən pulun dəyəri tamamilə ölürdü, insanlar vergiyığanlardan canlarını qurtarmaq məqsədilə uzaq səhralara və dağlıq ərazilərə qaçırdılar, bir qisim qərbə Bağdad və Bəsrəyə, qalanları isə Şərqə – Hindistana mühacirət edirdilər. Hesablamalara görə 1740-cı ildə ticarətin ümumi həcmi 1722-ci illə müqayisədə 5 dəfə, əhalinin sayı isə 3 dəfə aşağı düşmüşdü. Nadir 1736-cı ildə Qəndəhara gedəndən bəri İranda nisbi sakitlik hökm sürürdü, lakin indi amansız vergi siyasəti,

[1] Mohassillər.

narazılıqlar, ümidsizliklər, 1730-cu illərdə olduğu kimi yeni üsyan dalğalarına səbəb olacaqdı. Bir dəfə Nadirin çadırına oxa sancılmış kağız atılır. Həmin kağızda Nadir tiranlıqda, Allahsızlıqda ittiham edilir, iztehza ilə onun şeytan, Allah, tiran, şah, yoxsa peyğəmbər olması soruşulur. Nadir isə cavabında "Mən nə Allah, nə şeytan, nə tiran, nə də ki peyğəmbər deyiləm. Mən zalım nəsli cəzalandırmaq üçün Allah tərəfindən göndərilmişəm". Sonra o əmr edir ki, həmin sözlər kağıza köçürülsün, göndərilən kağızla birlikdə düşərgənin görünən bir yerində nümayiş olunsun. Buna digər sübut isə Nadirin öz geyimində Şahların cəza rəngi hesab etdikləri və Səfəvi şahlarının ədalətsiz ölüm cəzalarını izlərkən geyindikləri qırmızı rəngdə paltara üstünlük verməsi idi. Qorxu, zəhm və itaətkarlıq hissini aşılamaq üçün Nadirin çadırının və əsgərlərinin forması da qırmızı rəngdə idi.

Osmanlı İraqına yürüş xəbərdarlığı kimi, Nadir əvvəlcə Bağdad və Bəsrənin ətrafındakı torpaqları – Samirə, Nəcəf, Kərbəla və Şət əl-ərəbi tutmaq üçün əvvəlcə ora dəstələr göndərdi. Cənub-Qərb əyalətlərinin hakimləri və qoşun Bəsrənin mühasirəsi üçün təlimatlandırıldı. İyulun 1-də, silah sursatla, ərzaq ehtiyatları və digər şahzadələrlə birlikdə Nəsrullah Həmədana tərəf irəlilədi, ordunu ərzaq ehtiyatı ilə təmin etmək məqsədilə, böyük həcmdə taxıl tədarükü görəndən sonra onların arxasınca Nadir də yollandı. Bəzi osmanlı məmurlar qaçdılar, lakin digərləri kürd məmurlarla bir yerdə iranlılara tabe olduqlarını bildirdilər. Əhməd paşa Kərkükə çatdı. Burada qarnizon şəhəri tərk etmiş, qəsrə çəkilmişdi. Nadirin mühasirədə istifadə edilən hava topları 5 gün sonra gəldi və gündoğandan günbatana qədər 4 tərəfdən qalanın ətrafında səfərbər edildilər, bundan sonra osmanlılar təslim oldular. Nadir

onlara mərhəmət göstərdi. Qısa müddətə qoşun İrbili də tutdu, şimala doğru irəliləyib, Mosula nəzarəti ələ keçirdilər. Kərkükdə olarkən Nadir Osmanlı sultanından sərt ismarıc aldı. Sultan fətva verərək müsəlmanlara iranlıların öldürülməsinin, qula çevrilməsinin halal olduğunu, İranda yaranan yeni məzhəbin həqiqi imandan uzaq olduğunu elan etdi. Nadir Əhməd paşa ilə əlaqəyə girib, Osmanlı İraqını tutmaqla düşmənin təslim olacağına ümid bəsləyirdi, lakin tamamilə əksinə oldu, Osmanlı sultanı Nadirə meydan oxumağa başladı. Kərkükün istilasından sonra İstanbulda iğtişaşlar və üsyanlar başladı, buna baxmayaraq, özünü heç nə olmamış kimi aparan sultan sentyabrın 23-də İstanbulda sədrəzəmi başqası ilə əvəz etdi. Nadirin ordusu Mosula çatdı, cənub-şərq tərəfdə, daha doğrusu Dəclə çayının şərq sahilində düşərgə saldırdı, sentyabrın 14-də şəhər mühasirəyə alınmağa başlandı. İranlılar ora çatan kimi, Osmanlının Mosuldakı qarnizonu ilə aralarında toqquşma oldu, həmin döyüşdə Nadirin ordusu qalib gəldi və türklərin geriyə yolunu kəsdi. Şəhərin aşağı və yuxarı tərəfində körpülər tikilmişdi, Nadir Mosulun qala divarlarının ətrafına, üzü qüllələrə tərəf, 14 artilleriya topunun hazır vəziyyətdə qoyulmasını əmr etdi. İran ordusunun tərkibində 230-u hava topu olan, 390 ədəd ağır artilleriyası vardı. Mühasirə silahları sarıdan heç bir çətinliyi yox idi. İran ordusu 8 gün ərzində Mosulu bombardman etdi, hava toplarının dəhşətli zərbələrindən sonra şəhər xarabalığa çevrildi[1].

[1] Həmin dövrün adi silahlarından fərqli olaraq bərk dəmir toplar yerdən, nisbətən düz trayektoriyadan atəş açırdılar, içi barıtla doldurulmuş hava topları isə hədəfi yüksək trayektoriyadan vurur və yağış kimi yayılaraq ətrafı partladırdı. Bir qədər fərqli görünüşə malik müasir hava topları da hədəfi yüksək trayektoriyadan bombalayırdı.

Müdafiəçilərin çoxu xristian idi, yerli əhali qonşu kəndlərə qaçmışdı, Nadirin adamları onları qarət etmiş, ev-eşiklərini yandırmışdı. Qaçqın düşmüş müsəlmanlarla yanaşı, yezidilər də vardı, onların hamısı həvəslə şəhərin müdafiəsinə qalxmışdılar. Dağıstandakı kimi, Nadirin əhali ilə sərt davranışı ona qarşı müqaviməti fəallaşdırdı. Şəhər bombardman edildikdən sonra Nadir bütün artilleriyanı şimal-qərb istiqamətindəki şəhər divarlarına doğru cəmləşdirdi və onların atəşi müvəffəqiyyətli alındı, şəhərə böyük zərərlə nəticələndi. Lakin müdafiəçilər öz komandirlərindən ilham alaraq, böyük əzmlə çalışıb, dağılmış divarların yerinə kərpicdən hasarlar ucaltdılar.

İranlılar Mosul divarlarının altını qazaraq ora minalar yerləşdirmişdilər. İran ordusu bombardmana başlayanda minaların da partlaması nəticəsində daha böyük zərər dəymişdi, lakin minanın mühüm hissəsinin valı lazımınca doldurulmadığından və düzgün qoyulmadığından, minanın bir qismi hücuma hazılaşan İran hərbi qüvvələri tərəfə partladı. Çox sayda əsgər öldü və yaralandı. Mina əməliyyatı müvəffəqiyyətlə həyata keçirilən yerlərdə belə ruhdan düşməyən müdafiəçilər cəld hərəkətlə qala divarının dağıdılmış hissələrini yenidən düzəltməyə çalışırdılar. Məyus halda Nadir kütləvi qətliamlara başladı, Mosulun ətrafındakı kəndlərin yandırılmasını əmr etdi və bir neçə gün ərzində əhali şəhəri tərk etdi. Daha sonra Nadirin əmrinə əsasən yeni hücum başlandı, belə ki, minlərcə əsgər nərdivanlarla qala ətrafına yaxınlaşdı, onlar cəld hərəkətlə şəhər divarlarını aşmağa çalışırdılar. Lakin müdafiəçilər buna imkan vermirdi. Həmin hücum uğursuzluqla nəticələndi və İran ordusu təxminən 5000 əsgər itirdi. Bu mərhələdə Nadir çalışırdı ki, osmanlılarla açıq danışıqlara girsin, lakin düşmən komandirləri meydan

oxuyarcasına buna əhəmiyyət vermirdilər. Osmanlı ordusunun müdafiəçiləri şəhəri layiqincə qoruyur, əvvəlki görkəminə qaytarmağa çalışırdılar. Nadirin göndərdiyi elçilər şəhərlə bağlı təəssuratları soruşulduqda, onlar əhalidə müqavimət ruhunun yüksək olduğunu deyirdilər. Uzun danışıqlardan sonra təəccüblü olsa da, Nadir osmanlılara sülh təklif etdi. İran tərəfindən müzakirələrdə çıxış edən molla, Osmanlı komandirlərinə Nadir şaha atlar və müxtəlif hədiyyələr verilməsini eyham etdi.

Osmanlı imperiyasının nümayəndələri sülh təkifinin şərtlərini İstanbula, sultana çatdıracaqlarını bildirdilər. İranlılar igidliklərinə görə Mosulun müdafiəçilərini təriflədilər. Osmanlı sultanından gələn məktubda Nadirin ordusu ilə birlikdə Osmanlı-İran sərhədinə çəkiləcəyi təqdirdə Əhməd paşa ilə sülhün şərtlərini müzakirə edəcəyi bildirilirdi. 1743-cü ilin oktyabrın 20-də Nadir qoşunu Mosuldan geri çəkdi. İran ordusu Osmanlı torpaqlarında qalaraq Kərkük yaxınlığında, lakin İran sərhəddinə olduqca yaxın bir yerdə düşərgə saldı. Bu xəbər İstanbulda böyük sevinclə qarşılandı. Lakin Bəsrənin mühasirəsi hələ də davam edirdi və Mosuldan çıxarılan hava topları ora göndərilmişdi.

Nə baş verdi? Bu, 1 ilə yaxın Qəndəharın mühasirəsini davam etdirən və Xudayar xanı Hind çayı boyunca və onun hüdudlarından kənarda təqib edən Nadirə bənzəmirdi. Osmanlı İraqına hücum zamanı Xudayar xan böyük qoşunla Nadirin yanında idi, həmçinin Hindistan yürüşündə şahı müşayiət edən veteranlar da osmanlılara qarşı müharibədə iştirak edirdilər. Təkcə Mosula 200 000 əsgər yeridilmişdi. Nadir şahın ordusunun həmin dövrdə dünyanın ən güclü hərbi qüvvəsi olduğunu demək əda-

lətli olardı[1]. Osmanlılara qarşı yürüşə hazırlıq çox əziyyətli olmuş, Nadirə olduqca baha başa gəlmişdi. Bu yürüşdə Nadirin məqsədi 1732-ci ildə III Abbasın tacqoyma mərasimində verdiyi sözü yerinə yetirərək Osmanlı sultanını itaətə gətirmək, Dehli və Buxaradakı kimi qaydalar tətbiq etməkdi. Lakin nə qədər təəccüblü olsa da, bu qüdrətli ordu sadəcə 40 günlük mühasirədən sonra geri çəkildi.

Bunun bir neçə səbəbi vardı. Əvvəla Nadirə çətinlik törətmək üçün, osmanlılar saxta Səfəvi iddiaçılarını ortaya çıxarmış, Şirvan və Dərbənddə üsyanlara nail olmuşdular. Eyni vaxtda Nadir həm Xarəzmdən, həm də Omanda Tağı xanının xoşagəlməz davranışları ilə bağlı narahatedici xəbərlər almışdı[2]. Lakin 1743-cü ildə baş verən bu hadisələr çox da əhəmiyyətli deyildi. Nadir onların mühüm olmadığını düşündüyü üçün birbaşa İrana qayıtdı, 1744-cü ilin yanvarın sonuna kimi sərhədi keçmədi. Başqa bir səbəb kimi Mosulun igid müdafiəçilərinin Nadirin və onun adamlarının əzmini sındıraraq, məğlub etməsi göstərilir, lakin elə həmin iranlılar keçmişdə neçə belə uğursuzluqları dəf etmiş, uzun müddət müqavimət göstərən düşməni mühasirəyə alaraq dəfələrlə qalib gəlmişdilər. Nadirin ordusu Mosulda böyük itgilər verdilər, artilleriya şahın gözlədiyi qədər uğur gətirə bilmədi. Artilleriyaya yüksək məbləğdə investisiya qoyuluşundan sonra belə bir nəticənin olması Nadiri çox məyus etmişdi. Mühasirə zamanı Nadir heç vaxt sakit olmurdu, lakin belə məqamda uğur əldə etmək üçün təmkinli və hazırlıqlı olmaq lazım idi. Səbrli olmaq onun işi deyildi, ona xas olan cəhətlər

[1] Buna baxmayaraq, qabaqcıl Avropa ölkələri mühasirə müharibəsində daha güclü idilər.

[2] 1938-ci ildə Lokkartın yazdığına görə, həmin ərəfədə Nadir həm də Çin imperiyasının Transoxianaya hücumu ilə bağlı xəbərdən narahat olmuşdu.

cəsurluq, ceviklik və əsəbilik idi. Çox güman ki, bu, Nadirin ağrılı və çətin xəstəliyindən irəli gəlirdi. Lakin bunlar əvvəllər Nadirin qətiyyətini sındıra bilmirdi, o başladığı işi uğurla bitirirdi. Amma ən münasib izahat bu idi ki, İran Xarabdan sonra Nadir heç nəyi ürəkdən etmirdi. Onun artıq böyük hərbi qüvvəni idarə etmək iradəsi tükənmişdi. Nadirin Mosuldakı mühasirəni dayandırması, oğlunun gözlərinin kor edilməsindən bir il sonra baş verməsi təsadüf ola bilməzdi.

Bu, artıq Nadirin uzun fəthlər siyasətinin dönüş nöqtəsi demək idi: sızıltı partlayışdan daha yaxşıdı. Müharibəni dayandırmaq onun öz seçimi idi, burada başqa bir amil yoxdur. Onun uydurduğu qılıncı, topladığı, hərtərəfli təmin etdiyi böyük ordusu burada idi: qüdrətinə və sayına görə vahimə oyadan, məğlubedilməz ordu Nadiri hər yerdə izləməyə və əmrlərinə tabe olmağa hazır idi. Osmanlı İraqının böyük hissəsi onun əlində idi, qalan şəhərlərin də zamanla təslim olacağını gözləyə bilərdi. Nadir yaxşı bilirdi ki, Osmanlı İraqının sakinlərinin içində onu dəstəkləyənlər də var, vilayətin hakimi Əhməd paşa belə osmanlılara kifayət qədər sadiq rəhbər deyil. Bunu nəzərə alan Osmanlı hökuməti İstanbuldan şaha qarşı yeni qüvvə göndərə bilərdi, lakin Nadir vaxtilə onları məğlub etmişdi (ola bilsin ki, yenə də şah qalib gələ bilərdi). Məğlubiyyətlərdən və paytaxtdakı xoşagəlməz iğtişaşlardan silkələnən və təzyiqlərə məruz qalan Sultan Mahmud rejimi təhlükə altında idi. İstanbula uğurlu yürüşün mümkünlüyü real idi; ən azı 1737-1738-ci illərdə Qəndəharda ilişib qalan İran ordusunun Dehliyə gerçəkləşən yürüşü kimi. İstanbulda Nadiri böyük əzəmət gözləyirdi: zəngin xəzinə, yeni torpaqların ələ keçirilməsi və bəlkə də bütün İslam dünyasında xəlifəlik. Lakin o, həmin əzəməti

ötürəcəyi oğlunu məhv etmişdi. Mənən sındırılmış Nadir taleyin bu hədiyyəsindən kənarda qaldı.

Nadir düşərgəni və ordunu tərk edərək xanımları və keşikçilərdən ibarət süvari dəstə ilə birlikdə Kazemein, Moazzam, Kərbəla və Nəcəfdəki şiə türbələrini ziyarətə getdi. Şahın arvadları şiə türbələrinə qiymətli bəxşişlər hədiyyə etdilər. Şah Sultan Hüseynin qızı Raziyə Begum Kərbəladakı türbənin təmirinə külli miqdarda vəsait verdi. Baba Əli xanın qızı Gövhərşad Nəcəfdəki məscidə qızıldan günbəz qoydurmaq üçün daha yüksək məbləğ bağışladı[1]. Bu ianələr, Nadirin xanımlarının onun həyatının müasir hesablarının bir parçası olduğunu göstərir. Bu iki qadın arasında böyük rəqabət vardı, onlar daha çox bəxşiş vermək üstündə bir-biri ilə yarışırdılar. Həmin rəqabət başadüşülən idi. Gövhərşad Əfşar qəbiləsinin başçısının qızı, Nəsrullahın anası idi. Onun bacısı Nadirin ilk arvadı olmuşdu. Gövhərşad Nadiri uşaqlığından, Əbivərddən sərrast atıcı və gənc zabit kimi tanıyırdı. Raziyə Begum isə şah qızı idi, o, saraya Nadirin nifrət bəslədiyi İsfahandan gəlmişdi. Və o (bildiyimiz qədər) uşaqsız idi[2].

Gövhərşadın böyük miqdarda bəxşiş verməsi hərəmxanada onun ən zəngin olduğunu göstərir, lakin o da məlumdu ki, həmin vaxt Nadirin sevimliləri gənc xanımlar idi. Təəssüf ki, Nadirin xanımları və onlarla münasibətləri barədə çox az məlumatımız var. İnformasiyalar bəzən təhrif olunmuş şəkildə çatdığına görə Nadirin əsl şəxsiyyəti ilə bağlı dolğun məlumat ala bilmirik. Bilirik ki, Nadir

---

[1] Bu, Müqtəda Sədrin polisləri tərəfindən işğal edilmiş və 2004-cü ildə ABŞ tərəfindən mühasirə olunan həmin günbəzdir.

[2] Voc verdiyi xəbərə görə 1731-ci ildə, Məşhəddə Nadirin Raziyə Begumdan oğlu dünyaya gəlir, lakin onun kimliyi məlum deyil. Bəlkə də bu şayiə idi, yaxud da uşaq körpə ikən vəfat etmişdi.

hündür boylu, yüksək səsli məğrur bir şəxsiyyət olub. Lakin o, hərəmxanasına çəkiləndə, öz müasirlərinin gözündən itdiyi kimi, bizim də gözümüzdən itir[1]. Burada bizim güman etdiyimiz bəzi eyhamlar var. Elə kişilər var ki, real həyatda uğur qazana bilməyib, hərəmxanada tirana bənzəyirlər. Nadirin belə olmadığına dair bəzi ehtimallar var. Nadir şah hərəmxanada bütün qayğılardan uzaqlaşaraq dincəlir, gün boyu məşğul olduğu məsələləri unudaraq xanımları ilə gülür, əylənir, öz sakit səsləri ilə mahnı oxuyaraq ona rahatlıq bəxş etmələrinə icazə verirdi. Əlbəttə ki hərəmxanadakı bu əyləncəli həyat ona yumşaq təsir edirdi, lakin son vaxtlar qadınlar belə Nadirə kömək olmurdu. Lakin Nadirin onların yanında nə qədər rahat olub-olmadığını da dəqiq bilmirik.

Kərbəlada Nadir yəqin ki, türbənin ətrafında dövrə vurmaq ayinini yerinə yetirib. Lakin Nadirin həmin türbələrin içinə baxıb baxmadığı haqda məlumat yoxdur. Nadir Nəcəfdə İraqdan və imperiyanın hər tərəfindən gəlmiş sünni və şiə alimlərinin və hüquqşünaslarının toplantısına başçılıq etdi. Orada Bağdaddan gələn, Əhməd paşanın hadisələri müşahidə etmək, baş verənlərdən xəbərdar olmaq üçün göndərdiyi xüsusi nümayəndə heyəti də vardı, Nadir öz iclaslarının səbəbini belə izah etdi: "Zənnimcə, mənim ərazilərimdə iranlıları kafir adlandıran iki bölgə var: Əfqanıstan və Türküstan. İmansızlıq iyrəncdir və mənim səltənətimdə olan xalqların kafir adlandırılması yolverilməzdir. Mən kafirliklə bağlı bütün ittihamları aradan qaldırmaq üçün şahidlərdən ibarət 3 qrup nümayəndə göndərəcəm. Siz eşitdiyiniz, gördüyünüz hər şeyi mənə

[1] Lakin burada bir istisna hal var, ömrünün sonunda biz Nadiri hərəmxanasında izləyə bilirik.

xəbər verməlisiz, öz növbəsində məlumatları Əhməd xana da çatdırmalısız".

Osmanlı tərəfdən göndərilən elçinin sonradan yazdıqlarında deyilir ki, Nadir hələ də yaraşıqlı kişi olmasına baxmayaraq, üzündə qocalığını bildirən əlamətlər vardı; onun gözləri saralmış, dişləri tökülmüşdü[1], 80 yaşlı kişiyə oxşayırdı. Yaxın keçmişdə baş verən hadisələrin narahatlığının və gərginliyinin əlamətləri Nadirin zahirində özünü göstərirdi. Həmin ərəfədə qaraciyərindən fransız yezuiti Damien ata tərəfindən müalicə olundu. Bu təsvir və sonrakı illərdəki əlamətlər onun sarılıq xəstəliyindən əziyyət çəkdiyini göstərir. Ehtimal ki, o bir neçə il əvvəl malyariya xəstəliyinə yoluxduğu üçün sonradan sarılığa tutulmuşdu. Nəcəfin konsulu ilə məqsədlər üst-üstə düşürdü. Belə ki, Nadir imperiyanın bütün baş ruhanilərini eyni əsasda birləşdirərək, əvvəl olduğu kimi, onlar arasında birlik yaratmaq istəyirdi: ekstrimal anti-sünni ənənələri tərk olunmalı, sünnilüklə uyğunluq bərqərar edilməli idi. Sünnilərlə şiələr arasındakı problemləri həll etmək və bu nifaqı aradan qaldırmaq həm ordu üçün, eyni zamanda həm də imperiya əhalisini belə təsirlərdən uzaqlaşdırmaq üçün olduqca vacib idi. Bu, həmçinin Nadirin İran imperiyasında sünnilik məzhəbini tamamilə tətbiq etdiyini Osmanlı imperiyasına nümayiş etdirmək, İstanbuldan gələn əvvəlki fətvanın aradan qaldırılmasına nail olmaq, osmanlıların yeni məzhəbi tanıması və təsdiq etməsi üçün nəzərdə tutulmuşdu.

[1] Başqa bir mənbədə də Nadirin dişlərinin tökülməsi ilə bağlı məlumat var, bunun səbəbi onun şirniyyata çox düşkün olması idi. (Onun Bazin planının düşərgəsində şirniyyatın saxlandığı çadır, aşpazla həkimin çadırının ortasında yerləşdirilmişdi.) Əbdül Kərim Kəşmirinin dediyinə görə, Nadir azı dişlərinin hamısını itirmişdi, yeməyi çeynəmədən udurdu, bu isə öz növbəsində həzm prosesində problemlər yaradırdı.

Müzakirələr əsnasında baş molla öz nitqi ilə tamamilə mühafizəkar sünnilüyə uyğun olduqlarını Nadirə nümayiş etdirdi. Şübhələnən bəzi sünni alimlər dodaqlarının altında, ilk üç xəlifəni lənətləyən iranlıların tövbəylə bundan tamamilə azad ola bilməyəcəklərini mırıldamağa başladılar. Lakin Nadirin təzyiqi ilə hərəkət edən baş molla səthi də olsa onları razılığa gətirmək üçün kifayət qədər tədbirli idi və bütün nümayəndələrin yazılı sənədi (ratifikasiya) imzalamalarına nail oldu. Hadisəyə dini əhəmiyyət vermək üçün imzalanma prosesi İmam Əlinin türbəsinin üstündəki örtünün altında həyata keçirildi. Lakin sənəddə birmənalı olmayan ifadələr də vardı, onlardan biri İmam Əlinin bir fikrinə istinadən yazılmışdı və təxminən belə idi: İlk iki xəlifə saleh imana malik olmuş, dini qaydalar əsasında yaşamış və ölmüşdülər; eyni zamanda onların tiran və ədalətsiz olduqları, həqiqi imanın əksinə yaşayıb öldükləri də qeyd olunmuşdu. İmzalama mərasimindən sonra Osmanlı elçilər baş mollanın dini ibadəti başqa cür icra etdiyini gördülər. Bunun səbəbini soruşduqda molla duaların Cəfəri məzhəbinə uyğun şəkildə oxunduğunu bildirdi. Bu, Bağdaddan gələn nümayəndəni dəhşətə gətirdi (qorxutdu): görünür, bu mübahisəli məsələ barədə əvvəl bəhs olunmamışdı. O, iranlıların radikal sünni məzhəbinin dərinliklərində yenə də öz əvvəlki inanclarını və təcrübələrini gizlədirlər.

Nadir oradakı bütün din xadimləri ilə zahirən razılığa gəlmişdi, lakin hər kəs evinə getdikdən sonra onlar yenə də əvvəlki ibadətlərinə davam etdilər. Bu razılaşma demək olar ki, heç nəyi dəyişmədi. Bu anlaşmadan sonra baş verən yeganə önəmli hadisə qalib ordunun İstanbula gəlməsi oldu. Nadir burada Osmanlı sultanını özünə tabe etdirərək onu bütün İslam dünyasının xəlifəsi, Allahın

Yerdəki kölgəsi adlandırdı. Amma Mosulda olanda o, bu layihədən üz döndərmişdi. Bu müddət ərzində Nadir Əhməd paşa ilə sülhün şərtləri haqqında danışıqlar apardı. Danışıqlar bütün detallarına kimi bilinməsə də, məlumdur ki, bura iranlıların Osmanlı İraqından çıxarılması, Nadirin israrla təkid etdiyi Kəbədə beşinci sütun məsələsindən imtina etmiş olması daxildir. Lakin cəfəri məzhəbinə dair tələbi saxlandı. Şərtlər razılaşdırıldı, təsdiq üçün Osmanlı sultanına təqdim olundu. Nadir Bəsrənin mühasirəsinin dayandırmasına dair əmr verdi, bu proses dekabrın 8-də həyata keçirildi. Noyabrın sonunda ağır artilleriyanın gəlməsinə, iranlıların şəhəri bombalamasına və böyük qətliamlar törətməsinə baxmayaraq, Mosulda olduğu kimi, burada da uğur qazana bilmədilər. Sülh danışıqlarının nəticəsi məlum olanadək Nadir Ərbildəki qoşunu da geri çəkərək, sərhədə yaxın ərazidə cəmləşdirdi. Bu, Nadir üçün səciyyəvi olmayan bir hərəkət idi. Nadir ümid edirdi ki, sultan cəfəri məzhəbini tanıyacaq, bununla da, Nadirin ləyaqətli şəkildə geri qayıtmasına imkan yaranacaq. Lakin belə olmadı. 1744-cü il yanvarın 30-da o, Kirmanşaha yollandı, İranın müxtəlif yerlərindən gələn üsyan xəbərləri onu qıcıqlandırdı. Buradan Həmədana tərəf hərəkət edən Nadir bir müddət şəhərin şimal hissəsində düşərgə saldı. Öz düşərgəsində olarkən şah üsyan haqqında aldığı xəbərləri təhlil edir və müvafiq əmrlər verirdi. 1744-cü ilin martın 21-də təntənə ilə Novruz bayramını qeyd etdi. İngilis tacir Conas Hanvey martın 28-də şahın düşərgəsinə gəldi və təxminən 8 gün burada qaldı[1].

[1] Vətəninə qayıtdıqdan sonra 1753-cü ildə kitab yazdı, bu təhriflərinə, qüsurlarına, qərəzli mühakimələrinə baxmayaraq, uzun illər Nadirin şahlığı haqqında ingilis dilində yazılmış əsas mənbələrdən biri oldu. Bir neçə ildən sonra Hanvey öz səyahətləri haqqında İngiltərədə kitab dərc etdirdi, Samuel Consonla çay içə-içə dəb haqqında fikir mübadiləsi aparırdı. Güman edilir

Hanvey sonradan düşərgəni və orada həyatın axarını təsvir edən yazı yazdı.

Nadirin düşərgəsi həmişə eyni qaydada qurulurdu[1]. Mərkəzdə həmişə divanxana yerləşirdi, onun ətrafında iştirakçılar otururdu, burada məhkəmə proseslərinə baxılır, şahın rəsmi işləri icra olunurdu. Şah qısa fasilərlə, səhər saat 7-dən 10-a kimi divanxananın işlərinə rəhbərlik edirdi. Nadir çay süfrəsinin menyusunu özü müəyyənləşdirirdi; ehtimal olunur ki, bu dəyişiklik onun saray həkimi Ələvi xandan irəli gəlirdi. Artıq kişi içki məclislərindən tamamilə imtina edən Nadir xanımları və uşaqları ilə daha çox vaxt keçirmək üçün günün sonunda birbaşa hərəmxanaya gedirdi. Qəhvəyi qırmızı çadırla əhatələnən divanxana, hər birinin üstündə qızıldan kürə olan 3 böyük sütun üzərində qurulmuşdu. İnteryeri olduqca sadə dizayn edilmiş çadırın qapısı (qabağı) sərt havada belə açıq olurdu. Çadırın qabağı cəza və edamlar üçün nəzərdə tutulan böyük boş sahəyə açılırdı, başqa bir tərəfdə isə darvaza var idi, gözətçilər oradan insanları şahın qəbuluna ötürürdülər. Darvazanın o biri tərəfində də boş sahə vardı, çadırı üç tərəfdən əhatələyən həmin yerdən gözətçilər istifadə edirdi. Çadırın ətrafındakı açıq sahələrdən biri, yəni gözətçilərin arxasında şəhzadələrin çadırına yol var idi. Digər tərəfdə ipəkdən, iki nəhəng bayraq dayanırdı, çox ağır və böyük olduğundan 12 nəfər onu güclə daşıyırdı. Səhərlər həmin bayraqların hərəkət etdirilməsi düşərgənin oyanmasına xidmət edirdi və yü-

ki, Conson Hanveyə xarici ölkələri çox gəzdiyi üçün müəyyən nüfuz qazandığını deyib (Taylor 1985, səh. 54). Hanvey ölənə qədər, yəni 1786-cı ilə kimi yaxşı insan, xeyriyyəçi kimi tanınıb ( bir çox xeyriyyə işləri ilə yanaşı o, Kimsəsizlər evinin və Londonda peşman olmuş fahişələr üçün Hospitalın yaradılmasına yardım etmişdi).

[1] Nadirin düşərgəsinin quruluşuna dair Bazinin planına bax.

rüşlərin sonunda isə onların qoyuluş vəziyyəti növbəti düşərgənin harada salınmasını göstərirdi. Bayraqların kənarında satıcıları və tacirləri olan düşərgə bazarı vardı. Divanxanadan 50 addım kənarda, o biri tərəfdə şahın şəxsi otaqları vardı, buranı gecə və gündüz, növbə ilə ağ türbanlı keşikçilər mühafizə edirdilər. Burada şahın gizli qonaqlarını qəbul etdiyi bir kiçik çadır da var idi. Həmin çadırdan hərəmxanaya qapı qoyulmuşdu. Hərəm dairəvi hasara alınmışdı, onun içində dairəvi pəncərə var idi: zəncilərdən ibarət xədim olunmuş keşikçilər dəstəsi bu çadır arasında növbə tuturdular. Burada təxminən 60 belə xədim var idi. Bu iki hasarın içərisində şahın gününü keçirdiyi, yatıb dincəldiyi çadır da qurulmuşdu, qadınlar üçün də bir neçə otaqlara bölünmüş çadırlar hazırlanmışdı. Hərəmin başqa bir tərəfində isə balaca, sadə otaqlar vardı, onlar şahın rəqqasələri, müğənnilər və qadın musiqiçilər üçün nəzərdə tutlmuşdu. Bu cadırlar kompleksi düşərgənin mərkəzində yerləşirdi və əsgərlərin, məmurların, xidmətçilərin cadırları ilə əhatə olunurdu. Hanvey hərəmxanada olmasa da, bir dəfə Nadiri oradan çıxıb divanxanaya gedəndə görmüşdü. Onun paltarı bir rəngli, olduqca sadə və ciddi idi, lakin üzərində çoxlu qiymətli daşlar vardı.

Hanvey düşərgədə olanda Nadir ordusunun kiçik bir hissəsini görmüşdü, onun dediyinə görə, həmin vaxt orduda 200 000 əsgər xidmət edirdi. O, bir neçə detalla ordunun quruluşunu təsvir edib. Əsgərlərin əksəriyyəti qılınc və tüfənglə[1] silahlanmışdılar, lakin özbəklər və digərlərindən ibarət süvari dəstə nizə, tapança, ox, yay və qı-

[1] Hanveyin dediyinə görə silahlar arasında çaxmaqlı tüfənglər və muşketlər üstünlük təşkil edirdi. O, silahları tənqid edərək onların keyfiyyətinin yaxşı olmadığını da bildirib, lakin başqa bir mənbənin məlumatına görə həmin silahlar olduqca yaxşı və etibarlı hazırlanıb.

lıncla yaraqlanmışdı. Hanveyin dediyinə görə, əsgərlər öz geyimləri üçün pul ödəyirdilər, lakin paltarları Nadirdən alırdılar, buradan belə çıxır ki, məqsəd orduda eyni görünüşə nail olmaq idi. Hollandiyanın Ost-Hind şirkətinin verdiyi məluma görə Nadir tez-tez əsgərləri üçün, böyük həcmdə paltar sifariş verirdi. İranlılar öz nişançılıqları ilə fəxr edirdilər. Əfqanlar nizə ilə döyüşürdülər, Hanvey onların çox igid olduqlarını xüsusilə qeyd edib. Orduda 50 000 əfqan, 6000 özbək, 6000 türkmən və 6000 bəluci vardı. Şəxsi qvardiyası zadəgan ailələrinə mənsub 1000, iri feodal nəsillərinə mənsub 2000 nəfər və qulamlardan seçilmiş 10 000 nəfərdən ibarət idi. Hanveyə görə bu 3 təbəqə ordunun elitasını təşkil edirdi. Səfəvilər dövründə olduğu kimi, onlar süvari qoşunlarının tərkibində xidmət edirdilər. Keşikçilərdən ibarət piyada dəstələri isə Nadiri düşərgədə, yürüşdə müşayiət edirdilər, belə görünür ki onlar müharibədə iştirak etmirdilər. Hanveyin qeydlərinə əsaslansaq, tüfəngçilər piyada qoşununun tərkibində idilər[1]. Onların sayı 12 000 nəfər idi. Onun dediyinə görə, Nadir tüfəngçilər korpusunu diqqətlə nizama salmışdı: onlar yaxşı geyinməli, iri dəlikləri olan ağır silahları daşımalı idilər. Henveyin fikrincə, Nadirin təşkil etdiyi tüfəngçilər korpusu Avropa ordularındakı odlu silahla təchiz edilmiş quru qoşunlarının hələ tam formalaşmamış nümunəsi idi. Hanveyin siyahısında xarici görünüşləri digərləri ilə müqayisədə o qədər də əhəmiyyətli olmayan 40 000 qara qoşun (qara keşikçilər) adlanan piyada əsgərlər və 20 000 nəfər əfşarlardan ibarət süvari də vardı. Az əvvəl bəhs olunan 1743-cü ildə Nadirin ödəmə məmurlarının tərtib etdiyi siyahıdan fərqli olaraq, Hanveyin

[1] Nadirin Hindistan yürüşündən bilirik ki, bəzən onlar süvari qoşununun tərkibində xidmət edirdilər, xüsusən də döyüş zamanı (5-ci hissəyə bax).

siyahısı əsgərləri növlərinə görə qruplaşdırdığı üçün olduqca maraqlıdı.

Lakin burada başqa bir mənbədən bizə məlum olan, orduda əhəmiyyətli dərəcədə böyük rol oynayan Bəxtiyarilər, Lorlar, Qacarlar və Kürdlərin adı çəkilmir. Həmçinin zanburak adlanan önəmli silah növündən və digər artilleriya növlərindən də bəhs olunmur. Hanveyin təqdim etdiyi ayrı-ayrı qoşun növünün toplamı 200 000 nəfər etmədiyindən, onun siyahısı özünü doğrultmur, yaxud da hansısa səbəblərdən o qoşunun qalan hissəsi haqda informasiya vermir.

Hanvey İran və Avropa ənənələri arasındakı ziddiyyəti göstərməkdə olduqca maraqlı idi və sonrakı yazılarında bu barədə geniş məlumat verdi. Lakin o öz ölkəsinin standartları və normalarına çox bağlı idi; yaxud da onların dardüşüncəli versiyası idi (öz ölkəsinin normalarının). O, İranda qadına münasibətlə bağlı şərh yazıb. Hanvey qeyd edir ki, İran mollası ona: "Bizim qanunlarımız çoxarvadlılığa icazə verir və cariyələrin sayını da məhdudlaşdırmır; lakin hamı onu yalnız 1 xanımla kifayətlənən ən fəzilətli insanlardan biri hesab edirdi". Hanvey evlilik mərasimini çox rəsmi təsvir edib yazırdı: "Orada 16 və 18 yaşında subay xanım demək olar ki yoxdur. Evlilik onlara azadlıq vermirdi, bütün qadınlar üçün onların görünüşü, yaradılışları öz sahiblərinin, yəni ərlərinin zövqünü oxşamaqdan ibarət idi.

Amma Hanvey müasir Avropada olan qadınların çox sərbəst olmalarından məmnun deyildi, onun fikrincə, qadınlar zərif məxluqdurlar. Onlar evdarlıq və itaət üçün daha uyğundurlar, kişilər isə onların qoruyucusu və himayədarı olmalıdır: "Absurd təhsilin kibiri üstələmədiyi yerlərdə həmişə sevgi qadınların nəfəsindəki ehtirası sübut

edəcək". Daha sonra Londonda intellektual qadınlarla qarşılaşdığı zaman üzünün qızarması, onun özünün (Hanveyin) fleqmatik olduğunu göstərir. Onun gəldiyi nəticə belə idi: "Xristian dünyasının qadınlarına erkən yaşlarından öz ərlərinə qarşı üsyan, qadınlar üzərində tiranlığın hökm sürdüyü Asiyada ən azı böyük cinayət olduğu öyrədilsə idi, o zaman Avropada qadınlar daha xoşbəxt olardılar; bu sonuncu fikirlər onları silkələməlidir". Nadir Osmanlı İraqından İrana qayıtmışdı və Hanveyin onu gördüyü yerdə, Həmədan yaxınlığında düşərgə saldırmışdı. 1743-cü ilin payızında özünü Səfəvi şahı Sam Mirzə adlandıran bir nəfərin başçılığı altında Şirvanda və eyni zamanda Dağıstanda üsyanlar başlamış və tezliklə də yatırılmışdı. Bir neçə uğurdan sonra onlar 20 000 nəfərdən ibarət ordu toplaya bilmişdilər; lakin Nadirin əmrinə əsasən Nəsrullah Mirzə yerlilərdən ibarət gücləndirilmiş qoşunla Həmədana gələndə qiyamçıların taleyi həll olunmuşdu. Şahın ordusu ilə üsyançılar 1743-cü ilin dekabrın 10-da Şamaxı yaxınlığında qarşılaşmış və sonuncular məğlubiyyətə uğradılmışdılar. Həmin vaxt Gürcüstanda da üsyan qalxmışdı, Sam Mirzə də onlara qoşulmuşdu. Lakin Gürcüstanda Nadirə sadiq olanlar dekabrın 30-da üsyanı yatırmış, Sam Mirzəni tutmuşdular və onun aqibəti ilə bağlı şahdan təlimatlar gözləmişdilər.

Astrabadda və Şirazda baş verən üsyanlar da Nadirin İrana qayıtmasını tezləşdirən amillərdən olmuşdu, lakin 1744-cü ilin yanvar ayının ortalarında həmin üsyanlar da yatırılmışdı. Dəniz yolu ilə üsyandan bir neçə gün öncə Astrabada gələn Hanvey də bədbəxtlikdən baş verənlərin (üsyanın) şahidi olmuşdu. O öz malını itirmiş, öldürülmə və əsir alınma təhlükəsi yaşamış, lakin qaça bilmişdi. Öz itirdiklərinin kompensasiyasını almaq ümidi ilə

Nadirin düşərgəsinə gəlmişdi[1]. Üsyanların başında sürgün olunan Fətəli Xan Qacarın[2] oğlu dayanırdı, hansı ki, Nadirlə əvəz olunmuş və 1726-cı ildə Təhmasib şah tərəfindən qətlə yetirilmişdi. Onlar 1000 nəfər Yomut Türkmənlərindən, 2000 nəfər Qacarlardan ibarət piyada dəstələrində cəmləşmişdilər. Sam Mirzənin məktublarından ruhlanaraq yanvarın 28-də onlar Astrabadı tutdular. Nadir təcrübəli komandirlərindən birinə üsyanı yatırtmaq əmri verdi. Əbivərddəki 1500 nəfərdən ibarət süvari qoşun, Behbud xanın başçılığı altında ora yollandı. Şahın hərbi qüvvələri ora çatanda üsyançıların bəzisi öz tərəfini dəyişdi və tez bir zamanda qiyamçılar darmadağın edildilər. Fətəli Xanın oğlu sürgün edildiyi səhraya qaçdı, o bir də Nadirin ölümündən sonra peyda olacaqdı.

Behbud Xan və Nadirin valilərindən biri Məhəmməd Hüseyn xan Qacar döyüşdən sonra yenidən qarşılaşdılar və Astrabadda intiqam alındı. 40 ayaq hündürlüyündə ağ daşlardan, üsyançıların və digərlərinin kəllələrindən ibarət konusşəkilli qala ucaltdılar. Nadirin birbaşa əmrinə əsasən Astrabadda tikilən kəllələrdən ibarət qala, Teymurləngin vaxtilə törətdiyi qəddarlığın nümayişi idi. Məhəmməd Hüseyn Xan bundan istifadə edərək Qacarlardan olan rəqiblərini və düşmənlərini öldürdü, lakin Behbud

[1] Hanvey öz səyahət qeydlərində yazır ki, hər kəs, hətta Nadirin düşərgəsindən bir neçə mil aralıda olanlar belə, şahın sərt və amansız hakimiyyətinin səbəb olduğu dağıntılardan və yoxsulluqdan şikayətlənirdilər. Onlar Şahı "qurumsaq" adlandırırdılar. Tacir Hanvey Qəzvində hakimiyyətdən narazı, möhtac insanlarla qarşılaşdı. Nadirin İran ordusu ilə böyük fəthlərindən əldə etdiyi qənimətlər şahın özünə qalırdı. Lakin indi o, tatarlardan ibarət İran ordusuna başçılıq edirdi.

[2] Məhəmməd Həsən Xan Qacar, Nadirin düşməni olan Məhəmməd Hüseyn Xanla qarışdırılmamalıdır. Məhəmməd Həsən xan Qacarlar sülaləsinin əsasını qoyan Ağa Məhəmməd Şahın atası idi.

Xan onu cilovlaya bildi. Qətliamlar Hanveyin mayın sonunda onların yanına gəldiyi zaman baş verdi. Həmin vaxt Astrabad rayonu tamamilə xarabalığa çevrilmişdi.

Bu vaxt Xarəzmdə Özbəklərlə Yomut Türkmənləri arasında iğtişaşlar baş qaldırmışdı. Daha çox Salor Türkmən tayfaları ilə özbəklər arasında döyüşlər olmuşdu. Basqınlar və qarətlərdən sonra bütün vilayət dağıdılmışdı. Müştərilərdən biri kömək üçün Nadirə müraciət etdi, o, isə Məşhəddə olan, qardaşı oğlu Əliqulu xanı ora göndərdi. Növbəti ilə kimi Əliqulu Xarəzmdəki vəziyyəti sabitləşdirə bilmədi. Lakin daha ciddi üsyan isə Nadirin keçmiş sevimli adamlarından biri olan Tağı xanın rəhbərliyi ilə Şirazda baş verdi. Dəniz donanmasında yaşadığı sıxıntılardan sonra nəhayət, 1743-cü ildə Muskatda qələbə qazana bildi. Omanın sultanı yenidən üsyan etmişdi, əvvəl olduğu kimi Sultan Tağı xandan yardım istəmişdi. O, öz gücünün bərpa olunması və müstəqilliyinin tanınması müqabilində iranlılarla müqavilə bağladı. Yürüş uğurla nəticələndi və Tağı Xan həmin ildə Fars körfəzinin cənub sahilinə keçdi. Muskat o vaxt hələ də Sultanın adamları tərəfindən tutulmuşdu, lakin iranlılar hiylə işlədərək nəzarəti öz əllərinə aldılar. Sonuncu üsyan 1743-cü ilin iyul ayında baş verdi, lakin bu da uğursuzluqla nəticələnərək yatırıldı, Oman İranın hakimiyyəti altına keçdi.

Çətinliklərin ardı-arası kəsilmirdi, Omandakı donanma və qoşun baxımsız qaldı. 1743-cü ilin noyabrında Tağı Xanın Bəndər Abbasdan qayıdanda, ordunun saxlanması üçün keçmiş üsyançıların ödədiyi xəraclar kəsildi. Nəhayət, İranın Muskatdakı qarnizonu yenidən dirçələn üsyançılarla əhatə olundu. Onların başçıları bütün Oman torpaqlarını ələ keçirdi, 1744-cü ilin sonuna doğru özünü Sultan elan edərək Əbu Səid sülaləsinin əsasını qoydu.

Demək olar ki, unudulmuş İran qarnizonu Nadir şahın ölümünə kimi Culfarda qalmağa məhkum oldu, həmin vaxt onun baxımsız vəziyyətdə olan donanması dağıdıldı, yaxud da çürüdü. Gəmilərin düzəldildiyi Buşira tərsanəsində 1743-cü ilin yayından etibarən bütün işlər birdəfəlik dayandırıldı[1]. Omanda baş verənlərə baxmayaraq, Tağı Xan 1743-cü ildə Bəndər Abbasa uğurla qayıtdı. O uzun zaman idi ki, öz xeyrinə bir addım atmaq niyyətində idi, ola bilsin ki, Nadirlə Rzaqulunun münasibətlərinin korlanması onun planın bir hissəsi idi. Dekabr və yanvar aylarında Şirvan, Astrabad və Xarəzmdə üsyanların qaldırılması da bu işin başlanğıcı oldu. Lakin Tağı Xanın üsyana cəlb olunmasında bəlkə də, Nadirin əli var: ondan külli miqdarda pul almaq, yaxud onu həbs etdirmək üçün bu, şaha lazım idi. Hər halda o Nadirin qaynı idi, Qəlbəli Xan öldürüldükdən sonra, 1744-cü ildə, yanvarın 16-da, açıq üsyanı yatırmaq məqsədilə 6 000 qoşunla Şiraza yola düşmüşdü. Qəbilə üzvləri Nadirin vergiyığanlarını öldürdükdən sonra vəziyyət daha da gərginləşmişdi, həmin vaxt Tağı xan böyük ordu ilə Şiraza çatdı. Tağı Xan şəhəri tutmamışdan əvvəl, Nadir ona qarşı, hələ də sadiq olan yerli əhali ilə birləşmək üçün Şiraza hərbi qüvvələr göndərmişdi. Şiraz üsyanı ciddi məsələ idi. Çünki, Şiraz İranın ən vacib şəhərlərindən biri, Nadir imperiyasının ürəyi, inzibati mərkəzi, varlı əyalətlərindən biri idi. 40 000 nəfərdən ibarət birləşmiş şah ordusu əhəmiyyətli tapşırığı yerinə yetirmək, Şirazı geri almaq üçün səfərbər olmuşdu. Şirazın əhalisi öz şəhərlərini canla-başla müdafiə edirdi, dörd ay yarım keçəndən sonra şəhər təslim oldu, şahın mühasirə qoşunları sərbəst şəkildə qala divarlarından içəri

[1] Həmin tərsanənin qalıqları, 1811-ci ilə qədər Nadirin ambisiyalarının kədərli xatirəsi kimi qaldı.

daxil olaraq, talançılıq etməyə başladılar. Ara qarışan zaman Tağı Xan qaçmağa çalışsa da, tezliklə tutularaq bütün ailəsi ilə birlikdə İsfahana göndərildi. Şiraz Sədi və Hafiz kimi görkəmli şairləri ilə də tanınır, 1730-cu ildə əfqanlar oradan çıxarılandan sonra, Nadirin əmrinə əsasən şəhərdə bağlar salınmış, 1000-dən çox ağac əkilmişdi. Amma indi şəhər tamamilə xarabalığa çevrilmişdi, yüzlərcə, bəlkə də minlərcə adam öldürülmüş, bağlar dağıdılmışdı. Kölgəlik salan ağacları, Astrabaddakı kimi insan kəllərindən ibarət qorxunc iki qala əvəz etmişdi. Bu azmış kimi, sonra şəhəri vəba xəstəliyi bürüdü, nəticədə, 14 000 nəfər dünyasını dəyişdi. Tağı Xan İsfahanda istehzalı qarşılanma mərasimi ilə alçaldıldı[1], kütlə onu ələ salmağa başladı. Nadirlə yaxın dost olduğu xoşbəxt vaxtlarda Nadir and içmişdi ki, heç vaxt Tağı xanı öldürməyəcək. Nadir öz andını saxlasa da, ağlasığmaz bir cəza kəsdi. Tağı Xan xədim edildi və gözlərindən biri çıxarıldı. Nadir ciddi şəkildə tapışırıq verdi ki, cəza tətbiq olunarkən Tağı Xanın ölməməsi üçün ehtiyatlı davranılsın. Tağı xan baş verənləri izləyə bilsin deyə bir gözünə dəymədilər. Onun üç oğlu və qardaşı da daxil olmaqla yaxın qohumları və dostları edam edildi, daha sonra Nadirin qadınlara ənənəvi münasibətinə zidd olaraq, Tağı xanın gözləri qarşısında onun sevimli arvadı əsgərlər tərəfindən zorlandı.

Nadirin öz keçmiş dostunu alçatmaq üçün onun arvadının başına gətirilənlər göstərir ki, Nadirin prinsipləri necə də qəddarlaşıb. Çox güman ki, Nadir Tağı xanı təkcə üsyan etdiyi üçün yox, həm də Rzaqulu ilə münaqişə etdiyinə görə cəzalandırırdı və şahzadənin gözlərinin çıxarılmasına ən çox səbəb olanlardan biri də məhz Tağı xan

[1] İstiqlal

idi. Onun ailəsindən sağ qalanlar qula çevrildi, özü isə Nadirin sarayında zəncirlənərək zindana atıldı. Tağı Xan gətiriləndə Nadirin əsəbi sanki bir az soyudu. Səfil vəziyyətdə olmasına baxmayaraq, sağ qalan Tağı xan keçmiş rəhbərinin ətrafında dayana bilmək gücünü itirməmişdi. Vəziyyətin ciddiliyinə rəğmən hətta zarafat da etdi. Nadir Tağı xanın qul edilən ailə üzvlərini azad buraxaraq Kabulun valisinə göndərdi. Bütün qəddarlıqlardan sonra şahın bu hərəkəti, bəzi tarixçilər tərəfindən təəccüblə qarşılandı. Nadir bir vaxtlar Tağı xanın həyatını qorumağa söz vermişdi, Kabul, onun öz evi, sadiqlikdən çıxaran gərgin münaqişələrdən uzaq təhlükəsiz bir yer idi və Nadirin möhkəm və etibarlı müttəfiqləri Abdalı əfqanları tərəfindən əhatə olunmuşdu. Bir gözü çıxarılmış, xədim birinə qarşı əfqanların münasibəti mərhəmətdən çox uzaqdı, bəlkə də alçaldıcı idi. Bu vaxt Nadir Bağdad hakimi Əhməd Paşa ilə razılaşdırdığı sülh təklifinə İstanbuldan cavab gözləyirdi. Əslində 1744-cü ilin fevral ayında Osmanlı hökuməti Əhməd paşaya razılşmanı qəbul etmədiklərini bildirmişdi. Lakin bu barədə nə Osmanlı hökuməti, nə də Əhməd paşa Nadirə deməyə cürət etmirdi. Mart ayında Nadir osmanlıların özünü Səfəvi varisi adlandıran Safi Mirzəni dəstəklədiklərindən xəbərdar oldu. Safi Mirzə də ondan əvvəl özünü Səfəvi varisi elan edən Sam Mirzə kimi özünü Şah Sultan Hüseynin oğlu kimi qələmə vermişdi, lakin Sam Mirzədən fərqli olaraq, onun Səvəfilər sülaləsinə heç bir aidiyyatı yox idi. Safi Mirzə İranın şimal-qərb vilayətlərində, onu dəstəkləyənlərə Qarsdan məktub yazaraq onları üsyana ruhlandırdı. Onlardan bəzisi, osmanlılara əsəbi olanlar Nadirin tərəfinə keçdilər. Nadir yenidən ordusu ilə birlikdə şimal-qərbə doğru hərəkət etdi. O əmr verdi ki, Sam Mirzə və özünü Səfəvi varisi

elan digər şəxslərin hamısının bir gözü çıxarılaraq Qarsa göndərilsin, onsuz da başqa bir iddiaçı yox idi, bütün bunlar həmin iki saxta qardaşı qarşılaşdırmaq naminə idi. Nadir şimala çatanda bəzi ürəkaçan xəbərlər aldı. Teymuraz və Erekle Gürcüstan ərazisində, Osmanlıların müxtəlif ləzgi tayfalarını üsyana həvəsləndirmək məqsədilə göndərdiyi böyük həcmdə qəniməti ələ keçirmişdilər.

Nadir mükafat olaraq, Gürcüstanın Kartli və Kaxetiya vilayətlərinin idraəçiliyini Teymuraz və Erekliyə tapşırdı. Nəsrullah Mirzənin və öz ordusunun birləşmiş qoşunları ilə birlikdə Nadir iyulun 23-də Arpaçaydan 20 mil aralıda, Qarsdan kənarda düşərgə saldı. Avqustun 21-də ordunun ehtiyat yükünü və ağır müharibə sursatını götürdü, qala tikdirdi və şəhər ətrafı xəndək qazdırdı. İranlılar mühasirə səddi qurdular. Nadir su axınına nəzarəti ələ keçirməklə, Osmanlı qarnizonunu su ehtiyatından məhrum qoymaq istəyirdi (sonuncu mühasirə zamanı etdiyi kimi), lakin bu dəfə osmanlılar bunun qarşısını aldılar. Amma Oktyabrın 9-da, havalar soyuduğunu, qışın yaxınlaşdığını nəzərə alaraq, onlar mühasirəni buraxdılar, bildiyimiz kimi, Qars olduqca soyuq şəhərdir. Bəzisi belə hesab edir ki, Mosulda olduğu kimi əsas səbəb Nadirin narahatlıq verən xəstəliyi və həmin anlardakı melanxolik vəziyyəti və gərgin olmasıdır. Əvvəllər Nadir bütün yürüşlərdə ordunu hər bir çətin vəziyyətdə, qış aylarında belə mühasirəni dayandırmamağa inandırırdı.

Şərqdən geri gəldikdən sonra Nadir olduqca narahat idi və ordunu 4 istiqamətdə cəmləyərək, ləzgi tayfalarına qarşı qəfil yürüşə hazırladı. İranlılar çox sayda at, heyvan mənimsədilər, kəndləri yandırdılar. Ləzgilər bu hücumu gözləmirdilər, Nadirin qoşunları tərəfindən viran qalmış vilayətlərin başçıları tabe oldular. 1745-ci ilin, yanvarın

14-də Nadir Dərbəndə qayıtdı. Buradan o, Kür çayının cənubuna, şah üçün hazırlanmış qışlağa gəldi; bir neçə həftə, Novruz bayramı yaxınlaşanadək burada qaldı, sonra süvari qoşunlarının atlarının otlaması üçün əlverişli şəraiti olan çayın şimal hissəsinə hərəkət etdi. Burada o, təxminən 3 ay qaldı. Nadir tez-tez fikir qarışıqlığı yaşayırdı, bu da onun məqsədinin tükəndiyini göstərən amillərdən biri idi. İyun ayında Nadir ordu ilə birlikdə cənub-qərbə doğru irəlilədi, lakin burada şahın xəstəliyi şiddətləndi və demək olar ki, bütün yol boyu onu xərəkdə apardılar. Həkimlərin köməyi ilə Nadir özünə gələndən sonra ordu İrəvanda düşərgə saldı. Nadir Osmanlı hərbçilərinin İran sərhədinə doğru irəlilədiyini öyrəndi; osmnalıların bir hissəsi birbaşa şahın olduğu bölgəyə, digəri isə cənuba, Mosula tərəf hərəkət etdi. Sonunculara qarşı Nəsrullahın başçılığı altında böyük həcmdə qoşun göndərdi, digərlərini isə özü qarşılamaq üçün hazırlıq gördü. Düşərgəni dağıtmadan öncə oğlu İmamquluya və qardaşı oğlu İbrahim xana toy mərasimi keçirdi. Onlara müvafiq olaraq Xarəzmin və Həmədanın idarəçiliyini tapşırdı. Sonra öz yükünü şərqə tərəf göndərərək, düşərgəni dağıtdı, avqustun 7-də İrəvanı tərk etdi, qərbə doğru istiqamət götürdü. Kəşfiyyatçılar Osmanlı ordusunun Qarsı artıq tərk etdiklərinin məlumatını verdilər. İran ordusu Nadirin 10 il bundan əvvəl osmanlıları məğlubiyyətə uğratdığı yerdə, Bahavardda düşərgə saldı. Növbəti gün Yegen Məhəmməd Paşanın başçılığı ilə osmanlılar 8 mil aralıda düşərgə qalası inşa etməyə başladılar.

Avqustun 9-da 100 000 süvari və 40 000 yeniçərilərdən (piyada) ibarət Osmanlı ordusu İran hərbçiləri ilə döyüşə səfərbər oldular. Bir mənbənin verdiyi məlumata görə, onlar döyüş forması sifariş vermişdilər və Avropa

modelində vuruşurdular. Detalları verilməsə də, məlumdur ki, 1730-cu ildən bəri Osmanlı imperiyasının baş vəziri olan Yegen Məhəmməd Paşanın dövründə fransız xain Bonnevalla iş birliyinə girmişdi, o, Osmanlı ordusunda islahat keçirmək üçün Sultanın xidmətinə alınmışdı. Bonneval artileriyanı təkmilləşdirmiş, yeniçəriləri yenidən təşkil edərək, kiçik taktiki qrupları bölmüş, qazma tüfəngçiləri də inkişaf etdirmişdir (bəlkə də onların sayəsində inkişaf edən Osmanlı hərbi qüvvələri Balkanlarda, intizamlı Avstriya ordusunu 1739-cu ildə Qrozka döyüşündə məğlubiyyətə uğratmışdı, daha sonra Belqrad təslim olmuşdu). Osmanlılar bir neçə xətt üzrə, yeniçəri piyadalarla mərkəzə doğru irəliləməyə başladılar, artilleriya isə ənənəvi deyil, dəstələr üzrə paylanmışdı (əvvəllər artilleriya qarşıda, öndə dayanırdı). Süvari qoşun isə yanlardakı piyadaları qorumaq üçün, qanadlar üzrə yerləşdirilmişdi.

Bu, onu göstərirdi ki, Nadir Bahavarddakı axırıncı qarşılaşma ilə nisbətdə daha çətin rəqiblə üz-üzə idi. Lakin onun öz piyadaları da böyük şövqlə hazırlanmışdılar, atəş intizamını inkişaf etdirmiş, yüksək manevr etmək qabiliyyətinə malik idilər. Göründüyü kimi, Nadir, Bonneval və Yegen Paşa yaxşı iş ərsəyə gətirmişdilər. Nadir öz döyüşçülərini osmanlılara doğru irəliləməyə hazırlaşdırarkən, piyadalarına düşmənə yalnız bir yaylım atəşi açmağı tapşırdı. Sonra qılıncları çıxarıb onlarla döyüşməyi əmr etdi[1]. Bu hərəkət yeniçərilərin tüfənglə silahlanmadığını göstərirdi.

Ordulur bir-birinə yaxın idi, nişan almış vəziyyətdə dayanmışdılar, hər iki tərəfin süvari qoşunu isə arxa tərəfdə durmuşdu. Piyada yeniçərilər bir müddət mübarizə apardı,

[1] Bu, XVII və XVIII əsrlərdə Skot Haylendersin də sevimli hərbi fəndlərindən biri idi.

hər iki tərəf hücum edir və eyni zamanda əks hücuma məruz qalırdı. Ordu komandirləri döyüşə yeni güclər daxil edirdi. Mənbələrdən birinin dediyinə görə, öz ənənəvi döyüş üsulunun əksinə olaraq Nadir osmanlılara qarşı müharibə apararkən düşərgədə öz taxtından, xəbər göndərib, xəbər ötürmək vasitəsilə ordunu idarə edirdi. Lakin həmin gün günortadan bəri onun elçiləri döyüşün nizamsız getdiyini deyirdilər, buna görə də Nadir tez bir zamanda məsələni həll etmək üçün şəxsən özü müdaxilə etdi. O öz zirehini geyindi, 40 000 nəfər Əbdalilərdən təşkil olunmuş ehtiyat süvari dəstələrinə başçılıq edərək osmanlıların cinahlarına qəzəblə hücuma keçdi. Döyüşün şiddətli məqamlarında hətta iki dəfə Nadirin altında at öldürüldüyünə baxmayaraq, onun iştirakı iranlıları ruhlandırırdı. Sonda osmanlıların müqaviməti qırıldı və Kiçik Asiyadan olan 15 000 nəfərdən ibarət qanunsuz dəstə qaçmağa başladı. Osmanlı ordusunun əsas hissəsi çaşbaş vəziyyətdə, təhlükəsiz yerlərə, öz düşərgələrinin ətrafındakı səngərlərə çəkilirdilər. Nadir onları təqib etsə də, sonradan öz düşərgə şəhərciyinə geri çəkildi.

Növbəti gün Nadir osmanlılara Qars tərəfdən ehtiyat qüvvələrin gəlməsini əngəlləmək üçün dəstələr göndərdi, Yegen Paşanı əsgərləri ilə birlikdə öz düşərgəsində əsir etdi. Orada iki ordu arasında toqquşmalar oldu, lakin osmanlılar Nadirin taxtının ətrafında qurulan polad zənciri (halqanı) qıra bilmədilər. Bir məlumata görə hər iki ordunun artilleriyası sanki bir-biri ilə duelə girmişdi, həmin mübarizədə İran ordusunun üstünlüyü açıq-aydın görünürdü, hər biri cəld və dəqiq nişan alırdı, Osmanlı toplarını daşıyan təkərlər iranlıların sarsıdıcı zərbələri nəticəsində darmadağın olur, Osmanlı artilleriyaçıları ölürdü. Buna

görə də onların odlu silahları sıradan çıxırdı, beləliklə, müharibənin taleyi həll olunurdu.

Osmanlı ordusunda qiyam abu-havası hökm sürürdü, fərarilər İran qarnizonuna gələrək, osmanlıların geri çəkilmək üzrə olduğunu deyirdilər. Bir gecə Osmanlı ordusu ocağı və işığı yanılı qoyub, çadırları dağıtmadan səssizcə öz düşərgələrini tərk edib yola düşdülər, lakin İran ordusu onları təqib edərək, mühasirəyə aldı. Bu vaxt, avqustun 19-da Nadirə oğlu Nəsrullahdan məktub gəldi, məktubda Nəsrullah Mosul yaxınlığında osmanlılardan və kürdlərdən ibarət birləşmiş dəstəni ağır məğlubiyyətə uğratdığını bildirirdi. O, qürurla Osmanlı imperiyasının digər torpaqlarını da Nadirin fəthləri sırasına qatılmasını təklif etdi. Nadir müqavimәti davam etdirməyin mənasız olduğunu bildirmək məqsədilə Nəsrullahın məktubunu Yegen Paşaya göndərmək qərarına gəldi, lakin elçi osmanlıların düşərgəsinə çatanda orada bir həngamə qopdu, qoşun qiyam etdi. Ara sovuşandan sonra məlum oldu ki, Yegen Paşa öz əsgərləri tərəfindən qətl edilib. Başçısız qalan, parçalanmış ordu kütləvi şəkildə qaçmağa üz tutdu və bir-birlərinə "Ey Məhəmmədin ümməti, geri qayıt, qeri qayıt" deyə qışqırmağa başladılar. İranlılar onları təqib edərək, çoxunu öldürdülər; bəzisini əsir aldılar. Nadir yaralı əsirləri azad edərək Qarsa göndərdi; qalanları isə Təbrizə və Tehrana aparıldı. Həmin döyüşdə və döyüşdən sonrakı iğtişaşlar zamanı Osmanlı ordusu 28 000 əsgər itirdi, onlardan 12 000 nəfəri öldürülmüşdü. İranlılar isə müharibənin əvvəlindəki toqquşmada 8 000 nəfər hərbçi itirmişdilər.

Nadir avqustun 9-da döyüşün həlledici məqamında düzgün qərar verərək Əbdalilərə başçılıq etmiş və uğur qazanmışdı. Lakin bu, onun qoca enerjisinin son partla-

yışı idi. İran artilleriyasının üstünlüyü ordunun nə dərəcədə yaxşı təlim gördüyünü və əla təchiz olunduğunu göstərirdi; tarixçilərdən birinin dediyinə görə son 3 ildə ordunun silah-sursatla təchiz olunma proqramı yenidən dəyişdirilmişdi. Osmanlı imperiyası çalışdı ki, öz bütün gücünü bu əsas müharibədə səfərbər edib, qalib gəlsin amma alınmadı. Nadir "Dünyanı məğlub edən" ordusu ilə öyünəndə haqlı idi; Nəsrullahın qürurla Osmanlıya yürüş edib, Anadolunu fəth etmək fikri boş tərif deyildi. Lakin bu dəfə döyüş tamamən osmanlıların hücumunu dəf etmək məqsədilə müdafiə prinsipi üzrə qurulmuşdu, iranlıların aqressiv yürüşü deyildi. Nadirin mübarizəni davam etdirmək iradəsi artmışdı.

Qələbədən sonra Nadir bir müddət dincəldi, yaralanmış türk əsgərlərlə Qarsa sülh təklifi göndərdi, daha sonra isə İstanbula danışıqlar aparılması üçün elçi yolladı. İlk dəfə o, Cəfəri məzhəbinin tanınması təklifindən və Kəbədə 5-ci sütun tələbindən imtina etmişdi; lakin geri qayıdanda Nadir Bağdad, Bəsrə, Nəcəf, Kərbəla, Osmanlı Kürdüstanı və Vanı da tələb etdi. Osmanlıların əvvəlcə Nadirin sonuncu təklifini geri çevirmələrinə baxmayaraq, İran tərəfdən elçinin gəlişi Sultanın fikrinin dəyişdiyini göstərdi. Yəqin elçi orada ərazi iddiasına dair eyham vurmuş. Dinə dair etdiyi təklif kimi Nadir Osmanlı imperiyasının fəth olunması və bütün İslam dünyasında üstünlüyü ələ keçirməsi fikrindən dönmüşdü. Belə bir məğlubiyyətdən sonra Sultan müharibənin əlverişli bitəcəyinə çətin ümid edə bilərdi. Osmanlı elçi Nadirin düşərgəsinə göndərildi. Həmin vaxt Nadir yavaşca Həmədan yolu ilə İsfahana yola düşdü, dekabrın 28-də şəhərə çatdı.

Bədbəxtlikdən Nadir Osmanlılar üçün bir qədər yumşaldılmış yeni sülh təklifini gerçəkləşdirə bilmədi. Həmin

vaxt onun qəddərlığı və tamahkarlığı bir növ adət halını almışdı, o, İsfahana çatan kimi vətəndaşları döyərək onların pullarının mənimsənilməsi haqda göstəriş verdi. İsfahan valisindən 10 000 tümən tələb etdi, şəhərin hakimi həmin pulu verə biləcək adamın adını çəkənə qədər öz adamlarına "fələkə" (ağır cəza növü) tətbiq etməyi tapşırdı. Bu vaxt İsfahana gedən və bütün hər şeyi görən bir nəfər bir anlığa Nadirin sarayının ətrafında olmuş, kütləvi şəkildə qulağı, burnu kəsilmiş, beyni çıxarılmış, boğulmuş insanların saray xidmətçiləri tərəfindən çıxarıldığını görmüşdü. 1746-cı il, fevralın 2-də Nadir İsfahanı tərk etdi, 7 həftə sonra Məşhədə çatdı. Bütün yol boyu dayandığı yerlərdə hesablara baxdı, məmurları sorğu-sual etdi, həmçinin ölkənin hər tərəfindən vergi məmurlarını yanına çağırdı. Hər birinə açıq şəkildə ənənəvi sualını verdi: "Mənim pulumdan nə qədər yemisiz? Və bunu kim edib?" Onların çoxuna işgəncə olundu, şikəst edildi. Bəzilərinin başına çubuqla o qədər vurmuşdular ki, üzləri qapqara olmuşdu, canavara oxşayırdılar. Bir-birinin ardınca gələn zəlil, yaltaq katiblərin qorxaqlığından və vergi yayınmalarından əsəbiləşən Nadirin qeyri-adi yaddaşı və intellekti çılğın ağılsızlığa çevrilmişdi. Onun davranışı elə bir həddə çatmışdı ki, heç kəsin, hətta çox güvəndiyi insanların belə özünü təhlükəsiz və rahat hiss etməsi mümkün deyildi. Əvvəllər başqa yerlərə nisbətən daha yumşaq davrandığı Məşhəddə Nadir, 100 000 məmur və vətəndaşı edam etdirmiş, əhalidən il ərzində olduqca böyük məbləğdə vergi – 500 000 tümən tələb etmişdi. O, Türküstana növbəti yürüş üçün, Mərvdə böyük bir anbarda saxlanılan artilleriyanın hazır vəziyyətə gətirilməsini əmr etdi. Nadir martın 21-də Novruz bayramını qeyd etdi, əhaliyə

çoxlu qiymətli xalatlar (hədiyyə) payladı, lakin bəzilərinin ağıllarında bu asan çıxış yolu kimi qaldı.

O, Məşhəddə olarkən Sistanda yeni bir üsyan baş qaldırdı. Onun başında Sistanın hakimi Fətəli Xan Kayani dururdu; Məlik Mahmudun oğlanlarından biri, hansından ki, Nadir 1726-cı ildən Məşhədi istila etmişdi. O, məhkəməyə çağırılandan və Məşhəddə və İsfahanda olduğu kimi, həmin əyalətdən də böyük həcmdə vicdansızca vergi tələb edildikdən sonra qiyam qaldırdı. Həm onun əyalətindən, həm də Beluci qəbiləsindən çox sayda insan ona qoşuldu. Oxşar səbəblərə görə Kerman valisi də üsyan etdi, lakin şaha sadiq qalan bəzi dəstəni digərlərinə dərs olsun deyə şəhər qalasından asdılar. Aprelin 12-də Nadir Məşhəddən Kəlata yollandı, Əbivərd və Darra Gaz da onun səfər edəcəyi ərazilər sırasına daxil idi. Kəlatda olarkən o, istehkam üçün bir neçə binanı gözdən keçirdi və onların yaxşılaşdırılması üçün əmrlər verdi. Nadir açıq-aydın gününü kef məclislərində keçirirdi, qızıldan və gümüşdən, 4,5 milyon tümən xəzinəyə yığa bilmişdi. Bu, artıq orada olan, Hindistandan gətirilmiş xəzinəyə əlavə idi. Nadir imperiyasının yoxsulluq və səfalət fırtınasında batdığı bir vaxtda Kəlat inanılmaz dərəcədə zəngin bir şəhərə çevrilmişdi. Nadir öz şərəfinə hazırlanan abidəyə baş çəkdikdən sonra, ondan razı qaldığını bildirdi. Daha sonra Məşhədə qısa səfər etdikdən sonra, qərbə tərəf qayıtdı.

Qəzvin yolunun üstündə, Tehrandan 40 mil qərbdə yerləşən Kordanda Nadir əyanları ilə birlikdə, əks tərəfdən onu qarşılamaq üçün irəliləyən Osmanlı elçisi ilə görüşdü. Osmanlı Sultanı elçiyə 1639-cu ildə qurulan köhnə sərhədlər əsasında sülh danışıqları aparmağı və Cəfəri məzhəbinə son qoymağı tapşırdı. 5 görüşdən sonra vasitəçi-

lər Sultanın istədiyi əsasda müqaviləni qəbul etməyə nail oldular, 1746-cı ilin 4 sentyabrında müqavilə imzalandı. Mərasimdə Nadir öz ənənəvi təmtəraqlı tamaşasını nümayiş etdirdi. O, hind zinətləri ilə bəzədilmiş tovuzquşu modelində hazırlanan taxtında əyləşdi, onun bütün geyimi – papağı, kəməri, paltarları brilliant daşlarla işlənmişdi.

Müqaviləyə sülhü təhlükə altına alan bütün fəaliyyətlərdən boyun qaçırmaq, əsirləri azad etmək, səfir mübadiləsi və digər öhdəliklər daxil idi; İran sünni müsəlmanlara hücumlardan əl çəkməli, ilk üç xəlifəyə hörmət bəsləməli idi; Osmanlılar isə öz növbələrində iranlı zəvvarların sərbəst şəkildə Məkkəyə gedə bilmələrinə şərait yaratmalı idilər. Bu, təlatümlü müharibə təhlükəsinin arxada qaldığını göstərirdi, qılınclar artıq qınına girmişdi, Allahın xeyir-duası bu iki imperiyanın, oxşar monarxiyanın üzərinə düşmüşdü. Nadir güvəndiyi iki əyanı müqavilə ilə birlikdə İstanbula göndərdi; onlardan biri şahın rəsmi tarixçisi Mirzə Mehdi idi. Onlar özləri ilə Sultana hədiyyə olaraq mirvari daşla işlənmiş qızıldan taxt və musiqi eşidəndə rəqs edən iki fil götürmüşdülər. Bəlkə də Nadir taxt hədiyyə etməklə, Sultanın xüsusən Şərq əraziləri üzərində səlahiyyətinin təmin olunmasını simvolizə edirdi. Kordandan sonra Nadir cənuba doğru hərəkət etdi. O, gedən kimi Sistandakı üsyan dalğasının digər ərazilərə də yayıldığı, Xorasanda da narahatlığın olması barədə xəbər gəldi. Dekabrın əvvəlində İsfahana çatanda Nadir öz əsəbinin bir növ quluna çevirdi. Onun əsgərləri şəhəri və ətrafdakı kəndləri mərhəmət hissi duymadan darmadağın etmişdilər. Onlar 20, yaxud 30 nəfərdən ibarət ayrı-ayrı qruplar şəklində küçələrə çıxır və vergi ödəmək iqtidarında olmayan insanları vururdular. Bütün İsfahan boyu qışqırıq səsləri yayılırdı: sanki şəhər fırtınaya uğramışdı

və düşmən tərəfindən talan edilmişdi. Həmin gün 30 nəfərə yaxın adam boğularaq saraydan bayıra atılmışdı, bunu Nadirin göstərişinə əsasən onun əsgərləri etmişdi. İsfahanı tərk etməzdən əvvəl Nadir ələ keçirilən qənimətə göz gəzdirdi və xalçaların olmadığını gördü. O, sərvəti etibar etdiyi adamını günahlandırsa da, həmin şəxs belə bir hərəkət etmədiyini bildirdi. İşgəncəyə məruz qaldıqdan sonra həmin adam bir neçə il onun sələfinin xalçaları satdığını dedi. Nadir şah əmlakını satın alan tərbiyəsizin kim olduğunu soruşdu. Uzun müddət döyüləndən sonra 8 tacirin adı çəkildi: onlardan ikisi hind, ikisi erməni və dördü yəhudi idi. Tacirlərin hamısı tutulub, dindirildi və bir gözləri çıxarıldı. Amansız istintaq əhəmiyyətli nəticə vermədi: tacirlər demək olar ki, tamamilə günahsız idilər. Onların boğazları zəncirləndi. Növbəti gün İsfahan meydanında sarayın qarşısında tonqal qalandı, 8 nəfər tacir həmin atəşə atılaraq yandırıldı.

# X FƏSİL

# QAPALI DAİRƏ

*Qəddarlıqdan qəddarlığa fərq var. Əgər qəddarlıq bir dəfə, özü də təhlükəsizliyin təmin edilməsi naminə həyata keçirilirsə, davamlı səciyyə daşımırsa və insanların mənafeyi naminə istifadə olunursa, o halda ona müsbət yanaşmaq mümkündür. Yox, əgər qəddarlığa əvvəl-əvvəl kiçik həcmdə əl atılırsa, zamanla isə davamlı hal alırsa, o halda heç bir bəraətdən söhbət belə gedə bilməz. Ona görə də iqtidar sahibi olan şəxs bütün mümkün inciklikləri nəzərə alıb, onları birdəfəlik həll etməlidir. Əksinə, mütəmadi olaraq onları yada salıb, qəddarlıq törətməməlidir. Belə olan təqdirdə insanlar yavaş-yavaş sakitləşib, hökmdar isə xeyirxahlıq hesabına onların etibarını qazana bilər. Bunun əksini edən hökmdar isə heç vaxt qılıncını qınına qoymağa macal tapmayacaq və sakitliyin nə demək olduğunu bilməyən əyanlarından heç zaman arxayın olmayacaqdır.*

***N.Makiavelli***
***("Hökmdar")***

1746-cı ilin son aylarında xəstəliyinin ciddiləşməsi yenidən Nadirin ruhi vəziyyətinin pozulmasına gətirib çıxardı. İsfahanda olarkən Nadir yeni bir həkimlə tanış olmuşdu. Bu həkim Nadir ölənədək onun nazı ilə oynayan, fransız Yezuit Pyer Bazin idi. Vəzifəyə könülsüz təyin olunan Bazin Nadiri həmişə ciddiliyini qoruyan şəxs kimi

təsvir edirdi, lakin indi o, müxtəlif səbəblərdən, ilk növbədə bədəninin maye ilə dolmasına (şişməsinə) səbəb olan ödəm xəstəliyindən əziyyət çəkirdi. O, qidanı saxlaya bilmir, müntəzəm olaraq yeməkdən bir saat sonra yediyini qaytarırdı. Həmçinin tez-tez qəbz olur, davamlı olaraq ağzı quruyur, qaraciyəri də narahatlıq verirdi. Çox güman ki, bu simptomlar əvvəllər yoluxduğu malariya infeksiyasından sonra sarılıq xəstəliyinə tutulması və yenidən həmin xəstəliyi keçirməsinin göstəricisi idi; intensiv şəkildə içkiyə qurşanması xəstəliyi daha da ağırlaşdırmışdı. Bazin xəstəliyi sağaltmaq üçün dərman preparatı axtarmaq və hazırlamaq üçün bir ay möhlət istədi. Xəstəliyinə baxmayaraq, Bazin Nadiri fiziki güclü, hündür, oval üzlü, qarabəniz, qartalburun, ağız quruluşunun yaxşı formalaşmış, alt dodağı xəfif çıxıntılı, kiçik, canlı, ifadəli gözlər, lazım gələndə yumşalda və idarə edə bildiyi gur və möhkəm səsli təsvir etmişdi.

Dövlət idarəçiliyində və Nadirin səhhətində yaranan problemlər sanki növbələşirdi, biri qurtarmamış, digəri özünü göstərməyə başlayırdı. Şərq vilayətlərində baş verən iğtişaş və üsyanların yatırılması üçün şəxsən onun iştirakı tələb olunurdu. 1747-ci ilin yanvarında Nadir İsfahanı tərk edərək, Yəzd və Kirman yolu ilə Xorasana tərəf hərəkət etdi. Həmin vaxt Sistanda vəziyyətin qarışıq olması ilə bağlı xəbər aldı. Burada üsyana rəhbərlik edən Fətəli Xan Kəyani Nadirin əsgərləri tərəfindən tutuldu. Lakin digər üsyançılar Kuh-e Xace qalasına qaçmağı bacardılar və iranlılara meydan oxumağa başladılar. Nadir həmin məsələni həll etməsi üçün, 40 000 nəfərlik qoşunla qardaşı oğlu Əliqulunu, daha sonra isə Təhmasib Xan Cəlairi ora göndərdi. Nadirin pulla bağlı tələbləri o qədər artdı ki, yaxın dairəsinə, hətta köhnə dostlarına və ailə

üzvlərinə qədər gedib çıxdı. O, Əliqulunun kiçik qardaşının əmlakını belə müsadirə etdi, eləcə də gürcü şahzadələri Teymuraz və Ereklinin öhdəsinə yüksək gəlir qoydu. Nadirə qanundankənar iş görənlərin uzun-uzadı siyahısı verildi, onların hamısı ölümə məhkum edildi. Nadirin törətdiyi vəhşiliklər o dərəcədə həddini aşmışdı ki, şahın qəzəbinə uğrayacaq növbəti qurbanların kim olacağı bilinmirdi. O, Əliquludan[1] 10.000 tümən, Təhmasib Xandan isə 50.000 tümən tələb etdi. Hər ikisindən də cavab gəlmədikdə şübhələnməyə başladı. Dəliyə dönən Nadir tez bir zamanda yeni əmrlər verdi, hər birinə digərini həbs etməyi tapşırdı. Ehtimal olunur ki, bu cür ağlasığmaz düşüncə ilə Nadir onlardan birinin şaha sadiq olduğunu, digərini öldürüb uğur qazanmağa çalışacağını güman edirdi.

Nadirin bacarıqsız hiyləsini yerinə yetirməkdənsə, Əliqulu ilə Təhmasib Xan Cəlair bu cür çətin vəziyyətdən necə çıxacaqlarını müzakirə etdilər. Onlar düşdükləri vəziyyətin mürəkkəbliyini dərk edərək belə qərara gəldilər ki, ayrı qalmaqdansa birlikdə hərəkət etmələri onlar üçün daha təhlükəsiz olar. Onların Nadirin sarayına gəlməmələri və sorğu-sualdan yayınmaları tədricən Sistandakı üsyana rəhbərliyi əllərinə aldıqlarını göstərirdi. Bu, əvvəlki üsyanlardan fərqli olaraq ciddi xarakterə malik idi, çünki onlar böyük təcrübə keçmiş, əllərinin altında veteran hərbçilər olan kapitanlar idi. Həmçinin onların Nadirin yaxın məmurları və hərbçiləri ilə çoxdankı dostluğu və qohumluq əlaqələri vardı. Nadir dərin kədər içində qardaşı oğluna verdiyi üstün imtiyazı və ixtiyarı xatırlayırdı. Əliquluya məlum idi ki, onun üsyanına əngəl törədəcək başlıca qüvvə Nadirə sadiq olan əfqanların qoşunu idi. 1747-ci ilin aprel ayında o, Əbdalilərin başçıları ilə

[1] Sistan sakinləri arasında hələ də üsyan əhvali-ruhiyyəsi hökm sürürdü.

danışıqlar aparmaq üçün Herata uğurlu səfər etdi. Nadir onun həbsi üçün order verməsinə baxmayaraq, Təhmasib Xan Cəlair Əliquludan fərqli olaraq üsyana görə olduqca narahat idi. O, Əliquludan öncə Nadirin ən sadiq zabitlərindən idi, onunla birlikdə çox döyüşdə iştirak etmişdi. Tahmasb Xan açıq şəkildə şaha yenidən sədaqətli olmaq istədiyini göstərirdi və Əliqulunu da fikrindən daşındırmağa çalışırdı. Əliqulu şübhəsiz ki, geriyə yol olmadığını yaxşı bilirdi. O, qoca camışı (yəqin Təhmasibi nəzərdə tutur) zəhərlədi.

Özünə gələn kimi Nadir vəhşiliyi və qəddarlığı Xorasana gedən yolda da davam etdirdi. Martın 21-də Kermanda olarkən hər zamankı kimi təmtəraqla Novruz bayramını qeyd etdi. Bununla yanaşı, şəhərdə yoxsulluq hökm sürsə də, insanların evi axtarılır, özləri döyülür, işgəncəyə məruz qalırdılar. Ötən il Kirmanda baş vermiş qısamüddətli üsyana görə Nadir yerli əhaliyə qarşı kin bəsləyirdi, bu səbəbdən şəhərdə kütləvi qətliamlar törədildi. İnsan kəllələrindən ucaldılan 2 hündür minarə olduqca dəhşətverici idi. Nadir ordusu martın sonunda şəhəri tərk etdi. Nadirin səhhəti yeni həkimi Bazinin sayəsində yaxşılaşırdı; çox güman ki, xəstəlik ötəri idi, buna görə də narahatlıqlarının keçməsinin səbəbi kimi Bazinin hazırladığı dərmanları göstərmək doğru olmazdı.

Hər fürsətdə baş verən hadisələr Nadirə keçmiş səhvlərini xatırladırdı. Cəza yürüşündən sonra ordu Dəşt-e Lut səhrasından keçdi, burada susuzluqdan çoxlu sayda insan və heyvan itgisi verən Nadir Xorasanın Təbas vilayətinə çatdı, burada onu (16 nəfər göstərilir) övladları və nəvələri qarşıladı. Nadir uzun müddət diqqətlə onlara baxdı, şübhəsiz ki, o, həyatını korladığı oğlu barədə düşündü və ona xəyanət edəcək növbəti övladının hansı

olacağı barədə özü-özünə acı-acı sual verdi. Nadir böyük oğulları Nəsrullah, İmamqulu və Şahruxu bir-birinin ardınca taxta çıxmağa çağırdı. Onların hər biri gənc və təcrübəsiz olduqlarından, üzr istəyərək, Nadirdən hakimiyyətdə qalmasını xahiş etdilər. Bu səhnənin şahidi olanların fikrincə, Nadir çətin ki, doğrudan da taxtdan getməyi düşünürdü, o, daha çox şəhzadələrin belə bir vəziyyətdə necə davranacaqlarını görmək istəyirdi və əgər onlardan biri taxta çıxmağa meyilli olsaydı, çox güman ki, Nadir onu həbs etdirəcəkdi. Nadir həmişə Kəlatda təqaüdə çıxmağı düşünürdü, kim bilir bəlkə də, bu dəfə o, həqiqətən fikrini gerçəkləşdirməyi qərarlaşdırmışdı. Lakin hakimiyyəti təhvil versə idi, əldə edə biləcəyindən daha çox özü üçün qazanardı. Təbasdan Məşhədə yollanan Nadir öz başkəsənləri ilə birlikdə aprelin sonunda şəhərə çatdı. Burada qəsbkarlıq, yaralama, cəza tədbirləri, işgəncə səhnələri yenidən təkrar olunmağa başlandı.

Məşhəddə hər şey Nadirin əsəbini və narahatlığını artırmaq üçün qəsdən qurulmuşdu. Üsyançılar onun elçilərini ələ keçirdikdən sonra Nadirə qara xəbər verildi. Aralarında Nadirin yaxın tərəfdaşları və xidmətçiləri də olmaqla çox insan Əliqulunun qalib gələrək bütün ölkəni bu ağır bəladan qurtaracağına ümid bəsləyirdi. Orada qəsd olacağı barədə şübhələr var idi və Nadirin casusları danışılanlar barədə ona məlumat verirdi. Nadirin məmurları onu daha da qəzəbləndirmək üçün qəsdən xəbərləri şişirdilmiş şəkildə ona çatdırırdılar. Artıq işgəncə və edamların daşındırıcı təsirləri zəifləmişdi, vəhşi əsəblə yoğrulmuş şah yetişmişdi. Daha az təhlükə törədəcəklərini düşünərək və onlara daha yaxşı nəzarət edə bilmək üçün Nadir ətrafına düşmənlərini toplamışdı, lakin indi öz zəifliyini dərk edirdi. Xorasandakı əvvəlki günlərdən

fərqli olaraq indi geri dönmək üçün qardaşı İbrahim, yaxud da çox güvəndiyi hərbçi Təhmasib xan Cəlair onun yanında yox idi. İndi öz doğma əyalətinə gəldiyi zaman özünü təhlükədə hiss edirdi: hər şeydən təcrid olunmuş yad adam kimi.

Çox insana görə Nadir 10 il bundan qabaq, özünü şah elan edəndə ona verilən kredit ehtiyatını keçmişdi. Ənənəvi olaraq şahın başlıca vəzifələri ədalətli olmaq, ölkədə qanun-qayda yaratmaq ona nəzarət etməkdir. Hakimiyyətinin ilk illərində düşmənləri ölkədən çıxaran, əyalətlərdə üsyana qalxmış valiləri ram edən bu ordu şahzadəsindən olduqca məmnun idi. Nadirin ədaləti kifayət qədər sərt idi, çoxunun fikrincə, bu, belə də olmalı idi, insanlar onun vicdanla qərar verdiyini düşünürdülər. Onun hərbi qələbələri möcüzəli görünürdü və insanlar inanırdılar ki, bu, Allahın razı qaldığını göstərir. Nadir qorxurdu və çoxu belə hesab edirdi ki, onun qorxmasının səbəbi ölkənin düşmənləri və zalımlar idi.

Hakimiyyətinin son dönəmində hər şey tamamilə dəyişdi. Nadir fiziki və psixoloji cəhətdən dəhşətli tənəzzülə uğramışdı və demək olar ki, əvvəlki Nadirdən əsər-əlamət qalmamışdı. O, real, yaxud xəyali, ağlagələn bütün növ cinayətlərdən fərqli olaraq çox qəddar davranırdı. Günahsız insanları belə ittiham edib cəzalandırırdı, buna görə də hamı özünü təhlükədə hiss edirdi. Şahı narahat edən mühüm problemləri həll etməkdənsə, ağlını itirmiş oğru kimi var-dövlət güdürdü. Onun ordusu imperiyanı qorumurdu, yaxud ictimai asyişin keşiyində durmurdu; onlar özlərini quldur dəstələri kimi aparır, yoxsulluq, köləlik, imiqrasiya əhali arasında daha da artmışdı. Şahın yaxın tərəfdaşları, hətta qohumları belə ölkədən uzaqlaşdırılırdı və elə bir şəraitdə Nadir hakimiyyətdə çox qala bilməzdi.

Onu əhatə edən təhlükədən xəbərdar olan Nadir Nəsrullahı, Şahruxu, digər şahzadələri və hərəmi Kəlata göndərdi. Lakin bir çoxu tərəfindən bu hərəkət bir zamanlar Rzaqulunun cəzalandırılmasına bənzədilərək, şahzadələrin həbsi kimi qiymətləndirildi və növbəti narazılığa səbəb oldu. Üsyan dalğaları yayılmağa başladı. Nadirin köhnə düşmənləri olan Kabuşan kürdləri Nadirə qarşı Əliqulunun yanında olduqlarını bildirərək, Məşhədlə Kabuşan arasında yerləşən şaha məxsus atçılıq fermasına basqın etdilər. Nadirin atlara qarşı xüsusi məhəbbət bəslədiyini hamı bilirdi, ola bilsin ki, bu, Nadiri Məşhəddən kənara çıxarmaq üçün Əliqulu ilə razılaşdırılmış hiylə idi. Nadir 16 000 qoşunla kürdləri əzmək üçün yola düşdü. Kürdlərdən bəzisi təpəliklərə qaçdı, qalanları Kabuşan qalasına geri çəkildilər. Qoşun 1747-ci ilin, iyunun 19-da axşam vaxtı, şəhərdən 7 ya 8 mil aralıda yerləşən kiçik Fəthabad təpəliyində düşərgə saldı. Yenidən kürdlərə hücum edərək üsyanı yatırmağa hazırlaşan Nadir sanki əvvələ qayıtdı.

Kürdlərdən başqa Nadir öz düşərgəsinin daxilindəki xainlərdən də narahat idi. O, ev işlərinə nəzarət edən Saleh Xana güvənmirdi, Keçikçibaşı Məhəmmədqulu xan Qereqlidən isə daha çox şübhələnirdi. Sonuncu Əfşar tayfasından idi, şahla qohumluq əlaqələrinə malik idi, ordu məmurları tərəfindən hörmət qazanmışdı və keçmişdə bir çox vacib məsələlərin həllində fəallıq göstərərək, xüsusilə fərqlənmişdi. O, Əfşar qəbiləsindən seçilmiş, Nadirin şəxsi mühafizəsi olan 1000 nəfərlik qoşuna rəhbərlik edirdi. Nadir onun bir çox məsələlərdə narazı olduğunu bilirdi; mənbələrdən birinin dediyinə görə Məhəmmədqulu Əliqulu ilə gizli əlaqə saxlayırdı, onlar şifrəli məktublaşırdılar. Hadisə Məhəmmədqulunun əfşarlardan ibarət

diviziyası gecə növbəsində olarkən baş verdi. Maraqlıdır ki, bu sonuncu səhnənin qəhrəmanları – yaxınları, Xorasan Əfşarları və Kürdlər, Nadirin fəaliyyətə başladığı ilk illəri, Əbivərdə yola düşməyə hazırlaşdığı vaxtları xatırlatdı. Nadir hələ erkən vaxtlardan törətdiyi vəhşiliklərdən, xəyanətlərdən və cinayətlərdən sonra onlar tərəfindən özünə nifrət qazanmışdı; bu nifrət onların içində sadəcə basdırılmışdı. Nadirin gücü solan kimi köhnə hesablar meydana çıxmış, o öz düşərgəsində tənha adama çevrilmişdi. Nadir axşam tərəfi Məhəmmədqulu xan və qaravul dəstəsinin digər əməkdaşlarının üzərindən təhdidi aradan qaldırmaq qərarına gəldi.

O, illərdir ordunun yarısını iranlılardan, qalanını qeyri-iranlılardan, şiələrdən və sünnilərdən olmaqla narahat balansda saxlayırdı. Bunun səbəbi ordunun ağırlığının bir qəbiləyə, yaxud məzhəbə düşməməsidir, onun fikrincə, rəqabət vəziyyətində hər bir qrup daha canla-başla fəaliyyət göstərir. O, 4 000 nəfərlik Əfqan ordusunun komandiri Əhməd Xan Əbdalini yanına, düşərgədə şəxsi qonaqları üçün ayrılmış çadıra çağırdı. Əhməd xan yanında bir neçə əfqan hərbçi ilə birlikdə gəldi.

Nadir əfqanlara öz mühafizə dəstəsinin xəyanət edəcəyindən şübhələndiyini dedi. O, əfqanlara güvəndiyini bildirərək, onlara növbəti gün qaravulçu dəstəsini həbs etmələrini, müqavimət göstərəni isə öldürməyi tapşırdı. Əhməd Xan Əbdalinin 24 yaşı vardı, lakin olduqca istedadlı hərbçi idi. O öz mövqeyini bütünlüklə Nadirə borclu idi, 1738-ci ildə İran ordusu Qəndəhar qalasını tutduğu zaman Nadir onu zindandan azad etmişdi. O başa düşürdü ki, Nadir kütləvi şəkildə iranlı məmurlarının qətlini nəzərdə tuturdu. Onun adamları orduda iranlılara, eləcə də mühafizəçilər dəstəsinə düşmən münasibətdə idilər,

lakin şaha sədaqətləri sonsuzdu. Əhməd xan Nadirin əmrlərini yerinə yetirəcəyinə söz verdi və əfqanlar getdilər.

Həmin an orada həqiqətən nəyin baş verdiyini soruşmalıyıq. Nadirin hərəkəti onu gözləyən təhlükədən xəbərdar olduğunu göstərirdi. O, tamamən rasional olmasa da, lakin özünümüdafiə adətən aydın düşünməyə stimul verir. Əgər əfqanlar onun yanında olan vaxt Nadir şübhələndiyi məmurlarını yanına çağırsa idi, bəlkə də problemi kökündən həll edə bilərdi. Niyə görə o, əfqanlara qaravul dəstəsinin üzvlərini dərhal həbs etməyi tapşırmadı? Bu böhrana baxmayaraq, düşmənlərinə onu qabaqlamaq üçün bütöv bir gecə verdi. Demək olar ki, o, düşmənlərini məhv etmək haqda əmr verərkən, yarımağılla düşünərək, belə qərara gəldi ki, artıq yolun sonudur və qəsdən onu öldürmələri üçün düşmənlərinə şərait yaratdı.

Kimsə Nadirlə əfqanların söhbətini dinləyib, Məhəmmədqulu xana bu barədə məlumat verdi. O, Saleh xanı tapdı və onlar belə qərara gəldilər ki, əfqanlar hərəkətə keçməzdən öncə, həmin gecə şahı öldürsünlər. Onlar əyanlardan, keşikçilərdən və digər xidmətçilərdən ibarət, güvəndikləri 70 nəfər topladılar. Həmin gecə Nadir öz ənənəvi çadırında deyil, Məhəmməd Hüseyn xan Qacarın qızı, bir vaxtlar onun sevimli xanımlarından biri olan Çukinin yanında yatdı. Mənbələrdən birinin verdiyi məlumata görə Nadir pis yuxu gördüyündən bütün gün narahat vəziyyətdə idi, həmin yuxunu o şah olmamışdan əvvəl də çox görmüşdü. Sonra o gördü ki, bir qrup əyan onun yanına gəldi. Onların biri Nadirə qılınc verərək bununla İran şahlığının ona əmanət olunduğunu dedi. İndi o yenə də həmin şəxsi yuxuda görür, bu dəfə o şaha belə deyir: "Bu qabiliyyətsizin belindən qılıncı götürün,

o, bu tapşırığa layiq deyil". O yuxuda qılıncı tutmağa çalışır, lakin bacarmırdı. Səhəri gün Nadir yuxusunu öz əyanlarından birinə danışdı, belə qərar verildi ki şah Kəlata getsin. Lakin əyan burada qorxulu bir şey olmadığını deyərək, onu sakitləşdirməyə çalışdı.

Nadir axşam Cukinin yanına gələndə qadın onun çox narahat və əsəbi olduğunu gördü. Nadir papağını çıxarıb döşəmənin üzərinə qoydu, bu vaxt onun ağ saçları üzə çıxdı. Rənglədiyi bığı ilə saçı qətiyyən bir-birini tamamlamırdı. Nadir çox yuxulu olsa da, yatmaq üçün soyunmadı. Paltarlı yerinə uzandı. Cukiyə bir az mürgüləyəcəyini, dərin yuxuya getsə, onu oyatamasını tapşırdı. Suiqəsdçilər hərəmxananya yaxınlaşanda heç biri irəli keçməyə cürət etmədi. Təkcə Saleh xan, Məhəmməd xan Qacar İrəvani və başqa bir nəfər çiyinləri ilə digərlərini kənarlaşdırıb, onların yolunu kəsən xədim zənci gözətçini öldürərək içəri daxil oldular. Səs-küyə oyanan Cuki Nadiri oyatmaq üçün silkələyəndə Saleh xan içəri girdi. Nadir cəld yataqdan sıçrayaraq əlini qılıncına tərəf uzatdı. Əsəbi halda var gücü ilə qışqırdı, lakin ayağı büdrədi. Şah yerdə uzananda Saleh xan qılıncı Nadirin boynu ilə çiyni arasına salaraq, qolunu kəsdi, lakin sonra özünü itirmiş halda Saleh xan cəld otağı tərk etdi. Yerdə qanlar içində uzanan Nadir nə qədər qalxmağa çalışsa da, buna müvəffəq ola bilmədi. Nadir onlardan həyatını bağışlamalarını istədi. Saleh xandan daha qətiyyətli olan Məhəmməd xan Qacar irəli addımlayaraq, bir qılınc zərbəsi ilə Nadirin başını kəsdi.

Nadirin ölümü ilə ölkədə hərc-mərclik baş qaldırdı. Qatillər Nadirin və xanımlarının çadırlarını qarət edir, əllərinə keçən hər şeyi mənimsəyirdilər. Bu vaxt Nadirin iki

yüksək rütbəli məmurunu öldürmüşdülər[1]. Onlar qarət planını səhərə saxlamağı nəzərdə tutsalar da, ölünü qarət etməkdən özlərini saxlaya bilmədilər. Səhəri gün Əhməd xanın başçılığı ilə əfqanlar yerlərindən qalxıb, meyitləri kənara itələyərk, şah çadırına tərəf getdilər, özlərindən iki dəfə çox olan gözətçiləri zərərsizləşdirərək irəlilədilər. Onlar Nadirin ölümünə inanmaq istəmirdilər, keşikçilərlə kiçik qarşıdurmadan sonra çadırın içinə soxuldular. Nadirin qanlar içində yerdə uzandığını və yaşlı bir qadının onun başı üzərində ağladığını gördülər. Əfqanlar düşərgədən çıxıb Qəndəhara doğru yol aldılar. Onlar düşərgədən bir qədər aralıda Məhəmmədqulu xanın qarət edərək Məşhədə göndərdiyi xəzinəni qoruyan mühafizə dəstəsinə hücum etdilər. Əfqanlar xəzinənin qiymətli daşları içərisində "Kuh-e Nur" almazını götürüb, evlərinə doğru getdilər.

Əhməd xan bilirdi ki, onun keçmiş silahdaşlarını bir müddətliyə Herat və Qəndəhardakı işlərdən uzaq tutmağa əlində çox imkan var. Qəndəhara çatanda Əhməd xan əfqan qəbilə başçılarını toplayıb qurultay çağırdı, Əhməd şah Dürrani adını götürərək, özünü Müstəqil Əfqan dövlətinin birinci şahı elan etdi. Sonradan fəth etdiyi Hindistanın şimal hissəsi əlindən çıxsa da, Əhməd xan əsasını qoyduğu dövləti uğurla idarə etdi. Ara qarışan zaman və həmin ərəfədəki qarşıdurmalardan özünü kənara çəkən Məhəmmədqulu xan Fəthabaddakı düşərgəyə geri döndü, tapşırığın yerinə yetirildiyini göstərmək üçün Nadirin başını Əliquluya göndərdi. Çirkin həqiqət

[1] Çünki həmin gün qaçıb canını qurtara bildi və tarixdə həmin gecənin təfərrüatları barədə onun danışdığı informasiya qaldı. Bazinin dediyinə görə, qatillər Nadirin hərəmxanasından qızıl və qiymətli daşlar götürməyə üstünlük verdilər.

ortaya çıxana qədər Bəxtiyarilərdən ibarət qoşun xəzinəni və Nadirin ailəsini qorumaq üçün Kəlata yollandı. Bəxtiyarilər qalanı mühasirə etdilər. Bir neçə gündən sonra su gətirmək üçün çıxan bir nəfər tərəfindən qalalardan birinə gedən pilləkən orada qaldı, çox güman ki, Əliqulunun adamlarından biri qalaya daxil olmaq üçün bunu qəsdən etmişdi. Bu vaxt Nəsrullah, İmamqulu və Şahrux başlarını itirmiş halda ata minib birbaşa Mərvə doğru istiqamət götürdülər. Düşmənlər onları təqib edərək, İmamqulu və Şahruxu 30 mil aralıda tutdular. Nəsrullah onu tutmağa çalışan adamı qılıncı ilə bir zərbə endirərək kənarlaşdıraraq Mərvə tərəf yolunu davam etdirdi. Lakin qarnizondan bir neçə əsgər onu tanıyıb, tutaraq Kəlata göndərdi. Hər üçü – Nəsrullah, İmamqulu və Şahrux Məşhədə gətirildilər, böyük şahzadələr burada edam edildilər. Həmin vaxt keçmiş qızıl oğlan, yazıq, kor edilmiş Rzaqulu da Kəlatda qətlə yetirildi.

13 yaşı olan Şahruxu öldürməyərək, gizlətmək qərarına gəldilər. Çünki onun anası Səfəvi şahzadələrindən biri idi. Əliqulu çətinliyə düşsə, lazım gəlsə ondan istifadə etməyi düşünürdü. Nadirin digər oğlan övladları və nəvələri (20-dən çox) qətlə yetirildi; ən körpələr belə. Hətta biri 3 yaşlı, digəri isə Çingiz xanın şərəfinə Çingiz adlandırılan 18 aylıq, 2 kiçik oğlan uşağı da zəhərlənərək öldürüldü. Lakin burada qətllərin ardı-arası kəsilmədi. Nadirin varislərinin dünyaya gəlməsinin qarşısını almaq üçün Əliqulu hərəmxanadakı hamilə qadınların qarınlarını yardırırdı. Nadirin qətlindən 2 həftə sonra Əliqulu ədalətli mənasını verən Adil şah təxəllüsünü götürərək özünü yeni şah elan etdi.

İranın faciəli günləri Nadirin ölümündən sonra da bitmədi. İmperiyanın böyük hissəsi növbəti 50 ildə baş ve-

rən daxili müharibələr zamanı parçalandı. Əliqulu bir ilə yaxın hakimiyyətdə qaldı: o öz gücünü möhkəmlətməkdənsə, daha çox özünü əyləndirməyə maraq göstərirdi. Həmin vaxt ordu Xorasanda özbaşnalıqlar törədir, keçmiş rəhbərlərinin öyrətdiyi kimi, zor gücünə qəsbkarlıq etməyi təcrübədən keçirir, Məşhəddə aclığa səbəb olurdular.

Əliqulu Fəthabadda Nadirə suiqəsdin təfərrüatını fikirləşib hazırlayan keçikçi başı Məhəmmədqulunu, öz şəxsi mühafizə dəstəsinin başçısı kimi yanında saxlayırdı. Yeni şahın idarə üsulu da əhali tərəfindən bəyənilmədi, Məşhəddə aclıq başladı, yenə də Məhəmmədqulu öz ustadına qarşı qəsd planı hazırladı, lakin bu dəfə Əliqulu casuslar tərəfindən xəbərdar edildi. O, Məhəmdqulunu tutduraraq gözlərini çıxartdırdı. Bir mənbənin məlumatına görə, sonra Məhəmmədqulu Nadirin hərəmxanasından sağ qalmış qadınların qaldığı yerə atıldı. Həmin qadınlar Məhəmmədqulunu görəndə qayçı və tikiş üçün istifadə etdikləri iti uclu bizlə onun üstünə düşdülər. Onlar Məhəmmədquluya işgəncə verməkdən yorulanadək o ölmədi. Axırda Əliqulunun doğma qardaşı onu taxtından devirərək kor etdi, sonra onların hər ikisi bir-biri ilə güc mübarizəsində öldülər. Zorakılıq və hərcmərcilik davam edirdi: 1748-ci ildə Şahrux bir qrup məmur və əyan tərəfindən taxta çıxarıldı, lakin çox keçmədən devrilərək kor edildi. Sonda o taxtı təhvil verərək, Əfqanıstanın hökmdarı Əhməd xan Dürraninin və onun varislərinin təsiri altında parçalanmış şahlığın başçısı kimi fəaliyyətini davam etdirdi. Şahrux qəmli kor kukla kimi 1796-cı ilədək davam gətirə bildi. Qafqazda Nadirin digər yetişdirməsi İrakli Gürcüstanda müstəqil dövlətin əsasını qoydu.

Bir neçə il ərzində, ordunun müxtəlif nümayəndələri, Nadirin adamlarının çoxu Xorasana evlərinə geri qayıt-

mışdılar. Onların içərisində Loristandan olan kiçik Zənd tayfası da vardı. Həmin tayfanın başçılarından biri Kərim xan Zənd özünü İranın qərb hissəsinin hakimi təyin edərək, 1765-ci ildən 1779-cu ilə kimi oranı sülh içində idarə etdi. O, heç vaxt özünü şah elan etmədi, Şirazın naibi kimi fəaliyyət göstərdi. Onun ölümündən sonra 1779-cu ildə orada yenidən vətəndaş müharibəsi baş verdi və Astrabaddan olan Qacarlar üstünlük əldə etdilər. 1726-cı ildə Təhmasibi qətlə yetirən Fətəli xan Qacarın nəvəsi Ağa Məhəmməd 1796-cı ildə özünü şah elan edərək, 1925-ci ilə kimi hökmranlıq edən Qacarlar sülaləsinin əsasını qoydu. 1722-ci ildən fərqli olaraq, 1747-ci ildə Nadirin ölümündən sonra xarici qüvvələr üstünlüyü əldə etmək uğrunda mübarizədə İrandakı hərc-mərclikdən öz xeyirlərinə istifadə etmədilər. Nəticədə Ağa Məhəmməd xanın başçılığı ilə Qacarlar İranın ənənəvi sərhədlərini bərpa etdilər. 1795-ci ilin sentyabrında Ağa Məhəmməd Gürcüstanı işğal etdi, lakin bu uğur uzun sürmədi. Onun zalımlığı Rusiyanın maraqlarını qarışdırdı, Rusiya 1800-cü ildə həmin ərazini ilhaq etdi. XIX əsrdə Rusiya ilə aparılan silsilə müharibələrin nəticəsində Qacarlar Qafqazdakı digər mülklərini də itirdilər, sonra Böyük Britaniyanın təsiri ilə hətta Heratı qaytarmaq cəhdlərindən də əl çəkməli oldular.

Nadirin ruhu bir günah kimi Qacarlar sülaləsinin başı üzərində dolaşırdı. Qacarlar itirilmiş torpaqları ələ keçirdi, ölkəni mərkəzlərşdirdi, bir sıra islahatlar həyata keçirdilər, lakin onlar güclü və müasir ordu qurmağa müvəffəq olmadılar. İranın qəzəbli sərhədləri arxasında onlar keçmiş Səfəvi üsul idarəsinə qayıdır, dünya səhnəsində sakit yaşayış üçün mübarizə aparmaqdan boyun qaçırırdılar. Qacarlar sülaləsinin son şahının səlahiyyətləri bitənə qə-

dər, müstəmləkəçi qüvvələrə İranın süverenliyini məhdudlaşdırmağa imkan yaratdılar, Britaniya və Rusiya ölkə daxilindəki bəzi əraziləri özlərinin təsir dairələri elan etdilər.

Nadir ölkəni müharibələrin içinə atmışdı, əgər onun sülaləsi hərbi uğurların ağırlığına müdrikliklə səbr göstərsə idi, (bəzi müasir alimlərin fikrincə, əgər hakimiyyətə gəlsə idi, Rzaquluya ümid etməyə səbəblər vardı) dövlət strukturlarının yüksəlişi, islahatlar və modernləşmə, XVII və XVIII əsrlərdə Fransa, Prusiya və Avropanın digər ölkələrində olduğu kimi, mütləq hərbi genişlənmə ilə müşayiət olunardı. Bundan əlavə İslam aləmində İranın dominantlığı, müsəlmanların şiə və sünni məzhəblərinə bölünməsinin aradan qaldırılması, Qərblə birgə inkişaf yoluna qədəm qoymaq da gözlənilə bilərdi. Avropada geniş (inkişaf etmiş) dövlətlər hələ də öz qonşuları ilə hərbi və mədəni istiqamətdə rəqabət aparırdılar, XIX əsrdə iqtisadi rifahın daha da çiçəklənməsinə, sürətlə inkişafına və nəhayət, demokratikləşməyə aparan sosial siniflərin meydana gəlməsi zərurəti yarandı. İranda güclü sosial sinif olan tacirlər və sənətkarlar (onlar şiə üləmalarla ittifaqa girib, nəticədə 1905-1911-ci illər konstitusiya inqilabını həyata keçirdilər) iqtisadi, sosial və siyasi çıxışlarda regiondakı digər ölkələrlə müqayisədə daha çox imkanlara sahib idi; Avropadakı inkişaf və bənzəri dəyişikliklərin burada baş verməməsi üçün heç bir səbəb yox idi. Burada bir sıra iddialar düşünülə bilər, lakin Nadir 1743-cü ilə kimi artıq təəccübləndirici uğurlara nail olmuşdu. O öz üstünlüyünü Moğol İmperiyası üzərindən nümayiş etdirmişdi, Osmanlı İmperiyasında da eyni ilə uğura nail olmağa olduqca yaxındı və dünyada olmasa da, Asiyada ən güclü orduya sahibdi. Bu və ya digər şəkildə militarist mütləqiyyət həmin dövrdə iqtisadi, siyasi və sosial inkişafın xəbərçisi

oldu. Əgər Nadir və sülaləsi uğur qazansa idi, bu gün İran tarixində Rusiya tarixindəki Böyük Pyotrla müqayisə ediləcək şəkildə yaddaşlarda qalardı: öz dövlətini yeni yola götürən qəddar və dinamik hökmdar kimi[1]. Lakin bütün bunlar baş vermədi, çünki 1742-ci ildə Nadirin hakimiyyəti axsamağa başladı, repressiv xarakter aldı və uğursuzluğa düçar oldu. Hakimiyyətinin məqsədi yerinə yetirilmədi. Əldə olunan imkanlar itirildi və ölkə əvvəlki vəziyyətinə, hərc-mərcliyə və durğunluğa geri döndü.

Nəticədə hökmdarlar nə baş verə biləcəyi ehtimalına görə deyil, öz hakimiyyətlərinin real nəticələrinə görə mühakimə olunmalıdırlar. XIX əsrin əvvəllərində Con Malkolm yazır ki, iki əsr sonra iranlılar Nadirin şərəfli fəaliyyəti haqqında qürurla, hakimiyyətinin sonrakı illərində etdiyi qəddarlıqlar barədə isə təəssüf hissi ilə danışırdılar. Törətdiyi cinayətlərə baxmayaraq, xalq onun iranlılarda keçmiş böyüklük hissini yenidən canlandırdığına və ölkənin müstəqilliyini təmin etdiyinə görə ona minnətdar idi. Məşhədi işğal etdiyi 1726-cı ildən onun ölümünə qədər, yəni 1747-ci ilədək keçən bu 20 ilə yaxın müddətdə Nadir İranın sərhədlərini bərpa etdi, əfqanları ölkədən çı-

---

[1] Nadir heç vaxt I Pyotr kimi ardıcıl qərbyönümlü siyasətə meyil etmədi, I Pyotrdan fərqli olaraq o, iqtisadi inkişafa maraq göstərmədi. Əgər Nadir rejimi 1741-1742-ci illərdə böhran relsləri üzərində dayana bilmişdisə, demək uzun müddət buna tab gətirə bilərdi. Pyotrun vaxtı çox idi. O, 1682-ci ildən 1725-ci ilə qədər hakimiyyətdə oldu; 43 il, Nadir isə 11 il (əgər Təhmasibin taxtdan devrildiyi 1732-ci ildən götürsək, Nadirin həmin dövrdəki hakimiyyəti də daxil olmaqla 15 il) və Pyotrun əksər mütərəqqi islahatları onun hakimiyyətinin sonrakı mərhələsində, 1697-1698-ci illərdə Almaniya, Hollandiya, İngiltərə və Avtriyaya səfərlərindən sonra həyata keçdi. Bu iki şəxs arasında başqa oxşar tərəflər də var: hər ikisinin də hərb sahəsinə xüsusi qayğı göstərmələri, xəyanətdən şübhələnərək oğanlarına qarşı qəddar davranış nümayiş etdirmələri. Pyotrun böyük oğlu Aleksey 1718-ci ildə həbs edilərək, ağır işgəncədən sonra ölmüşdü.

xardı və Dehlidən Bağdada qədər olan ərazidə hakim güc olaraq öz iqtidarını bərqərar etdi. Bunu edərkən o, 20 mildən[1] çox məsafə qət etdi və birindən başqa hamısında qalibiyyət qazandığı 20, yaxud daha çox böyük döyüşlər keçirdi. Böyük bir ərazini və iri hərbi gücü idarə etmək qabiliyyətinə, tamamilə qeybdən gələn siyasi uğurlarına və nailiyyətlərinə diqqət yetirsək, onun İran tarixində tayı-bərabəri yox idi, dünya tarixində isə çox az bənzəri vardı. Nadirin qıcıqlandıran uğurları geniş imkanlar açdı və onun qələbələri millət kimi İranın həyatda qalmasını təmin etdi: bu, onun hakimiyyəti dövrünün qalıcı təsirlərindən biri idi. Lakin Nadirin hakimiyyətinin son illəri uğursuzluqla müşahidə olundu, sadəcə öz həyat tərzi ilə milyonlarca insana verdiyi dəhşətli acılara və rüsvayçı ölümünə görə yox, həmçinin hakimiyyətinin dağılması ilə itirilən imkanlara və sonrakı illərdə dağıntılara səbəb olduğuna görə ölkəsi üçün böyük fəlakətə çevrildi. Nadirin ölümü milli alçalma və qarışıqlıqla müşahidə olundu, gələcək nəsil Rzaqulu kor edildikdən sonra dediyi sözləri dəyişərək məşhur deyimə çevirdi: "Sən mənim gözlərimi deyil, İranın gözlərini kor qoymusan".

[1] Kobud və mühafizəkar təxminə əsasən, bütün həyatı boyu Nadirin qət etdiyi məsafə bəlkə də Yer kürəsinin çevrəsi boyunca olan məsafəyə bərabərdir, onun getdiyi yerlərin sırasına dünyadakı ən çətin keçilən ərazilər də daxildir.

## QEYDLƏR VƏ TARİXİ MƏLUMATLAR

Kitabla tanış olan oxucu müəllifin, Nadirin ordusuna münasibətdə "farslar" kəlməsindən istifadə etdiyini, İran əhalisinin cəminə "farslar" ifadəsilə xitab etdiyini görməmiş deyil. M.Aksvörtinin həm etnoloji, həm də sırf tarixi baxımdan yol verdiyi sözügedən xətaya bu nəşrin elmi redaktoru, akademik Ramiz Mehdiyev ön sözündə kifayət qədər ətraflı münasibət bildirdiyindən, məsələyə ətraflı şərh verməyə geniş lüzum yoxdur. Yalnız onu qeyd edə bilərik ki, tərcümə zamanı mütərcimlər "farslar" ifadəsini daha geniş məna verən və İranda yaşayan bütün xalqları əhatə edən iranlılar ifadəsi ilə əvəz etməyi lazım bilmişlər. Həqiqətən də, iranlılar anlayışı tarixi kontekstdə həqiqətə daha yaxındır. Unutmaq lazım deyil ki, həm say tərkibi baxımından, həm də nüfuz nöqteyi-nəzərindən türk olan Nadirin ordusunda türk mənşəli xalqların nümayəndələri farslarla müqayisədə açıq-aşkar üstünlüyə malik idilər. Bu səbəbdən də Nadirin sərkərdələrini və ordusunu "fars" kimi qələmə vermək kobud tarixi səhvdir.

Akademik Ramiz Mehdiyevin ön sözdə faktlarla göstərdiyi kimi, M.Aksvörti öz tədqiqatında Nadir şahın ictimai-siyasi irsi ilə bağlı bir sıra məsələlərin üzərindən ya ötəri şəkildə keçmiş, ya da onları Qərb şərqşünaslarının ənənəvi qəbul edilmiş nöqteyi-nəzərinə müvafiq şərh etmişdir. Bu məqamları nəzərə alıb Nadir şahın həyatı və fəaliyyətilə bağlı bəzi məsələləri şərh etmək ehtiyacı yaranmışdır.

***Əfşarlar*** – həm Azərbaycanın, həm də İranın istər hərbi-siyasi, istərsə də mədəni həyatında dərin iz qoymuş nüfuzlu türk tayfalarından biridir. Əfşarlar nəslinin yetişdirdiyi görkəmli şəxsiyyətlər arasında Nadir şah Əfşarla yanaşı, Ağqoyunlu hökmdarı Uzun Həsənin ən yaxın əyanlarından sayılan Mənsur bəy Əfşarın, Səfəvi dövlətinin banisi Şah İsmayıl Səfəvinin etibarlı silahdaşları Əhməd Soltan və Şahrux Əfşarların, I Təhma-

sibin məşhur sərkərdəsi Xəlil xan Əfşarın, Savə vilayətinin hakimi olmuş, hərbçi, dövlət xadimi Mahmud sultan Əfşarın, Xorasan vilayətinin bir hissəsinə hakimlik etmiş Yegan sultan Əfşarın, XVI əsrin tanınmış rəssamı, xəttat, miniatür ustası, təzkirəçi və şair Sadiq bəy Əfşar (1533-1613) və digərlərinin adlarını çəkə bilərik. Tarixi məlumatlardan belə aydın olur ki, Nadir şahın ordusunda, həmçinin o dövrün siyasi həyatında da Əfşar tayfasının nümayəndələri mühüm yer tutmuşlar. Nadirin Əfşar nəslindən olan silahdaşlarından Fətəli xan Əfşarı, Qasım bəy Qırxli-Əfşarı, Səlim xan Əfşarı, Əmiraslan xan Əfşarı və digərlərini qeyd etmək mümkündür. Ümumi qəbul olunmuş rəyə əsasən Əfşarlar tayfası monqol yürüşləri zamanı Mərkəzi Asiyadan İrana, Azərbaycana və Anadoluya köç edərək, bu torpaqlarda məskunlaşmışdır. Türk dilindən tərcümədə isə "əfşar" sözü "cəld", "öz işini tez yerinə yetirən" mənalarını verir. ***[Əfşarlar tayfasının etnik mənşəyi haqqında daha ətraflı bax: Л.Локкарт. «Надир шах». Перевод с английского: Н.Р.Гезаловой, Баку, 2004; стр. 23, M.Süleymanov. "Nadir şah", Tehran, 2010, səh. 12; Стенли Лен-Пуль. «Мусульманские династии. Хронологические и генеалогические таблицы с историческими введениями». Перевел с английского с примечаниями и дополнениями: В.В.Бартольд. Санкт-Петербург, 1899, стр. 218; К.Э.Босворт. «Мусульманские династии». Справочник по хронологии и генеалогии. Перевод с английского и примечания: П.А.Грязневича. Москва, 1971, стр. 230].***

Tanınmış türkiyəli tarixçi F.Sümər mənbələrdə "Əfşar" sözünün müxtəlif variasiyalarda işləndiyini qeyd etmişdir. "Əfşar" tayfası haqqında ilk tarixi məlumatlara Mahmud Kaşğarlının "Divan-i lüğət-it-türk" əsərində (XI əsr), XIII əsr müəllifi Mübarək şahda, XIV əsrin görkəmli dövlət xadimi və salnaməçisi Fəzlullah Rəşidəddinin "Cəmi ət-Təvarix" salnaməsində rast gəlinir. Monqollara qədər bu ad "Əfşar" şəklində, monqol yürüşlərindən sonrakı dövrdə isə "Əvşar" formasında istifadə

edilmişdir. ***[bax: F.Sümer. "Afşar". "Diyanet İşleri İslam Ansikopedisi". İstanbul, 1991, IV cild, səh. 164-165].***

***Nadir şahın valideynləri*** haqqında tarixi qaynaqlarda ətraflı məlumat mövcud deyil. Bu barədə əlimizdə olan məhdud məlumatlardan aydın olan odur ki, onun atasının adı İmamqulu idi. Gələcək fatehin anasının adı haqqında isə yalnız ehtimallar səsləndirilir. Bəzi tarixçilər bu xanımın adının Həcər olduğunu güman edirlər.

***Şah II Təhmasib (1722-1732)*** – Səfəvilər dövlətinin sonuncu hökmdarı. Onun 10 illik hakimiyyəti başdan-başa uğursuzluqlar və məyusluqlar salnaməsidir desək, yəqin ki, yanılmarıq. Atası sultan Hüseynin əfqanlar tərəfindən taxtdan salınmasından sonra hakimiyyətə gələn II Təhmasib Fars körfəzindən Orta Asiyaya qədər uzanan böyük Səfəvi imperiyasının əhəmiyyətli bir qisminə faktiki olaraq nəzarət etmirdi. Belə ki, 1722-1724-cü illər ərzində güclənməkdə olan Rusiya imperiyası Səfəvilərin zəifləməsindən bəhrələnərək, Dərbənd də daxil olmaqla Xəzərsahili bölgələri ələ keçirdi. Qafqaz və İrandakı maraqlarının təhlükə altına düşdüyünü hiss edən Osmanlı dövləti eyni vaxtda hərbi əməliyyatlara başlayaraq, Azərbaycan və İranın böyük bir hissəsini ələ keçirdi. Çıxılmaz vəziyyətdə qalan II Təhmasibin dadına 1726-cı ildə onun xidmətinə daxil olan Nadirqulu (gələcək Nadir şah) çatır. Təhmasibə sədaqət andı içən Nadir özünə Təhmasibqulu adını götürür bə qısa zamanda ona göstərilən etimadı artıqlaması ilə doğruldur. Belə ki, 1726-1729-cu illər arasında aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində Xorasan bütünlüklə əfqanlardan və qiyamçılardan təmizlənir, paytaxt İsfahan üzərində nəzarət tamamilə bərpa olunur. Yalnız bundan sonra II Təhmasib paytaxta qayıdaraq öz taxtına əyləşə bilir. 1730-cu ildə Nadir şah Azərbaycan ərazisini ələ keçirmiş Osmanlı qoşunlarına bir-birinin ardınca sarsıdıcı zərbələr endirərək ələ keçirilmiş əra-

zileri geri almağa müvəffəq olur. Nadir şahın qazandığı qələbələrdən və onun nüfuzunun artmasından təşvişə düşən II Təhmasib xəyanət yoluna əl atır və Osmanlı dövlətilə separat danışıqlara gedir. 1731-ci ildə imzalanan sülh müqaviləsinə əsasən o, Araz çayından şimala doğru uzanan bütün Azərbaycan torpaqlarını, həmçinin Kermanşah vilayətinin 9 məntəqəsini Osmanlı imperiyasına güzəştə gedir, bunun müqabilində isə türk sultanı onu Səfəvi hökmdarı kimi tanıyır. Baş verənlərdən xəbər tutan Nadir şah II Təhmasibin hərəkətlərini vətənə xəyanət olaraq qiymətləndirir və 1731-ci il müqaviləsini tanımadığını bildirir. Osmanlı dövlətinə qarşı əməliyyatları davam etdirən Nadir 1733-1735-ci illər ərzində bütün Cənubi Qafqazı türklərdən təmizləyir. Onun tələbi ilə 1732-ci ildə çağırılan qurultay II Təhmasibin taxtdan uzaqlaşdırılmasına qərar verir.

Əhaliyə ünvanladığı müvafiq məktubunda Nadir şah II Təhmasibi ölkənin taleyinin həll olunduğu bir dövrdə şəxsi mənfəətləri naminə xəyanətə əl atmaqda günahlandıraraq, onun dərhal taxtdan salınmasının zəruriliyini qeyd etmişdir. II Təhmasibin yerinə onun 8 aylıq oğlu III Abbas (1732-1736) Səfəvi hökmdarı elan olunur. Nəhayət, Azərbaycanı və İranı ruslarla osmanlılardan təmizləyən Nadir 1736-cı ildə Muğan düzündə təşkil edilən qurultayda şah elan edilir və 4 yaşlı III Abbas sürgündə olan atası II Təhmasibin yanına – Xorasana göndərilir. Çox keçmir ki, onların hər ikisi qətlə yetirilir. Bununla da Azərbaycan tarixində ilk mərkəzləşmiş imperiyanın – Səfəvilər dövlətinin varlığına son qoyuldu.

***Təhmasibqulu xan Cəlair*** – Nadir şahın ən etibarlı və nüfuzlu sərkərdələrindən biri olmuşdur. Onun ulduzu ilk dəfə 1732-ci ildə Nadir şah tərəfindən Səfəvilər dövlətinin paytaxtı İsfahan şəhərinə hakim təyin olunarkən parlamışdı. Qısa zamanda öz cəsurluğu və sədaqəti hesabına Nadirin etimadını qazanmağı bacaran Təhmasibqulu xan bir çox üsyanların, o cümlədən Məhəmmməd xan Bəlucun, Surxay xanın, əfqan

hakimi Mahmudun qiyamının yatırılmasında misilsiz xidmətlər göstərmişdir. Daha sonra Nadirin Azərbaycandakı hərbi qüvvələrinə komandanlıq edən Təhmasibqulu xan Cəlair Şiraza göndərilmiş və burada hökm sürən özbaşınalıqlara sərt bir şəkildə son qoymuşdu. 1736-cı ildə Nadir şahın Muğanda keçirilən tacqoyma mərasiminə dəvət alan mötəbər qonaqların sırasında idi. Həmçinin o, Nadirin oğlu Rzaqulu Mirzənin başçılığı ilə Türküstanda həyata keçirilən əməliyyatın uğurla başa çatmasında böyük rol oynamışdır. 1738-1747-ci illərdə Şərqi İrandakı qoşunların komandanı, həmçinin Kabul valisi vəzifələrində xidmət etmişdir. 1747-ci ildə Nadir şaha qarşı sui-qəsd hazırlığında olan şahın qardaşı oğlu Əliqulu xan tərəfindən zəhərlənərək öldürülmüşdür.

***Mirzə Məhəmməd Mehdi xan Astrabadi*** – Nadir şahın katibi və saray tarixçisi, Nadirin həyatından və yürüşlərindən bəhs edən məşhur "Tarix-i Cahanqoşa-yi Nadiri" və "Dürreyi-Nadiri" salnamələrinin müəllifi. Səfəvilər nəslinə mənsub olan Mirzə Mehdi xan Nadir şahın diqqətini çox tez cəlb etmişdir. O öz savadı, geniş dünyagörüşü və zəkası ilə seçilən bu şəxsi sarayına dəvət edərək, katib vəzifəsinə təyin etmişdir. Ona həvalə edilən vəzifəni uğurla icra edən Mirzə Mehdi xan eyni zamanda elmlə də məşğul olmağa vaxt tapmışdır. "Tarix-i Cahanqoşa-yi Nadiri" salnaməsinidən başqa onun türkcə-farsca böyük bir lüğət tərtib etdiyi və "İncil"-i fars dilinə tərcümə etməsi də məlumdur.

***Sultan III Əhməd (1703-1730)*** – Nadir şahın siyasi karyerasına başladığı və Azərbaycan torpaqlarını Osmanlı işğalından azad etmək üçün apardığı müharibənin ilk mərhələsində Osmanlı dövlətinin başçısı, eyniadlı sülalənin 23-cü sultanı. Geniş dünyagörüşünə malik və müasirləşmə tərəfdarı olan III Əhməd 1703-cü ildə saray çevrilişi nəticəsində hakimiyyətə gəlmişdir. Onun hakimiyyət illəri ümumilikdə rifah, dəbdəbə

və müasirləşmə dövrü kimi səciyyələnir. Osmanlı tarixində mədəniyyətin və incəsənətin çiçəklənməsi ilə yadda qalan "Lalə dövrü" adlı mərhələ də III Əhmədin hakimiyyəti dövrünə təsadüf edir. 1718-1730-cu illəri əhatə edən "Lalə dövrü"ndə Osmanlı dövlətində ilk Avropatipli mətbəə açılmış, kağız istehsalı fabriki qurulmuş, parça və çini emalatxanaları yaradılmışdı. Paytaxt İstanbulun hər yerində dəbdəbəli saraylar və malikanələr inşa edilmiş, ticarət əhəmiyyətli şəkildə canlanmışdı. Onun dövründə Rusiya ilə baş verən Prut müharibəsi Türkiyə üçün uğurla başa çatmışdır. Həmçinin Səfəvilərlə aparılan müharibədə də Osmanlı ordusu ciddi müvəffəqiyyət qazanaraq, Azərbaycan torpaqlarının əhəmiyyətli hissəsini işğal etdi. Sonralar bu torpaqlar Nadir şah tərəfindən Osmanlılardan geri alınmışdı. 25 sentyabr 1730-cu ildə Patrona Xəlil üsyanının baş qaldırması nəticəsində III Əhməd taxtdan salınmış və Sultan I Mahmudun lehinə hakimiyyətdən imtina etmişdir. Taxtdan salınmasından 6 il sonra dünyasını dəyişmişdir.

***Sultan I Mahmud (1730-1754)*** – Osmanlı dövlətinin tanınmış islahatçı hökmdarlarından biri, Nadir şahın müasiri. O, imperiyanın dərin hərbi-siyasi və iqtisadi tənəzzül mərhələsinə qədəm qoyduğu bir dövrdə saray çevrilişi nəticəsində devrilmiş əmisi III Əhmədin (1703-1730) əvəzinə taxta çıxan I Mahmud 1695-1703-cü illərdə hakimiyyətdə olmuş sultan II Mustafanın böyük oğludur. 1696-cı ildə Ədirnədə Salihə xatun adlı qadından dünyaya gələn gələcək sultan atasının devrilməsinədək, yəni 1703-cü ilə qədər Ədirnə şəhərində yaşamış, ilk təhsilini dövrünün ən savadlı şəxslərindən sayılan İbrahim Əfəndidən almışdır. II Mustafa təhsilə, maarifə böyük dəyər verən, xüsusilə klassik ədəbiyyatla, şeiriyyətlə yaxından maraqlanan mütərəqqi bir hökmdar idi. Tanınmış türkiyəli tarixçi İ.H.Uzunçarşılı qeyd edir ki, II Mustafa "Məftuni" və "İqbali" təxəllüsləri ilə gözəl şeirlər qələmə almış, özündən əvvəlki bəzi Osmanlı sultanlarının bir sıra məşhur qəzəllərinə nəzirələr

də yazmışdır. Lakin 1703-cü ildə yüksək rütbəli məmurların, həmçinin bir çox nüfuzlu ruhaninin əlinin olduğu saray çevrilişi nəticəsində II Mustafa güc yolu ilə taxtdan əl çəkməyə məcbur edilir, hakimiyyətə onun qardaşı III Əhməd gətirilir (1703-1730). Baş verən hadisələr səbəbindən dərin psixoloji sarsıntı keçirən II Mustafa cəmi 3 ay sonra, 41 yaşında dünyasını dəyişir. O dövrdə Osmanlı paytaxtında fəaliyyət göstərən ingilis səfirinin xanımı isə öz qeydlərində II Mustafanın məqsədli şəkildə, zəhərlənərək öldürüldüyü ehtimalını irəli sürmüşdür. Atasının vəfatından sonra əmisi III Əhməd tərəfindən İstanbula gətirilən Mahmud qardaşı Osmanla birlikdə uzun illər boyunca tamamilə siyasətdən kənarda qalmış, əsasən ticarətlə məşğul olmuşdur.

1730-cu ildə Osmanlı sarayında əyanların, zabitlərin və ruhanilərin iştirakı ilə sultan III Əhmədə qarşı qiyam baş verir və o, taxtdan əl çəkməyə məcbur edilir. Qiyamçılar onun əvəzinə, hakimiyyətə 27 il əvvəl devrilmiş sultan II Mustafanın oğlu I Mahmudu gətirirlər. Hakimiyyəti qardaşı oğluna təhvil verərkən III Əhmədin ona etdiyi nəsihət hər şeydən əvvəl həmin dövrdə Osmanlı sarayında hökm sürən siyasi çəkişmələrin, gərgin abu-havanın və etimadsızlıq mühitinin miqyasından xəbər verməkdədir: "Vəzirinə bütünlüklə arxayın olma, onun vəziyyətinə daima nəzarət et, heç kəsin 5-10 ildən artıq özünü vəzirlik vəzifəsində rahat hiss etməsinə imkan vermə, məmurlarına əsla etimad göstərmə, mərhəmət sahibi ol və səxavətli davran, xəzinələrdə olan sərvəti zay etmə, öz işini özün gör, insanlara inanma. Mənim vəziyyətim sənə nəsihət üçün kifayət edər".

Üsyançıların əli ilə hakimiyyətə gəlmiş I Mahmud kifayət qədər ağıllı və ehtiyatlı hərəkət etməyə başladı. Özünü ilk vaxtlar sakit, itaətkar və iddiasız sultan kimi göstərən Mahmud üsyançıların ona olan şübhələrini tamamilə yox etdi və onlarda arxayınlıq yaratdı. Eyni zamanda etibarlı adamları vasitəsilə onların fiziki məhvinə hesablanmış gizli plan hazırlayan sultan

çox keçmədən qiyamçıların başçısı olan Patrona Ağa adlı şəxsi yaxınları ilə birgə saraya dəvət edərək heç kəsin gözləmədiyi halda asilərin qətlinə göstəriş verdi. Öldürüldükdən sonra isə onların cəsədləri ibrət olsun deyə şəhər küçələrində nümayiş etdirildi. Qiyamçıların tərəfdarları tərəfindən sonrakı dövrdə qaldırılan xırda üsyanlar isə qətiyyətlə yatırılmış və imperiya daxilindəki vəziyyət tam şəkildə nəzarət altına alınmışdı.

Təbiəti etibarı ilə təmkinli və mütərəqqi bir şəxsiyyət olan I Mahmud III Əhməd dövründə xurafatçı ruhanilərin yarımçıq qoyduqları bir sıra mühüm təşəbbüsləri həyata keçirməyə müvəffəq oldu. Belə ki, onun birbaşa dəstəyi ilə İstanbulda Polşadan gətirilən mütəxəssislərin köməyi ilə Avropa tipli mətbəələrin fəaliyyəti təmin edildi, Osmanlı impeiriyasında kağız emalı genişləndi. Həmçinin I Mahmud zamanında Osmanlı imperiyasında ilk peşəkar yanğınsöndürmə xidməti yaradılmışdır. Onun dövrü həmçinin İstanbul üçün xeyli sayda yeni memarlıq abidəsinin inşası ilə əlamətdar oldu.

I Mahmudun taxta çıxdığı dövrdə Osmanlı imperiyasının beynəlxalq aləmdəki vəziyyəti də o qədər ürəkaçan deyildi. İstər Qərb ölkələri ilə olan gərginlik, istərsə də Qafqazda baş verən geosiyasi dəyişikliklər Türkiyənin maraqları üçün ciddi təhdidlər törətməkdə idi. Mahmud ilk növbədə Səfəvilərlə olan məsələləri hərb yolu ilə həll etməyə cəhd göstərdi və ilk vaxtlar müəyyən uğurlara da nail oldu. Belə ki, sonuncu Səfəvi hökmdarı II Təhmasibin (1722-1732) zəifliyi və qətiyyətsizliyi Osmanlı ordusuna Azərbaycanın böyük bir hissəsini işğal etməyə imkan verdi, lakin Nadir şahın hakimiyyətə gəlməsindən sonra vəziyyət kökündən dəyişdi. Osmanlı ordularını bir neçə döyüşdə ağır məğlubiyyətə uğradan Nadir I Mahmudun Azərbaycandan və ümumilikdə Qafqazdan əl çəkməsinə nail oldu. Müharibələrin gedişində tərəflər arasında sıx diplomatik təmaslar meydana gəlir və yaranan ünsiyyət iki böyük türk-müsəlman dövləti arasında Səfəvilər dövründən bəri cərəyan edən qanlı ədavətə müəyyən mənada son qoymağa imkan

yaratdı. I Mahmudla mütəmadi olaraq məktublaşan Nadir şah dövrünün bir çox aktual məsələlərini onunla müzakirə edir, döyüşlərdə əsir düşmüş şəxslərin mübadiləsini, həmçinin məzhəb ixtilaflarının aradan qaldırılması məsələlərini tez-tez qabardırdı. I Mahmud Avropa dövlətləri ilə münasibətlərdə də müəyyən sabitliyə nail olur. Onun dövründə 1740-cı ildə İsveçlə hərbi ittifaq haqqında saziş, Fransa və İspaniya ilə isə ticarət müqavilələri imzalanır. Rusiya ilə 4 ilə yaxın aparılan müharibə 1739-cu ildə imzalanan Belqrad müqaviləsilə sona çatır. Sözügedən sazişi I Mahmudun ən uğurlu diplomatik qələbələrindən biri kimi səciyyələndirmək. Belə ki, müqavilə Rusiyaya Qara dənizdə donanma saxlamağı qadağan edirdi, ticarət məqsədilə isə ancaq türk gəmilərindən istifadəyə icazə verilmişdi. Belqrad sülhü Rusiyanın Qara dənizdə söz sahibi olmaq istəklərini gözündə qoymuş oldu. Həmin il Avstriya imperiyası ilə uzun illərdən bəri davam edən müharibə də Osmanlı dövləti üçün uğurla başa çatdı. Avstriya iddia etdiyi Osmanlı torpaqlarından əl çəkərək Dunay çayının şimal sahillərinə doğru geri çəkildi. Beləliklə də I Mahmud Osmanlı üçün bütün mühüm istiqamətlərdəki problemləri uğurla həll etməyi bacardı. İmperiyada 1768-ci ilə qədər davam edən sülh və əmin-amanlıq dövrü bərqərar oldu.

Türk tarixçilərinin haqlı olaraq Osmanlının sonuncu parlaq sultanı adlandırdıqları I Mahmud 1754-cü ildə cümə namazından qayıdarkən yolda vəfat etdi. Onun cəsədi ilə birgə Osmanlı dövlətinin sülh və tərəqqi dövrü də həmişəlik dəfn olundu.

***Nəsrəddin Məhəmməd şah (1719-1748)*** – Nadir şahın müasiri, Hindistandakı Moğol imperiyasının ən zəif və iqtidarsız hökmdarlarından biri. Nadir şahın hakimiyyətə gəldiyi dövrdə, Hindistanda Orta Asiya türkləri, Əmir Teymurun varisləri tərəfindən, daha dəqiq desək, Babur tərəfindən 1526-cı ildə əsası qoyulmuş Böyük Moğol imperiyası dərin siyasi və iqtisadi böhran keçirirdi. Bitmək bilməyən daxili feodal müha-

ribələri, həmçinin Hind okeanı hövzəsində caynaqlarını göstərməyə başlayan Avropa müstəmləkəçiliyi vaxtilə Yaxın Şərqdə söz sahiblərindən biri olan Moğol dövlətinin nüfuzunu əhəmiyyətli dərəcədə zəiflətmişdi. Məhəmməd Nəsirəddin şah məhz belə bir şəraitdə hakimiyyətə gəlmişdi. Taxta çıxdığı zaman cəmi 17 yaşı olan Məhəmməd Nəsirəddin şah uzun illər boyunca həm hind, həm də müsəlman feodallarının mərkəzdənqaçma meyilləri ilə mübarizə aparmaq məcburiyyətində qaldı. Aparılan mübarizənin ilk vaxtlarında müəyyən uğurlar əldə edilsə də, sonradan Məhəmməd Nəsirəddin şah hakimiyyət üzərindəki nəzarəti tamamilə itirdi. İmperiyanın vəziri, hiyləgər və çevik siyasətçi kimi ad çıxarmış Nizamülmülk 1724-cü ildə Dekan bölgəsində faktiki olaraq müstəqil çarlığın əsasını qoymuşdu. Digər nüfuzlu feodallar – Əliverdi xan və Səadət xan müvafiq olaraq Benqalda və Audada müstəqil hakimə çevrildilər. Eyni zamanda əfqan və maratxa tayfaları da imperiyanın bir neçə iri bölgəsinə sahib oldular. Tarixçilər Moğol imperiyasının tənəzzülünü həm də Məhəmməd şahın əyləncələrə və sərxoşluğa hədsiz aludəçiliyi ilə də izah edirlər.

Nadir şahın 1739-cu ildə Hindistana başladığı yürüşün gedişatında qazandığı asan qələbələr də Əfşar ordusunun çevikliyi qədər həm də Moğolların zəifliyindən qaynaqlanırdı. Tədqiqatçılar qeyd edirlər ki, Məhəmməd şahın ordusu tamamilə mənəvi-psixoloji cəhətdən iflic vəziyyətində olan insan kütləsindən savayı bir şey deyildi, dövlət idarəçilik sistemi tamamilə çökmüşdü, əyanların yeganə məşğuliyyəti isə bir-birinə həsəd aparmaqdan ibarət idi. Məhəmməd şahın hadisələri öz təbii axarına buraxmaqdan savayı çarəsi qalmamışdı. Nadir şahın qoşunları Hindistana daxil olduğu zaman Moğol imperiyası sözün həqiqi mənasında qan gölündə boğulurdu.

Məşhur Karnal döyüşündə qazanılan zəfərdən sonra Nadir şah imperiyanın mərkəzi Dehli şəhərini ələ keçirərək, Moğolların zəngin xəzinəsinə sahib oldu. Hindistana hakim kəsilən Nadir şah qısa zaman ərzində misli görünməmiş bir sərvət

topladı. Tərəflər arasında müharibəyə rəvac vermiş hadisə isə Nadir şahın Hindistana göndərdiyi səfirlərə Məhəmməd Nəsirəddin şahın hörmətsizlik etməsi olmuşdur. Səfirlərin əvvəlcə ədəb qaydalarına zidd şəkildə uzun-uzadı gözlədilməsi, daha sonra isə onların ölkəni tərk etməsinə əngəl törədilməsi Nadir şahın qəzəbinə düçar olmuşdu. Lakin qazanılan parlaq qələbələrdən sonra heç kəsin gözləmədiyi təqdirdə Nadir şah devrilmiş Məhəmməd Nəsirəddin şahı nəinki bağışlamış, həm də onun hakimiyyətini bərpa edərək, başına yenidən tac qoymuşdur. Öz məktublarında Nadir şah bu hərəkətini Məhəmməd Nəsirəddin şahın türk olması ilə izah edir, türk adətinə böyük ehtiram bəslədiyini vurğulayır.

Lakin Nadirin Məhəmməd şahı yenidən taxta çıxarmasına baxmayaraq, sonuncu ölkədə qayda-qanun yaratmaq iqtidarından çox uzaq idi. Nadirin Hindistandan qayıtmasından sonra Hindistandakı feodal özbaşınalığı yenidən alovlandı. Nadirin vəfatından sonra isə Hindistan əfqan yürüşlərini də dəf etmək məcburiyyətində qaldı. Məhəmməd Nəsirəddin Nadirin vəfatından cəmi 1 il sonra, 1748-ci ildə Moğol imperiyasını siyasi böhrandan çıxarmağa müvəffəq olmadan dünyasını dəyişmişdir. Onun uzun sürən hakimiyyət dövrünü əksər tarixçilər haqlı olaraq Moğol imperiyasının sonunun əvvəli adlandırırlar. Onun varisləri Əhməd şahın (1748-1754), II Aləmgirin (1754-1759), II Aləm şahın (1759-1806) hakimiyyəti dövründə Moğol imperiyası tamamilə parçalanmış, onun ərazisində çox sayda xırda feodal dövlətləri meydana gəlmişdi. XIX əsrin əvvəllərindən etibarən isə Hindistan ərazisi tədricən İngiltərənin ən böyük və zəngin müstəmləkəsinə çevrildi.

***İmperatriça Anna İoannovna (1730-1740)*** – Rusiya imperatriçası, Nadir şahın müasiri və məktublaşdığı əcnəbi dövlət başçılarından biri, II Pyotrun ölümündən sonra nüfuzlu əyanların təşəbbüsü ilə hakimiyyətə gətirilən Anna İoannovna I Pyotrun qardaşı V İvanın qızıdır. Lakin zaman göstərdi ki, o,

əyanların böyük əksəriyyətinin düşündüyü kimi, "oyuncaq hökmdar" statusu ilə qətiyyən razılaşmaq niyyətində deyil və taxta çıxdıqdan qısa müddət sonra hərbçilərin dəstəyi ilə Anna İoannovna mütləq çariça elan olundu. Bu məsələdə ordunun dəstəyi o qədər böyük oldu ki, əks cəbhədə olanlar müqavimət göstərməyə belə macal tapmadılar. Təbiətcə kifayət qədər mübariz və prinsipial qadın kimi tanınan Anna İoannovnanın hakimiyyəti illərində onun qərarlarına ciddi şəkildə təsir göstərmək imkanına malik yeganə şəxs onun məşuqu Ernst Biron adlı şəxs olmuşdur. Təsadüfi deyil ki, bəzən tarixçilər bu xanımın 10 illik hakimiyyət müddətini "Bironovşina" – "Bironluq dövrü" də adlandırırlar. Həm xarici, həm də daxili siyasətdə kifayət qədər uğurlar əldə etmiş Anna İoannovnanın adı ilə Rusiya imperiyasında məhkəmə-hüquq sisteminin və hərbi donanmanın təkmilləşdirilməsi, müasirləşdirilməsi, həmçinin Krım xanlığı üzərində qazanılmış silsilə qələbələr, Kiçik Qazax Juzunun imperiyaya tabe edilməsi kimi mühüm tarixi hadisələrlə bağlıdır. Türkiyə ilə 1735-1739-cu illərdə aparılan və Belqrad müqaviləsilə yekunlaşan müharibədə Rusiya müəyyən ərazilər əldə etsə də, əsas istəyinə, Qara dənizə məhdudiyyətsiz çıxış arzusuna çata bilmədi.

Rusiya sarayına ünvanlanan məktubda Nadir şah Anna İoannovnaya Türkiyə ilə onun arasında cərəyan etmiş müharibəyə qarışmadığına görə minnətdarlıq edir, onunla xoş münasibətlər yaratmağa ümid bəslədiyini bildirir. Maraqlıdır ki, Nadir şahın bölgədə yeritdiyi siyasət ümumilikdə Rusiyanın maraqlarına zidd olsa da, tərəflər arasında ciddi münaqişədən yayınmaq mümkün olmuşdur. Anna İoannovna 1740-cı ildə, gözlənilmədən, naməlum şəkildə dünyasını dəyişmişdir. Tarixçilər onun böyük ehtimalla zəhərlənərək öldürüldüyü qənaətindədirlər.

***Karnal döyüşü (23-24 fevral 1739-cu il)*** – Nadir şahla Hindistan Moğol imperiyasının hakimi Məhəmməd şah ara-

sında baş verən müharibənin taleyini həll etmiş döyüş. Ümumi məlumata əsasən döyüş ərəfəsində Nadirin ixtiyarında 90.000 canlı qüvvə 150 ağır top var idi. Moğolların ordusu isə təxminən 200.000 nəfərdən və 500-ə qədər ağır və yüngül topdan ibarət idi. Üstəlik Moğol ordusunun ixtiyarında 2000-ə qədər döyüş fili mövcud idi. Düşmən tərəfin əhəmiyyətli say üstünlüyünə malik olmasına baxmayaraq, Nadir şahın hərbi dühası və ordusunun çevikliyi nəticəsində Moğol ordusu asanlıqla darmadağın edildi. Müxtəlif məlumatlara əsasən döyüşdə moğolların 10.000-15.000 qədər əsgəri öldürülmüşdü. Karnaldakı qələbə Nadirə Hindistanı və Moğolların misilsiz xəzinəsini ələ keçirməyə imkan verdi. Hindistan yürüşündəki qənimətlərin sayı o qədər çox idi ki, Nadir 3 il İranın və Azərbaycanın əhalisini vergilərdən azad etmək haqqında əmr vermişdi. Moğol hökmdarı Məhəmməd şah isə məğlubiyyətə uğramasına baxmayaraq, Nadir onu əfv edərək taxtdan saxladı.

***Nadir və türkçülük*** – Nadir şah haqqında Avropada və İranda qələmə alınan tədqiqatların böyük əksəriyyətində Nadirin türkçülük məsələsinə münasibətinə ya ötəri şəkildə toxunulur, yaxud ümumiyyətlə, toxunulmur. Halbuki, Nadir şah dövrünün sənədlərində onun öz milli mənsubiyyətinə nə dərəcədə bağlı olduğunu, soy-kökünə necə ehtiram göstərdiyini açıq şəkildə görmək mümkündür. Onun Karnal döyüşündən sonra türk soyundan Məhəmməd şaha göstərdiyi münasibət bunun ən gözəl nümunəsidir. Karnal döyüşündəki qələbə və Hindistanın fəthi münasibəti ilə onun Nadir şahın əmri ilə qələmə alınan məktublarda onun Məhəmməd şahla məhz türk amilinə görə belə mülayim rəftar etməsi xüsusilə vurğulanır. Bəli, Nadir şahın Turan, yaxud hər hansı başqa ad altında ümumtürk dövləti yaratmaq niyyətində olduğunu, yaxud ifrat türkçülük ideyalarını dövlətçilik məfkurəsi səviyyəsinə qaldırdığını demək doğru olmazdı. Nadirin məqsədi Şərqdə hakimi qüvvəyə çevrilmək, İrandan Hindistana qədər uzanan böyük

bir coğrafiyanı nəzarətdə saxlamaq, qüdrətli imperiya yaratmaq idi. Lakin bütün bunlar Nadirin mənsub olduğu xalqa, onun mənşəyinə hörmətlə yanaşmadığını, yaxud ona biganə qaldığını deməyə qətiyyən əsas vermir. Belə fikirdə olanlar Nadirin ordusunda və sarayında aparıcı vəzifələri tutan şəxslərin milli mənsubiyyətinə daha diqqətlə nəzər salsalar, öz xətalarını anlaya bilərlər.

***Nadir şah və məzhəbçilik problemi*** – Nadir şahın adı ilə bağlı olan mütərəqqi təşəbbüslər sırasında onun İslam dünyasını əsrlərdən bəri daxildən silkələyən məzhəb ixtilafları ilə apardığı qətiyyətli mübarizə xüsusi yer tutur. Nadir şah iqtidar sahibi olduqdan sonra Osmanlı dövlətinə göndərdiyi məktubda şiələr və sünnilər arasında əsrlərdən bəri hökm sürən və minlərlə günahsız insanın qətlinə səbəb olan mənasız dini ixtilafları aradan qaldırmağı təklif etdi. Doğrudur, Osmanlı sarayı, həmçinin Orta Asiya hakimləri təklifin icrasında lazım olan fəallığı və dəstəyi Nadirdən əsirgədilər, ancaq bu təşəbbüs ümumilikdə uzun müddət məzhəb ayrılığı zəminində cərəyan etmiş və Səfəvi-Osmanlı müharibələri nəticəsində dərin kök salmış nifrəti səngitmək yolunda mühüm bir addım oldu. Akademik Ramiz Mehdiyev Nadirin dini siyasəti haqqında onun "Diplomatik yazışmalarına" yazdığı ön sözdə bu məsələni xüsusilə vurğulamışdır: "Ölkənin hərbi tərəqqisi ilə yanaşı, Nadir şah xalqın ideoloji-mənəvi inkişafını da xüsusi diqqətdə saxlayırdı. Belə ki, uzun müddət Azərbaycanda kök salmış fanatik şiəliyin zəiflədilməsi, həmçinin məzhəblərarası münasibətlərin sabitləşdirilməsi, İslam ümmətinin bütövlüyünün təmin edilməsi Nadiri düşündürən həssas məqamlar idi. Şiə-sünni ziddiyyəti zəminində əsrlərlə davam etmiş Azərbaycan-Osmanlı münaqişələri, həmçinin imperiya daxilində yaşayan sünni Dağıstan xalqlarının mütəmadi qiyamları ölkəni zəiflədir, daim qan tökülməsinə rəvac verirdi. Bu məqsədlə Osmanlı dövləti ilə diplomatik danışıqlara başlayan Nadir Türkiyəyə

məzhəb yaxınlaşmasının müasir diplomatik dillə desək “yol xəritəsi”ni təqdim etdi. Həmin plana əsasən İranda şiəliyin bütün radikal formaları (rafizlik) qadağan edilir, dörd haqq xəlifənin hər birinə ehtiramla yanaşılması vacib şərtə çevrilir, onların ünvanına təhqiramiz ifadələrin işlədilməsinə icazə verilmirdi. Həmçinin iranlı zəvvarlara Kəbəni məhdudiyyətsiz şəkildə ziyarət etmək imkanı yaradılırdı. Barışıq əlaməti kimi həm Əfşarlar dövləti, həm də Osmanlı imperiyası hərbi əsirləri qarşılıqlı şəkildə geri qaytarmağı öhdəsinə götürürdü. Eyni zamanda, hər iki ölkənin paytaxtında daimi diplomatik nümayəndəliyin təsis edilməsinə razılıq verilmişdi.

Diplomatların vəzifəsi yaranacaq bütün mümkün mübahisələri yerindəcə həll etməkdən ibarət idi. Ümumilikdə əldə edilmiş razılığa qismən əməl edilsə də, yekun və qəti sülh heç zaman mümkün olmadı. Ancaq münaqişənin, nifrətin azaldılması istiqamətində atılan qarşılıqlı addımlar çox faydalar gətirdi. Məzhəblərarası ixtilafların qarşısının qismən alınması, həmçinin radikal şiəlik tərəfdarlarının cilovlanması nəticəsində fanatik ruhanilərin siyasi proseslərə müdaxilə imkanları əhəmiyyətli dərəcədə azaldıldı. Nadir şah dinin, xüsusilə həqiqi imandan kənar olan siyasi məqsədlərə xidmət edən cərəyan və fikirlərin ölkənin, cəmiyyətin sabitliyi üçün nə qədər təhlükəli olduğunu dəqiq qiymətləndirməyi bacarmışdı. Xüsusilə xarici qüvvələrin sözügedən amildən dövlətçilik əleyhinə istifadə etməsi ehtimalı onu haqlı olaraq qabaqlayıcı addımlar atmağa məcbur etmişdi. Nadir əhali və ordu arasında gedən prosesləri diqqətlə müşahidə edən, vaxtında və düzgün nəticə çıxarmağı bacaran şəxsiyyət idi. Bu mənada o, hərbi yürüşlər zamanı dəfələrlə rastlaşdığı fanatizm, xurafat və cəhalət hallarından dərin narahatlıq keçirirdi”. ***[Akademik Ramiz Mehdiyev. Nadir Şah Əfşar: İmperiya tariximizin sonuncu səhifəsi diplomatik sənədlər aynasında. Nadir şah Əfşar: Diplomatik yazışmalar. Elmi redaktor və ön sözün müəllifi: Akademik Ramiz Mehdiyev. Bakı, 2015, səh. 33-34].***

Doğrudur, Nadir şah hakimiyyət uğrunda mübarizə apararkən vaxtilə Səfəvilərin əl atdığı üsuldan, yəni şiəlik amilindən uğurla bəhrələnmişdir. Belə ki, II Təhmasibi taxtdan saldıqdan sonra əhalini Osmanlı dövləti ilə mübarizəyə səfərbər etmək üçün Nadir zahirən özünü şiə təəssübkeşi kimi göstərsə də, hakimiyyəti ələ aldıqdan sonra məzhəbçiliklə amansız mübarizəyə davam etmişdir. Nadirin bu sahədəki fəaliyyətinin və ideyalarının tədqiqatçılar tərəfindən ətraflı şəkildə tədqiqi böyük fatehin ictimai-siyasi irsinin öyrənilməsi baxımından böyük əhəmiyyət daşıyır.



1. *Gözəl olmaq kifayət deyilmiş.*

Şah Sultan Hüseyn xoşniyyətli, lakin zəif iradəli və rahatlığına düşkün adam idi. O, öz qayğısız həyatının cəzasını itkilərlə, ən çox sevdiyi şeylərin məhvinə şahid olmaqla ödəməli olmuşdu. ***(Kornels de Braynsın səyahət qeydlərindən. Kembric Universitetinin kitabxanası)***



2. *İran ordusunda istifadə edilən iriçaplı atıcı silah*

XVIII əsrə aid olan bu əla növ İran silahının kalibri 24 mm-ə, ağırlığı isə ümumilikdə 27,5 kq-a bərabər idi. Təsvir olunan silah növü Nadirin xüsusi təcrübə keçmiş tüfəngçiləri tərəfindən istifadə olunurdu. Bu silah özünün 5 kq ağırlığında olan və lüləsinin diametri 18 mm-ə bərabər Avropa analoqundan daha ağır idi.

***(Bern şəhəri, Tarix Muzeyi)***



3. *Zanburak*

Bu silah növü Hind-Moğol imperiyasından gətirilib Nadirin silahlı dəvə alayı tərəfindən geniş istifadə olunurdu. Zanburakların mərmisinin ağırlığı, adətən, ½ və 2 lb-ə bərabər olurdu. Daşınması çətin olan bu silahlar möhkəm İran torpağı üçün əlverişli hesab edilirdi.

***(Foto "Tower Armouries" muzeyindəndir.)***



4. *Kölə ticarəti ilə məşğul olan türkmənlər öz kölələri ilə birgə*

Onlar başqa bir türkmən tayfasından əsir qismində ələ keçirilmiş qullardır. XIX əsrə aid bu qravürə baxanda yayların olması müşahidə edilir ki, bu daha çox əsrin əvvəlləri üçün səciyyəvi olan silahlanma qaydasıdır. Təsvirdəki atın sürülmə qaydasına baxaq (bu tərz Orta Asiya və Qafqaz ölkələri üçün xarakterikdir). Əllər baldıra yaxın tutulmuş, yəhəri möhkəm yerləşdirilmiş, özündənrazı bir şəkildə oturmuş atlı əyləşmişdir. ***(Kembric Universitetinin kitabxanası)***



5. *Şərqdən bir nəzər*

Təsvirdə Nadir şah saray əyanlarının müşayiəti ilə Moğol imperatoru Məhəmməd şahla səmimi söhbət edir. Bu yəqin ki, Nadirin orijinala yaxın təsvirlərindən biridir. Belə güman edilir ki, onun arxasında dayanan Səadət xandır. Nadirin başındakı tacın böyüklüyü (şəkildəki oturuş qaydası Moğol imperiyası üçün ənənəvidir), eləcə də onun oturacağının Məhəmməd şahdan daha hündürdə təsvir olunması Nadirin siyasi üstünlüyünü nümayiş etdirməyə hesablanmışdır.



6. *"Qılıncın oğlu"*

Belə güman edilir ki, bu Nadir şahın yürüşləri zamanı istifadə etdiyi qılıncdır. Hazırda Tehranda saxlanılır. Fətəli şahın hakimiyyəti zamanı 50 il və daha artıq müddətdə dövlətin simvollarından biri rolunu oynamışdı. Qılıncın qını brilyant qaşlarla bəzədilmişdi. Nadir qılıncın üzərində özünün təsvirinin həkk olunmasına da icazə vermişdi.

***(Foto Ontorio Kral Muzeyinə məxsusdur.)***



7. *İsfahan*

XIX əsrə aid qravürdə İsfahanın cənub qapısının yaxınlığında yerləşən böyük meydan təsvir olunub. Nadirin vaxtında olduğu kimi, təsvir olunduğu dövrdə də öz görünüşünü qoruyub saxlamışdır (XIX əsrə kimi). Lakin bu gün onun görkəmində müəyyən dəyişikliklər müşahidə edilir. Meydanın sağ tərəfində Əli Qapı sarayı yerləşir. Vaxtilə narazı kütlə məhz burada toplaşmış və sarayı daşqalaq edərək Şah Sultan Hüseynin hakimiyyətindən getməsini tələb etmişdi.

***(Müəllifin şəxsi kolleksiyasından)***



8. *Qərbdən baxış*

Bu dramatik qravürdə kəllələrdən ibarət qəsr, ayaqlar altında tapdalanmış ədalət, təşviş içində, yarıçılpaq yerdə çapalayan qadın təsvir olunub. Bu Conas Hanveyin Nadir şahla bağlı təəssüratları əsasında çəkilib. 1753-cü ildə nəşr olunub. Hanveyin hadisələrlə bağlı verdiyi məlumatlar sonradan ingilis dilində qələmə alınan tədqiqatların əsas qaynağına çevrilmişdi. ***(London Kitabxanası)***




9. *Nadirin düşərgəsi*

Nadirin hakimiyyətinin sonlarına aid olan düşərgənin planı. Onun quruluşu Bazinin təsvir etdikləri ilə üst-üstə düşür. Təsvirə əsasən mərkəzdə böyük divanxana yerləşir. Yuxarı hissə hərəmxana mühafizəçiləri, aşağıdakı boş sahə isə düşərgə bazarı üçün nəzərdə tutulurdu.

***(Kembric Universitetinin kitabxanası)***




10. *Karnal döyüşünün sxemi. 24 fevral 1739-cu il*




11. *Qolnabad döyüşünün sxemi. 8 mart 1722-ci il*

# SON SÖZ

Azərbaycan tarixinin mühüm səhifələrindən birinə işıq salan daha bir maraqlı əsərin sonuna çatdıq. Lakin bu, əsla müstəqilliyimizi əldə etdiyimiz andan etibarən tariximizi ətraflı və obyektiv şəkildə öyrənmək üçün qədəm qoyduğumuz yolu başa vurmağımız mənasına gəlməməlidir. Qarşıda öz peşəkar tədqiqatçılarını gözləyən xeyli mövzu, aşkara çıxarılacaq çox sayda mühüm və hələ də naməlum qalan qaynaqlar var. Son dövrlərdə dövlətçilik tariximizdə silinməz iz qoymuş görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətinə dair yeni mənbələr əsasında hazırlanmış nəşrlərin işıq üzü görməsinə arxayınlaşıb, bu istiqamətdəki axtarışlara əsla fasilə vermək olmaz. Əksinə, milli kimliyimizi dəqiq, müfəssəl bir şəkildə dərk etməyə imkan verəcək yeni, mühüm məsələlər fəal şəkildə qaldırılmalı, onların açıq, geniş elmi müzakirəsi təşkil edilməlidir. Azərbaycan xalqının fiziki və siyasi antropologiyası, Azərbaycan dilinin linqvistik baxımdan deyil, məhz siyasi və dövlətçilik tarixi baxımdan keçdiyi inkişaf yolu, onun milli kimliyimizin başlıca müəyyənləşdirici elementlərindən birinə çevrilməsinin tarixçəsi kimi vacib məsələlər buna misal ola bilər.

Milli tariximizin ölkə hüdudlarından kənarda təbliği, dövlətçiliyimizlə və mədəniyyətimizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə səlist şəkildə çatdırılması isə həllini gözləyən digər bir mühüm vəzifədir. Onun uğurlu icrası üçün xarici dillərdə mükəmməl şəkildə qələmə alınmış, elmi əyarı yüksək olan tədqiqatların davamlı nəşri tələb olunur. Doğrudur, son illərdə Azərbaycan tarixi ilə bağlı xaricdə müəyyən nəşrlərin işıq üzü görməsinə şahid oluruq. Təbii ki, bu, tariximizə dair məlumatların daha geniş oxucu kütləsinə çatdırılması nöqteyi-nəzərindən sevindiricidir. Lakin onu da etiraf etmək məcburiyyətindəyik ki, həmin nəşrlərin böyük əksəriyyəti əcnəbi tədqiqatçıların rus və digər dillərdə asanlıqla əldə edə biləcəkləri məlumatların aparıcı Qərb dillərində təqdimatından savayı bir şey

deyildir. Xaricdə məqalə və kitablar nəşr etdirən həmyerlilərimiz anlamalıdırlar ki, hər hansı əsərin elmi dəyəri müəllifin başqaları tərəfindən çoxdan bəri aşkarlanmış faktları sadalaması, yaxud tərcümə etməsi ilə deyil, Azərbaycan tarixinə dair şüurlarda mövcud olan təhrif və yanlışlıqları aradan qaldıracaq fundamental, analitik yanaşmaların ortaya qoyulması ilə ölçülür. İşıq üzü görən hər növbəti nəşr tariximizə dair kök salmış problemlərin aydınlaşdırılması üçün qaneedici elmi arqumentlərə istinad etməli, dünya elminin standartları ilə ayaqlaşmalıdır. Əks halda bu, sadəcə tərcümə fəaliyyətidir və Azərbaycan, yaxud rus müəlliflərinin dəfələrlə nəşr edilmiş əsərlərini xarici dillərə tərcümə etdirib cəmiyyətə misilsiz elmi uğur kimi sırımaq, bunun ətrafında reklam və piar qurmaq cəhdləri elm mərkəzlərinə əsla hörmət gətirmir. Təbii ki, tərcümə fəaliyyətinin özü də tariximizin və mədəniyyətimizin təbliği üçün böyük əhəmiyyətə malikdir, ancaq hər şeyi öz adı ilə çağırmaq bundan daha vacibdir. Elm saxtakarlığı, gözdən pərdə asmağı qətiyyən sevmir və belə cəhdlər edənlər başa düşməlidirlər ki, onlar heç kəsi deyil, məhz özlərini aldadırlar.

**Akademik Ramiz Mehdiyev**

# MÜNDƏRİCAT

**Azərbaycan nəşrinin elmi redaktorundan**
(*Akdemik Ramiz Mehdiyev*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .3

**Nadir şah**
Minnətdarlıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 73
Müəllifin ön sözü . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 77
Müqəddimə: Zirvə nöqtəsində . . . . . . . . . . . . . . . . . . . . 83

**I Fəsil.** Səfəvi sülaləsinin qürubu . . . . . . . . . . . . . . . . . . 102
**II Fəsil.** Təhmasibqulu xan . . . . . . . . . . . . . . . . . . . . . . . . 152
**III Fəsil.** Əfqanlarla müharibə . . . . . . . . . . . . . . . . . . . . . . 175
**IV Fəsil.** Osmanlılarla müharibə. . . . . . . . . . . . . . . . . . . . . . 202
**V Fəsil.** Dövlət çevrilişi . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 218
**VI Fəsil.** Nadir şah . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 233
**VII Fəsil.** Dehlinin qapılarına doğru . . . . . . . . . . . . . . . . . . 244
**VIII Fəsil.** İranın xarabalıqları . . . . . . . . . . . . . . . . . . . . . . . 266
**IX Fəsil.** Kəllələrdən qüllələr. . . . . . . . . . . . . . . . . . . . . . . . 314
**X Fəsil.** Qapalı dairə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 356

**Qeydlər və tarixi məlumatlar**
(*Prof. C.Hüseynov və s.e.f.d. E.Əmirov*). . . . . . . . . . . . . . . . . 373

**Əlavə.** Təsvirlər və sxemlər . . . . . . . . . . . . . . . . . . . . . . . . 389

**Son söz** (*Akademik Ramiz Mehdiyev*) . . . . . . . . . . . . . . . . . . 397

ŞƏRQ-QƏRB

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

Buraxılışa məsul: Sevil İsmayılova
Dizayner: Nurlan Nəhmətov
Səhifələyici: Ələkbər Kərimov
Texniki redaktor: Fəridə Səmədova
Baş redaktor: Ülkər Məmmədova
Texniki direktor: Xəqani Fərzalıyev
Nəşriyyat direktoru: Eldar Əliyev

Çapa imzalanmışdır: 14.02.2018. Format: 60×90 $^{1}/_{16}$. Ofset çapı.
Fiziki çap vərəqi 25. Sifariş 18008. Tiraj 500

ŞƏRQ-QƏRB

Təqdim olunmuş hazır fayldan “Şərq-Qərb” ASC-nin
mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84